# NUR TƏFSİRİ

## SƏKKİZİNCİ CİLD

**MÜƏLLİF: MÖHSÜN QƏRAƏTİ**
**TƏRCÜMƏ EDƏN: HACI ARZU**

بسم الله الرحمن الرحیم

نام کتاب:.....................................................تفسیر نور (جلد-8)
مؤلف:..........................................................محسن قرائتی
مترجم:..............................................................حاج آرزو
ناشر:.......................................................................فائز.
تاریخ چاپ:..............................................................1386
نوبت چاپ:.................................................................اول
تیراژ:......................................................................2000

**Kitabın adı:.................Nur təfsiri (səkkizinci cild)**
**Müəllif:....................................................Möhsün Qəraəti**
**Tərcümə edən:.............................................................H. Arzu**
**Nəşr edən:....................................................................Faiz**
**Çap tarixi:....................................................................2007**
**Çap növbəsi:..........................................................Birinci**
**Tiraj:...............................................................................2000**

Әзиз вә диггәтли охучу! Гур’ан тәфсири тәрҹүмәсинин нә дәрәҹәдә әһәмиjjәтли вә инҹә иш олдуғуну анласаг да, нөгсанлардан гача билмәдик. “Һәjj” вә “гәjjум” кими jүзләрҹә мирвари тә’бирини бәсит шәкилдә тәрҹүмә етмәк зорунда галдыг. Ҝәләҹәкдә бу илаһи ишдә jардымчы олачағынызы дүшүнүрүк. Бизә үнванлаjачағыныз геjдләр нөвбәти нәшрләрдә нәзәрә алыначаг.

*Дуа истәjи илә тәрҹүмәчи*

*RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ*

**Həmd olsun aləmlərin Rəbbinə! Allahın salamı olsun ağamız Məhəmməd (s) və onun məsum Əhli-beytinə!**

## *ÖN SÖZ*

Qum elmi hövzəsində ümumi (səth) mərhələni bitirdikdən sonra bir qədər də "Dərsi-xaric" oxuyub, Quranla daha dərindən tanış olmaq fikrinə düşdüm. Bəzi dostlarla birlikdə bu istiqamətdə fəaliyyətə başladıq. Hərəmiz bir təfsiri mütaliə edib, xülasə şəkildə qeydlər götürürdük. Beləcə, Quranın bir neçə cüzünü sonadək mütaliə etdik.

Həmin vaxt eşitdim ki, Ayətullah Məkarim Şirazi bir qrup alimlə təfsir yazmaq qərarına gəlib. O mənim təfsir yazılarımı görüb bəyəndi və mən də onlara qoşuldum.

İyirmi yeddi cildlik "Təfsiri-nümunə"nin başa çatması on beş il çəkdi. Həmin təfsir indiyədək dəfələrlə çap olunmuş və başqa dillərə tərcümə edilmişdir. "Təfsiri-nümunə"nin təqribən yarısı yazılıb tamamlandığı vaxt imam Xomeyninin (r) rəhbərliyi ilə İslam inqilabı qələbə çaldı. Elə həmin ilk günlərdə mərhum Əllamə Şəhid Mütəhhərinin göstərişi ilə televiziyaya getdim. Artıq iyirmi yeddi ilə yaxındır ki, hər cümə axşamı İran İslam Respublikasının televiziyasında "Quran dərsləri" adı altında proqramda çalışıram.

"Təfsiri-nümunə" başa çatanadək həmin heyətlə həmkarlıq etdim. Amma bu arada belə bir fikrə düşdüm ki, radioda hamının anlaya biləcəyi bir səviyyədə təfsir dərslərinə başlayım. Bu məqsədlə "Təfsiri-nümunə"dən əlavə, başqa on təfsirdən də qeydlər götürdüm. Artıq səkkiz ildir ki, həftədə bir gün, eləcə də, ramazan ayında hər gün "Ayineye vəhy" adı altında radio verilişləri yayımlanır.

Dəfələrlə təklif edildi ki, radiodan danışdıqlarımı kitab şəklində nəşr etdirim. Öz yazılarımdan bir neçə cüzünü Ayətullah hacı Seyyid Mehdi Ruhani, Ayətullah Misbah Yəzdi üçün oxudum və öz təfsir üslubuma daha çox əmin oldum. Qeydlərimi tərtib üçün höccətül-islam Məhəmmədi və höccətül-islam Mühəddisiyə təqdim etdim. Məcmuə hazır olduqdan sonra onu Qumun "Dər-rahe həqq" müəssisəsinə verdim ki, Ayətullah Ustadinin nəzarəti altında çap olunub, maraqlananların ixtiyarına verilsin.

## *HƏMKARLAR*

Qurani-Kərimin ilk dörd cüzünün təfsirinin hazırlanmasında höccətül-islam Dehşiri və höccətül-islam Cəfəri həftənin yarı hissəsini Tehrana gəlib, mənə kömək etdilər.

Beşinci cüzdən on altıncı cüzədək isə höccətül-islam Seyyid Cavad Behişti və höccətül-islam Şeyx Mahmud Mütəvəssil bu müqəddəs işdə həmkarlıq etmişlər.

## *İMTİYAZLAR*

1. Bu təfsirdə yalnız xüsusi zümrənin anlaya biləcəyi ədəbi, fiqhi, kəlami, fəlsəfi terminlərdən pəhriz edilmişdir.

2. Rəy əsasında təfsirdən pəhriz olunmuş, yalnız Quran ayələri və Peyğəmbər (s) Əhli-beytindən (ə) olan rəvayətlərə istinad edilmişdir.

3. Bir çox bildiriş və dərslərdə mötəbər şiə və sünni təfsirlərindən istifadə edilmiş, bəzi nöqtələr isə müəllif və əziz həmkarlar tərəfindən açıqlanmışdır.

Allahdan istəyirik ki, hər birimizə ixlas, düşüncə, əməl, təbliğ və Quran maarifinin yayılması və bu müqəddəs işi başa çatdırmaq tövfiqi mərhəmət buyurub, Quranı bizim üçün dünya, bərzəx və Qiyamət nuru qərar versin.

Xalqdan istəyim budur ki, Quran təlimində yalnız tilavət, təcvid, tərtil və təvaşihlə kifayətlənməyib, Quranda düşünməyi və ona əməl etməyi əsas götürsünlər.

Alim və fazillərdən təmənnam budur ki, təbliğ və tədrisdə Quran ali bir məqsəd kimi qarşıya qoyulsun və bütün məntəqələrdəki elmi mərkəzlərdə, mədəniyyət ocaqlarında, məscidlərdə və mədrəsələrdə Quran təfsiri dərsləri təşkil edilsin.

İslam, Quran və Peyğəmbər (s) Əhli-beyti (ə) ilə tanışlığımda rolu olanlara təkbətək təşəkkür edir, onlar üçün, xüsusi ilə də ustadlarım, atam-anam üçün bağışlayan Allahdan mərhəmət diləyirəm.

Eləcə də, bu təfsirin yazılmasında, tərtibində, islahında, çapında və yayılmasında mənə yardım edənlərə və işin təkmilləşməsi üçün qurucu və faydalı tənqid və təklif verənlərə təşəkkür edirəm.

***MÖHSÜN QƏRAƏTİ***

## *AYƏTULLAH HACI SEYYİD MEHDİ RUHANİDƏN BİR NEÇƏ XOŞ SÖZ*

Bəşər həyatında, tarixi dönəmlərdə, xüsusi ilə də müsəlman tarixində böyük təsirə malik olan Qurani-Kərimə onun məqamına layiq səviyyədə diqqət yetirilmədiyindən bu ilahi kitab xalq arasında qərib qalmışdır. Hansı ki, Quranda “Biz Quranı öyüd üçün asan etdik” buyurulur. Bununla belə, bir çoxları Quran dəyərlərini yaddan çıxarıb ona diqqətsizlik göstərmişlər. Necə ki, keçmiş ümmətlər haqqında Quranda buyurulur: “Onlara xatırladılanların bir hissəsini unutdular...”[1]

Qurani-məcid əvvəldən axıradək bəşər üçün ilahi göstərişlərdən ibarətdir. Bütün bu bəyanatlarla tanış olmaq zəruridir. Xüsusi ilə də bəşəriyyətin dünyəvi və əbədi səadət yolunu göstərən ayələr və onlardakı nöqtələr haqqında düşünmək lazımdır. Qurani-məciddə həzrət Peyğəmbərə (s) belə müraciət olunur: “Sənə nazil etdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri öyüd götürsünlər.”[2]

Bu müqəddimənin istəyi Qurani-məcidin bütövlükdə elə bir təfsirinin hazırlanmasıdır ki, bu təfsirdə əsas diqqət ayələrin mənasının dərk olunmasına yönəldilsin. Məlum olsun ki, hər bir ayənin məqsədi nədir, nəyə etiraz edir? Müasir dillə desək, bu təfsir “bəyani” bir təfsir olsun.

Adətən, təfsir kitabları daha çox ədəbiyyat, onun şöbələri, kəlam elmi, məzhəbi mübahisələr istiqamətində peşəkar araşdırmalarla məşğul olur. Hər bir mütəxəssis öz ixtisasına aid terminlərlə araşdırma aparır. Bundan əlavə, mövzu haqqında söhbətlər olduqca uzun çəkir və bu hal insanların Qurani-məcidlə bütövlükdə tanış olmasına mane olur. Bəziləri isə Quran ayələrini öz şəxsi, çox vaxt isə yanlış əqidələrinin sübutu üçün əsas gətirirlər.

Son zamanlar elm adamlarının ehtiyacına cavab verəcək bir təfsirin hazırlanması zəruri görünürdü. Həmin təfsirin hazırlanmasında aşağıdakı məsələlərə diqqət yetirilməli idi:

1. Təfsir həm sadə və yetərli, həm də güclü olmalı idi;
2. Quranın dərk olunmasını çətinləşdirən xüsusi terminlərdən pəhriz edilməli idi;
3. Həyat problemlərini həll edən, müsəlman cəmiyyətinə təqdim olunası, hətta tərcümə edilib bütün dünyaya yayılası (bəşəriyyəti, təqva sahiblərini hidayət edəsi) mövzular araşdırılmalı idi. Çünki Quran mətləbləri konkret bir zaman, fərd və ya cəmiyyətə aid deyil;
4. Ayələrdən alınan nəticələrdə Quran ayələrinə istinad olunmalı idi. Rəyə və şəxsi istəklərə, zəif rəvayətlərə əsaslanmaq olmazdı;

---

1 “Maidə” 13.
2 “Sad” 29.

5. Həzrət Peyğəmbərin (s) göstərişi əsasında “Səqəleyn”dən (iki əmanətdən) biri olan Əhli-beytdən nəql olunmuş mötəbər rəvayətlərə diqqət yetirilməli idi.

Bu prinsiplər Möhsün Qəraətinin təfsirində nəzərə alınmışdı. Əgər həmin prinsiplərdən kənarlaşma müşahidə edilərsə, bu, məqsədli şəkildə edilməmişdir və inşallah, gələcəkdə islah olar.

Ümid edirəm ki, dəyərli alim höccətül-islam Möhsün Qəraəti elmi keyfiyyətlərindən əlavə, təfsir sahəsində zövq sahibidir və ilahi kəlmələrin lətafətini yaxşı dərk edir. Onun öz təfsirini bu üsul və imtiyazlarla sona çatdıracağına ümidvaram.

Həmin təfsirin bir cüzdən çoxunu müəlliflə birlikdə müzakirə etdik və bəzi qeydlərimi ona bildirdim.

Əziz müəllif hər bir ayəni sadə və yetərli bir şəkildə tərcümə etdikdən sonra onun mahiyyətini şərh etmişdir. Həmin şərhlərdə müəllifin “bildirişlər” adlandırdığı nöqtələrə toxunulmuşdur. Əslində bu nöqtələr təfsirin ruhunu açıqlayır. Düzünə qalsa, bir çox məqamlarda həmin nöqtələr müəllifin xüsusi ixtirasıdır və xüsusi təravətə malikdir.

Ümid edirəm ki, Qurani-Kərim bir gün hövzə və universitetlərdə əsas mehvər olacaq. Necə ki, imam Zeynəlabidin (ə) “Səhifeye-səccadiyyə” kitabında Quranın xətm duasında buyurur: “Quran elə bir ədalət tərəzisidir ki, haqqın bəyanında dili qısa deyil.”

Ümid edirəm ki, əziz müəllifin təfsir şivəsi və ixtiraçılıq yolu Quranın ali mətləblərinin gerçəkləşməsində irəliyə doğru bir addım olacaq. İnşallah, bu addım son addım olmaz və nəzər sahibləri növbəti addımlarda bu üsulu təkmilləşdirərlər.

***09 RƏBİUS-SANİ, 1414***

***MEHDİ HÜSEYNİ RUHANİ***

## *MÜƏLLİFDƏN*

Şəmsi 1378-ci ildə ilk cildin yenidən nəşri üçün növbəti dəfə "Nur təfsirini" diqqətlə mütaliə etdim. İxtisarlar və əlavələr oldu. Allahın lütfü ilə ağlıma gələn yeni mətləblər və "Təfsiri-rahnüma", "Nüxbətut-təfsir" kitablarındakı bəzi nöqtələr mətnlərə əlavə edildi.

Bir anlıq fikrə getdim. Düşündüm ki, cəmi iki-üç il keçmiş öz əlimlə dəyişdiyim yazı əgər Qiyamətə çatsa, övliyaların, mələklərin, ən əsası Allahın nəzərindən keçsə, nə qədər dəyişəcək?! Bütün bu dəyişikliklər o zaman faydalı olur ki, işin canında qeyri-ilahi niyyət olmasın.

Hər halda xeyli zəhmət çəkdim. Amma Qiyamətdə bu təfsirin bir səhifəsinin də mənim qurtuluşuma səbəb olub-olmayacağını bilmirəm!

Sözsüz ki, Quran nurdur. Təfsirdə nə nöqsan varsa, bizim nöqsanımızdır. Gülzarda torpaq gülə döndüyü kimi, ümid edirəm ki, Quranın nurani ayələri sayəsində bizim də yazılarımız nura çevrilsin. Amin!

***MÖHSÜN QƏRAƏTİ***

### *BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM*

# "HƏCC" SURƏSİ

### *(22-Cİ SURƏ, 78 AYƏ)*

### *On yeddinci cüz*

### *"HƏCC" SURƏSİNİN SİMASI*

Bu surə 78 ayədən ibarətdir və Mədinədə nazil olmuşdur. "Həcc" sözü lüğətdə bir işin yerinə yetirilmə məqsədi mənasını bildirir. İslam şəriətində isə hər il Məkkədə keçirilən xüsusi bir mərasim "Həcc" adlandırılmışdır. Surənin on üçədək ayəsində (ayə 25- 37) Kəbə, onun tarixi, Həccin ictimai-siyasi əhəmiyyəti haqqında danışılır. Bu səbəbdən surə "Həcc" adlandırılmışdır.

Bu surədə ilahi peyğəmbərlərin bir çox qövmləri haqqa dəvət etmələri və həmin qövmlərin taleyi mövzuları bəyan olunur. Rəvayətlərə əsasən, əziz İslam Peyğəmbəri (s) buyurmuşdur: "Allah "Həcc" surəsini oxuyana keçmişdə və gələcəkdə həcc və ümrə əməllərini yerinə yetirənlərin sayı qədər həcc və ümrə savabı verər."[1]

---

[1] "Təfsiri-məcməul-bəyan".

**Rəhman və Rəhim Allahın adı ilə**

﴿بسم الله الرحمن الرحيم﴾

***AYƏ1:***

﴿يَا أَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمْ إِنَّ زَلْزَلَةَ السَّاعَةِ شَيْءٌ عَظِيمٌ﴾

**"Ey insanlar! Rəbbinizdən qorxun. Həqiqətən, Qiyamət zəlzələsi böyük və hövlnak bir hadisədir."**

**Nöqtələr**

●Rəvayətlərdə oxuyuruq: "Hicri 6-cı il, şəban ayında müsəlmanlar "Bəni-Müstələq" döyüşündə hərəkətdə ikən "Həcc" surəsinin birinci və ikinci ayələri nazil oldu. Həzrət Peyğəmbər (s) dayanmaq göstərişi verdi. Müsəlmanlar dayandılar. Həzrət həmin bu iki ayəni tilavət etdi. Peyğəmbərin (s) bəzi yoldaşları həmin gecəni ağlamaqla keçirdilər. Allahın rəsulu (s) dünyadan bezmiş bu insanları öz müjdələri ilə sakitləşdirdi. [1]

**Bildirişlər**

1. Quran bütünlüklə insanlara ünvanlanmışdır.
2. Qəflətdə olanlarla açıq-aydın danışmaq, onlara xəbərdarlıq etmək lazımdır.
3. Qiyamət təhlükələrindən qurtuluş yolu təqvadır.
4. Qiyamətin yada salınması təqva yaranmasına səbəb olur.
5. Varlıqda hər nə varsa kiçik, Qiyamət zəlzələsi isə böyükdür.
6. Aləmin Rəbbi və sahibi olan Allahdan qorxaq.
7. Varlıq aləmində mövcud olan nizam bir zəlzələ ilə dağılıb gedəsidir.

***AYƏ 2:***

﴿يَوْمَ تَرَوْنَهَا تَذْهَلُ كُلُّ مُرْضِعَةٍ عَمَّا أَرْضَعَتْ وَتَضَعُ كُلُّ ذَاتِ حَمْلٍ حَمْلَهَا وَتَرَى النَّاسَ سُكَارَى وَمَا هُم بِسُكَارَى وَلَكِنَّ عَذَابَ اللَّهِ شَدِيدٌ﴾

**"Onu (böyük zəlzələni) müşahidə edəcəyiniz gün (vücudunuzu qorxu elə bürüyər ki,) hər bir süd əmdirən (qadın körpəsini) unudar, hər bir hamilə öz həmlini yerə qoyar (uşaq salar). Xalqı məst halda görərsən, amma onlar məst deyillər. Fəqət Allahın əzabı şiddətlidir."**

---

[1] "Təfsiri-nümunə".

**Nöqtələr**

●Quran Qiyamət səhnəsini təsvir edərkən insanı lərzəyə gətirən təbirlərdən istifadə edir. O cümlədən: "Uşaqları qocaldan gün"[1]; "amansız və çətin gün"[2]; "Əzabı əhatəli olan gün"[3].

●Ən güclü məhəbbət ananın öz övladına olan məhəbbətidir. Bu səbəbdən də Allah-təala Qiyamət çətinliyini bəyan edərkən ananın südəmər körpəsindən üz çevirməsini misal çəkir. Hamilə ananın bətnindəki körpəni vaxtsız salması da Qiyamət çətinliyinə bir işarədir. Əslində isə Qiyamətdə hamilə və ya südəmər körpəsi olan qadın yoxdur.

**Bildirişlər**

1. Qiyamətin çətin hadisələri insanın həm hisslərini, həm də ağlını alır.
2. Tərbiyəvi mövzuların bəyanında hisslərə toxunan misallardan istifadə edək.
3. Çəkilən misalın həqiqətə uyğun gəlməsi zəruri deyildir.
4. Quran məsəlləri zaman ötdükcə öz aktuallığını itirmir.
5. İnsanda məstlik yaradan yalnız şərab deyil. (Bəzən qürur, qəflət, sərvət, məqam da insandakı tarazlığın pozulmasına səbəb olur.)
6. Həzrət Peyğəmbər (s) Qiyamət təhlükələrindən sığortalanmışdır və amandadır.

***AYƏ 3:***

﴿وَمِنَ النَّاسِ مَن يُجَادِلُ فِي اللَّهِ بِغَيْرِ عِلْمٍ وَيَتَّبِعُ كُلَّ شَيْطَانٍ مَّرِيدٍ﴾

**"İnsanların bəzisi Allah haqqında bilmədən höcətləşir və hər azğın şeytana tabe olur."**

**Nöqtələr**

●"Mərid" sözü xeyirsiz mənasını bildirir. Otsuz biyaban "mərid", üzü tüksüz gənc "imrəd" adlandırılmışdır.

●Ayədə zəruri agahlıq əldə etmədən mübahisə aparmaq qadağan olunur. Əslində müxaliflərlə düzgün və ya analoji məntiqlə mübahisə etmək çox yaxşıdır.[4]

**Bildirişlər**

1. Qiyamət əzabı şəkk-şübhə yaratmaqla xalqın əqidəsinə zərbə vuranları hədəfə alır.
2. Danışıqlar inad və təəssübə yox, məntiq və elmə əsaslanmalıdır.
3. Elmi əsası olmayan mübahisə şeytana itaətdir.
4. Cəhalət və təəssüb haqqın qəbuluna mane olur.

---

[1] "Müzəmmil", 17.
[2] "İnsan", 10.
[3] "İnsan", 7.
[4] "Nəhl", 170.

5. Allah və onun yolundan ayrı düşən şəxs hər an şeytanın əsarətindədir.
6. Şeytanlar çoxdur, onların hər biri müəyyən üsulla azdırır.
7. Şeytana ardıcıllıqda xeyir yoxdur.

***AYƏ 4:***

﴿كُتِبَ عَلَيْهِ أَنَّهُ مَن تَوَلَّاهُ فَأَنَّهُ يُضِلُّهُ وَيَهْدِيهِ إِلَى عَذَابِ السَّعِيرِ﴾

**"Onun (şeytan) üçün yazıldı ki, vilayətini qəbul edəni hökmən azdırar, yandırıcı oda çəkər."**

**Nöqtələr**

●"Yazıldı" sözü şeytanın məcbur edildiyini göstərmir. Çünki başqa bir ayədə şeytanın öz iradəsi ilə, inadkarlıq səbəbindən səcdə etmədiyi və Allaha qarşı çıxdığı bildirilir. Qeyd olunur ki, şeytan insanları azdıracağına and içmişdir.[1] "Onun üçün yazıldı" dedikdə şeytanın öz istək və iradəsi əsasında ardıcıllarını azdırmasının labüdlüyü nəzərdə tutulur.

**Bildirişlər**

1. Şeytan yolu seçiminin və ona itaətin qəti ilahi əzabdan savay nəticəsi yoxdur. (Günahkarlar üçün cəza yalnız onlar günaha batdıqdan sonra müəyyənləşdirilir.)
2. Şeytana tabeçilik onun vilayətini, hakimiyyətini qəbul etməkdir.
3. Şeytan istədiyini yox, ona tabe olanları azdırır.
4. Bütün şeytanlar insanları bir yola çəkir; yandırıcı oda!

[1] "Hicr", 31-40.

### *AYƏ 5:*

﴿يَا أَيُّهَا النَّاسُ إِن كُنتُمْ فِي رَيْبٍ مِّنَ الْبَعْثِ فَإِنَّا خَلَقْنَاكُم مِّن تُرَابٍ ثُمَّ مِن نُّطْفَةٍ
ثُمَّ مِنْ عَلَقَةٍ ثُمَّ مِن مُّضْغَةٍ مُّخَلَّقَةٍ وَغَيْرِ مُخَلَّقَةٍ لِّنُبَيِّنَ لَكُمْ وَنُقِرُّ فِي الْأَرْحَامِ مَا
نَشَاء إِلَى أَجَلٍ مُّسَمًّى ثُمَّ نُخْرِجُكُمْ طِفْلًا ثُمَّ لِتَبْلُغُوا أَشُدَّكُمْ وَمِنكُم مَّن يُتَوَفَّى
وَمِنكُم مَّن يُرَدُّ إِلَى أَرْذَلِ الْعُمُرِ لِكَيْلَا يَعْلَمَ مِن بَعْدِ عِلْمٍ شَيْئًا وَتَرَى الْأَرْضَ
هَامِدَةً فَإِذَا أَنزَلْنَا عَلَيْهَا الْمَاء اهْتَزَّتْ وَرَبَتْ وَأَنبَتَتْ مِن كُلِّ زَوْجٍ بَهِيجٍ﴾

**“Ey insanlar! Qiyamətə şəkkiniz varsa (öz vücudunuza diqqət yetirməklə şəkkinizi aradan qaldırın). Biz sizi torpaqdan, nütfədən, sonra laxta qandan, daha sonra ətdən yaratdıq. Bəzisi kamil şəkilə düşdü, (dünyaya gəldi), bəzisi kamil şəkilə gəlmədi (vaxtından əvvəl düşdü). (Bununla da istədik ki, hər şeyə qadir olduğumuzu) sizə aşkarlayaq. (Bətndəkilərdən) istədiyimizi müəyyən nəticəyədək anaların bətnində qərar verər, sonra körpə şəklində bayıra çıxararıq ki, yetkinlik həddinə çatasınız. (Bu arada) sizlərdən bəzisi ölər, bəzisi həyatın ən rəzil mərhələsinə (qocalığa) çatar və bildiklərini əldən verər. Torpağı (qışda) quru və ölü görərsən. Elə ki, üzərinə yağış yağdırarıq, hərəkətə gələr, inkişaf edər, növbənöv gözəl otlar bitirər.”**

**Nöqtələr**

●“Vəfat” kökündən olan “yutəvəffa” sözü insan vücudundan ruhun tam çıxarılması və ölümdən sonra ruhun əbədiliyi mənalarını bildirir.

●“Bəhcət” kökündən olan “bəhic” sözü şadlıq mənasını bildirir. Yaşıllığın seyri insanda ruh yüksəkliyi və şadlıq yaradır.

●Ayədə qocalıq insan ömrünün ən rəzil çağı sayılsa da, bu rəzilliyi doğuran əsas səbəb yalnız qocalara aid deyil. Həyatının istənilən bir dövründə, hətta cavanlıq dövründə ağıl qüvvəsi zəifləyən insan öz ömrünün rəzil çağını yaşayır.

**Bildirişlər**

1. Şəkkin qaynağı Allahın qüdrətindən xəbərsizlikdir.
2. Kafirlərlə dəlillər əsasında, məntiqi və anlaşılan şəkildə danışaq.
3. Hisslər vasitəsi ilə həqiqətlərlə tanış olmaq mümkündür.
4. Məad həm cismani, həm də ruhanidir.
5. İnsanın mənşəyi, ilkin maddəsi torpaqdandır.
6. İnsan ölümdən öncə yeddi mərhələ keçir (torpaq, nütfə, laxta qan, formalaşmamış ət, körpəlik, yetkinlik, qocalıq).
7. “Muzğə” (ana bətnində laxtalanımış ət) dövrü insanın formalaşma dövrüdür.

8. Dünyada cansız torpaqdan insan yaradan kəs Qiyamətdə də bu işi görə bilər.

9. Həyat yüksəliş və enişdən ibarətdir; torpaqdan yüksəliş və həyatın rəzil çağına eniş!

10. Yaranışın bütün mərhələləri, nütfənin möhkəmlənməsindən doğuşadək ötən pillələr Allahın əlindədir.

11. Təbii gedişatların zamana ehtiyacı var.

12. Nütfənin möhkəmlənməsi və ya vaxtsız düşməsi Allahın istəyindən asılıdır.

13. Hamiləlik dövrü Allah tərəfindən müəyyənləşdirilmişdir.

14. İnsanın dünyaya gəlişi Allahın iradəsindən asılıdır.

15. İnsanlar öncə eyni olur, sonra qidalanma və tərbiyə nəticəsində hərə özünəməxsus əxlaq və rəftarlara yiyələnir.

16. Ölüm təkcə qocalara aid deyil.

17. İnsan ölümlə məhv olmur.

18. İnsan və insan həyatının dəyəri onun elm, agahlıq və ağlından asılıdır. (Quran, biliklərin unudulmasını ömrün ən rəzil çağı üçün dəlil göstərir.)

19. Bitkilər arasında da zövciyyət, erkək-dişi bölgüsü var.

***AYƏ 6:***

﴿ذَلِكَ بِأَنَّ اللَّهَ هُوَ الْحَقُّ وَأَنَّهُ يُحْيِي الْمَوْتَى وَأَنَّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Bunun (insan və bitkilərin mərhələli yaranışının) səbəbi Allahın haqq olması, ölüləri diriltməsi və hər işə qadirliyidir.”**

***AYƏ 7:***

﴿وَأَنَّ السَّاعَةَ آتِيَةٌ لَّا رَيْبَ فِيهَا وَأَنَّ اللَّهَ يَبْعَثُ مَن فِي الْقُبُورِ﴾

**“(İnsanın torpaqdan yaranışı, bitkilərin torpaqdan cücərməsi göstərir ki,) həqiqətən, Qiyamət gələsidir və bunda şübhə yoxdur. Allah qəbirdə uyuyan bütün insanları diriləcək.”**

**Bildirişlər**

1. İnsan və bitki aləminin yaranışı Allahın haqlılıq nişanəsidir.

2. Allah heç vaxt yaranışı ölümlə başa çatdırmaz. Çünki haqq olan varlığın mənasız, batil iş görməsi mümkünsüzdür. O öz yaratdıqlarını son məqsədə çatdırmalıdır və ölümdən sonra növbəti mərhələnin mövcudluğu labüddür.

3. Bir dəfə yaradan ikinci dəfə də yarada bilər.

4. Həm heçdən yaradan, həm də yaratdıqlarını hökmü altında saxlayan şəxs mütləq qeyd-şərtsiz qüdrət sahibidir.

5. Məad–ölümdən sonrakı həyat cismanidir.

*AYƏ 8:*

﴿وَمِنَ النَّاسِ مَن يُجَادِلُ فِي اللَّهِ بِغَيْرِ عِلْمٍ وَلَا هُدًى وَلَا كِتَابٍ مُّنِيرٍ﴾

**“Xalq arasında eləsi var ki, heç bir biliyi, göstərişi və aşkar kitabı olmadan Allah haqqında mübahisə aparır.”**

**Bildirişlər**

1. Hamını qınamamağa çalışaq.
2. Elmə əsaslanan mübahisə pis deyil.
3. İnsanı müxtəlif yollarla tanımaq olar. Ola bilsin ki, bəzən düşüncə və təhsil yolu səmərə verdiyindən ayədə “heç bir elmi olmadan” təbiri işlədilmişdir. Bəzən də insanın tanınmasında qəlbə verilən ilham son söz deyir. Bu səbəbdən də “heç bir göstərişsiz” təbiri işlədilə bilər. Bəzən də tanışlıq səmavi kitab, vəhy və nübuvvət yolu ilə əldə edilir.

*AYƏ 9:*

﴿ثَانِيَ عِطْفِهِ لِيُضِلَّ عَن سَبِيلِ اللَّهِ لَهُ فِي الدُّنْيَا خِزْيٌ وَنُذِيقُهُ يَوْمَ الْقِيَامَةِ عَذَابَ الْحَرِيقِ﴾

**“Təkəbbür və təşəxxüslə xalqı Allahın yolundan azdırmaq istəyir. Onun üçün dünyada rüsvayçılıq var. Qiyamətdə də ona yandırıcı əzab daddırarıq.”**

**Nöqtələr**

●“Sani” dedikdə “burmaq”, “itf” dedikdə “çiyin” mənaları anlaşılır. “Saniyə itfihi” təbiri təkəbbür və təşəxxüsə işarədir.

**Bildirişlər**

1. Cahil insanları mübahisəyə sövq edən onlardakı qürur və təkəbbürdür.
2. Günah cəzaya uyğun olur. Təkəbbürlünün cəzası xarlıq, zəlillikdir.
3. Təkəbbürlü insan elə bu dünyada bədbəxt olur.

*AYƏ 10:*

﴿ذَلِكَ بِمَا قَدَّمَتْ يَدَاكَ وَأَنَّ اللَّهَ لَيْسَ بِظَلَّامٍ لِّلْعَبِيدِ﴾

**“(Qiyamətdə ona deyilər: Bu yandırıcı əzab) öz əllərinlə öncədən göndərdiklərinə görədir. Yoxsa Allah, bəndələrinə heç vaxt zülm etməz.”**

*AYƏ 11:*

﴿وَمِنَ النَّاسِ مَن يَعْبُدُ اللَّهَ عَلَى حَرْفٍ فَإِنْ أَصَابَهُ خَيْرٌ اطْمَأَنَّ بِهِ وَإِنْ أَصَابَتْهُ فِتْنَةٌ انقَلَبَ عَلَى وَجْهِهِ خَسِرَ الدُّنْيَا وَالْآخِرَةَ ذَلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ﴾

**“Xalq arasında eləsi var ki, Allaha yalnız dili ilə pərəstiş edir. (Onun imanı küfrə yaxındır və kiçik bir hadisədən lərzəyə gəlir,) bir xeyir gördükdə Ona (Allaha) əmin olur, müsibətə düşüb sınağa çəkildikdə isə özünü itirir (küfrə doğru gedir. Belə birisi) dünya və axirətdə ziyankardır və bu, həmin aşkar ziyandır.”**

**Nöqtələr**

●Ədalətli Allah üçün kiçik bir zülm də böyük sayılar. “Zəllam” sözü bu məqsədlə işlədilə bilər.

**Bildirişlər**

1. Allah adildir. Onda qəzəb və ya mərhəmət doğuran bizim öz əməllərimizdir.
2. Günaha yol verdikdə başqalarını ittiham etməyək. Hər şey özümüzdən asılıdır.
3. Bəzilərinin imanı mövsümi, səthi olur. Kiçik bir acı və ya şirin hadisə onların imanına təsir göstərir.
4. Məntiqi əsası olan əqidə və əməl maddi eniş-yoxuşlarla dəyişən əqidə və əməldən fərqlidir. (Dini çörəyə xatir istəməyək.)
5. İnsan acı və şirin hadisələrin hədəfindədir.
6. Yoxsulluq və acı hadisələr sınaq vasitələridir.
7. Allahın yolundan çıxmaq İlahinin şiddətli qəzəbi və cəhənnəm əzabı ilə sonuclanır.

***AYƏ 12:***

﴿يَدْعُو مِن دُونِ اللَّهِ مَا لَا يَضُرُّهُ وَمَا لَا يَنفَعُهُ ذَلِكَ هُوَ الضَّلَالُ الْبَعِيدُ﴾

**“O, Allahdan qeyri birini, ona ziyan və xeyir verə bilməyən bir kəsi çağırır. Budur həmin böyük azğınlıq.”**

***AYƏ 13:***

﴿يَدْعُو لَمَن ضَرُّهُ أَقْرَبُ مِن نَّفْعِهِ لَبِئْسَ الْمَوْلَى وَلَبِئْسَ الْعَشِيرُ﴾

**“Bəlkə də, çağırdığı kəsin zərəri faydasından çoxdur. O necə pis mövla, necə çirkin yoldaşdır!”**

**Bildirişlər**

1. Bütün faydalar və zərərlər Allahın əlindədir, ondan qeyrisinin bu sahədə rolu yoxdur.
2. Allahdan qeyrisinə bağlılıq və şirk ən böyük azğınlıqdır.
3. Şirkin əqli və məntiqi əsası yoxdur. İnsan ya fayda əldə etmək, ya da zərərin qarşısını almaq üçün pərəstiş etməlidir. Bütlərdə isə fayda vermək və zərəri uzaqlaşdırmaq qüdrəti yoxdur.

4. Şirkin bütün növləri məhkumdur. Məbudların şüurlu və ya şüursuz olmasının fərqi yoxdur.

5. Dünyanın ötəri mənafelərinə xatir əbədi axirət zərərləri qazanmayaq.

6. Zalım hakimlərin, qüvvələrin xalqa xeyirdən çox zərəri var.

7. Səni Allahdan çəkindirib özünə tərəf çağıran kəslə ünsiyyətdən qaç, onu özünə rəhbər seçmə.

### *AYƏ 14:*

﴿إِنَّ اللَّهَ يُدْخِلُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ إِنَّ اللَّهَ يَفْعَلُ مَا يُرِيدُ﴾

**“Həqiqətən, Allah iman və saleh əməl əhlini ağacları altdan çaylar axan bağlara daxil edər. (Bəli,) Allah istədiyini edər.”**

**Bildirişlər**

1. Haqq vədlərə iman və ümid ondan qeyrilərini boşlamaq üçün ən böyük amildir.

2. Əməllə müşayiət olunan iman qurtuluş açarıdır. Nə iman, nə də əməl təklikdə səmərə verir.

3. İlahi nemətlərin çeşidliliyi behişt əhlinin daha çox kam alması üçündür.

4. Allah bəşəriyyətin meyillərinə əsasən mükafatlandırır. (İnsan bağ və çaydan ləzzət aldığı üçün behiştdə də bağlar və çaylar qərar verilmişdir.)

5. Allah mütləq qüdrət sahibidir, heç bir işin icrasında çıxılmaz vəziyyətə düşmür. (Məhz bu qüdrət Onun vədlərinə əməl edəcəyinə zəmanət səbəbidir.)

### *AYƏ 15:*

﴿مَن كَانَ يَظُنُّ أَن لَّن يَنصُرَهُ اللَّهُ فِي الدُّنْيَا وَالْآخِرَةِ فَلْيَمْدُدْ بِسَبَبٍ إِلَى السَّمَاءِ ثُمَّ لْيَقْطَعْ فَلْيَنظُرْ هَلْ يُذْهِبَنَّ كَيْدُهُ مَا يَغِيظُ﴾

**“Allahın dünya və axirətdə ona (Öz peyğəmbərinə) kömək göstərmədiyini güman edən kəs (hiylə gəlmək istəyir, de ki) göydən bir ip assın (boğazından asılsın), sonra (onu) kəssin. Baxsın ki, hiyləsi onun qəzəbini soyudurmu?!”**

**Nöqtələr**

●Bəziləri ayənin həzrət Peyğəmbərə (s) aid olmadığını bildirib, onu belə tərcümə edirlər: “Hər kəs Allahın ona yardım göstərmədiyini güman etsə...”

●Ayə belə anlaşıla bilər ki, Allahdan uzaq insanı kosmosun fəthi də sakitləşdirə bilməz. “Səbəbin iləs-səma” dedikdə kosmosa uçuş, “Liyəqtə” dedikdə yolu adlamaq mənası başa düşülür. Uyğun təbirlər deyildiyi kimi tərcümə olunsa, hazırkı ayə Quranın elmi möcüzəsi, öncə görməsi sayıla bilər. Bir sözlə, bəşəriyyətin psixoloji durumu mütərəqqi texnologiya və kosmosa uçuşla islah olası deyil.

**Bildirişlər**

1. İlahi yardımlar dünya və axirətdə kəsiləsi deyil.
2. İlahi qüdrət və yardıma ümidsizlik insanın aramlığını pozur.
3. İntihar (insanın özünü öldürməsi) heç vaxt qurtuluş yolu olmur. (Yeganə aramlıq vasitəsi Allaha iman və təvəkküldür. Allahın iradəsindən və Ona imandan uzaq istənilən bir plan əbəsdir.)
4. Yerin və göyün fəthi, imandan kənar atılan istənilən bir addım səmərəsizdir.

***AYƏ 16:***

﴿وَكَذَٰلِكَ أَنزَلْنَاهُ آيَاتٍ بَيِّنَاتٍ وَأَنَّ اللَّهَ يَهْدِي مَن يُرِيدُ﴾

**“Quranı bu sayaq aydın ayələrlə nazil etdik. Əlbəttə, Allah istədiyi kəsi hidayət edir.”**

**Bildirişlər**

1. Ayələr və hidayət vasitələri göndərmək Allahın sünnəsi, qanunudur.
2. Quran nur kitabı, onun ayələri isə aydındır.
3. Quran hidayət, doğru yola sövq vasitəsidir. Amma bu istiqamətdə Allah və Onun lütfü əsasdır.
4. Allah istədiyini hidayət edər, doğru yola yönəldər. Amma Onun istəyi hikmətə əsaslanır. Beləcə, yalnız özündə zəmin hazırlayanlar hidayət edilir.

***AYƏ 17:***

﴿إِنَّ الَّذِينَ آمَنُوا وَالَّذِينَ هَادُوا وَالصَّابِئِينَ وَالنَّصَارَىٰ وَالْمَجُوسَ وَالَّذِينَ أَشْرَكُوا إِنَّ اللَّهَ يَفْصِلُ بَيْنَهُمْ يَوْمَ الْقِيَامَةِ إِنَّ اللَّهَ عَلَىٰ كُلِّ شَيْءٍ شَهِيدٌ﴾

**“Həqiqətən, Allah Qiyamətdə möminlər (müsəlmanlar), yəhudilər, sabiilər, nəsranilər və müşriklər arasında mühakimə aparıb, haqqı batildən ayıracaq. Həqiqətən, Allah hər şeyə şahiddir.”**

**Nöqtələr**

●Sabiilərin kimliyi barədə müxtəlif fikirlər var. Onları kimi ulduzpərəst, kimi mələikəpərəst sayır. Bəziləri də Nuh ardıcıllarının “sabii” adlandırıldığını qeyd edir.

●Bir şəxs Həzrət Əlidən (ə) soruşdu: “Nə üçün məcusilərdən “cizyə” (vergi növü) alırsınız? Axı onların nə peyğəmbəri, nə də kitabları var. Məgər cizyə kitab əhlinə aid deyilmi?” Həzrət buyurdu: “Məcusilərin həm səmavi kitabı, həm də ilahi peyğəmbəri var.”[1]

●Ayədə müxtəlif dəstələr arasında “Əlləzinə” (“o kəslər ki”,) sözü ilə fasilə yaradılmışdır. Qiyamətdə də həqiqi möminlərin, digər səmavi din ardıcıllarının və müşriklərin hesabı ayrıdır. “Əlləzinə” sözü üç dəfə işlədilmişdir: birinci dəfə möminlərə, ikinci dəfə digər səmavi din ardıcıllarına, üçüncü dəfə müşriklərə münasibətdə.

**Bildirişlər**

1. Müxtəlif qrupların adı çəkilərkən həqiqi möminlərin öncə zikr olunmaq haqqı var.
2. Müşrikliklə müqayisədə yəhudiliyin, məsihiliyin, məcusiliyin, sabiiliyin ayrıca qeyd olunması onların təkallahçı və səmavi din olduğunu göstərir.
3. Qiyamət hamı üçündür. Həmin gün bütün qruplar arasında mühakimə aparılar və bütün qarşıdurmalara son qoyular.
4. Qiyamət günü Allah həm hakimdir, həm də şahid.
5. Hakim hərtərəfli məlumata malik olduqda mühakimə kamil sayıla bilər.
6. İslama dəvət və müsbət mücadilə zəruridir. Amma bu işləri görərkən dinlərarası ixtilafların tamamilə aradan qalxacağını gözləmək olmaz. Dünyada sülh, əmin-amanlıq içində yaşayıb, Qiyamət mühakiməsini gözləməliyik. Hansı dinin haqlı olduğunu Allah Özü müəyyənləşdirəsidir.

***AYƏ 18:***

﴿أَلَمْ تَرَ أَنَّ اللَّهَ يَسْجُدُ لَهُ مَن فِي السَّمَاوَاتِ وَمَن فِي الْأَرْضِ وَالشَّمْسُ وَالْقَمَرُ وَالنُّجُومُ وَالْجِبَالُ وَالشَّجَرُ وَالدَّوَابُّ وَكَثِيرٌ مِّنَ النَّاسِ وَكَثِيرٌ حَقَّ عَلَيْهِ الْعَذَابُ وَمَن يُهِنِ اللَّهُ فَمَا لَهُ مِن مُّكْرِمٍ إِنَّ اللَّهَ يَفْعَلُ مَا يَشَاءُ﴾

**“Məgər görmədinmi ki, göylərdə və yerdə nə varsa, günəş, ay, ulduzlar, dağlar, ağaclar, canlıların hər biri və xalqın bir çoxu Allaha səcdə edir?! Əlbəttə, insanların bir çoxu (təkəbbür və inadkarlıq səbəbindən) qəti şəkildə əzaba düçar olur. Allahın alçaltdığı şəxsə kimsə ehtiram göstərməz. Həqiqətən, Allah istədiyini həyata keçirər.”**

**Bildirişlər**

1. Göylərdə də şüurlu varlıqlar mövcuddur.

[1] “Təfsire-Nurus-səqələyn”. “Tövhidi-səduq”, s. 306.

2. Bütün varlıq aləmi Allaha səcdə qılır, təvazö göstərir. Şüur təkcə insana aid deyil. (Əgər bütün varlıq aləminin Allaha təslim olduğunu biliriksə, bu tamdan seçilməməliyik. Şirk, təkəbbür varlıq nizamına ziddir.)

3. İnsanın seçim imkanı var.

4. İlahi əzablar haqq-ədalətə əsaslanır.

5. İzzət və zillət yalnız Allahın əlindədir.

6. Allahın iradəsi qarşısında heç bir maneə mövcud deyil.

*AYƏ 19:*

﴿هَذَانِ خَصْمَانِ اخْتَصَمُوا فِي رَبِّهِمْ فَالَّذِينَ كَفَرُوا قُطِّعَتْ لَهُمْ ثِيَابٌ مِّن نَّارٍ يُصَبُّ مِن فَوْقِ رُؤُوسِهِمُ الْحَمِيمُ﴾

**"Bu iki müxalif qrup (abidlər və əzaba layiq görülənlər) arasında Rəbləri ilə bağlı düşmənçilik və mübahisə yarandı. Küfrə uğrayanlar üçün oddan libaslar biçilmişdir, başlarından qaynar maye tökülər."**

**Bildirişlər**

1. Tarix boyu «Xaliq» mövzusunda qarşıdurmalar olmuşdur.

2. Cəhənnəm əhlinin hər birinin libası onun öz bədəninə aiddir.

3. Cəhənnəm əhlinin oddan olan libası soyumaz, daim onların başından əridilmiş maye tökülər.

*AYƏ 20:*

﴿يُصْهَرُ بِهِ مَا فِي بُطُونِهِمْ وَالْجُلُودُ﴾

**"Həmin qaynar maye ilə içlərində və çöllərində olan əridilər."**

*AYƏ 21, 22:*

﴿وَلَهُم مَّقَامِعُ مِنْ حَدِيدٍ كُلَّمَا أَرَادُوا أَن يَخْرُجُوا مِنْهَا مِنْ غَمٍّ أُعِيدُوا فِيهَا وَذُوقُوا عَذَابَ الْحَرِيقِ﴾

**"Onlar üçün dəmirdən gürzlər var. Nə vaxt cəhənnəm və onun qüssəsindən uzaqlaşmaq istəsələr, onlarla (gürzlərlə) qaytarılarlar. (Onlara deyilər:) Dadın yandırıcı əzabı."**

**Bildirişlər**

1. Cəhənnəm odu həm çölü, həm də içi yandırır.

2. Cəhənnəm əhli qurtulmaq üçün çabalayır. Amma onların bütün təlaşları nəticəsizdir.

3. Ruhi əzab cəhənnəm odundan daha dərdlidir.

4. Cəhənnəm əzabı əbədidir.
5. Cəhənnəm əhli alçaldılar və məzəmmət edilər.

*AYƏ 23:*

﴿إِنَّ اللَّهَ يُدْخِلُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ يُحَلَّوْنَ فِيهَا مِنْ أَسَاوِرَ مِن ذَهَبٍ وَلُؤْلُؤًا وَلِبَاسُهُمْ فِيهَا حَرِيرٌ﴾

**“Şübhəsiz, Allah iman gətirib saleh işlər görənləri altından çaylar axan bağlara daxil edər. Orada qızıl və mirvari qolbağılarla bəzənərlər, libasları ipəkdən olar.”**

**Bildirişlər**

1. Ən üstün şadlıq və əyləncə yolu təbiətdən istifadədir.
2. Xəbərdarlıqla yanaşı ümid və müjdə də vermək lazımdır.
3. Quranın gözəlliklərindən biri də ondakı xəbərdarlıqlarla müjdələr arasında tənasüb olmasıdır.
4. Çılpaqlıq dəyər, mədəniyyət deyil. Behişt əhlinin də libası var.
5. Allah məhrumiyyətlərin əvəzini verir. Dünya həyatında kişilərə haram olan ipək libas və qızıl axirətdə onlar üçün zinət olasıdır.
6. Sözlərin və cümlələrin gözəlliyi və ölçüsü bir növ fəsahətdir.

*AYƏ 24:*

﴿وَهُدُوا إِلَى الطَّيِّبِ مِنَ الْقَوْلِ وَهُدُوا إِلَى صِرَاطِ الْحَمِيدِ﴾

**“(Behişt əhli) pak sözlərə yönəldilər, sitayişə layiq olan Allahın yoluna sövq olunar.”**

**Bildirişlər**

1. Behiştdə maddi nemətlərlə yanaşı mənəvi nemətlər də var.
2. Ürəyəyatan danışıq behişt əhlinin hədiyyəsidir.
3. Allah yolu ilə hərəkət üçün zahirdə və batində bəzənmək lazımdır.
4. Ən üstün kam xoş aqibətdir.

*AYƏ 25:*

﴿إِنَّ الَّذِينَ كَفَرُوا وَيَصُدُّونَ عَن سَبِيلِ اللَّهِ وَالْمَسْجِدِ الْحَرَامِ الَّذِي جَعَلْنَاهُ لِلنَّاسِ سَوَاءً الْعَاكِفُ فِيهِ وَالْبَادِ وَمَن يُرِدْ فِيهِ بِإِلْحَادٍ بِظُلْمٍ نُذِقْهُ مِنْ عَذَابٍ أَلِيمٍ﴾

**“Həqiqətən, küfr edənlərə, (möminləri) Allah yolundan, bütün xalq, Məkkə sakinləri və bədəvilər üçün bərabər qərar verdiyimiz Məscidül-**

**Həramdan döndərənlərə, orada zülm etmək istəyənlərə ağrılı əzabı daddırarıq.”**

**Nöqtələr**

●İmam Sadiq (ə) ayə ilə bağlı buyurur: “Məscidül-həramda Allahdan qeyrisinə pərəstiş edən və həmin müqəddəs məkana övliyalardan başqasını hami sayan kəs zülm və küfrə uğramışdır.”[1]

**Bildirişlər**

1. Puç əqidə insanı pis əmələ sürükləyir.
2. Adi günahlar böyük günahlar üçün müqəddimə olur.
3. Dini mərkəzlər azğınların gözünün tikanıdır.
4. Məkkə qanunları onun əsil sahibi tərəfindən müəyyənləşdirilməlidir.
5. Məscidül-Həram beynəlmiləl bir məntəqədir. Bu müqəddəs məkan göylər və okeanlar kimi hansısa fərdə, ölkəyə, hökumətə məxsus deyil.
6. Allah azğınları hökmən cəzalandırasıdır. Heç bir kafir və sitəmkar ilahi əzabdan amanda deyil.
7. Ayrı-ayrı məkanlar bir-birindən fərqlənir. (Məscidül-Həram hamı üçün əmin-aman mərkəzi olmalıdır.)
8. Bilərəkdən, zülm məqsədi ilə baş verən günah bilmədən baş verən günahdan fərqlənir. Küfr istəyi üçün cəza nəzərdə tutulur.
9. Müqəddəsliklərin, məzhəbi mərkəzlərin təhqiri üçün cəza müəyyənləşdirilmişdir.

***AYƏ 26:***

﴿وَإِذْ بَوَّأْنَا لِإِبْرَاهِيمَ مَكَانَ الْبَيْتِ أَن لَّا تُشْرِكْ بِي شَيْئًا وَطَهِّرْ بَيْتِيَ لِلطَّائِفِينَ وَالْقَائِمِينَ وَالرُّكَّعِ السُّجُودِ﴾

**“(Xatırla,) bir zaman Kəbə məkanını İbrahim üçün hazırladıq. (Ona dedik:) Mənə heç bir şərik qoşma, evimi təvaf, (ibadət üçün) qiyam, rüku və səcdə edənlər üçün pak saxla.”**

**Bildirişlər**

1. Kəbə və İbrahimin macərası unudulmaz bir həqiqətdir.
2. Hər birimiz ilahi tövfiqə ehtiyaclıyıq.
3. Müqəddəs məkanlar müqəddəs fərdlərin ixtiyarında olmalıdır.
4. Bəşəriyyət lap qədimdən Kəbə evi ilə tanışdır.
5. Allaha hansısa şəkildə şərik qoşmaq yolverilməzdir.
6. Əvvəlcə içdən, sonra çöldən paklanmaq!
7. Məscidə xidmət ibrahimsayağı iftixardır.

---

[1] “Təfsire-Nurus-səqəleyn”. “Kafi”, c. 1, s. 337.

8. Özünütərbiyə kifayət deyil, xalqa xidmət də lazımdır.

9. Allaha aid istənilən bir yer müqəddəsdir və bu yerə hamı ehtiram göstərməlidir.

10. İbadət mərkəzi pak olmalıdır.

11. Namaz və namazqılan şəxs o qədər əzizdir ki, hətta İbrahim özü ibadət məkanına xidmət göstərməlidir.

12. İnsanların təvafı, (ibadət üçün) qiyamı və namazı Məscidül-Həramın haqqıdır. Amma təvafın savabı daha böyükdür. (Təvaf Kəbə evinin başına fırlanmaqla müşayiət olunan ibadətdir; Həccə gedənlər Kəbə ətrafında 7 dəfə dövrə vurur və bu əməl təvaf adlanır.)

***AYƏ 27:***

﴿وَأَذِّن فِي النَّاسِ بِالْحَجِّ يَأْتُوكَ رِجَالًا وَعَلَى كُلِّ ضَامِرٍ يَأْتِينَ مِن كُلِّ فَجٍّ عَمِيقٍ﴾

**“Xalq arasında Həcc harayı çək. Qoy onlar piyada və iti miniklərə süvari halda, istənilən uzaq yoldan sənin sorağına gəlsinlər.”**

**Nöqtələr**

●“Zamir” dedikdə piyi ərimiş, əzələləri möhkəmlənmiş çağ, iti heyvan nəzərdə tutulur. Belə heyvan sanki yarış üçün hazırlanmışdır. Həzrət Əli (ə) “Nəhcül-bəlağə”nin 28-ci xütbəsində buyurur: “Bu gün özünüzü çağ saxlayın ki, Qiyamətdə önə keçə biləsiniz.”

●Rəvayətdə oxuyuruq: “Həzrət İbrahim dedi: “Pərvərdigara! Sözümü kimsə eşitmir.” Allah-təala buyurdu: “Sən haray çək, mən xalqa çatdıraram.”

●Kəbə ziyarətçilərinin ilkin vəzifəsi ehram libası geymək və “ləbbəyk, əllahummə ləbbəyk” deməkdir. İmam Sadiq (ə) buyurmuşdur: “Bu sözlər İbrahimin dəvətinə cavabdır.”[1]

Həzrət Peyğəmbər (s) hicri 10-cu ildə Mədinədə göstəriş verdi ki, azançılar uca səslə xalqı Peyğəmbərlə (s) birlikdə Həccə dəvət etsinlər.[2]

**Bildirişlər**

1. Allah övliyalarının bugünki harayı gələcək nəsillərə təsir edir.
2. Peyğəmbərlər “əmr be mərufda”, yəni yaxşılığa dəvətdə öncül olmuşlar.
3. Həccə getmək övliyaların hüzuruna yetişməkdir.
4. Allah qeybdən, gələcəkdən xəbər verir.
5. İnsan öhdəsinə vəzifə götürdükdə müqəddimə üçün hazırlıq görməlidir.
6. Həccə piyada səfər süvari halda olan səfərdən üstündür.
7. Bir işdə eşq və istək olduqda növbəti mərhələdə imkanlar üzə çıxır.
8. Həcc yeganə ünvandır ki, daim dünyanın müxtəlif məntəqələrindən ona doğru hərəkətdə olanlar var.

---

[1] “Təfsire-Nurus-səqələyn”. “İləluş-şərae”, s. 416.
[2] “Təfsire-Nurus-səqələyn”. “Kafi”, c. 4, s. 245.

### *AYƏ 28:*

﴿لِيَشْهَدُوا مَنَافِعَ لَهُمْ وَيَذْكُرُوا اسْمَ اللَّهِ فِي أَيَّامٍ مَّعْلُومَاتٍ عَلَى مَا رَزَقَهُم مِّن بَهِيمَةِ الْأَنْعَامِ فَكُلُوا مِنْهَا وَأَطْعِمُوا الْبَائِسَ الْفَقِيرَ﴾

**“(İnsanlar hər tərəfdən Həccə axışırlar ki,) öz müxtəlif mənafelərinə şahid olsunlar, xüsusi Həcc günlərində onlara ruzi edilmiş dilsiz-ağızsız dördayaqlılara görə Allahı yad etsinlər. Onların ətindən yeyin, çarəsiz yoxsula yedirin.”**

**Nöqtələr**

●İmam Sadiq (ə) buyurmuşdur: “Xüsusi günlər dedikdə (qurbandan sonrakı) təşriq günləri, yəni zilhiccənin 11, 12 və 13-cü günləri nəzərdə tutulur.”[1]

●İmam Sadiq (ə) buyurmuşdur: «Allahın zikri dedikdə, “Əllahu əkbər” və on beş namazdan sonraya aid məşhur bir duadakı cümlələr nəzərdə tutulur. Bu namazların birincisi qurban gününün zöhr (günorta) namazıdır.»[2]

●İmam Kazim (ə) bir şəxsin sualına cavab olaraq buyurdu: “Məkkə qurbanlığının dərisi sallaqxanaya muzd verilə bilər. Çünki yalnız yeməli hissə istifadə olunur və ya fəqirə verilir. Dəri isə yeməli deyil.”[3]

●Həccin siması haqqında bunları deyə bilərik:

–Həcc ümumi bir səfərbərlik, müvəhhidlərin (təkallahçıların) manevridir.

–Həcc eşq və bəndəliyin gözəl çöhrəsidir.

–Həcc İbrahim (ə), İsmail (ə), Məhəmməd (s) kimi peyğəmbərlərin xatirələrini və xidmətlərini əbədiləşdirməkdir. (Onların hər birinə Allahın salamı olsun!)

–Həcc müsəlmanların beynəlmiləl yığıncaq mərkəzidir.

–Həcc İslam dünyasının qarşılıqlı rabitə və məlumatlar mübadiləsi mərkəzidir.

–Həcc müsəlmanlar üçün iqtisadi dayaq olur, on minlərlə müsəlmana iş yeri yaradılır.

–Həcc İslam təbliğatı, İslama qarşı qurğuların ifşası, məzlumların himayəsi, kafirlərə nifrət və onların qəlbində qorxu yaradılması üçün ən üstün fürsətdir.

–Həcc tövbə, ölüm və məadın xatırlanması, dünyəvi bağlılıqların qırılması, vəfat və məhşər səhrasının müşahidəsi, həzrət Mehdinin (ə) intizarı üçün ən münasib fürsətdir.

**Bildirişlər**

1. Müsəlmanlar maddi və mənəvi mənafelər əldə etmək üçün Həcc səhnəsində iştirak etməlidir.

---

[1] “Təfsire-Nurus-səqəleyn”. “Məaniyul-əxbar”, s. 297.

[2] “Təfsire-Nurus-səqəleyn”.

[3] “Təfsire-Nurus-səqəleyn”.

2. Həccin mahiyyəti o qədər mühümdür ki, bu mənafeni əldə etmək üçün dünyanın ən uzaq nöqtələrindən yola çıxmağa dəyər.

3. Allah əmrlərinin icrası, Həcdə ilahi niyyətə malik olmaq müxtəlif nemətlərdən bəhrələnməklə zidd deyil.

4. İlahi göstərişlər insanların öz xeyrinədir.

5. Həcdə həm dünyəvi, həm də üxrəvi (axirətə aid) faydalar var. İmam Sadiq (ə) buyurur: "Ayədə mənafe deyərkən dünya və axirət mənafesi nəzərdə tutulmuşdur."[1]

6. İbadətin fəlsəfəsi Allahın yada salınmasıdır. Namaz da eyni mahiyyət daşıyır.

7. Zaman ünsürü duanın qəbuluna təsir göstərir. (İslami ibadətlərin xüsusi vaxt bölgüsü var)

8. Dördayaqlılar, onların insan qarşısında təslimçiliyi və qurban kəsilməsi bəşəriyyətə verilmiş ilahi nemətlərdəndir.

9. Ziyarətçilər özləri də qurban ətindən istifadə edə bilər. (Cahiliyyət dövründə isə ziyarətçi öz qurbanlığından istifadə edə bilməzdi.)

10. Həcdə iştirak və ondan bəhrələnmə yoxsulluğun aradan qaldırılması ilə müşayiət olunmalıdır.

11. Varlıların həcdə iştirakı onlara yoxsulları unutdurmamalıdır.

### *AYƏ 29:*

﴿ثُمَّ لْيَقْضُوا تَفَثَهُمْ وَلْيُوفُوا نُذُورَهُمْ وَلْيَطَّوَّفُوا بِالْبَيْتِ الْعَتِيقِ﴾

**"(Allah evinin ziyarətçiləri qurban günü qurbanlıq edib) sonra öz bulaşıqlıqlarını təmizləsinlər, nəzirlərinə vəfa qılsınlar, qədim və azad evi (Kəbəni) təvaf etsinlər."**

**Nöqtələr**

●"Təfəs" sözü çirk, tük, dırnaq, bığ mənalarını bildirir. "Summəl-yəqzu təfəsəhum", yəni dırnaq və tükdən kəsməklə ehram halından çıxın, sonra Həcc əməllərinin davamı üçün Kəbə evini təvaf edin.

●Qurban bayramı günü Mina torpağında Allah evinin ziyarətçiləri üçün üç əməl vacibdir:

1. Şeytana yeddi daş vurmaq;
2. Ötən ayədə haqqında danışılan qurbanlıq;
3. Hazırkı ayədə qeyd olunduğu kimi başı qırxmaq, saç və ya dırnaqdan qısaltmaq.

●İmam Baqir (ə) buyurur: "Kəbənin nə sakini, nə də sahibi var. Bu ev azad bir evdir."[2]

---

[1] "Təfsire-Nurus-səqələyn". "Kafi", c. 43, s. 422.

[2] "Təfsire-Nurus-səqələyn".

**Bildirişlər**

1. Təmizlik namaz kimi bəzi ibadətlərdə giriş şərti, Həcc kimi bəzi ibadətlərdə əsas şərt, Quran qiraəti kimi ibadətlərdə isə kamillik şərti sayılır.

2. Təmizliyin qorunması sadəcə bir tövsiyə yox, ciddi tapşırıqdır.

3. Bulaşıqlığı yaradan insan özüdür. Mənafelər isə insan üçün müəyyənləşdirilmiş ilahi mərhəmətlidir.

4. Müqəddəs və azad bir ev ətrafında təvaf üçün bulaşıqlıqlardan və öhdəçiliklərdən azad olmaq lazımdır.

5. Nəzri yerinə yetirmək vacibdir.

6. Qədimlik bir dəyər sayıla bilər. ("Ətiq" dedikdə qədimlik, "ətiqə" dedikdə isə qədim əşya nəzərdə tutulur.)

7. Allahın evi kimsənin mülkü deyil.

***AYƏ 30:***

﴿ذَلِكَ وَمَن يُعَظِّمْ حُرُمَاتِ اللَّهِ فَهُوَ خَيْرٌ لَّهُ عِندَ رَبِّهِ وَأُحِلَّتْ لَكُمُ الْأَنْعَامُ إِلَّا مَا يُتْلَى عَلَيْكُمْ فَاجْتَنِبُوا الرِّجْسَ مِنَ الْأَوْثَانِ وَاجْتَنِبُوا قَوْلَ الزُّورِ﴾

**"Budur (həcc əməlləri). Allahın möhtərəm saydığını əziz tutmaq, şübhəsiz, Rəbbinin yanında hər kəs üçün daha yaxşıdır. Sizə deyilənlər istisna olmaqla, dördayaqlılar halal edilmişdir. Bütlərin çirkinliyindən uzaq olun, batil sözlərdən çəkinin."**

**Nöqtələr**

●"Qəvləz-zur", yəni "batil söz" təbiri üçün bir sıra nümunələr göstərilmişdir: yalan, nahaq şəhadət, ğina (haram musiqi). "Hurumatillah", yəni «Allahın hörmətli saydıqları» təbiri üçün Allahın qanunları, Allahın kitabı, Peyğəmbər Əhli-beyti (ə) nümunə olaraq göstərilmişdir. Bütün sadalananların hörmətini saxlamaq zəruridir.[1]

●Yalan şahidlik Allaha şirk cərgəsində dayanır və "qovləz-zur" nümunəsi olaraq böyük günah kimi tanıtdırılır.[2]

**Bildirişlər**

1. Allahın möhtərəm saydığını əziz tutaq (ilahi göstərişləri ehtiram və əzəmətlə xatırlayaq, onları şadlıq və həssaslıqla yerinə yetirək).

2. İlahi qanunlara və müqəddəsliklərə hörmət öz xeyrimizədir. Bu hörmətə görə Allah mükafat vəd edir.

3. Vəhyə əsaslanan xüsusi bir dəlil olmasa, dördayaqlı heyvan halal sayılır.

4. Bütpərəstlik çirkaba batmaqdır. (İslamdan öncə həcc və qurbanlıq mərasimləri şirk və bütpərəstliyə bulaşmışdı.)

---

[1] "Təfsire-kənzud-dəqaiq".

[2] "Təfsire-Nurus-səqəleyn". "Bihar", c. 47, s. 216, 217.

*AYƏ 31:*

﴿حُنَفَاء لِلَّهِ غَيْرَ مُشْرِكِينَ بِهِ وَمَن يُشْرِكْ بِاللَّهِ فَكَأَنَّمَا خَرَّ مِنَ السَّمَاء فَتَخْطَفُهُ الطَّيْرُ أَوْ تَهْوِي بِهِ الرِّيحُ فِي مَكَانٍ سَحِيقٍ﴾

**“Hamılıqla Allah üçün xalis olduğunuz və Allaha heç bir şərik qoşmadığınız halda (həcc mərasimini yerinə yetirin). Allaha şərik qoşan kəs sanki səmadan süqut etmişdir, bir quş onu fəzada alıb aparmışdır, külək onu uzaq bir məkana atmışdır.”**

**Nöqtələr**

●“Hənif” sözünün cəm forması olan “hunəfa” sözü “haqq dinə tabe olan kəs” mənasını bildirir.

●“Xətəf” cəld oğurluq, “səhiq” uzaq mənasını bildirir.

●Tövhid hər şeyə dəyər verirsə, şirk ən üstün mövcudları dəyərdən salır. Aləmlərin Rəbbinə iman gətirmiş hud-hud (şanapipik) quşu müşrik xalqın hidayəti üçün çalışmaqla elə bir məqama çatdı ki, bir məntəqə üçün hidayət vasitəsi oldu. İnsan isə şirk səbəbindən elə alçalır ki, quşa yem olur.

●Quran məsəlləri hansısa zaman və ya məkanda öz aktuallığını itirmir. Bu misallar həm təbiidir, həm də dərk olunası.

**Bildirişlər**

1. Qurbanlıq, təvaf, nəzrə vəfa və bütün digər əməllər yalnız Allah üçün olsun.
2. Allahdan başqa hansı gücə güvənsək, sonda süquta uğrayasıyıq.
3. Şirk kimsəyə bağışlanmır.
4. Tövhid və ixlas səmada hüzur, şirk səmadan süqut və quşlara yem olmaq kimidir.
5. Allahdan uzaq düşməklə süquta uğramaq arasında bir an belə fasilə yoxdur.
6. Ən müqəddəs işlər ən müqəddəs yerlərdə və ən müqəddəs vaxtlarda həyata keçsə, amma ixlasla müşayiət olunmasa, sonu inkişaf yox, süqutdur.
7. İxlas insanı tufanlardan sığortalayır, ixlassızlıq isə onu tufanlara düçar edir.
8. Hətta bir anlıq şirk insanın əlindən bütün sərmayəsini alır.

*AYƏ 32:*

﴿ذَلِكَ وَمَن يُعَظِّمْ شَعَائِرَ اللَّهِ فَإِنَّهَا مِن تَقْوَى الْقُلُوبِ﴾

**“Budur (Allahın Həcc haqqındakı göstərişləri). Hər kəs Allahın mərasimlərini əziz tutsa, bu, qəlblərin təqvasındandır.”**

**Nöqtələr**

●Qurani-Kərim digər ayələrdə iki dəfə aşkar şəkildə Həcc mərasimlərini ilahi mərasimlərdən sayır: Bir dəfə "Səfa və Mərvə", digər dəfə "qurbanlıq dəvələr" təbiri ilə. Amma ilahi mərasimlər bununla başa çatmır, bütün kollektiv ibadətlər ilahi mərasim sayılır. Cümə namazları, cəmiyyət namazları və bütün həcc mərasimi uyğun ayinlərdəndir.

●Təqva müxtəlif nişanələrlə anlaşılan ruhi halətlərdəndir. Çünki zahiri işlərdə günahla savab arasında bir o qədər də fərq yoxdur. Məsələn, xalisanə namaz riyakarlıqla qılınan namazdan zahirən fərqlənmir. Onlardan birini dəyərli, digərini dəyərsiz edən qəlblərə aid olan ruh və batindir.

**Bildirişlər**

1. Daxili təqvanın zahiri nişanələri də olmalıdır. İlahi mərasimlərə etinasızlıq göstərən şəxsin əslində qəlb təqvası yetərsizdir.
2. Anma mərasimləri rəqabət yox, təqvaya əsaslanmalıdır.

*AYƏ 33:*

﴿لَكُمْ فِيهَا مَنَافِعُ إِلَى أَجَلٍ مُّسَمًّى ثُمَّ مَحِلُّهَا إِلَى الْبَيْتِ الْعَتِيقِ﴾

**"Onda (qurbanlıq heyvanlarda) sizin üçün müəyyən vaxtadək mənafe vardır. Sonra onun (qurbanlığın) yeri qədim və azad evə (Kəbəyə) doğrudur."**

**Nöqtələr**

●Bəziləri elə güman edirdilər ki, qurbanlıq üçün seçilmiş heyvandan minik kimi istifadə etmək, onun südünü sağmaq olmaz. Hazırkı ayə belə bir yanaşmanı rədd edir.

**Bildirişlər**

1. İlahi mərasimləri yüksək tutmaqla sizin maddi mənafeləriniz də təmin olunur.
2. Həcc mərasimində Kəbə mehvər götürülür.

*AYƏ 34:*

﴿وَلِكُلِّ أُمَّةٍ جَعَلْنَا مَنسَكًا لِيَذْكُرُوا اسْمَ اللَّهِ عَلَى مَا رَزَقَهُم مِّن بَهِيمَةِ الْأَنْعَامِ فَإِلَٰهُكُمْ إِلَٰهٌ وَاحِدٌ فَلَهُ أَسْلِمُوا وَبَشِّرِ الْمُخْبِتِينَ﴾

**"(Qurbanlıq vəzifəsi təkcə sizin ümmətə aid deyil,) Biz hər bir ümmət üçün bir ayin müəyyənləşdirdik. Qurbanlıq zamanı onlara ruzi edilmiş heyvan üzərində Allahın adını çəksinlər. Sizin Allahınız yeganə məbuddur. Yalnız Ona təslim olun. Xalis bəndələrə müjdə ver."**

**Nöqtələr**

●“Xəbt” sözündən olan “müxbitin” sözü çala-çökəksiz, geniş və hamar yer mənasını bildirir. İstənilən bir şirkdən uzaq, aram və arxayın insan “muxbit” adlanır.

●“Mənsək” sözü məsdər, zaman və ya məkan ismi ola bilər. Uyğun yanaşmaya əsasən, ayə belə mənalandırıla bilər: “Biz hər bir ümmət üçün ibadət proqramı, qurbanlıq üçün vaxt, ondan ötəri məkan müəyyənləşdirdik.

**Bildirişlər**

1. Bütün səmavi dinlərdə qurbanlıq proqramı var.
2. Qurbanlıq zamanı Allahın adını dilə gətirmək lazımdır.
3. Allaha yalnız vəhy yolu ilə bəndəlik edilməlidir.
4. Məbudumuz yeganə Allahdır. Allah bizim həm dinimizi, həm də dünyamızı təmin edir.
5. Allahın adı o qədər dəyərlidir ki, heyvanın kəsimi zamanı bu adın dilə gətirilməsi əti halal edir.
6. Allahpərəst insanların qidasında da ilahi rəng olmalıdır.
7. Allahdan qeyrisinə təslim olmayın.
8. Bütün dinlərdə Allahın adının çəkilməsi qeyd olunur. Məlum olur ki, hamının məbudu bir Allahdır. Əgər başqa bir məbud olsaydı, uyğun mərasimlər fərqli şəkildə nəzərdə tutulardı.
9. İlahi müjdələr Allah qarşısında təvazökar və təslim olmuş kəslərə ünvanlanmışdır.

***AYƏ 35:***

﴿الَّذِينَ إِذَا ذُكِرَ اللَّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَالصَّابِرِينَ عَلَى مَا أَصَابَهُمْ وَالْمُقِيمِي الصَّلَاةِ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ﴾

**“(“Muxbitin”) o kəslərdir ki, Allahın adı çəkildiyi vaxt qəlbləri qorxudan lərzəyə gələr, düçar olduqlarına səbir edər, namaz qılar və onlara verdiyimiz ruzidən infaq edərlər.”**

**Nöqtələr**

●Allah zikri həm insana aramlıq verir, həm də iman əhlini lərzəyə gətirir. Necə ki, körpə öz valideynini yada saldıqda həm rahatlaşır, həm də onlardan çəkinib özünü yığışdırır.

**Bildirişlər**

1. Allah qorxusu bir dəyərdir.
2. Təqva bütün kamilliklərdən öndə gəlir.
3. Vəzifənin icrasında təqvadan sonra, müqavimət və səbir əsas prinsipdir.
4. Çətinliklər qarşısında dayana bilən səbir dəyərlidir.
5. Allahla rabitə məhrumlarla rabitədən ayrı deyil.
6. İnsan təkcə sərvətindən yox, həm də elm, hörmət, sənətindən infaq edə bilər.
7. Yalnız daimi infaqın dəyəri var.
8. İnfaq edərkən orta həddi gözləmək lazımdır.
9. İnsanın mal-mülkü ilahi ruzidir.

***AYƏ 36:***

﴿وَالْبُدْنَ جَعَلْنَاهَا لَكُم مِّن شَعَائِرِ اللَّهِ لَكُمْ فِيهَا خَيْرٌ فَاذْكُرُوا اسْمَ اللَّهِ عَلَيْهَا صَوَافَّ فَإِذَا وَجَبَتْ جُنُوبُهَا فَكُلُوا مِنْهَا وَأَطْعِمُوا الْقَانِعَ وَالْمُعْتَرَّ كَذَٰلِكَ سَخَّرْنَاهَا لَكُمْ لَعَلَّكُمْ تَشْكُرُونَ﴾

**“Çağ dəvələri (qurbanlıq etməyi) sizin üçün ilahi ayin qərar verdik. Onlarda sizin üçün xeyir var. (Qurbanlıq zamanı) dəvələr ayaq üstə durmuşkən Allahın adını çəkin. Yanı üstə düşdükləri vaxt (canları çıxdıqda) onlardan yeyin, qane və istəməyə üzü olmayan fəqirə yedirin. Qurbanlıq heyvanları sizin üçün bu sayaq ram etdik. Bəlkə şükür edəsiniz.”**

**Nöqtələr**

●“Budnə” sözünün cəm forması olan “budn” sözü sağlam, çağ dəvə mənasını bildirir. “Səvaff” dedikdə, dizini saf saxlamış heyvan nəzərdə tutulur.

●Yanı üstə düşmək canın çıxması mənasını bildirir. “Qane” dedikdə qane olan fəqir, “mutərr” dedikdə, ehtiyaclı olduğu halda bunu dilinə gətirməyən fəqir başa düşülür. Beləlləri kömək almaq məqsədi ilə sizin yaxınlığınızdan ötüşür.[1]

●İslamda harada yeməkdən danışılırsa, digər bir vəzifəyə də işarə olunur: “Yeyin, amma israf etməyin”[2]; “Yeyin və başqalarına yedirin”[1]; “Yeyin və saleh iş görün”[2]; “Yeyin və şükür edin”.[3]

---

[1] “Təfsire-Nurus-səqəleyn”. “Kafi”, c. 3, s. 499.

[2] Əraf”, 31.

**Bildirişlər**

1. İlahi mərasimlərdə səxavətlə xərcləyin.
2. Cahil ərəb elə düşünürdü ki, qurbanlıq ətdən yemək olmaz.
3. Dini mərasimlərin keçirilməsində əsas nöqtə Allahın diqqətidir.
4. Dini hökmlər vəhy yolu ilə müəyyənləşməlidir.
5. İlahi mərasimlərdə insanların da mənafeyi təmin olunur. (Bütlər üçün nəzərdə tutulmuş qurbanlıqda isə israfa yol verilir.)
6. İslamın tərbiyə məktəbində qidalanmada da ilahi məqsəd öndə dayanır.
7. Dəvənin ən yaxşı qurbanlıq üsulu onun ayaq üstə kəsilməsidir.
8. Heyvanın canı çıxmamış onun ətindən istifadə etmək olmaz.
9. Qurbanlıq ət bölüşdürülməlidir.
10. Bütün ehtiyaclı insanlara yardım əli uzadın.
11. Qurbanlıq fəqirlərin yolu üstə yerinə yetirilməlidir.
12. Heyvanların ram olması, qurbanlıq ətdən qidalanma, həcc mərasimində qurbanlıq, ixlas və ilahi rəng hər biri üçün şükür ediləsi nemətlərdir.

*AYƏ 37:*

﴿لَن يَنَالَ اللَّهَ لُحُومُهَا وَلَا دِمَاؤُهَا وَلَكِن يَنَالُهُ التَّقْوَى مِنكُمْ كَذَلِكَ سَخَّرَهَا لَكُمْ لِتُكَبِّرُوا اللَّهَ عَلَى مَا هَدَاكُمْ وَبَشِّرِ الْمُحْسِنِينَ﴾

**“Qurbanlıq heyvanların əti və qanı əsla Allaha çatmaz. Sizin tərəfdən Ona çatası yalnız təqvadır. Allah heyvanları sizin üçün bu sayaq ram etdi. Belə ki, sizi hidayət etdiyi üçün Allahı böyüklüyü ilə yad edəsiniz. Xeyir əməl sahiblərinə müjdə ver.”**

**Bildirişlər**

1. Allah bizim gördüyümüz işlərə ehtiyaclı deyil.
2. Dinin zahiri məsələləri arxasında ali məqsədlər dayanır. (Dini göstərişlərin zahiri ilə kifayətlənməyək. İlahi hökmlərin batinini ixlas, bəndəlik ruhu, təslimçilik təşkil edir.)
3. İnsan Allahla təqva vasitəsi ilə rabitə yaradır.
4. Allahı böyüklüyü ilə xatırlamaq bir növ şükürdür.
5. Şükrü xüsusi tövsiyə olunmuş nemətlərdən biri də hidayət nemətidir.
6. Allahın lütfü olmasa, bütün insanlar yolunu azar.
7. Həcc və onun ayinləri hidayətin aşkar təcəssümüdür.

---

[1] “Həcc”, 36.
[2] “Muminun”, 51.
[3] “Səba”, 15.

8. Həcc əməllərinin icrası insanı xeyir əməl sahibləri zirvəsinə qatır.

*AYƏ 38:*

﴿إِنَّ اللَّهَ يُدَافِعُ عَنِ الَّذِينَ آمَنُوا إِنَّ اللَّهَ لَا يُحِبُّ كُلَّ خَوَّانٍ كَفُورٍ﴾

**"Sözsüz ki, Allah iman gətirən kəsləri müdafiə edir. Həqiqətən, Allah heç bir xəyanətkar nankoru sevmir."**

**Nöqtələr.**

●Möminlərin müdafiəsi və onlara yardım ilahi vəd və sünnələrdəndir. Allah belə bir müdafiə və himayəni Özü üçün zəruri etmişdir.[1] Əlbəttə ki, ilahi müdafiə və yardım dedikdə, təkcə dərhal və qısa müddətli himayə nəzərdə tutulur. Uzun müddətli müdafiə də bu qəbildəndir. Möminlər bir döyüşdə zahirən məğlub olsalar da, onların amalları və düşüncələri qalibdir. İbn Mülcəm Həzrət Əlini (ə) şəhadətə çatdırdı. Allah İbn Mülcəmi himayə etdi, yoxsa Əlini (ə). Əlinin (ə) adı, Əlinin (ə) övladı, Əlinin (ə) kitabı, Əlinin (ə) münacatı, Əlinin (ə) izzəti, Əlinin (ə) şiəsi, Əlinin (ə) düşüncəsi nəhayət qələbəyə çatdı.

●"Xəvvan" və "kəfur" dedikdə küfr və xəyanət ruhu xarakterinə hopmuş şəxs başa düşülür.

**Bildirişlər**

1. Möminlərin müdafiəsi ilə bağlı Allahın vədi hökmən gerçəkləşəsidir.
2. Möminlər tənha və müdafiəsiz deyil.
3. Allahın himayəsi əbədidir.
4. Möminlər Allahın, Allah isə möminlərin ehtiramını qoruyur.
5. Möminlər Allahın sevimlisidirlər.
6. Allahın yardım və himayəsini insana nəsib edən imandır.[2]
7. Allahın qəhr-qəzəbi meyarlara əsaslanır. (Allahın dini bizim əlimizdə əmanətdir və ona xəyanət etmək olmaz.)
8. Bütün insanlar Allah qarşısında eynidir və kimsənin xəyanəti bağışlanmır.
9. Xəyanətdən də pisi xəyanətə vərdiş etməkdir. Küfrdən də pisi küfrə adət etməkdir.
10. Xəyanət küfr üçün zəmindir.
11. İmanı olmayan şəxs özünə, Allaha və Allahın rəsuluna xəyanət etmişdir.

*AYƏ 39:*

﴿أُذِنَ لِلَّذِينَ يُقَاتَلُونَ بِأَنَّهُمْ ظُلِمُوا وَإِنَّ اللَّهَ عَلَى نَصْرِهِمْ لَقَدِيرٌ﴾

**"Daim və məzlumcasına hücuma, qətlə məruz qalanlara müdafiə və cihad icazəsi verilmişdir. Əlbəttə, Allah onlara yardım etməyə qadirdir."**

---

[1] "Rum", 47

[2] "Rum", 47.

**Nöqtələr**

●Qeyd edirlər ki, bu ayə həzrət Peyğəmbərə (s) cihad və silahlı döyüş icazəsi vermiş ilk ayədir. Həzrət öz missiyasını üç mərhələdə həyata keçirirdi:

1) Dəvət, qəlb islahı, qüvvələrin tərbiyəsi;

2) Qüvvələrin təşkili və səfərbərliyi;

3) Müdafiə və ya hücum.

**Bildirişlər**

1. Allahın və peyğəmbərin izni olmadan cihada icazə yoxdur.
2. Məzlumlara öz düşmənləri ilə cihad etmək icazəsi verilib.
3. Yalnız biz ayağa qalxdıqdan sonra Allah yardım edir.
4. Döyüşçülərə ruhiyyə verin.
5. Haqq batilə qalibdir.
6. İlahi yardımlar təkcə hərbi yönümə malik deyil. Bu yardımın müxtəlif növləri var.
7. Allahın yardımı qətidir.
8. Allahın möminlərə yardımı geniş və əhatəlidir.

***AYƏ 40:***

﴿الَّذِينَ أُخْرِجُوا مِن دِيَارِهِمْ بِغَيْرِ حَقٍّ إِلَّا أَن يَقُولُوا رَبُّنَا اللَّهُ وَلَوْلَا دَفْعُ اللَّهِ النَّاسَ بَعْضَهُم بِبَعْضٍ لَّهُدِّمَتْ صَوَامِعُ وَبِيَعٌ وَصَلَوَاتٌ وَمَسَاجِدُ يُذْكَرُ فِيهَا اسْمُ اللَّهِ كَثِيرًا وَلَيَنصُرَنَّ اللَّهُ مَن يَنصُرُهُ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيزٌ﴾

**“(Hücuma məruz qalmış məzlumlar) o kəslərdir ki, haqsız olaraq evlərindən, yurdlarından qovulmuşlar. (Onların günahı) yalnız bu idi ki, deyirdilər: “Bizim Rəbbimiz bir olan Allahdır.” Allah bəzilərini bəziləri vasitəsi ilə dəf etməsə, sovməələr, sinaqoqlar, kilsələr və Allahın adının daha çox çəkildiyi məscidlər viran qalar. Şübhəsiz, Allah Ona yardım göstərənə yardım edir. Həqiqətən, Allah qüvvəli və məğlubedilməzdir.”**

**Nöqtələr**

●“Sovməə” dedikdə biyaban və mağaralarda rahiblərə məxsus ibadət və riyazət məhəlli nəzərdə tutulur. “Biyə” dedikdə məsihilərə, “sələvat” dedikdə yəhudilərə məxsus ibadət məhəlli nəzərdə tutulur.

●Məscidlərin xaraba qalması dedikdə parçalanma, ədalətli imamdan uzaqlıq, yoxsulların yaddan çıxarılması, vəziyyətdən xəbərsizlik, Allahdan qəflət nəzərdə tutulur. Bu səbəbdən də düşmən ilk öncə həmin mərkəzləri viran qoymaq istəyir.

**Bildirişlər**

1. Vətəndən didərginlik məzlumiyyətin ən aşkar nümunəsidir.

2. Vətəndə rahat yaşamaq insanın təbii haqqıdır, vətəndən çıxarılması isə ona qarşı zülümdür.

3. Quranda yer üzündə fitnə-fəsad törədənlərin sürgünü düzgün, möminlərin sürgünü yanlış sayılır.

4. Dindarlığın çətinliyi də var.

5. Möminlər Allah iradəsinin gerçəkləşməsi üçün vasitədirlər. (Allah möminlərin əli ilə müdafiə edir.)

6. Dini mərkəzlərin qorunması üçün bəzən qan vermək lazım gəlir.

7. İstər döyüş, istər qələm və bəyan, istərsə də digər proqramlarla məscidləri qorumaq mühümdür.

8. Düşmənin ən mühüm məqsədi fəal dini mərkəzlərin məhvidir. (Məbədlər cəmiyyətdə dinin hüzurunu göstərir.)

9. İbadətgahın adı və yeri mühüm deyil. Kafirlər və təcavüzkarlar istənilən bir yerdə Allahın zikri və onun yolu ilə vuruşurlar.

10. Dini mərkəzlərdə əsas məqsəd və əməllərin ruhu Allah zikridir.

11. Quran Allahın daha çox zikr olunduğu məscidləri xoş sözlərlə yad edir. (Harada Allah daha çox zikr olunursa, həmin yer daha müqəddəsdir.)

12. Bizim səy və təlaşımızdan sonra ilahi yardımlar nazil olur.

***AYƏ 41:***

﴿الَّذِينَ إِن مَّكَّنَّاهُمْ فِي الْأَرْضِ أَقَامُوا الصَّلَاةَ وَآتَوُا الزَّكَاةَ وَأَمَرُوا بِالْمَعْرُوفِ وَنَهَوْا عَنِ الْمُنكَرِ وَلِلَّهِ عَاقِبَةُ الْأُمُورِ﴾

**“O kəslər ki, əgər onları yer üzündə qüdrətə çatdırsaq, namazı bərpa edər, zəkat verər, yaxşılığa çağırar, pisliyə qadağa qoyarlar. Bütün işlərin sonu Allah üçündür.”**

**Nöqtələr**

●Əgər qüdrət və imkan saleh insanların əlində olsa düzgün bəhrələnər, biganələrin əlində olsa sui-istifadə edərlər. Beləcə, dünya və qüdrət bəziləri üçün nemət, bəziləri üçün bədbəxtlik vasitəsidir. Quran hər iki hal üçün nümunə göstərir. Bildirilir ki, möminlər qüdrətə çatsa, Allahın yolunu izləyər, biganələr qüdrətə çatsa, tüğyan qoparar, bəşər nəslinin məhvi üçün çalışar, nəhayət, insanları cəhənnəmə sürükləyərlər.[1]

**Bildirişlər**

1. Dinin dirçəldilməsi Allaha yardım sayılır.

2. Yaxşılığa əmr və pisliyə qadağa üçün qüdrətə ehtiyac var.

3. Möminlərin qələbəsi bəndəlik və qarşılıqlı yardım üçün zəmin hazırlayır, qəflət və qüruru aradan qaldırır.

---

[1] “Fələq”, 6; “Bəqərə”, 205; “Qəsəs”, 41.

4. Möminlər üçün bütün yer üzü eynidir. Onlar bacardıqları yerdə müqəddəs hədəfləri həyata keçirməyə çalışırlar.

5. Bütün qüdrət və imkanları Allahdan bilək.

6. Salehlərin hakimiyyətinin ilkin səmərəsi namaz, zəkat, yaxşılığa əmr və pisliyə qadağadır.

7. Allaha bağlılıq imkansızlara yardım, cəmiyyətə xəbərdarlıq, fəsadın qarşısının alınmasından ayrı deyil.

8. Namazın bərpası, zəkat ödənməsi, yaxşılığa əmr və pisliyə qadağa İslam hökuməti məsullarının qəti vəzifələrindəndir.

9. Mömin hakimlər həm mənəvi dirçəliş, həm də iqtisadi problemlərin həlli barədə düşünür, yoxsulluğu aradan qaldırmağa çalışırlar.

10. Namaz, zəkat, yaxşılığa əmr və pisliyə qadağa (əmr be məruf və nəhy əz münkər) dəyərlərini əsas götürmüş cəmiyyət Allahın himayəsi altındadır.

11. Yalnız fərdi vəzifələrinizə əməl etdikdən sonra sizin əmr və qadağalarınız cəmiyyətə təsir göstərər.

12. Namazın bərpası üçün qüdrət və imkana ehtiyac var.

13. Zəkat namazla qırılmaz şəkildə bağlıdır. (Quranın 28 ayəsində zəkat namazla yanaşı yada salınır.)

14. Bütün vəzifələrinizi yerinə yetirdikdən sonra belə aqibətinizdən arxayınlaşmayın. Çıxış yolu Allaha ümid və təvəkküldür.

15. Bugünkü imkanlar yalnız bir müddət əlinizdə qalasıdır.

***AYƏ 42:***

﴿وَإِن يُكَذِّبُوكَ فَقَدْ كَذَّبَتْ قَبْلَهُمْ قَوْمُ نُوحٍ وَعَادٌ وَثَمُودُ﴾

**“(Ey peyğəmbər) əgər səni təkzib edirlərsə, (nigaran olma, bil ki) bundan öncə Nuh, Ad və Səmud qövmü də peyğəmbəri təkzib etdi.”**

***AYƏ 43:***

﴿وَقَوْمُ إِبْرَاهِيمَ وَقَوْمُ لُوطٍ﴾

**“İbrahim və Lut qövmü (də peyğəmbəri təkzib etdi).”**

***AYƏ 44:***

﴿وَأَصْحَابُ مَدْيَنَ وَكُذِّبَ مُوسَى فَأَمْلَيْتُ لِلْكَافِرِينَ ثُمَّ أَخَذْتُهُمْ فَكَيْفَ كَانَ نَكِيرِ﴾

**“Mədyən (məntəqəsi) əhli də öz peyğəmbərini təkzib etdi. Musa da xalq tərəfindən təkzib olundu. Kafirlərə möhlət verdim, (qəflətə qərq olduqda) onları (qəzəbimlə) yaxaladım. Onlar üçün məchul əzab necə olacaq?!”**

**Bildirişlər**

1. Düşmənlərin təkzibi yolun davamına mane olmamalıdır.
2. Kafirlərin düşmənçiliyindən qorxmayın. (Allah peyğəmbərə təsəlli verir.)
3. Tarix təkrarlanır.
4. İbrət və tərbiyə üçün tarixdən faydalanın.
5. Nuh, İbrahim və Lut öz qövmləri tərəfindən təkzib olundu. Musa isə qövmü tərəfindən yox, qibtilər tərəfindən təkzib edildi.
6. Peyğəmbərlər göndərmək Allahın sünnəsi, qanunudur.
7. Allah günahkarlara möhlət verir.
8. Günahkarlar Allahın verdiyi möhləti məhəbbət və ya xəbərsizlik nişanəsi saymasınlar.

*AYƏ 45:*

﴿فَكَأَيِّن مِّن قَرْيَةٍ أَهْلَكْنَاهَا وَهِيَ ظَالِمَةٌ فَهِيَ خَاوِيَةٌ عَلَى عُرُوشِهَا وَبِئْرٍ مُّعَطَّلَةٍ وَقَصْرٍ مَّشِيدٍ﴾

**“Zülmə yol vermiş nə çox şəhərləri həlak etdik; onun (divarları) tavanları başı üzərinə uçulub töküldü. Nə çox (su ilə dolu) quyu boş qaldı, nə çox uca qəsrlər (viran oldu).”**

**Nöqtələr**

●“Xəva” sözündən olan “xaviyə” sözü uçub tökülmək, süqut etmək mənasını bildirir. “Məşid” dedikdə uca qəsr nəzərdə tutulur.

**Bildirişlər**

1. Allahın sitəmkarlara qəzəbi təsadüfi hadisə yox, təbii cərəyandır.
2. Tarixdən dərs alın.
3. Zülmün sonu həlakətdir.
4. Allahın qəzəbi qarşısında nə tavan, nə də sütun dayana bilir.

*AYƏ 46:*

﴿أَفَلَمْ يَسِيرُوا فِي الْأَرْضِ فَتَكُونَ لَهُمْ قُلُوبٌ يَعْقِلُونَ بِهَا أَوْ آذَانٌ يَسْمَعُونَ بِهَا فَإِنَّهَا لَا تَعْمَى الْأَبْصَارُ وَلَكِن تَعْمَى الْقُلُوبُ الَّتِي فِي الصُّدُورِ﴾

**“Yoxsa onlar yer üzünü seyr etmirlər ki, həqiqəti dərk edəsi qəlbləri, həqiqəti eşidəsi qulaqları olsun? Əlbəttə, onların gözləri kor deyil, amma sinələrindəki qəlbləri kordur.”**

**Bildirişlər**

1. Elmi və təcrübi səfərlər (seyr) dəyərli iş, məlumatı artırmaq üçün səmərəli yoldur.

2. Yer və zaman bir növ məktəbdir. Bu məktəbdə ibrət götürməyənlər məzəmmətə layiqdirlər.

3. İnsanların bir qrupu nə göndərilmiş peyğəmbərlərə, nə də batini peyğəmbəri olan ağıla tabe olmur.

4. Ağıl, qulaq və göz məlumat əldə etmə vasitələridir.

5. Qəlbin korluğu gözün korluğundan pisdir. Qəlbi kor insan heç vəchlə ibrət götürmür.

Bəli, haqq qarşısında inadkarlıq və düşmənçiliyin israrı insanı eybəcərləşdirir, onu o qədər alçaldır ki, nə ağılı həqiqəti dərk edir, nə gözü haqqı görür, nə də qulağı haqqı eşidir.

*AYƏ 47:*

﴿وَيَسْتَعْجِلُونَكَ بِالْعَذَابِ وَلَن يُخْلِفَ اللَّهُ وَعْدَهُ وَإِنَّ يَوْمًا عِندَ رَبِّكَ كَأَلْفِ سَنَةٍ مِّمَّا تَعُدُّونَ﴾

**“Kafirlər səndən ilahi əzabın tezləşməsini istəyirlər. Halbuki Allah heç vaxt Öz vədinə xilaf çıxmaz. Rəbbinin yanında bir gün sizin saydığınız min il yerindədir.”**

**Nöqtələr**

Peyğəmbərlərin xəbərdarlıqlarından sonra kafirlər tez-tez belə soruşurdular: “Haqqında danışdığınız ilahi qəzəb bizə nə vaxt gəlib çatacaq?” (Bu ayə Quranda 6 dəfə təkrarlanmışdır.) Hazırkı ayədə kafirlərə cavab verilir ki, tələsməyin, ilahi vəd dəyişməzdir.

**Bildirişlər**

1. Allahın möhlət verməsini Onun xəbərsizliyi, özümüz üçün qurtuluş kimi dəyərləndirməyək.

2. Yersiz istəklər, bəhanələr, yersiz suallar bizi süstləşdirməməlidir.

3. Zaman Allahın yanında fərqli mahiyyətə malikdir.

*AYƏ 48:*

﴿وَكَأَيِّن مِّن قَرْيَةٍ أَمْلَيْتُ لَهَا وَهِيَ ظَالِمَةٌ ثُمَّ أَخَذْتُهَا وَإِلَيَّ الْمَصِيرُ﴾

**“Bir çox abadlıqlara möhlət verdim, halbuki onlar sitəmkar idilər. (Onlar bu möhlətdən tövbə üçün istifadə etmədilər.) Sonra onu qəzəbimlə yaxaladım. Qayıdış yalnız Mənə doğrudur.”**

**Bildirişlər**

1. Sitəmkarlara möhlət verilməsi ilahi sünnələrdən biridir. Deməк, tələsməyimiz yersizdir.

2. Zülm ilahi qəzəbə səbəb olur.

*AYƏ 49:*

﴿قُلْ يَا أَيُّهَا النَّاسُ إِنَّمَا أَنَا لَكُمْ نَذِيرٌ مُّبِينٌ﴾

**“De ki, ey insanlar, həqiqətən, mən sizin üçün aşkar bir qorxudanam.”**

*AYƏ 50:*

﴿فَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ لَهُم مَّغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ﴾

**“İman gətirib saleh işlər görənlər üçün bağışlanma və yaxşı ruzi olacaq.”**

*AYƏ 51:*

﴿وَالَّذِينَ سَعَوْا فِي آيَاتِنَا مُعَاجِزِينَ أُوْلَئِكَ أَصْحَابُ الْجَحِيمِ﴾

**“Ayələrimizə qarşı çalışanlar və Bizi aciz qoya biləcəyini düşünənlər cəhənnəm əhlidirlər.”**

**Bildirişlər**

1. Peyğəmbərlər özbaşına danışmırdılar.
2. Peyğəmbərlərin xəbərdarlığı xalqın xeyrinədir.
3. Peyğəmbərin xalqı məcbur etmək haqqı yoxdur.
4. Xalqın müjdədən çox xəbərdarlığa ehtiyacı var.
5. Peyğəmbər xalqla açıq-aşkar danışır.
6. İman saleh əməldən ayrı deyil.
7. Mənəvi mükafat maddi mükafatdan öndə gəlir.
8. Yalnız minnətsiz ruzi dəyərlidir.
9. İlahi amalların həyata keçməsinə kimsə mane ola bilməz. Qoy kafirlər boş yerə çalışsınlar!
10. Kafirlərin nə yeni bir sözü, nə də məntiqi var. Onların işi yalnız haqq yolda maneə yaratmaqdır.
11. Xalqın bir hissəsi üçün cəhənnəm əbədidir.

*AYƏ 52:*

﴿وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رَّسُولٍ وَلَا نَبِيٍّ إِلَّا إِذَا تَمَنَّى أَلْقَى الشَّيْطَانُ فِي أُمْنِيَّتِهِ فَيَنسَخُ اللَّهُ مَا يُلْقِي الشَّيْطَانُ ثُمَّ يُحْكِمُ اللَّهُ آيَاتِهِ وَاللَّهُ عَلِيمٌ حَكِيمٌ﴾

**“Səndən öncə elə bir peyğəmbər göndərmədik ki, o arzu etdikdə şeytan Öz təlqini ilə onun arzularına mane olmasın. Amma Allah şeytanın bütün təlqinlərini aradan götürər, sonra öz ayələrini möhkəmləndirər. Allah elm və hikmət sahibidir.”**

**Nöqtələr**

●Şeytanın vəsvəsələrinə, təlqinlərinə münasibətdə, xalq bir neçə qrupa bölünür:

1. Şeytanın vəsvəsələri ruhuna təsir göstərənlər.[1]

2. Şeytanla təmasda olub, məsələni tez bir zamanda anlayıb onu rədd edənlər.[2]

3. Daim şeytanla birlikdə olanlar.[3]

Peyğəmbərlər bu qrupların heç birinə daxil deyildirlər. Onlar məsumdurlar. Şeytan onlara yaxınlaşa bilmir, ruhlarına vəsvəsə etməkdə, onlarla təmas qurmaqda acizdir. Şeytanın peyğəmbərlərin arzularına təlqini ola bilər. Amma məlum məsələdir ki, peyğəmbərlərin proqramları onların şəxsi məsələlərindən fərqlənir.

**Bildirişlər**

1. İslam Peyğəmbəri (s) son peyğəmbərdir.

2. Haqla batil arasındakı ziddiyyət daimi bir cərəyandır.

3. Bütün peyğəmbərlər eyni mərtəbədə deyil. (Rəsul nəbidən daha geniş təbliğə məsuldur.)

4. Peyğəmbərlərin öz məqsədləri ilə bağlı proqramları var.

5. Şeytan peyğəmbərlərə təsir göstərə bilməsə də, məqsədlərlə bağlı vəsvəsəyə əl atır.

6. Şeytanın vəsvəsələri ən üstün proqramlar üçün də təhlükə törədir.

7. Haqq-batil qarşıdurmasında Allah batili məhv edir, haqqı möhkəmləndirir.

8. Haqqın batilə qələbəsi üçün tələsməyin.

9. Allahın himayəsi olmadan haqq möhkəmlənməz.

10. Haqla batil arasındakı ziddiyyət, haqqın batilə qələbəsi Allahın hikmət və elmə əsaslanan planlarındandır.

***AYƏ 53:***

﴿لِيَجْعَلَ مَا يُلْقِي الشَّيْطَانُ فِتْنَةً لِّلَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ وَالْقَاسِيَةِ قُلُوبُهُمْ وَإِنَّ الظَّالِمِينَ لَفِي شِقَاقٍ بَعِيدٍ﴾

**“Şeytanın təlqinləri qəlblərində xəstəlik olanlar və qəlbi daşlar üçün sınaq vasitəsi qərar verildi. Şübhəsiz, sitəmkarlar uzun və dərin bir düşmənçilikdədirlər.”**

---

[1] “Nas”, 5.

[2] Əraf”, 201.

[3] “Zuxruf”, 36.

**Bildirişlər**

1. Şeytanın təlqinləri daş və xəstə qəlbli insanların sınağı üçün vasitədir. (Ruhi xəstəlik və daş qəlblilik şeytanın tələsinə düşmək üçün münasib zəmindir.)

2. Daş qəlblilik özü ruhi xəstəliyin bir növü olsa da, daha çox əhəmiyyət daşıdığından ayrıca zikr olunmuşdur.

3. Şeytani təlqinlərin təsiri altına düşən daş qəlbli insanlar zalımlardır.

***AYƏ 54:***

﴿وَلِيَعْلَمَ الَّذِينَ أُوتُوا الْعِلْمَ أَنَّهُ الْحَقُّ مِن رَّبِّكَ فَيُؤْمِنُوا بِهِ فَتُخْبِتَ لَهُ قُلُوبُهُمْ وَإِنَّ
اللَّهَ لَهَادِ الَّذِينَ آمَنُوا إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**“Həm də agahlar bilsinlər ki, həqiqətən o, (peyğəmbərlərin arzusu) sənin Rəbbin tərəfindən olan bir haqdır. Ona iman gətirsinlər, qəlbləri onun qarşısında müti olsun. Şübhəsiz, Allah iman gətirənləri doğru yola hidayət edər.”**

**Nöqtələr**

●Şeytanın təlqinləri peyğəmbərlərin proqramlarına və onların Allah tərəfindən dayandırılmasına iki cür təsir edir:

1. Daş və xəstə qəlblilər üçün sınaq vasitəsidir;

2. Şeytan təlqinlərinin daşa dəyməsi qəlbin nuraniyyətinə və elm əhlinin imanına səbəb olur.

**Bildirişlər**

1. Elm insana haqqı batildən fərqləndirmək gücü verir.

2. Bəzən maddi və mənəvi bəhrələnmə insanların şəxsi keyfiyyətlərindən asılı olur. Şeytanın hansısa təlqini daş qəlbli insanlar üçün fitnə, elm əhli üçün mərifət açarı olur.

3. Elm insanlara verilmiş ilahi bir hədiyyədir.

4. Elm əhli daş və xəstə qəlbli olmamalıdır.

5. Elm də, haqq da, hidayət də Allahdandır.

6. Elm, iman və mütilik təkamül mərhələlərindəndir.

7. Hər kəs imanda ilk addımı atsa, Allah onu növbəti addımlarda müvəffəq edər.

*AYƏ 55:*

﴿وَلَا يَزَالُ الَّذِينَ كَفَرُوا فِي مِرْيَةٍ مِّنْهُ حَتَّى تَأْتِيَهُمُ السَّاعَةُ بَغْتَةً أَوْ يَأْتِيَهُمْ عَذَابُ يَوْمٍ عَقِيمٍ﴾

**“Küfrə uğrayanlar daim Quran və peyğəmbərliyə münasibətdə şəkdədirlər. Nəhayət, Qiyamət onları qəfildən yaxalayar, ya da bəhrəsiz bir günün əzabı soraqlarına gələr.”**

**Bildirişlər**

1. Əgər şəkk-şübhə araşdırma və iman üçün müqəddimə olsa, dəyər sayılar. Sonu azğınlıq və əzab olan şəkk-şübhə pisdir.
2. Hər adamdan iman intizarında olmayın. Çünki bəzilərinə heç bir dəlil təsir etmir.
3. Küfr və haqla mübarizə yolunu seçən kəs istənilən bir həqiqət qarşısında şəkk-şübhəyə düşər.
4. Ölüm və Qiyamət qəfil hadisədir. Heç vaxt qəflətdə olmayaq.
5. Qiyamət qopduqdan sonra keçmiş səhvləri düzəltmək üçün fürsət qalmır.

*AYƏ 56:*

﴿الْمُلْكُ يَوْمَئِذٍ لِّلَّهِ يَحْكُمُ بَيْنَهُمْ فَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ فِي جَنَّاتِ النَّعِيمِ﴾

**“Qiyamət günü hakimiyyət yalnız Allaha məxsusdur. O, xalq arasında mühakimə aparar. İman gətirib saleh işlər görənlər nemət dolu bağlarda qalar.”**

**Bildirişlər**

1. Qiyamət günü hər şey Allahın iradəsindən asılıdır, kimsədə hansısa qüdrət yoxdur.
2. Allahın mühakiməsi bizim öz əməllərimizə əsaslanır.

*AYƏ 57:*

﴿وَالَّذِينَ كَفَرُوا وَكَذَّبُوا بِآيَاتِنَا فَأُوْلَئِكَ لَهُمْ عَذَابٌ مُّهِينٌ﴾

**“Küfrə uğrayıb ayələrimizi təkzib edənlər üçün zəliledici əzab var.”**

**Bildirişlər**

1. Qiyamətdə insanların küfr və ya imanı əsasında mühakimə aparılar.
2. Təkəbbürlə haqdan üz çevirənin cəzası zəliledici əzabdır.

*AYƏ 58:*

﴿وَالَّذِينَ هَاجَرُوا فِي سَبِيلِ اللَّهِ ثُمَّ قُتِلُوا أَوْ مَاتُوا لَيَرْزُقَنَّهُمُ اللَّهُ رِزْقًا حَسَنًا وَإِنَّ اللَّهَ لَهُوَ خَيْرُ الرَّازِقِينَ﴾

**“Allah yolunda hicrət edən, sonra öldürülən kəslərə, şübhəsiz, Allah yaxşı ruzi verəcək. Həqiqətən, Allah ruzi verənlərin ən üstünüdür.”**

*AYƏ 59:*

﴿لَيُدْخِلَنَّهُم مُّدْخَلًا يَرْضَوْنَهُ وَإِنَّ اللَّهَ لَعَلِيمٌ حَلِيمٌ﴾

**“Şübhəsiz, Allah onları razı qalacaqları bir məhəllə daxil edər. Həqiqətən, Allah bilən və həlimdir.”**

**Bildirişlər**

1. Məqsədli hicrət dəyərli bir işdir.
2. Allah yolunda hicrətdə ölənlər şəhid kimidirlər. (Əsas məsələ ölüm və ya şəhadət yox, Allah yolunda olmaqdır.)
3. Allah yolunda nakamlıq yoxdur. Allahın saleh bəndələri dünya ləzzətlərindən məhrum olsalar da, onları böyük axirət nemətləri gözləyir.
4. İlahi vədlərin həyata keçəcəyinə şübhə yoxdur.
5. Dünya ruzisi bəzən şirindir, bəzən də acı. Amma behişt əhli yalnız yaxşı ruzidən faydalanır.
6. Həqiqi ruzi verən Allahdır. Başqaları yalnız vasitə ola bilər.
7. Xoşagələn məskən və mənzil yaxşı ruzi nümunələrindəndir.

*AYƏ 60:*

﴿ذَلِكَ وَمَنْ عَاقَبَ بِمِثْلِ مَا عُوقِبَ بِهِ ثُمَّ بُغِيَ عَلَيْهِ لَيَنصُرَنَّهُ اللَّهُ إِنَّ اللَّهَ لَعَفُوٌّ غَفُورٌ﴾

**“(Bəli, hökm) budur. Hər kəs özünə verilən sitəm həddində cəzalandırsa, yenidən zülmə düçar olduqda, şübhəsiz, Allah ona yardım edəcək. Əlbəttə, Allah əfv edib bağışlayandır.”**

**Nöqtələr**

●“Təfsiri-nümunə”də oxuyuruq: “Müşriklər məhərrəm ayında dedilər: “Müsəlmanlar bu ayda döyüşü haram sayırlar. Onlar bu ayda müdafiə də olunmayacaqlar, belə isə yubanmadan hücum edək.” Ayədə isə buyurulur: “İstənilən bir ayda müdafiə vacibdir.”

**Bildirişlər**

1. Müdafiə hər bir insanın təbii haqqıdır.
2. Ədalət hər yerdə dəyərdir.
3. Məzluma yardım bəzən zalımın məhvi ilə müşayiət olunmur.
4. Allah məzluma yardım edir, amma onun müəyyən səbəblərdən zalımı da bağışlaması mümkündür.

*AYƏ 61:*

﴿ذَلِكَ بِأَنَّ اللَّهَ يُولِجُ اللَّيْلَ فِي النَّهَارِ وَيُولِجُ النَّهَارَ فِي اللَّيْلِ وَأَنَّ اللَّهَ سَمِيعٌ بَصِيرٌ﴾

**“Bu, (ilahi yardım vədi) Allahın (hər şeyə qadir olması,) gecəni gündüzə, gündüzü gecəyə qərq etməsinə xatirdir. Əlbəttə, Allah eşidən və görəndir.”**

**Nöqtələr**

●Allah-təala ötən ayədə buyurdu ki, Biz məzluma yardım edərik. Bu və bundan sonrakı ayədə isə yardım dəlilləri və zəminləri qeyd olunur: Allahın qüdrəti, Allahın elmi, Allahın haqq olması, Allahın böyüklüyü və əzəməti.

**Bildirişlər**

1. Allahın gecə və gündüzü dəyişmə qüdrəti və elmi Onun bəndələrə yardım gücünün nişanəsidir.
2. Gecə və gündüzün dəyişməsi təsadüfi deyil. Varlıq aləmindəki işlərin hikmət və elm sahibi olan aparıcısı var.

*AYƏ 62:*

﴿ذَلِكَ بِأَنَّ اللَّهَ هُوَ الْحَقُّ وَأَنَّ مَا يَدْعُونَ مِن دُونِهِ هُوَ الْبَاطِلُ وَأَنَّ اللَّهَ هُوَ الْعَلِيُّ الْكَبِيرُ﴾

**“Bunun (məzluma yardımın) səbəbi odur ki, Allah haqdır, ondan savay kimi çağırsalar batildir. Əlbəttə, Allah uca mərtəbəli və böyükdür.”**

**Bildirişlər**

1. Gecə və gündüzün dəyişməsi Allahın tədbir, rübubiyyət və birliyini göstərən aşkar nişanədir.
2. Ondan savay bütün məbudlar uydurmadır.
3. Həqiqət ölçüsü yalnız Allah-təaladır.

*AYƏ 63:*

﴿أَلَمْ تَرَ أَنَّ اللَّهَ أَنزَلَ مِنَ السَّمَاء مَاء فَتُصْبِحُ الْأَرْضُ مُخْضَرَّةً إِنَّ اللَّهَ لَطِيفٌ خَبِيرٌ﴾

**"Görmədinmi ki, Allah səmadan su endirdi, sonra yer yaşıllaşdı? Həqiqətən, Allah lütf və agahlıq sahibidir."**

**Bildirişlər**

1. Varlıq aləminin mütaliəsi Allaha iman üçün zəmindir.
2. Allah varlıq aləmində təbii amillər əsasında iş görür.
3. Təbiətin əsərləri və bərəkətləri ondandır. (Əgər yağış yer üzünü yaşıllaşdırırsa, bu da ilahi mərhəmətdir.)

*AYƏ 64:*

﴿لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ وَإِنَّ اللَّهَ لَهُوَ الْغَنِيُّ الْحَمِيدُ﴾

**"Səmalarda və yerdə nə varsa Ona məxsusdur. Həqiqətən, ehtiyacsız və tərifə layiq olan Allahdır."**

**Nöqtələr**

●İnsan vücudu başdan-başa ehtiyac içindədir, havaya, qidaya, məskənə, libasa və digər şeylərə möhtacdır. İnsan bir anlıq özünü ehtiyacsız bildikdə tüğyan qoparır, fəsad törədir. Belə bir hal təqvasızlıq, qəflət, istismarla nəticələnir. Amma Allah mütləq surətdə ehtiyacsızdır və hər cür tərifə layiqdir.

**Bildirişlər**

1. Bütün varlıq aləmi möhtac, Allah isə ehtiyacsızdır.

*AYƏ 65:*

﴿أَلَمْ تَرَ أَنَّ اللَّهَ سَخَّرَ لَكُم مَّا فِي الْأَرْضِ وَالْفُلْكَ تَجْرِي فِي الْبَحْرِ بِأَمْرِهِ وَيُمْسِكُ السَّمَاء أَن تَقَعَ عَلَى الْأَرْضِ إِلَّا بِإِذْنِهِ إِنَّ اللَّهَ بِالنَّاسِ لَرَؤُوفٌ رَّحِيمٌ﴾

**“Görmədinmi ki, Allah yer üzündə nə varsa, həm də Onun əmri ilə dəryada üzən gəmiləri sizə ram etdi, göyləri saxladı ki, Onun əmri olmadan yerə enməsin?! Həqiqətən, Allah insanlara qarşı mehriban və mərhəmətlidir.”**

**Nöqtələr**

●Mövcudların ram edilməsi dedikdə, onların bütünlüklə insanın istifadəsinə verilməsi nəzərdə tutulur. Günəş ram olmuşdur, yəni biz ondan bəhrələnirik.

●Yer üzündəki nemətlərlə yanaşı gəminin adının ayrıca qeyd olunması onun mühüm rola malik olduğunu göstərir. Elə günü bu gün su hövzələrində hərəkət edən gəmilər dayansa, dünyanın iqtisadiyyatı iflic olar.

**Bildirişlər**

1. Yaranışın mütaliəsi həm iman, həm də eşq üçün zəmindir.
2. Varlıq aləminin ram olunması Allahın iradəsindən asılıdır.
3. İnsan yer üzünə və ondakı hadisələrə qalib gələ bilər. (Bəşəriyyət yer üzündə mövcud olan yaranışların şərafətlisidir.)
4. Təbiətin seyri Allahın iradəsindən asılıdır.
5. Göy və göydə olanlar Allah tərəfindən öz yerindəcə saxlanılırlar.
6. Varlıq aləmindəki nizam və onun hifzi Allahın daimi nəzarətinə ehtiyaclıdır.
7. Təbiət qanunları Allahın iradəsi qarşısında dayana bilməz.
8. Allahın mehribanlığı və mərhəməti Onun lütfünə dəlildir.

Təbiətin insana ram edilməsi, gəmilərin dəryada hərəkəti, səma cisimlərinin təhlükəsiz hərəkəti Allahın mehribanlıq və mərhəməti ilə təmin olunur.

9. Bütün insanlar Allahın lütfündən bəhrələnir.

***AYƏ 66:***

﴿وَهُوَ الَّذِي أَحْيَاكُمْ ثُمَّ يُمِيتُكُمْ ثُمَّ يُحْيِيكُمْ إِنَّ الْإِنسَانَ لَكَفُورٌ﴾

**“Sizi diriləldən, sonra öldürən, növbəti dəfə canlandıran Odur. Əlbəttə, insan çox nankordur.”**

**Bildirişlər**

1. Ölüm və həyat, keçmiş və gələcək Allahın əlində olduğu halda, insan tüğyan qoparıb nankorluq edir.

***AYƏ 67:***

﴿لِكُلِّ أُمَّةٍ جَعَلْنَا مَنسَكًا هُمْ نَاسِكُوهُ فَلَا يُنَازِعُنَّكَ فِي الْأَمْرِ وَادْعُ إِلَى رَبِّكَ إِنَّكَ لَعَلَى هُدًى مُّسْتَقِيمٍ﴾

**“Hər bir ümmət üçün əməl etsinlər deyə ayinlər müəyyənləşdirdik. Bu barədə səninlə mübahisə etməməlidirlər. (Xalqı) Rəbbinin yoluna çağır. Həqiqətən, sən doğru yoldasan.”**

**Nöqtələr**

●İnsanların mövsümi, ictimai və qeyri-sabit ehtiyacları olduğundan onlar üçün müxtəlif şəraitlərdə yeni göstərişlər verilməlidir. Necə ki, şərait dəyişdikcə həkim də yazdığı nüsxəni dəyişir. Yaşadığımız dövrdə fəqihlər (din alimləri) ümumi qanunlar çərçivəsində müsəlmanlara yeni göstərişlər verirlər.

●Bəziləri "mənsək" sözünün qurbanlıq mənasında olduğunu əsas götürüb ayəni belə mənalandırırlar: "Biz hər bir ümmət üçün bir növ qurbanlıq müəyyənləşdirdik ki, ona əməl etsinlər. Buna görə də müşriklər sənin qurbanlıq göstərişinə bəhanə tutmamalıdırlar."

**Bildirişlər**

1. Allah heç bir ümməti məktəbsiz qoymur.
2. Din Allah tərəfindən olmalıdır.
3. Xalq ilahi yolda qədəm götürməlidir.
4. Təbliğatçının vəzifəsi ümmətin hidayəti və bu yolda sabitqədəmlikdir.
5. Doğru yol peyğəmbərlərin yoludur.
6. Müxaliflərin təzyiqləri, düşmənçiliklərinə cavab üçün həqiqi rəhbərlərdən güc almaq lazımdır.
7. Başqalarının doğru yola çağırışını öhdəsinə götürmüş kəs özü haqq yolda olmalıdır.[1]

*AYƏ 68:*

﴿وَإِن جَادَلُوكَ فَقُلِ اللَّهُ أَعْلَمُ بِمَا تَعْمَلُونَ﴾

**"Əgər (kafirlər) səninlə mübahisəyə başlasalar, onlara de ki, Allah sizin əməllərinizdən daha çox agahdır."**

*AYƏ 69:*

﴿اللَّهُ يَحْكُمُ بَيْنَكُمْ يَوْمَ الْقِيَامَةِ فِيمَا كُنتُمْ فِيهِ تَخْتَلِفُونَ﴾

**"Allah Qiyamət günü aranızdakı ixtilaflar barəsində mühakimə aparacaq."**

[1] "Yasin", 3, 4.

**Bildirişlər**

1. Allah Öz peyğəmbərinə təsəlli verib onu məlumatlandırır.

2. Peyğəmbərlər hətta möcüzə və məntiq vasitəsi ilə də inadkar fərdləri razı sala bilmirdilər.

3. Allahın zikri və işlərin Ona həvaləsi ən üstün aramlıq vasitəsidir.

4. İnadkar və höcətkeş fərdlərlə ağız-ağıza verməyin.

5. Qiyamətdə hökm verən hər şeyə şahid və hər şeydən agah olan Allah-təaladır. (Kamil mühakimənin kamil elmə ehtiyacı var.)

6. Allahın elm və mühakiməsinə iman mömінləri arxayınlaşdırır, kafirləri hədələyir.

7. Qiyamətə iman ixtilaf və çəkişmələrin qarşısını almaq üçün ən üstün vasitədir.

8. Haqq və batil cəbhələri arasındakı döyüşün uzun tarixi var.

*AYƏ 70:*

﴿أَلَمْ تَعْلَمْ أَنَّ اللَّهَ يَعْلَمُ مَا فِي السَّمَاءِ وَالْأَرْضِ إِنَّ ذَلِكَ فِي كِتَابٍ إِنَّ ذَلِكَ عَلَى اللَّهِ يَسِيرٌ﴾

**“Bilmirsənmi ki, Allah yerdə və göydə olanları bilir? Bütün bunlar Kitabdadır və bu, Allah üçün asandır.”**

**Bildirişlər**

1. Allah bütün varlıq aləmindən tam xəbərdardır.

2. Allahın elmi bir kitabda vardır. (Və ya sizin gördüyünüz işlər (əvvəlki iki ayədə qeyd olunanlar) kitabda təsbit olunmuşdur.)

3. Allah üçün bütün işlərdən xəbərdar olmaq və onları kitabda qeydə götürmək asandır.

*AYƏ 71:*

﴿وَيَعْبُدُونَ مِن دُونِ اللَّهِ مَا لَمْ يُنَزِّلْ بِهِ سُلْطَانًا وَمَا لَيْسَ لَهُم بِهِ عِلْمٌ وَمَا لِلظَّالِمِينَ مِن نَّصِيرٍ﴾

**“Kafirlər Allahdan qeyri elə bir şeyə pərəstiş edirlər ki, onun haqqında heç bir dəlil göndərilməmişdir. Kafirlərin onun haqqında heç bir məlumatı yoxdur. Sitəmkarlara heç bir yardımçı tapılmaz.”**

**Nöqtələr**

●Müşriklər elə düşünürdülər ki, Allah bəzi əşyalara, bütlərə tədbir tökmək gücü vermişdir, amma özü onların fövqündə dayanır. Onların nəzərincə, varlıq aləmini tanrılar idarə edirdi. Allahı isə tanrıların tanrısı kimi tanıyırdılar. Bu

ayədə isə buyurulur ki, Allah sizin xəyali məbudlarınızın heç birinə qüdrət verməyib, varlıq aləmi yalnız Onun tərəfindən idarə olunur.

●Ola bilsin ki, ayədə “sultan” (sultə, hakimiyyət) dedikdə elmi dəlillər nəzərdə tutulmuşdur. Yəni müşriklərin üz tutduğu məbudlar və bütlər haqqında Allah tərəfindən heç bir elmi və məntiqi dəlil, vəhy nazil olmamışdır.

**Bildirişlər**

1. İnsanı ya Allah göstərişi, ya ağıl və biliyi, ya da ilahi yardıma ümidi pərəstişə sövq edir.
2. Vəhyə əsaslanmayan, elmi dəlili olmayan pərəstiş zülümdür.

### *AYƏ 72:*

﴿وَإِذَا تُتْلَى عَلَيْهِمْ آيَاتُنَا بَيِّنَاتٍ تَعْرِفُ فِي وُجُوهِ الَّذِينَ كَفَرُوا الْمُنكَرَ يَكَادُونَ يَسْطُونَ بِالَّذِينَ يَتْلُونَ عَلَيْهِمْ آيَاتِنَا قُلْ أَفَأُنَبِّئُكُم بِشَرٍّ مِّن ذَلِكُمُ النَّارُ وَعَدَهَا اللَّهُ الَّذِينَ كَفَرُوا وَبِئْسَ الْمَصِيرُ﴾

**“Aşkar ayələrimiz onlara oxunan vaxt küfrə uğrayanların çöhrəsində qəzəb görərsən. Onlar az qalır ayələrimizi oxuyanlara hücum edələr. De ki, sizə bundan da pisini xəbər verimmi? Bir od ki, Allah kafirlərə vəd etmişdir və necə də pis aqibətdir.”**

**Nöqtələr**

●“Yəstunə” sözü hücum mənasını bildirir.

●Küfrlə imanın mübarizəsində kafirlər mənəvi mərkəzləri və şəxsiyyətləri hədəfə alırlar. Onlar bəzən ibadət mərkəzlərinə də hücum çəkir.[1]

**Bildirişlər**

1. Kafirlər daim inkar mövqeyindədirlər.
2. Allah kafirlərə höccəti tamamlayır, yetərli dəlillər gətirib bəhanələri kəsir.
3. Höccət və dəlillər aydın olmalıdır.
4. Kafirlərin kin-küdurəti gizli qalmaz.
5. Qəlbin inkarı cismə təsir göstərir.
6. Əlində dəlil olmayan fərd zora əl atır. Zor, məntiqdə acizlik nişanəsi sayılır.
7. Din təbliğatçıları və ardıcılları özlərini müxaliflərdən müdafiəyə hazırlasınlar.
8. Dinin aşkar təbliğatı kafirlərin canı üçün bir oddur.
9. İnadkar insanlara xəbərdarlıq edərkən cəhənnəmi xatırladın.

---

[1] “Həcc”, 40.

*AYƏ 73:*

﴿يَا أَيُّهَا النَّاسُ ضُرِبَ مَثَلٌ فَاسْتَمِعُوا لَهُ إِنَّ الَّذِينَ تَدْعُونَ مِن دُونِ اللَّهِ لَن يَخْلُقُوا ذُبَابًا وَلَوِ اجْتَمَعُوا لَهُ وَإِن يَسْلُبْهُمُ الذُّبَابُ شَيْئًا لَّا يَسْتَنقِذُوهُ مِنْهُ ضَعُفَ الطَّالِبُ وَالْمَطْلُوبُ﴾

**“Ey insanlar! Bir məsəl çəkilib, onu dinləyin. Həqiqətən, Allah əvəzinə çağırdıqlarınız əl-ələ versələr də, heç vaxt bir milçək belə yarada bilməzlər. Əgər həmin milçək onlardan bir şey oğurlasa, apardığını geri ala bilməzlər. İstəyən də, istənilən də acizdir.”**

*AYƏ 74:*

﴿مَا قَدَرُوا اللَّهَ حَقَّ قَدْرِهِ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيزٌ﴾

**“(Müşriklər) Allahı layiqincə böyük tutmadılar. Şübhəsiz, Allah qüvvət və izzət sahibidir.”**

**Bildirişlər**

1. Müraciət qarşı tərəfin halına uyğun olmalıdır. (Müşriklərin səviyyəsinə uyğun olaraq onlara “ey insanlar” deyə müraciət olunur.)
2. Təbliğdə öncə qarşı tərəfi dinləməyə hazırlayaq, sonra sözə başlayaq.
3. Quran misallarına lazımınca diqqət yetirək.
4. Əgər insanlar bütün güclərini işə salsalar, ən kiçik canlı varlığı yarada bilməzlər.
5. Ən xırda yaranmışı da kiçik saymayaq.
6. Milçək qarşısında aciz qalan kəs ibadətə layiq deyil.
7. Müşriklər Allahı qəbul edirdilər, amma ondan başqalarına da əyilirdilər.
8. Başqalarından yardım diləmək insanı şirkə aparır. Allahdan qeyrilərini kənara qoymaq, yalnız Onun sorağınca getmək lazımdır. Qüdrət və izzət Allaha məxsusdur.

*AYƏ 75:*

﴿اللَّهُ يَصْطَفِي مِنَ الْمَلَائِكَةِ رُسُلًا وَمِنَ النَّاسِ إِنَّ اللَّهَ سَمِيعٌ بَصِيرٌ﴾

**“Allah mələklər və xalq arasından elçilər seçər. Həqiqətən, Allah eşidən və görəndir.”**

*AYƏ 76:*

﴿يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَإِلَى اللَّهِ تُرْجَعُ الأُمُورُ﴾

**“(Allah) onları öndə gözləyəni və başlarına gələnləri bilir. Bütün işlər Allaha doğru qayıdasıdır.”**

**Nöqtələr**

●“Səfvət” sözündən olan “istəfa” sözü xalis mənasını bildirir. Xalislərdən seçim göstərir ki, insanlar və mələklər arasında ləyaqətliləri, xalisləri vardır.

●Əbuzər həzrət Peyğəmbərdən (s) nəql edir ki, peyğəmbərlərin ümumi sayı 124000 nəfər olmuşdur. Onlardan 313 nəfəri rəsuldur.[1]

●Allahın mələkləri eyni deyil. Onların məqam və məsuliyyətləri fərqlənir. Cəbrail, Mikail, Əzrail kimi bəzi mələklərin daha üstün məqamı var.

**Bildirişlər**

1. Peyğəmbər seçimi yaradan və hər şeydən xəbərdar olan Allahın haqqıdır.
2. Hər kəsdə elçilik ləyaqəti və istedadı olmur.
3. Aləm Allahın hüzurudur.
4. Əgər Allah hər şeydən xəbərdardırsa və hər birimiz Ona doğru qayıdacağıqsa günaha yol verməyək.
5. Allah varlıq aləmini elə yaradıb ki, hər şey Ona doğru qayıdışdadır.
6. Allaha doğru hərəkət mövcudların istəyindən asılı deyil.
7. Varlıq karvanı müəyyən bir hədəfə doğru hərəkətdədir.

***AYƏ 77:***

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا ارْكَعُوا وَاسْجُدُوا وَاعْبُدُوا رَبَّكُمْ وَافْعَلُوا الْخَيْرَ لَعَلَّكُمْ تُفْلِحُونَ﴾

**”Ey iman gətirənlər!” Rükuya əyilin, səcdə qılın, Rəbbinizə ibadət edin, xeyir işlər görün. Ola bilsin ki, nicat tapasınız.”**

**Nöqtələr**

●Rüku və səcdələr ibadət nümunəsi olsa da, bu ayədə uyğun nümunələrin “ibadət edin” göstərişi ilə yanaşı işlənməsi namazın, rüku və səcdə rüknlərinin (əsaslarının) əhəmiyyətini göstərir.

İnsanın xoşbəxtliyə çatması üçün iki proqram təqdim olunur və onun qurtuluşu hər iki proqramın icrasından asılıdır:

a) Rüku, səcdələr və digər ibadətlər kimi sabit proqramlar:

b) Zaman və məkanla şərtlənən dəyişən proqramlar.

**Bildirişlər**

1. İxtiralar, kəşflər kimi xeyir işlər iman və bəndəlik sayəsində səmərəli olur.

---

[1] “Təfsiri-bürhan”.

2. Rüku, səcdə, ibadət, xeyir iş əhli olsanız da nicat tapdığınızı düşünməyin.Çünki qürur bəlası və əməllərin puça çıxması daim sizin sorağınızdadır.

3. Qurtuluş təkamülün son mərhələsidir. İbadət və xeyir işlərdən sonra qurtuluşa ümid etmək olar.

*AYƏ 78:*

﴿وَجَاهِدُوا فِي اللَّهِ حَقَّ جِهَادِهِ هُوَ اجْتَبَاكُمْ وَمَا جَعَلَ عَلَيْكُمْ فِي الدِّينِ مِنْ حَرَجٍ
مِّلَّةَ أَبِيكُمْ إِبْرَاهِيمَ هُوَ سَمَّاكُمُ الْمُسْلِمِينَ مِن قَبْلُ وَفِي هَذَا لِيَكُونَ الرَّسُولُ شَهِيدًا
عَلَيْكُمْ وَتَكُونُوا شُهَدَاء عَلَى النَّاسِ فَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ وَاعْتَصِمُوا بِاللَّهِ
هُوَ مَوْلَاكُمْ فَنِعْمَ الْمَوْلَى وَنِعْمَ النَّصِيرُ﴾

**“Allah yolunda Ona layiq cihad edin! O sizi (ümmətlər arasından seçdi) və dində (İslamda) sizin üçün heç bir çətinlik qoymadı. Atanız İbrahimin ayini (sorağınca gedin). O sizi öncədən müsəlman adlandırdı. Bu peyğəmbər sizə, siz də xalqa şahid olasınız deyə! Namaz qılın, zəkat ödəyin, Allaha bağlanın. O sizin mövlanız və haminizdir. Necə də yaxşı himayə, necə də yaxşı kömək!”**

**Nöqtələr**

●Bildiyimiz kimi, şahidlik üçün elm və ədalətə ehtiyac var. İnsanlar adil və agah deyil ki, başqalarına şahid olsun. Demək, müsəlmanların şahidliyi dedikdə onlardan bəziləri nəzərdə tutulur. Bu müsəlmanlar xalqın əməl və rəftarlarından xəbərdardırlar, etibarlı və ədalətlidirlər. Rəvayətlərdə bildirildiyi kimi, bu zümrə Peyğəmbər Əhli-beyti və məsum imamlardan (ə) ibarətdir. Bizim əməl və rəftarlarımız onlara təqdim olunur.

●Allah surənin başlanğıcında Qiyamətin böyük zəlzələsindən və şiddətli əzabdan danışır. Surənin sonunda isə cihad, namaz və zəkat mövzuları yad

edilir. Qeyd olunur ki, Allah bütün bəndələrinin mövlası və himayəçisidir. Bu nöqtədən aydın olur ki, Qiyamətin böyük zəlzələsi və şiddətli əzabdan qurtuluş üçün Ona bəndə olmalı, Onun pənahına sığınmalıyıq.

●Çətinliyin olmaması qeydi ilahi hökmlərin asanlığını göstərmir. Çünki həmin ayədə buyurulur: "Ona layiq olduğu kimi cihad edin." Aydın məsələdir ki, cihad yetərincə çətin işdir. Dində çətinliyin olmaması çıxılmaz vəziyyətin olmamasına işarədir. Məsələn, cihad göstərişi xəstələrə, əlillərə, korlara, qocalara, qadınlara, uşaqlara və zəiflərə aid deyil. Bununla belə, bütün çətinliklərə baxmayaraq müdafiə zəruri vəzifədir.

**Bildirişlər**

1. İşin dəyəri məqsəddən, üsuldan və qədərdən asılıdır. Var qüvvə ilə aparılan cihad dəyərlidir.
2. İnsanların şəxsiyyətinə hörmətlə yanaşın, çətinlik yaratmayın.
3. Qanun tənzimləyərkən xalqın gücünü nəzərə alın.
4. İslam asan dindir, onun hökmlərində istisna var. Hökmün icrası üçün münasib zaman və məkan şərtdir.
5. İslam İbrahim ayinidir və onun yetərincə böyük keçmişi var.
6. Peyğəmbərlər ümmətlərin atalarıdır.
7. "Müsəlman" adı öncədən bizim üçün seçilmiş mübarək addır.
8. Həzrət Peyğəmbər (s) əməllərimizə şahiddir.
9. Namaz və zəkat Allaha təşəkkürdür.
10. Təkcə müsəlmanlıqla kifayətlənməyək. Namaz, zəkat, Allaha bağlılıq kimi iftixarın qədrini bilək.
11. Bəşəri hakimiyyətlərin qanuniliyi ilahi vilayətlə tamamlanmaqdan asılıdır.

# “MUMİNUN” SURƏSİ

### *(23-CÜ SURƏ, 118 AYƏ)*

### *On səkkizinci cüz*

### *“MUMİNUN” SURƏSİNİN SİMASI*

118 ayədən ibarət olan bu surə Məkkədə nazil olmuşdur.

Surənin başlanğıc ayələrində möminlərin siması və iman nişanələri bəyan olunduğundan onu “muminun” adlandırmışlar. Surədə həzrət Nuh, Hud, Musa və İsa kimi peyğəmbərlərin sərgüzəştlərindən, müxtəlif qövmlərin onların dəvətinə cavabından da danışılır.

“Muminun” surəsinin tilavətinin fəziləti haqqında İmam Sadiq (ə) buyurur: “Bu surənin xüsusi ilə cümə günlərində tilavətinin davamı dünya və axirət səadətinə, Firdovs cənnətlərdə ilahi peyğəmbərlərlə yoldaşlığa səbəb olur.[1]

**Rəhman və rəhim Allahın adı ilə**

﴿بسم الله الرحمن الرحيم﴾

*AYƏ 1, 2:*

﴿قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ﴾

**“Şübhəsiz, möminlər nicat tapdılar. Həmin kəslər ki, namazlarında xüşuludurlar (mütidirlər).”**

**Nöqtələr**

●Quranda “fəlah” (qurtuluş, nicat tapma) sözü “ləəllə” (bəlkə də) sözü ilə 11 dəfə yanaşı işlənmişdir (“ləəlləkum tuflihun”). Həmin söz üç yerdə “ləəllə” sözündən ayrı qeyd olunmuşdur və həmin üç məqamdan biri hazırkı, digəri “Şəms”, üçüncüsü “Əla” surəsində əks olunmuşdur. Bu üç halı bir-biri ilə müqayisə etdikdə aydın olur ki, iman və paklanmanın eyni bir cövhəri var.

●Bütün İslam proqramlarının üstün və son məqsədi insanın qurtuluşudur. Quranın bir çox ayələrində təqvadan danışılır, dini hökmlər təqvaya çatma yolu kimi tanıtdırılır.[2] Təqvanın son məqsədi isə qurtuluşdur.[3] Maraqlıdır ki, İslam dininin mühüm və son məqsədi onun ilkin şüarında bəyan olunmuşdur: “Deyin “la ilahə illəllah” qurtulun!” Bəli, Allahın birliyinə iman gətirin və “la ilahə illəllah” deməklə nicat tapın.

---

[1] “Təfsire-Məcməül-bəyan”.

[2] “Bəqərə”, 183.

[3] “Ali-İmran”, 130.

●Hər gün gündəlik (yövmiyyə) namazlarının azan və iqaməsində "həyyə ələl fəlah" cümləsini 20 dəfə dilə gətiririk. Son məqsədi fəryad çəkərək elan edirik ki, yolu itirməyək. ("Həyyə ələl-fəlah" - "tələsin qurtuluşa!")

●Quran iman gətirənlərin və nəfsini paka çıxaranların nicat tapdığını bildirir.[1] Küfr isə başqa bir bəyanatla çıxış edirdi. Firon deyirdi ki, bu gün kimin gücü və üstünlüyü varsa, o, nicat tapmışdır.[2]

●"Fəlah" sözü cücərmə, böyümə mənalarını bildirir. Əkinçilərin "fəllah" adlandırılmasının səbəbi bu ola bilər ki, onlar toxumun torpaqda cücərməsinə zəmin hazırlayırlar. Torpaqda yerləşən toxum üç yolla özünü xilas edib işıqlı havaya çıxır: Öncə torpağa kök atır, sonra torpaqdan qidalanır, daha sonra yoluna çıxan torpağı kənarlaşdırır.

Bəli, insan da özünü xilas etmək, açıq tövhid səmasına çıxmaq, maddiyyat zülmətlərindən qurtulmaq, nəfs istəkləri və tağutların boyunduruğundan azad olmaq üçün eynən həmin toxum kimi hərəkət etməlidir: O, dəlillərlə əqidə köklərini möhkəmləndirməli, sonra təkamülü üçün verilmiş imkanlardan faydalanmalı, daha sonra qarşısını kəsən maneə və düşmənləri kənarlaşdırmalıdır. Bəli, insan açıq tövhid fəzasına çıxmaq üçün "la ilahə illəllah" deməklə qeyri-ilahi məbudları dəf etməlidir.

●Bir şəxs namaz qıldığı vaxt saqqalı ilə oynayırdı. Həzrət Peyğəmbər (s) buyurdu: "Əgər onun qəlbində xüşu olsaydı, belə namaz qılmazdı."[3]

●İmam Sadiq (ə) buyurmuşdur: "Namazda xüşu dedikdə, gözü qapamaq nəzərdə tutulur."[4]

Kimlər qurtuluş əhlidir?

1. Abidlər ("Rəbbinizə pərəstiş edin, ola bilsin ki, nicat tapasınız");[5]
2. Əməlləri dəyərli və ağır gələnlər.[6]
3. Xəsislikdən uzaq olanlar.[7]
4. Hizbullah ("Allahın firqəsi nicat tapmışdır";)[8]
5. Çox zikr edənlər ("Allahı çox zikr edin ki, nicat tapasınız";)[9]
6. Təqvalılar ("Ey düşüncə sahibləri! Təqvalı olun ki, nicat tapasınız";)[10]
7. Mücahidlər (Allah yolunda cihad edin ki, nicat tapasınız";)[11]
8. Tövbə edənlər ("Ey iman əhli! Tövbə edin ki, nicat tapasınız";)[1]

---

1 "Əla", 14.
2 "Taha", 64.
3 "Təfsire-kənzud-dəqaiq".
4 "Bihar", c. 81, s. 264.
5 "Həcc", 77.
6 Əraf", 8.
7 "Həşr", 9.
8 "Mücadilə", 22.
9 "Ənfal", 5.
10 "Maidə", 100.
11 "Maidə", 35.

**Bildirişlər**

1. Möminlərin qurtuluşu labüddür.
2. İmanın şərtləri və nişanələri var.
3. Namaz İslam proqramlarının başlanğıcında gəlir.
4. Namazda hal və keyfiyyət mühümdür.

*AYƏ 3, 4:*

﴿وَالَّذِينَ هُمْ عَنِ اللَّغْوِ مُعْرِضُونَ وَالَّذِينَ هُمْ لِلزَّكَاةِ فَاعِلُونَ﴾

**"O kəslər ki, boş işlərdən üz çevirər; o kəslər ki, zəkat ödəyərlər."**

*AYƏ 5:*

﴿وَالَّذِينَ هُمْ لِفُرُوجِهِمْ حَافِظُونَ﴾

**"O kəslər ki, ayıb yerlərini (günahdan) hifz edərlər."**

*AYƏ 6:*

﴿إِلَّا عَلَى أَزْوَاجِهِمْ أوْ مَا مَلَكَتْ أَيْمَانُهُمْ فَإِنَّهُمْ غَيْرُ مَلُومِينَ﴾

**"Yalnız zövcələri və əldə etdikləri kənizlər istisnadır. Onlar (zövcələri və kənizləri ilə yaxınlığa görə) məzəmmət olunmaz."**

**Nöqtələr**

●Mənasız iş və danışıq "ləğv" adlanır.

●Boş işlərdən çəkinmək təkcə müsəlmanlara aid olan xüsusiyyət deyil. Quran kitab əhli arasında da belələrinin olduğunu bildirir.[2]

●"Zəkat" sözünün lüğətdə mənası inkişaf və paklıq, terminoloji mənası isə şəri vergi, dini vacibatdır.

●İslam cəmiyyətində namaz və namusun hifzi çox mühümdür. Həmin bir neçə ayədə namus "hafizun", namaz isə "əla səlatihim yuhafizun" cümləsi ilə yad edilir.

●Dünyada boş işlərdən uzaqlığın nəticəsi Qiyamətdə boşluqdan hifz olunmaqdır.[3]

●Boş iş və danışıqdan uzaqlıq çirkin söz və tünd xasiyyətlə müşayiət olunmamalıdır.[4]

●Rəvayətlərdə boş iş və boş danışığın (ləğvin) müəyyən nümunələri göstərilir: Allah zikri olmayan söz, ğina (haram musiqi), mənasız işlər.[1]

---

[1] "Nur", 31.
[2] "Qəsəs", 52, 55.
[3] "Ğaşiyə", 11.
[4] "Furqan", 72.

●Rəvayətdə oxuyuruq: “Yalnız iffətli qadınla evlənin, malınıza münasibətdə əmin-aman saymadığınız kəslə bir yastığa baş qoymayın.”[2]

**Zəkatın əhəmiyyəti**

–Zəkat İslamın beş bünövrəsindən biridir.

–Quranda 32 dəfə “zəkat”, 32 dəfə “bərəkət” (“bərək”) sözü işlədilmişdir. Sanki zəkatla bərəkət bərabərdir.

–Həzrət Peyğəmbər (s) zəkat ödəməyənləri məsciddən çıxarardı.

–Həzrət Mehdi (ə) öz böyük inqilabında zəkat ödəməyənlərlə vuruşacaq.

–Zəkat ödəməyənə öldüyü vaxt deyilər: “Ya yəhudi, ya da məsihi kimi öl!”

–Zəkat ödəməyən şəxs öldüyü vaxt Allahdan istəyər ki, yaxşı işlər üçün onu geri qaytarsın. Amma onun möhləti başa çatmışdır.

–İmam Sadiq (ə) buyurur: “Əgər insanlar zəkat ödəsələr, yer üzündə zərrəcə yoxsulluq qalmaz.”

**Bildirişlər**

1. Boş işlərdən uzaqlıq iman nişanəsidir. (Mömінin bütün işlərində və danışıqlarında düzgün hədəf olmalıdır.)
2. Boş işlərdən uzaqlıq o qədər mühümdür ki, uyğun məsələ namaz və zəkat mövzuları arasında zikr olunmuşdur.
3. Zəkat da namaz kimi əhəmiyyətlidir. (28-ci ayədə namaz və zəkat mövzuları yanaşı xatırlanır.)
4. Etiqad təklikdə bəs etmir, əməl də lazımdır.
5. Həya iman şərtidir. (Cinsi pozğunluq iman zəifliyini göstərir.)
6. Şəhvət tüğyançıdır - ona nəzarət etmək zəruridir.
7. Cinsi ehtirasın təminində məhdudiyyət qoyulmalıdır. Amma bu işi qadağan etmək fitrətə ziddir.
8. Yersiz həya, utancaqlıq qadağandır. Bir işin icrası üçün İslamın icazəsi yetər. Yerdə qalan şəxsi səliqələr, dinə zidd adətlər məhkumdur.

*AYƏ 7:*

﴿فَمَنِ ابْتَغَى وَرَاء ذَلِكَ فَأُوْلَئِكَ هُمُ الْعَادُونَ﴾

**“Bundan (zövcə və kənizdən) artığını istəyənlər həddi aşanlardır.”**

*AYƏ 8:*

﴿وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ﴾

**“Nicat tapmış möminlər o kəslərdir ki, əmanət və əhdlərinə vəfa qılarlar.”**

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

[2] “Təfsire-Nurus-səqəleyn”. “Kafi”, c. 5, s. 453.

*AYƏ 9, 10:*

﴿وَالَّذِينَ هُمْ عَلَى صَلَوَاتِهِمْ يُحَافِظُونَ أُوْلَئِكَ هُمُ الْوَارِثُونَ﴾

**"Onlar namazlarını hifz edərlər; onlar varislərdir."**

*AYƏ 11:*

﴿الَّذِينَ يَرِثُونَ الْفِرْدَوْسَ هُمْ فِيهَا خَالِدُونَ﴾

**"O kəslər ki, Firdovs behiştə varis olar və orada əbədi qalarlar."**

**Nöqtələr**

●"Firdovs" dedikdə bağça, behiştin ən yaxşı yeri nəzərdə tutulur.[1] v Bu söz "cənnət" sözünün yerinə işləndiyindən, o, qadın cinsini bildirən işarə əvəzliyi ilə işlədilmişdir.

●İmam Sadiq (ə) istimna (özündən sperma xaric etmək) hökmü ilə bağlı suala 7-ci ayəni tilavət etməklə cavab vermişdir.[2]

***ƏMANƏTİN ƏHƏMİYYƏTİNİ GÖSTƏRƏN RƏVAYƏTLƏR***

–Xalqın namaz, oruc, həccinə yox, sədaqət və əmanətdarlığına fikir verin.[3]

–Həzrət Peyğəmbər (s) ömrünün son anlarında Həzrət Əliyə (ə) buyurdu: "Əmanət sahibi istər xeyirxah olsun, istər günahkar, əmanət istər dəyərli olsun, istər dəyərsiz, istər sap qədərində olsun, istər parça və ya libas, əmanəti sahibinə qaytar."[4]

–Bütün maddi və mənəvi nemətlər ilahi əmanətdir. (İmam Rahil buyurmuşdur: "İslam respublikası ilahi əmanətdir.)

–Qurani-Kərim əmanətdar olan bəzi kitab əhlini tərifləmişdir: "Kitab əhlindən bəzisinə böyük miqdarda malı əmanət tapşırsan, onu sənə necə varsa elə qaytararlar."[5]

**Bildirişlər**

1. Qanunun pozulması Allahın təyin etdiyi hədlərə təcavüzdən ibarətdir.
2. Günah sorağınca getmək də günahdır.
3. Mömin vədinə vəfa qılır. Vədə xilaflıq imanın zəifliyini göstərir.
4. Əməldə vəfa qıla bilməsək də əhd-peymana riayət etmək lazımdır.
5. Möminlərin siması tanıtdırılarkən əvvəldə və sonra namazın adı çəkilir. Bu təkrar namazın əhəmiyyətini göstərir.

---

[1] "Təfsire-Dürrül-Mənsur".
[2] "Vəsail", c. 18, s. 575.
[3] "Mizanul-hikmət", "Səfinətül-bihar".
[4] "Bihar", c. 77, s. 273.
[5] "Ali-İmran", 75.

*AYƏ 12:*

﴿وَلَقَدْ خَلَقْنَا الْإِنسَانَ مِن سُلَالَةٍ مِّن طِينٍ﴾

**"Həqiqətən, Biz insanı sıxılmış torpaqdan yaratdıq."**

*AYƏ 13:*

﴿ثُمَّ جَعَلْنَاهُ نُطْفَةً فِي قَرَارٍ مَّكِينٍ﴾

**"Sonra onu nütfə şəklində möhkəm bir yerdə qərar verdik."**

*AYƏ 14:*

﴿ثُمَّ خَلَقْنَا النُّطْفَةَ عَلَقَةً فَخَلَقْنَا الْعَلَقَةَ مُضْغَةً فَخَلَقْنَا الْمُضْغَةَ عِظَامًا فَكَسَوْنَا الْعِظَامَ لَحْمًا ثُمَّ أَنشَأْنَاهُ خَلْقًا آخَرَ فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ﴾

**"Sonra nütfədən laxta qan yaratdıq. Laxta qanı bir parça ət etdik. Ət parçasını sümüklər şəklinə gətirdik. Sümüklərə ət geyindirdik. Sonra ona yeni bir yaranış verdik. Yaradanların ən üstünü olan Allah təzimə layiqdir."**

**Nöqtələr**

●"Sulalə" dedikdə cövhər, "ələqə" dedikdə laxta qan, "muzğə" dedikdə bir parça sümüksüz ət nəzərdə tutulur.

●İmam Baqir (ə) buyurur: "Yeni yaranış dedikdə ruhun bədənə üfürülməsi nəzərdə tutulur."[1]

●İmam Rzanın (ə) buyruğuna əsasən, "ən üstün yaradan" dedikdə Allahın başqalarına da yaratmaq qüdrəti verməsi nəzərdə tutulur. Məsələn həzrət İsa Allahın istəyi ilə yaradırdı."[2]

●Allahın ən üstün yaradan olmasının bir çox dəlilləri var: Onun xaliqliyi daimidir, bu yaranış xüsusi bir əşya ilə məhdudlaşmır, bu işdə çeşidlilik sonsuzdur, ən sadə şeydən ən mürəkkəbi yaradılır, ilkin maddə özündəndir, Allah yaratdığı vaxt təqlid etmir, bu yaradılışda peşmanlıq və tərəddüd yoxdur, yaranış Allahın mərhəmətinə əsaslanır və bütün yaranışlar məqsədlidir, Onun yaratdıqları varlıq nizamına uyğundur.

**Bildirişlər**

1. Keçmişin və zəifliklərin yada salınması, Allahın qüdrət və lütfünə diqqət imanın güclənməsi və daha çox ibadət üçün zəmindir.

---

[1] "Təfsire-Nurus-səqəleyn".

[2] "Bihar", c. 4, s. 147. "Ali-İmran", 49.

2. İnsanın yaranışı bir neçə mərhələdə gerçəkləşmişdir.
3. Ana müxtəlif hərəkətlər etsə də, onun bətni övlad üçün ən etibarlı yerdir.
4. Yaranışın bütün mərhələləri Allahın nəzəri altda həyata keçir.
5. İnsanın dəyəri onun ruhundadır.
6. İnsanın özünü tanıması onun Allahı tanıması üçün müqəddimədir.

### *AYƏ 15, 16:*

﴿ثُمَّ إِنَّكُمْ بَعْدَ ذَلِكَ لَمَيِّتُونَ ثُمَّ إِنَّكُمْ يَوْمَ الْقِيَامَةِ تُبْعَثُونَ﴾

**“Sonra heç şübhəsiz ölərsiniz, Qiyamət günü ayağa qaldırılarsınız.”**

**Nöqtələr**

●Allah bu ayələrdə ölümü labüd sayır. Bu məqamda Əmirəl-mömininin (ə) kəlamını yada salmaq yerinə düşər: “Əgər dünyada həmişəlik qalmaq və ölümdən qurtarmaq üçün bir kəs çarə axtarsa o, Davud oğlu Süleyman ola bilər ki, cin və insana hakim idi. Bundan əlavə peyğəmbərliyə, böyük məqama malik idi... Lakin bununla belə yoxluq kamanları ölüm oxları ilə onun həyatına son qoydu.”[1]

●Ötən ayədə insanın təkamül yolu bəyan olundu və Allah özünə «əhsən» söylədi. Bu iki ayədə isə təkamülün ölümdən sonrakı axır mərhələləri bəyan olunur.

**Bildirişlər**

1. Ölüm yox olmaq deyil, təkamülün növbəti mərhələsidir.
2. Ölüm qaçılmaz bir taledir.
3. İnsan məqsədli yaradılmışdır.
4. Ölümlə Qiyamət arasında yetərincə uzun fasilə var.

### *AYƏ 17:*

﴿وَلَقَدْ خَلَقْنَا فَوْقَكُمْ سَبْعَ طَرَائِقَ وَمَا كُنَّا عَنِ الْخَلْقِ غَافِلِينَ﴾

**“Həqiqətən, Biz sizin başınız üstə yeddi yol (yeddi səma) yaratdıq və Biz xilqətdən (varlıq aləmindən) xəbərsiz deyildik.”**

**Nöqtələr**

●«Təraiq» kəlməsindən məqsəd ya mələklərin keçib getdiyi yol, ya digər planetlərin hərəkət istiqaməti və orbiti və yaxud da bir-birinə yolları olan yeddi göydür.

●Ötən ayələrdə insanın, bu ayədə göylərin yaranışından danışılır.

---

[1] “Nəhcül-bəlağə”, x. 182.

**Bildirişlər**

1. Allah həm xaliqdir, həm də nəzərdə saxlayan. (Aləm Allahın hüzurundadır.)

2. Yaradılış və varlıq aləminin idarəsi üçün daimi müdiriyyətə ehtiyac var.

***AYƏ 18:***

﴿وَأَنزَلْنَا مِنَ السَّمَاء مَاء بِقَدَرٍ فَأَسْكَنَّاهُ فِي الْأَرْضِ وَإِنَّا عَلَى ذَهَابٍ بِهِ لَقَادِرُونَ﴾

**“Səmadan müəyyən qədər su nazil etdik. Ona yer üzündə yer verdik. Həqiqətən, Biz onu aparmağa qadirik.”**

**Bildirişlər**

1. Allah nemət verməyə və neməti geri almağa eyni dərəcədə qadirdir.

2. Yağış damlalarının hesabı var. (Yağış təsadüfi təbii hadisə deyil.)

3. Su hövzələrinin yaranışı ilahi lütfdür və Allahın Öz məxluqundan xəbərdar olduğunu göstərir.

4. Allah hadisələrə hakimdir.

5. Nemətlərin daimi olduğunu düşünməyək.

***AYƏ 19:***

﴿فَأَنشَأْنَا لَكُم بِهِ جَنَّاتٍ مِّن نَّخِيلٍ وَأَعْنَابٍ لَّكُمْ فِيهَا فَوَاكِهُ كَثِيرَةٌ وَمِنْهَا تَأْكُلُونَ﴾

**“Onun (suyun) vasitəsi ilə sizin üçün xurma və üzümdən ibarət bağlar yaratdıq. Həmin bağlarda sizin üçün bol meyvələr var və onlardan yeyirsiniz.”**

***AYƏ 20:***

﴿وَشَجَرَةً تَخْرُجُ مِن طُورِ سَيْنَاء تَنبُتُ بِالدُّهْنِ وَصِبْغٍ لِّلْآكِلِينَ﴾

**“Sina dağında cücərən bir ağac, yeyənlər üçün yağ və yavanlıq bara gətirər.”**

**Bildirişlər**

1. Su nəbatat aləmi üçün həyat qaynağıdır.

2. Ağaclar və otlar insanların istifadəsi üçün yaradılmışdır.

3. Meyvələr arasında xurma və üzüm kimi nemətlərin ayrı yeri var.

4. Hikmət sahibi olan Allah insanların maddi ehtiyaclarını təmin etmişdir.

5. Allah insanların istifadə etdiyindən daha artıq yaradır.

6. Allahın yaratdığı hər bir şey faydalı və bərəkətlidir. (Harada zərər varsa səbəbkar insandır. “Nəhl” surəsinin 67-ci ayəsində buyurulur: “Siz ondan şərab hazırlayırsınız.”)

7. Hər məntəqə müəyyən bir qrup ağac və ot üçün münasibdir.

8. Bəzi torpaqlar mənəvi və maddi baxımdan bərəkətlidir. (Sina dağı vəhyin nazil olduğu və zeytun ağaclarının cücərdiyi məhəldir.)

9. Zeytun yağı ilahi nemətlərdən biridir.

*AYƏ 21:*

﴿وَإِنَّ لَكُمْ فِي الْأَنْعَامِ لَعِبْرَةً نُّسقِيكُم مِّمَّا فِي بُطُونِهَا وَلَكُمْ فِيهَا مَنَافِعُ كَثِيرَةٌ وَمِنْهَا تَأْكُلُونَ﴾

**"Həqiqətən, dördayaqlılarda sizin üçün ibrət var. Onların qarnında olandan (süddən) sizə içirərik. Onlarda sizin üçün böyük faydalar var və onlardan (onların ətindən) yeyirsiniz."**

*AYƏ 22:*

﴿وَعَلَيْهَا وَعَلَى الْفُلْكِ تُحْمَلُونَ﴾

**"Onlara və gəmilərə süvar olursunuz."**

**Bildirişlər**

1. Dördayaqlılar insan üçün yaradılmışlar.

2. Heyvanların əbəs yaradıldığını düşünməyək. Torpaqdan dəmiri ayırmaq üçün yüzlərlə mütəxəssisə və alətə ehtiyac var. Amma Allah-təala otdan süd çıxarır. O elə bu qüdrətlə də insanları torpağın köksündən bayıra çıxarasıdır.

3. Süd Quranın qeyd etdiyi nemətlərdəndir.

4. Meyvələr və bitki yağları heyvan mənşəli qidalardan öndə gəlir.

5. Süd, ət və minik heyvanların mənafelərinin bir hissəsidir. Süd məhsulları, yağ, konserv, sap-ip istehsal edən müəssisələr heyvandarlıq sayəsində fəaliyyət göstərir və milyonlarla insan üçün iş yeri açılır.

6. Sərnişin və yük daşınmasında gəmiçiliyin rolunu lazımınca qiymətləndirək.

*AYƏ 23:*

﴿وَلَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ فَقَالَ يَا قَوْمِ اعْبُدُوا اللَّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ أَفَلَا تَتَّقُونَ﴾

**"Həqiqətən, Nuhu öz qövmünə doğru göndərdik. Onlara dedi: "Ey mənim qövmüm, (bir olan) Allaha pərəstiş edin. Sizin üçün Ondan savay məbud yoxdur. Qorxmursunuzmu?"**

**Nöqtələr**

●Allah ötən ayələrdə insanın yaranışından və onun ehtiyaclarının təmini üçün nəzərdə tutulmuş maddi nemətlərdən danışdı. Bu ayələrdə isə düşüncə ehtiyaclarının təminindən söz açılır.

**Bildirişlər**

1. Dini təbliğatda xalqa məhəbbətlə müraciət edin.
2. Peyğəmbərlərin ilkin vəzifəsi tövhidə dəvətdir. (Təbliğdə əsas məsələlərə diqqət yetirin.)
3. İnsanın batinində pərəstiş ruhu var. Peyğəmbərlər isə pərəstiş nümunələrini bəyan edir.
4. Allahdan qeyrisinin sorağınca getmək özünü təhlükəyə atmaqdır.

*AYƏ 24:*

﴿فَقَالَ الْمَلَأُ الَّذِينَ كَفَرُوا مِن قَوْمِهِ مَا هَذَا إِلَّا بَشَرٌ مِّثْلُكُمْ يُرِيدُ أَن يَتَفَضَّلَ عَلَيْكُمْ وَلَوْ شَاء اللَّهُ لَأَنزَلَ مَلَائِكَةً مَّا سَمِعْنَا بِهَذَا فِي آبَائِنَا الْأَوَّلِينَ﴾

**“Onun qövmünün küfrə uğramış başçıları dedilər: “Nuh yalnız sizin kimi bir insandır və sizin üzərinizdə üstünlük əldə etmək istəyir. Əgər Allah sizə peyğəmbər göndərmək istəsəydi, hökmən mələkləri göndərərdi. Biz bunu ata-babalarımız arasında görməmişik.”**

**Bildirişlər**

1. Peyğəmbərlərə müxalifət cəbhəsində başçılar, əyanlar ön cərgədə dayanırdı.
2. İnsanın daxilində özünə sevgi hissi var. (Başqalarının ondan üstünlüyü insanı narahat edir.)
3. Üstünlük böhtanı kafirlərin təbliğat vasitələrindəndir.
4. Təkəbbürlü insan Allah üçün də vəzifələr müəyyənləşdirir.
5. Kafirlər əslində kamillik olan bir səciyyəni nöqsan sayırlar. (Peyğəmbərlərin üstün olması onlar üçün nöqsan yox, kamillikdir.)
6. Düzgün məntiq qarşısında tarixə, ata-babalara, milli ənənələrə istinad edib mövqeyinizi müdafiə etməyin.

*AYƏ 25:*

﴿إِنْ هُوَ إِلَّا رَجُلٌ بِهِ جِنَّةٌ فَتَرَبَّصُوا بِهِ حَتَّى حِينٍ﴾

**“O yalnız ağlını itirmiş bir adamdır. Ona qarşı bir müddət səbir edin.”**

*AYƏ 26:*

﴿قَالَ رَبِّ انصُرْنِي بِمَا كَذَّبُونِ﴾

**“Nuh dedi: “Pərvərdigara! Onların təkzibi qarşısında bizə yardım buyur.”**

**Bildirişlər**

1. Keçmişdəkilərin tarixindən xəbərdarlıq insanlar üçün təsəlli olur. (“Ey peyğəmbər! Əvvəlki peyğəmbərləri də dəli sayırdılar.)

2. Bəziləri özü yüksələ bilmədiyindən böyüklərin məqamını alçaltmağa çalışırlar.

3. Qürur və inadkarlıq ən ağıllı insanların dəli adlandırılmasına səbəb olur.

4. Küfr başçıları peyğəmbərlərin dəvətini onların ruhi sarsıntısı kimi qələmə verirdilər.

5. Böhtan və təhqirlərə qarşı ən güclü vasitə təvəkkül və duadır.

6. Allahdan yardım istəyində məqsəd fərdin fərdə yox, imanın küfrə qələbəsidir.

*AYƏ 27:*

﴿فَأَوْحَيْنَا إِلَيْهِ أَنِ اصْنَعِ الْفُلْكَ بِأَعْيُنِنَا وَوَحْيِنَا فَإِذَا جَاء أَمْرُنَا وَفَارَ التَّنُّورُ فَاسْلُكْ فِيهَا مِن كُلٍّ زَوْجَيْنِ اثْنَيْنِ وَأَهْلَكَ إِلَّا مَن سَبَقَ عَلَيْهِ الْقَوْلُ مِنْهُمْ وَلَا تُخَاطِبْنِي فِي الَّذِينَ ظَلَمُوا إِنَّهُم مُّغْرَقُونَ﴾

**“Nuha vəhy etdik ki, Bizim nəzarətimiz altında və vəhyimizə əsasən gəmi düzəlt; elə ki, (qəzəb) fərmanımız gəldi və təndir qaynadı, hər heyvandan bir cüt (erkək və dişi) və öz əhlini gəmiyə mindir. Yalnız öncədən haqqında danışılan kəs istisnadır; zalımlar haqqında Mənimlə danışma (onlar üçün şəfaət istəmə), onlar hökmən qərq olasıdırlar.”**

**Nöqtələr**

●İmam Baqir (ə) buyurur: “Həzrət Nuh 950 il aşkar və gizli şəkildə xalqı tövhidə dəvət etdi. Nəhayət, Allah buyurdu ki, sənə iman gətirənlərdən qeyrisi boyun əyməyəcək. Nuh dedi: “Onların nəsli də hidayət olası deyil.”[1] Sonda Allah gəmi düzəltmək göstərişi verdi.[2]

**Bildirişlər**

1. Peyğəmbərlərin duası qəbuldur.

2. Sənət ilahi bir ilhamdır.

3. İlahi yardım istəyi insanın təlaşlarına mane olmur. Peyğəmbərlər dua ilə yanaşı iş də görürdülər.

---

[1] “Nuh”, 27.

[2] “Bihar”, c. 11. s. 331.

4. Təhqir olunmuş insanları himayə edək. (Xalq səni divanə sayır, amma sən Bizim himayəmizdəsən.)
5. Əgər bütün işlərimizi vəhyə uyğun qursaq, müvəffəq olarıq.
6. Allahın iradəsi ilə qaynar təndirdən su çıxır.
7. Heyvanların nəslini kəsilməyə qoymayın.
8. Yolunu azan insan peyğəmbərin ailə-övladı olsa da ilahi qəzəbə gəlir.
9. Şəfaət hər yerdə fayda vermir. Peyğəmbərlərin şəfaətinə yalnız Allahın izni ilə nail olmaq mümkündür.
10. Müşrik zalımdır.
11. Zülmün sonu həlakətdir.
12. Bəzən həyat qaynağı olan su ölüm gətirir.

*AYƏ 28:*

﴿فَإِذَا اسْتَوَيْتَ أَنتَ وَمَن مَّعَكَ عَلَى الْفُلْكِ فَقُلِ الْحَمْدُ لِلَّهِ الَّذِي نَجَّانَا مِنَ الْقَوْمِ الظَّالِمِينَ﴾

**“Sən və yoldaşların gəmiyə süvar olduğunuz vaxt de ki, həmd-səna bizi sitəmkar qövmün əlindən qurtaran Allah üçündür.”**

**Bildirişlər**

1. Sitəmkarlardan uzaqlıq, onların hakimiyyətindən qurtuluş ilahi nemətlərdən biridir.
2. Hər bir nemət üçün şükür etmək lazımdır.
3. Ən üstün şükür deyilişi mübarək “əlhəmdulillah” kəlməsidir.
4. Başqalarının məhvi üçün yox, öz qurtuluşunuz üçün Allaha şükür edin.
5. Gəmi sadəcə bir vasitədir, qurtuluş isə Allahın əlindədir.

*AYƏ 29:*

﴿وَقُل رَّبِّ أَنزِلْنِي مُنزَلًا مُّبَارَكًا وَأَنتَ خَيْرُ الْمُنزِلِينَ﴾

**“De ki, Pərvərdigara, məni bərəkətli bir mənzilə endir, Sən nazil edənlərin ən üstünüsən.”**

*AYƏ 30:*

﴿إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ وَإِن كُنَّا لَمُبْتَلِينَ﴾

**“Əlbəttə, bu dastanda nişanələr var, həqiqətən, Biz sınağa çəkənlərik. (Nuh qövmünü və başqa qövmləri təkamül məqsədi ilə dəfələrlə sınağa çəkdik.)”**

**Nöqtələr**

●Hədisdə oxuyuruq: Həzrət Peyğəmbər (s) Əliyə (ə) buyurdu: “Mənzilə daxil olduğun vaxt “və qul Rəbbi ənzilni...”ayəsini oxu. Belə etsən, Allah həmin yerin xeyrindən səni faydalandırar, şərindən amanda saxlayar.”[1]

**Bütün hallarda Allah zikri**

Qurani-Kərimin ayələrində müxtəlif hallarda Allah zikrinin nümunələri verilir: tövhidə dəvətdə[2]; Allahın ilhamı ilə gəminin düzəlişində[3]; gəmiyə minən zaman[4]; hərəkət zamanı[5]; dayanan zaman.[6]

**Bildirişlər**

1. Öncə Allaha keçmişdə verdiyi nemətlərə görə şükür edək, sonra Ondan yeni nemətlər istəyək.
2. Dua və münacatda Allahı ehtiyaclarımıza uyğun gələn adları ilə çağıraq.
3. Quranın tarixi mövzuları hidayət dəlili, təkamül səbəbidir.
4. İstənilən bir halda xalqı sınağa çəkmək Allahın sünnəsidir. Nuhun başına gələnlər də ilahi sınaq nümunələrindəndir.

***AYƏ 31, 32:***

﴿ثُمَّ أَنشَأْنَا مِن بَعْدِهِمْ قَرْنًا آخَرِينَ فَأَرْسَلْنَا فِيهِمْ رَسُولًا مِنْهُمْ أَنِ اعْبُدُوا اللَّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ أَفَلَا تَتَّقُونَ﴾

**“Nuh qövmündən sonra digər bir nəsil yaratdıq; onların arasına özlərindən olan bir peyğəmbər göndərdik ki, (onlara dedi:) «Allaha pərəstiş edin, sizin üçün Ondan savay məbud yoxdur. Yoxsa qorxmursunuz?»”**

**Bildirişlər**

1. Allah hər bir ümmət üçün peyğəmbər göndərmişdir.
2. Peyğəmbər xalqın özündən olmalıdır. (Yalnız xalqın özündən olan kəs nümunə götürülə, dəlil ola bilər.)
3. Allaha ibadət şirkin inkarı ilə müşayiət olunduqda dəyərlidir.
4. Tövhidə doğru hərəkət üçün təqvaya ehtiyac var.

[1] “Təfsire-kənzud-dəqaiq”.
[2] “Muminun”, 23.
[3] “Muminun”, 27.
[4] “Muminun”, 28.
[5] “Hud”, 41.
[6] “Muminun”, 29.

*AYƏ 33:*

﴿وَقَالَ الْمَلَأُ مِن قَوْمِهِ الَّذِينَ كَفَرُوا وَكَذَّبُوا بِلِقَاءِ الْآخِرَةِ وَأَتْرَفْنَاهُمْ فِي الْحَيَاةِ الدُّنْيَا مَا هَذَا إِلَّا بَشَرٌ مِّثْلُكُمْ يَأْكُلُ مِمَّا تَأْكُلُونَ مِنْهُ وَيَشْرَبُ مِمَّا تَشْرَبُونَ﴾

**“Peyğəmbərin qövmündən olan, küfrə uğramış, Qiyamət gününü təkzib edən, dünyada naz-nemət içində qərar verdiyimiz başçılar (peyğəmbərin cavabında xalqa) dedilər: “Bu yalnız sizin kimi bir insandır. Yediklərinizdən yeyir, içdiklərinizdən içir.”**

**Bildirişlər**

1. Peyğəmbərlərin dəvəti xalqı ağaların və sitəmkarların zülmündən azad etmək qayəsi üzərində qurulub. Bu səbəbdən də peyğəmbərlərə daha çox əyan-əşrəf müxalif olmuşdur.
2. Müxaliflər peyğəmbər islahatlarının məntiq və əsasını inkar edə bilmədiklərindən deyirlər: “Peyğəmbərlər uyğun islahatlara layiq deyildirlər.”
3. Peyğəmbərlərin həyatı adi bir həyatdır.
4. Əyan-əşrəf mənəvi və elmi məsələlərdən xəbərsizdir. (Əmirəl-möminin (ə) buyurur: “Onları bu sözlərə sövq edən qəlblərindəki həsəddir.”[1]

*AYƏ 34:*

﴿وَلَئِنْ أَطَعْتُم بَشَرًا مِّثْلَكُمْ إِنَّكُمْ إِذًا لَّخَاسِرُونَ﴾

**“(Müxaliflər dedilər: «Əgər özünüz kimi bir bəşərə itaət etsəniz, şübhəsiz, ziyankarsınız.»”**

*AYƏ 35:*

﴿أَيَعِدُكُمْ أَنَّكُمْ إِذَا مِتُّمْ وَكُنتُمْ تُرَابًا وَعِظَامًا أَنَّكُم مُّخْرَجُونَ﴾

**“(Peyğəmbər) sizə vəd edirmi ki, ölüb torpaq və çürümüş sümük olduğunuz vaxt (qəbirdən) çıxarılacaqsınız?!”**

*AYƏ 36:*

﴿هَيْهَاتَ هَيْهَاتَ لِمَا تُوعَدُونَ﴾

**“Sizə vəd olunan şey uzaqdır, uzaq!”**

---

[1] “Bihar”, c. 32, s. 97.

**Nöqtələr**

●Quranda "həyhatə" sözü yalnız bu ayədə, həm də iki dəfə işlədil-mişdir. Küfr başçıları Qiyamət hadisəsini çox uzaq görürdülər.

### *KAFİRLƏRİN ŞÜARLARI*

Kafirlərin bir sıra şüarları vardı: Peyğəmbər adi bir insandır; onun başqalarından üstünlüyü yoxdur; peyğəmbərlərin ardınca getmək zərərdir; Qiyamət və ikinci dəfə həyata gəliş uzaqdır.

Bu şüarlar kafirlərin inadkar və aldadıcı şüarlarından idi. Onlar geniş təbliğat apararaq peyğəmbərlərə ardıcıllığı ziyan kimi tanıtdırırdılar. Onların məqsədi bu idi ki, xalqı özlərinə tabe etsinlər. Azadlıq şüarı altında millətləri qula çevirsinlər.

### *AYƏ 37:*

﴿إِنْ هِيَ إِلَّا حَيَاتُنَا الدُّنْيَا نَمُوتُ وَنَحْيَا وَمَا نَحْنُ بِمَبْعُوثِينَ﴾

**"(Müxaliflər deyirdilər:) «Bu dünya həyatından savay bir şey yoxdur– ölürük, yaşayırıq və (heç vaxt) dirilməyəcəyik.»"**

### *AYƏ 38:*

﴿إِنْ هُوَ إِلَّا رَجُلٌ افْتَرَى عَلَى اللَّهِ كَذِبًا وَمَا نَحْنُ لَهُ بِمُؤْمِنِينَ﴾

**"(Deyirdilər) O yalnız Allaha iftira yaxan bir şəxsdir və biz ona heç vaxt iman gətirməyəcəyik."**

**Bildirişlər**

1. Təkəbbürlü insanlar tutduqları yoldan savay bir yol təsəvvür etmirlər.
2. Gözü axırda (axur) olan axırı görməz (Dünyapərəstlər cəmiyyətin dar baxışlı fərdləridir.)
3. Kafirlər Allahı qəbul etsələr də, məad və nübüvvəti inkar edirdilər.
4. Küfr əhli ilahi müqəddəsliyi qorumaq adı altında övliya və ilahi vədləri rədd edirlər.
5. Cəmiyyət bəzən o qədər süqut edir ki, həqiqi din hamiləri yalançı, təkəbbürlü kafirlər isə din hamisi kimi tanınır.

### *AYƏ 39:*

﴿قَالَ رَبِّ انصُرْنِي بِمَا كَذَّبُونِ﴾

**"(Onların peyğəmbəri) dedi: «Pərvərdigara! Mənə onların təkzibləri qarşısında yardım buyur.»"**

*AYƏ 40, 41:*

﴿قَالَ عَمَّا قَلِيلٍ لَّيُصْبِحُنَّ نَادِمِينَ فَأَخَذَتْهُمُ الصَّيْحَةُ بِالْحَقِّ فَجَعَلْنَاهُمْ غُثَاء فَبُعْدًا لِّلْقَوْمِ الظَّالِمِينَ﴾

**“(Allah) buyurdu: “Şübhəsiz, tezliklə peşman olacaqlar. Layiq olduqları öldürücü haray onları bürüdü. Onları su üzərindəki saman çöpü vəziyyətinə gətirdik. Sitəmkar qövm (Allahın rəhmətindən) uzaq olsun!”**

*AYƏ 42:*

﴿ثُمَّ أَنشَأْنَا مِن بَعْدِهِمْ قُرُونًا آخَرِينَ﴾

**“Onlardan sonra digər nəsillər yaratdıq.”**

**Bildirişlər**

1. Peyğəmbərlərin güvənc yeri Allahdır.
2. Dua üçün ən yaxşı müraciət “Rəbb” müraciətidir.
3. Kafirlər və günahkarlar tezliklə peşman olacaqlar. (Vicdanlar bir gün oyanasıdır.)
4. Tarixin və keçmiş qövmlərin məhvinin bəyanı İslam Peyğəmbəri (s) üçün təsəlli, Məkkə kafirləri üçün xəbərdarlıq vasitəsidir.
5. Peyğəmbərlərin duası qəbuldur.
6. Allahın qəhr-qəzəbi Onun ədalətinə əsaslanır.
7. Peyğəmbərlərin müxalifləri üçün həm ruhi, həm fiziki, həm də Qiyamət əzabı nəzərdə tutulub.
8. Allahın qəhr-qəzəbi sarsıdıcıdır.
9. Sitəmkarları lənətləmək caizdir.
10. Bir ümmətin məhvindən sonra digərini yaratmaq Allahın sünnəsidir. (Tarixi təbəddülatlar Allahın hökmü altındadır.)

*AYƏ 43:*

﴿مَا تَسْبِقُ مِنْ أُمَّةٍ أَجَلَهَا وَمَا يَسْتَأْخِرُونَ﴾

**“Hər hansı ümmət öz əcəlindən nə önə keçə bilər, nə də arxaya qala bilər.”**

**Bildirişlər**

1. Hər bir cəmiyyət və ümmət üçün xüsusi möhlət və hikmətə əsaslanan zaman bölgüsü var.
2. İlahi əzabın təxirə salınması sizi qürrələndirməsin.
3. İlahi proqramları fərdlərin hay-küyü dayandıra bilməz. Tarixə ilahi nizam hakimdir.

4. Tarixin sabit qanunları var.

*AYƏ 44:*

﴿ثُمَّ أَرْسَلْنَا رُسُلَنَا تَتْرَا كُلَّ مَا جَاء أُمَّةً رَّسُولُهَا كَذَّبُوهُ فَأَتْبَعْنَا بَعْضَهُم بَعْضًا وَجَعَلْنَاهُمْ أَحَادِيثَ فَبُعْدًا لِّقَوْمٍ لَّا يُؤْمِنُونَ﴾

**“Sonra ardıcıl olaraq peyğəmbərlərimizi göndərdik. Nə vaxt hər ümmətin peyğəmbəri öz qövmünün sorağına gəldisə, xalq onu təkzib etdi. Biz də həmin qövmü məhv etdik, onların ardınca başqa bir qövm gətirdik. Biz onları (ibrət olsun deyə) xalqın dilinə saldıq. İman gətirməyən qövm (Allahın rəhmətindən) uzaq olsun!”**

**Nöqtələr**

●“Əhadis” dedikdə maraqla dinlənilən heyrətamiz dastanlar nəzərdə tutulur.

**Bildirişlər**

1. Ümmətlər üçün peyğəmbərlər göndərmək Allahın sünnəsidir. (Hər bir cəmiyyətin rəhbərə ehtiyacı var. Bəşəriyyət üçün təkcə düşüncə və elm bəs etmir. Bizə məsələlər vəhy yolu ilə aydınlaşmalıdır.)
2. Bütün peyğəmbərlər təkzib olundular.
3. Hər bir ümmətin öz rəsulu olmuşdur.
4. Haqqı təkzib etməyin sonu fəlakətdir.
5. Kafirləri lənətləmək olar.
6. Quran küfrünə xatir kafirləri lənətləyir.
7. Tarixi hadisələr Allahın iradəsi ilə gerçəkləşir. Azğın ümmətlərin məhvi lənət, nifrin nümunələrindəndir.

*AYƏ 45:*

﴿ثُمَّ أَرْسَلْنَا مُوسَى وَأَخَاهُ هَارُونَ بِآيَاتِنَا وَسُلْطَانٍ مُّبِينٍ﴾

**“Sonra Musa və qardaşı Harunu aşkar möcüzə və dəlillə yola saldıq”.**

*AYƏ 46:*

﴿إِلَى فِرْعَوْنَ وَمَلَئِهِ فَاسْتَكْبَرُوا وَكَانُوا قَوْمًا عَالِينَ﴾

**”(Yola saldıq) Firon və onun qövmünün başçılarına doğru. Amma təkəbbür göstərdilər. Onlar özlərini üstün tutan qövm idilər”.**

**Nöqtələr**

●“Sultan” sözü höccət və dəlil sözlərinin sinonimidir. Çünki insan elmi və əqli dəlillər yolu ilə başqalarının qəlbinə hakim olur.

**Bildirişlər.**

1. Bəzən təbliğ bir neçə nəfərlik qrup, ezam olunmuş heyət tərəfindən aparılmalıdır.

2. Din təbliğatçısı elmi dəlillərə istinad etməlidir.

3. Xalqın və ictimai quruluşun islahı üçün öncə tanınmış adamlara üz tutmaq lazımdır.

4. Zalım hakimlərin ətrafında olanlar onların hakimiyyətində mühüm rol oynayırlar.

***AYƏ 47:***

﴿فَقَالُوا أَنُؤْمِنُ لِبَشَرَيْنِ مِثْلِنَا وَقَوْمُهُمَا لَنَا عَابِدُونَ﴾

**“(Musa və Harunun cavabında) dedilər: “Musa və Harunun qövmü bizə qul olduğu halda özümüz kimi bu iki insana imanmı gətirək?!”**

***AYƏ 48:***

﴿فَكَذَّبُوهُمَا فَكَانُوا مِنَ الْمُهْلَكِينَ﴾

**“Həmin iki peyğəmbəri təkzib etdilər və məhv edilənlərdən oldular.”**

***AYƏ 49:***

﴿وَلَقَدْ آتَيْنَا مُوسَى الْكِتَابَ لَعَلَّهُمْ يَهْتَدُونَ﴾

**“Həqiqətən, Biz Musaya kitab verdik. Bəlkə (xalq bu yolla) hidayət ola.”**

**Bildirişlər**

1. Musa və Harun Bəni-İsrail tayfasından idi. (Bəni-İsrail tayfası fironçuların qulu sayılırdı.)

2. Təkəbbür əhli məntiq və möcüzə əvəzinə insanların ictimai məqamını əsas götürür.

3. Millətçilik imperializm amilidir. (Fironçular özlərini Bəni-İsraildən üstün tayfa sayırdılar.)

4. Peyğəmbərlər möcüzə və dəlilə, zalım qüvvələr millətlərin istismarına əsaslanır.

5. həqiqətin təkzibi həlakətlə nəticələnir.

***AYƏ 50:***

﴿وَجَعَلْنَا ابْنَ مَرْيَمَ وَأُمَّهُ آيَةً وَآوَيْنَاهُمَا إِلَى رَبْوَةٍ ذَاتِ قَرَارٍ وَمَعِينٍ﴾

**“Biz Məryəm oğlu (İsa) və onun anasını möcüzə qərar verdik. O iki nəfərə əmin-aman və şirin suyu olan uca bir məkanda yer verdik.”**

**Nöqtələr**

●“Məin” sözü yer üzü ilə axan su mənasını bildirir.

●Allah bu surədə İsa və Məryəmi bir ayə ünvanında yada salır. Gecə və gündüz haqqında isə belə buyurulur: “Gecə və gündüz iki ayədir.”[1] Bunun səbəbi İsanın atasız dünyaya gəlişi, Məryəmin ərsiz doğuşudur.

●Bəs İsa və onun anasının yerləşdirildiyi axar suyu olan uca məkan haradır? Bu barədə müxtəlif fikirlər var:

a) “Rəbvə” Kufəyə, “zati qərar” Kufə məscidinə, “məin” Fərat suyuna işarədir. Bu çay Kufədə daim axmaqdadır.[2]

b) Nəzərdə tutulan Şamın ən üstün məntəqəsi Dəməşqdir.[3]

**Bildirişlər**

1. Nübüvvət məqamı məqamların ən üstünüdür. (İsa nübüvvət məqamında olduğundan onun adı anasının adından öndə çəkilir.)

2. Mühüm və qəribə hadisələri Allahı tanımaq üçün vasitə, onun qeybi qüdrət nişanəsi sayın.

3. Su və əmin-amanlıq yaşayış məskəninin zəruri məziyyətlərindəndir.

***AYƏ 51:***

﴿يَا أَيُّهَا الرُّسُلُ كُلُوا مِنَ الطَّيِّبَاتِ وَاعْمَلُوا صَالِحًا إِنِّي بِمَا تَعْمَلُونَ عَلِيمٌ﴾

**“Ey peyğəmbərlər! Pak qidalardan yeyin, saleh işlər görün, həqiqətən, Mən sizin gördüyünüz işlərdən agaham.”**

**Nöqtələr**

●Qurani-Kərimdə “kulu” (yeyin) ilə yanaşı digər göstərişlər də zikr olunmuşdur. Məsələn: «yeyin və Allaha şükür edin»[4]; «yeyin və yedirin»[5]; «yeyin və israf etməyin»[6].

●Həzrət Peyğəmbər (s) uyğun ayə ilə bağlı buyurmuşdur: “Həzrət İsa anası Məryəmin toxuduğu ipin qazancı ilə dolanırdı.”[7]

●İmam Sadiq (ə) ayə ilə bağlı buyurur: “Pak qida dedikdə halal qida nəzərdə tutulur.”[1]

---

[1] “İsra”, 12.
[2] “Bihar”, c. 14, s. 239.
[3] “Təfsire-Dürrül-Mənsur”.
[4] “Səba”, 15.
[5] “Həcc”, 28.
[6] Əraf”, 31.
[7] “Təfsire-Dürrül-Mənsur”.

Hədisdə oxuyuruq: “Allah bir tikə haram yeyənin ibadətini qəbul etməz.”[2]

**Bildirişlər**

1. Peyğəmbərlər də qidadan, təbii nemətlərdən bəhrələnirlər.

2. Xalqı haqqa dəvət etmək üçün öncə onların maddi dolanışığı barədə düşünək.

3. Bütün ilahi dinlər rahiblik, guşənişinlik və riyazətlə müxalifdir. (İsanın adı çəkildikdən sonra “yeyin” göstərişinin gəlməsində məqsəd məsihilikdə özünə yer almış rahibliyin qarşısının alınması ola bilər.)

4. Yediyiniz vaxt iki mühüm şərti unutmayın: Qidanın halallığı və paklığı.

5. Qidalanma da nəfs istəklərinə əsaslanmamalı, məqsədli olmalıdır.

6. Qarına münasibətdə iffət əməldə təqva ilə yanaşıdır.

7. İnsan halal və pak qidalanma sayəsində saleh əməl üçün tövfiq (ilahi yardım) əldə edir.

8. Halal və pak qida, saleh əməl bütün ilahi dinlərdə diqqət mərkəzindədir.

9. Əgər halal yeyib saleh işlər görməsəniz, bilin ki, Allah peyğəmbərlərlə də hesab aparasıdır.

***AYƏ 52:***

﴿وَإِنَّ هَذِهِ أُمَّتُكُمْ أُمَّةً وَاحِدَةً وَأَنَا رَبُّكُمْ فَاتَّقُونِ﴾

**“Əlbəttə, sizin bu ümmət vahid bir ümmətdir və Mən sizin Rəbbinizəm. Belə isə, məndən qorxun.”**

***AYƏ 53:***

﴿فَتَقَطَّعُوا أَمْرَهُم بَيْنَهُمْ زُبُرًا كُلُّ حِزْبٍ بِمَا لَدَيْهِمْ فَرِحُونَ﴾

**“Amma insanların işi onların arasında pərakəndəliyə apardı. Hər dəstə bir yolla getdi. Hər firqə özündə olana sevindi.”**

**Nöqtələr**

●“Zubur” dedikdə heyvanın ayrıca yığılmış tükü nəzərdə tutulur. Sonralar bu söz ayrıca toplanmış hər cüzə aid edilmişdir.[3]

**Bildirişlər**

1. Dini və ilahi dünya görüşünə əsasən əslində bütün ümmətlər vahid bir ümmətdir. Çünki:

–Bütün ilahi peyğəmbərlərin dəvət üsulu eynidir;

–İnsanların fitri, ruhani və fiziki ehtiyacları eynidir;

–Hamının Yaradanı və Rəbbi eynidir.

2. Təqva və haramlardan uzaqlıq Rəblik məqamına layiqdir.

---

[1] “Bihar”, c. 11, s. 58.

[2] “Təfsire-Məraği”.

[3] “Təfsiri-nümunə”.

3. Təfriqə tarixi keçmişi olan böyük bəladır.
4. Təfriqə yaratmaq təqvasızlıqdır.
5. Təfriqənin əsası insanlardakı eqoistlikdir.

***AYƏ 54:***

﴿فَذَرْهُمْ فِي غَمْرَتِهِمْ حَتَّى حِينٍ﴾

**“Onları bir müddət (ölüm və əzab vaxtı çatanadək) cəhalət və qəflət içində burax.”**

***AYƏ 55:***

﴿أَيَحْسَبُونَ أَنَّمَا نُمِدُّهُم بِهِ مِن مَّالٍ وَبَنِينَ﴾

**“Yoxsa güman edirlər ki, onlara mal və övlad verməyimizin səbəbi...”**

***AYƏ 56:***

﴿نُسَارِعُ لَهُمْ فِي الْخَيْرَاتِ بَل لَّا يَشْعُرُونَ﴾

**“Onlara xeyir verməyə tələsməyimizdir? (Qətiyyən belə deyil,) onlar anlamırlar (ki, mal və övlad imtahan vasitəsidir.)”**

**Nöqtələr**

●“Ğəmrə” dedikdə qərq olmaq mənası anlaşılır. Burada Məkkə əhlinin yersiz təəssübə qərq olması nəzərdə tutulur.

**Bildirişlər**

1. Azğınlığın ən pis növü insanın Allah tərəfindən özbaşına buraxılmasıdır.
2. İxtilaf və təfriqə ölüm girdabı, Allah və Onun rəsulunun qəhr-qəzəb səbəbidir.
3. İnsan özü özünə bədbəxtlik quyusu qazır.
4. Təfriqəçi azğınlara böyük möhlət verilməyib və ilahi qəhr-qəzəb onların intizarındadır.
5. Sərvət sahibləri əsassız yerə təhlil edirlər. Var-dövlət, ailə-övlada aldanan bu zümrə özünü Allaha yaxın sayır.
6. Yalnız mal və övlad əsasında dəyərləndirmə şüursuzluq nişanəsidir.

***AYƏ 57:***

﴿إِنَّ الَّذِينَ هُم مِّنْ خَشْيَةِ رَبِّهِم مُّشْفِقُونَ﴾

**“Həqiqətən, o kəslər ki, Rəblərinin qorxusundan titrəyərlər...”**

*AYƏ 58:*

﴿وَالَّذِينَ هُم بِآيَاتِ رَبِّهِمْ يُؤْمِنُونَ﴾

**"O kəslər ki, Rəblərinin ayələrinə iman gətirmişlər..."**

*AYƏ 59:*

﴿وَالَّذِينَ هُم بِرَبِّهِمْ لَا يُشْرِكُونَ﴾

**"Rəblərinə şərik qoşmazlar..."**

**Nöqtələr**

●"Xəşyət" dedikdə elm və agahlıqdan yaranan qorxu nəzərdə tutulur. Məhəbbət və ehtiram qatqılı qorxu isə "işfaq" adlanır. Xəşyət daha çox qəlbə, işfaq daha çox əmələ aiddir. Ayədə bildirilir ki, möminlər və xeyir işə tələsənlər qəlblərində ilahi əzəmətdən doğan qorxu olanlardır. Onlar əməldə haramlardan çəkinir və həya edirlər.

**Bildirişlər**

1. Agahlıqdan doğan qorxu və Allahın əzəmətinə diqqət inkişaf qaynağıdır.
2. Allahın nazil etdiyi hər bir qanuna iman, çeşidli şirklərdən uzaqlıq bizim daimi vəzifəmizdir.

*AYƏ 60:*

﴿وَالَّذِينَ يُؤْتُونَ مَا آتَوا وَّقُلُوبُهُمْ وَجِلَةٌ أَنَّهُمْ إِلَى رَبِّهِمْ رَاجِعُونَ﴾

**"O kəslər ki, sonda Rəblərinə doğru qayıdacaqlarından qorxan halda (mallarından Allah yolunda) əta edərlər."**

**Nöqtələr**

●"Vəcil" dedikdə iztirab və nigarançılıq nəzərdə tutulur.

●İnsanın mənəvi təkamülü bir neçə mərhələdə gerçəkləşir: xəşyət gətirən elm və agahlıq, dərk olunanlara dərin və daimi iman, istər məxfi, istər aşkar, hər növ şirkdən uzaqlıq, Allahın verdiklərindən infaq etmək, qürrələnməmək və Qiyamət sorğusuna görə narahat olmaq.

**Bildirişlər**

1. Etdiyimiz infaqlara görə qürrələnməyək.
2. Mömin Qiyamət günü Rəbbinin hüzurunda dayanacağına görə qorxur.

*AYƏ 61:*

﴿أُوْلَئِكَ يُسَارِعُونَ فِي الْخَيْرَاتِ وَهُمْ لَهَا سَابِقُونَ﴾

**"Beləlləri xeyir işə tələsər. Xeyir işdə bir-birindən önə keçən onlardır."**

**Nöqtələr**

●**56**-cı ayədə bəyan olundu ki, bəziləri mal və övladı xoşbəxtlik səbəbi, xeyir nişanəsi sayır. Amma bu ayədə buyurulur ki, xeyir onların düşündüyü yox, elm, iman, ixlas, qorxu və xəşyətlə müşayiət olunan infaqdır.

**Bildirişlər**

1. Allah və Qiyamət qorxusu insanı xeyir işlərə tələsdirən səbəbdir.
2. Daim xeyir işlərə tələsmək gerçək imanın nişanəsidir.
3. Yaxşı işdə tələsmək bir dəyərdir.

### *AYƏ 62:*

﴿وَلَا نُكَلِّفُ نَفْسًا إِلَّا وُسْعَهَا وَلَدَيْنَا كِتَابٌ يَنطِقُ بِالْحَقِّ وَهُمْ لَا يُظْلَمُونَ﴾

**“Biz kimsənin öhdəsinə gücü çatmayanı vəzifə qoymarıq. Bizim yanımızda haqqı danışan kitab var. Onlara heç bir sitəm qılınmaz.”**

**Nöqtələr**

●Fiqhdə “nəfyi-usr və hərəc” (çətinliyin və taqətdən uzaq işlərin inkarı”) adlı bir qayda var. Bu qayda hazırkı ayəyə əsaslanır. Yəni insan üçün dözülməz çətinlik yaradan vəzifə onun öhdəsindən götürülür.

**Bildirişlər**

1. Xeyir işlərdə tələsmək yaxşı sayılsa da, ifrata varmaq olmaz.
2. İnsanlar arasında vəzifə fərqi var. Hər kəs fiziki və mənəvi imkanları həddində göstəriş alır. Allah varlıdan istədiyini yoxsuldan istəmir.
3. İlahi dünya görüşündə gücdən artıq vəzifə qoyulmadığından kimsə çıxılmaz vəziyyətə düşüb əskiklik hiss etmir. (Bəli, vəzifə ona gücü çatana aiddir. Gücümüz çatmaz deyə narahat olmayaq.)
4. Yaranış nizamının hesab-kitabı var.
5. Bu ayədə müdiriyyətin bəzi şərtləri zikr olunmuşdur:

a) Fərdlərin gücü ilə tanışlıq və onlara gücləri həddində iş tapşırılması;
b) Onların işinə dəqiq nəzarət;
v) Onların tənbeh və təşviqində ədalətin əsas götürülməsi.

### *AYƏ 63:*

﴿بَلْ قُلُوبُهُمْ فِي غَمْرَةٍ مِّنْ هَذَا وَلَهُمْ أَعْمَالٌ مِن دُونِ ذَلِكَ هُمْ لَهَا عَامِلُونَ﴾

**“Bəlkə də, onların qəlbi bundan (Kitabdan) xəbərsizdir. Bundan əlavə bəzi (yersiz) işlər də görürlər.”**

**Nöqtələr**

●Ötən ayədə xalis bəndələr, bu ayədə azğın dəstə haqqında danışılır.
Bəli, hər kəs öz xarakterini göstərir, kuzəni onun içində olan nəmləndirir.

●«Bəli» kəlməsi mətləbi ötürmək üçündür.

Ötən ayələrdə xeyir əməl sahiblərindən, bu ayədə fərqli əməl sahibi olan kafirlərdən danışılır.

●"Ğəmrə" dedikdə insanı bütünlüklə bürüyən su nəzərdə tutulur. Yəni qəflət onların bütün vücudunu bürümüşdü.

**Bildirişlər**

1. Öncə ruh yolunu azır, sonra insanın rəftarı dəyişir.
2. Çirkin rəftardan da pisi həmin rəftarı təkrarlamaqdır.
3. İnsan öncə xilaf iş görür, sonra xilaf iş onda adətə çevrilir. Adətə çevrilmiş büdrəmə insanı özünə cəlb edir. Yəni insan əməldə yolun azır, günaha batdıqdan sonra həmin yola əsir olur.

***AYƏ 64:***

﴿حَتَّى إِذَا أَخَذْنَا مُتْرَفِيهِم بِالْعَذَابِ إِذَا هُمْ يَجْأَرُونَ﴾

**"(Onların cəhalət və azğınlığı davam edir,) o vaxta qədər ki, rifah içində yaşayanları qəhr-qəzəbimizə düçar edirik. Həmin məqamda nalə çəkirlər."**

***AYƏ 65:***

﴿لَا تَجْأَرُوا الْيَوْمَ إِنَّكُم مِّنَّا لَا تُنصَرُونَ﴾

**"(Onlara xitab olunar:) «Bu gün nalə çəkməyin. Şübhəsiz, sizə Bizim tərəfimizdən yardım göstərilməyəcək.»"**

**Nöqtələr**

●"Yəcərun" dedikdə yaralanmış it və canavarın ulaması nəzərdə tutulur. Rifah içində yaşayanların naləsinin it ulamasına oxşadılması onların dünya məstliyinə xatir düçar olduqları zilləti göstərir.

**Bildirişlər**

1. Rifah içində yaşayan təkəbbürlü zümrəni ilahi əzabdan başqa bir şey oyada bilməz.
2. Məstliklə müşayiət olunan naz-nemətin sonu ümidsiz nalələr olacaq.

   Hər gülüşdən sonra axar göz yaşı,
   Uzaqgörənlərin ağrımaz başı.
3. Qiyamət günü dua yox, cəza (mükafat) günüdür.
4. Öz var-dövləti və imkanları ilə xalqa yardım göstərməyənlərə Qiyamət günü yardım olunmaz.

***AYƏ 66:***

﴿قَدْ كَانَتْ آيَاتِي تُتْلَى عَلَيْكُمْ فَكُنتُمْ عَلَى أَعْقَابِكُمْ تَنكِصُونَ﴾

**"Həqiqətən, Mənim ayələrim sizə davamlı şəkildə oxunurdu, amma siz üz döndərib geriyə qayıdırdınız."**

*AYƏ 67:*

﴿مُسْتَكْبِرِينَ بِهِ سَامِرًا تَهْجُرُونَ﴾

**“Belə ki, ona (peyğəmbər və Qurana) münasibətdə təkəbbür göstərir, gecə ötənədək pisliyə danışırdınız.”**

**Nöqtələr**

●“Nükus” sözü geriyə dönüş mənasını bildirir.

●“Samir” sözü gün uzunu danışıq mənasını bildirir.

●“Həcr” dedikdə ayrılıq, “Hucr” dedikdə ayrılığa səbəb olan pis danışıq nəzərdə tutulur.

**Bildirişlər**

1. İrtica və haqqa arxa çevirmək rifah sahibləri və təkəbbür əhlinin sifətlərindəndir.
2. Peyğəmbərlərə etinasızlıq təkamül yox, süqut nişanəsidir. İlahi göstərişlər təkamül, bu göstərişlərə müxalifət süqut amilidir.
3. Haqqa müxalifətdən də pisi bu münasibətin zülm və təkəbbürdən qaynaqlanmasıdır.
4. Gündüzü məntiqsiz keçirən gecəni hədyanla başa vurur.
5. Hesab-kitabsız danışan kəs ağzını pisliyə açır.

*AYƏ 68:*

﴿أَفَلَمْ يَدَّبَّرُوا الْقَوْلَ أَمْ جَاءهُم مَّا لَمْ يَأْتِ آبَاءهُمُ الْأَوَّلِينَ﴾

**“Görən onlar bu sözlər (Quran) haqqında düşünmürlərmi? Yoxsa onlara babaları üçün gəlməmiş bir xəbər gəlib?! (Ona görə də yeni bir sözü qəbul etmək onlara ağırdır.)”**

*AYƏ 69:*

﴿أَمْ لَمْ يَعْرِفُوا رَسُولَهُمْ فَهُمْ لَهُ مُنكِرُونَ﴾

**“Yoxsa peyğəmbərlərini tanımadılar və buna görə onu inkar edirlər?”**

*AYƏ 70:*

﴿أَمْ يَقُولُونَ بِهِ جِنَّةٌ بَلْ جَاءهُم بِالْحَقِّ وَأَكْثَرُهُمْ لِلْحَقِّ كَارِهُونَ﴾

**“Ya da “onda dəlilik var” deyirlər. Halbuki peyğəmbər onlar üçün haqqı gətirib. Amma onların çoxu haqqın qəbulundan ikrah duyur.”**

**Bildirişlər**

1. Bədbəxtliyin ilkin amili düşüncəni bir kənara qoymaqdır.

2. Quran düşüncə kitabıdır. (Quranın tilavəti bəs etmir, onu düşünənlər haqqı anlayır.)

3. Allah bütün dövrlərdə Öz haqq nidasını xalqa çatdırmışdır və səmavi dinlərin bir kökü var.

4. Öz təbliğ və dəvətinizdə bütün bəhanə yollarını müxaliflərin üzünə bağlayın.

5. Peyğəmbər xalq arasında yaxşılıqla tanınmalıdır ki, onun inkarı üçün bəhanə qalmasın.

6. İnsan eşitdiyi yeni sözə şübhə ilə yanaşırsa da, ilahi vəhy təzəlikdə nazil olmamışdır və onun tarixi keçmişi var.

7. Din düşmənləri öz məqsədlərinə çatmaq üçün ilahi insanların şəxsiyyətini alçaltmağa çalışırlar.

8. Əksəriyyət narahat olsa da, haqq bəyan edilməlidir.

9. Kafirlərin bəzisinin sağlam fitrəti var və haqqı qəbul edirlər.

***AYƏ 71:***

﴿وَلَوِ اتَّبَعَ الْحَقُّ أَهْوَاءهُمْ لَفَسَدَتِ السَّمَاوَاتُ وَالْأَرْضُ وَمَن فِيهِنَّ بَلْ أَتَيْنَاهُم بِذِكْرِهِمْ فَهُمْ عَن ذِكْرِهِم مُّعْرِضُونَ﴾

**“Əgər haqq onların nəfs istəklərinə tabe olsaydı, şübhəsiz, göylər və yer, onlarda olanlar puça çıxardı. Amma biz onlara (şərəf və ləyaqətlərini) xatırladan Quran verdik. Bununla belə, onlar bu zikrdən üz çevirdilər.”**

**Nöqtələr**

●Əgər haqq xalqın nəfs istəklərinə tabe olsa, varlıq nizamı pozular. Çünki:

1. Xalqın həvəsləri bir-biri ilə ziddiyyət təşkil edir;
2. Xalqın həvəsləri haqqa əsaslanmır;
3. Xalqın həvəsləri, birtərəflidir, bu həvəslərdə yaxın və uzaq təsirlər nəzərə alınmır.

**Bildirişlər**

1. Haqq heç vaxt insanların meyl və istəklərinə tabe olmamalıdır.
2. Kafir başçılar dini öz istəklərinə uyğunlaşdırmaq istəyindədirlər.
3. Haqpərəstlik həvəspərəstliyə ziddir.
4. Bəşəriyyətin meyl və həvəsləri dünyanı fəsada çəkir.
5. Varlıq aləminə hakim olan nizam Allahın haqq və hikmət sahibi olmasını göstərir.
6. Göylərdə də diri və şüurlu varlıqlar mövcuddur.
7. Quran xəbərdarlıq vasitəsidir.
8. Din millətlərin oyanış və xilas vasitəsidir.
9. İnsan bəzən onu izzətə çatdırası səbəblərdən üz çevirir.

***AYƏ 72:***

﴿أَمْ تَسْأَلُهُمْ خَرْجًا فَخَرَاجُ رَبِّكَ خَيْرٌ وَهُوَ خَيْرُ الرَّازِقِينَ﴾

**“Sən onlardan (dəvətin müqabilində) bir muzd istəmisənmi? Rəbbinin daimi mükafatı daha üstündür və O, ruzi verənlərin ən xeyirlisidir.”**

***AYƏ 73:***

﴿وَإِنَّكَ لَتَدْعُوهُمْ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**“Şübhəsiz, sən xalqı doğru yola dəvət edirsən.”**

***AYƏ 74:***

﴿وَإِنَّ الَّذِينَ لَا يُؤْمِنُونَ بِالْآخِرَةِ عَنِ الصِّرَاطِ لَنَاكِبُونَ﴾

**“Həqiqətən, axirətə iman gətirməyənlər doğru yoldan çıxmışlar.”**

**Nöqtələr**

●“Xərc” dedikdə məsrəf olunan şey nəzərdə tutulursa, “xərac” təyin olunmuş davamlı büdcədir.[1] “Nəkəb” dedikdə yoldan çıxmaq, “nikbət” dedikdə bədbəxtlik nəzərdə tutulur.

●İlahi ruzinin bir sıra səciyyələri var: Minnətsizdir, daimidir, boldur, bərəkətlidir.

●Hədisdə bildirilir ki, peyğəmbər Əhli-beytini (ə) qoyub, başqalarının sorağınca gedənlər və onların rəhbərliyini qəbul edənlər doğru yoldan çıxmışlar.[2]

**Bildirişlər**

1. Dini təbliğat müqabilində xalqdan pul tələb etmək olmaz. Xalq özü verdikdə isə onu qəbul etməyin eybi yoxdur.
2. Xalq təbliğatçının pul təmənnasına həssas yanaşır.
3. Xalq bir dəfə xərc çəkirsə, Allah daim ruzi yetirir. (Xərc və xərac arasında olan fərqi unutmayaq.)
4. Ardıcıl şəkildə ruzi vermək Rəbbimizin şənindəndir.
5. Allah din təbliğatçılarının ruzisinə zamindir.
6. Ruzi vasitələri sizi aldatmasın.
7. Peyğəmbər insanları doğru yola səsləyir.
8. Məada iman doğru yolda möhkəmlik amili, imansızlıq azğınlıq səbəbidir.

---

[1] “Ət-təhqiq fi kəlimatil-Quran”.

[2] “Təfsire-Nurus-səqəleyn”.

*AYƏ 75:*

﴿وَلَوْ رَحِمْنَاهُمْ وَكَشَفْنَا مَا بِهِم مِّن ضُرٍّ لَّلَجُّوا فِي طُغْيَانِهِمْ يَعْمَهُونَ﴾

**“Əgər onlara rəhm etsək, bədbəxtliklərini aradan qaldırsaq, (şükür etmək əvəzinə) tüğyanları üzərində kor-koranə israr edəsidirlər.”**

**Nöqtələr**

●“Kənzud-dəqaiq” və “Ruhul-bəyan” təfsirlərində oxuyuruq: Məkkədə qıtlıq olduğu zaman Əbu-Sufyan İslam Peyğəmbərindən (s) dua istədi. Həzrət dua etdi və qıtlıq aradan qalxdı. Bu hadisədən sonra yuxarıdakı ayə nazil oldu.

●İnsanlar tüğyan baxımından bir-birlərindən fərqlənirlər:

–Alimlər elmdə tüğyan qoparır və bu tüğyan özünü qürur və lovğalıq hisslərində büruzə verir.

–Varlılar sərvətlərində tüğyan qoparır və bu tüğyan özünü xəsislikdə büruzə verir.

–Salehlərin tüğyanı xeyir əməllə bağlıdır və özünü riya ilə göstərir.

–Həvəspərəstlərin tüğyanı onların şöhrət ardınca qaçması ilə müşayiət olunur.[1]

**Bildirişlər**

1. Rifah və asayiş ilahi rəhmət cilvəsidir.
2. Şəxsiyyətsiz insanlara xidmət və məhəbbət səmərəsizdir.
3. İmansız insanlar fürsət və möhlətlərdən sui-istifadə edir.
4. Tüğyan insanı avara qoyur.

*AYƏ 76:*

﴿وَلَقَدْ أَخَذْنَاهُم بِالْعَذَابِ فَمَا اسْتَكَانُوا لِرَبِّهِمْ وَمَا يَتَضَرَّعُونَ﴾

**“Həqiqətən, onları əzaba düçar etdik. Amma onlar Rəbləri qarşısında nə təvazö göstərdilər, nə də yalvardılar.”**

**Nöqtələr**

●Hədisdə oxuyuruq: “İstəkanət” mütilik, “təzərrö” dua üçün əl açmaq mənasını bildirir.[2]

●Ötən ayədə inadkar kafirlər haqqında buyuruldu: “Əgər onlara rəhm etsək, inadkarlıq göstərib yola gəlməzlər.” Bu ayədə buyurulur: “Əgər onları qəhr-qəzəbimizlə yaxalayıb əzab versək, yenə yola gəlməzlər.” Şair deyir:

*Daş qəlbə öyüdün yoxdur səməri,*
*Ha vur, mıxın daşa olmaz əsəri.*

---

[1] “Təfsire-Ruhul-bəyan”.
[2] “Təfsire-Nurus-səqəleyn”.

**Bildirişlər**

1. Dünyadakı ilahi qəhr-qəzəbin məqsədi qafilləri oyatmaqdır.

2. Kafirlər və azğınlar bəzən dünyada da ilahi əzaba düçar olurlar.

3. İnadkar kafirlər nə Allahın mərhəməti, nə də onun qəhr-qəzəbi ilə doğru yola gəlir.

4. Ən pis təkəbbür aləmlərin Rəbbi qarşısında təkəbbürdür. (Daş qəlbli insan o qədər süqut edir ki, hətta böyük Allah qarşısında təvazö və yalvarışı özünə rəva bilmir.)

*AYƏ 77:*

﴿حَتَّى إِذَا فَتَحْنَا عَلَيْهِم بَابًا ذَا عَذَابٍ شَدِيدٍ إِذَا هُمْ فِيهِ مُبْلِسُونَ﴾

**“(Bu daş qəlbli insanlara nə mərhəmət, nə də əzab təsir göstərdi. Biz də onları öz başlarına buraxırıq,) o vaxta qədər ki, üzlərinə ağır əzab qapısı açaq, (elə bəlaya düşsünlər ki,) onda (əzaba) qəfil məyus olsunlar.”**

**Nöqtələr**

●“İblas” sözündən olan “müblis” sözü acı bir hadisədən sonra insanda yaranan qəm-qüssə mənasını bildirir. Belə bir kədər adətən insanı sükut, heyrət və ümidsizliyə sürükləyir.[1]

**Bildirişlər**

1. Əzab qapıları öncə bizim üzümüzə bağlı olur. Amma haqq qarşısındakı inadkarlığımız həmin qapıların açılması ilə nəticələnir.

2. Allah tərbiyə mərhələlərində müəyyən üsulla rəftar edir:

a) Rəhmət və mehribanlıqla rəftar edir;

b) Tənbeh üçün əzaba düçar edir;

v) İnsanı çıxılmaz vəziyyətə salan son əzab nazil olur.

3. Peyğəmbərləri öz inadkarlığı ilə məyus edən kəs əzaba düçar olaraq özü ümidsiz vəziyyətə düşür.

4. Son əzab nazil olan məqam tövbə və qurtuluş üçün yer qalmır, əzaba düçar olanlar ümidini itirir.

*AYƏ 78:*

﴿وَهُوَ الَّذِي أَنشَأَ لَكُمُ السَّمْعَ وَالْأَبْصَارَ وَالْأَفْئِدَةَ قَلِيلًا مَّا تَشْكُرُونَ﴾

**”Sizin üçün qulaq, göz və qəlb qərar verən Odur. Necə də az şükür edirsiniz”.**

---

[1] “Təfsiri-nümunə”.

*AYƏ 79:*

﴿وَهُوَ الَّذِي ذَرَأَكُمْ فِي الْأَرْضِ وَإِلَيْهِ تُحْشَرُونَ﴾

**“Odur sizi yer üzündə yaradan və Ona doğru məhşur olarsınız (Onun hüzuruna gətirilərsiniz)”.**

*AYƏ 80:*

﴿وَهُوَ الَّذِي يُحْيِي وَيُمِيتُ وَلَهُ اخْتِلَافُ اللَّيْلِ وَالنَّهَارِ أَفَلَا تَعْقِلُونَ﴾

**“Odur dirildən və öldürən. Gecə və gündüzün get-gəli Onun üçündür. Yoxsa düşünmürsüz?!”**

**Bildirişlər**

1. Məlumat və tanışlıq yolları Allahın böyük nemətlərindəndir.
2. İnsan təkcə hiss üzvləri ilə məlumat əldə etmir. Bu işdə onun qəlbi də rol oynayır.
3. Nemət verən qarşısında şükür vacibdir. Nemətlərdən düzgün istifadə etməyən kəs nankordur və məzəmmətə layiqdir.
4. İlahi nemətlərin yada salınması tanışlıq və şükür üçün zəmindir.
5. İnsan məqsədli yaradılmışdır.
6. Düşüncə insanı tövhid əqidəsinə çatdırır.

*AYƏ 81:*

﴿بَلْ قَالُوا مِثْلَ مَا قَالَ الْأَوَّلُونَ﴾

**“(Kafirlər hidayət olmadılar.) Onlar əvvəlkilərin danışdığı kimi danışdılar”.**

*AYƏ 82:*

﴿قَالُوا أَئِذَا مِتْنَا وَكُنَّا تُرَابًا وَعِظَامًا أَئِنَّا لَمَبْعُوثُونَ﴾

**“Dedilər: «Görən ölüb torpaq və sümük olduqdan sonra növbəti dəfə ayağa qaldırılacağıq?»”**

*AYƏ 83.*

﴿لَقَدْ وُعِدْنَا نَحْنُ وَآبَاؤُنَا هَذَا مِن قَبْلُ إِنْ هَذَا إِلَّا أَسَاطِيرُ الْأَوَّلِينَ﴾

**“Əlbəttə, bizə və atalarımıza öncədən belə vəd olunmuşdu. Bu (sözlər və vədlər) əvvəlkilərin əfsanələrindən başqa bir şey deyil”.**

**Nöqtələr**

“Əsatir” dedikdə yalan əfsanələr mənası başa düşülür. Bu söz Quranda doqquz dəfə kafirlərin dilindən işlədilmişdir.

**Bildirişlər**

1. Məadın inkarı ilə bağlı kafirlərin təzə bir sözləri yoxdur.
2. Kafirlərin məntiq və dəlili yoxdur. Onların haqq qarşısında yeganə işləri inkarla müşayiət olunan təəccübdür.
3. Haqqı inkarın kökü düşüncəsizlikdir. (Ölüm və həyata, gecə və gündüzün hərəkətinə diqqət məada iman üçün zəmin yaradır).

*AYƏ 84-85:*

﴿قُل لِّمَنِ الْأَرْضُ وَمَن فِيهَا إِن كُنتُمْ تَعْلَمُونَ سَيَقُولُونَ لِلَّهِ قُلْ أَفَلَا تَذَكَّرُونَ﴾

**“(Kafirlərə) de: «Əgər elminiz varsa, (deyin görək) yer və yer üzündə olanlar kimə məxsusdur?» Onlar deyəcəklər ki, Allaha məxsusdur. De ki, yoxsa agah olmursunuz?”**

*AYƏ 86:*

﴿قُلْ مَن رَّبُّ السَّمَاوَاتِ السَّبْعِ وَرَبُّ الْعَرْشِ الْعَظِيمِ﴾

**“De ki, yeddi qat göyün Rəbbi, böyük ərşin Rəbbi kimdir?”**

*AYƏ 87:*

﴿سَيَقُولُونَ لِلَّهِ قُلْ أَفَلَا تَتَّقُونَ﴾

**“(Yenə də) deyəcəklər: «Allah üçündür.» De ki, yoxsa qorxmursunuz?”**

**Nöqtələr**

●“Rəbb” dedikdə öz mülkünü qoruyub idarə edən malik nəzərdə tutulur.

●“Ərş” yeddi qat göydən fərqlənir və Allahın müdiriyyət mərkəzidir.

**Bildirişlər**

1. Cəhalət və qəflət şirkin köküdür.
2. Sualın bəyan forması təbliğ üsullarından biridir.
3. İnsanı Allahşünas edən elm faydalıdır.
4. Hər bir agah insan bilir ki, yer və yer üzündə olan hər bir kəs sahibsiz və hesabsız deyil.
5. Vicdan ən üstün hakimdir.
6. Xalqın öz danışıq və cavablarından moizə və dəlil üçün istifadə edin.
7. Yeddi qat göy və bütün varlıq aləmi Allahın tədbirinə tabedir.

*AYƏ 88:*

﴿قُلْ مَن بِيَدِهِ مَلَكُوتُ كُلِّ شَيْءٍ وَهُوَ يُجِيرُ وَلَا يُجَارُ عَلَيْهِ إِن كُنتُمْ تَعْلَمُونَ﴾

**"De ki, əgər bilirsinizsə deyin, bütün mövcudların hökmü kimin əlindədir? O (varlıq) ki, sığınacaq verir, amma qarşısında kimsənin sığınacağı yoxdur."**

*AYƏ 89:*

﴿سَيَقُولُونَ لِلَّهِ قُلْ فَأَنَّى تُسْحَرُونَ﴾

**"Tezliklə deyəcəklər ki, (hər şeyin hökmü) Ona məxsusdur. De ki, bəs necə (deyirsiniz ki, peyğəmbər sizi sehirləyib) ona sehirlənmisiniz?"**

*AYƏ 90:*

﴿بَلْ أَتَيْنَاهُم بِالْحَقِّ وَإِنَّهُمْ لَكَاذِبُونَ﴾

**"(Biz onları sehirləmirik,) əksinə onlar üçün haqqı gətirdik. Şübhəsiz, onlar yalan danışırlar".**

**Nöqtələr**

●Qurani-Kərimin "Yasin" surəsinin 82, 83-cü ayələrində buyurulur: "Allah bir şeyi istədiyi vaxt əmr edir və o, yaranır. Bütün şeylərin hökmü əlində olan Allah pak-pakizədir".

●"Yucir" və "yucar" sözləri qonşuluq mənasını bildirən "civar" kökündəndir. Qonşunu başqalarının sui-qəsdindən qorumaq qonşuluq haqqı olduğundan bu söz sığınacaq və himayə verən mənasında işlədilmişdir."[1]

●Ayədə "həqq" dedikdə ya məad, ya Quran, ya da tövhid məntiqi nəzərdə tutulur.

**Bildirişlər**

1. Müxaliflərlə danışıq qaydasını Qurandan öyrənək.
2. İnsanların təkamül və hidayət yolunda onların sağlam fitrət və düzgün inanclarından istifadə edin.
3. Allahın malikiyyəti geniş və hərtərəflidir.
4. Allahın himayəsi daimi, mütləq və özünəməxsusdur.
5. Allahın qəhr-qəzəbi qarşısında heç bir sığınacaq yoxdur.
6. Allahın mütləq hakimiyyətini yalnız alimlər dərk edir.
7. Başqalarının azğın əqidəsi qarşısında aydın mövqe tutun.
8. Allahın işləri haqdır və hikmətə əsaslanır.

---

[1] "Təfsire-Əl-mizan".

*AYƏ 91:*

﴿مَا اتَّخَذَ اللَّهُ مِن وَلَدٍ وَمَا كَانَ مَعَهُ مِنْ إِلَهٍ إِذًا لَّذَهَبَ كُلُّ إِلَهٍ بِمَا خَلَقَ وَلَعَلَا بَعْضُهُمْ عَلَى بَعْضٍ سُبْحَانَ اللَّهِ عَمَّا يَصِفُونَ﴾

**“Allah Özünə heç bir övlad götürməmişdir. Onunla heç bir məbud yoxdur. (Başqa bir məbud olsaydı) hökmən hər bir məbud öz yaratdığına doğru gedərdi və şübhəsiz, məbudların bəzisi digərlərindən üstün olmağa çalışardı. (Beləcə, varlıq aləmi qarışardı.) Allah (müşriklərin) ona aid etdikləri sifətlərdən pakdır.”**

**Bildirişlər**

1. Allahın istənilən bir şəkildə övlad sahibi olmasına etiqad qadağandır. (İstər İsa Ona oğul sayıla, istər mələklər Onun qızları hesab edilə.)
2. Bütün yaranmışlar Allahın hökmü altındadır.
3. Müdirin çoxluğu müvəffəqiyyətə mane olur.
4. Nizamlı quruluş Allahın birliyini göstərir.
5. Övlad sahibi olmaq ehtiyaclılıq və məhdudiyyət nişanəsidir. Məhdudiyyət isə üstünlük axtarışına sövq edir.
6. Qüdrətlər arasındakı ziddiyyət fəsad və qarşıdurma amilidir.
7. Əgər başqalarının yanlış təsəvvür və rəftarlarını dilə gətirsək, öz ruhumuzu və başqalarının ruhunu paklamaq üçün Allaha təsbih deyək.
8. Allahı bütün yanlışlıq və xurafatdan uzaq bilək.

*AYƏ 92:*

﴿عَالِمِ الْغَيْبِ وَالشَّهَادَةِ فَتَعَالَى عَمَّا يُشْرِكُونَ﴾

**“O, qeybdən və aşkardan agahdır. Ona şərik qoşulan hər nədən üstündür.”**

*AYƏ 93:*

﴿قُل رَّبِّ إِمَّا تُرِيَنِّي مَا يُوعَدُونَ﴾

**“De ki, Pərvərdigara, əgər onlara vəd etdiyini (əzabı) mənə göstərəcəksənsə...”**

*AYƏ 94:*

﴿رَبِّ فَلَا تَجْعَلْنِي فِي الْقَوْمِ الظَّالِمِينَ﴾

**“Onda, Pərvərdigara, məni sitəmkar qövmün içində qoyma.”**

**Nöqtələr**

●İmam Sadiq (ə) "qeyb və aşkardan xəbərdardır" cümləsi haqqında buyurur: "Hələ baş verməyənlər qeyb, baş verənlər isə aşkardır."[1]

**Bildirişlər**

1. Allahın hər şeydən xəbərdarlığı Onun şərikə ehtiyac duymadığını göstərir.
2. Allah qeyb və aşkardan eyni dərəcədə xəbərdardır.
3. Qeybdən xəbərdarlıq mühümdür və qeybi məsələlər aşkar məsələlərdən daha çoxdur. (Quranda qeyb sözü aşkardan daha çox işlənir.)
4. Peyğəmbər vəhyə münasibətdə etibarlıdır, hətta "de ki," kəlməsini belə nəql edir.
5. Sitəmkarlar arasında olmaq insan üçün ilahi əzab təhlükəsi yaradır.

*AYƏ 95:*

﴿وَإِنَّا عَلَى أَن نُّرِيَكَ مَا نَعِدُهُمْ لَقَادِرُونَ﴾

**"Şübhəsiz, Biz onlara vəd etdiyimizi sənə göstərə bilərik."**

**Nöqtələr**

Allah bu ayədə Öz peyğəmbərinə təsəlli verir ki, azğınları və kafirləri cəzalandırmağa qadirdir. Amma bu əzab müəyyən səbəblərdən təxirə salınmışdır. O cümlədən:

a) Onlara tövbə üçün möhlət verilir;

b) Höccət tamamlanır, xəbərdarlıq başa çatdırılır;

v) Gələcəkdə onların nəsillərindən möminlər vücuda gəlir;

q) Rəhmət və bərəkət səbəbi olan Peyğəmbərin (s) vücuduna görə möhlət verilir.

**Bildirişlər**

1. Əzabın təxirə düşməsi Allahın zəifliyini göstərmir.
2. Kafirlərin aqibətini gözünüzlə görmədiyinizə görə Allahın qüdrətinə şəkk etməyin.

*AYƏ 96:*

﴿ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ السَّيِّئَةَ نَحْنُ أَعْلَمُ بِمَا يَصِفُونَ﴾

**"(Ey peyğəmbər,) pisliyi ən yaxşı tərzdə dəf et. (İntiqam fikrində olma.) Biz, kafirlərin vəsflərindən daha çox agahıq. (Bilirik ki, müşriklər Bizi övladı və şəriki olan, səni sehr, cadu sahibi kimi vəsf edirlər.)"**

*AYƏ 97, 98:*

﴿وَقُل رَّبِّ أَعُوذُ بِكَ مِنْ هَمَزَاتِ الشَّيَاطِينِ وَأَعُوذُ بِكَ رَبِّ أَن يَحْضُرُونِ﴾

---

[1] "Məaniyul-əxbar", s. 146.

**“De ki, Pərvərdigara, şeytanların vəsvəsələrindən Sənə pənah aparıram; onların mənim yanımda hazır olmasından Sənə pənah aparıram, ya Rəbb!”**

**Bildirişlər**

1. Həzrət Peyğəmbər (s) Allahın tərbiyəsi altındadır və ona əmr olunmuşdur ki, düşmənlərin pisliklərinə qarşı ən yaxşı şəkildə rəftar etsin.
2. Pisliyə pisliklə cavab vermək olar. Amma bu üsul rəhbərlərə layiq deyil.
3. Allahın elminə iman səbirli və həlim olmağımıza gətirib çıxarır.
4. Hamilik Allahın rübubiyyət şənindəndir.
5. Peyğəmbərlər də Allaha pənah aparmalıdırlar.
6. İnsan Allaha ardıcıl və ciddi şəkildə sığınmalıdır.
7. Yeganə etibarlı sığınacaq Allahdır.
8. Şeytanın nüfuz yollarından biri bizim başqaları ilə pis rəftarımızı qabartmaqdır.
9. Şeytanlar çoxsaylıdır, onların vəsvəsələri müxtəlifdir.
10. Şeytanlar peyğəmbərlərin də imanına tamah salır.
11. Ən böyük vəsvəsə şeytanların hüzurudur.
12. Cəmiyyətdə günahkar və azğın fərdlərin mövcudluğu başqalarının fəsada sürüklənməsi üçün müqəddimədir.

***AYƏ 99:***

﴿حَتَّى إِذَا جَاء أَحَدَهُمُ الْمَوْتُ قَالَ رَبِّ ارْجِعُونِ﴾

**“(Onlar öz yersiz vəsflərini və çirkin rəftarlarını davam etdirirlər,) o zamana qədər ki, ölüm onlardan birinin sorağına gəlsin. Onda deyərlər: Pərvərdigara, bizi geri döndər.”**

***AYƏ 100:***

﴿لَعَلِّي أَعْمَلُ صَالِحًا فِيمَا تَرَكْتُ كَلَّا إِنَّهَا كَلِمَةٌ هُوَ قَائِلُهَا وَمِن وَرَائِهِم بَرْزَخٌ إِلَى يَوْمِ يُبْعَثُونَ﴾

**“Ola bilsin ki, özümdən qalandan (var-dövlətdən) yaxşı bir iş görəm. (Ona deyilər:) «Heç vaxt!» Bu sözü (zahirdə) dildə deyirlər. (Amma əgər geri dönsələr, ona əməl etməzlər.) Onların sorağında ayağa qaldırılacaqları günə qədər bərzəx var.”**

**Bildirişlər**

1. Müəyyən bir qrup üçün təkəbbür və qəflət daimidir.
2. Azğınlar bir gün qəflət yuxusundan oyanacaq və dünyaya qayıtmaq istəyəcəklər. Amma bu istək gerçəkləşəsi deyil.
3. Ömür və fürsəti əldən vermək ölüm zamanı peşmançılığa səbəb olur.

4. Kafirlər doğrudan da geri dönmək istəyərlər. Amma onların saleh əmələ qayıdışla bağlı vədləri şübhəlidir.

5. Saleh əməl ölümdən sonra üçün azuqədir.

6. Geniş imkanı olanlar daha çox saleh iş görməlidirlər.

Əlin açıq ikən çalış xeyirə,
Zaman gələr əlin çatmaz heç yerə.

7. Dünya axirət üçün əkinəcəkdir.

8. Kafirlər yalnız dildə etiraf edirlər, qəlbən islah olmurlar.

### *AYƏ 101, 102:*

﴿فَإِذَا نُفِخَ فِي الصُّورِ فَلَا أَنسَابَ بَيْنَهُمْ يَوْمَئِذٍ وَلَا يَتَسَاءَلُونَ فَمَن ثَقُلَتْ مَوَازِينُهُ
فَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ﴾

**“Sur üfürülən zaman, həmin gün aralarında nə qohumluq qalar, nə də bir-birlərinin halını soruşarlar. Əməl tərəzisi ağır gələnlər həmin nicat tapanlardır.”**

### *AYƏ 103:*

﴿وَمَنْ خَفَّتْ مَوَازِينُهُ فَأُوْلَئِكَ الَّذِينَ خَسِرُوا أَنفُسَهُمْ فِي جَهَنَّمَ خَالِدُونَ﴾

**“Əməl tərəzisi yüngül gələnlər həmin varlıq sərmayəsini əldən verənlərdir və onlar həmişə cəhənnəmdə qalarlar.”**

**Nöqtələr**

●**Sual:** Bəzi ayələrdə bildirilir ki, Qiyamət günü insanlar bir-birlərinə müraciət edərlər.[1] Bəyan edilir ki, behişt əhli cəhənnəm əhlindən soruşar: Sizin cəhənnəmə düşməyinizə nə səbəb oldu?”[2] Bəs nə üçün hazırkı ayədə insanların bir-birinə sual verməyəcəyi bildirilir?

●**Cavab:** Bu iki bəyanat bir birinə zidd deyil. Xalqın bir-birini sorğuya çəkməsi hesab-kitabdan sonraya aiddir və behişt əhli ilə cəhənnəm əhli arasında baş verir. Hazırkı ayədə isə Qiyamət və hesabın başlanğıc vaxtından danışılır. Bəli, insanlar behişt və ya cəhənnəmə daxil olmazdan öncə bir-birlərinə sual vermirlər.[3]

**Bildirişlər**

1. Qiyamət sur üfürülməsi ilə başlayır.
2. Dünyaya aid iftixarlar Qiyamətdə məhv olar.

---

[1] “Saffat”, 27; “Tur”, 25.
[2] “Muddəsir”, 42.
[3] “Əl-mizan”, c. 15, s. 69.

3. Bütün dünyəvi işlərin hesab-kitabı var.
4. Hər bir iş üçün mizan var.
5. İnsanın ən böyük zərəri onun öz ömrünü və istedadlarını hədərə verməsidir.
6. Yalnız Qiyamət üçün ehtiyac hazırlayanlar qurtuluş əhlidir.

*AYƏ 104:*

﴿تَلْفَحُ وُجُوهَهُمُ النَّارُ وَهُمْ فِيهَا كَالِحُونَ﴾

**“Alov onların üzünü yandırar, cəhənnəmdə çöhrələri turşumuş olar. (Dodaqları sallanar, dişləri ağarar.)”**

*AYƏ 105:*

﴿أَلَمْ تَكُنْ آيَاتِي تُتْلَى عَلَيْكُمْ فَكُنتُم بِهَا تُكَذِّبُونَ﴾

**“(Onlara deyilər:) «Ayələrim sizə oxunmadımı? Demək, onları yalan sayırdınız?»”**

**Nöqtələr**

●“Ləfh” dedikdə çöhrənin yanması, “kəlh” dedikdə isə dodaqların çevrilib, dişlərin ağarması mənaları nəzərdə tutulur.

**Bildirişlər**

1. Alov hər an, ardıcıl şəkildə cəhənnəm əhlinin üzünü yandırar.
2. Kafirlərə cəhənnəmdə həm fiziki, həm də ruhi əzab verilər.
3. Alov vasitəsi ilə çöhrənin dəyişməsi günahkarların təhqiri üçündür.
4. Allah höccəti tamamladıqdan, tam xəbərdarlıqdan sonra əzab verir.
5. Həqiqətin davamlı inkarı cəhənnəmə gedişin ən əsas rəmzidir.

*AYƏ 106:*

﴿قَالُوا رَبَّنَا غَلَبَتْ عَلَيْنَا شِقْوَتُنَا وَكُنَّا قَوْمًا ضَالِّينَ﴾

**“Deyirlər: Pərvərdigara! Bədbəxtliyimiz bizə üstün gəldi və azğın bir qövm olduq.”**

*AYƏ 107:*

﴿رَبَّنَا أَخْرِجْنَا مِنْهَا فَإِنْ عُدْنَا فَإِنَّا ظَالِمُونَ﴾

**“Pərvərdigara! Bizi cəhənnəmdən çıxar. Əgər bir də qayıtsaq, şübhəsiz, sitəmkarıq.”**

*AYƏ 108:*

﴿قَالَ اخْسَؤُوا فِيهَا وَلَا تُكَلِّمُونِ﴾

**"(Allah onlara) buyurar: "Çəkilib odda itin və Mənimlə danışmayın."**

**Nöqtələr**

●"Xəsəə" dedikdə alçaq vəziyyətdə uzaqlaşma əmri nəzərdə tutulur və bu sözlə it rədd edilir.

●Həzrət Peyğəmbər (s) buyurur: "Şərab içənlərlə əyləşməyin, onlar cəhənnəm itləridirlər." Sonra həzrət hazırkı ayəni tilavət edir.[1]

●Hədisdə bildirilir ki, cəhənnəm əhlinin çöhrəsi "ixsəu" əmrindən sonra yalnız nəfəs alan ət parçası şəklinə düşər.[2]

●İmam Sadiq (ə) buyurur: "Cəhənnəm əhli əməllərinə xatir bədbəxt olur.[3]

**Bildirişlər**

1. Qiyamətdə vicdanlar oyanar, günahkarlar öz günahlarına zəlilcəsinə etiraf edərlər.
2. Peyğəmbər yolundan uzaqlıq bədbəxtlik səbəbidir.
3. Allah Qiyamətdə kafirlərlə ən alçaldıcı şəkildə danışar.

*AYƏ 109:*

﴿إِنَّهُ كَانَ فَرِيقٌ مِّنْ عِبَادِي يَقُولُونَ رَبَّنَا آمَنَّا فَاغْفِرْ لَنَا وَارْحَمْنَا وَأَنتَ خَيْرُ الرَّاحِمِينَ﴾

**"(Yoxsa unutmusunuz ki,) bəndələrimdən bir dəstəsi deyirdilər: «Pərvərdigara! İman gətirdik, bizi bağışla, bizə rəhm et, Sən rəhm edənlərin ən üstünüsən.»"**

**Bildirişlər**

1. Allah azğınların möminlərə ünvanlanmış acı sözlərini cavabsız buraxmır.
2. Allah dərgahına dua Qiyamətdə yox, dünyada faydalıdır.
3. Həqiqi Allah bəndələri daim öz nöqsanlarından ehtiyatlanır və tövbə edirlər.
4. İman bağışlanmanın, bağışlanma ilahi mərhəmətə qovuşmanın müqəddiməsidir.
5. Mehribanlıqların qaynağı Allahdır.
6. Allaha həmd-səna demək dua qaydalarındandır.

---

[1] "Bihar", c. 76, s. 147.

[2] "Təfsire-Dürrül-Mənsur".

[3] "Tövhidi-Səduq", s. 356.

### *AYƏ110:*

﴿فَاتَّخَذْتُمُوهُمْ سِخْرِيًّا حَتَّى أَنسَوْكُمْ ذِكْرِي وَكُنتُم مِّنْهُمْ تَضْحَكُونَ﴾

**“Siz onları məsxərəyə qoyurdunuz. Nəticədə Məni yada salmağı sizə unutdurdu. Siz onlara gülürdünüz.”**

**Nöqtələr**

●“Suxriyya” və “sixriyya” sözləri arasında böyük fərq var.

Əgər cəmiyyətdə insanların rabitələri həmfikirliyə, həmdərdliyə, qarşılıqlı yardıma əsaslansa və bütün insanlar bir-birlərinin imkanlarından bəhrələnsələr, bu cəmiyyət inkişaf edər güclənər. “Zuxruf” surəsinin 32-ci ayəsi də belə bir bəyanatla çıxış edir. Amma insanlar arasındakı rabitələr təhqirə, təcavüzə, biganəliyə əsaslansa, belə bir cəmiyyətdə Allah unudular, süqut labüdləşər. Hazırkı ayədə uyğun nöqtəyə işarə olunur.

●Möminlərin kafirlər üçün qəflət vasitəsi olması belə izah oluna bilər ki, əgər möminlər olmasaydılar, kafirlərin həqiqətlə düşmənçiliyinin mahiyyəti açıqlanmazdı.[1]

**Bildirişlər**

1. Təhqirin cəzası təhqirdir. (Allah möminləri himayə edir və onlara qarşı təhqirə cavab verir.)
2. Bəndələrin dua və yalvarışına etinasızlıq Allaha etinasızlıqla sonuclanır.
3. Möminlər daim kafirlər tərəfindən məsxərəyə qoyulmaqdadırlar.
4. Möminlərin məsxərəyə qoyulmasının cəzası Allah zikrinin unudulmasıdır.
5. Alçaldıcı zülm «kəbirə günah»lardandır. (Hansı günaha görə əzab vəd edilmişsə, həmin günah «kəbirə» sayılır. Möminlərə qarşı təhqiramiz gülüşə görə cəhənnəm vəd olunduğundan bu gülüş «kəbirə günah» sayılır.)

### *AYƏ 111:*

﴿إِنِّي جَزَيْتُهُمُ الْيَوْمَ بِمَا صَبَرُوا أَنَّهُمْ هُمُ الْفَائِزُونَ﴾

**“Mən bu gün səbir etdiklərinə görə onları mükafatlandırdım. Onlardır qurtuluş əhli.”**

### *AYƏ 112, 113:*

﴿قَالَ كَمْ لَبِثْتُمْ فِي الْأَرْضِ عَدَدَ سِنِينَ قَالُوا لَبِثْنَا يَوْمًا أَوْ بَعْضَ يَوْمٍ فَاسْأَلِ الْعَادِّينَ﴾

---

[1] “Təfsire-rahnoma”.

**“(Allah) onlardan soruşar: “Yer üzündə nə qədər qaldınız?” Deyərlər: “Bir gün, ya günün bir hissəsi. Hesab aparanlardan soruş.”**

*AYƏ 114:*

﴿قَالَ إِن لَّبِثْتُمْ إِلَّا قَلِيلًا لَّوْ أَنَّكُمْ كُنتُمْ تَعْلَمُونَ﴾

**“Buyurar: “Əgər agah olsaydınız, bilərdiniz ki, çox az yubandınız.”**

**Nöqtələr**

●“Fovz” sözü məqsədə çatmaq mənasını bildirir.

●Qiyamətdə insanlardan soruşular ki, siz dünyada nə qədər qaldınız! Bu sual Quranda bir neçə dəfə təkrarlanmışdır. Onu hər kəs öz düşüncəsi əsasında cavablandırır. O cümlədən:

–“Bir günün bir saatı qədərində dünyada qaldıq.”[1]

–“Bir gecə, ya bir sübh.”[2]

–“Bir gün, ya günün bir hissəsi.”[3]

●Ola bilsin ki, “yer üzündə nə qədər qaldınız” soruşularkən qəbir və bərzəx aləmində nə qədər qalmaları nəzərdə tutulur.

**Bildirişlər**

1. Səbir əhli Allahın Özü tərəfindən mükafatlandırılar (Əzab-əziyyətlər, acı sözlər, məsxərələr qarşısında səbrin böyük mükafatı var.)
2. İnsan sabitqədəmlilik sayəsində nicat tapır.
3. Qiyamətdə yalnız səbir əhli nicat tapır.

*Səbir və qələbə dostdur qədimdən,*
*Səbirlə çatarsan qələbəyə sən.*

4. Ən böyük peşmançılıq odur ki, insan bir neçə günlük ləzzət və rahatlığa görə həmişəlik cəhənnəm əzabını satın alsın.
5. Möhlət sizi qürrələndirməsin, onun müddəti çox azdır.
6. Dünya ömrü əbədiyyətlə müqayisədə cüzidir.
7. Mələklərdən bəzisinə günlərin hesabı tapşırılıb.

*AYƏ 115:*

﴿أَفَحَسِبْتُمْ أَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَأَنَّكُمْ إِلَيْنَا لَا تُرْجَعُونَ﴾

**“Yoxsa güman edirsiniz ki, sizi boş yerə yaratmışıq və Bizə doğru qaytarılmayacaqsınız?”**

---

[1] “Əhqaf”, 35.
[2] “Naziat”, 46.
[3] “Muminun”, 113.

**Nöqtələr**

●Quran insanın yaranış məqsədlərini bəyan etmişdir. O cümlədən:

1. İbadət–"Mən cin və insi yalnız ibadət üçün xəlq etdim."[1]

2. İmtahan–"(Allah) ölüm və həyatı xəlq etdi ki, sizi sınağa çəksin, hansınızın yaxşı əməl etdiyi bilinsin."[2]

3. İlahi rəhmətin əldə olunması –"Rəbbinin rəhm etdiyi kəs istisnadır və (Allah) bundan (mərhəmətdən) ötəri xalqı yaratdı."[3] v

●Həzrət Əli (ə) buyurmuşdur: "Allah rəhm etsin öz qədrini bilən kəsə."[4] İnsan haradan gəldiyini, harada olduğunu və haraya gedəcəyini bilməlidir.

●İmam Hüseyn (ə) buyurmuşdur: "Allah-təala bəndələrini yalnız Onu tanımaq üçün yaratmışdır. Belə ki, Onu tanıdıqdan sonra ibadət edərlər, Allaha pərəstiş və ibadətlə Ondan qeyrilərinə pərəstişdən ehtiyacsız olarlar."[5]

●Həzrət Əli (ə) buyurmuşdur: "Dünya özü üçün yox, bir başqası üçün yaradılmışdır. (Dünya axirətə qovuşmaq üçün vasitədir.)

Bəli, bütün məqsədləri dünyaya yönələn insanlar ona bağlanırlar.[6]

Misilsiz sərvətdir ömrün hər anı,
Sovrulsa havaya, yandırar canı.

**Bildirişlər**

1. İnsan məqsədli yaradılıb.
2. İnsanın bəzi hesablamaları həqiqətdən uzaq olur.
3. Allahın bütün işləri məqsədlidir.
4. Axirət düşüncəsindən uzaq dünya həyatı puçdur.
5. İnsan məsuliyyət daşıyır. (Özümüzü Qiyamət sorğusuna hazırlamalıyıq.)
6. İnsanın yaranış məqsədi təkcə bu dünyada bitmir.

***AYƏ 116:***

﴾فَتَعَالَى اللَّهُ الْمَلِكُ الْحَقُّ لَا إِلَهَ إِلَّا هُوَ رَبُّ الْعَرْشِ الْكَرِيمِ﴿

**"Ucadır haqqı hökm edən Allah. Ondan başqa məbud yoxdur, O, dəyərli ərşin rəbbidir."**

***AYƏ 117:***

﴾وَمَن يَدْعُ مَعَ اللَّهِ إِلَهًا آخَرَ لَا بُرْهَانَ لَهُ بِهِ فَإِنَّمَا حِسَابُهُ عِندَ رَبِّهِ إِنَّهُ لَا يُفْلِحُ الْكَافِرُونَ﴿

---

[1] "Zariyat", 56.
[2] "Mulk", 2.
[3] "Hud", 119.
[4] "Qurərul-hikəm".
[5] "Bihar", c. 5, s. 312.
[6] "Əraf", 176.

**“Hər kəs Allahla yanaşı başqa bir məbudu çağırsa, işdə heç bir dəlili yoxdur. Şübhəsiz, onun hesabı Rəbbinə məxsusdur. Həqiqətən, kafirlər nicat tapmaz.”**

***AYƏ 118:***

﴿وَقُل رَّبِّ اغْفِرْ وَارْحَمْ وَأَنتَ خَيْرُ الرَّاحِمِينَ﴾

**“De ki, Pərvərdigara, bağışla və rəhm et, Sən rəhm edənlərin ən üstünüsən.”**

**Nöqtələr**

●Surənin başlanğıcındakı bir ayədə nicat tapanlardan bir qrupu haqqında danışıldı. Surənin sonunda isə ziyankarların bir qrupu yada salınır: Zalımlar[1]; günahkarlar[2]; cadugərlər[3]; kafirlər[4]; Allaha iftira yaxanlar.[5]

**Bildirişlər**

1. Allah əbəs iş görmür.
2. Haqq hökumət Allaha məxsusdur.
3. Varlıq aləmi Allahın tərbiyə və müdiriyyəti altındadır.
4. Şirk istənilən bir halda məhkumdur.
5. Müşriklərin məntiqi yoxdur. (İnsanın əqidə və rəftarı dəlilə əsaslanmalıdır.)
6. Məsum peyğəmbər də Allahın rəhmət və bağışlamasına ehtiyaclıdır.
7. Duada Allaha sitayişi yaddan çıxarmayaq.

---

[1] “Ənam”, 135.
[2] “Yunus”, 17.
[3] “Yunus”, 77.
[4] “Muminun”, 117.
[5] “Yunus”, 69.

# “NUR” SURƏSİ

## *(24-CÜ SURƏ, 64 AYƏ)*

### *On doqquzuncu cüz*

### *“NUR” SURƏSİNİN SİMASI*

Mədinədə nazil olmuş bu surə 64 ayədən ibarətdir.

Ayənin “Nur” adlandırılmasının səbəbi budur ki, onun 35-ci ayəsində Allah göylərin və yerin nuru kimi tanıtdırılır.

Bütün möminlərə, xüsusi ilə də qadınlara iffət və paklığın qorunması çox tapşırıldığından rəvayətlərdə bu surəni öyrənmək və qiraət etmək qadınlara çox tövsiyə olunur.

Surədə zinakar kişi və qadınların, pak qadınlara böhtan atanların cəzalandırılmasına, o cümlədən məşhur “ifk” macərası, hicab hökmü və azğınlığın qarşısının alınması üçün paklığa riayət mövzuları yer tapmışdır.

**Rəhman və rəhim Allahın adı ilə**

﴾بسم الله الرحمن الرحيم﴿

***AYƏ 1:***

﴾سُورَةٌ أَنزَلْنَاهَا وَفَرَضْنَاهَا وَأَنزَلْنَا فِيهَا آيَاتٍ بَيِّنَاتٍ لَّعَلَّكُمْ تَذَكَّرُونَ﴿

**“(Bu) bir surədir ki, onu nazil etdik, (ona əməli) vacib buyurduq. Onda aşkar ayələr göndərdik. Ola bilsin ki, dərk edəsiniz.”**

**Nöqtələr**

●Bu ayədə “Nur” surəsinin əzəmətinə üç yerdə işarə olunur: Surənin əvvəlindəki “surətun” sözü bu əzəmətdən danışır; “surətun” sözündəki “tənvin” (“un” bildirən əlamət) əzəmət göstəricisidir; ayədə “ənzəlna” (nazil etdik) təbiri iki dəfə işlədilmişdir.

**Bildirişlər**

1.”Surə” Quran ayələri məcmusuna Allah tərəfindən verilmiş bir addır.

2. Hökmlər Allahın göstərişi ilə vacib olmalıdır.

3. Quran dinin əsas qanunu, icrası zəruri proqramıdır.

4. Quran ayələri aydın və anlaşıqlı olan bir kitabdır. (Amma bəzi ayələrin dərki üçün diqqət, araşdırma və təfsirə ehtiyac var.)

5. İnsan öyüd-nəsihətə ehtiyaclıdır.

6. Quran maarifinin insan fitrətində kökü var və müvafiq xatırlatmalar qəflət pərdəsini götürür.

### *AYƏ 2:*

﴿الزَّانِيَةُ وَالزَّانِي فَاجْلِدُوا كُلَّ وَاحِدٍ مِّنْهُمَا مِئَةَ جَلْدَةٍ وَلَا تَأْخُذْكُم بِهِمَا رَأْفَةٌ فِي دِينِ اللَّهِ إِن كُنتُمْ تُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَلْيَشْهَدْ عَذَابَهُمَا طَائِفَةٌ مِّنَ الْمُؤْمِنِينَ﴾

**"Zinakar qadın və kişinin hər birinə yüz qamçı vurun. Əgər Allaha və Qiyamət gününə inanırsınızsa, Allah dininin icrasında həmin iki nəfərə qarşı ürəyiniz yanmasın. Həmin iki nəfər cəzalandırılan vaxt möminlərdən bir qrupu orada olub baxmalıdır."**

**Nöqtələr**

●Zina hökmləri fərdlərin şəraitinə görə fərqlənir. Bu ayədə yalnız subay kişi və qadının zinası nəzərdə tutulmuş və onlara yüz qamçı vurulması göstəriş verilmişdir. Həyat yoldaşı olduğu halda zinaya yol verən insan isə daş-qalaq edilir. Amma insan həyat yoldaşından uzaq düşdükdə (məsələn həyat yoldaşı həbs olunduqda) o, zinaya yol verərsə, daşqalaq hökmü qamçı və şallaq cəzası ilə əvəz olunur.

●Quran zinanı çirkin iş sayır və onu qadağan edir.[1] Zinadan uzaqlıq layiqli bəndələrin səciyyəsi sayılır.[2] Belə bir günahdan uzaqlıq peyğəmbərlə beyət üçün şərt sayılmışdır.[3]

**●Rəvayətlərdə zinanın fəsadları haqqında:**

İmam Rzanın (ə) bir buyruğunda zinanın fəsadları bəyan olunur:

1. Uşağın salınması (abortu) ilə qətl;
2. Ailə quruluşunun dağılması;
3. Övladların tərbiyədən məhrumluğu;
4. İrs ölçülərinin aradan götürülməsi.[4]

–Həzrət Əli (ə) zinadan uzaqlığı ailə möhkəmliyi, livatdan (həmcinsbazlıq) uzaqlığı nəslin qorunması üçün səbəb sayır.[5]

–Həzrət Peyğəmbər (s) buyurur: "Zinanın dünya və axirət zərərləri var: Dünyada insanın nuru və gözəlliyi aradan götürülər, o, qəfil ölümə düçar olar və ruzisi kəsilər; axirətdə Qiyamət hesabı zamanı çarəsizlik, ilahi qəzəb və həmişəlik cəhənnəm.[6]

---

[1] "İsra", 32.
[2] "Furqan", 63, 68.
[3] "Mumtəhinə", 12.
[4] "Bihar", c. 79, s. 24.
[5] "Nəhcül-bəlağə", "Haqqə", 252.
[6] "Bihar", c. 77, s. 58.

–Həzrət Peyğəmbər (s) buyurur: “Zina artdığı vaxt qəfil ölümlər çoxalar.”[1]

–Rəvayətdə belə nəql olunur: “Zina etməyin ki, zövcələriniz də zinaya yol verməsin. Hər kəs başqasının namusuna təcavüz etsə, onun namusuna təcavüz olunacaq. Başqaları ilə rəftar etdiyiniz kimi sizinlə rəftar olunacaq.[2]

*Əməl cəzasından qəflətdə qalma,*
*Dənizdən ləl çıxar, arpadan arpa.*

–Dörd şeydən biri hansı evdə olsa həmin ev viran qalar, bərəkətdən düşər: xəyanət, oğurluq, şərabxorluq, zina.”[3]

–Zina ən böyük kəbirə günahlardandır.[4]

–İmam Sadiq (ə) buyurmuşdur: “Dörd günah xalqa dörd bəla gətirər: Zina rəvac tapdıqda zəlzələ baş verər, zəkat ödənmədikdə dördayaqlılar məhv olar, hakimlərin mühakiməsi zülmə əsaslandıqda yağış yağmaz, əhdə vəfa qılınmadıqda müşriklər müsəlmanlara qələbə çalar.[5]

**Bildirişlər**

1. Cinsi azadlıq və qanunsuz yaxınlıq qadağandır.
2. Qeyri-qanuni cinsi əlaqələrin genişlənməsində qadınlar kişilərdən daha çox rol oynayır. Oğurluqda isə kişilərin rolu daha böyükdür. Bu səbəbdən də ayədə zina sözü kişilərdən öncə qadınlar haqqında işlədilib.
3. Günahkarı tərbiyələndirmək və cəmiyyətin iffətini qorumaq üçün həmin günahkara fiziki cəza verilməlidir.
4. Qeyri-qanuni cinsi əlaqəyə görə hər iki tərəf eyni mizanla tənbeh olunur.
5. Cəza həddi Allah tərəfindən müəyyənləşdirilməlidir.
6. Günahkarı cəzalandırarkən duyğuların təsiri altına düşmək və rəhm etmək qadağandır.
7. Məhəbbət və mehribanlıq şəriət çərçivəsində olmalıdır.
8. Din təkcə namaz və orucdan ibarət deyil. İlahi hədlər də dinin sütunlarındandır.
9. Qanunların icrası zamanı qətiyyət yaranış və məada iman sayəsində əldə olunur.
10. Hədlərin icrası Allaha iman nişanəsidir.
11. Günahkara verilən cəza başqaları üçün ibrət səbəbi olmalıdır.
12. Zinakar şəxs fiziki cəza ilə yanaşı ruhi baxımdan da əziyyət çəkməlidir.
13. Xalqın iştirakı hakim və günahkara nəzarət üçün bir vasitədir.
14. Möminlərin iştirakından nəhy əz munkər, yəni pisliyə qadağa üçün istifadə edək.
15. İlahi hədlərin icrası mərasimində yalnız müsəlmanlar iştirak edə bilər.

[1] “Bihar”, c. 73, s. 372.
[2] “Bihar”, c. 76, s. 27.
[3] “Bihar”, c. 76, s. 19.
[4] “Bihar”, c. 76 s. 19.
[5] “Bihar”, c. 76, s. 21.

### *AYƏ 3:*

﴿الزَّانِي لَا يَنكِحُ إلَّا زَانِيَةً أَوْ مُشْرِكَةً وَالزَّانِيَةُ لَا يَنكِحُهَا إِلَّا زَانٍ أَوْ مُشْرِكٌ وَحُرِّمَ ذَلِكَ عَلَى الْمُؤْمِنِينَ﴾

**"Zinakar kişi yalnız zinakar və ya müşrik qadınla izdivac edə (evlənə) bilər. Zinakar qadın isə yalnız zinakar və ya müşrik kişiyə ərə gedə bilər. Belə bir nikah möminlərə haram edilmişdir."**

**Nöqtələr**

●Bu ayədə hazırkı surənin 26-cı ayəsindəki ab-hava hiss olunur. ("Təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər təmiz qadınlara layiqdir".)

●Cəzanın icrası zamanı xalq iştirak etdiyindən fiziki və ruhi tənbehdən əlavə, məhdudiyyətlər də nəzərdə tutulmalıdır.

●Rəvayətdə bildirilir ki, bu ayənin hökmü zina əməlinə görə məşhurlaşmış adamlara aiddir. Əgər zinakar tövbə qılsa, başqaları kimi istədiyi şəkildə evlənə bilər.[1]

●İmam Baqir (ə) buyurur: "Allah möminlə əks qütbdə zinakarın adını çəkir. Belə məlum olur ki, zinakar iman əhli deyil.[2]

**Bildirişlər**

1. Nikah zamanı evlənənlərin uyğunluğu əsas məsələlərdəndir.
2. Günahkar fərdlər İslam cəmiyyətində qəbul olunmur.
3. Zinakar müşriklə bir cərgədə tutulur.
4. Mömin kişi və qadınlar pak-pakizə zövcələr seçməlidirlər.

### *AYƏ 4:*

﴿وَالَّذِينَ يَرْمُونَ الْمُحْصَنَاتِ ثُمَّ لَمْ يَأْتُوا بِأَرْبَعَةِ شُهَدَاء فَاجْلِدُوهُمْ ثَمَانِينَ جَلْدَةً وَلَا تَقْبَلُوا لَهُمْ شَهَادَةً أَبَدًا وَأُوْلَئِكَ هُمُ الْفَاسِقُونَ﴾

**"Pak və ərli qadınları zinada ittiham edib, dörd şahid gətirə bilməyən kəslərə səksən çubuq vurun. Onların andını qəbul etməyin, çünki onlar həmin fasiqlərdir."**

---

[1] "Təfsire-Əl-mizan". "Kafi", c. 5, s. 354.

[2] "Kafi", c.2, s. 32.

**Nöqtələr**

●İmam Sadiqdən (ə) soruşdular: "Nə üçün qətlin sübutu üçün iki, zinanın sübutu üçün dörd şahid tələb olunur?" Həzrət buyurdu: "Qətlin şahidi bir nəfərə, zinanın şahidi iki nəfərə (qadın və kişiyə qarşı şəhadət verir."[1]

**Bildirişlər**

1. Böhtan insanların şəxsiyyətini atəşə tutmaq, hücum etmək kimidir.
2. Ərli və pak qadınlara böhtana görə ağır cəza nəzərdə tutulur.
3. Pak qadınların ehtiramının müdafiəsi vacibdir.
4. Müxtəlif böhtanlar arasında zina böhtanının öz cəzası var. Quran bu məsələni aşkar şəkildə bəyan edir.
5. Zina böhtanı o qədər ağır günahdır ki, onun cəzası zinanın öz cəzasından 20 qamçı fərqlənir.
6. Cəmi bircə dəfə böhtan atmış adamın şəhadəti etibarlı sayılmır. (Bəli, dil insanı dünya və axirətdə çıxılmaz vəziyyətə salır.)
7. İnsanların şəxsiyyətini qorumaq üçün bəzən kimlərəsə qamçı vurmaq lazım gəlir.
8. İman gətirmiş kafirin şəhadəti qəbul olunur, böhtan atmış müsəlmanın şəhadəti isə etibarsız sayılır.
9. Böhtanın həm cismani, həm ictimai, həm də axirət cəzası var.
10. Pak qadınlara böhtan atanlar nəhayət fasiq olur.
11. And və şahidlik üçün ədalət şərtdir. Fasiqin (günahkarın, həddi aşanın) şəhadəti qəbul deyil.

***AYƏ 5:***

﴿إِلَّا الَّذِينَ تَابُوا مِن بَعْدِ ذَٰلِكَ وَأَصْلَحُوا فَإِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**"(Böhtandan) sonra tövbə edib islah olanlar istisnadır. Şübhəsiz, Allah bağışlayan və mehribandır."**

**Nöqtələr**

●Hədisdə oxuyuruq: "Pak qadınları zinada ittiham etməklə alçaldan kəsin tövbəsi xalq qarşısında dediklərini təkzib etməkdir."[2]

**Bildirişlər**

1. Tövbə dini və ictimai həyatın təzələnmə səbəbidir.
2. İslam ardıcılları heç vaxt çıxılmaz vəziyyətə düşmürlər.
3. Tövbə səhvin aradan qaldırılması və yaxşı əməllə müşayiət olunmalıdır.
4. Ümidsizlik qadağandır.
5. Tövbə yolunun açıq olması ilahi mərhəmət nişanəsidir.

---

[1] "Təfsire-kənzud-dəqaiq".

[2] "Kafi", c. 7, s. 241.

*AYƏ 6:*

﴿وَالَّذِينَ يَرْمُونَ أَزْوَاجَهُمْ وَلَمْ يَكُن لَّهُمْ شُهَدَاء إِلَّا أَنفُسُهُمْ فَشَهَادَةُ أَحَدِهِمْ أَرْبَعُ شَهَادَاتٍ بِاللَّهِ إِنَّهُ لَمِنَ الصَّادِقِينَ﴾

**"Arvadlarını zinada ittiham edən, özündən başqa şahidi olmayan kəslərin hər biri öz iddiasının sübutu üçün dörd dəfə Allaha and içməlidir ki, həqiqətən, o, doğru danışanlardandır."**

*AYƏ 7:*

﴿وَالْخَامِسَةُ أَنَّ لَعْنَتَ اللَّهِ عَلَيْهِ إِن كَانَ مِنَ الْكَاذِبِينَ﴾

**"Beşinci dəfə deməlidir: "Əgər yalan danışanlardandırsa, Allah ona lənət etsin!"**

*AYƏ 8:*

﴿وَيَدْرَأُ عَنْهَا الْعَذَابَ أَنْ تَشْهَدَ أَرْبَعَ شَهَادَاتٍ بِاللَّهِ إِنَّهُ لَمِنَ الْكَاذِبِينَ﴾

**"Qadının dörd dəfə Allaha and içib, həmin kişinin yalan danışdığını bildirməsi onu əzabdan uzaqlaşdırar."**

*AYƏ 9:*

﴿وَالْخَامِسَةَ أَنَّ غَضَبَ اللَّهِ عَلَيْهَا إِن كَانَ مِنَ الصَّادِقِينَ﴾

**"(Qadın) beşinci dəfə də desin: "Əgər o kişi doğru deyirsə, Allahın qəzəbinə gəlim."**

*AYƏ 10:*

﴿وَلَوْلَا فَضْلُ اللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ وَأَنَّ اللَّهَ تَوَّابٌ حَكِيمٌ﴾

**"Əgər sizə Allahın fəzl və rəhməti olmasaydı (rüsvay olardınız və ailəniz dağılardı). Şübhəsiz, Allah tövbələri qəbul edən və hikmət sahibidir."**

**Nöqtələr**

●Surənin 4-cü ayəsi nazil olduqdan və pak qadınlara böhtan məsələsi açıqlandıqdan sonra Səd İbn İbadə dedi: "Ey Allahın rəsulu! Əgər bir kişi evə girib arvadının yanında başqasını görsə, nə etsin? Əgər o fəryad çəksə, qamçılayacaq. Çünki təkdir və şahidi yoxdur. Əgər sussa, qeyrətini əldən verəcək. Əgər şahid ardınca getsə zinakarlar uzaqlaşacaq." Bir sözlə, səksən çubuq məsələsi Səd İbn İbadə üçün qaranlıq qalmışdı. Həmin vaxt Hilal ibn Üməyyə adlı bir şəxs həyəcan içində məclisə daxil olub Peyğəmbərə (s) ərz etdi: "Arvadımı bir kişi ilə zina etdiyi vaxt gördüm. And olsun Allaha doğru deyirəm."

Peyğəmbər (s) narahat oldu. Həzrətin səhabələri də həyəcanlandılar. Belə ki, namusu əldən getmiş kişi qamçılanmalıydı da! Çünki onun sözünü təsdiq edəcək şahidi yox idi. Həmin məqamda hazırkı ayə nazil oldu.

Qadın da kişi kimi özünü müdafiə etmək hüququna malikdir. Yoxsa kişi dörd dəfə and içməklə həyat yoldaşını daşqalağa məhkum edə bilərdi. İslam hamının hüququnu müdafiə edir. Kişinin uyğun qanundan sui-istifadəsinin qarşısını almaq üçün qadına öz paklığını sübut etmək imkanı verilir. Qadın dörd and içməklə və ərinin yalan danışdığını bildirməklə daşqalaqdan qurtara bilər.

O, sözünü daha da möhkəmləndirmək üçün deyir ki, əgər ərim doğru deyirsə, Allahın qəhr-qəzəbinə gəlim.

Kişinin beşinci cümləsində Allahın lənəti, qadının beşinci cümləsində Allahın qəzəbi yad olunur. Qəzəb lənətdən də şiddətlidir. Çünki böhtanla üzləşmiş kəs daha çox həssasdır və daş-qalaqdan qurtulmaq üçün Allahın qəzəbinə düçar olmağa hazırdır.

Bir sözlə, qazi və İslam hakiminin hüzurunda dilə gətirilən bu cümlə "ləan" (bir-birini lənətləmək) adlanır. Bu istiqamətdə xüsusi fiqhi və hüquqi məsələlər bəyan olmuşdur. Qazi və İslam hakimi qadın və kişiyə nəsihət verməli, onları bir-birini lənətləməkdən çəkindirməyə çalışmalıdır. Səylər nəticə vermədikdə qadın və kişi Məscidül-Həram və Məscidün-nəbi kimi müqəddəs yerlərə aparılmalı və üzü qibləyə dayandırılmalıdır. Sonra bir-birini lənətləmə mərasimi icra olunmalıdır.

●Lənətləmə və and mərasimi ilə yanaşı İslam müəyyən qanunlar nəzərdə tutmuşdur. Bu qanunlara əməl olunmalıdır:

1. Qadın və kişi talaq (boşanma) siğəsi oxunmadan bir-birindən həmişəlik ayrılır və onlara yenidən evlənmək üçün müraciət haqqı verilmir.

2. Kişiyə səksən qamçı vurulmur, qadın daşqalaq edilmir.

3. Həmin qadın dünyaya uşaq gətirsə, bu uşaq kişiyə yox, qadının özünə aid olur.

●Bu bir neçə ayədə məlum olur ki, Allah zinanın isbatı üçün dörd şahid, ya lənət və qəzəblə müşayiət olunan dörd and müəyyənləşdirməklə Öz fəzl və rəhməti əsasında rüsvayçılığa mane olur. Adi halda hər gün minlərlə kişi və qadın bir-birini rüsvay edir, qəbilə-tayfasını çətinliyə salır.

Bəli, qadının öz şəxsiyyətini müdafiə etməsi və bir neçə cümlə deməklə daşqalaqdan qurtulması ilahi fəzl nişanəsidir. Belə olmasaydı, bir çoxları daşqalaq edilər, şəxsiyyətləri alçalar, ailələri dağılardı.

**Bildirişlər**

1. Abır-həya və onun qorunmasına İslamda diqqət verilir. ( Dörd and və bir lənət insanların bir-birlərini rüsvay etməsinin qarşısını almaq üçündür.)

2. Zövcələrə münasibətdə dörd and və bir lənət dörd şahid əvəzində qəbul olunmuşdur.

3. İslam qadınların hüquqlarını himayə edir. Qadın da dörd and içməklə özünü kişinin dörd andla isbata yetirdiyi ittihamdan qoruya bilər.

4. İslam ailə təməlinin qorunması üçün dörd anddan əlavə, beşinci cümlənin də deyilməsini vacib saymışdır.

5. Qadının andı vasitəsi ilə kişilərin sui-istifadə yolu bağlanır.

6. Müəyyən şəraitdə lənətləməyə icazə verilir.

7. İlahi qanun və göstərişlərin icrası insanların özü üçün faydalıdır.

8. Allah daim məsləhət və hikmət əsasında üzrü qəbul edir.

9. İslamın cəza qanunları ölçülü və ilahi hikmətə əsaslanan hökmlərdir.

### *AYƏ 11:*

﴿إِنَّ الَّذِينَ جَاؤُوا بِالْإِفْكِ عُصْبَةٌ مِّنكُمْ لَا تَحْسَبُوهُ شَرًّا لَّكُم بَلْ هُوَ خَيْرٌ لَّكُمْ
لِكُلِّ امْرِئٍ مِّنْهُم مَّا اكْتَسَبَ مِنَ الْإِثْمِ وَالَّذِي تَوَلَّى كِبْرَهُ مِنْهُمْ لَهُ عَذَابٌ عَظِيمٌ﴾

**“Şübhəsiz, araya böyük yalan gətirənlər özünüzdən təşkil olunmuş bir dəstədir. Onu özünüz üçün şər saymayın. Bəlkə də, o (sonda) sizin xeyrinizədir. Onlardan hər biri yol verdiyi günah həddində cəzalandırılar. Günahın böyük hissəsini öhdəsinə götürən kəs üçün isə böyük bir əzab var.”**

**Nöqtələr**

●“İfk” sözünün lüğətdə mənası haqdan batilə yönəlmədir. Böhtan da bir növ haqqı ört-basdır etmək, batili üzə çıxarmaqdır.

●Bəzi təfsirçilər bu ayənin nazil olma şəni haqqında deyirlər: Həzrət Peyğəmbər (s) hər səfərdə püşk atıb zövcələrindən birini özü ilə götürərdi. O, Bəni Müstələq döyüşündə Ayişəni özü ilə apardı. Döyüş başa çatdıqdan sonra xalq Mədinəyə döndü. Ayişə yuyunmaq və ya boyunbağısının itmiş dənəsini tapmaq üçün karvandan geri qaldı. Ayişənin geridə qaldığını görən səhabələrdən biri onu karvana çatdırdı. Bəziləri Ayişə və həmin səhabəyə böhtan atdılar. Bu söz xalq arasında yayıldı və Peyğəmbər (s) narahat oldu. Ayişə böhtanın dərdindən atası evinə gedib hazırkı ayə nazil olanadək göz yaşı axıtdı.[1]

---

[1] “Təfsiri-İbn-Kəsir”.

●Başqa bir qrup təfsirçi, xüsusi ilə "Ətyəbul-bəyan" təfsirinin müəllifi müəyyən rəvayətlərə əsaslanaraq bildirir ki, ayə Ayişə yox, Peyğəmbərin (s) başqa bir zövcəsi, Mariyə Qibtiyyə haqqında nazil olmuşdur. Allah-təalanın Mariyəyə bəxş etdiyi İbrahim adlı övlad 18 aylığında dünyasını dəyişdi. Ayişə və Həfsə dedi: "Ey Peyğəmbər (s), nə üçün ağlayırsan? İbrahim sənin yox, bir başqasının övladı idi." Birinci və ikinci xəlifə də öz qızlarının sözünü təsdiqlədilər. Həmin vaxt ayə nazil oldu.

●Əllamə Cəfər Murtəza yazır: "Ayə Mariyə Qibtiyyə haqqında nazil olmuşdur. Söhbət Mariyəyə böhtan atılmasından gedir. Mariyyə ilə yaxınlıqda ittiham olunan şəxsin əslində belə bir yaxınlığa fiziki imkanı olmamışdır. Böhtan atılan vaxt həzrət Peyğəmbər (s) Həzrət Əlini (ə) məsələni aydınlaşdırmaq üçün həmin şəxsin yanına göndərir. Həmin şəxs Həzrət Əlini (ə) görüb ağaca dırmaşır. Həzrət Əli (ə) adı çəkilən şəxsin cinsiyyət üzvündən məhrum olduğunu görür. O, gördüklərini həzrət Peyğəmbərə (s) çatdırır. Həmin vaxt ayə nazil olur, Ayişə, Həfsə və şeyxlər xəcalət təri axıdırlar. Beləcə, Mariyənin paklığı sübuta yetir.

Qeyd etmək lazımdır ki, ayənin qeyd etdiyimiz nazil olma səbəbləri ilə bağlı suallar var. Amma bu təfsirin məqsədi ayələrin bildirişlərini aydınlaşdırmaqdır və nazil olma səbəbləri ilə bağlı geniş araşdırma nəzərdə tutulmamışdır.

●İfk günahında bir neçə günah cəmlənmişdir: Yalan, möminə qarşı sui-zənn, möminin incidilməsi, xəyanət, Peyğəmbərə (s) əziyyət, Peyğəmbər (s) ailəsinin təhqiri, şayiə.

**Bildirişlər**

1. Peyğəmbərin səhabələri arasında ədalətsiz olanlar da vardı.
2. Bəzən şayiə təşkilati qaydada, fitnə törətmək məqsədi ilə ortaya atılır. ("Usbə") dedikdə təşkilatlanmış və məqsədli bir qrup nəzərdə tutulur.)
3. Şayiə düzəldənlər sizin öz aranızdadır.
4. Bəzən qarşıya çıxan hadisələr və yersiz böhtanlarda müəyyən faydalar olur. (Məsələn, müxaliflərin iç üzü açılır, insan qəflətdən oyanır, məzluma ilahi yardımlar nazil olur.)
5. Bədxahların fitnə və böhtanları qarşısında yaxınlara ümid vermək lazımdır.
6. İlahi cəzalar ədalətlidir və öz əməllərimizə münasibdir.
7. Qrup tərəfindən baş vermiş günahda hər qrup üzvünün öz payı var.
8. İnsan günaha bilərəkdən yol verdikdə müqəssir sayılır.
9. Hər bir insanın günahı onun öz yaxasından yapışır.
10. Birinci dərəcəli məsuliyyət daşıyanların cəzası da böyük olur.

### *AYƏ 12:*

﴿لَوْلَا إِذْ سَمِعْتُمُوهُ ظَنَّ الْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بِأَنفُسِهِمْ خَيْرًا وَقَالُوا هَذَا إِفْكٌ مُّبِينٌ﴾

**“Nə üçün böhtanı eşitdiyiniz vaxt imanlı kişilər və qadınlar özlərinə münasibətdə yaxşı düşünmədilər və demədilər ki, bu, böyük və aşkar bir böhtandır?”**

**Nöqtələr**

●Allah-təala bu ayədə müsəlmanları Peyğəmbərin (s) zövcəsinə münasibətdə bədgümanlıq və şayiəyə uyduqlarına görə məzəmmət edir.

●Quran bəzən «başqaları» sözü əvəzində «siz» sözünü işlədir. Bununla da bütün müsəlmanların bir olmasına işarə edilir. Məsələn, «başqasına tənə etməyin» əvəzində, «özünüzə tənə etməyin» deyilir.[1] Başqa bir ayədə otağa daxil olduqda «başqalarına salam verin» əvəzinə özünüzə salam verin buyurulur.[2]

Bu ayədə də «başqalarına qarşı xoşgüman olun» əvəzinə «özünüzə münasibətdə xoşgüman olun» söylənilir.

●Qurani-Kərimdə «lov la» sözü çoxsaylı məqamlarda məzəmmət məqsədi ilə işlədilir. Bu hallardan bəzilərini nəzərdən keçirək:

1. “Nə üçün alimlər nəhy əz münkər (pisliyə qadağa) etmirlər?! [3]
2. “Nə üçün hər eşitdiyinizi qəbul edirsiniz?!”[4]
3. “Nə üçün rəva olmayan sözünüzə dörd şahid gətirmirsiniz?[5]
4. “Nə üçün Allahdan bağışlanma diləmirsiniz?”[6]
5. “Nə üçün onlara əzab yetişdiyi vaxt yalvarıb-yaxarmadılar?”[7]
6. “Nə üçün şükür etmirsiniz?”[8]
7. “Nə üçün təsdiq etmirsiniz?”[9]
8. “Nə üçün ibrət götürmürsünüz?”[10]
9. “Nə üçün hər firqədən bir dəstəsi dində agahlıq əldə etmək üçün köçmür?”[11]

**Bildirişlər**

1. Şayiə düzəltmək və onu yaymaq qadağandır.
2. İslam cəmiyyətinə xoşgümanlıq ruhiyyəsi hakim olmalıdır. (Xoş güman iman əsərlərindən biridir.)
3. Bir fərdin şəxsiyyəti üçün bütün xalq məsuliyyət daşıyır.

---

[1] “Hucurat”, 11.
[2] “Nur” 61.
[3] “Maidə” 63.
[4] “Nur” 12.
[5] “Nur” 13.
[6] “Nəml” 16.
[7] “Ənam”43.
[8] “Vaqiə”70.
[9] “Vaqiə”57.
[10] “Vaqiə”62.
[11] “Tövbə”122.

4. Adəm övladları bir bədənin əzaları kimidir. İnsan cəmiyyətinin hər hansı üzvünə böhtan bütün cəmiyyətə qarşı böhtandır.
5. Günah dəlillərlə sübuta yetişsə, müsəlmanın əməli ilkin olaraq düzgün sayılır.
6. Peyğəmbər (s) və onun ailəsinin hörmətinin hifzi hər bir möminə vacibdir.
7. Möminlər haqqında ləyaqətsiz sözlər danışılarkən susmaq qadağandır.

*AYƏ 13:*

﴿لَوْلَا جَاؤُوا عَلَيْهِ بِأَرْبَعَةِ شُهَدَاء فَإِذْ لَمْ يَأْتُوا بِالشُّهَدَاء فَأُوْلَئِكَ عِندَ اللَّهِ هُمُ الْكَاذِبُونَ﴾

**"Nə üçün həmin böhtanı təsdiq edəcək dörd şahid göstərmədilər? Yetərli şahid gətirmədiklərindən onlar Allah yanında yalançılardır."**

**Bildirişlər**

1. Sadəlövh, tez inanan və hədyan danışan cəmiyyət məzəmmət olunur.
2. Zina ittihamı sübuta yetməsə, ittihamı irəli sürən yalançıdır.

*AYƏ 14:*

﴿وَلَوْلَا فَضْلُ اللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ فِي الدُّنْيَا وَالْآخِرَةِ لَمَسَّكُمْ فِي مَا أَفَضْتُمْ فِيهِ عَذَابٌ عَظِيمٌ﴾

**"Əgər sizə dünya və axirətdə ilahi fəzl və rəhmət olmasaydı, dediyiniz sözlərin cəzası olaraq hökmən böyük bir əzaba düçar olardınız."**

**Nöqtələr**

●"İfazə" sözündən olan "əfəztum" sözü bir mövzu ətrafında çox danışılmasına işarədir. Məlum olur ki, Peyğəmbər (s) zövcəsinə böhtan gündəmdə idi və hamı bu barədə danışırdı.

**Bildirişlər**

1. Tez inanan və etinasız insan üçün daim böhtanın qəbulu və çətin əzab təhlükəsi var.
2. İslam ümməti Allahın himayəsi və lütfü altındadır.
3. Kimsənin Allahdan alacağı yoxdur. İlahi rəhmət və lütf bizim haqqımız yox, Onun fəzlidir.
4. Şayiələr bəzilərinin qərq olduğu bir girdab kimidir.

*AYƏ 15:*

﴿إِذْ تَلَقَّوْنَهُ بِأَلْسِنَتِكُمْ وَتَقُولُونَ بِأَفْوَاهِكُم مَّا لَيْسَ لَكُم بِهِ عِلْمٌ وَتَحْسَبُونَهُ هَيِّنًا وَهُوَ عِندَ اللَّهِ عَظِيمٌ﴾

**“O zaman ki, bir-birinizin dilindən söz alır, elminiz olmadığı halda ağızdan-ağıza ötürür və bunu kiçik iş sayırdınız. Amma bu iş Allahın yanında böyükdür.”**

**Nöqtələr**

●Dil ömür boyu işdən yorulmayan, xəstəliyə düçar olmayan yeganə üzvdür. Onun boyu balaca, günahı isə ölçüsüzdür. Bir çox kafir insanlar şəhadət kəlmələrini dilə gətirməklə müsəlman olub paklanır, bəzi müsəlmanlar isə Allaha qarşı küfr danışmaqla, dini hökmləri inkar etməklə kafir olub murdarlanır. Dil zikr, dua və nəsihətlə səfa da verə bilər, tikanlı danışıq, qeybət və böhtanla aranı qata da bilər. Dil ağılın açarı, elmin çırağı, elmin ötürülməsi üçün ən sadə və ən dəyərli vasitədir.

Əxlaq alimləri dil haqqında bir çox araşdırmalar aparmış, çoxsaylı kitablar yazmışlar.

**Bildirişlər**

1. Dildə gəzən sözü araşdırma aparmadan qəbul etmək yolverilməzdir.
2. Dildən çıxan söz elmə əsaslanmalıdır.
3. Xalqın şəxsiyyətinə qarşı diqqətli olaq.
4. Böhtan və şayiələri yaymaq kəbirə günahlardandır.
5. Günahın kiçik-böyüklüyünü Allah təyin etməlidir.
6. Peyğəmbərin (s) bəzi səhabələri ədalətli olmamış, onun zövcəsinə böhtan kimi böyük günaha yol vermişlər.
7. İnsanın bəzi hesablamaları həqiqətdən uzaq olur.

### *AYƏ 16:*

﴿وَلَوْلَا إِذْ سَمِعْتُمُوهُ قُلْتُم مَّا يَكُونُ لَنَا أَن نَّتَكَلَّمَ بِهَذَا سُبْحَانَكَ هَذَا بُهْتَانٌ عَظِيمٌ﴾

**“Nə üçün (bu böhtanı) eşitdiyiniz zaman demədiniz ki, «bu əsassız böhtanı danışmaq bizə yaraşmaz, (Pərvərdigara,) Sən pak-pakizəsən, bu çox böyük böhtandır.»”**

**Nöqtələr**

●Günah bəzən təsirlərinə, bəzən isə ona yol verənə görə böyük və ya kiçik sayılır.

●“Əzim” sözü üç ayədə ardıcıl təkrarlanır. Bununla da bildirilir ki, böyük günahın böyük cəzası var.

●Xalq haqqında danışılan yersiz söz insanları heyrətə gətirdiyindən (“boht”), onu “böhtan” adlandırmışlar.

**Bildirişlər**

1. Nəhy əz münkər, yəni pisliyə qadağa qoymaq vacibdir. (Müsəlmanların şəxsiyyətini qorumaq üçün danışmaq vacibdir.)

2. İnsan dinlədiyi sözlərə görə məsuliyyət daşıyır.
3. Mühüm məsələləri dinləyərkən “sübhanəllah” deyin.
4. Bütün dünya əhəmiyyətsiz bir matahdır. Müsəlmanlara qarşı böhtan isə Allah yanında böyük günah sayılır.

*AYƏ 17:*

﴿يَعِظُكُمُ اللَّهُ أَن تَعُودُوا لِمِثْلِهِ أَبَدًا إِن كُنتُم مُّؤْمِنِينَ﴾

**“Allah sizə nəsihət verir ki, əgər imanınız varsa, heç vaxt bu sayaq böhtanları təkrarlamayın.”**

*AYƏ 18:*

﴿وَيُبَيِّنُ اللَّهُ لَكُمُ الْآيَاتِ وَاللَّهُ عَلِيمٌ حَكِيمٌ﴾

**“Allah Öz ayələrini sizin üçün bəyan edir. O, biləndir və hikmət sahibidir.”**

**Bildirişlər**

1. Xalqın moizəyə, öyüd-nəsihətə ehtiyacı var.
2. Əsil vaiz (moizə edən, nəsihət verən) Allahdır.
3. Moizənin (öyüd-nəsihətin) təsiri üçün iman şərtdir.
4. Moizə xalqın şəxsiyyətini qorumağa və sui-zənnin qarşısını almağa yönəlməlidir.
5. Sui-zənn və iftiraya aludəlik imanın məhvinə aparır.
6. Peşmanlıq kifayət etmir, günah da təkrarlanmamalıdır.
7. Xilaf işin təkrarlanmaması iman nişanəsidir.
8. Böhtan atmayın. Dəlil yoxsa, müsəlmanın əməlini düzgün sayın.
9. Günahkarları günahdan tövbəyə çağırın.
10. İslam göstərişlərinin qaynağı ilahi elm və hikmətdir.
11. İlahi elm və hikmət ayələrin xalqa bəyanını və onların bir kənara qoyulmamasını tələb edir.

*AYƏ 19:*

﴿إِنَّ الَّذِينَ يُحِبُّونَ أَن تَشِيعَ الْفَاحِشَةُ فِي الَّذِينَ آمَنُوا لَهُمْ عَذَابٌ أَلِيمٌ فِي الدُّنْيَا وَالْآخِرَةِ وَاللَّهُ يَعْلَمُ وَأَنتُمْ لَا تَعْلَمُونَ﴾

**“Həqiqətən, iman əhli haqqında pis söz yaymaq istəyənləri dünya və axirətdə dərdli əzab gözləyir. Allah bilir, siz bilmirsiniz.”**

**Nöqtələr**

●Pis söz bəzən dil və qələmlə, bəzən fəsad mərkəzləri və günah şəraiti yaratmaqla, başqalarını günaha təşviq etməklə yayılır.

İmam Sadiq (ə) buyurur: “Bir möminlə bağlı nəsə görüb eşidən kəs onu başqalarına danışarsa, bu ayə ona ünvanlanmış olar.”[1]

Bir hədisdə oxuyuruq: «Pis bir işi yayan kəs həmin işi görən kəs kimidir.»[2]

**Bildirişlər**

1. Biz qəlb bağlılıqlarımıza görə məsuliyyət daşıyırıq.
2. Günaha maraq günah üçün müqəddimədir. Nəhy əz münkər, pisliyə qadağa yolunda pisliyə marağı aradan qaldıraq.
3. Böhtan elə bir günahdır ki, hətta ona xoş münasibət də böyük günahdır.
4. Başqalarının şəxsiyyətini alçaltmağın elə bu dünyadaca cəzası var.
5. İnsanların şəxsiyyətini alçaldan kəslər İslam hökuməti tərəfindən tənbeh olunmalıdır.
6. Biz böhtanın necə bir dərin faciə olduğunu bilmirik.
7. Dünyada qarşılaşdığımız bir çox əzab və çətinliklərin səbəbi başqalarını hörmətdən salmağımız ola bilər.
8. Əgər pisliyə maraq bu qədər təhlükəlidirsə, görün onu yaymağın cəzası necə böyükdür?!

***AYƏ 20:***

﴿وَلَوْلَا فَضْلُ اللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ وَأَنَّ اللَّهَ رَؤُوفٌ رَحِيمٌ﴾

**“Allah sizə fəzl və rəhmət göstərməsəydi (sizi ağır cəzalandırardı), Allah rəuf və mehribandır.”**

***AYƏ 21:***

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَتَّبِعُوا خُطُوَاتِ الشَّيْطَانِ وَمَن يَتَّبِعْ خُطُوَاتِ الشَّيْطَانِ فَإِنَّهُ يَأْمُرُ بِالْفَحْشَاء وَالْمُنكَرِ وَلَوْلَا فَضْلُ اللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ مَا زَكَا مِنكُم مِّنْ أَحَدٍ أَبَدًا وَلَكِنَّ اللَّهَ يُزَكِّي مَن يَشَاء وَاللَّهُ سَمِيعٌ عَلِيمٌ﴾

**“Ey iman gətirənlər! Şeytanın ardınca getməyin. Hər kəs şeytanın ardınca getsə, həqiqətən də, o, pisliyə çağırır. Əgər Allah sizə fəzl və rəhmət göstərməsəydi, heç vaxt heç biriniz paklanmazdınız. Amma Allah istədiyi kəsi pak edər. Allah eşidən və biləndir.”**

**Nöqtələr**

●**14, 20** və **21**-ci ayələrdə üç dəfə Allahın fəzl və rəhmətindən danışıldı. Bildirildi ki, Allahın fəzli olmasaydı, sizin vəziyyətiniz çətin olardı!

---

[1] “Təfsire-kənzud-dəqaiq”.

[2] “Təfsire-kənzud-dəqaiq”.

“Xütut” sözünün cəm forması olan “xütuvat” sözü “addımlar” mənasını bildirir. Quran şəhvət, qidalanma və böhtandan danışarkən “şeytanın addımları” sözünü işlədir. Məlum olur ki, şeytan insanı addım-addım günaha sövq edir.

Quranda “şeytanın addımları” təbiri bir neçə dəfə işlədilmişdir. Vəhdət haqqında buyurulur: “Birlikdə sülhə gəlin. Şeytanın addımlarını izləməyin.”[1] Qidalanma ilə bağlı buyurulur: “Halal və pak şeylərdən yeyin, şeytanın addımlarını izləməyin.”[2] Bu ayədə isə pisliyin yayılması ilə bağlı möminlərə buyurulur: “Şeytanın addımlarını izləməyin (ona tabe olmayın).”

Şeytana itaət, onun addımlarını izləmə nümunələrinə nəzər salaq: fəsad əhli ilə dostluq, onların məclislərində iştirak etmək, öncə günah fikri, sonra kiçik günahlara batmaq, daha sonra böyük günahlara yol vermək və sonda daşqəlblilik, bədbəxtlik, puçluq.

**Bildirişlər**

1. İmanımıza güvənməyək, ardıcıl xəbərdarlıqlara diqqətli olaq.
2. Şeytan möminləri azdırmaq üçün hamıdan çox çalışır.
3. Tədrici, addım-addım nüfuz şeytanın siyasətidir. (Elə ilk addımda ehtiyatlı olaq.)
4. İnsan bir yol seçib addım atmağa məcburdur. Ona görə də doğru yol seçmək və şeytanın addımlarından uzaq olmaq lazımdır.
5. Pisliyin yayılması şeytan addımlarındandır.
6. Danışanda dəlillərə əsaslanaq. Allah-təala buyurur ki, «şeytana tabe olmayın.» Sonra uyğun buyruğu dəlil göstərir: «çünki o, günaha çağırır.»
7. Şeytan ona tabe olanlara əmr edir.
8. Şeytanın işi namazın təsirləri ilə ziddiyyət təşkil edir. Şeytan insanı günaha çağırır, amma namaz insanı günahdan uzaqlaşdırır.[3]
9. İlahi tövfiq (yardım) olmadan paklanmaq mümkünsüzdür.
10. İnsan hər an Allahın lütfünə ehtiyaclıdır.
11. İnsanın qarşısında yalan və pislik var. Amma tövbə və qurtuluş yolu da açıqdır.
12. Allahın övliyaları da ilahi tövfiqə ehtiyaclıdır.
13. Hikmət sahibi olan Allah insanların hazırlığı, ləyaqəti və tutumu həddində xeyir nazil edir.
14. Allahın hər şeyi eşidib görməsi insanı pis işlərdən uzaqlaşdıran ən əsas amildir.

[1] “Bəqərə”, 208.
[2] “Bəqərə”, 168.
[3] “Ənkəbut”, 45.

*AYƏ 22:*

﴿وَلَا يَأْتَلِ أُوْلُوا الْفَضْلِ مِنكُمْ وَالسَّعَةِ أَن يُؤْتُوا أُوْلِي الْقُرْبَى وَالْمَسَاكِينَ وَالْمُهَاجِرِينَ فِي سَبِيلِ اللَّهِ وَلْيَعْفُوا وَلْيَصْفَحُوا أَلَا تُحِبُّونَ أَن يَغْفِرَ اللَّهُ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ﴾

**"Aranızdakı var-dövlət və rifah sahibləri and içməməlidirlər ki, yaxınlara, miskinlərə və Allah yolunda hicrət edənlərə bir şey verməyəcəklər. Əksinə, güzəşt etməli, bağışlamalıdırlar. Yoxsa istəmirsiniz ki, Allah sizi bağışlasın? Allah bağışlayan və mehribandır."**

**Nöqtələr**

●"Yətəl" sözü "əlv" kökündən olduqda "səhlənkarlıq", "əla" kökündən olduqda "and içmək" mənasını bildirir. Fiqhi mövzulara aid "ila" sözü də bu mənadadır.[1] "Əfv" sözü bağışlamaq mənasını bildirir. "Səfh" dedikdə "görməməzliyə vurmaq" mənası anlaşılır. Bu isə əfvdən də yuxarı mərhələdir. Belə ki, bu mərhələdə qarşı tərəf məzəmmət olunmur.

●Ötən ayədə böhtan atanlar tənqid olundu. Səhabələrdən bəziləri and içdilər ki, bir daha böhtan atanlara infaq etməyəcəklər. Ayədə bildirildi ki, keçmiş büdrəmələrinə görə məhrumları əliboş qoymayın.

**Bildirişlər**

1. Rifah içində yaşayanlar məhrumlara münasibətdə məsuliyyət daşıyırlar.
2. İnfaqdan da mühümü onun davamlı olması, bu işdə süstlük göstərilməməsidir.
3. Yardım edərkən həm var-dövlətinizdən, həm də digər imkanlarınızdan istifadə edin.
4. Yardım vaxtı öncə yaxınlar nəzərə alınmalıdır.
5. Təkamül yolunda əldə etdiklərinizlə kifayətlənməyin, səy göstərin.
6. Başqalarını bağışlayan daha tez bağışlanar. (Əfv və güzəşt Allahın mərhəmətini cəlb edən vasitədir.)
7. Bağışlayarkən yeganə məqsəd Allahın əfvi olmalıdır.
8. Təbliğdə insanların daxili hisslərindən faydalanaq.
9. Dini rəhbərlər xalqı infaqa və əfvə həvəsləndirməlidirlər.

*AYƏ 23:*

﴿إِنَّ الَّذِينَ يَرْمُونَ الْمُحْصَنَاتِ الْغَافِلَاتِ الْمُؤْمِنَاتِ لُعِنُوا فِي الدُّنْيَا وَالْآخِرَةِ وَلَهُمْ عَذَابٌ عَظِيمٌ﴾

[1] "Müfrədati-Rağib".

**“Həqiqətən, pak (günahdan) xəbərsiz və imanlı qadınlar haqqında pis danışanlar dünya və axirətdə Allahın mərhəmətindən uzaqdırlar və onlar üçün böyük əzab var.”**

**Nöqtələr**

●Quranda kafir, əhdi pozan, qatil, zalım hakimlərə tərəfdar, münafiq, fəsadçı, müşrik, təkəbbürlü, zalım, haqqı gizlədən, yalançı şəxslər lənətlənsə də, böyük əzabla müşayiət olunan dünya və axirət lənəti yalnız pak insanların şəxsiyyətini alçaldanlara aiddir.

●İmam Sadiq (ə) bu ayəni iffətli qadınların ittihamının kəbirə (böyük) günah olması dəlili sayır.[1]

**Bildirişlər**

1. Qadını ləkələmək daha asandır. İffətli qadınları ittiham edənlərə xəbərdarlıq lazımdır.
2. Böhtan pak insan üçün daha qorxuludur.
3. Fəsad, fəsad mərkəzi və fəsadçı insanlardan xəbərsizlik qadın üçün bir dəyərdir.
4. Böhtanın axirət əzabından əlavə dünya əzabı da var.
5. Qadın hüquqlarının himayəsi Quran proqramlarında nəzərdə tutulur.

***AYƏ 24:***

﴿يَوْمَ تَشْهَدُ عَلَيْهِمْ أَلْسِنَتُهُمْ وَأَيْدِيهِمْ وَأَرْجُلُهُم بِمَا كَانُوا يَعْمَلُونَ﴾

**“Həmin gün dilləri, əlləri və ayaqları onların ziddinə şəhadət verər.”**

**Nöqtələr**

●Bədən üzvlərinin şəhadəti Quranda dəfələrlə bəyan olunmuş xəbərdir. “Fussilət” surəsində oxuyuruq: “Cəhənnəmə çatdıqları vaxt onların qulağı, gözü, dərisi günahlarına şəhadət verər.”[2] Başqa bir ayədə oxuyuruq: “Həmin gün kafirlərin ağzına sükut möhürü vurarıq, əlləri bizimlə danışar, ayaqları gördükləri işə şəhadət verər.”[3]

●Şahidlik birinin başqasına qarşı şəhadətindən ibarətdirsə, demək, insanın şəxsiyyəti ona qarşı şəhadət verən üzvlərdən fərqlidir. Şahid və müttəhim ayrı-ayrı fərdlər olmalıdır.

●İmam Baqir (ə) buyurur: “Bədən üzvlərinin şəhadəti möminə yox, əzab hökmü qətiləşmiş kəsə aiddir.”[4]

---

[1] “Bihar”, c. 76, s. 9.
[2] “Fussilət”, 20.
[3] “Yasin”, 65.
[4] “Təfsire-Nurus-səqəleyn”. “Kafi”, c. 2, s. 32.

**Bildirişlər**

1. Pak qadınlara böhtan atanlar Qiyamət günü məhkum olunacaq.
2. Qiyamət mühakiməsində insan öz bədən üzvlərinin sahibi deyil.
3. Şahidlik üçün elm, şüur, hafizə və sədaqətə ehtiyac var. Biz anlamasaq da, bədən üzvlərimizdə bu səciyyələr var.
4. Qiyamətdə bütün söz və rəftara şəhadət verilər.

### *AYƏ 25:*

﴿يَوْمَئِذٍ يُوَفِّيهِمُ اللَّهُ دِينَهُمُ الْحَقَّ وَيَعْلَمُونَ أَنَّ اللَّهَ هُوَ الْحَقُّ الْمُبِينُ﴾

**“Həmin gün Allah onların haqqı olan cəzanı artırıb-əskiltmədən verəcək. Onlar biləcəklər ki, Allah həmin aşkar həqiqətdir.”**

**Nöqtələr**

●Ayədəki “din” sözü ya “cəza”, ya da “şəriət” mənasını bildirir. Deməli, ayədə ya Qiyamət cəzasının tam verilməsi, ya da həqiqi şəriətin bəyan olunması nəzərdə tutulur. Həmin gün bütün yanlış ideoloji məktəblər anlayacaq ki, Allah həmin gerçək məbuddur.[1]

Müəyyən məhdudiyyətlər səbəbindən dünya cəzası kamil olmur. Məsələn, bir bomba atıb minlərlə insanı məhv edən təyyarəçini dünyada layiqincə cəzalandırmaq mümkünsüzdür. Qiyamətdə isə heç bir məhdudiyyət yoxdur və günahkar təkrar-təkrar yandırılıb dirildilə bilər.

**Bildirişlər**

1. İnsan yalnız Qiyamətdə kamil cəzalandırıla bilər.
2. Qiyamət cəzası şəhadətə və həqiqətə əsaslanır.
3. Allah kimsənin cəza və mükafatını əskiltmir.
4. Qiyamət günü bütün qəflət, qürur, cəhalət, yalan təbliğat, boş həvəs pərdələri götürüldüyündən insanlar həqiqəti anlayırlar.

### *AYƏ 26:*

﴿الْخَبِيثَاتُ لِلْخَبِيثِينَ وَالْخَبِيثُونَ لِلْخَبِيثَاتِ وَالطَّيِّبَاتُ لِلطَّيِّبِينَ وَالطَّيِّبُونَ لِلطَّيِّبَاتِ
أُوْلَئِكَ مُبَرَّؤُونَ مِمَّا يَقُولُونَ لَهُم مَّغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ﴾

**“Alçaq qadınlar alçaq kişilərə, alçaq kişilər alçaq qadınlara, pak qadınlar pak kişilərə və pak kişilər pak qadınlara layiqdir. Onlar haqlarında danışılandan uzaqdırlar. Onlar üçün bağışlanma və gözəl ruzi var.”**

---

[1] “Təfsire-Əl-mizan”.

**Nöqtələr**

●Bu ayə ümumi bir prinsipi bəyan edir. Bu o demək deyil ki, insan yaxşıdırsa, onun həyat yoldaşı da hökmən yaxşı olmalı, bağışlanmalı və gözəl ruziyə çatmalıdır. Quran behişt üçün iman, təqva və saleh əməli meyar sayır. Həzrət Nuh və Həzrət Lut pak insanlar olduqları halda onların zövcələri günahkar idi. Təbii ki, bu qadınlar cəhənnəm əhlidirlər.

●"Təyyib" dedikdə xoşagəlimlik mənası anlaşılır. Quranda var-dövlət, övlad, kəlam, şəhər, zövcə, ruzi, külək, məskən, mələk, ağac və salam bu sözlə vəsf olunur. Bu sözün antonimi "xəbis" sözüdür. Bəzən var-dövlət, insan, ailə-övlad bu sözlə tanıtdırılır.

●Hazırkı ayə bir neçə cür mənalandırıla bilər:

a) Pak qadınlara qarşı ittiham, «ifk» macərası haqqında danışan ötən ayələrə əsasən, onu belə mənalandırmaq olar: böhtan və iftira kimi çirkin sözlər çirkin insanlara, pak sözlər isə pak insanlara layiqdir.

b) Ayədə müəyyən şəri hökm bəyan oluna bilər. Məsələn, pakların qeyri-paklarla izdivacı, evlənməsi qadağandır. Necə ki, surənin əvvəlində bu məsələyə toxunuldu: "Zinakar kişi zinakar qadınla evlənə bilər." İmam Baqirdən (ə) nəql olunmuş rəvayət də bu mənanı təsdiqləyir.[1]

v) Ola bilsin ki, ayədə düşüncə, əqidə, əxlaq, şən uyğunluğu nəzərdə tutulmuşdur. Yəni hər kəs təbii olaraq öz həmfikrini soraqlayır.

Torpaqda, səmada hər nə zərrə var
Hər zaman, hər yerdə tayın soraqlar.
Od əhli od əhlin arayar əlbət,
Nur əhli nur əhlin bilər səadət.

●Quranda ruzinin bəzi səciyyələri zikr olunmuşdur: Gözəl ruzi, bol ruzi, pak ruzi, halal ruzi, gözlənilməyən ruzi, hesabsız ruzi.[2]

**Bildirişlər**

1. Adətən, çirkin insanlar çirkin işlərin, pak insanlar yaxşılıqların sorağınca gedirlər.
2. Pak nemətlərdən istifadə iman əhlinin haqqıdır.
3. Pak nəsillərin sağlam qalması Quran proqramlarındandır.
4. Pak insanları himayə etmək lazımdır.
5. Mənəviyyat maddiyyatdan öndə gəlir.

***AYƏ 27:***

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَدْخُلُوا بُيُوتًا غَيْرَ بُيُوتِكُمْ حَتَّى تَسْتَأْنِسُوا وَتُسَلِّمُوا عَلَى أَهْلِهَا ذَلِكُمْ خَيْرٌ لَّكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ﴾

---

[1] "Təfsire-Məcməül-bəyan".

[2] "Nəhl", 67; "Ənfal", 4; "Maidə", 88; "Təlaq", 3; "Ğafir", 40.

**“Ey iman gətirənlər! Başqalarının evlərinə icazə almadan və onun əhlinə salam vermədən daxil olmayın. Bu göstəriş sizin xeyrinizədir. Ola bilsin ki, öyüd götürəsiniz.”**

**Nöqtələr**

●“İstinas” dedikdə icazə istəmək, giriş üçün bildiriş nəzərdə tutulur. Rəvayətlərə əsasən, insan Allah zikri, ayaq səsi, salamla xəbərdarlıq edə bilər.[1]

●Bir şəxs Peyğəmbərdən (s) soruşdu: “Anamın otağına daxil olmaq üçün icazə istəyimmi?” Həzrət buyurdu: “Bəli.” Həmin şəxs dedi: “Evdə ondan başqa kimsə yoxdur, yalnız mən xidmət göstərirəm! Həzrət buyurdu: “Ananı çılpaq görmək sənə xoş gələrmi?” Həmin şəxs bildirdi: “Xeyr.” Həzrət buyurdu: “Belə isə, icazə al.”

●Digər bir rəvayətdə bildirilir ki, həzrət Peyğəmbər (s) ailə başçısı kənarda olan qadınların otağına daxil olmağı kişilərə qadağan etmişdir.[2]

●Rəvayətdə oxuyuruq: “Ev əhlinə hazırlıq imkanı vermək üçün üç dəfə icazə almaq lazımdır. Əlbəttə, söhbət başqalarının evindən gedir. İnsan öz evinə qapını döyüb daxil ola bilər. Boğulanı, məzlumu, od içində olanı xilas etmək üçün icazə almaq lazım deyil.[3]

●Həzrət Peyğəmbər (s) bir evə daxil olmaq istəyərkən icazə üçün qapı ilə üzbəüz durmaz, qapı açılarkən evin içini görməmək məqsədi ilə onun sağında və ya solunda dayanardı.[4]

**Bildirişlər**

1. İman əhli bütün işlərdə ilahi vəhyə əsaslanmalıdır.
2. Ev əhlinin əmin-amanlığı və azadlığı qorunmalıdır. Başqalarının evinə xəbərdarlıqsız daxil olmaq haramdır.
3. Böhtan şəraitindən uzaq olun.
4. Qapının açıq olması giriş üçün icazə sayılmır.
5. İnsanların mal-mülkü möhtərəmdir.
6. Öncə mehriban rəftar etmək lazımdır.
7. İffət pərdəsinin yırtılma ehtimalı olan işlərdən uzaq olun.
8. Başqalarının mənzilinə məcburiyyət və sərtliklə daxil olmaq qadağandır.
9. Qapıya çıxan kəs yaşca kiçik olsa da, daxil olan kəs salam verməlidir.
10. Başqalarının hüquqlarına riayət edilməsi xoşbəxtliyin əsasını təşkil edir.
11. Peyğəmbər göstərişlərini unutmayaq.
12. Dini ədəb və əxlaq oyaq fitrətin nidasıdır.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Təfsire-Nurus-səqəleyn”.
[3] “Təfsire-Kəbire-Fəxr Razi”.
[4] “Təfsire-Kəbire-Fəxr Razi”, “Təfsiri-fi-zilal”.

*AYƏ 28:*

﴿فَإِن لَّمْ تَجِدُوا فِيهَا أَحَدًا فَلَا تَدْخُلُوهَا حَتَّى يُؤْذَنَ لَكُمْ وَإِن قِيلَ لَكُمُ ارْجِعُوا
فَارْجِعُوا هُوَ أَزْكَى لَكُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ عَلِيمٌ﴾

**“Bir şəxsi evdə tapmadıqda sizə giriş icazəsi verilənədək oraya daxil olmayın. Sizə “qayıdın” deyilsə, qayıdın (və narahat olmayın). Bu, sizin pak qalmağınız üçün daha yaxşıdır və Allah sizin əməlinizdən agahdır.”**

**Bildirişlər**

1. Evdə bir şəxs olmadığını bilərək oraya daxil olmaq haramdır.
2. Giriş üçün hökmən icazə lazımdır. Evdən çıxmaq üçün isə ev sahibinin icazəsinə ehtiyac yoxdur. Ev sahibinin narahat olduğunu hiss etdikdə evdən çıxmaq lazımdır.
3. Xalqın evinə daxil olmaq üçün icazəyə ehtiyac var. Evə daxil olmaq üçün ya ev sahibi, ya da İslam hakimi kimi bir məsul icazə verməlidir.
4. Kiminsə evinin kənarında dayanmaq qadağandır.
5. Çağırılmamış qonağı qəbul etməmək olar.
6. Ev sahibinin üzrünü qəbul edək və məcburi şəkildə evə daxil olmayaq.
7. Səfa-səmimiyyət, yersiz istəkdən uzaqlıq İslam əxlaqının bərəkətlərindəndir.
8. Özünütərbiyə və paklanma yolu İslam qaydalarına əməl və insanların hüququna riayət etməkdən ibarətdir.
9. Bəzən insan başı daşa dəydikdə tərbiyələnib inkişaf edir. Hər dönüş uğursuzluq sayılmır.
10. İctimai rabitələrin tənzim meyarı inkişaf və paklıqdır. İlahi əmr və qadağalar inkişaf və paklıq açarıdır.
11. Allahın bizim əməllərimizdən məlumatlı olması təşviq və xəbərdarlıq rəmzidir.

*AYƏ 29:*

﴿لَّيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَن تَدْخُلُوا بُيُوتًا غَيْرَ مَسْكُونَةٍ فِيهَا مَتَاعٌ لَّكُمْ وَاللَّهُ يَعْلَمُ مَا
تُبْدُونَ وَمَا تَكْتُمُونَ﴾

**“Daxilində bir şeyiniz qalmış məskunlaşmamış evə daxil olmaq sizin üçün günah deyil. Allah sizin aşkarladığınızdan və ya gizlətdiyinizdən agahdır.”**

**Nöqtələr**

●Mehmanxana, yataqxana, dükan və hamam kimi qapısı hamının üzünə açıq olan ümumi mərkəzlər sahibi olan evlərdən fərqlənir. Həmin yerlərə daxil olmaq üçün icazəyə ehtiyac yoxdur.[1]

**Bildirişlər**

1. Faydalı bir məqsəd olmadan, vaxt öldürmək və çənə vurmaq üçün ümumi mərkəzlərə getmək qadağandır.

2. Ümumi mərkəzlərə daxil olarkən Allahı nəzərdə saxlayaq və bilək ki, Allah bizim düşüncə və rəftarlarımızdan xəbərdardır.

***AYƏ 30:***

﴿قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ وَيَحْفَظُوا فُرُوجَهُمْ ذَلِكَ أَزْكَى لَهُمْ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا يَصْنَعُونَ﴾

**“Mömin kişilərə de ki, bəzi şeylərə baxmaqdan çəkinsinlər və ayıb yerlərini hifz etsinlər. Bu, onların daha pak qalması üçün yaxşıdır. Allah onların gördükləri işdən agahdır.”**

**Nöqtələr**

●Bu ayənin nazil olma şəni haqqında oxuyuruq: “Bir kənc gözünü yolda gördüyü qadına zilləyib onun ardınca getdi. Özünü yaddan çıxardığından başı divara dəydi və yaralandı. O, əhvalatı olduğu kimi Peyğəmbərə (s) danışdı. Sonra bu ayə nazil oldu.”[2]

***BAXIŞ HAQQINDA RƏVAYƏTLƏR***

–Həzrət Əli (ə) buyurur: “Birinci dəfə baxmağın eybi yoxdur. Növbəti baxış pisdir, çünki fitnəyə səbəb olur.”[3]

–Bir hədisdə oxuyuruq: “Qiyamət günü yalnız üç göz ağlamaz: Dünyada Allah qorxusundan ağlayan göz, günah görüntüyə yumulan göz, Allah yolunda oyaq qalan göz.”[4]

–“Səhih Buxari”də oxuyuruq: “Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Xalqın yolu üstə oturmayın.” Bir qrup adam yolda oturmağa məcbur olduğunu bildirdi. Həzrət buyurdu: “Belə isə, bunun haqqını ödəyin.” Soruşdular ki, bunun haqqı nədir? Həzrət buyurdu: “Göz zilləmək və xalqı incitməkdən uzaqlıq, başqalarının salamını almaq, əmr be məruf (yaxşılığa dəvət) və nəhy əz münkər (pisliyə qadağa)”

---

[1] “Təfsiri-bürhan”.
[2] “Təfsiri-nümunə”.
[3] “Təfsire-kənzud-dəqaiq”.
[4] “Təfsire-kənzud-dəqaiq”.

–Həzrət İsa (ə) buyurmuşdur: “Naməhrəmə baxmaqdan çəkinin. Bu baxış qəlbdə şəhvət toxumu səpir və insanın fitnəyə düçar olması üçün bəs edir.”[1]

–Həzrət Əli (ə) buyurur: “Göz, qəlbi öz ardınca çəkir. Göz şeytanın qarmağıdır. Şəhvətdən qurtuluş üçün ən yaxşı yol gözü yummaqdır.”[2]

–Həzrət Peyğəmbər (s) buyurur: “Pis baxış şeytanın zəhərli oxlarındandır. Allah qorxusundan gözünü yuman kəsə Allah elə bir iman verər ki, insan öz daxilində bu işin şirinliyini hiss edər.”[3]

–Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Dünyada haramla dolan göz tövbə edilməsə, Qiyamətdə odla dolacaq.”[4]

–İmam Sadiq (ə) naməhrəm qadına baxış haqqında buyurmuşdur: “Qadının üzünə, əlinin içinə və ayağının üstünə (şəhvətsiz) baxmaq olar.”[5]

**Bildirişlər**

1. Gözü haramdan qorumaq iman şərtidir.
2. Cinsi ehtirasa nəzarət olunmalıdır.
3. Günahın çeşməsi bağlanmalıdır. Təqvaya gözdən başlayaq.
4. Pak göz paklıq üçün müqəddimədir.
5. Örtük kişilər üçün də vacibdir.
6. Şəhvətli baxış və iffətsizlik insanın mənəvi inkişafına mane olur.
7. Şəhvətlə baxan insan Allahın hüzurunda olduğunu bilməlidir. Allah hüzurunda günah etməyək.

### *AYƏ 31:*

﴿وَقُل لِّلْمُؤْمِنَاتِ يَغْضُضْنَ مِنْ أَبْصَارِهِنَّ وَيَحْفَظْنَ فُرُوجَهُنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا مَا ظَهَرَ مِنْهَا وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلَى جُيُوبِهِنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا لِبُعُولَتِهِنَّ أَوْ آبَائِهِنَّ أَوْ آبَاء بُعُولَتِهِنَّ أَوْ أَبْنَائِهِنَّ أَوْ أَبْنَاء بُعُولَتِهِنَّ أَوْ إِخْوَانِهِنَّ أَوْ بَنِي إِخْوَانِهِنَّ أَوْ بَنِي أَخَوَاتِهِنَّ أَوْ نِسَائِهِنَّ أَوْ مَا مَلَكَتْ أَيْمَانُهُنَّ أَوِ التَّابِعِينَ غَيْرِ أُوْلِي الْإِرْبَةِ مِنَ الرِّجَالِ أَوِ الطِّفْلِ الَّذِينَ لَمْ يَظْهَرُوا عَلَى عَوْرَاتِ النِّسَاء وَلَا يَضْرِبْنَ بِأَرْجُلِهِنَّ لِيُعْلَمَ مَا يُخْفِينَ مِن زِينَتِهِنَّ وَتُوبُوا إِلَى اللَّهِ جَمِيعًا أَيُّهَا الْمُؤْمِنُونَ لَعَلَّكُمْ تُفْلِحُونَ﴾

**“İmanlı qadınlara de ki, bəzi şeylərə baxmaqdan çəkinsinlər, ayıb yerlərini hifz etsinlər. Zahirdə olandan savay zinətlərini aşkarlamasınlar.**

---

[1] “Təfsire-ruhul-məani”.
[2] “Ğurərul-hikəm”.
[3] “Bihar”, c. 104, s. 38.
[4] “Bihar”, c. 76, s. 336.
[5] “Təfsire-kənzud-dəqaiq”.

**Baş örtüklərini boyunlarına salsınlar (başlarından əlavə boyunları, sinələri örtülsün), zinətlərini ər, ata, qayınata, oğul, ərin oğlu, qardaş, qardaşın oğlu, bacının oğlu, öz qadınları, ya sahib olduqları qadın, kişiliyi olmayan xidmətçi kişilər, cinsi məsələlərdən xəbərsiz uşaqlar istisna olmaqla kimsəyə göstərməsinlər. Eləcə də, ayaqlarını yerə elə vurmasınlar ki, gizli zinətləri aşkar olsun. Ey möminlər! Hamılıqla Allaha doğru dönün və Allah dərgahına tövbə qılın ki, nicat tapasınız.”**

**Nöqtələr**

●Allah-təala Quranda namazın hərəkətlərinin və təvafın sayını, zəkat miqdarını bildirməsə də, bu və bu kimi digər məsələləri həzrət Peyğəmbərin (s) öhdəsində qoymuşdur. Amma ailə, tərbiyə və əxlaq məsələlərində ən incə nöqtələr açıqlanmışdır.

●Allah bu ayədə qadın cinsini bildirən əvəzliyi 25 dəfə işlətməklə qadınlara xüsusi diqqət ayırmışdır.[1]

●İmam Sadiq (ə) buyurur: “Ayədə ayıb yerlərin qorunması dedikdə nəzərdə tutulur ki, hətta qadınlar da qadınların ayıb yerlərinə baxmasınlar və öz ayıb yerlərini başqalarından qorusunlar.”[2]

●“İrbə” sözü istək və ehtiyac mənasını bildirir. “Ulil-irbə” dedikdə cinsi yaxınlıq meyli olmayan xidmətçilər nəzərdə tutulur.[3]

●Həzrət Peyğəmbər (s) “illə li buulətihinnə” cümləsi ilə bağlı buyurur: “Allah çöhrəsini və saçlarını əri üçün bəzəməyən, ərin istəklərinə cavab verməyən qadınlara lənət etmişdir.”[4]

●Bəzən fərdi bir günaha görə peşmanlıq, bəzən isə günahkar bir «mədəniyyət»in dəyişməsi üçün tövbə qılınır. Ayədə zahirən ikinci məna nəzərdə tutulmuşdur. Çünki cahiliyyət dövründə qadınların boyun və sinələri açıq idi.[5]

●Hicabın qorunması və özünü nümayişdən çəkinməyin bir sıra səmərələri var. Onlardan bəzilərini nəzərdən keçirək: ruhi aramlıq, ailə təməlinin möhkəmliyi, nəsil-nəcabətin hifzi, sui-qəsd və təcavüzün qarşısının alınması, cinsi və psixoloji xəstəliklərdən uzaqlıq, boşanmaların azalması, intiharların əskilməsi, qanunsuz övladların və abortların sayının azalması, mənfi rəqabətlərin aradan götürülməsi, qadın şəxsiyyətinin hifzi, qadınların şəhvətpərəst göz və qəlblərdən qorunması. (Bu gün qərb və şərq dünyasını məhz bu bəla öz girdabına salmışdır.)

---

1 “Təfsire-Qurtubi”.
2 “Təfsire-Nurus-səqəleyn”.
3 “Kafi”, c. 5, s. 523.
4 “Təfsire-Nurus-səqəleyn”.
5 “Təfsire-Kəbire-Fəxr Razi”.

●“Xumur” sözü baş örtüyü mənasını bildirən “ximar” sözünün cəm formasıdır. “Cuyub” dedikdə boyun və sinə mənaları anlaşılır.

**Bildirişlər**

1. İffətin qorunması və haram baxışdan çəkinmək məsələsində qadınla kişi arasında fərq yoxdur.
2. Qadının cəmiyyətdə özünü nümayiş etdirməsi haramdır.
3. Bədənin öz-özlüyündə zahir olan hissələrinin (üz, əl və ayaq) görünməsinin eybi yoxdur.
4. Örtüklər arasında məqnə və böyük baş örtüyünün adı qeyd olunur. Bu diqqət hicabın əhəmiyyətini göstərir.
5. Qanunçuluqda zərurətlərə, gerçəkliklərə və ehtiyaclara diqqət yetirilməlidir. (Əgər bədənin üz, əl və ayaq kimi öz-özlüyündə görünən hissələrini örtmək vacib edilsəydi, qadınlar üçün çətinlik yaranardı.)
6. İslam bəşəriyyətin fitri və daxili ehtiyaclarına müsbət cavab verir.
7. Kişiliyi olmayan xidmətçilərdən örtünmək vacib deyil.
8. Qadının gizli zinətlərinin aşkara çıxmasına səbəb olan istənilən yeriş qadağandır.
9. Qadının mülkiyyət hüququ var.
10. Qadın öz zinətlərini yalnız müsəlman qadınlara göstərə bilər. Müsəlman qadın kafir qadın qarşısında örtünməlidir.
11. Qadının örtünməsi naməhrəm kişilərin cinsi meyli ilə sıx rabitədədir. Cinsi meyli olmayan insandan örtünmək lazım deyil.
12. Hicab və örtük vacibdir. Qadının zinətini aşkarlayan və bilindirən istənilən bir iş qadağandır.
13. Baş və üzün vacib örtük həddi başa atılan örtüyün boyun və sinəni bürüməsidir.
14. Hicablı qadın cəmiyyətə qatıla bilər. Necə ki, qadın cəmiyyət namazında heç bir mane olmadan iştirak edir.[1]
15. Baxış və hicabın qorunması bütün insanların vəzifəsidir. İnsan haram baxışa görə tövbə etməlidir.
16. Allah dərgahına tövbə iman şərtidir.
17. Tövbə həm vacibdir, həm də qurtuluşun açarıdır.
18. Azğınlıqdan Allah xəttinə qayıdış qurtuluş yoludur.

[1] “Ali-İmran”, 43.

## *AYƏ 32:*

﴿وَأَنكِحُوا الْأَيَامَى مِنكُمْ وَالصَّالِحِينَ مِنْ عِبَادِكُمْ وَإِمَائِكُمْ إِن يَكُونُوا فُقَرَاء يُغْنِهِمُ اللَّهُ مِن فَضْلِهِ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ﴾

**“Subay oğlanlarınızı və qızlarınızı, ləyaqətli qulam və kənizlərinizi evləndirin. (Yoxsulluqdan qorxmayın,) əgər yoxsul olsalar, Allah Öz fəzli ilə onların ehtiyacını ödəyər. Allah geniş lütf sahibidir və biləndir. (O, sizin ehtiyaclarınızdan xəbərdardır və sizi təmin edəcəyini vəd etmişdir; O, Öz vədini yerinə yetirməyə qadirdir.)”**

**Nöqtələr**

●“Əyama” dedikdə - istər kişi, istər qadın, istər bakirə, istər dul - subay şəxslər nəzərdə tutulur.

●Ən üstün vasitəçilik şəfaət və izdivaca köməkdir. Rəvayətdə deyilir: “Birini evləndirən və ya ərə verən kəs Allahın ərşi kölgəsindədir.”[1]

●İmkanlı olduğu halda övladını evləndirməyən ata-ana övladın mümkün günahına şərikdir.[2]

●İzdivac (evlənmə) haqqında bir çox rəvayətlər nəql olunmuşdur. Onlardan bəzilərinə nəzər salaq:

–İmam Sadiq (ə) buyurmuşdur: “Həyat evlənmə sayəsində vüsətə çatır.”

–Yoxsulluq qorxusundan evlənməyən kəs Allaha qarşı bədgüman olmuşdur.

–Ailəli insanın iki rəkət namazı subay insanın yetmiş rəkət namazından üstündür.[3]

**Bildirişlər**

1. İslam cəmiyyəti subay insanları evləndirməyə məsuldur.
2. Evlənmə İslamda müqəddəs və təkid olunmuş işdir.
3. Oğlan tərəfinin elçilik etməsi zəruri deyil. İzdivac tərəflərindən hər biri bu işdə qabağa düşə bilər.
4. Haram baxışa qadağa qoymaq bəs etmir, izdivac problemi həll olunmalıdır.
5. Dul qadınları ərə verin.
6. Evlənən tərəflərin səlahiyyətli olması şərtdir. Yəni tərəflər müştərək ailə həyatını idarə etmək səlahiyyətinə malik olmalıdır.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Təfsire-Məcməül-bəyan”.
[3] “Təfsire-Nurus-səqəleyn”.

7. Cəmiyyət saleh fərdləri evləndirmək istiqamətində addım atarsa, bu iş qeyri salehləri salehlər cərgəsinə qatılmağa təşviq edər. (Beləcə, səlahiyyət dedikdə əxlaq və əqidə səlahiyyəti nəzərdə tutulur.

8. Cinsi ehtiyacın təminində insanlar arasında fərq yoxdur. (Qadın, kişi qulam və kəniz arasında fərq qoyulmur.)

9. Yoxsulluq izdivaca mane olmamalıdır.

10. Yoxsul olduğunuz vaxt Allaha təvəkkül edib ailə həyatı qurun.

11. Yoxsulluq ər və arvad üçün nöqsan eyb deyil.

12. Allah evlənənlərin ehtiyacını təmin edəcəyini vəd etmişdir. Evlənmə vüsət və bərəkət vasitəsidir.

13. İlahi vədlərin gerçəkləşməsi Allahın sonsuz fəzlindən qaynaqlanır.

14. Allahın Öz bəndələrinə nəsib etdiyi inkişaf və vüsət Onun elm və hikmətinə əsaslanır.

***AYƏ 33:***

﴿وَلْيَسْتَعْفِفِ الَّذِينَ لَا يَجِدُونَ نِكَاحًا حَتَّى يُغْنِيَهُمُ اللَّهُ مِن فَضْلِهِ وَالَّذِينَ يَبْتَغُونَ
الْكِتَابَ مِمَّا مَلَكَتْ أَيْمَانُكُمْ فَكَاتِبُوهُمْ إِنْ عَلِمْتُمْ فِيهِمْ خَيْرًا وَآتُوهُم مِّن مَّالِ اللَّهِ
الَّذِي آتَاكُمْ وَلَا تُكْرِهُوا فَتَيَاتِكُمْ عَلَى الْبِغَاءِ إِنْ أَرَدْنَ تَحَصُّنًا لِّتَبْتَغُوا عَرَضَ الْحَيَاةِ
الدُّنْيَا وَمَن يُكْرِههُّنَّ فَإِنَّ اللَّهَ مِن بَعْدِ إِكْرَاهِهِنَّ غَفُورٌ رَّحِيمٌ﴾

**“Allah Öz kərəmi ilə evlənməyə yol tapmayanların ehtiyacını ödəyənədək onlar öz iffətlərini qorumalıdırlar. Qulam və kənizlərinizdən özünü satın alıb azad etmək istəyən olsa, onlardan layiq bildiklərinizin istəyini qəbul edin. (Onların azadlığına yardım etmək üçün) Allahın sizə verdiyindən onlara verin. İsmətini qorumaq istəyən kənizlərinizi dünya malına xatir zinaya məcbur etməyin. Kim onları zinaya məcbur edərsə, əlbəttə, Allah bu işə məcbur olan kənizlər üçün bağışlayan və mehribandır”.**

**Nöqtələr**

●Öncə imkanlı insanlara və məsullara tapşırıq verilməli, sonra imkansızlara iffətini qorumaq əmr olunmalıdır.

●Həzrət Əli (ə) buyurur: “Cahiliyyət dövründə insanlar qazanc məqsədi ilə öz kənizlərini zinaya vadar edirdilər”.[1]

Döyüşdə qalib gəlib əsir götürən müsəlmanlar onlarla bir neçə cür rəftar edə bilərlər.

A) Bütün əsirlər azad olunar–bu halda yenidən döyüş qızışar:

---

[1] “Təfsire-Dürrül-Mənsur”.

B) Hamı qətlə yetirilər–bu hərəkət müsəlmanlar üçün qəddarlıq sayıla bilər:

V) Əsirləri bir məntəqədə toplayıb beytül-maldan onların xərcini ödəmək–bu halda günahsızlar günahkarların ehtiyaclarını ödəmiş olurlar:

Q) Əsirlər müsəlmanlar arasında bölüşdürülür ki, tədricən İslamla tanış olsunlar və bu dini qəbul etsinlər. Sonra onlar müxtəlif yollarla azad edilirlər ki, bu yol ən üstün yoldur və İslam bu yolu təqdir edir.

Keçmiş dövrdə döyüş qanunlarına əsasən, əsirlər qul kimi istifadə olunurdular. İslam da qarşı tərəf kimi hərəkət etməyə məcbur idi. Bu gün isə əsirlər zindanlarda saxlanılırlar. Biz də əqidəmizə zidd olmayan hallarda beynəlmiləl hərb qanunlarını qəbul edirik.

**Bildirişlər**

1. Həyat yoldaşının uzaqda olması günah üçün səbəb deyil. Belə məqamlarda səbirli və iffətli olmaq lazımdır.
2. Təhlükə çox olan yerdə xüsusi xəbərdarlıq lazımdır. (Subay insanlar üçün iffətsizlik təhlükəsi daha böyükdür. Allah iffət göstərişi verərkən onlara müraciət edir.)
3. İffət və təqvamız olsa, Allah bizi ehtiyacsız edər. (Gənclər evlənmə xərcini əldə etmək üçün haram yola üz tutmasınlar.)
4. Cəmiyyətin iffətinin qorunması üçün fərdlər özünü hifz etsin, hökumət bu istiqamətdə səy göstərsin, varlılar yardım əli uzatsın.
5. İstənilən bir razılaşmada, hətta tabeçilikdə olanlarla yazılı sənəd tərtib edin.
6. Qulların özünü satın alıb azad etməsi yolu ilə izdivacı asanlaşdırmaq məsləhət əsasında olmalıdır.
7. İslam qulları azadlığa çıxarmaq üçün müxtəlif proqramlar nəzərdə tutur. Bunlardan biri qulun özünü satın alıb azad etməsidir.
8. Var-dövlətinizi öz malınız bilməyin. Onu sizə Allah bir neçə günlük əmanət vermişdir.
9. Gənclərin evlənmə məsələsində varlılar daha çox məsuliyyət daşıyır.
10. Özünü satın almağa gücü çatmayan qullara ağalar kömək etsin. Həzrət Əli (ə) buyurur: ”Razılaşma qiymətinin dörddə birini güzəştə getsinlər.”[1] İmam Sadiq (ə) buyurur: ”Müqavilənin qiymətindən bir qədər azaltsınlar.”[2]
11. Qullar azadlıq barədə müqavilə bağlayarkən öz sahibləri ilə eyni çəkiyə malikdirlər.
12. İlahi puldan (zəkat büdcəsindən) həm qulları azad etmək və həm də cavanları evləndirməkdə istifadə edin.
13. Tabeçilikdə olanlardan haram yolda istifadə etmək, iffətli kənizləri zinaya sürükləmək qadağandır.
14. Dünyapərəstlik günahların qaynağıdır.

---

[1] “Təfsire-Dürrül-Mənsur”.

[2] “Mən la yəhzur”, c 3, s. 78

15. Qeyri-şəri yollarla sərvət toplamaq caiz deyildir.
16. Dünya ötəridir.
17. Mənəvi dəyərlər rifaha, var-dövlətə, maddiyyata qurban verilməməlidir.
18. Kənizlərin də şəxsiyyəti azad qızların şəxsiyyəti kimi möhtərəmdir.
19. İslam kənizləri himayə edir.
20. Qadın üçün ən üstün dəyər paklıq və iffətdir.
21. Bir çox günahların səbəbkarı ağalardır.
22. Günaha məcbur edilənlər əfv olunurlar.

*AYƏ 34:*

﴿وَلَقَدْ أَنزَلْنَا إِلَيْكُمْ آيَاتٍ مُّبَيِّنَاتٍ وَمَثَلًا مِّنَ الَّذِينَ خَلَوْا مِن قَبْلِكُمْ وَمَوْعِظَةً
لِّلْمُتَّقِينَ﴾

**“Həqiqətən, Biz sizə aydınladan ayələr, sizdən əvvəlkilərdən yetərli nümunələr, təqvalılar üçün öyüd-nəsihət göndərdik.”**

**Bildirişlər**

1. Allah insanlara yetərli dəlillər gətirir, höccəti tamamlayır.
2. Quran ayələri nur və aydınladandır.
3. Keçmişdəkilərin tarixi gələcəkdəkilərin yolu üçün çıraqdır.
4. Quran əhatəli bir kitabdır.
5. Nəsihətin qəbulu üçün hazırlıqlı qəlb lazımdır.
6. Təqva əhli də moizəyə ehtiyaclıdır.

*AYƏ 35:*

﴿اللَّهُ نُورُ السَّمَاوَاتِ وَالْأَرْضِ مَثَلُ نُورِهِ كَمِشْكَاةٍ فِيهَا مِصْبَاحٌ الْمِصْبَاحُ فِي
زُجَاجَةٍ الزُّجَاجَةُ كَأَنَّهَا كَوْكَبٌ دُرِّيٌّ يُوقَدُ مِن شَجَرَةٍ مُّبَارَكَةٍ زَيْتُونِةٍ لَّا شَرْقِيَّةٍ وَلَا
غَرْبِيَّةٍ يَكَادُ زَيْتُهَا يُضِيءُ وَلَوْ لَمْ تَمْسَسْهُ نَارٌ نُّورٌ عَلَى نُورٍ يَهْدِي اللَّهُ لِنُورِهِ مَن
يَشَاء وَيَضْرِبُ اللَّهُ الْأَمْثَالَ لِلنَّاسِ وَاللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**“Allah göylərin və yerin nurudur. Onun nuru çırağı olan qəndil kimidir. Bu çıraq şüşə arasındadır və o şüşə parlaq bir ulduz kimidir. Bu çıraq çox bərəkətli zeytun ağacının yağından şölələndirilmişdir. O (ağac) nə şərqdə, nə də qərbdədir. (Onun yağı o qədər saf və şəffafdır ki,) az qalır od toxunmamış işıqlana. O digər bir nur üstə nurdur. Allah istədiyini Öz nuru ilə hidayət edər. Allah insanlar üçün məsəllər çəkir və hər şeydən agahdır.”**

**Nöqtələr**

●“Mişkat” dedikdə qəndil, çıraq qəfəsəsi nəzərdə tutulur. “Durriyy” sözü çox nurlu mənasını bildirir. “Zeyt” dedikdə zeytun yağı mənası anlaşılır. (Bu maddə işıqlandırma vasitəsidir.)

●Nur həm özü işıqlıdır, həm başqa əşyaların işıqlanma səbəbidir. İslam leksikonunda bir neçə şey “nur” adlandırılmışdır. O cümlədən: Quran, hədis, elm, əql, iman, hidayət, İslam, Peyğəmbər (s) və məsum imamlar (ə).

●Həzrət Əli (ə) buyurur: “Elə bir şey görmədim ki, ondan öncə, ondan sonra və onunla birlikdə Allahı görməmiş olam.”

*Səhraya boylandım, danışdı Səndən,*
*Suya nəzər saldım, yenə öndə Sən,*
*Göylərə, yerlərə, baxdımsa hara,*
*Gördüyüm hər zərrə Səninlə həmdəm.*

●“Allah göylərin və yerin nurudur”, yəni Allah göyü və yeri hidayət edəndir. Aydınladan, zinət verən, hadi kimi nura aid bütün səciyyələrdən “üstün hidayət” mənası anlaşılır. Çünki digər ayələrdə də varlığın hidayəti qeyd olunmuşdur. “Nur üzərində nur” dedikdə daimi və ardıcıl hidayət nəzərdə tutulur.

**Bildirişlər**

1. Varlıq aləmi Allahın feyzi, Onun nurundan bir işartıdır. Varlığın möhkəmliyi və davamı Ondan asılıdır.
2. Allahın nuru həm çox, həm də sabitdir. (Şüşə həm nuru çoxaldır, həm də nuru sönməyə qoymur.)
3. Allah nurunun işığı xarici qığılcımdan yox, Onun Öz zatındandır.
4. Zeytun mübarək bir ağacdır.
5. Zeytun ağacı bağın ortasında olsa və bütün gün günəş işığından faydalansa, onun yağı daha çox olar.

***AYƏ 36:***

﴿فِي بُيُوتٍ أَذِنَ اللَّهُ أَن تُرْفَعَ وَيُذْكَرَ فِيهَا اسْمُهُ يُسَبِّحُ لَهُ فِيهَا بِالْغُدُوِّ وَالْآصَالِ﴾

**“(Bu hidayət nuru) ucaldılmasına Allahın izin verdiyi və Allah adı zikr olunan evlərdədir. Onlarda səhər-axşam Allaha təsbih deyərlər.”**

**Nöqtələr**

●“Cameə” ziyarətində şiə imamlarına xitab edərkən uyğun nöqtəyə toxunulur. Aydın olur ki, məsum imamların evi ayədə nəzərdə tutulan ev nümunələrindəndir.

●“Turfə” sözü ayədə məkan yüksəkliyini bildirir. “Bəqərə” surəsinin 127-ci ayəsində də uyğun təbirlə rastlaşırıq: “Həzrət İbrahim Kəbə sütunlarını uca tikdi.”

●İmam Baqir (ə) buyurur: “Ayədə nəzərdə tutulan evlər peyğəmbərlərin, hikmət sahiblərinin və məsum imamların evləridir.”[1] Sələbi öz təfsirində belə nəql edir: «Bir gün həzrət Peyğəmbər (s) bu ayəni oxuyurdu. Əbu-Bəkr ayağa qalxıb soruşdu: ”Fatimə və Əlinin evi bu ayəyə nümunə ola bilərmi?” Həzrət buyurdu: “Bəli, bu ayə üçün ən yaxşı nümunə onların evidir.»[2]

●İmam Kazim (ə) buyurur: “Səhər-axşam dedikdə, ayədə namazın ilkin vaxtı nəzərdə tutulmuşdur.”[3]

●Quran leksikonunda “namaz” əvəzinə dəfələrlə “təsbih” sözü işlədilir.[4]

**Bildirişlər**

1. Allah nuruna hər yerdə yox, xüsusi məkanlarda və xüsusi yollarla yetişmək olar.
2. Məscidləri və ibadət mərkəzlərini uca tikməyin eybi yoxdur.
3. Məkanlar eyni olmur, onların biri o birindən üstün ola bilər.
4. Məscidlərə get-gəl vasitəsi ilə Allahın hidayət nurunu sezmək olar.
5. Məscidlər istənilən bir cəhətdən başqa tikililərdən üstün olmalıdır.
6. Böyüklük və əzəmət Allaha məxsusdur və onun icazəsi ilə mümkün olur.
7. Məscidlərin tikintisində əsas məqsəd hansısa mərasimlər yox, Allah zikridir.
8. Məscidin qapıları namaz vaxtı açılmalıdır və kimsə bu qapıları bağlaya bilməz.
9. Allaha təsbih, Onun zikri sübh-axşam təkrarlanmalıdır. (Zaman və məkan ünsürləri ibadətdə təsirlidir.)

***AYƏ 37:***

﴿رِجَالٌ لَّا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَن ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاء الزَّكَاةِ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ﴾

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Təfsire-Ruhul-Məani”.
[3] “Bihar”, c. 23, s. 326.
[4] “Ali-İmran”, 41, ”Qaf”, 39.

**“O kişilər ki, heç bir ticarət, alış-veriş onları Allah zikrindən, namaz qılınmasından və zəkat ödəməkdən yayındırmaz, onlar qəlb və gözlərin pərişan olacağı gündən qorxarlar.”**

**Nöqtələr**

●“Ticarət” dedikdə fayda əldə etmək üçün aparılan daimi alış-veriş, “bəyun” dedikdə gündəlik ehtiyacların aradan qaldırılması üçün müvəqqəti alver nəzərdə tutulur.[1]

●Ayədə “kişilər” deyərkən istər kişi, istər qadın, bütün Allah bəndələri nəzərdə tutulur.

●Hədisdə oxuyuruq: “Ayədə azan səsini eşitdiyi vaxt ticarəti buraxıb namaza tələsən tacirlər nəzərdə tutulur.”[2]

●İnsanın başını qatıb onu Allah zikrindən uzaqlaşdıran amil təkcə ticarət yox, həm də Quranın buyurduğu kimi, sərvət toplamaq həvəsi, uzun-uzadı arzular, pis övlad və dostlardır.

**Bildirişlər**

1. Ticarətin qəflətdə saxlamadığı insanlar böyük insanlardır.
2. Allah zikrindən uzaq olan səy və iqtisadiyyat puç və dəyərsizdir.
3. Ticarət və iqtisadiyyatda böyük büdrəmələr təhlükəsi var.
4. İman və iradə güclü olduqda yayındırıcı vasitələr təsirsiz qalır.
5. Müsəlman bazarında namaz vaxtı iş dayandırılmalıdır.
6. İslam baxımından təkcə məkruh və haram yox, həm də halal və mübah işlər insanı Allah zikrindən yayındırmamalıdır.
7. Ticarətdən uzaqlıq dəyər sayılmır, əslində Allah zikri, namaz və zəkatla müşayiət olunan ticarət dəyərlidir. (İlahi insanlar həm maddi ehtiyacların təmini üçün çalışır, həm də axirətdən qəflətdə qalmırlar.)
8. Axirətə iman insanın gözündə dünyanı kiçildir.
9. Namaz Allah zikri olsa da, böyük əhəmiyyət daşıdığından Allah zikri təbiri ilə yanaşı ayrıca qeyd olunur.
10. Namaz və zəkat yanaşı faydalıdır. Hər iki ilahi hökmə əməl edən tacirlər tərifə layiqdirlər.
11. Dünya sizi axirətdən qəflətdə saxlamasın.
12. Qiyamətdə gözlər bəzən iti, bəzən müti, qəlblər isə pərişan olur. Qiyamət qorxulu, hövlnak bir səhnədir.
13. Qiyamətdə meyarlar dəyişir. Dünyada gözü və qəlbi oxşayan şey axirətdə başqa şəkil alır. (Bu gün həsrətlə sorağına getdiyimiz şeydən sabahı gün baş götürüb qaçasıyıq.)

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Təfsire-Nurus-səqəleyn”.

*AYƏ 38:*

﴿لِيَجْزِيَهُمُ اللَّهُ أَحْسَنَ مَا عَمِلُوا وَيَزِيدَهُم مِّن فَضْلِهِ وَاللَّهُ يَرْزُقُ مَن يَشَاء بِغَيْرِ حِسَابٍ﴾

**"(Qorxub-çəkinmələrinin səbəbi budur ki,) Allah onlara gördükləri işdən daha yaxşı mükafat versin, Öz fəzl və rəhməti ilə mükafatlarını artırsın. Allah istədiyi kəsə hesabsız ruzi verər."**

**Bildirişlər**

1. Allah ilahi insanların əməllərinin nöqsanını aradan qaldırar və onlara kamil mükafat verər.
2. İlahi insanlar daim inkişaf edər, onların vücud yönümləri güclənər.
3. Mükafat verəndə əməldən üstün mükafat verin. (İslamda tövsiyə olunur ki, muzdu müəyyənləşdirin, amma həmin miqdardan artıq verin.)
4. Əgər dünyada alış-veriş qazancından keçsəniz, hesabsız axirət faydasına çatarsınız. (Hesabsız dedikdə bol və gözlənilməyən mükafat nəzərdə tutulur.)

*AYƏ 39:*

﴿وَالَّذِينَ كَفَرُوا أَعْمَالُهُمْ كَسَرَابٍ بِقِيعَةٍ يَحْسَبُهُ الظَّمْآنُ مَاء حَتَّى إِذَا جَاءهُ لَمْ يَجِدْهُ شَيْئًا وَوَجَدَ اللَّهَ عِندَهُ فَوَفَّاهُ حِسَابَهُ وَاللَّهُ سَرِيعُ الْحِسَابِ﴾

**"Kafir olanların əməlləri biyabandakı ilğım kimidir. Təşnə (susuz) insan onun su olduğunu düşünər. Elə ki, sorağınca gəldi, onun bir şey olmadığını bilər. Amma onun hesabını əskiltmədən verən Allahı hazır gördü. Allah tez hesab çəkəndir."**

**Nöqtələr**

●"Qiə" dedikdə hamar və geniş yer nəzərdə tutulur. Çox susuz adama "zəman" deyilir. "Vəffa" dedikdə kamil, əskildilməmiş mükafat mənası anlaşılır.

**Bildirişlər**

1. İman əməlin qəbul şərtidir. İnsanın xoşbəxtliyi də imandan asılıdır. (Küfr əməlin puça çıxma səbəbidir.)
2. Kafirlərin əməlləri aldadıcıdır. Əməllərin görüntüsünə və zahiri sələrə yox, məqsədə diqqət yetirin.
3. Təlim-tərbiyədə misallardan, təşbehlərdən istifadə etmək faydalıdır.
4. Qiyamət həqiqətin üzə çıxdığı gündür.
5. Bütün insanların fitrətində xoşbəxtlik istəyi var. Bütün hərəkətlərdə məqsəd xeyirə çatmaqdır. Amma insanlar həqiqi xoşbəxtliyi tanıya bilmir, xəyal ardınca gedirlər.
6. Kafirlərin Qiyamətdə heç bir sərmayələri yoxdur.

7. İnsanın əqidəsindən əlavə, əməlləri də onun xoşbəxtliyini müəyyənləşdirən amildir.

8. Bir gün bütün insanlar Allaha inanasıdırlar.

9. Qiyamətdə insanlarla kamil, dəqiq və iti hesab aparılar. (Dünya hesabı isə ya dəqiq olmur, ya kamil olmur, ya da yubanır.)

***AYƏ 40:***

﴿أَوْ كَظُلُمَاتٍ فِي بَحْرٍ لُّجِّيٍّ يَغْشَاهُ مَوْجٌ مِّن فَوْقِهِ مَوْجٌ مِّن فَوْقِهِ سَحَابٌ ظُلُمَاتٌ بَعْضُهَا فَوْقَ بَعْضٍ إِذَا أَخْرَجَ يَدَهُ لَمْ يَكَدْ يَرَاهَا وَمَن لَّمْ يَجْعَلِ اللَّهُ لَهُ نُورًا فَمَا لَهُ مِن نُّورٍ﴾

**“(Kafirlərin əməlləri) dərin və təlatümlü dəryanın zülməti kimidir. Böyük bir dalğa onun üstünü örtər. O dalğanın üstündən başqa böyük bir dalğa gələr və bu dalğanın üzərində bulud dayanar. Bu, iç-içə bir zülmətdir. Elə ki, əlini (qurtuluş üçün) çıxarar, kimsə onu görməz. Allah kimə nur verməsə, onun üçün heç bir nur tapılmaz.”**

**Nöqtələr**

●Adi və sıravi bir kafir İslamdan çox uzaq düşməyib və onun qayıdışına ümid var. İki nəfər arasındakı ötəri inciklik və tezliklə əldə olunan barışıq buna misal ola bilər. Amma küfr yolunda qan-tər axıtmış kafirlərin geri qayıdışı çox çətindir. Öz mövqeyində inadkarlıq göstərib haqqı təhqir edən, savaşlar qızışdıran, böyük büdcələr xərcləyən, ətrafına adam toplayan kafirlərin İslama dönüşü mümkünsüz görünür. Çünki belə bir insanın hər səyi zülmət dalğası üzərinə zülmət dalğası gətirir və küfr mövqeyini daha da möhkəmləndirir.

●Kafirlərin əməlləri qurtuluş yolu açmaq əvəzinə onları daha da azdırır, örtük üzərindən örtük olur.[1]

**Bildirişlər**

1. Nümunələr göstərərkən müsbət və mənfi nümunələrə müraciət olunmalıdır.

2. 35-ci ayədə ilahi nurdan danışıldıqdan sonra, bu ayədə küfrlə bağlı zülmət üzərindən zülmətdən söz açılır.

3. Mömininin hər əməli nur, kafirin hər əməli zülmətdir.

4. Kafirlərin yaxşı əməlləri ilğım, pis əməlləri zülmətdir.

5. Elm və düşüncə insanı ilahi nurdan ehtiyacsız etmir. İlahi nurdan savay heç bir nur insanı xilas etmək gücündə deyil.

---

[1] “Bəqərə”, 257.

*AYƏ 41:*

﴿أَلَمْ تَرَ أَنَّ اللَّهَ يُسَبِّحُ لَهُ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَالطَّيْرُ صَافَّاتٍ كُلٌّ قَدْ عَلِمَ صَلَاتَهُ وَتَسْبِيحَهُ وَاللَّهُ عَلِيمٌ بِمَا يَفْعَلُونَ﴾

**“Görmədinmi ki, göylərdə və yerdə olan hər kəs, qanad çalan quşlar Allaha təsbih söyləyir və hər biri öz dua və təsbihini bilir?! Allah onların gördüyü işlərdən xəbərdardır.”**

*AYƏ 42:*

﴿وَلِلَّهِ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَإِلَى اللَّهِ الْمَصِيرُ﴾

**“Göylərin, yerin hökmü Allaha məxsusdur və qayıdış Ona doğrudur.”**

**Nöqtələr**

●Ayə zahirən tərcümə olunduğu kimidir. Amma ayədəki “əlimə” feli Allaha da aid ola bilər. Bu halda ayə belə tərcümə olunmalıdır: “Allah bütün mövcudların dua və təsbihini bilir.”

●Quran mövcudların təsbihi, səcdəsi, ibadəti məsələsinə dəfələrlə işarə etmişdir. Bəzən bildirilir ki, siz onların təsbihini anlamırsınız.[1] Bu ayələrdən məlum olur ki, elm və şüur təkcə insanlara aid deyil. Bəziləri mövcudların təsbihini təkvini, hal dili ilə təsbih kimi qəbul etsə də, ayələrin zahirindən belə görünmür.

●Allah-təala bu ayədə bir neçə dəfə dolayısı ilə insana xəbərdarlıq edib:

a) Göy və yerin mövcudları, quşlar Allaha təsbih halındadır. Nə üçün insan qafildir?!

b) Mövcudların təsbihi, həmd-sənası agahcasınadır. Nə üçün insanda qəlb iştirakı yoxdur?!

v) Quşlar pərvaz vaxtı dua və təsbih edir. Amma bəzi insanlar havaya qalxıb məzlumların başına bomba yağdırır, ya da qəflət və məstlik halında yaşayırlar!

●Rəvayətdə oxuyuruq: “İmam Sadiq (ə) sərçə səsi eşidib buyurdu: “Bu quş dua və təsbihə məşğuldur.”[2]

**Bildirişlər**

1. Təkcə özünüz haqqında düşünməyin, ətrafa nəzər salıb varlıq aləmində də düşünün.

2. Başqalarını doğru yola çağıran insan özü dərin baxışa malik olmalıdır. Həzrət Peyğəmbər (s) mövcudların təsbihini görürdü.

---

[1] “İsra”, 44.

[2] “Təfsire-Kəbire-Fəxr Razi”. “Təfsire-Ruhul-bəyan”.

3. Varlıq aləmindəki mövcudlar arasında pərvaz halında olan quşlar Allaha daha çox diqqətlidirlər.

4. Bütün mövcudlar şüurludur, onların dua və təsbihi agahcasınadır.

5. Namaz o zaman dəyərli olur ki, namaz qılan şəxs nə dediyini və nə etdiyini bilsin.

6. Hər bir mövcudun namaz və təsbihi xüsusi bir şəkildədir.

7. Allah varlıq aləmindəki işlərin xırdalıqlarından xəbərdardır.

8. Varlıq aləminin həm hakimi var, həm də o, məqsədlidir.

*AYƏ 43:*

﴿أَلَمْ تَرَ أَنَّ اللَّهَ يُزْجِي سَحَابًا ثُمَّ يُؤَلِّفُ بَيْنَهُ ثُمَّ يَجْعَلُهُ رُكَامًا فَتَرَى الْوَدْقَ يَخْرُجُ
مِنْ خِلَالِهِ وَيُنَزِّلُ مِنَ السَّمَاء مِن جِبَالٍ فِيهَا مِن بَرَدٍ فَيُصِيبُ بِهِ مَن يَشَاء وَيَصْرِفُهُ
عَن مَّن يَشَاء يَكَادُ سَنَا بَرْقِهِ يَذْهَبُ بِالْأَبْصَارِ﴾

**"Görmədinmi ki, Allah buludları aramlıqla qovur, sonra onlar arasında əlaqə yaradır və bir yerə yığır?! Görürsənmi, onların arasından yağış yağar və Allah səmadakı dağ kimi buludlardan dolu tökər?! Ondan istədiyinə (zərər) yetirər və istədiyindən (zərəri) götürər. Həmin buludun şimşəyi az qalır gözləri kor edə."**

**Nöqtələr**

●"Yuzci" dedikdə qayıdışla müşayiət olunan ahəstə hərəkət mənası anlaşılır.

●"Rukam" sözü sıxılma, yığılma, "vədq" sözü yağış mənasını bildirir. "Səna" dedikdə parlama mənası anlaşılır. "Səna bərqihi", yəni şimşəyin parlaması.

●Təyyarə ilə havaya qalxıb buludları yuxarıdan aşağıya seyr edən insan onları dağ şəklində görür. Bu görüntü Quranın möcüzələrindəndir. Bəli, Quran 14 əsr öncə belə bir görüntü haqqında məlumat vermişdir.

**Bildirişlər**

1. Öz haqq sözünüzü nümunələr göstərməklə sübuta yetirin.

2. Varlıq aləminə diqqət Allahı tanımaq və Ona eşq üçün ən yaxşı yoldur.

3. Təbiət aləmindəki bütün hərəkətlər Allahın qüdrət və iradəsi ilə, hikmətli bir məqsədlə həyata keçir.

4. Təbii amillər Allahı əvəz etmir, sadəcə Onun iradəsinin gerçəkləşməsi üçün vasitədir.

5. Yağış və dolunun yağması, yağıntının xeyirli və ya zərərli olması Allahın iradəsindən asılıdır.

*AYƏ 44:*

﴿يُقَلِّبُ اللَّهُ اللَّيْلَ وَالنَّهَارَ إِنَّ فِي ذَلِكَ لَعِبْرَةً لِّأُوْلِي الْأَبْصَارِ﴾

**“Allah gecə-gündüzü yerbəyer edir. Həqiqətən, onda (qüdrət nümayişində) bəsirət əhli üçün ibrət var.”**

**Bildirişlər**

1. Gecə və gündüzün dəyişməsi, get-gəli təsadüfi deyil, dəqiq nizam əsasında qurulmuşdur.
2. Varlıq aləmindəki hadisələr ibrətamizdir. Onlar haqqında düşünün.
3. Bəsirət əhli olan kəs bütün zaman və məkanlardan ibrət götürə bilər.
4. Dərin düşüncə və səthi baxışdan uzaqlıq Quranın daimi göstərişlərindəndir.

***AYƏ 45:***

﴿وَاللَّهُ خَلَقَ كُلَّ دَابَّةٍ مِن مَّاء فَمِنْهُم مَّن يَمْشِي عَلَى بَطْنِهِ وَمِنْهُم مَّن يَمْشِي عَلَى رِجْلَيْنِ وَمِنْهُم مَّن يَمْشِي عَلَى أَرْبَعٍ يَخْلُقُ اللَّهُ مَا يَشَاء إِنَّ اللَّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Allah hər bir canlını sudan yaratdı. Onlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki, bəzisi dörd ayaq üstə hərəkət edir. Allah istədiyini yaradır. Çünki Allah hər şeyə qadirdir.”**

**Nöqtələr**

●Allah-təala bu ayədə müxtəlif canlıları yada salır: sürünənlər, dördayaqlılar, quşlar.

●Heyvanların vücudu haqqında düşüncə Allahı tanımaq istiqamətində bir addımdır. Həzrət Əli (ə) “Nəhcül-bəlağə”də tovuz quşu və qarışqa kimi bəzi canlılardan danışır.

●Bu ayə əvvəlki ayənin davamıdır. Yəni gecə-gündüzün yerdəyişməsi ibrət olduğu kimi, müxtəlif canlıların sudan yaranışı da bir ibrətdir.

●Ayədə belə bir məna da nəzərdə tutula bilər ki, Allah canlıların müxtəlif növlərini müxtəlif sulardan və münasib mayelərdən yaratdı.[1]

**Bildirişlər**

1. Bütün canlılar onun istəyi ilə yaradılmışdır.
2. İnsan mənəvi inkişafda olmasa, öz zahiri hərəkətləri ilə heyvandan fərqlənməz.
3. Bütün canlılar üçün ilkin maddə sudur. Sadə bir maddədən çeşidli mövcudlar yaratmaq isə Allahın qüdrətini göstərir.

---

[1] “Təfsire-rahnoma”.

*AYƏ 46:*

﴿لَقَدْ أَنزَلْنَا آيَاتٍ مُّبَيِّنَاتٍ وَاللَّهُ يَهْدِي مَن يَشَاء إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**“Həqiqətən, Biz aydınladan ayələr nazil etdik. Allah istədiyi kəsi doğru yola yönəldər.”**

**Nöqtələr**

●Bəziləri “səbil” və “təriq” sözlərini “sirat” sözündən fərqləndirərək bildirirlər ki, “sirat” dedikdə heç bir dolaması və çala-çökəyi olmayan hamar yol nəzərdə tutulur.[1]

**Bildirişlər**

1. Allah açıq-aydın ayələr göndərməklə höccəti tamamlamış, son xəbərdarlıq etmişdir.
2. Hidayət Allahın işidir, ilahi ayələr isə hidayət üçün vasitədir.

*AYƏ 47:*

﴿وَيَقُولُونَ آمَنَّا بِاللَّهِ وَبِالرَّسُولِ وَأَطَعْنَا ثُمَّ يَتَوَلَّى فَرِيقٌ مِّنْهُم مِّن بَعْدِ ذَلِكَ وَمَا أُوْلَئِكَ بِالْمُؤْمِنِينَ﴾

**“Deyirlər: “Biz Allaha və Onun rəsuluna iman gətirdik, tabe olduq.” Amma onlardan bir qrupu bu etirafdan sonra arxa çevirər. Onlar həqiqi mömin deyildirlər.”**

**Nöqtələr**

●Bu və bundan sonrakı ayələr Mədinə münafiqləri haqqındadır. Onlar sözdə Peyğəmbərə (s) yardımçı olduqlarını iddia edir, əməldə müxalifətdə dayanırdılar.

**Bildirişlər**

1. Gözəl və aldadıcı şüarlara uymayaq, iman və sabitqədəmlik lazımdır.
2. Münafiqlər imanlı olduqlarını təkrar-təkrar iddia edir və təkidlə açıqlayırdılar.
3. Əhdi pozan şəxsin dini yoxdur.
4. İman əməldən ayrı deyil. (Hətta münafiqlər də imanı itaətdən fərqləndirmir, sadəcə, əməldə etinasızlıq göstərirdilər.)

*AYƏ 48:*

﴿وَإِذَا دُعُوا إِلَى اللَّهِ وَرَسُولِهِ لِيَحْكُمَ بَيْنَهُمْ إِذَا فَرِيقٌ مِّنْهُم مُّعْرِضُونَ﴾

---

[1] “Füruği-əl-lüğət”.

**“Nə vaxt Allah və Onun rəsuluna doğru çağırılırlar ki, peyğəmbər onların arasında mühakimə aparsın, həmin vaxt onlardan bir qrupu üz çevirər.”**

**Nöqtələr**

●Peyğəmbərin mühakimə və hökmü Allah hökmünün bəyanından başqa bir şey deyil. “Nisa” surəsinin 105-ci ayəsində oxuyuruq: “İnsanlar arasında Allahın sənə öyrətdiyi əsasında hökm ver.”

**Bildirişlər**

1. Peyğəmbər hökmünün qəbulu gerçək iman, bu hökmə müxalifət nifaq nişanəsidir.
2. Mühakimə peyğəmbərlik şənindəndir.
3. Peyğəmbərin hökmü eynən Allahın hökmüdür.
4. Tənqid edərkən insaflı olun, ağı qaraya qatmayın.
5. Ədalətli mühakimə bir qrup insana xoş gəlmir.

***AYƏ 49:***

﴿وَإِن يَكُن لَّهُمُ الْحَقُّ يَأْتُوا إِلَيْهِ مُذْعِنِينَ﴾

**“Haqq onların xeyrinə olsa, razılıq və təslimçiliklə peyğəmbərə doğru gələrlər.”**

***AYƏ 50:***

﴿أَفِي قُلُوبِهِم مَّرَضٌ أَمِ ارْتَابُوا أَمْ يَخَافُونَ أَن يَحِيفَ اللَّهُ عَلَيْهِمْ وَرَسُولُهُ بَلْ أُوْلَئِكَ هُمُ الظَّالِمُونَ﴾

**“Görün onların qəlbində xəstəlik var, yoxsa şəkkə düşüblər? Bəlkə qorxurlar ki, Allah və Onun rəsulu bunların haqqını zaya çıxara? (Xeyr!) Onlar həmin zalımlardır.”**

**Nöqtələr**

●“Həyf” sözü orta həddən çıxmaq mənasını bildirir.

**Bildirişlər**

1. Hər marağa və məhəbbətə etibar etməyin. (Onlar peyğəmbərin sorağına gəlirdilər, amma ilahi hökm yox, fayda əldə etmək üçün!)
2. Münafiq münasib fürsət güdür və hər görüşdə fayda axtarır.
3. Həzrət Peyğəmbər (s) münafiqlərin xeyrinə olsa belə, haqq əsasında hökm edirdi.
4. İmansızlıq ruhi bir xəstəlikdir.
5. Peyğəmbər hökmünə etirazın üç səbəbi ola bilər: ruhi xəstəlik, tərəddüd və sui-zənn (bədgümanlıq.)

6. Allaha qarşı şəkk və sui-zənn zülmdür. (Bu zülm insanın özünə, ətrafındakılara və peyğəmbərlərə qarşı yönəlmişdir.)

*AYƏ 51:*

﴿إِنَّمَا كَانَ قَوْلَ الْمُؤْمِنِينَ إِذَا دُعُوا إِلَى اللَّهِ وَرَسُولِهِ لِيَحْكُمَ بَيْنَهُمْ أَن يَقُولُوا سَمِعْنَا وَأَطَعْنَا وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ﴾

**“(Amma) möminlər aralarında mühakimə üçün Allah və peyğəmbərə doğru çağırıldıqda sözləri yalnız bu olur: “Eşitdik və itaət etdik.” Onlar həmin nicat tapanlardır.”**

**Nöqtələr**

●Ötən dörd ayədə münafiqlərin İslam Peyğəmbərinin (s) mühakiməsinə münasibəti açıqlandı. Bu ayədə isə uyğun mühakiməyə möminlərin münasibətindən danışılır. Bu bildirişlər əsasında xalq hansı dəstədən olduğunu müəyyənləşdirməlidir.

**Bildirişlər**

1. Möminin sözü və tutduğu yol birdir.
2. Haqq qarşısında təslimçilik möminlərin daimi qaydasıdır.
3. Mömin dəvət edənə yox, dəvət olunduğu yola diqqətlidir.
4. Mömin üçün ən mühüm iş ilahi vəzifəsinə əməl etmək, Allah və Onun rəsulunun mühakiməsinin qəbuludur. (Bu mühakimə onun həm xeyrinə, həm də zərərinə ola bilər.)
5. Mühakimə peyğəmbərlik şənindəndir.
6. Mühüm məsələ təkcə eşitmək yox, həm də əməl etməkdir.
7. Həqiqi möminlər peyğəmbərə agahlıqla itaət edirlər.
8. İnsan Allah qarşısında təslim olub Ona itaət göstərməklə doğru yola yetişir.
9. Dindarlıq Allah və Onun rəsulunun mühakiməsinə münasibətdə müəyyənləşən səciyyədir.

*AYƏ 52:*

﴿وَمَن يُطِعِ اللَّهَ وَرَسُولَهُ وَيَخْشَ اللَّهَ وَيَتَّقْهِ فَأُوْلَئِكَ هُمُ الْفَائِزُونَ﴾

**“Allaha və Onun rəsuluna itaət edən, Allahdan qorxub-çəkinənlər həmin nicat tapanlardır.”**

**Nöqtələr**

●Fəxr Razi öz təfsirində deyir: “Qurtuluş üç şeydədir:

1. Şadlıq və qəm-qüssə zamanı Allah və Onun rəsuluna itaət;
2. Keçmiş əməllərə görə Allahdan qorxmaq;

3. Ömrün qalan hissəsində təqvaya riayət;

**Bildirişlər**

1. Xoşbəxtlik irqdən, millətdən, yaşdan, cinsdən asılı deyil. Yalnız Allaha təslim olanlar nicat tapır.
2. Peyğəmbər məsumdur. Çünki ona qeyd-şərtsiz itaət göstərişi verilmişdir.
3. Daxili "xəşyət" (əzəmət qorxusu) və zahiri çəkinmə bir dəyərdir.
4. İnsan həm Allaha, həm də Onun rəsuluna itaət etməlidir. Bu istiqamətdə qürura yer yoxdur, xəşyət və təqva ruhiyyəsi hakim olmalıdır.
5. Təqva yolunu seçmiş və Allahdan qorxan möminlər Allah və Onun rəsuluna tabedirlər və hökmən nicat tapasıdırlar.

*AYƏ 53:*

﴿وَأَقْسَمُوا بِاللَّهِ جَهْدَ أَيْمَانِهِمْ لَئِنْ أَمَرْتَهُمْ لَيَخْرُجُنَّ قُل لَّا تُقْسِمُوا طَاعَةٌ مَّعْرُوفَةٌ
إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا تَعْمَلُونَ﴾

**"Allah adına ən möhkəm andlarını içdilər ki, əgər göstəriş versən, hökmən (cihad üçün) evdən çıxarlar. De ki, and içməyin, bəyənilmiş itaət (boş-boş danışıqlardan yaxşıdır). Əlbəttə, Allah gördüyünüz işlərdən agahdır."**

**Nöqtələr**

●Ayə belə mənalandırıla bilər ki, and içməyin, sizin itaətiniz hamıya məlumdur, mənfi keçmişiniz var. Ayəni başqa cür də mənalandırmaq olar: Bizim üçün ən düzü dil andları yox, əməldə itaətdir.

**Bildirişlər**

1. Hər anda əmin olmayın. Çünki münafiqlər müqəddəsliklərdən sui-istifadə edirlər.
2. İçiboş insan özünü daha çox göstərməyə can atır.
3. Müsəlmanlıq təkcə sözdə yox, həm də əməldədir.
4. Münafiqlərin andını rədd etməklə onların sui-istifadəsinin qarşısını alın.
5. Allah münafiqləri onların danışıq və rəftarlarından xəbərdar olması ilə hədələyir.

*AYƏ 54:*

﴿قُلْ أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ فَإِن تَوَلَّوْا فَإِنَّمَا عَلَيْهِ مَا حُمِّلَ وَعَلَيْكُم مَّا
حُمِّلْتُمْ وَإِن تُطِيعُوهُ تَهْتَدُوا وَمَا عَلَى الرَّسُولِ إِلَّا الْبَلَاغُ الْمُبِينُ﴾

**"De ki, itaət edin Allaha, itaət edin peyğəmbərə. Əgər boyun qaçırsanız (ona bir zərər gəlməz). Onun işi yalnız öz öhdəsinə qoyulan, sizin işiniz isə sizin öhdənizə qoyulandır. İtaət etsəniz hidayət taparsınız. Peyğəmbərin aşkar təbliğdən savay məsuliyyəti yoxdur."**

**Nöqtələr**

●“İtaət edin” əmrinin iki dəfə təkrarlanması göstərir ki, Peyğəmbərin (s) iki şəni olmuşdur: İlahi vəhyin bəyanı və hökumətlə bağlı göstərişlər.

●Quranda belə hallarla rastlaşmaq olar ki, Allahın iki göstərişi yanaşı zikr olunur. Bu göstərişlərin hər ikisinə əməl olunmalıdır və onlardan birinə əməl olunması məqbul sayılmır. İman və əməl göstərişi buna misal ola bilər.

–Namaz və zəkat;

–Allah və valideynə təşəkkür;

–Allaha və Onun rəsuluna itaət;

●Quranda “fə in təvəlləv” cümləsi dəfələrlə işlədilmişdir. Hər dəfə Peyğəmbərə (s) təsəlli verilir ki, xalqın etinasızlığı onu təbliğdə həvəsdən salmasın.

**Bildirişlər**

1. Peyğəmbərə əmr olunub ki, münafiqləri itaətə dəvət etsin.
2. Peyğəmbərin əmr və qadağalarına itaət Allaha itaət qədər vacibdir.
3. Peyğəmbərin göstərişləri Allahın əmrlərinə uyğundur. Allah buyurmayıb ki, Mənə və Mənə zidd göstərişlərə itaət edin.
4. Xalqın peyğəmbər göstərişlərinə itaət edib-etməməsi o böyük elçilərin vəzifəsinə təsirsizdir.
5. Hər fərdin vəzifəsi onun özünə aiddir.
6. İnsan itaət sayəsində hidayət olur, doğru yolu tapır.
7. Peyğəmbərlərin işi xalqı məcbur etmək yox, doğru yola çağırmaqdır. Bəli, xalqın qəbul etməməsi təbliğçinin susmasına dəlil ola bilməz.

***AYƏ 55:***

﴿وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُوا مِنكُمْ وَعَمِلُوا الصَّالِحَاتِ لَيَسْتَخْلِفَنَّهُم فِي الْأَرْضِ كَمَا اسْتَخْلَفَ الَّذِينَ مِن قَبْلِهِمْ وَلَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمُ الَّذِي ارْتَضَى لَهُمْ وَلَيُبَدِّلَنَّهُم مِّن بَعْدِ خَوْفِهِمْ أَمْنًا يَعْبُدُونَنِي لَا يُشْرِكُونَ بِي شَيْئًا وَمَن كَفَرَ بَعْدَ ذَلِكَ فَأُوْلَئِكَ هُمُ الْفَاسِقُونَ﴾

**“Allah sizlərdən iman gətirib saleh işlər görənlərə vəd etmişdir ki, onlardan öncə bəzilərini canişin etdiyi kimi, onları da yer üzündə canişin qərar versin, onlar üçün bəyəndiyi dini hökmən möhkəmləndirsin, qorxudan sonra onlar üçün əmin-amanlıq gətirsin. Belə ki, (yalnız) Mənə pərəstiş etsinlər və Mənə şərik qoşmasınlar. Bundan sonra kimlər küfrə uğrasa, əsil fasiqlər də onlardır.”**

**Nöqtələr**

●İmam Səccad (ə), İmam Baqir (ə) və İmam Sadiqdən (ə) nəql olunmuş çoxsaylı rəvayətlərdə oxuyuruq: «Bu ayənin kamil nümunəsi həzrət Mehdinin (ə) hakimiyyət günüdür.»[1]

●Quranda salehlərin sonda hakimiyyətinə dəfələrlə işarə olunmuşdur. Üç ayədə belə buyurulur: «İslam bütün dinlərə qalib gələcək.»[2] Digər bir ayədə oxuyuruq: «Yer üzündə Mənim saleh bəndələrim varis olaqcaq.»[3] Qurani-Kərimdə sonda hakimiyyətin təqva əhlinə məxsus olacağı vəd olunur.[4]

●Ayədə möminlərin canişinliyi deyərkən ya Allah tərəfindən canişinlik, ya da həlak edilmiş qövmlər tərəfindən canişinlik nəzərdə tutulur.

●Qurtəbi öz təfsirində İslamın tam qələbəsi ilə bağlı bir neçə hədis nəql edir. Bildirir ki, yer üzündə İslamın daxil olmadığı bircə ev qalmayacaq.

●Həzrət Peyğəmbər (s) son Həcc səfərində Məkkədən geri dönərkən Qədiri-Xum adlı məntəqədə Allahın əmri ilə Həzrət Əlini (ə) özünə canişin təyin etdi. Ayə nazil oldu ki, «bu gün Mən sizin üçün İslamı bəyəndim.»[5] Bu ayədə də dinin qələbəsi ilə bağlı Allahın vədi bəyan olunur. Allahın bəyənib elan etdiyi din həmin Qədiri-Xum məktəbidir.

**Bildirişlər**

1. İslam gələcəyin dinidir. Tarix möminlərin qələbəsi və kafirlərin məğlubiyyəti ilə başa çatasıdır.
2. Təzyiqlər və çətinliklər məyus etməsin deyə, məhrum möminlərə ümid verin.
3. Əhatəli haqq hakimiyyətin əldə edilməsinin açarı və ləyaqət rəmzi yalnız iman və saleh əməldir. Təkcə iman yox, imanla yanaşı saleh əməli olanlara qələbə vəd olunmuşdur.
4. Din siyasətdən ayrı deyil. Əksinə, siyasət və hökumət dinin hifzi üçündür.
5. Xalqa təbliğ və xalqın hidayəti yolunda qarşı tərəfi inandırmaq üçün tarixdən nümunələr bəyan etmək faydalıdır.
6. Haqq əhlinin sonda qələbəsi ilahi bir sünnədir.
7. İman əhlinin qələbəsi və hakimiyyətində məqsəd yer üzündə ilahi dini möhkəmləndirmək və kamil tövhidə, əmin-amanlığa çatmaqdır.
8. Tarixi hadisələrdə Allahın iradəsini görək.
9. İslam dini Allahın razı olduğu yeganə dindir.
10. Gerçək əmin-amanlıq din sayəsində əldə olunur.
11. İslam cəmiyyətindəki əmin-amanlıq ibadət üçün münasib şərait yardır. (İlahi vədlərin son məqsədi xaliscəsinə ibadətdir.)

---

[1] "Təfsire-Nurus-səqələyn".
[2] "Tövbə", 33; "Fəth", 28; "Səff", 9.
[3] "Ənbiya", 105.
[4] "Taha", 132; Əraf", 128.
[5] "Maidə", 3.

12. İstənilən növ şirkdən uzaq ibadət kamil olur.
13. Salehlərin hökumətində də bir qrup yolunu azacaq.

*AYƏ 56:*

﴿وَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ وَأَطِيعُوا الرَّسُولَ لَعَلَّكُمْ تُرْحَمُونَ﴾

**“Namaz qılın, zəkat ödəyin və peyğəmbərə tabe olun. Ola bilsin ki, sizə rəhm edilə.”**

*AYƏ 57:*

﴿لَا تَحْسَبَنَّ الَّذِينَ كَفَرُوا مُعْجِزِينَ فِي الْأَرْضِ وَمَأْوَاهُمُ النَّارُ وَلَبِئْسَ الْمَصِيرُ﴾

**“Heç vaxt düşünmə ki, kafirlər Bizi yer üzündə aciz və çarəsiz qoyarlar. Onların yeri oddur. Həqiqətən, çox pis sonluqdur.”**

**Nöqtələr**

●İmam Sadiq (ə) bu ayəni tilavət edib buyurdu: “Fitrə zəkatı ayədəki zəkatın bir nümunəsidir və vacibdir.”[1]

●Ola bilsin ki, bu ayədə ötən ayədən sonra ortaya çıxan suala cavab verilmişdir. Soruşulurdu ki, müxaliflər bir bu qədər güclü ikən hansı əsasla Allah möminlərə yer üzünün hakimiyyətini vəd edir? Ayədə buyuruldu ki, şübhə etmə, müxaliflər yer üzünün heç bir nöqtəsində Allahın iradəsinə və yoluna maneçilik törədə bilməzlər. Düşmənlərin istək və gümanının əksinə olaraq, bir gün yer üzündə imam Mehdinin (ə) hökuməti qurulasıdır.[2]

**Bildirişlər**

1. Namaz, zəkat və ilahi rəhbərə itaət iman və saleh əməlin bariz nümunələridir. Ötən ayədə iman və saleh əməl sahiblərinə hakimiyyət vəd olundu.
2. İslamda ibadi, iqtisadi, siyasi məsələlər bir-birindən təcrid olunmayıb.
3. İlahi vədlər rahattələbliyə səbəb olmasın!
4. Allaha və Onun rəsuluna itaət ilahi rəhmətə yetişmək şərtidir.
5. Kafirlər çox qüdrətli olsalar da, Allahın dini ilə mübarizədə məğlubiyyətə uğrayasıdırlar.

*AYƏ 58:*

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لِيَسْتَأْذِنكُمُ الَّذِينَ مَلَكَتْ أَيْمَانُكُمْ وَالَّذِينَ لَمْ يَبْلُغُوا الْحُلُمَ مِنكُمْ ثَلَاثَ مَرَّاتٍ مِن قَبْلِ صَلَاةِ الْفَجْرِ وَحِينَ تَضَعُونَ ثِيَابَكُم مِّنَ الظَّهِيرَةِ وَمِن

---

[1] “Bihar”, c. 93, s. 104.
[2] “Təfsire-əl-mizan”.

بَعْدِ صَلَاةِ الْعِشَاء ثَلَاثُ عَوْرَاتٍ لَّكُمْ لَيْسَ عَلَيْكُمْ وَلَا عَلَيْهِمْ جُنَاحٌ بَعْدَهُنَّ طَوَّافُونَ عَلَيْكُم بَعْضُكُمْ عَلَى بَعْضٍ كَذَلِكَ يُبَيِّنُ اللَّهُ لَكُمُ الْآيَاتِ وَاللَّهُ عَلِيمٌ حَكِيمٌ﴾

**“Ey iman gətirənlər! Sahibi olduğunuz qullar və sizin yetkinlik yaşına çatmayanlarınız (otağınıza daxil olmaq üçün) üç vaxtda sizdən icazə alsınlar: sübh namazından öncə, günorta libasınızı çıxardığınız vaxt və işa namazından sonra. Bu üç vaxt sizin üçün xəlvətə çəkilmə vaxtıdır. Qalan vaxtlarda icazəsiz daxil olmaq sizin üçün və onlar üçün günah deyil. Çünki onlar sizinlə daim get-gəldədir, bəzisi bəzisinin yanına daxil olur. Allah Öz ayələrini sizin üçün bu sayaq bəyan edir. Allah elm və hikmət sahibidir.”**

**Nöqtələr**

●Əgər bir daha surəyə onun ilk ayələrindən başlayaraq nəzər salsaq, görərik ki, ayədə çirkin işlərin qarşısını almaq yolu göstərilmişdir. Məsələn, bildirilir ki, zinakar qadın və kişini insanların gözü qarşısında tənbeh edin; onların izdivacını məhdudlaşdırın; dörd şahid olmadan ittiham irəli sürənə səksən qamçı vurun, Peyğəmbərin (s) zövcəsinə böhtan atanları böyük əzab gözləyir; böhtan eşitdikdə ona qarşı çıxın; çirkin sözü yaymağı sevənləri böyük əzab gözləyir; şeytanın addımlarını izləməyin; pak qadınlara böhtan atanları böyük əzab gözləyir, çirkin söz sizə yox, xəbis fərdlərə aiddir, başqalarının otağına xəbərdarlıqsız daxil olmayın və “çıxın” deyildikdə qəbul edib qayıdın; kişilər və qadınlar naməhrəmə göz dikməsinlər; qadınlar öz zinətlərini göstərməsinlər, ayaqlarını yerə döyəcləməsinlər, subayların izdivacı üçün addım atın, yoxsulluqdan qorxmayın... Hazırkı ayədə bəyan olunur ki, insanın xəlvətə çəkildiyi saatlarda hətta övladlar və qullar da xəbərdarlıqsız otağa daxil olmasınlar. Bəli, bu göstərişlərdə məqsəd çirkin işlərin, vaxtsız yetkinliyin qarşısını almaq, abır-həyanı qorumaqdır.

**Bildirişlər**

1. Mömin valideynlər övladlarına dini hökmləri öyrətməyə məsuldurlar.
2. Valideynin yataq yeri ayrıca, övladların gözündən uzaq olmalıdır. Əks-təqdirdə, otağa daxil olmaq üçün icazəyə ehtiyac qalmazdı.
3. Uşaq və ya qul olmaq başqalarının otağına icazəsiz giriş üçün dəlil deyil.
4. Kişi günün müəyyən saatlarını həyat yoldaşı üçün ayırmalıdır.
5. Uşaqların da vəzifəsi var.
6. İslam həyat dinidir və bütün sahələri əhatə edir. Bu dində valideynin otağına daxil olmaq kimi xırdalıqları və ümumdünya hökumətin təşkili kimi mühüm məsələləri əhatə edən proqramlar var.
7. Uşaqlar paklığı ailə mühitində öyrənməlidirlər.
8. Uşaqların tərbiyəsinə və onlara İslam qaydalarını təlim etməyə yetkinlikdən öncə başlamaq lazımdır.

9. Evdə iş və çöl paltarı istifadə olunmamalıdır.
10. Günortadan sonra və iş arası istirahət faydalı və münasibdir.
11. Müsəlmanlar günün saatlarını namaz vaxtları əsasında tənzimləməlidirlər.
12. Bütün ilahi hökmlər hikmətə əsaslanır.

### *AYƏ 59:*

﴿وَإِذَا بَلَغَ الْأَطْفَالُ مِنكُمُ الْحُلُمَ فَلْيَسْتَأْذِنُوا كَمَا اسْتَأْذَنَ الَّذِينَ مِن قَبْلِهِمْ كَذَلِكَ
يُبَيِّنُ اللَّهُ لَكُمْ آيَاتِهِ وَاللَّهُ عَلِيمٌ حَكِيمٌ﴾

**“Uşaqlarınız büluğ (yetkinlik) həddinə çatdığı vaxt öncə yetkinliyə çatmış böyüklər kimi (giriş üçün ) icazə almalıdırlar. Allah Öz ayələrini sizin üçün bu sayaq bəyan edir. Allah elm və bilik sahibidir.”**

**Nöqtələr**

●“Hulum” və “ehtilam” dedikdə yuxuda cünub olmaq (insandan sperma xaric olması) başa düşülür. Bu hal büluğ həddinin nişanələrindəndir. Qızların və oğlanların büluğ nişanələri fərqlidir və bu nişanələr risalələrdə bəyan olunmuşdur.

**Bildirişlər**

1. Ehtilam (yuxuda məni xaric olması) şəri büluğa çatma sərhəddidir.
2. Böyüklər və ətrafdakılar gənclər üçün nümunədirlər.
3. Övladlarınızı öz əməllərinizlə tərbiyə edin.
4. Övladlarınızın tərbiyəsində canlı nümunələrdən istifadə edin.
5. Abır-həya, iffətin qorunması istiqamətində müəyyənləşmiş ilahi göstərişlər agahlıq və hikmətə əsaslanır.

### *AYƏ 60:*

﴿وَالْقَوَاعِدُ مِنَ النِّسَاءِ اللَّاتِي لَا يَرْجُونَ نِكَاحًا فَلَيْسَ عَلَيْهِنَّ جُنَاحٌ أَن يَضَعْنَ
ثِيَابَهُنَّ غَيْرَ مُتَبَرِّجَاتٍ بِزِينَةٍ وَأَن يَسْتَعْفِفْنَ خَيْرٌ لَّهُنَّ وَاللَّهُ سَمِيعٌ عَلِيمٌ﴾

**“Ərə getmək ümidi olmayan yaşlı qadınlar zinətlərini göstərmədən örtüklərini yerə qoya bilərlər. İffətli olmaları isə onlar üçün daha yaxşıdır. Allah eşidən və biləndir.”**

**Nöqtələr**

●Quran ayələrindən məlum olur ki, hicab məsələsində meyar ehtirasın alovlanmasıdır. Çünki yalnız aşağıdakı hallar istisna olunmuşdur:

–Şəhvəti olmayan kəs;[1]

–Şəhvətlə bağlı biliyi olmayan uşaq;

–Həyat yoldaşınızla olduğunuz vaxt;[2]

–Ərə getməyə ümidi olmayan qadınlar.

Deməк, söhbət cinsi ehtirasın alovlanmasından və günahdan gedir. Əgər ən güzəştli hicab günahın qarşısını almırsa, qadınlar hicaba ciddi əməl etməlidirlər.

●Ayədə nəzərdə tutulmur ki, yaşlı qadınlar tamamilə hicabsız olsun. Söhbət yalnız çarşab kimi üst libasdan gedir. İmam Sadiq (ə) ayə haqqında buyurur: "Ayədə çılpaqlıq yox, üst örtüyün götürülməsi nəzərdə tutulur."[3]

●Hicab məsələsi İslamın sabit və zəruri hökmlərindəndər. Hicabın necəliyi isə ehtirasa təsir dərəcəsi ilə müəyyənləşir. Hicab cinsi ehtirası qızışdırmamalı, iffəti hifz etməlidir.

**Bildirişlər**

1. İslam qanunları gerçəkliyə, zəruri ehtiyaca və ictimai imkanlara uyğundur. (Ərə getməyə meyli olmayan və bəzənməyən yaşlı qadınlar üçün məsələ asanlaşdırılır.)
2. İstər yaşlı, istər gənc qadınlar bər-bəzəklərini və zinətlərini göstərməməlidirlər.
3. Hicabın yüngülləşdirilməsi üçün yaşlı olmaq bəs etmir, həm də izdivaca meyl olmamalıdır.
4. Hicab iffətin hifzi səbəbidir.
5. Hicab qadınların xeyrinədir.
6. Libasın tikilişi, rəngi iffətə uyğun seçilsə yaxşıdır.
7. Azadlıq verməklə yanaşı xəbərdarlıq da lazımdır. (İlahi hökmün rahatlığından sui-istifadə etdikdə unudulmamalıdır ki, Allah eşidən və biləndir, müxaliflərlə hesab çəkir)

[1] "Nur", 31.
[2] "Nur", 58.
[3] "Təfsire-Nurus-səqəleyn".

### *AYƏ 61:*

﴿لَيْسَ عَلَى الْأَعْمَى حَرَجٌ وَلَا عَلَى الْأَعْرَجِ حَرَجٌ وَلَا عَلَى الْمَرِيضِ حَرَجٌ وَلَا
عَلَى أَنفُسِكُمْ أَن تَأْكُلُوا مِن بُيُوتِكُمْ أَوْ بُيُوتِ آبَائِكُمْ أَوْ بُيُوتِ أُمَّهَاتِكُمْ أَوْ بُيُوتِ
إِخْوَانِكُمْ أَوْ بُيُوتِ أَخَوَاتِكُمْ أَوْ بُيُوتِ أَعْمَامِكُمْ أَوْ بُيُوتِ عَمَّاتِكُمْ أَوْ بُيُوتِ
أَخْوَالِكُمْ أَوْ بُيُوتِ خَالَاتِكُمْ أَوْ مَا مَلَكْتُم مَّفَاتِحَهُ أَوْ صَدِيقِكُمْ لَيْسَ عَلَيْكُمْ جُنَاحٌ
أَن تَأْكُلُوا جَمِيعًا أَوْ أَشْتَاتًا فَإِذَا دَخَلْتُم بُيُوتًا فَسَلِّمُوا عَلَى أَنفُسِكُمْ تَحِيَّةً مِّنْ عِندِ
اللَّهِ مُبَارَكَةً طَيِّبَةً كَذَلِكَ يُبَيِّنُ اللَّهُ لَكُمُ الْآيَاتِ لَعَلَّكُمْ تَعْقِلُونَ﴾

**“Öz evlərinizdə, atalarınızın evlərində, analarınızın evlərində, qardaşlarınızın evlərində, bacılarınızın evlərində, əmilərinizin evlərində, bibilərinizin evlərində, dayılarınızın evlərində, xalalarınızın evlərində açarı əlinizdə olan evlərdə, dostlarınızın evlərində kor, şikəst, xəstə şəxs və sizin özünüz üçün yemək yeməyin eybi yoxdur. Bir yerdə və ya ayrılıqda yemək də günah deyil. Evlərə daxil olduqda bir-birinizi salamlayın. Bu, ilahi bərəkət, mübarəklikdir. Allah öz ayələrini sizin üçün bu sayaq bəyan edir. Bəlkə düşünəsiniz.”**

**Nöqtələr**

●İmam Baqir (ə) buyurur: “İslamdan öncə korların, şikəstlərin və xəstələrin sağlam insanlarla bir süfrə arxasında əyləşməyə haqqı yox idi. Ayədə adı çəkilən şəxslərə sağlamlarla bir yerdə oturmaq icazəsi verilir. Əlbəttə, onlar istəsələr ayrı da otura bilərlər.[1] Bəli, cəmiyyətdə uyğun zümrənin şəxsiyyəti müdafiə olunmalıdır.

●Əlavə dəlillər olmazsa, ayədən belə görünə bilər ki, Allah korlar, şikəstlər və xəstələr üçün istənilən bir yerdə ehtiyacları olan qidadan yemək icazəsi vermişdir. Digərləri ilə yalnız sadalanmış hallarda süfrə arxasında otura bilərlər. (Belə bir nəticəni başqa bir yerdə görmədim. Əgər haqdırsa Allahdandır, batildirsə məndən!)

●Quran ümumi bir qanun bəyan edərək bildirir ki, kor, şikəst və xəstə fərdlər müəyyən yerlərdə qidalana bildiyi kimi, siz də ayədə göstərilən evlərdə süfrə arxasında otura bilərsiniz.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

●Bu ayədə yalnız yaxın qohumların evləri sadalanır və qayınatanın, qayınananın, qayın və baldızın adı çəkilmir.

●Ayədə yalnız qidadan istifadə etmək nəzərdə tutulur. Digər şeylərdən istifadə etmək üçün icazə almaq lazımdır. İmam Sadiq (ə) buyurur: "Ayədə xurma, çörək və xuruş yemək nəzərdə tutulmuşdur." Adı çəkilmiş on bir evdə yeyərkən israfa yol vermək olmaz.

●Ayədə zikr olunmuş hallarda ev sahibinin razılığından xəbərdar olmağımız yetər. Amma bəzən elə olur ki, sadalanan evlərdə süfrə arxasına oturmağımız razılıqla qarşılanmır. Məsələn, evdə olan hansısa qidanın süfrəyə gətirilməməsi narazılıq əlamətidir. Belə hallarda əl saxlamaq lazımdır.

●"Məcməül-bəyan" təfsirində oxuyuruq: "Ayənin ilkin hissəsi kor, şikəst və xəstələrin cihadda iştirakını üzürlü sayır. Ayənin növbəti hissəsi qidalanmaya aiddir."

●İmam Baqir (ə) buyurur: "Bir şəxs müəyyən evə daxil olub ev əhlinə salam versə və ev əhli onun salamını alsa, bu salam özü üçündür."

**Bildirişlər**

1. Başqalarını, xüsusi ilə məhrumları özümüzdən qabağa buraxaq.
2. İnsanın daxili hissləri hüquqi məsələlərə də təsir göstərir. (Qida ev sahibinin mülkü olsa da, İslam qohumluq əlaqələrini və daxili hissləri mülkiyyətdən üstün tutur.)
3. Həyat yoldaşı və övladın evi sizin öz evinizdir.[1] (Ola bilsin ki, övladın evi ilə bağlı heç bir sual yaranmadığından onun adı qeyd olunmamışdır. Hədisdə oxuyuruq: "Sən və sənin malın atana məxsussunuz.")
4. Məsrəf üçün möhkəm dəlillər və əqli yəqinlik bəs edir. (Məsələn, evin açarının verilməsi razılıq nişanəsidir)
5. İslamda dostun haqqı qohumun haqqı ilə yanaşı qeyd olunur. (Əflatundan soruşdular ki, qardaşını çox sevirsən, yoxsa dostunu? O dedi: "Mənə dost olan halda qardaşımı."[2]
6. Salam evə daxil olmaq ədəbidir.
7. Salam səmavi, mübarək və könül oxşayan bir ədəbdir.
8. Salam həyatın xeyir-bərəkətli olmasına təsirlidir.
9. Ev əhli sizin üçün canınız yerindədir.
10. Vəzifə və hüquqlar Allah tərəfindən təyin olunmalıdır.
11. İlahi hökmlər haqqında düşünmək lazımdır.

[1] "Təfsire-Əl-mizan".
[2] "Təfsire-Məraği".

### *AYƏ 62:*

﴿إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ آمَنُوا بِاللَّهِ وَرَسُولِهِ وَإِذَا كَانُوا مَعَهُ عَلَى أَمْرٍ جَامِعٍ لَمْ يَذْهَبُوا
حَتَّى يَسْتَأْذِنُوهُ إِنَّ الَّذِينَ يَسْتَأْذِنُونَكَ أُوْلَئِكَ الَّذِينَ يُؤْمِنُونَ بِاللَّهِ وَرَسُولِهِ فَإِذَا
اسْتَأْذَنُوكَ لِبَعْضِ شَأْنِهِمْ فَأْذَن لِّمَن شِئْتَ مِنْهُمْ وَاسْتَغْفِرْ لَهُمُ اللَّهَ إِنَّ اللَّهَ غَفُورٌ
رَّحِيمٌ﴾

**“Həqiqətən, möminlər yalnız o kəslərdir ki, Allah və Onun rəsuluna iman gətirmişlər, peyğəmbərlə müəyyən məsələdə bir araya gəldikdə ondan icazəsiz getməzlər. (Ey peyğəmbər,) Allah və Onun rəsuluna iman gətirənlər həmin icazə alanlardır. Əgər bəzi işlərdən ötrü səndən icazə istəsələr, istədiyin kəsə icazə ver və Allahdan onların bağışlanmasını dilə. Allah bağışlayan və mehribandır.”**

**Nöqtələr**

●Təfsir kitablarında ayənin nazilolma şəni haqqında müxtəlif fikirlər söylənilmişdir. Onlardan mühümlərini nəzərdən keçirək:

1. Bəziləri deyirlər ki, bu ayə Hənzələyə aiddir. Onun toy gecəsi cihad göstərişi verilmişdi. O, Peyğəmbərdən (s) icazə almaqla evinə getdi. Zifafdan sonra vaxt az olduğundan qüsl verməyib cəbhəyə yola düşdü və şəhadətə çatdı. Həzrət Peyğəmbər (s) buyurdu: “Mələklər ona qüsl verdilər.”

Allah həmin bir gecədən Hənzələyə bir övlad əta etdi. Tarixdə bu barədə ətraflı danışılır.[1]

2. Bəziləri bildirirlər ki, bu ayə münafiqlər haqqındadır. Onlar xalqla bir yerdə olduqda namaz qılır, təklikdə qaldıqda namazı tərk edirdilər.[2]

3. Başqa bir qrup bildirir ki, həzrət Peyğəmbərin (s) iş ardınca göndərdiyi bir dəstə öz şəxsi işlərinin ardınca getdi. Ayədə həmin məsələdən danışılır.

4. Belə bir fikir də var ki, ayə xəndək qazan müsəlmanlara aiddir. Onlar ailələrinə baş çəkmək üçün Peyğəmbərdən (s) icazə istəyirdilər.

**Bildirişlər**

1. Rəhbərə kömək üçün onun yanında qalmaq iman, onu tərk etmək nifaq və zəif iman nişanəsidir.
2. Həmfikirlik və məşvərət əsasında həll olunan təşkilat məsələlərində özünə güvənmək qadağandır.
3. İctimai həyatda rəhbərin varlığı və ona itaət zəruridir.
4. İman təslimçilik və itaətlə müşayiət olunmalıdır.

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Təfsire-Kəbire-Fəxr Razi”.

5. Rəhbərdən icazə alınması ədəb, ona təslimçilik rəhbər və nizama eşq göstəricisidir.

6. İctimai nizam və kütləvi işləri dəyərləndirmək lazımdır.

7. Bəzi məsələləri üstüörtülü demək lazımdır.

8. İslamda rəhbərlik məsləhət və mərhəmətlə müşayiət olunur.

9. Son söz rəhbərindir. (Cəmiyyətin ümumi məsələlərində Peyğəmbərin (s) xalq üzərində hakimiyyəti var.)

10. Rəhbər öz siyasətlərində həssas olmalı, həqiqəti görməlidir.

11. İlahi rəhbərlər üzrü qəbul edən və mehribandırlar.

12. Şəxsi işlər üçün Peyğəmbərin (s) icazəsi qadağanı götürür.

13. Ümumi işlərin gedişində hətta icazə ilə şəxsi məsələlərlə məşğulluq yaxşı deyil və bu hərəkətə görə üzrxahlıq lazımdır.

14. Peyğəmbərin (s) bağışlanma diləyi və duası qəbuldur.

### *AYƏ 63:*

﴿لَا تَجْعَلُوا دُعَاء الرَّسُولِ بَيْنَكُمْ كَدُعَاء بَعْضِكُم بَعْضًا قَدْ يَعْلَمُ اللَّهُ الَّذِينَ يَتَسَلَّلُونَ مِنكُمْ لِوَاذًا فَلْيَحْذَرِ الَّذِينَ يُخَالِفُونَ عَنْ أَمْرِهِ أَن تُصِيبَهُمْ فِتْنَةٌ أَوْ يُصِيبَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**“Peyğəmbəri bir-birinizi çağırdığınız kimi çağırmayın. Şübhəsiz, Allah sizlərdən kimin xəlvəti, başqasının arxasında gizlənərək səhnədən qaçdığını bilir. Onun göstərişindən çıxanlar onları yaxalayacaq fitnədən və ya düçar olacaqları dərdli əzabdan qorxmalıdırlar.”**

**Nöqtələr**

●“Təsəlləl” dedikdə xəlvəti aradan çıxmaq, “livaz” dedikdə başqasının arxasında gizlənmək nəzərdə tutulur. Münafiqlər bu sayaq hərəkət edirdilər.

●Ayənin mənası ilə bağlı dörd ehtimal var:

1. Peyğəmbəri başqaları kimi çağırmayın. Rəvayətdə oxuyuruq: “ya Məhəmməd”, “ya Əbül-Qasim” yox, “ya Rəsuləllah”, “ya Nəbiyəllah” deyə çağırın.”[1] Digər bir rəvayətdə bildirilir ki, bu ayə həzrətin canişinlərinə də aiddir.[2]

2. Peyğəmbər sizi cihad və namaz kimi işlərə çağırdıqda, hökmən itaət edin, onun dəvətinə yüngül yanaşmayın.

3. Peyğəmbəri çağırarkən fəryad çəkməyin.”[3]

4. Peyğəmbərin nifrin və duası qəbuldur, ehtiyatlı olun!

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

[2] “Bihar”, c. 23, s. 301.

[3] “Təfsire-Məcməül-bəyan”.

**Bildirişlər**

1. İlahi rəhbərlik möhtərəmdir, yüksək məqama malikdir. Həm onun adını hörmətlə çəkin, həm də bütün vücudunuzla ona təslim olun. Güman etməyin ki, onu başqaları kimi çağırmaq olar.

2. Allahın rəsuluna itaətsizlik Allaha itaətsizlikdir. (Ayənin əvvəlində Peyğəmbəri (s) çağırmaqdan, sonunda Allaha qarşı müxalifətdən danışılır.)

3. Rəhbərliyin göstərişinə diqqətsizlik fitnə və əzabla sonuclanır.

4. Allah göstərişinə müxaliflik ya dünyəvi fitnə, ya da axirət əzabı ilə başa çatır.

### *AYƏ 64:*

﴿أَلَا إِنَّ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَالْأَرْضِ قَدْ يَعْلَمُ مَا أَنتُمْ عَلَيْهِ وَيَوْمَ يُرْجَعُونَ إِلَيْهِ فَيُنَبِّئُهُم بِمَا عَمِلُوا وَاللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**“Agah ol! Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Şübhəsiz, O sizin nə düşündüyünüzü və Ona doğru qaytarılacağınız günü bilir. Belə ki, onlara nə iş gördüklərini bildirər. Allah hər şeydən agahdır.”**

**Bildirişlər**

1. Allah hər şeyə malik, bütün fikir və niyyətlərdən agahdır. Beləsə, ona qarşı günah və nifaq əmrlərinə müxalifətin nə faydası?!

2. Allahın düşüncə və əməllərdən xəbərdarlığına iman insanı pislikdən saxlayan vasitədir.

# “FURQAN” SURƏSİ

***(25-Cİ SURƏ, 77 AYƏ)***

***On səkkiz, on doqquzuncu cüzlər,***

## ***“FURQAN” SURƏSİNİN SİMASI***

Məkkədə nazil olmuş bu surənin 77 ayəsi var. Surənin birinci ayəsində Quran “Furqan” adlandırılır. “Furqan” dedikdə haqqı batildən ayıran nəzərdə tutulur. Surədə Quran “Furqan” adı ilə tanıtdırıldığından surə həmin adla adlandırılmışdır. Surədə müşriklərin bəhanələrindən, onlara verilən cavabdan, “Rəss” əshabı kimi qədim qövmlərin başına gələnlərdən, Qiyamətdə xalqın çəkəcəyi həsrətdən, təbiətdə tövhid və Allahın əzəmət nişanələrindən, möminlərin kafirlərlə müqayisəsindən danışan ayələr var. Amma surədəki ayələrin mühüm bir hissəsində “ibadur-rəhman” yəni Allahın həqiqi bəndələrinin xüsusiyyətləri haqqında danışılır. Bu mövzu surənin 63-cü ayəsindən sonunadək davam edir.

Ümid edək ki, uyğun ayələri oxuyub düşünməklə, bəyan olunan sifətlər əsasında rəftarımızı islah etməklə dünya və axirətdə ilahi lütflərdən faydalanmaq və behişti-əlaya daxil olmaq üçün zəmin yaradacağıq.

**Rəhman və rəhim Allahın adı ilə**

﴿بسم الله الرحمن الرحيم﴾

***AYƏ 1:***

﴿تَبَارَكَ الَّذِي نَزَّلَ الْفُرْقَانَ عَلَى عَبْدِهِ لِيَكُونَ لِلْعَالَمِينَ نَذِيرًا﴾

**“Aləmlərə xəbərdarlıq olsun deyə Quranı - haqqı batildən seçən vasitəni bəndəsinə nazil edən kəs uca və bərəkətlidir.”**

**Nöqtələr**

●“Təbarək” sözü “bərək” sözündən olub “sabit” mənasını, “bərəkət” sözündən olub “çoxlu xeyir” mənasını ifadə edə bilər. Yəni Quranı nazil edən kəs misilsiz xeyir qaynağıdır. Quranın nazil edilməsi onun xeyir-bərəkət nümunəsidir. Bəli, ilahi qanundan üstün hansı bərəkət ola bilər?! Bu qanunlar tarix boyu milyardlarla insanı zülmətlərdən nura hidayət etmişdir.

●Nazil olma “ənzəlna” qəlibində birdəfəyə göndərişi, “nəzzələ” qəlibində isə tədrici göndərişi bildirir. Quran hər iki şəkildə nazil olmuşdur: Bir dəfə qədr gecəsində bütövlüklə[1], digər dəfə 23 il ərzində tədricən.[2]

---

[1] “Qədr”, 1.
[2] “İsra”, 106.

**Bildirişlər**

1. Quran mübarək bir qaynaqdan nazil edilmişdir.
2. Həm təkvini nizam (təbii yaranış), həm də təşrii nizam (Quran və dini hökmlər) tərifəlayiqdir.
3. Quran tədricən nazil olmuşdur.
4. Quran haqqı batildən ayırmaq üçün ən üstün vasitədir.
5. Əgər səmavi kitablar və peyğəmbərlərin risaləti olmasaydı, insanlar qeyri-müəyyən vəziyyətdə qalardı.
6. Allaha bəndəlik vəhy əldə etmək üçün zəmindir.
7. İslam Peyğəmbərinin (s) risaləti ümumbəşəridir.
8. Peyğəmbərlərin vəzifəsi xəbərdarlıq etmək və qorxutmaqdır.

*AYƏ 2:*

﴿الَّذِي لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَلَمْ يَتَّخِذْ وَلَدًا وَلَمْ يَكُن لَّهُ شَرِيكٌ فِي
الْمُلْكِ وَخَلَقَ كُلَّ شَيْءٍ فَقَدَّرَهُ تَقْدِيرًا﴾

**“Göylərin və yerin hökmünə sahib Allah heç bir övlad götürməmişdir. Mülkündə Ona şərik yoxdur. Hər şeyi yaratmış və lazımınca ölçü götürmüşdür.”**

**Nöqtələr**

●Müşriklər, yəhudilər və məsihilər hərəsi bir şəkildə Allaha övlad aid etmiş, şərik qoşmuşlar. Qurani-Kərim bu xurafi əqidəni dəfələrlə, o cümlədən bu ayədə rədd etmişdir.

**Bildirişlər**

1. Varlıq aləminin hökmü Allaha məxsusdur. (Varlıq aləminə bir nizam, bir iradə və müdiriyyət hakimdir.)
2. Allah bütün varlıq aləminə eyni dərəcədə hakimdir.
3. Allah ehtiyacsızdır. (Övlad istəyi hansısa ehtiyaclardan yaranır. Varlığın hökmü əlində olanın nə ehtiyacı?!)
4. Bütün yaranmışlar vahid qüdrət çeşməsindən qaynaqlanmışlar.
5. Varlıq aləminin tədbiri onu yaradanın əlindədir.
6. Yaranışın hesab-kitabı var.
7. Varlıq aləmində çox dəqiq tədbir tökülmüşdür.

*AYƏ 3:*

﴿وَاتَّخَذُوا مِن دُونِهِ آلِهَةً لَّا يَخْلُقُونَ شَيْئًا وَهُمْ يُخْلَقُونَ وَلَا يَمْلِكُونَ لِأَنفُسِهِمْ
ضَرًّا وَلَا نَفْعًا وَلَا يَمْلِكُونَ مَوْتًا وَلَا حَيَاةً وَلَا نُشُورًا﴾

**“(Müşriklər) Onun (Allahın) yerinə heç bir şey yaratmamış və özü yaranmış məbudlar götürdülər. (Bu yalançı məbudlar) özləri üçün heç bir**

**zərər və fayda sahibi deyildirlər, (başqalarına) ölüm, həyat və Qiyamət haqları yoxdur.”**

**Bildirişlər**

1. Allahpərəstlik fitridir. Bir Allahdan üz çevirən insan yalançı tanrıların sorağınca gedir.
2. Müşriklərlə də dəlillər əsasında danışın. Hətta heyvanlar faydalanmaq və şəri dəf etmək imkanına malikdir. Heyvanlarda olan bu qüdrət bütlərdə olmadığından onlar heyvandan da əskikdir.
3. Allahın bütün problemlərin həllinə və düyünlərin açılışına qadir olması insanın bəndəlik dəlilidir. Bütlər isə bu imkanlardan məhrumdur.
4. Özündən zərəri dəf edə bilməyən və faydalanmaq imkanından məhrum olan kəs başqaları üçün iş görmək gücündə deyil.
5. Zərərin dəfi mənfəət əldə olunmasından öndə gəlir.
6. Hər hansı iş ya dünya, ya da axirətə aid məqsədlə həyata keçirilməlidir. Bütlər isə dünya və axirətdə çarəsizdir.

***AYƏ 4:***

﴿وَقَالَ الَّذِينَ كَفَرُوا إِنْ هَذَا إِلَّا إِفْكٌ افْتَرَاهُ وَأَعَانَهُ عَلَيْهِ قَوْمٌ آخَرُونَ فَقَدْ جَاؤُوا
ظُلْمًا وَزُورًا﴾

**“Kafir olanlar dedilər: “Bu Quran onun (peyğəmbərin) Allaha iftirasından başqa bir şey deyil və bu işdə ona kömək edənlər var.” Həqiqətən, (bu sözlərlə) böyük zülm və yalana yol verdilər.”**

**Nöqtələr**

●“İfk” dedikdə yalan, “zur” dedikdə batil söz mənası anlaşılır.[1] Quranda yalnız bu ayədə zülm” və “zor” sözləri yanaşı işlənmişdir. Çünki kafirlər peyğəmbərə böhtan atmaq və səmavi kitabı yalan saymaqla başqalarının hidayətinə (doğru yola gəlişinə) mane olurdular.

**Bildirişlər**

1. Kafirlər səmavi kitabı yalan saymaqla öz küfrlərinə don geyindirirlər.
2. Səmavi kitab və peyğəmbərlərin təhqiri kafirlərin qaydasıdır.
3. Quranın əzəmətini müxaliflər də qəbul edirlər.
4. Təhqir və böhtanla avamları aldatmaq, insanların tərbiyəsinə mane olmaq ən pis günahlardandır.

[1] “Lisanul-ərəb”.

*AYƏ 5:*

﴿وَقَالُوا أَسَاطِيرُ الْأَوَّلِينَ اكْتَتَبَهَا فَهِيَ تُمْلَى عَلَيْهِ بُكْرَةً وَأَصِيلًا﴾

**“(Kafirlər) dedilər: “(Quran) onun özü üçün bir nüsxə yazdığı və səhər-axşam ona oxunan keçmişə aid əfsanələrdir.”**

*AYƏ 6:*

﴿قُلْ أَنزَلَهُ الَّذِي يَعْلَمُ السِّرَّ فِي السَّمَاوَاتِ وَالْأَرْضِ إِنَّهُ كَانَ غَفُورًا رَّحِيمًا﴾

**“De ki, (bu Quranı) göylərdəki və yerdəki sirləri bilən kəs göndərdi. Şübhəsiz, O, bağışlayan və mehribandır.”**

**Nöqtələr**

●Kafirlər həm Qurana irad tuturdular ki, onda yenilik yoxdur, keçmişlərin əfsanəsidir, həm dediklərini haradansa köçürməsi ilə bağlı Peyğəmbəri (s) şübhə altına alır, həm də Peyğəmbərə (s) kimlərinsə yardım göstərdiyini uydururdular.

●Əsatirdən danışan kafirlər belə düşünürdülər ki, həzrət üçün bunları kimsə yazır və deyir. Onlar Peyğəmbərin (s) savadlı olduğunu bildirir, kimsədən nəsə öyrənmədiyini rədd edirdilər.

●Ayədə Allahın kafirlərdən xəbərdarlığı bildirilir. Bəli, sirlərdən xəbərdar olan kəs, şübhəsiz ki, aşkardakı həqiqətlərdən də xəbərdardır.

**Bildirişlər**

1. Müxaliflərin sözlərini çatdırarkən dəqiq olun.
2. Hədyanlara cavab verin.
3. Quran əfsanə yox, sonsuz elm çeşməsindən qaynaqlanan həqiqətdir.
4. Quran bəşər tərəfindən yaradılmayıb, varlığın sirlərindən xəbərdar olan Allah tərəfindən göndərilib.
5. Quranda əsrarəngiz göstərişlər vardır.
6. Allah gizlindən və aşkardan eyni dərəcədə xəbərdardır.
7. Göylərdə bəşəriyyət üçün əlçatmaz sirlər var.
8. Hətta Quranı əfsanə, Peyğəmbəri (s) yalançı sayan kafirlər üçün də tövbə yolu açıqdır.
9. Təkcə bağışlamaq bəs etmir, mərhəmət də göstərmək lazımdır.

*AYƏ 7:*

﴿وَقَالُوا مَالِ هَذَا الرَّسُولِ يَأْكُلُ الطَّعَامَ وَيَمْشِي فِي الْأَسْوَاقِ لَوْلَا أُنزِلَ إِلَيْهِ مَلَكٌ فَيَكُونَ مَعَهُ نَذِيرًا﴾

**“(Kafirlər) dedilər: “Bu necə peyğəmbərdir ki, yemək yeyir, bazarlarda gəzir? Onunla birlikdə qorxutsun (və iddiasını təsdiqləsin) deyə, nə üçün mələk nazil olmayıb?”**

**Nöqtələr**

●Kafirlər əziz Peyğəmbəri (s) məzəmmət edirdilər ki, nə üçün hamı kimi yeyir və yol gedir? Hazırkı surənin 20-ci ayəsində cavab verilir ki, bütün əvvəlki peyğəmbərlər də qidalanmışlar və bazarlarda gəzmişlər.

**Bildirişlər**

1. İnsanların bəziləri kamilliyi nöqsan sayır. (Adi həyat tərzi və xalq arasında hüzur ilahi rəhbər üçün kamillikdir.)
2. Allaha doğru çağırışın dünya nemətlərindən faydalanma ilə ziddiyyəti yoxdur.
3. Rəhbər cəmiyyətdən ayrılmamalıdır. Xalqla get-gəli olan kəs onlara daha rahat yol göstərə bilər.
4. Peyğəmbərlər ehtiyacları olan şeyi şəxsən özləri alırdılar.

***AYƏ 8:***

﴿أَوْ يُلْقَى إِلَيْهِ كَنزٌ أَوْ تَكُونُ لَهُ جَنَّةٌ يَأْكُلُ مِنْهَا وَقَالَ الظَّالِمُونَ إِن تَتَّبِعُونَ إِلَّا رَجُلًا مَّسْحُورًا﴾

**“Nə üçün ona xəzinə əta olunmayıb, nə üçün faydalansın deyə ona bağ verilməyib? Zalımlar (möminlərə) dedilər: “Siz yalnız sehr olunmuş bir kəsin ardınca gedirsiniz.”**

**Nöqtələr**

●Ötən ayədə kafirlərin belə bir iddiası bəyan olundu ki, Peyğəmbər (s) yemək yeməməli, ehtiyaclarının təmini üçün xalq arasına çıxmamalıdır. Bu ayədə əlavə istəklər bəyan olunur: Peyğəmbər (s) qeybdən təmin olunmalıdır ki, bazara, xalq arasına çıxmağa ehtiyac duymasın. Onlar anlamırdılar ki, bu sayaq, yəni qeybdən təminat Peyğəmbər (s) üçün qüsur olardı. Çünki rifah içində yaşayan bir şəxs əzabkeş xalqa rəhbər ola bilməz.

**Bildirişlər**

1. Materialistlər hətta peyğəmbərlərə də maddiyyat prizmasından baxırlar.
2. Peyğəmbərlərin işində eyb axtarmaq zülmdür.
3. Təkəbbürlü və kinli insan daim bəhanə axtarır. Bir bəhanədən əli üzüldükdə, başqa bir bəhanəyə əl atır.
4. Peyğəmbərlərin müxalifləri onları gah sehrbaz, gah da sehr olunmuş sayırdılar.

*AYƏ 9:*

﴿انظُرْ كَيْفَ ضَرَبُوا لَكَ الْأَمْثَالَ فَضَلُّوا فَلَا يَسْتَطِيعُونَ سَبِيلًا﴾

**"Gör sənin haqqında necə məsəllər çəkdilər. Belə ki, doğru yoldan azdılar, nəticədə (həqiqətə doğru) yol tapa bilməzlər."**

**Nöqtələr**

●Ayə belə mənalandırıla bilər: Müxtəlif bəhanələrlə peyğəmbərlərin təbliğinə mane olanlar məqsədə çatmaz, müvəffəq olmazlar. Şairin təbirincə, "çölə atar iffətin, bizə verər zəhmətin."

**Bildirişlər**

1. Düşmənin bəhanəçiliyinə diqqətli olun.
2. Müxaliflərin təhqirlərinə onların azğınlıqlarının bəyanı ilə cavab verin.
3. Yersiz təşbeh və təmsil azğınlığa aparır.
4. Məntiq, möcüzə və peyğəmbər kamilliyini kənara qoyub, var-dövlət, məqam və bəhanə ardınca getmək azğınlıqdır.

*AYƏ 10:*

﴿تَبَارَكَ الَّذِي إِن شَاء جَعَلَ لَكَ خَيْرًا مِّن ذَلِكَ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ وَيَجْعَل لَّكَ قُصُورًا﴾

**"İstədiyi vaxt sənin üçün onların gözlədiyindən də üstününü, ağacları altdan çaylar axan bağlar və qəsrlər qərar verən Allah uca və mübarəkdir."**

**Nöqtələr**

●Ötən ayələrdə bəyan olundu ki, kafirlər İslam Peyğəmbərindən (s) xəzinə və bağ istəyirdilər. Bu ayədə buyurulur ki, əgər Allah istəsə, peyğəmbərin ixtiyarına bir yox, saysız bağlar verər.

●Həzrət Əli (ə) buyurur: "Əgər Allah istəsəydi, peyğəmbərləri göndərən zaman onların ixtiyarına xəzinələr, qızıl mədənləri, yaşıl və xürrəm bağlar verərdi. Amma belə etsəydi, xalqın sınaq məsələsi aradan götürülər, hamı var-dövlət və rifah tamahı ilə peyğəmbərin ətrafına toplanardı. Beləcə, niyyətlər xalis olmazdı."[1]

●"Təbarək" dedikdə "ya sabit", ya da "bol xeyir" mənası nəzərdə tutula bilər.[2]

**Bildirişlər**

1. Allahın varlığı sabitdir və bərəkət qaynağıdır.

---

[1] "Nəhcül-bəlağə", x. 192.

[2] "Lisanul-ərəb".

2. Pəhrizkarlıq və sadəlik peyğəmbərlərə layiqdir. Saray həyatı və dəbdəbə onların şənində deyil.

3. Fəqirlik və var-dövlət Allahın əlindədir.

4. Allahın istək və iradəsi dəyişməzdir.

*AYƏ 11:*

﴿بَلْ كَذَّبُوا بِالسَّاعَةِ وَأَعْتَدْنَا لِمَن كَذَّبَ بِالسَّاعَةِ سَعِيرًا﴾

**“(Onlar təkcə səni yox) hətta Qiyaməti inkar etdilər. Biz Qiyaməti inkar edənlər üçün yandırıb-yaxan od hazırlamışıq.”**

**Nöqtələr**

●“Səir” dedikdə şiddətli od mənası anlaşılır.

**Bildirişlər**

1. Kafirlərin bəhanələrinin qaynağı onların Qiyamətə etiqadsızlığıdır. (Kafirlərin “nə üçün peyğəmbərin xəzinə və bağı yoxdur” bəhanələrinin kökü onların Qiyamətə inanmamalarındadır.)

2. Məadın təkzibi çox təhlükəlidir.

3. Behişt və cəhənnəm öncədən yaradılmış və hazırlanmışdır.

4. Böyük günah böyük əzabla sonuclanır.

*AYƏ 12:*

﴿إِذَا رَأَتْهُم مِّن مَّكَانٍ بَعِيدٍ سَمِعُوا لَهَا تَغَيُّظًا وَزَفِيرًا﴾

**“(Cəhənnəm) onları uzaqdan gördükdə, onun qəzəb və təlatümünü eşidərlər.”**

*AYƏ 13:*

﴿وَإِذَا أُلْقُوا مِنْهَا مَكَانًا ضَيِّقًا مُّقَرَّنِينَ دَعَوْا هُنَالِكَ ثُبُورًا﴾

**“Zəncirlə bağlanmış halda oradan dar yerə qatılır və həmin vaxt nalə çəkərlər. (Özlərinə ölüm diləyərlər.)”**

**Nöqtələr**

●“Təğəyyüz” dedikdə qeyz-qəzəbin izharı başa düşülür. Bəzən bu qəzəb səslə müşayiət olunur. “Zəfir” dedikdə qəm-qüssədən sinə tutulan vaxt çəkilən nəfəsin səsi mənası anlaşılır. “Muqərrənin” sözü zəncirlərlə bağlanma mənasını ifadə edir. “Subur” dedikdə ah-vay mənası anlaşılır.

●Cəhənnəm o qədər böyükdür ki, Qiyamətdə ondan “doldunmu” deyə soruşulanda belə cavab verər: “Yenə gələn varmı?”[1] Amma cəhənnəm nə qədər

---

[1] “Qaf”, 30.

böyük olsa da günahkar insan orada sıxıntıdadır. Cəhənnəmdə sıxıntıya düşən insanı böyük divara çətinliklə yeridilən mıxa bənzətmək olar. Divar böyük olsa da, bu mıx sıxıntıdadır.

Həzrət Peyğəmbərdən (s) nəql olunmuş hədisdə deyilir: *"Cəhənnəm əhli divardakı mıx kimi sıxıntıdadır."*[1]

●Dünya və axirətdə Allahdan xəbərsizlik dözülməz sıxıntı ilə sonuclanır. Dünyada isə Allah beləsinin köksünü sıxıntıya salır.[2] Ayələrdə oxuyuruq: "Hər kəs Mənim zikrimdən üz çevirsə şübhəsiz, onun üçün sıxıntılı həyat var."[3]; "Onlar cəhənnəmdə dar bir yerə atılar."[4]; Əksinə, Allaha diqqət və iman dünya və axirətdə qurtuluş səbəbidir: "Göy və yerin bərəkət qapılarını onların üzünə açarıq."[5]; "Behiştə daxil olan vaxt onun qapıları açılar."[6]

●İmam Sadiq (ə) buyurur: "Ayədə "uzaqdan" deyərkən bir illik yol nəzərdə tutulur."[7]

**Bildirişlər**

1. Cəhənnəmin bir növ idrak və hissi var.
2. Məad cismanidir.
3. Cəhənnəm əhli zəncir və buxovlarla bağlanar.
4. Cəhənnəm əhli alçaldılaraq Cəhənnəmə atılar.
5. Cəhənnəm əhlinin ah-naləsi uzaqdan eşidilər.

***AYƏ 14:***

﴿لَا تَدْعُوا الْيَوْمَ ثُبُورًا وَاحِدًا وَادْعُوا ثُبُورًا كَثِيرًا﴾

**"(Onlara deyilər:) «Bu gün bir dəfə yox, dəfələrlə ölüm istəyin.»"**

***AYƏ 15:***

﴿قُلْ أَذَلِكَ خَيْرٌ أَمْ جَنَّةُ الْخُلْدِ الَّتِي وُعِدَ الْمُتَّقُونَ كَانَتْ لَهُمْ جَزَاء وَمَصِيرًا﴾

**"(Ey peyğəmbər,) xalqa de ki, bu (əzab) yaxşıdır, yoxsa təqvalılara vəd olunmuş, onlara mükafat və son olan əbədi behişt?!"**

**Bildirişlər**

1. Qiyamətdə kafirlərin fəryadına yetişən olmaz.
2. Behişt əbədidir.
3. Behişt vədi qətidir.

---

[1] "Təfsire-Məcməül-bəyan".
[2] "Ənam", 125.
[3] "Taha", 124.
[4] "Furqan", 13.
[5] Əraf", 96.
[6] "Zumər", 73.
[7] "Təfsire-Məcməül-bəyan".

*AYƏ 16:*

﴿لَهُمْ فِيهَا مَا يَشَاؤُونَ خَالِدِينَ كَانَ عَلَى رَبِّكَ وَعْدًا مَسْؤُولًا﴾

**“Behişt əhli üçün istədiyi var. Onlar həmişəlik oradadırlar. (Bu mükafat) Rəbbin üçün vacib bir vəddir.”**

**Nöqtələr**

●Behişt əhlinin istəkləri Allahın istəkləri kimi hikmət çərçivəsindədir. Yəni Allah hikmət əsasında istədiyi kimi, möminlər də hikmət əsasında diləyir. Möminlər diləməz ki, Cəhənnəm əhli azad edilsin və ya möminlər peyğəmbər dərəcəsinə çatsın. Çünki belə istəklər hikmətdən uzaqdır.

**Bildirişlər**

1. İnsan yalnız behiştdə bütün arzularına çatır.
2. Behiştdə istənilən şey var. Cəhənnəm əhli haqqında isə belə buyurulur: “Cəhənnəm əhli ilə onların istədikləri arasında “hail” (arakəsmə) qərar verilər.”[1]
3. Allah Öz vədlərinə əməl etməyi zəruri saymışdır.

*AYƏ 17:*

﴿وَيَوْمَ يَحْشُرُهُمْ وَمَا يَعْبُدُونَ مِن دُونِ اللَّهِ فَيَقُولُ أَأَنتُمْ أَضْلَلْتُمْ عِبَادِي هَؤُلَاء أَمْ هُمْ ضَلُّوا السَّبِيلَ﴾

**“(Yada sal,) o gün ki, Allah müşrikləri və onların Allah əvəzinə pərəstiş etdiklərini məhşər səhnəsinə gətirib (onların məbudlarına) deyər: “Mənim bəndələrimi siz azdırdınız, yoxsa özləri yolu itirdi?”**

**Nöqtələr**

●Quranda azğınlıq amilləri belə bəyan olunur:

1. Pis dost–“məni pis dost azdırdı.”[2]
2. Nəfs istəkləri–“nəfs istəklərinə tabe olma, onlar səni Allah yolundan azdırar.”[3]
3. Azğın alim–“öz əlləri ilə bir şey yazır və onun Allah tərəfindən olduğunu deyirlər.”[4]
4. Azğın rəhbərlər–“Firon öz qövmünü azdırdı.”[5]
5. Şeytan–“şübhəsiz, şeytan açıq-aşkar azdırandır.”[6]

---

[1] “Səba”, 54.
[2] “Furqan”, 29.
[3] “Sad”, 26.
[4] “Bəqərə”, 79.
[5] “Taha”, 79.
[6] “Qəsəs”, 25.

6. Azğın çoxluq–"əgər yer üzündəki əksəriyyətə tabe olsan səni Allahın yolundan azdırarlar."[1]

7. Azğın valideyn–"həqiqətən, biz valideynimizi bütpərəst gördük və onlara iqtida etdik."[2]

İnsanda bir sıra səbəblərdən sual yarana bilər:

a) Anlamaq üçün.[3]

b) Başqalarını məzəmmət üçün; Allah-təala həzrət İsaya pərəstiş edənləri məzəmmət üçün həzrət İsaya xitab edərək buyurur: "Yoxsa sən onlara demisən ki, Allahdan əlavə məni və anamı iki tanrı seçin?"[4]

v) Bəzən məqsəd şəxsin məzəmməti olur.[5]

**Bildirişlər**

1. Qiyamətdə müşriklər və onların yalançı məbudları sorğuya çəkilərlər.
2. Qiyamətdə insanla yanaşı başqa mövcudlar da səhnəyə gətirilər (məsələn, bütlər).
3. Qiyamətdə hər şeyin şüuru olar və onlara müraciət edilər.
4. Bütün insanların fitrətində allahpərəstlik var. Azğınlıq isə kənar təsirdən yaranır.[6]

***AYƏ 18:***

﴿قَالُوا سُبْحَانَكَ مَا كَانَ يَنبَغِي لَنَا أَن نَّتَّخِذَ مِن دُونِكَ مِنْ أَوْلِيَاء وَلَكِن مَّتَّعْتَهُمْ وَآبَاءهُمْ حَتَّى نَسُوا الذِّكْرَ وَكَانُوا قَوْمًا بُورًا﴾

**"(Məbudlar) deyərlər: "Pərvərdigara! Sən pak-pakizəsən. Bizə yaraşmaz ki, Səndən qeyrisini hami seçək. Amma sən onlara və atalarına elə nemətlər verdin ki, sənin zikrini unutdular və fəsada uğramış bir qövm oldular."**

**Nöqtələr**

●"Bur" dedikdə fəlakət və fəsad başa düşülür. Bağ-bağatı, gül-çiçəyi, ot-ələfi olmayan torpağa "bayir" deyirlər. Mətndəki söz "bair" sözünün cəm forması da ola bilər. Onun məsdər olması da mümkündür. Yəni başdan-başa fəlakətə uğramış qövm!

●"Sübhanəkə" sözü iki yerdə işlənmişdir: Təəccübü bildirən məqamda və azğın əqidələrlə qarşılaşan zaman.

---

[1] "Ənam", 116.
[2] "Zuxruf", 23.
[3] "Nəhl", 43; "Ənbiya", 7.
[4] "Maidə", 116.
[5] Hazırkı ayə.
[6] "Arizi".

●Quranda unutqanlıq və qəflətin bir sıra səbəbləri göstərilir. Onlardan bəzilərinə nəzər salaq: Var-dövlət, ailə-övlad[1]; ticarət[2]; şeytan, təfriqə, qumar və şərab[3].

**Bildirişlər**

1. Qiyamətdə məbudlar dilə gələr.
2. Şirkdən danışılan məqamda Allaha təsbih demək zəruridir.
3. Allah Öz nemətlərini azğınlara da əsirgəmir.
4. Var-dövlət o zaman təhlükə törədir ki, Allahın yaddan çıxmasına səbəb olsun. Var-dövlət mütləq şəkildə pis və təhlükəli deyil.
5. Bir neçə nəsli rifah içində yaşamış ailələrdə Allahı və Qiyaməti unutmaq zəmini güclü olur.
6. Var-dövlətə və rifah əhlinin dəbdəbəsinə əhəmiyyət verməyin, bütün bunlar puç olub gedəsidir.

***AYƏ 19:***

﴿فَقَدْ كَذَّبُوكُم بِمَا تَقُولُونَ فَمَا تَسْتَطِيعُونَ صَرْفًا وَلَا نَصْرًا وَمَن يَظْلِم مِّنكُمْ نُذِقْهُ عَذَابًا كَبِيرًا﴾

**"(Allah-təala həmin gün müşriklərə buyurar:) «Bu məbudlar sizin sözlərinizi inkar etdilər. Onlar nə Allahın qəzəbini aradan qaldırmağa, nə də himayə etməyə qadirdirlər. Hansınız zülm etmiş olsanız ona böyük əzab daddırarıq.»"**

**Nöqtələr**

●Allah-təala Quranda zülmün bəzi əsərlərini bəyan etmişdir. O cümlədən:

1. Nakamlıq–"Allah zalımlara nicat verməz.[4]
2. Məhrumiyyət–"Allahın lütflərindən məhrumluq.[5]

---

[1] "Muminun", 9.
[2] "Nur", 37.
[3] "Maidə", 21.
[4] "Tövbə", 19.
[5] "Hud", 18.

3. Əzab.[1]

4. Zalımlardan fidyə (gördükləri işə görə əvəz) qəbul olunmaz.[2]

5. Üzrün qəbul olunmaması.[3] Bundan da pisi onlara üzr istəmək üçün icazə verilməz.[4]

**Bildirişlər**

1. Uydurma məbudlar və bütlər nəinki yardımçı deyil, hətta sizin sözünüzü və işinizi inkar edirlər.

2. Müşrik insan Qiyamətdə heç bir himayə görməz və özünü qurtarmaq üçün bir iş görməkdə aciz olar.

3. Müşrik zalımdır.

***AYƏ 20:***

﴿وَما أَرْسَلْنَا قَبْلَكَ مِنَ الْمُرْسَلِينَ إِلَّا إِنَّهُمْ لَيَأْكُلُونَ الطَّعَامَ وَيَمْشُونَ فِي الْأَسْوَاقِ وَجَعَلْنَا بَعْضَكُمْ لِبَعْضٍ فِتْنَةً أَتَصْبِرُونَ وَكَانَ رَبُّكَ بَصِيرًا﴾

**"Biz səndən öncə yeməyən və bazarlarda gəzməyən heç bir peyğəmbər göndərmədik. Biz sizin bəzilərinizi digərləri vasitəsi ilə sınağa çəkdik. Görən səbir və dözüm göstərəcəksinizmi? Sənin Rəbbin daim görəndir."**

**Nöqtələr**

●Hazırkı surənin yeddinci ayəsində kafirlərin İslam Peyğəmbərinin (s) adi həyat tərzi ilə bağlı bəhanələri bəyan olunur. Bu ayədə isə buyurulur ki, bütün peyğəmbərlər qidalanmış, xalq arasında olmuş və bazarlara get-gəl etmişlər.

**Bildirişlər**

1. Elçilər göndərmək Allahın proqramlarından və sünnələrindəndir.

2. Tarixlə tanışlıq həm bəhanə axtaranları tərk-silah edir, həm də həzrət Peyğəmbər (s) üçün təsəlli səbəbidir.

3. Bütün peyğəmbərlər xalq kimi sadə həyat tərzi keçirmişlər.

4. Mürəbbinin (tərbiyəçinin) xalqla get-gəli olmalıdır.

5. Peyğəmbərin sadə həyat tərzi xalq üçün sınaqdır. (Bəli, əgər peyğəmbərlər rifah içində və saraylarda yaşasaydılar, xalq onların imkanlarına görə ətraflarında toplaşardı və belə bir meylin dəyəri olmazdı. İnsanın imkanları ilə başqalarından seçilməyən adi şəxsə itaəti dəyərlidir.

6. Xalqın sınaq vasitələrindən biri onun özüdür. Bəzilərinə var-dövlət verilir ki, onun şükür və ya tüğyan edəcəyi bilinsin. Bəziləri də məhrumiyyətə salınır ki, səbir edəcəyi və ya varlılara həsəd aparacağı müəyyən olunsun.

---

[1] "Şura", 45.
[2] "Zumər", 47.
[3] "Rum", 57.
[4] "Mursəlat", 36.

7. İlahi sınaqlarda müvəffəqiyyət açarı səbirdir.

8. İlahi sınaqların fəlsəfəsi insan tərbiyəsidir.

9. İlahi sınaqlar zamanı Allah üçün yeni bir şey məlum olmur. O hər şeydən agahdır. Sınaqlar sadəcə insanların istedadını çiçəkləndirir. Mükafat və cəza xislətlərin üzə çıxması əsasında təyin olunur.

10. Allahın hüzurundan xəbərdarlıq insanda səbir yaradan amildir.

## *ON DOQQUZUNCU CÜZ*

### *AYƏ 21:*

﴿وَقَالَ الَّذِينَ لَا يَرْجُونَ لِقَاءنَا لَوْلَا أُنزِلَ عَلَيْنَا الْمَلَائِكَةُ أَوْ نَرَى رَبَّنَا لَقَدِ اسْتَكْبَرُوا فِي أَنفُسِهِمْ وَعَتَوْ عُتُوًّا كَبِيرًا﴾

**“Bizimlə görüşə ümidi olmayanlar dedilər: ”Nə üçün bizə mələklər nazil olmur, nə üçün Rəbbimizi görmürük?” Şübhəsiz onlar özlərini böyük tutdular və böyük tüğyana yol verdilər.”**

**Nöqtələr**

●“Utuvv” sözü ən pis zülm mənasını bildirir.[1]

●Qiyamət gününü “liqa” (görüş) günü adlandırırlar. Çünki həmin gün qəflət pərdələri götürülər və insanlar Allahın əzəmətini seyr edərlər.[2]

**Bildirişlər**

1. Məada, ölümdən sonrakı həyata etimadsızlıq bəhanələr üçün bir səbəbdir.
2. İnsanın tərbiyəsi və Allaha itaəti üçün elə Qiyamətə ümid də bəs edər.
3. Qiyamət günü ilahi lütf və ya qəhr-qəzəblə görüş günüdür.
4. Kafirlər mələklərin varlığına inanırdılar.
5. Materialistlər hər şeyi maddi sayır, gözləri ilə Allahı görmək istəyirdilər.
6. İnsanın tüğyan və təkəbbürünün səbəbi onun daxilindəki yuxarıdan getmək həvəsidir.
7. Günah və təcavüzün dərəcələri var.

### *AYƏ 22:*

﴿يَوْمَ يَرَوْنَ الْمَلَائِكَةَ لَا بُشْرَى يَوْمَئِذٍ لِّلْمُجْرِمِينَ وَيَقُولُونَ حِجْرًا مَّحْجُورًا﴾

**“Mələkləri görəcəkləri gün günahkarlar üçün müjdə deyil. (Mələklər günahkarlara) deyərlər: «(Sizin üçün Behişt) haram və qadağandır.»”**

**Nöqtələr**

●Ötən ayədə Qiyamətə ümidi olmayan təkəbbür əhlindən danışıldı. Bu ayədə isə deyilir ki, mələklər nazil olacaq, amma vəhy əvəzinə ağır xəbərdarlıq gətirəcək. İmam Baqir (ə) buyurur ki, həmin gün onlar üçün ölüm günüdür, Allah ölüm mələyinə əmr edər ki, kafirlərin canını çıxarsın; onların canını

---

[1] “Təfsire-Məcməül-bəyan”.

[2] “Nur”, 25.

çıxararlar və canları boğazlarına yetən vaxt mələklər onların üzlərinə və arxalarına vurarlar. Sonra həzrət hazırkı ayəni tilavət etdi.[1]

●“Hicr” dedikdə qayıdış mənası anlaşılır. Ağıl insanı yanlışlıqdan çəkindirdiyi üçün ona “hicr” deyilir.[2]

Xalqın get-gəlinin qarşısını almaq üçün daşlarla əhatəyə alınmış məntəqə “məhcur” adlanır.

●Allahı görmək mümkünsüzdür. Amma müəyyən şərtlərlə mələkləri görmək olar. Başqa ayələrdə oxuyuruq: “Qiyamətdə mələklər möminlərə salam verərlər.”[3] Cəhənnəm əhli Cəhənnəmə məmur mələklərdən yardım diləyər.[4]

**Bildirişlər**

1. Mələklər xüsusi şəraitlərdə görünürlər.
2. Mələklərin gəlişini gözləyən təkəbbür əhli heç bir müjdə almaz.

*AYƏ 23:*

﴿وَقَدِمْنَا إِلَى مَا عَمِلُوا مِنْ عَمَلٍ فَجَعَلْنَاهُ هَبَاء مَّنثُورًا﴾

**“Biz onların hər bir əməlinin sorağına gedər və onu dağınıq toza döndərərik.”**

**Nöqtələr**

●Narın torpağa “həba” deyilir. ”Mənsur” sözü dağılmış, yayılmış mənasını bildirir. Qurani-Kərim digər bir yerdə kafirlərin əməlini iti küləyin göyə sovurduğu külə bənzədir. [5]

Başqa bir ayədə kafirlərin işi təşnə insanın su hesab etdiyi ilğıma oxşadılır. [6]

●Rəvayətlərdə əməli puça çıxmış insanlara misal olaraq, haram tikədən çəkinməyib namaz qılan, oruc tutan insanlar göstərilir. Həzrət Əli (ə) və onun şiələrinə kin-küdurətlə yanaşanlar da bu qəbildəndirlər.[7]

**Bildirişlər**

1. Qiyamətdə insanın əməlləri təcəssüm olunar.
2. Günahkarların böyük əməli puça çıxa bilər.
3. İnsanın əməllərinin onun gözü qarşısında puça çıxması Qiyamət dərdlərindəndir.
4. İnsanın niyyəti işin canını təşkil edir. Əqidə və ixlassız əməl nəticəsizdir.

---

[1] “Bihar”, c. 8. s. 317.
[2] “Fəcr”, 5.
[3] “Nəhl”, 32.
[4] “Ğafir”, 49.
[5] “İbrahim”, 18.
[6] “Nur”, 39.
[7] “Təfsire-kənzud-dəqaiq”, “Təfsire-Safi”.

*AYƏ 24:*

﴿أَصْحَابُ الْجَنَّةِ يَوْمَئِذٍ خَيْرٌ مُّسْتَقَرًّا وَأَحْسَنُ مَقِيلاً﴾

**"Həmin gün Behişt əhlinin öz yeri və gözəl istirahət mənzili var."**

**Nöqtələr**

●"Xeyir" və "əhsən" sözləri bəzən "ən yaxşı, ən üstün" mənasını bildirmir. Bu sözün "daha üstün" mənasında işlənməsi üçün müqayisə tərəfi «yaxşı, üstün» üçün olmalıdır. Bu ayədə də uyğun sözlər «yaxşı» mənasında işlədilmişdir. Çünki əvvəlki ayədə xatırladılanlar yaxşı deyildi.

●"Məqil" dedikdə günorta istirahəti nəzərdə tutulur. Bu istirahət vaxtı yatmaq da olar.[1]

**Bildirişlər**

1. Xəbərdarlıq və qorxutma ilə yanaşı təşviq və müjdə də zəruridir.

*AYƏ 25:*

﴿وَيَوْمَ تَشَقَّقُ السَّمَاء بِالْغَمَامِ وَنُزِّلَ الْمَلَائِكَةُ تَنزِيلاً﴾

**"Göyün buludlarla parçalanması, mələklərin nazil olacağı gün..."**

*AYƏ 26:*

﴿الْمُلْكُ يَوْمَئِذٍ الْحَقُّ لِلرَّحْمَنِ وَكَانَ يَوْمًا عَلَى الْكَافِرِينَ عَسِيرًا﴾

**"Həmin gün haqqın hökmü Rəhman Allaha məxsusdur və o gün kafirlər üçün ağırdır."**

**Nöqtələr**

●Qiyamət günü kafirlərə vasitələrin, üzürxahlıqların, var-dövlətin, ailə-övladın, qohum-əqrəbanın, məqamın faydası olmadığından həmin gün kafirlər üçün ağırdır.

●"Bilğəmam" sözü "buludla yanaşı" mənasını verə bilər. Yəni səma buludlara parçalanar.

●"Nuzzilə" sözündən aydın olur ki, mələklər Qiyamət günü gözlənilmədən xüsusi bir şəkildə nazil olarlar.

**Bildirişlər**

1. Səma başlanğıcda tüstü olmuşdur.[2] O, gələcəkdə də məhv olacaqdır.
2. Mələklərin yeri səmalardır.
3. Allahın mülk və hakimiyyəti etibari və ədalətsiz yox, gerçək və ədalətlidir.
4. Qiyamət günü ilahi rəhmətin təcəlla günüdür.

---

[1] "Təfsire-Əl-mizan".

[2] "Fussilət", 11.

*AYƏ 27:*

﴿وَيَوْمَ يَعَضُّ الظَّالِمُ عَلَى يَدَيْهِ يَقُولُ يَا لَيْتَنِي اتَّخَذْتُ مَعَ الرَّسُولِ سَبِيلًا﴾

**“Elə bir gün ki, zalım (müşrik) öz əllərini çeynəyib deyər: «Kaş ki,» peyğəmbərlə olaydım.”**

*AYƏ 28:*

﴿يَا وَيْلَتَى لَيْتَنِي لَمْ أَتَّخِذْ فُلَانًا خَلِيلًا﴾

**“Vay olsun mənə! Kaş filankəsi özümə dost tutmayaydım.”**

*AYƏ 29:*

﴿لَقَدْ أَضَلَّنِي عَنِ الذِّكْرِ بَعْدَ إِذْ جَاءَنِي وَكَانَ الشَّيْطَانُ لِلْإِنسَانِ خَذُولًا﴾

**“Allah tərəfindən mənim üçün haqq gəldikdən sonra Dostum məni azdırdı. Şeytan ümid gözləyəndə insanı atar.”**

**Nöqtələr**

●“Xəzulən” dedikdə insanın himayəsinə ümidli olduğu kəs tərəfindən atılması başa düşülür.

●Rəvayətlərə əsasən, ilahi rəhbər zikr nümunəsidir. Zikrdən uzaqlıq dedikdə rəhbərdən uzaqlıq mənası anlaşılır.[1]

●İslam dost və dost seçimi ilə bağlı bir çox tövsiyələr vermişdir. Bəziləri ilə dostluq bəyənilirsə, bəziləri ilə də dostluq qadağan edilir. Bu nöqtələri açıqlamaq üçün müstəqil bir söhbətə ehtiyac var. “Dost və dostluq” mövzusunda açıqlanası bəzi məsələləri nəzərdən keçirək: Dostu tanıma yolları, dostluq çərçivəsi, dostluğun davamı, dostluğu qırmaq, dostluq amilləri, dostlarla ünsiyyət qaydaları, dostun hüquqları. Bu məsələlərin hər biri çoxsaylı ayə və rəvayətlərdə açıqlanılır. Bəzi rəvayətləri nəzərdən keçirək:

–Bir şəxsi tanımaqda çətinlik çəkirsinizsə, onun kimlərlə dostluq etdiyinə nəzər salın.[2]

–Pis dostdan tənhalıq yaxşıdır.”[3]

–Peyğəmbərdən yaxşı dost haqqında soruşdular. Həzrət buyurdu: “Ən yaxşı dost odur ki, onunla görüş yadınıza Allahı salsın, danışığı elminizi artırsın, rəftarı Qiyamətlə bağlı düşüncənizi oyatsın.”[4]

–Həzrət Əli (ə) buyurmuşdur: “Gücdən düşdüyün vaxt həqiqi dostların düşmənlərdən seçilər.”[1]

---

[1] “Təfsire-kənzud-dəqaiq”.
[2] “Bihar”, c. 74, s. 197.
[3] “Bihar”, c. 77, s. 173.
[4] “Təfsire-Qurtubi”.

–Həzrət Əli (ə) buyurur: “Yaxşı dost ən üstün qohumdur.”[2]

–Hədisdə deyilir: Dostunu qəzəbə, dinar-dirhəmə münasibətdə və müsafirətdə sınağa çək. Bu sınaqlardan uğurla çıxsa, yaxşı dostdur.”[3]

Dost və dostluq haqqında çoxlu şerlər yazılmış, yaxşı dostlarla yaxınlıq tövsiyə olunmuşdur.

*Yaxşı bir yoldaşın, yaxşı rəfiqin*
*Ağlını, dinini artırar sənin.*

Pis insanlarla dostluq məzəmmət olunmuş, pis dost içində öldürücü zəhər olan xoş görünüşlü ilana bənzədilmişdir.

*Pis dostdan uzaq ol bacarsan əgər,*
*Bil, dili altında gəzdirir zəhər.*
*Təkcə bədənini çalırsa ilan,*
*Pis dost həm can alır, həm də ki, iman.*

Şerlərdə pis dost qara buluda oxşadılır. Qara bulud əzəmətli günəşin qarşısını kəsir.

*Pislərlə oturma, onların sözü,*
*Nə qədər pak olsan, qaraldar üzü.*
*Günəş yer üzünə çiləsə də nur,*
*Bulud önün kəsir, həqiqət budur.*

**Bildirişlər**

1. İnsanın içdən çəkdiyi həsrət onun əməl və rəftarlarına təsir göstərir.
2. Peyğəmbər yolundan üz çevirmək zülmdür.
3. Qiyamət əzabı çox ağırdır. (Müşrik Qiyamət səhnəsində təkcə barmağını və ya bir əlini yox, hər iki əlini gəmirir.)
4. Qiyamətdə vicdanlar oyanır.
5. Peşmanlıq insanın azad olduğunu göstərir. İnsan məcbur edilsəydi, peşmançılıq mənasız olardı.
6. Bu günün qeyri-şəri dostluqlarının təhlükəli sabahı var. Dostların insanın taleyinə təsiri var.
7. İman təklikdə bəs etmir, peyğəmbərlərlə birlikdə olmaq da zəruridir.
8. Peyğəmbərlərlə cüzi rabitə qurtuluş yolu ola bilər.
9. Bir qəlbdə iki sevgi yaşatmaq olmaz. (Ya peyğəmbər sevgisi, ya da azğın insanla dostluq!)
10. Azğın dostlar şeytana işləyir.
11. Əsas məsələ ad yox, görülən işdir.
12. Pis dostun əlaməti insanı yuxuya verməsidir.

---

[1] “Ğurərul-hikəm”.
[2] “Ğurərul-hikəm”.
[3] “Bihar”, c. 74, s. 180.

13. Bəzən dostluq hissləri dəlil və məntiqə qalib gəlir.
14. Allah bütün xalqa höccəti tamamlayır, xəbərdarlığı başa çatdırır.

### *AYƏ 30:*

﴿وَقَالَ الرَّسُولُ يَا رَبِّ إِنَّ قَوْمِي اتَّخَذُوا هَذَا الْقُرْآنَ مَهْجُورًا﴾

**“Peyğəmbər (Qiyamət günü şikayətlə) deyər: “Pərvərdigara! Mənim qövmüm bu Quranı tərk etdi.”**

**Nöqtələr**

●Ayədə İslam Peyğəmbərinin (s) gileyindən danışılır. Həzrət aləmlərə rəhmət olduğundan nifrin etmir.

●İmam Rza (ə) buyurur: “Namazda Quran oxumağımızın səbəbi budur ki, Quran tərk olunmasın.”[1]

●Rəvayətlərdə deyilir: Hər gün Qurandan əlli (50) ayə oxuyun. Məqsədiniz surəni başa vurmaq olmasın, aram oxuyun, Quran tilavəti ilə qəlbinizi hərəkətə gətirin. Fitnələr qaraqlıq gecə tək üstünüzə hücum çəkəndə Qurana sığının.[2]

●Böyük şəxsiyyətlərdən bəzilərinin Qurandan uzaqlıqla bağlı qeydlərini nəzərdən keçirək:

a) Molla Sədra “Vaqiə” surəsinin təfsirindəki müqəddimədə deyir: Filosofların və hikmət alimlərinin kitablarını xeyli mütaliə etdikdən sonra elə bildim ki, bir məqama çatmışam. Amma bəsirət gözüm azca açıldıqda həqiqi elmlərdən xəbərsiz olduğumu gördüm. Ömrümün sonlarında belə bir qərara gəldim ki, Quran və məsumların buyruqlarını araşdırıb düşünüm. Əmin oldum ki, işim əsassız olub, bir ömür nuru qoyub kölgədə dayanmışam. Qəm-qüssədən içim yandı, qəlbim şöləlendi. Nəhayət, ilahi mərhəmət əlimdən tutdu və məni Quranın sirləri ilə tanış etdi. Quranın təfsir və təfəkkürünə başladım. Vəhy evinin qapısını döydüm, qapılar açıldı, pərdələr kənara çəkildi, mələklərin mənə salam verdiyini eşitdim.”

b) Feyz Kaşani deyir: “Kitab və risalələr yazdım, araşdırmalar apardım. Amma heç bir elmdə dərdimə dərman, yanğıma su tapmadım. Qorxdum və Allaha doğru qaçaraq yalvardım. Nəhayət, Allah məni Quran və hədisə varmaq yolu ilə hidayət etdi.”[3]

v) İmam Xomeyni öz söhbətlərində qeyd edir ki, bütün ömrünü Quran yolunda sərf etmədiyi üçün təəssüf edir. O, elmi mərkəzlərə və universitetlərə tövsiyə edir ki, Quran və onun müxtəlif yönümlərini bütün sahələrdə ali məqsəd seçsinlər. Belə olmasın ki, qocalan vaxt cavanlıqları üçün təəssüf etsinlər.[4]

---

[1] “Təfsire-Nurus-səqələyn”.
[2] “Təfsire-Nurus-səqələyn”.
[3] “Risalətul-insaf”.
[4] “Səhifeyi-nur”, c. 20, s 20.

●“Hicr” dedikdə əməl, cisim, dil, qəlblə ayrılıq nəzərdə tutulur.[1]

●İnsanla səmavi kitab arasındakı rabitə daimi və hərtərəfli olmalıdır. Çünki “hicr” sözü insanla bir şey arasında rabitə olduqda işlədilir.[2]

Bəli, bütün istiqamətlərdə çalışmalıyıq ki, Quranı qəriblikdən xilas edək, onu həyatın bütün sahələrində elmi və əməli mehvər seçək. Bu yolla əziz İslam Peyğəmbərinin (s) razılığını qazanarıq.

●Quran oxumamaq, başqa kitabları Qurandan üstün tutmaq, Quranı həyat qanunu seçməmək, Quran ayələri haqqında düşünməmək, onu başqalarına təlim etməmək, Quran göstərişlərinə tabe olmamaq Quranı tənha qoymaq nümunələrindəndir. Hətta Quranı öyrənib sonra bir kənara qoyan, ona baxmayan, əməl etməyən insan da Quranı tənha qoymuşdur.[3]

**Bildirişlər**

1. Qiyamətdə şikayət edənlərdən biri də həzrət Peyğəmbərdir (s).
2. Quranı bilərəkdən, agahlıqla tərk edənlər məzəmmət olunurlar.
3. Quranın yığılıb tərtib olunması həzrət Peyğəmbərin (s) öz dövründə baş vermişdir. Yoxsa Qurana işarə edilməz, xitab olunmazdı.
4. Quranın tənha buraxılması Peyğəmbərin (s) gileyi və bizim məsuliyyətimiz qəti, gerçək məsələlərdir.
5. Quranı sadəcə tilavət etmək bəs etmir, onu tənhalıqdan, qürbətdən çıxarmaq da lazımdır.

### *AYƏ 31:*

﴿وَكَذَٰلِكَ جَعَلْنَا لِكُلِّ نَبِيٍّ عَدُوًّا مِّنَ الْمُجْرِمِينَ وَكَفَىٰ بِرَبِّكَ هَادِيًا وَنَصِيرًا﴾

**“Biz bu sayaq hər bir peyğəmbər üçün günahkarlardan düşmən qərar verdik. Sənə yol göstərmək və himayə üçün Rəbbin yetər.”**

**Bildirişlər**

1. Haqla batil arasındakı ziddiyyət Allahın iradəsindən kənar deyil.
2. Haqqa çağırışların həmişə müxalifi olmuşdur.
3. Başqalarının çətinliklərini yada salmaqla özünüzə təsəlli verin.
4. İnsan öncə günaha batır və tədricən peyğəmbərlərə düşmən olur.
5. İnsan günah səbəbindən haqq yoldan çıxır.
6. Çətinliklər və müxalifətlər insanı tərbiyə edir.
7. Düşmən üzərində qələbənin yeganə yolu ilahi hidayət və yardıma bağlanmaqdır.
8. Müxaliflər qarşısında Allaha təvəkkül edək.

---

[1] “Mufrədati-rağib”.
[2] “Ət təhqiq fi kəlimatil-Quran”.
[3] “Təfsiri-əl munir”.

9. Himayə və hidayət üçün Allah bəs edirsə, nə üçün başqalarına üz tutulmalıdır?!

10. Peyğəmbərlər də Allahın hidayətinə ehtiyaclıdırlar.

11. İnsan haqla batilin döyüşündə iki şeyə ehtiyaclıdır: hidayət və qüdrət.

12. Hidayət və nüsrət Allahın rübubiyyət şənlərindəndir.

### *AYƏ 32:*

﴿وَقَالَ الَّذِينَ كَفَرُوا لَوْلَا نُزِّلَ عَلَيْهِ الْقُرْآنُ جُمْلَةً وَاحِدَةً كَذَلِكَ لِنُثَبِّتَ بِهِ فُؤَادَكَ وَرَتَّلْنَاهُ تَرْتِيلًا﴾

**“Küfrə uğrayanlar dedilər: “Nə üçün Quran ona birdəfəyə nazil olmayıb? (Biz) bu sayaq (nazil etdik ki,) sənin qəlbini onun vasitəsi ilə möhkəmlədək. Onu tədricən, aram-aram sənə oxuduq.”**

**Nöqtələr**

●Bəhanə axtaranlar hər an yeni bir bəhanə tapırlar. Bəzən deyirlər ki, nə üçün bizə vəhy gəlməyib? Bəzən soruşurlar ki, nə üçün vəhy mələyini görmürük, nə üçün peyğəmbərin var-dövləti, taxt-tacı yoxdur? Bəzən də irad tuturlar ki, nə üçün Quran birdəfəyə nazil olmayıb?

Halbuki Quran iki şəkildə nazil olmuşdur: mübarək «Qədr» gecəsində Peyğəmbərin (s) qəlbinə birdəfəyə göndəriş, iyirmi üç il ərzində müxtəlif münasibətlərlə tədrici göndəriş.

Quranın tədricən nazil edilməsinin əsər və dəlilləri:

1. Tədrici nazil olma həzrət Peyğəmbərlə (s) vəhy qaynağı arasında daimi rabitə və həzrətin qəlbinin möhkəmlənmə amilidir. Bu tədricilikdən aydın olur ki, risalət (peyğəmbərlik) davamı olmayan qığılcım deyil.

2. Canlı və kompleks din günün hadisələri ilə güclü rabitədə olur. Hadisələr isə birdəfəyə yox, tədricən baş verir.

3. Xalqın bütün əmr və qadağalara birdəfəyə əməl etməsi çətin idi və sıxıntıya səbəb ola bilərdi.

4. Quranın hər surə və hər ayəsi təklikdə möcüzədir. Tədrici göndəriş möcüzələrin ardıcıl göndərişi kimi idi və hər möcüzə düşmənlərin sıxıntıları qarşısında Peyğəmbərin (s) qəlbi üçün təsəlli olurdu.

5. Hər ayənin ehtiyac əsasında nazil olması ilə bütün ayələrin ehtiyaclar nəzərə alınmadan nazil olması arasında böyük fərq var.

6. Bəzi ayələr xalqın suallarına cavab olur. Demək, öncə sual bəyan olunmalıdır, sonra cavab olaraq ayə nazil olmalıdır.

7. Bəzi ayələr və hökmlər müəyyən bir müddət üçün nazil olmuşdur. Bu səbəbdən də onları əvəz edən ayələr gəlməlidir.

## *“TƏRTİL” NƏDİR?*

–Həzrət Peyğəmbər (s) buyurur: “Quranı aydın bəyanla oxumaq tərtildir. Onun incəlikləri ilə rastlaşdıqda dayanın, ruhunuza və qəlbinizə səfa verin, tilavətdə məqsədiniz surəni başa vurmaq olmasın.”[1]

–Həzrət Əli (ə) buyurur: “Tərtil dedikdə vəqf və hərflərin əda qaydalarına əməl etmək nəzərdə tutulur.”[2]

–İmam Sadiq (ə) buyurur: “Tərtil dedikdə Quranı gözəl və aram oxumaq, vəqf etmək (dayanmaq), od və əzab ayələri oxuduqda Allaha pənah aparmaq, Behişt ayələrini tilavət etdikdə dua etmək, mehriban Allahdan Behişt diləmək nəzərdə tutulur.”[3]

**Bildirişlər**

1. Rəhbərin arxayın, möhkəm və aram qəlbi olmalıdır.
2. Peyğəmbər tərbiyəsinin nəticəsi məlumat əldə edilməsi yox, qəlblərin aramlığıdır.
3. Təlim-tərbiyə tədrici olmalıdır.

## *AYƏ 33:*

﴿وَلَا يَأْتُونَكَ بِمَثَلٍ إِلَّا جِئْنَاكَ بِالْحَقِّ وَأَحْسَنَ تَفْسِيرًا﴾

**“Sənə elə bir məsəl çəkmədilər ki, onun haqq cavabını ən üstün bəyanla sənə bildirməyək.”**

**Nöqtələr**

●Qurani-Kərim bu ayədə Peyğəmbərə (s) xitabən buyurur ki, müxaliflərin sözləri ya batildir və Biz onun müqabilində sənə haqqı bildirdik, ya haqdır və Biz onların dediyi haqdan da üstün və yığcamını sənə bəyan edirik.

**Bildirişlər**

1. Quran əhatəli bir kitabdır və bütün iradlara cavab verir.
2. Peyğəmbərlər müxaliflərlə mübarizədə idilər və onlarla dəlillər əsasında rəftar edirdilər.
3. Allah Öz peyğəmbərlərini müdafiə edir, kafirlərin batil sözlərinə haqq kəlamla cavab verir.
4. Müxaliflərin sözləri və dəlilləri cavabsızdır.
5. Haqq batilə qalibdir.
6. Peyğəmbərlərin məqsədi haqqın bərqərar olmasıdır.
7. Deyilən söz məntiqə və həqiqətə əsaslanmalıdır.
8. Peyğəmbərin elmi və buyruqları Allah tərəfindəndir.

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Təfsire-kənzud-dəqaiq”, “Minhacüs-sadiqin”.
[3] “Təfsiri-nümunə”.

9. Başqalarının danışıq və etirazına üstün sözlərlə cavab verək.

*AYƏ 34:*

﴿الَّذِينَ يُحْشَرُونَ عَلَى وُجُوهِهِمْ إِلَى جَهَنَّمَ أُوْلَئِكَ شَرٌّ مَّكَانًا وَأَضَلُّ سَبِيلًا﴾

**"Onlar Cəhənnəmə üzləri üstə sürünərək gətirilərlər. Onların yeri ən pis yerdir və ən azğın yolu gedirlər."**

**Bildirişlər**

1. Müxaliflərin peyğəmbərə yönəlmiş təhqirləri Qiyamətdə onların özlərini yaxalayar.
2. Peyğəmbərlərə irad tutanlar xalqın ən azğın fərdləridir.

*AYƏ 35:*

﴿وَلَقَدْ آتَيْنَا مُوسَى الْكِتَابَ وَجَعَلْنَا مَعَهُ أَخَاهُ هَارُونَ وَزِيرًا﴾

**"Həqiqətən, Musaya kitab (Tövrat) əta etdik və qardaşı Harunu ona köməkçi qərar verdik."**

*AYƏ 36:*

﴿فَقُلْنَا اذْهَبَا إِلَى الْقَوْمِ الَّذِينَ كَذَّبُوا بِآيَاتِنَا فَدَمَّرْنَاهُمْ تَدْمِيرًا﴾

**"Həmin iki şəxsə dedik: "Ayələrimizi təkzib edən qövmə doğru gedin." Sonra onları (kafirləri inadlarına görə) tamam məhv etdik."**

**Nöqtələr**

●"Tədmir" dedikdə dəhşətli həlakət mənası anlaşılır.[1]

●Quranın təbliğ və tərbiyə üsulları fərqlidir. Bir yerdə buyurulur ki, azğınların sorağınca getmək lazımdır. Digər bir yerdə bəyan olunur ki, göstəriş verilsin və onlar qürurlarını sındıraraq özləri gəlsinlər. Məsələn, həzrət Süleyman Səba padşahına buyurur: "Tam təslim olaraq hüzurumuza gəl."[2]

**Bildirişlər**

1. Nə qədər ki, səmavi kitabla ünsiyyət qurmamışıq, təbliğat haqqımız yoxdur.
2. Peyğəmbərlər üçün canişinləri də Allah təyin etməlidir.
3. Çətin vəzifələrin icrasında vəzir və həmkara ehtiyac var.
4. Bəzi dövrlərdə bir neçə peyğəmbər göndərilmişsə də, onlardan yalnız biri rəhbər olmuşdur.

---

[1] "Ət təhqiq fi kəlimatil-Quran".

[2] "Nəml", 31.

5. Bəzən birlikdə təbliğ üçün qrup göndərilməlidir.
6. Azğınlara höccəti tamamlamaq, xəbərdarlığı başa çatdırmaq lazımdır.
7. Xalqın inkar və inadkarlığı ilahi lütfə mane olmur.
8. Peyğəmbərin təkzibi Allahın təkzibidir.
9. Haqqı təkzib etməyin sonu fəlakətdir.
10. Tarixin, bir vaxtkı kafirlərin taleyinin və onların məhvinin bəyanı bu günkü kafirlərə xəbərdarlıq və onların pisliyinə qadağa üçün zəmindir.

*AYƏ 37:*

﴿وَقَوْمَ نُوحٍ لَّمَّا كَذَّبُوا الرُّسُلَ أَغْرَقْنَاهُمْ وَجَعَلْنَاهُمْ لِلنَّاسِ آيَةً وَأَعْتَدْنَا لِلظَّالِمِينَ عَذَابًا أَلِيمًا﴾

**“Peyğəmbərləri təkzib etmiş Nuh qövmünü qərq etdik, onları xalq üçün ibrət qərar verdik. Zalımlar üçün dərdli əzab hazırlamışıq.”**

**Bildirişlər**

1. Bir peyğəmbərin təkzibi bütün peyğəmbərlərin təkzibi kimidir.
2. Tarix ibrət dərsidir.
3. İnsanların taleyi onların öz əlindədir.
4. Peyğəmbərlərin təkzibi zülümdür.
5. Peyğəmbərlərin təkzibinə görə həm dünya, həm də axirət əzabı nəzərdə tutulur.

*AYƏ 38:*

﴿وَعَادًا وَثَمُودَ وَأَصْحَابَ الرَّسِّ وَقُرُونًا بَيْنَ ذَلِكَ كَثِيرًا﴾

**”Ad qövmü, Səmud qövmü, Rəss səhabələri və onların arasındakı bir çox nəsilləri (həlak etdik.)”**

*AYƏ 39:*

﴿وَكُلًّا ضَرَبْنَا لَهُ الْأَمْثَالَ وَكُلًّا تَبَّرْنَا تَتْبِيرًا﴾

**“Hər biri üçün (ibrət götürsünlər deyə) nümunələr göstərdik. (İbrət götürmədiklərindən) hamısını tamam məhv etdik.”**

**Nöqtələr**

●“Qərn” sözünün cəm forması olan “qurun” sözü əslində eyni bir dövrdə bir yerdə yaşamış cəmiyyət mənasını bildirir. 40 ildən 100 ilədək dövr də “qərn”

adlandırılır. “Tətbir” dedikdə böyüklüyü əldən vermək və alçalmaq mənaları nəzərdə tutulur. Belə bir alçalma ölümlə sonuclanır.[1]

### *“RƏSS” SƏHABƏLƏRİ KİM İDİ?*

●Təfsirlərdə Rəss qövmü haqqında xeyli söhbət getmişdir. Kimi onları Şüeybin qövmü hesab edir, kimi Yəmamədə bir şəhərin Rəss adlandığını bildirir, kimi də Antakiyada Rəss adlı quyu olduğunu qeyd edir. Kimi də Rəss sözünü Araz çayına aid edir. “Üyuni əxbarir-Riza” kitabında isə belə nəql olunur: İmam Rza (ə) buyurmuşdur: “Bir şəxs Həzrət Əlidən (ə) Rəss əshabı haqqında soruşdu. İmam buyurdu: “Nuhun tufanından sonra “şahi-derəxt” adlı bir ağac əkildi. İnsanlar bu ağacı müqəddəs sayırdılar. Onun ətrafında 12 kənd salındı. Kəndlər İran ayları ilə adlandırıldı: Fərvərdin, Ordibehişt, Xordad... insanlar hər ay kəndlərdən birində şadlıq keçirirdilər. İsfənd kəndində bayram daha əzəmətli və izdihamlı olurdu. Onlar bayram mərasimində bir ağacı yandırır və onun tüstüsü qalxdıqda, ağlayıb ah-nalə çəkirdilər. Allah bu insanların hidayəti üçün peyğəmbər göndərdi. Amma onlar peyğəmbəri təkzib etdilər. Peyğəmbər azğın camaatı lənətlədi və bu lənətdən sonra müqəddəs ağac qurudu. Azğın qövm dərin bir quyu qazıb Allahın peyğəmbərini həmin quyuya atdı. Allahın peyğəmbəri bu sayaq şəhadətə çatdırıldı.[2]

**Bildirişlər**

1. Xalqın hidayəti üçün peyğəmbərlər göndərmək və təkzib edənlərin məhvi ilahi sünnədir.
2. Allah bütün ümmətlər üçün höccəti tamamlayır. Xəbərdarlığı başa çatdırır.
3. Allahın kafirlərə qarşı qəhr-qəzəbi onun sünnələrindən biridir.

### *AYƏ 40:*

﴿وَلَقَدْ أَتَوْا عَلَى الْقَرْيَةِ الَّتِي أُمْطِرَتْ مَطَرَ السَّوْءِ أَفَلَمْ يَكُونُوا يَرَوْنَهَا بَلْ كَانُوا لَا يَرْجُونَ نُشُورًا﴾

**“Həqiqətən, (Məkkə müşrikləri Şama səfər zamanı) bəla yağışı yağmış məntəqədən keçirdilər. Onu görmədilərmi? Nə üçün (Lut qövmünün məntəqəsini gördülər, amma ibrət götürmədilər? Çünki) onlar Qiyamətə, yenidən diriləcəklərinə inanmırdılar.”**

**Nöqtələr**

●Bəla yağışı yağmış yer Lut qövmünün məskəni idi və həmin yerə daş yağmışdı. İmam Baqir (ə) bildirir ki, həmin məntəqənin adı “Sədum” olmuşdur.[3]

---

[1] “Ət təhqiq fi kəlimatil-Quran”.
[2] “Təfsire-kənzud-dəqaiq”.
[3] “Təfsire-Nurus-səqəleyn”.

**Bildirişlər**

1. Arxeoloji tapıntılar ibrət vasitəsi ola bilər. (Tarixin nəqli və azğınların taleyinin bəyanı təbliğ, tərbiyə, nəhy əz münkər üçün zəmindir)

*Zəmanədən ibrət götürməyən kəs,*
*Müəllimdən çətin öyrənə bir dərs.*

2. Haqq qarşısında itaətsizlik və küfrün davamı haqqa çatmağa mane olur.

3. Yalnız qəlbində ümid nuru olan və Qiyamətə inanan kəs hadisələrdən faydalanır.

***AYƏ 41:***

﴿وَإِذَا رَأَوْكَ إِن يَتَّخِذُونَكَ إِلَّا هُزُوًا أَهَذَا الَّذِي بَعَثَ اللَّهُ رَسُولًا﴾

**“(Kafirlər) səni gördükləri vaxt yalnız məsxərəyə qoyurlar. (Onların sözü budur ki,) bu, Allahın peyğəmbər qərar verdiyi həmin kəsdirmi?”**

**Bildirişlər**

1. İnadkar və qürurlu şəxs haqqı qəbul etmir.

2. Peyğəmbərlərin məsxərəyə qoyulması və onların təhqiri kafirlərin daimi işidir.

3. Kafirlər peyğəmbəri şəxsən inkar etməklə onun risalətini də sual altına alırlar.

***AYƏ 42***

﴿إِن كَادَ لَيُضِلُّنَا عَنْ آلِهَتِنَا لَوْلَا أَن صَبَرْنَا عَلَيْهَا وَسَوْفَ يَعْلَمُونَ حِينَ يَرَوْنَ الْعَذَابَ مَنْ أَضَلُّ سَبِيلًا﴾

**“(Kafirlər deyir:) «Əgər biz bütlərimizə pərəstişdə möhkəm dayanmasaydıq, az qala bizi tanrılarımızdan uzaqlaşdırmışdı.” Əzabı gördükləri vaxt biləcəklər ki, kim daha çox azmışdır?»”**

**Bildirişlər**

1. Müşriklər İslam Peyğəmbərinin (s) dediyi sözlərin təsirini etiraf edirlər.

2. İnsan bəzən o qədər dolaşıq düşünür ki, hidayəti azğınlıq sayır.

3. Yeganə şüurlu Allahı qəbul etməyənlər çoxsaylı şüursuz bütləri Allah əvəzinə qəbul edəcəklər.

4. Səbr və müqavimət bəzən dəyər yox, inadkarlıq sayılır. Azğın yolda səbir və müqavimət bu qəbildəndir.

5. İslam proqramları günahkar olmayan insanları cəzb edir və yalnız inadkarlar məhrum qalırlar.

***AYƏ 43:***

﴿أَرَأَيْتَ مَنِ اتَّخَذَ إِلَهَهُ هَوَاهُ أَفَأَنتَ تَكُونُ عَلَيْهِ وَكِيلًا﴾

**"Nəfs istəklərini özünə tanrı seçəni gördünmü? Sən ona vəkil ola bilərsənmi (onu hidayət edə bilərsənmi)?"**

**Nöqtələr**

●Haqdan başqa istənilən bir məbuda nəfs istəyinə ("həva") deyilir.[1]

Ayə və rəvayətlər baxımından nəfsə uyma ("həvapərəstlik"):

–Nəfsə uyma qəflət qaynağıdır.[2]

–Nəfsə uyma küfr qaynağıdır.[3]

–Nəfsə uyma ən pis azğınlıqdır.[4]

–Nəfsə uyma ədalətli mühakiməyə imkan vermir.[5]

–Nəfsə uyma fəsad qaynağıdır.[6]

–Nəfsə uyma qəm-qüssə qaynağıdır;

–Nəfsə uyanın imanı yoxdur;

–Nəfsə uyan ağılsızdır;

–Nəfs istəklərinə itaət və bidətlərin yaranması fitnənin başlanğıcıdır;

–Azğın nəfs istəkləri insanı kor edir, haqqı batildən seçmə gücünü ondan alır;

–İnsanlar arasında ən şücaətlisi azğın nəfs istəyinə qalib gələn şəxsdir;

–həzrət Peyğəmbər (s) buyurmuşdur: "Azğın nəfs istəyi ona görə "həva" adlandırılmışdır ki, öz sahibini alçaldır."[7]

**Bildirişlər**

1. Bütpərəstliyin kökü nəfsə itaət, həvapərəstlikdir.
2. Hər bir insan fitrətən Allah axtarışındadır. Amma bəziləri həqiqi məbudu müəyyənləşdirməkdə səhvə yol verir.
3. Peyğəmbər (s) nəfsə uyanları məcburi şəkildə hidayət etməyə vəzifəli deyil.
4. İnsan ixtiyar sahibidir.
5. Tərbiyə və iman məcburi və ikrahla olmamalıdır.

---

[1] "Təfsire-Qurtubi".
[2] "Kəhf", 28.
[3] "Taha", 16.
[4] "Qəsəs", 50.
[5] "Sad", 26.
[6] "Muminun", 71.
[7] "Mizanul-hikmət".

### *AYƏ 44:*

﴿أَمْ تَحْسَبُ أَنَّ أَكْثَرَهُمْ يَسْمَعُونَ أَوْ يَعْقِلُونَ إِنْ هُمْ إِلَّا كَالْأَنْعَامِ بَلْ هُمْ أَضَلُّ سَبِيلًا﴾

**“Güman edirsən ki, kafirlərin əksəri (haqqı) eşidir və düşünür? Onlar yalnız dördayaqlılar kimidirlər, hətta daha da azğındırlar. (Çünki insanın dəyəri onun düşüncə və baxışındadır.)”**

**Nöqtələr**

●Quran kafirləri tənqid edərkən “əksər” sözünü işlədir ki, hidayət olanlar başqalarından seçilsin.

**Sual:** Nə üçün düz yolda olmayan insan dördayaqlıdan pis sayılır?

**Cavab:**

1. Heyvanda təkamül imkanı yoxdur. Amma insan belə bir imkana malikdir və onun üçün təkamül şəraiti yaradılmışdır.

2. Heyvanın ağlı yoxdur ki, yaxşını pisdən, haqqı batildən seçsin. Amma azmış insan düşüncəli olduğu halda, bu düşüncəni ayaq altına alıb nəfs istəyi arxasınca qaçır.

3. Heyvan sabit bir meyl ardınca gedir. Azğın insan isə yüzlərlə həvəs dalınca qaçır.

4. Azğın insan həm əyri yolla gedir, həm də öz azğınlığına don geyindirir.

5. Heyvan ona məhəbbət göstərən insana tabe olur. Azğın insan isə mehriban Allahı inkar edir və o çox nankordur.

6. Heyvanlar agah şəkildə Allaha təsbih deyir.[1] Azğın insanlar isə zikr və təsbihdən uzaq, Allahdan qəflətdədirlər.

7. Heyvanlar üçün ilahi əzab nəzərdə tutulmur. Azğın insan isə Allahın qəhr-qəzəbinə düçar olasıdır.

Hədisdə deyilir: Allah-təala
Xilqəti yaratdı üç növ ,üç halda:
Bir növdə ağıldan başqa heç nə yox,
Mələk çağrılarlar, səcdələri çox.
Elmdən payı yox ikinci növün,
Qarın dolu olsun, heyvan tək sevin.
Üçüncü növ isə sənsən ey Adəm,
Yarın heyvandandır, yarın mələkdən.
Əvvəlki iki növ hesabdan azad,
Sənsən iki yandan görərsən əzab.
Bir dəstə qərq olmuş başdan-ayağa.

---

[1] “Nur”, 41

İsa tək mələkdən durmuş qabağa,
Baxanda Adəmdir, içi Cəbrail,
Yendirmiş nəfsini göylərə mail.
Sürüyə qatılmış o biri dəstə,
Daim nəfs ardınca qaçmaq həvəsdə.

İnsanın mayası yoğrular ikən
Alınmış heyvandan, həm də mələkdən.
Bir yana yönəlsə, olası heyvan,
Üz tutsa o yana, mələkdir insan.

**Bildirişlər**

1. İnsan doğru yola yönəlmək üçün batini peyğəmbər (ağıl) və zahiri peyğəmbəri dinləməlidir.

2. Küfr və peyğəmbərlərin dəvətini inkar etmək düşüncəsizlikdir.

3. Allahın xəlifə seçdiyi insan öz fitrətini unutmaqla heyvandan da aşağı alçalır.

***AYƏ 45:***

﴿أَلَمْ تَرَ إِلَى رَبِّكَ كَيْفَ مَدَّ الظِّلَّ وَلَوْ شَاء لَجَعَلَهُ سَاكِنًا ثُمَّ جَعَلْنَا الشَّمْسَ عَلَيْهِ دَلِيلاً﴾

**“Görmürsənmi Rəbbin kölgəni necə yayıb? Əgər istəsəydi, onu tərpənməz qərar verərdi. Sonra günəşi ona dəlil və göstərici qərar verdik.”**

***AYƏ 46:***

﴿ثُمَّ قَبَضْنَاهُ إِلَيْنَا قَبْضًا يَسِيرًا﴾

**“Sonra o kölgəni (aram-aram) Özümüzə doğru yığarıq.”**

**Nöqtələr**

●İmam Baqir (ə) buyurmuşdur: “Ayədə «yayılmış kölgə» dedikdə fəcr tülusu (günəşin doğuşu) və qürub arası kölgə nəzərdə tutulur.”[1] Bəziləri gecənin və ya günortadan sonranın kölgəsinin nəzərdə tutulduğunu bildirsələr də, “sonra günəşi ona dəlil və göstərici qərar verdik” cümləsinə əsasən İmamın (ə) buyruğu qəbul olunmalıdır.

*Bəsirət sahibi kölgəni görüb,*
*Günəşin nuruna olası əmin*
*Dəlilsiz baş vurma dərinliklərə,*
*«Xəlil»tək sən də ol əhli-yəqin.*

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

**Bildirişlər**

1. Xalqın Allahı tanıması üçün ən yaxşı yol varlıq aləmində ilahi hikmət əsasında baş verənlər haqqında düşünməkdir.

2. Yerin öz oxu və günəş ətrafında dövr etməsi təsadüfi deyil. Bu iş hikmət və tədbirə əsaslanır.

3. İnsan nemətlər içində qərq olsa da, həmin nemətlərə ibrət gözü ilə baxmır.

4. Kölgənin yayılması və müddətinin uzanması tərbiyə, inkişaf və çiçəklənmə üçündür. (Əgər nur sabit, kölgə daimi olsaydı, hər şey ya yanar, ya da donardı.)

5. Allahın təbiətdə böyük dəyişikliklər etməyə qüdrəti çatsa da, O Öz qayda-qanunlarını tərk etmir.

6. Varlıq aləminin davamlı hərəkəti Allahın əlindədir.

7. Günəş və işığın varlığı əsasında kölgəni tanımaq mümkündür. Hər şey öz varlığının ziddi əsasında tanınır.

8. Varlıq aləminin hərəkəti, təbiətdəki dəyişikliklər Allahın işidir.

9. Varlıq aləmi tədricən, aram-aram və altı mərhələdə yarandığı kimi, ondakı dəyişikliklər də tədricən baş verəcək.

10. Nəyisə geri almaq Allah-təala üçün çətin deyil.

*AYƏ 47:*

﴿وَهُوَ الَّذِي جَعَلَ لَكُمُ اللَّيْلَ لِبَاسًا وَالنَّوْمَ سُبَاتًا وَجَعَلَ النَّهَارَ نُشُورًا﴾

**“O sizin üçün gecəni örtük, yuxunu aramlıq, gündüzü oyanış (səy) vaxtı qərar verən kəsdir.”**

**Nöqtələr**

●Qurani-Kərimdə bir neçə şey “libas” adlandırılır. Məsələn: gecə[1]; həyat yoldaşı[2]; təqva[3].

●“Səbt” dedikdə işin dayandırılması nəzərdə tutulur. İşdən sonra istirahət də “səbt” adlandırılır.[4] “Nəşr” sözündən olan “nuşur” sözü insanların gündüz iş ardınca yola düşməsi mənasını bildirir.

**Bildirişlər**

1. Gecə-gündüzün hərəkəti təsadüfi deyil, bu hərəkətdə hikmətli məqsədlər və proqramlar mövcuddur.

2. Gecənin düşməsi bəşəriyyət üçün ilahi bir nemətdir.

---

[1] “Furqan”, 47.
[2] “Bəqərə”, 187.
[3] Əraf”, 26.
[4] “Ət təhqiq fi kəlimatil-Quran”.

3. Yuxu və oyaq vaxtımızı təbiətlə uyğunlaşdıraq. Qaranlıq və sükut insanın rahatlığına müsbət təsir göstərir. Əksinə, insanın səy və hərəkətinə nur müsbət təsir edir.

4. Libas bədəni qoruduğu kimi, gecə də sağlamlığı hifz edir.

5. Gecə-gündüzün dəyişməsi, gecə istirahət, gündüz səy Allahın rübubiyyət nişanəsidir.

*AYƏ 48:*

﴿وَهُوَ الَّذِي أَرْسَلَ الرِّيَاحَ بُشْرًا بَيْنَ يَدَيْ رَحْمَتِهِ وَأَنزَلْنَا مِنَ السَّمَاء مَاء طَهُورًا﴾

**“Küləkləri rəhmətindən öncə bir müjdə göndərən Odur. Səmadan paklayan su göndərdik (ki,)”**

*AYƏ 49:*

﴿لِنُحْيِيَ بِهِ بَلْدَةً مَّيْتًا وَنُسْقِيَهُ مِمَّا خَلَقْنَا أَنْعَامًا وَأَنَاسِيَّ كَثِيرًا﴾

**“Onun vasitəsi ilə ölü torpağı diriləldək və ondan dördayaqlılara və bir çox insanlara içirək.”**

**Nöqtələr**

●“Təhur” dedikdə həm özü çox pak olan, həm də pakedici şey nəzərdə tutulur. “Bələd” sözü yer mənasını bildirir. Bu yer həm şəhər, həm kənd, həm əkin sahəsi ola bilər. Əraf” surəsinin 58-ci ayəsində bildirilir ki, yaxşı yer öz Rəbbinin izni ilə otunu cücərdir. Aydın məsələdir ki, otun cücərməsi şəhərə aid səciyyə deyil. “Ənasiyy” sözü insanlar mənasını bildirir.

●“Bələd” sözü ilə “bəldət” sözü eyni məna bildirdiyindən onu vəsf edərkən “məytən” sözündən istifadə olunmuşdur.[1]

●Sudan istifadədə ən böyük pay əkinçiliyə düşür. Daha sonra heyvanlar sudan çox istifadə edir. Sudan istifadə payına görə insan 3-cü yerdə dayanır. Buna görə də ayədə öncə əkinçilikdən, sonra heyvanatdan və nəhayət insandan danışılır.

●Küləyin bir çox faydaları var. Külək havaya lətafət verir, buludları hərəkətə gətirir, istiliyi azaldır, bitkiləri bar-bəhrəyə çatdırır.

**Bildirişlər**

1. Küləklər Allahın iradəsi ilə hərəkət edir.

2. Küləyin müxtəlif növləri var, bəzi küləklər yağışla müşayiət olunur.

3. Yağış Allahın iradəsi ilə buludlardan nazil olur.

4. Su həm özü pakdır, həm də pakedicidir. O insan cismini və digər əşyaları paka çıxarır, dəstəmaz və qüsldə insan ruhunun paklığına səbəb olur.

---

[1] “Təfsire-Qurtubi”.

5. Bəşər həyatı bitkilərdən və heyvanlardan asılıdır. (Torpağın oyanışı və heyvanların sirab edilməsi məsələsi insanın sirab olunmasından öncə qeyd olunur.)

6. Allahın işləri təbii vasitələrlə gerçəkləşir.

*AYƏ 50:*

﴿وَلَقَدْ صَرَّفْنَاهُ بَيْنَهُمْ لِيَذَّكَّرُوا فَأَبَى أَكْثَرُ النَّاسِ إِلَّا كُفُورًا﴾

**“Həqiqətən, Biz (Quran ayələri və ya buludla yağışı) onların arasında paylaşdırdıq ki, bəlkə Allahı yada salalar. Amma insanların əksəri boyun qaçırıb nankor oldu.”**

**Nöqtələr**

●Ola bilsin ki, “təsrif” dedikdə yağışın hərəkəti və ötürülməsi nəzərdə tutulur. Yəni yağış ardıcıl və pərakəndə şəkildə göndərildi. O bəzən narın, bəzən leysan şəklində yağdı. Bütün bu rəngarənglik və dəyişikliklər düşüncə və qədirdanlıq üçündür. Çox əfsus ki...

“Aralarında paylaşdırdıq” deyərkən Quran ayələrinin təkrarı və müxtəlif növ bəyanlar nəzərdə tutula bilər. Quranda tez-tez bu məna ilə rastlaşmaq olar.

**Bildirişlər**

1. Xatırlatma ardıcıl və rəngarəng olmalıdır.

2. Quran hidayət kitabıdır, təkrar və xəbərdarlıq hidayət şərtidir.

3. Nemətləri yada salmaq nemətə görə şükürdür. Nemətlərdən qəflət onlara qarşı nankorluqdur.

4. Nemətə görə şükür edən azdır.

*AYƏ 51:*

﴿وَلَوْ شِئْنَا لَبَعَثْنَا فِي كُلِّ قَرْيَةٍ نَذِيرًا﴾

**“Əgər istəsəydik hər məntəqəyə (peyğəmbər və) xəbərdarlıq edən şəxs göndərərdik. (Bu yolla sənin işin yüngülləşərdi, amma buna ehtiyac yoxdur.)”**

**Nöqtələr**

●Bu ayə bir növ İslam Peyğəmbərinin (s) son peyğəmbər olmasını və İslam məktəbinin əhatəliliyini bəyan edir. Buyurulur ki, səninlə birlikdə heç bir peyğəmbər göndərilməyib; çünki sənin məktəbində və özündə bütün cəmiyyəti idarə etmək gücü var və başqasına ehtiyac yoxdur. Məlum olur ki, Peyğəmbər (s) uca məqamda olduğundan onun gəlişi ilə peyğəmbərlik silsiləsi başa çatır.

**Bildirişlər**

1. Hər bir ümmətin rəhbərə ehtiyacı olsa da,[1] hər məntəqədə bir peyğəmbər olması ümmətə rəhbərlikdə vəhdət üçün zərbə olar.

2. Peyğəmbər müqavilə və seçim əsasında təyin olunmur, Allah tərəfindən seçilir.

*AYƏ 52:*

﴿فَلَا تُطِعِ الْكَافِرِينَ وَجَاهِدْهُم بِهِ جِهَادًا كَبِيرًا﴾

**“Kafirlərə itaət etmə, onlara qarşı Quran vasitəsi ilə böyük cihada başla.”**

**Nöqtələr**

●Kafirlərlə rəftarın bir neçə mərhələsi var: öncə onlara tabe olmamaq, ikincisi, mübarizə və cihad. Cihad və mübarizənin də bir neçə qismi var: qılıncla aparılan kiçik cihad, Quran məntiqi ilə, düşmənlərin şübhələrinə cavab verməklə aparılan elmi, böyük cihad.

**Bildirişlər**

1. Kafirlərlə saziş qadağandır. (Kafirlərin istənilən azğın təkliflərini qətiyyətlə rədd edin.)

2. Kafirlər qarşısında o zaman müstəqil və güclü ola bilərsiniz ki, mərkəzləşəsiniz. İndi rəhbərlik bir peyğəmbərin vücudunda mərkəzləşmişdir və siz güclüsünüz. Beləsə, sazişə girməyin.

3. Kafirlərə itaət etməmək bəs deyil, cihad da lazımdır. Bu cihad böyük və hərtərəfli olmalıdır.

4. Mənfi mübarizə (itaət etməmək) mübarizə üsullarından biridir. (Kafirlərə itaəti tərk etməklə onlarla vuruş.)

5. Quran İslam düşmənlərinə qarşı ən üstün elmi-mədəni cihad vasitəsidir.

6. Düşmənləriniz ideoloji və mədəni hücumlar üçün səy göstərirlər. Siz də işsiz qalmayın.

7. Küfr və şirkə qarşı elmi və məntiqi cihad ən böyük cihaddır.

*AYƏ 53:*

﴿وَهُوَ الَّذِي مَرَجَ الْبَحْرَيْنِ هَذَا عَذْبٌ فُرَاتٌ وَهَذَا مِلْحٌ أُجَاجٌ وَجَعَلَ بَيْنَهُمَا بَرْزَخًا وَحِجْرًا مَّحْجُورًا﴾

**“Biri şirin və dadlı, o biri şor və acı iki dəryanı qovuşduran və onlar arasında həmişə ayrı qalmaları üçün səd qoyan Odur.”**

---

[1] “Fatir”, 24,

**Nöqtələr**

●"Mərəcə" sözü qarışdırmaq, bir-birinə qovuşmaq üçün iki dəryanı rəvan etmək mənasını bildirir.[1] "Əzb" dedikdə dadlı, "furat" dedikdə şirinə yaxın çox dadlı mənaları başa düşülür. "Milh" sözü şor mənasını bildirir. "Ucac" dedikdə acılığı yaxın çox şor su mənası anlaşılır.

**Bildirişlər**

1. Şirin və şor su yanaşı dayandığı halda onları qarışmağa qoymayan Allah icazə verərmi ki, haqq batilə, küfr imana qarışsın?!

2. Allahın iradəsi ilə hətta bir-birinə toxunan mayelər qarışmamış qalır.

***AYƏ 54:***

﴾وَهُوَ الَّذِي خَلَقَ مِنَ الْمَاء بَشَرًا فَجَعَلَهُ نَسَبًا وَصِهْرًا وَكَانَ رَبُّكَ قَدِيرًا﴿

**"İnsanı sudan yaradan, onun üçün yaxın (nəsəbi) və uzaq (səbəbi) qohumluq qərar verən Odur. (Nəsil bu iki yolla yayıldı.) Sənin Rəbbin qüdrət sahibidir."**

**Nöqtələr**

●Ayədə su dedikdə insan nütfəsi nəzərdə tutulur.[2]

●"Nəsəb" ata, övlad, qardaşlar arasında olan kök bağlılıqdır. "Sihr" dedikdə, «kürəkən» mənası anlaşılır. Bu rabitə kişi ilə başqa bir ailə arasında yaranan rabitədir. Ər ilə arvad, qohumlar arasında olan rabitə "səbəbi" rabitə adlanır.

**Bildirişlər**

1. Həm insan, həm də digər mövcudlar sudandır.[3]

2. Bütün insanlar bir maddədən yaradılmışdır. Demək, irq və millət ayrıseçkiliyi əsassızdır.

3. İnsan əzəmətli bir mövcuddur.

4. İnsan həyatı nəsəbi və səbəbi bağlılıqlar əsasında formalaşır.

5. Bu ayədə nəsəbi qohumlar səbəbi qohumlardan öncə zikr olunur. Bu ardıcıllıq nəsəbi qohumluğun üstünlüyünü göstərir.

---

[1] "Ər-rəhman", 19

[2] "Mürsəlat", 20; "Tariq", 6.

[3] "Nur", 45; "Ənbiya", 30.

*AYƏ 55:*

﴿وَيَعْبُدُونَ مِن دُونِ اللَّهِ مَا لَا يَنفَعُهُمْ وَلَا يَضُرُّهُمْ وَكَانَ الْكَافِرُ عَلَى رَبِّهِ ظَهِيرًا﴾

**“(Müşriklər) onlara nə xeyir, nə də ziyan verə bilən şeylərə, Allahdan qeyrilərinə pərəstiş edirlər. Kafir daim öz rəbbinə qarşı (azğınlara) arxadır.”**

**Bildirişlər**

1. İnsana xeyir verən və zərəri ondan uzaqlaşdıran elm dəyərlidir. Allahdan qeyrisinə pərəstiş səmərəsizdir.
2. Müşriklərin bütlərə pərəstişdə heç bir dəlil və məntiqləri yoxdur.
3. Xeyir və zərər yalnız Allahın əlindədir.
4. Müşriklər kafirdirlər və küfr yolunda bir-birlərinə yardım göstərirlər.

*AYƏ 56:*

﴿وَمَا أَرْسَلْنَاكَ إِلَّا مُبَشِّرًا وَنَذِيرًا﴾

**“Səni yalnız müjdə verən və qorxudan (peyğəmbər olaraq) göndərdik.”**

**Nöqtələr**

●Bu qısa ayədə həm tövhid, həm nübüvvət, həm də məad prinsiplərinə işarə olunmuşdur.

●Ötən ayədə kafirlərin və müşriklərin müxalifətindən, onların bir-birinə arxa durmağından danışıldığı üçün bu ayədə peyğəmbərə təsəlli verilə bilər ki, nigaran olma, sənin vəzifən yalnız müjdə vermək və qorxutmaqdır.

**Bildirişlər**

1. Peyğəmbərlər nəticə yox, vəzifəyə məsuldurlar.
2. Haqqa çağırış və tədbirdə xəbərdarlıq və müjdə yanaşı olduqda səmərə verər.
3. Peyğəmbərlərin xalqı məcbur etmək haqlarqı yoxdur.
4. İnsan müjdədən çox xəbərdarlığa ehtiyaclıdır.

*AYƏ 57:*

﴿قُلْ مَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِلَّا مَن شَاء أَن يَتَّخِذَ إِلَى رَبِّهِ سَبِيلاً﴾

**“De ki, risalətim müqabilində sizdən heç bir muzd istəmirəm. İstəyim yalnız budur ki, (mənim dəvətimlə) bir şəxs öz Rəbbinə doğru yol tutsun.”**

**Nöqtələr**

●Quranda İslam Peyğəmbərinin (s) zəhmətlərinə veriləcək mükafat haqqında bir neçə təbir var. “Nüdbə” duasında bu mövzu ilə bağlı bütün ayələr zikr olunmuşdur:

–“Mənim mükafatım Allahın öhdəsinədir.”[1]

–“Mənim mükafatım Əhli-beytimə məhəbbətdir.”[2]

–“Mənim mükafatım sizin Allah yolunu tutmağınızdır.”[3]

–“İstədiyim mükafat sizin öz xeyrinizədir.”[4] Məsum rəhbərlərin məhəbbəti Allah yolunu tutmağın rəmzidir. Xalqın bu yolu seçməsi onun öz xeyrinədir. Deməк, peyğəmbər üçün heç bir maddi mənafe yoxdur.

**Bildirişlər**

1. Öz təmənnasızlığını xalqa elan edən rəhbər müvəffəqdir.
2. İnsan heç bir maddi təmənnası və ad-san istəyi olmadıqda ixlas əldə edir.
3. İnsan əqidə ə yol seçimində azaddır.
4. Peyğəmbərlərin muzdu xalqın Allaha bəndəlik etməsidir.

***AYƏ 58:***

﴿وَتَوَكَّلْ عَلَى الْحَيِّ الَّذِي لَا يَمُوتُ وَسَبِّحْ بِحَمْدِهِ وَكَفَى بِهِ بِذُنُوبِ عِبَادِهِ خَبِيرًا﴾

**“Həmişəlik ölməzə (Allaha) təvəkkül et və Ona sitayişlə təsbih de. Yetər ki, O, bəndələrinin günahlarından tam xəbərdardır.”**

**Nöqtələr**

●Quranda “təvəkkül” və ondan alınmış sözlər yetmiş dəfə işlədilmişdir. Təvəkkül dedikdə Allaha güvənmək və işlərdə Onu vəkil seçmək nəzərdə tutulur.

●Ötən ayədə Peyğəmbərə (s) buyuruldu ki, xalqa “mən sizdən muzd istəmirəm” söyləsin. Bu ayədə isə buyurulur ki, xalqın malında gözü olmayan dini rəhbərlər öz ehtiyaclarının təminində yalnız Allaha təvəkkül etsinlər.

●Allaha təvəkkül dedikdə səy və təlaşı dayandırmaq nəzərdə tutulmur. Şair deyir:

*Peyğəmbər ucadan söylədi bunu:*
*Təvəkküllə bağla nərin boynunu,*
*Allah həbibinin eşit sözünü,*
*Təvəkkül edəndə bükmə dizini.*
*Təvəkkül et, əl götürmə təlaşdan,*

---

[1] “Səba”, 47.
[2] “Şura”, 23.
[3] “Furqan”, 57.
[4] “Səba”, 47.

*Bel bağla Allaha, çalış ey insan.*

**Bildirişlər**

1. Faninin faniyə (müvəqqətinin müvəqqətiyə) güvənməsi əbəsdir.
2. Zəifin-zəifə güvənməsi əbəsdir.
3. Cahilin-cahilə güvənməsi əbəsdir.
4. Peyğəmbərlərin də ilahi öyüd-nəsihətə ehtiyacları var.
5. Əbədi həyat yalnız Allaha məxsusdur.
6. Həmişə var olan ölməz Allaha təvəkkül et. Əgər bu gün düşmənə möhlət vermişsə, məqsəd onun tövbəsidir. Tövbə edilməyən halda sabah da intiqam üçün fürsət var.
7. Qəlbən təvəkkül əməldə təsbih və həmd-səna ilə müşayiət olunmalıdır.
8. Allah insanların ən xırda işlərindən yetərincə xəbərdardır.
9. Günahkarlar da Allahın bəndələridir.
10. İnsanın Allahın bütün günahlardan xəbərdar olmasına imanı təqva əldə etmək üçün ən üstün vasitədir.
11. Allahın günahlardan agahlığı kafirlərə xəbərdarlıq olmaqla yanaşı, Peyğəmbər (s) üçün təsəllidir. Peyğəmbərə (s) bildirilir ki, nigaran olma, Biz onların pozuculuqların agahıq və inadkar kafirlərlə hesab çəkərik.

***AYƏ 59:***

﴿الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ الرَّحْمَنُ فَاسْأَلْ بِهِ خَبِيرًا﴾

**“Göyləri, yeri və onlar arasında olanları altı gündə yaradan Odur. Sonra ərşə hakim oldu. (Aləmin idarə olunmasına başladı.) Odur Rəhman Allah. Ondan istə, O hər şeydən agahdır. (Ya da Onun haqqında bilən kəsdən soruş.)”**

**Nöqtələr**

●Dünyanın altı gündə yaradılması ilə bağlı ayələrdə altı dəfə məlumat verilir. Altı gün dedikdə ya altı mərhələ, ya da təbii altı günə bərabər müddət nəzərdə tutulur. Mövləvi deyir:

***Tədricən yarandı gördüyün hər nə,***
***Altı gün içində gəldi ərsəyə.***
***Yoxsa ki, desəydi «ol!» o Yaradan,***
***Yarada bilərdi yüzlərlə cavan.***
***Bu tədricilikdə öyüd var sənə:***
***Səbirlə düz iş gör, yol vermə qəmə.***

●İslam leksikonunda "ərş" dedikdə yaranışa rəhbərlik və tədbir mərkəzi nəzərdə tutulur. "Ərşə hakim olmaq" dedikdə ilahi hökm və tədbir nəzərdə tutulur.[1]

●İlahi rəhmət hər şeyi əhatə etmişdir:

1. Kainatın nizamı, aləmin yaranışı rəhmət əsasındadır;
2. İnsanın yaranış nizamı rəhmət əsasındadır.[2]
3. Şəriət nizamı və qanunçuluq rəhmət əsasındadır.[3]
4. Qiyamət və hesab-kitab nizamı rəhmət əsasındadır.[4]

**Bildirişlər**

1. Varlıq aləminin yaranışı tədricən gerçəkləşmişdir.
2. Allah aləmi yaratmışdır, həm də ona tam hakimdir.
3. Varlıq aləmi ilahi rəhmət əsasında idarə olunur.
4. Elə bir şəxsdən bir şey istəyin ki, rəhmət əhli olsun.
5. Soruşmaq ayıb deyil, bilməmək ayıbdır.
6. İlahi maarif əldə etmək üçün mütəxəssisə müraciət olunmalıdır.

***AYƏ 60:***

﴿وَإِذَا قِيلَ لَهُمُ اسْجُدُوا لِلرَّحْمَنِ قَالُوا وَمَا الرَّحْمَنُ أَنَسْجُدُ لِمَا تَأْمُرُنَا وَزَادَهُمْ نُفُورًا﴾

**"Onlara «Rəhmana səcdə edin!» söyləndikdə deyərlər: «Rəhman nədir? Yoxsa sənin əmr etdiyin şeyə səcdə edək?» (Bu dəvət) onların nifrətlərini artırar."**

**Nöqtələr**

●Ayədə "ma" sözü iki dəfə işlədilmişdir və hər iki halda cansız cisim nəzərdə tutulmuşdur. Kafirlər bu təbiri işlətməklə Allahın müqəddəs zatını alçaltmaq istəyirdilər. Onlar "Rəhman kimdir?" əvəzinə "Rəhman nədir?" deyə soruşurdular.

●"Rəhman" sözü daimi, sonsuz rəhmət rəmzidir və Allaha məxsus sifətlərdəndir.[5]

**Bildirişlər**

1. Səcdə allahpərəstliyin izharı, tövhid dinlərinin ruhudur.
2. Yaxşılığa əmr edərkən (əmr be məruf) dəlil göstərin. (Səcdənin dəlili Allahın geniş rəhmətidir.)

---

[1] ""Yunus", 3.
[2] "Hud", 119.
[3] "Ər-rəhman", 1, 2.
[4] "Ənam", 12.
[5] "Təfsire-Ətyəbul-bəyan",

3. Küfr və inadkarlıq səbəbindən nəinki peyğəmbərin dəvəti təsirsiz qalır, hətta bu dəvət kafirlərin haqq sözə qarşı nifrətlərini artırır.

*AYƏ 61:*

﴿تَبَارَكَ الَّذِي جَعَلَ فِي السَّمَاء بُرُوجًا وَجَعَلَ فِيهَا سِرَاجًا وَقَمَرًا مُّنِيرًا﴾

**"Səmada bürclər qərar verən, onda günəş və nurlu ay yaradan kəs mübarək və ucadır."**

**Nöqtələr**

●"Təbarəkə" sözü yalnız keçmiş zamanda işlədilmiş və bu surədə ondan üç dəfə istifadə olunmuşdur. Deyildiyi kimi, bu söz ya "bərək" sözündən olub sabit, ya da "bərəkət" sözündən olub, çoxlu xeyir mənasını bildirir.

●İmam Baqirin (ə) buyurduğuna əsasən, "buruc " dedikdə ulduzlar nəzərdə tutulmuşdur.[1]

●"Sirac" sözü günəş mənasını bildirir. Günəşin nuru özündəndir. Nuru özündən olmayan parlaq şeylər "munir" adlanır.[2]

**Bildirişlər**

1. Ulduzların, günəşin və ayın yaranışı ilahi bərəkət cilvələrindəndir.

*AYƏ 62:*

﴿وَهُوَ الَّذِي جَعَلَ اللَّيْلَ وَالنَّهَارَ خِلْفَةً لِّمَنْ أَرَادَ أَن يَذَّكَّرَ أَوْ أَرَادَ شُكُورًا﴾

**"İbrət götürmək və ya şükür etmək istəyənlər üçün gecə və gündüzü bir-biri ilə əvəzləyən Odur."**

**Nöqtələr**

●"Xilafət" sözü iki şeyin bir-birini əvəz etməsi mənasını bildirir.[3]

●İmam Sadiq (ə) buyurur: "Gecə nafilə namazlarından ötürdüyünü gündüz yerinə yetirə bilərsən." Sonra imam (ə) hazırkı ayəni tilavət etdi.[4]

●Varlığa hakim nizamdan tövhid dərsi almaq öz istəyinizdən asılıdır. Bir çox insanlar bütün ömürlərini təbiət hadisələrinin araşdırılmasına sərf etsələr də, ibrət götürmək məqsədləri olmadığından əliboş qalırlar. Belələri bir ömür güzgü (ayna) satmaqla məşğul olub öz üst-başlarını səliqəyə salmayan şəxslər kimidirlər. Halbuki yoldan ötən hər bir şəxs həmin güzgüyə bir nəzər salmaqla özünü səliqəyə sala bilər. Demək, təkcə baxmaq bəs etmir. İnsanda islah, tərbiyələnmə istəyi də olmalıdır. Deyilənlərdən aydın olur ki, nə üçün bəzi

---

[1] "Təfsiri-nurus-səqəleyn."
[2] "Nuh", 16; "Təfsiri-nümunə".
[3] "Mufrədati-rağib".
[4] "Təfsire-kənzud-dəqaiq".

təbiət alimləri bir ömür araşdırma apardıqları halda Allahı tanımırlar. Çünki onlar Allahı tanımaq məqsədi ilə addım atmamışlar. Bəli, ömür boyu nərdivan düzəldib, bir dəfə də olsun onun vasitəsilə yuxarı çıxmayan ustalar var.

**Bildirişlər**

1. İnsanın istək və iradəsi onun inkişafı üçün zəmindir.
2. İnsan ixtiyar verilmiş bir mövcuddur.
3. İnsan bir xəbərdarlıqla oyanan fitrətə malikdir. (Xatırlatmaq o zaman lazım gəlir ki, insan bildiyi bir şeyi unutmuş olsun.)
4. Həm tanışlıq, həm də əməl və şükür üçün istək lazımdır.
5. Gecə və gündüz şükrə layiq nemətdir.
6. Allah zikri o zaman səmərə verir ki, agahlıq və bəsirət əsasında olsun.

*AYƏ 63:*

﴿وَعِبَادُ الرَّحْمَنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا﴾

**“Yer üzündə təkəbbürsüz gəzən, cahillər (pis sözlərlə) xitab etdikdə mülayimliklə cavab verən kəslər Rəhman Allahın bəndələridirlər.”**

*AYƏ 64:*

﴿وَالَّذِينَ يَبِيتُونَ لِرَبِّهِمْ سُجَّدًا وَقِيَامًا﴾

**“Onlar Rəbləri üçün səcdə və fərağat halda gecəni oyaq qalırlar.”**

**Nöqtələr**

●Bu ayədə Allah bəndələrinin on iki sifəti bəyan olunur. Onlardan bəzisi etiqadi, bəzisi ictimai, bəzisi isə əxlaqidir.

●Ola bilsin ki, “məşy”–«yer üzündə aram hərəkət» dedikdə, təkcə yolda yerimək qaydası nəzərdə tutulmamışdır. Uyğun söz orta (nə ifrat, nə də təfrit) həyat tərzinə işarə ola bilər.

●“Həvn” dedikdə həm təvazö və mülayimlik, həm də qəlb aramlığı və vüqar mənaları nəzərdə tutulur.

İmam Sadiq (ə) buyurur: “Həvnən” dedikdə Allahın yaratdığı fitrət əsasında, həmin ruhiyyəyə uyğun yaşayış nəzərdə tutulur. Yəni Allah bəndələri özlərini sıxıntıya, əzab-əziyyətə sürükləmirlər.”[1]

●Burada “səlam” sözü nadanlığa qarşı mülayim rəftarı göstərir. Həzrət İbrahim (ə) buyurdu: “Xudahafiz, tezliklə Allah dərgahından sənin üçün bağışlanma diləyəcəyəm.”[2]

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Məryəm”, 46, 47.

“Bəytutə” sözü bütün gecəni və ya onun bir hissəsini oyaq qalmaq mənasını bildirir. Necə ki, həcc mərasimi əməllərindən biri ziyarətçilərin zilhiccə ayının 11-ci və 12-ci gecəsi Minada qalmasıdır. Fəqihlər həmin yerdə gecənin yarısını oyaq qalmağı bəytutə miqdarı saymışlar.

Həzrət Əli (ə) pak və təqvalı insanları vəsf edərkən buyurur: “Onlar gecələr qiyam (farağat) halında oyaq qalırlar. Onlar gecənin abidləri, gündüzün şirləridirlər.”[1]

**Bildirişlər**

1. İnsan üçün ən böyük iftixar Allaha bəndəlikdir. Çünki insanı ucaldan sonsuzluğa bağlılıqdır.
2. Hər bir şəxsin rəftarı onun kimliyini göstərir. (Allahın həqiqi bəndələri təvazö nümunələridir.)
3. İslam əhatəli bir dindir, hətta yolu necə yeriməklə bağlı göstəriş verir.
4. İnsanın iman və etiqadı onun rəftarına təsirlidir.
5. Təvazökarlıq bəndəliyin səmərəsi və onun ilk nişanəsidir.
6. Allah bəndələrinin müdara və mülayimliyinin qaynağı qorxu və zəiflik yox, imandır.
7. Vüqar və mülayimlik möminlərin ən bariz sifətlərindəndir.
8. Bütün insanlara - qadınlara və kişilərə, kiçiklərə və böyüklərə, nadanlara və alimlərə - münasibətdə təvazökar olmaq lazımdır.
9. Cahillərlə cahil kimi rəftar etməyin.
10. Müdara, həlimlik və hövsələ möminlərin bariz sifətlərindəndir.
11. Həm əməldə, həm sözdə, həm də ibadətdə təvazökarlıq lazımdır.
12. Nadan və dəyərsiz insanlarla höcətləşməyin. (Onlar öz səviyyələrinə uyğun danışdıqları vaxt siz elm və kəramətlə cavab verin.)
13. İbadət üçün ən üstün vaxt gecədir. Gecə, namaz və münacat arasında güclü rabitə var. (Aram fəza, riyadan uzaqlıq və bir yerə toplanmış fikir gecənin bərəkətlərindəndir.)
14. Gecəni oyaq qalmaq, ibadətin davamı Allahın həqiqi bəndələrinin nişanəsidir.
15. İbadəti dəyərli edən ixlasdır.

[1] “Nəhcül-bəlağə”.

*AYƏ 65:*

﴿وَالَّذِينَ يَقُولُونَ رَبَّنَا اصْرِفْ عَنَّا عَذَابَ جَهَنَّمَ إِنَّ عَذَابَهَا كَانَ غَرَامًا﴾

**“Onlar deyərlər: “Pərvərdigara! Cəhənnəm əzabını bizdən uzaqlaşdır. Onun əzabı üzücüdür.”**

*AYƏ 66:*

﴿إِنَّهَا سَاءتْ مُسْتَقَرًّا وَمُقَامًا﴾

**“Həqiqətən Cəhənnəm pis yer, pis mənzildir.”**

**Nöqtələr**

●“Ğəram” sözü insana qurtuluş yolu qoymayan müsibət mənasını bildirir. Bu müsibət bir növ insanın çiyninə yük qoyur.[1]

●İnsan həm ibadət, həm də digər xeyir əməllər vasitəsi ilə oddan qurtuluş yolu axtarmalıdır. Həzrət Əli (ə) öz malından Allah yolunda vəqf edərkən vəqfnamədə belə yazdı: “Bu malı vəqf etdim ki, onun vasitəsi ilə Cəhənnəm odundan amanda qalım və bu od məndən uzaq olsun.”[2]

**Bildirişlər**

1. İbadət üçün gecəni oyaq qalsanız da qürrələnməyin.
2. Məadı, ölümdən sonrakı həyatı yada salmaq Allahın həqiqi bəndələrinin xüsusiyyətlərindəndir.
3. Allahın xüsusi, həqiqi bəndələri Behişt barədə düşünməzdən öncə, Cəhənnəm odundan qorxurlar.

*AYƏ 67:*

﴿وَالَّذِينَ إِذَا أَنفَقُوا لَمْ يُسْرِفُوا وَلَمْ يَقْتُرُوا وَكَانَ بَيْنَ ذَلِكَ قَوَامًا﴾

**“Onlar infaq edəndə nə israfa yol verər, nə də xəsislik göstərərlər. Bu iki hədd arasında orta həddi gözləyərlər.”**

**Nöqtələr**

●“Qəvam” sözü orta hədd, “qivam” sözü qiyam vasitəsi mənasını bildirir.

●İmam Rza (ə) infaq üçün orta həddi “Bəqərə” surəsinin 236-cı ayəsində göstərildiyi kimi müəyyənləşdirir. Yəni varlı öz şəninə uyğun, yoxsul öz gücü hədində - ürfə uyğun - infaq etməlidir.[3]

---

[1] “Ət təhqiq fi kəlimatil-Quran”.
[2] “Safi”, c. 2. s. 104.
[3] “Kafi”, c. 4, s. 56.

●İmam Sadiq (ə) buyurur: “Batil yolda az da olsa bəxşiş israfdır. Haqq yolda qıymamazlıq isə xəsislikdir.”[1]

●Quranın digər bir ayəsində oxuyuruq: “Nə əlini boynunda zəncirləyib xəsis ol, nə də əlini tam açıb israf et.”[2]

●İmam Sadiq (ə) yerdən bir miqdar çınqıl götürüb əlində sıxdı və buyurdu: “Bu, iqtardır (xəsislikdir).” Sonra o biri əlin çınqılla doldurub elə açdı ki, bütün çınqıllar yerə töküldü. Sonra həzrət buyurdu: “Bu, israfdır.” Üçüncü dəfə ovcunu doldurub azca açdı. Belə ki, çınqıldan bir qədər yerə töküldü, bir qədəri həzrətin əlində qaldı. Sonra həzrət buyurdu: “Bu, qəvam, orta həddir.”[3]

**Bildirişlər**

1. Rəhman Allahın bəndəsi üçün infaq etmək zəruri bir vəzifədir.
2. Gecə namazı, Cəhənnəm qorxusu və Allah xofu cəmiyyətdəki imkansızlara əl tutmaqla müşayiət olunmalıdır.
3. İnsanın mülkiyyət hüququ var, amma xərclərlə bağlı məhdudiyyət qoyulmuşdur.
4. İsrafa icazə yoxdur, hətta infaqda belə israfa yol verilməməlidir.
5. Allahın həqiqi bəndələri xəsislikdən uzaqdırlar.
6. Orta ümmət orta həddə əsaslanan proqramlara malik olmalıdır.
7. İbadət və infaqda orta həddi gözləmək dəyərdir.

***AYƏ 68:***

﴿وَالَّذِينَ لَا يَدْعُونَ مَعَ اللَّهِ إِلَهًا آخَرَ وَلَا يَقْتُلُونَ النَّفْسَ الَّتِي حَرَّمَ اللَّهُ إِلَّا بِالْحَقِّ
وَلَا يَزْنُونَ وَمَن يَفْعَلْ ذَلِكَ يَلْقَ أَثَامًا﴾

**“(Allahın əsil bəndələri) o kəslərdir ki, Allahı qoyub başqa bir məbudu çağırmazlar, Allah tərəfindən (qanı) haram edilmiş insanı haqsız yerə öldürməzlər və zina etməzlər. Kim belə etsə, öz günahının cəzasını görəcəkdir.”**

**Nöqtələr**

●“İsm” (“اثم”) sözü “günah”, “əsam” sözü “günahın cəzası” mənasını bildirir.

●Bu ayələrdə Allahın xüsusi bəndələrinin müsbət işləri ilə yanaşı, onların daim uzaq qaldıqları mənfi işlər də zikr olunmuşdur.

●Bu ayədə rəvayətlərdə ən böyük günahlardan sayılan şirk, qətl və zinadan danışılır.[4]

---

[1] “Təfsiri-nümunə”.
[2] “İsra”, 29.
[3] “Təfsire-kənzud-dəqaiq”.
[4] “Təfsire-kənzud-dəqaiq”; “Təfsiri-nümunə”.

●İnsanı öldürmək böyük günahlardandır. Amma “illa bil-həqq” təbirindən aydın olur ki, zəruri hallarda qətl haqdır. O cümlədən: 1-qatildən qisas, 2-məhrəmlərlə zina, 3-müsəlman qadınla kafirin zinası, 4-qadını məcbur edən zinakar, 5-zövcəsi olan kəsin zinası, 6-peyğəmbərlik iddiasında olmaq, 7-Peyğəmbər (s) və məsum imamların (ə) təhqiri, 8-sehrlə məşğul olan müsəlman, 9-fəsadçı və hücum çəkən, 10-mürtəd (dindən çıxan), 11-dövrün ədalətli imamına qarşı qiyam qaldıran, 12-hücum çəkən müşrik.[1]

**Bildirişlər**

1. İnsanı günaha vadar edən ən təhlükəli daxili qüvvə qəzəb və şəhvətdir. Mömin insan öz hislərinə hakim olmalıdır.

2. Allah-təala bəzi hallarda insanın qətlə yetirilməsini nəzərdə tutur. Amma O heç adla, heç bir şəraitdə razılıq vermir ki, insan şirk və zinaya aludə olsun.

3. Quranın şirk, zina və qətldən uzaqlıqla bağlı göstərişləri təkcə moizə yox, bir qanundur və bu qanunun pozulması müqabilində şiddətli cəza nəzərdə tutulur.

4. Qanunu pozan şəxs cəzalandırılır və ilahi cəzalarda istisnaya yer yoxdur.

***AYƏ 69:***

﴿يُضَاعَفْ لَهُ الْعَذَابُ يَوْمَ الْقِيَامَةِ وَيَخْلُدْ فِيهِ مُهَانًا﴾

**“Qiyamət günü onun əzabı ikiqat olar və həmişə orada zəlalətdə qalar.”**

***AYƏ 70:***

﴿إِلَّا مَن تَابَ وَآمَنَ وَعَمِلَ عَمَلًا صَالِحًا فَأُوْلَئِكَ يُبَدِّلُ اللَّهُ سَيِّئَاتِهِمْ حَسَنَاتٍ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا﴾

**“Yalnız tövbə edib iman gətirən və saleh işlər görən kəslər istisnadır. Onlar pislikləri Allah tərəfindən yaxşılıqla əvəz olunanlardır. Allah bağışlayan və mehribandır.”**

**Nöqtələr**

●Günahkarların əzabının bir neçə dəfə artırılması ilahi ədalətə zidd deyil. Yalnız böyük və neçə qat əsəri olan günah müqabilində əzab artırılır. Məsələn,

[1] Kərimi Cəhromi, “Quranda Rəhmanın bəndələrinin siması.”

zinakar həm günah edir, həm də başqasını günaha sürükləyir. Üstəlik bu günahdan qeyri-qanuni övlad da doğula bilər ki, belə bir övladda mənfiliyə irsən meyl olasıdır. Başqa bir misal: Bir şəxsi qətlə yetirən insan həmin şəxsin yaxınlarının qəlbini parçalayır, ailəni başsız, övladları yetim qoyur, cəmiyyətdə ümidsizlik yaradır. Bu nəticələrin hər birinə görə ayrılıqda cəza vermək olar. Bəzən də fəsadçı bir şəxs cəmiyyətdə pis ənənənin bünövrəsini qoyur və bu ənənə tarix boyu davam edir. İnsanlar nəsil-nəsil bu ənənə səbəbindən günaha batdıqca həmin ənənənin bünövrəsini qoyan üçün də günah yazılır.

●Bütün alim və təfsirçilərin yekdil nəzərlərinə əsasən, zina ayrıca götürüldükdə əbədi Cəhənnəm əzabına səbəb olmur. Əbədi Cəhənnəm əzabı zinakar müşriklərə aiddir. Bəli, haqq və batil əqidə, küfr və şirk dünyagörüşü cəzaların ağırlığına təsir göstərir.

●İmam Rza (ə) buyurur: "Peyğəmbərə (s) dedilər ki, filankəs xeyli günaha batdığı üçün bədbəxtdir. Həzrət buyurdu: "Heç də sizin dediyiniz kimi deyil. Əksinə o nicat tapıb, xoş aqibətə çatıb, günahları aradan götürülərək xeyir əmələ çevrilib. Çünki bir gün o, yoldan keçərkən yol kənarında yatmış və ayıb yeri açıq qalmış bir mömin gördü. Dediyiniz şəxs möminin ayıb yerini örtdü və xəcalət çəkməsin deyə ona bu barədə heç nə demədi. Sonradan hadisəni görmüş üçüncü bir şəxs əhvalatı möminə nəql etdi. Mömin onun ayıbını örtmüş şəxs üçün dua etdi ki, Allah sənə böyük ətalar etsin, axirətini xeyirli qərar versin, səninlə yüngül hesab çəksin. Allah möminin duasını qəbul etdi və öncə günahkar kimi tanınmış şəxsin aqibəti xeyir oldu.

Həzrət Peyğəmbərin (s) bu müjdəsini eşidən günahkar bütün günahlarına tövbə qıldı və ibadət əhli oldu. Bir həftə sonra İslam düşmənləri Mədinəyə hücum etdiyi vaxt Peyğəmbər (s) müdafiə göstərişi verdi. Həmin şəxs müsəlmanlarla birlikdə müdafiəyə qalxdı və düşmənlə döyüşdə şəhadətə yetişdi. Onun ölümü xeyir və səadətlə başa çatdı.[1]

●Cəzanı bir neçə qat artıran amillər vardır. Həmin amillərdən bəzilərini nəzərdən keçirək:

1. Bəzən ictimai şəxsiyyətə malik olması günahların cəzasını ikiqat artırır. Allah-təala Peyğəmbərin (s) zövcələrinə buyurur: "Siz peyğəmbər zövcələrindən hansı biriniz pis iş görsə, ikiqat cəzası var."[2]

2. Bəzən zaman günahı ikiqat artırır. Məsələn, cümə günü baş verən günah. Rəvayətlərdə bildirilir ki, cümə gününün xeyir və ya şəri ikiqat ölçülür.[3]

3. Bəzən günah başqa günahlara səbəb olur. Yəni günaha yol verən şəxs başqalarını da azdırır.[4]

---

[1] "Bihar", c. 5 , s 155.
[2] "Əhzab", 30
[3] "Bihar", c. 59, s. 283.
[4] "Hud" , 19 , 20.

**Bildirişlər**

1. Qiyamət cəzalarının kəmiyyət və keyfiyyət ölçüsü var.
2. İslamda çıxılmaz vəziyyət yoxdur. Günahlar üçün də qayıdış yolu var.
3. İman günah zamanı əldən çıxır, tövbə ilə geri qayıdır.
4. Tövbə təkcə dilə aid deyil, əhatəli bir inqilabdır. Saleh əməl həqiqi tövbə nişanəsidir.
5. Həqiqi tövbə və iman insanın işlərinə təsir göstərir, xoşagəlməz rəftarları aradan qaldırır.
6. Allah varlıq aləminin yaranışında torpaqdan çiçək yaratdığı kimi, insanın pis işlərini də yaxşı işlərə çevirə bilir.

***AYƏ 71:***

﴿وَمَن تَابَ وَعَمِلَ صَالِحًا فَإِنَّهُ يَتُوبُ إِلَى اللَّهِ مَتَابًا﴾

**“Tövbə edib saleh iş görən kəs həqiqətən Allaha doğru bəyənilmiş bir qayıdışdadır. (Və öz mükafatını alır.)”**

**Bildirişlər**

1. Gerçək tövbə saleh əməllə müşayiət olunur.
2. Tövbə edən şəxs Allahın qonağıdır.

***AYƏ 72:***

﴿وَالَّذِينَ لَا يَشْهَدُونَ الزُّورَ وَإِذَا مَرُّوا بِاللَّغْوِ مَرُّوا كِرَامًا﴾

**“(Allahın bəndələri) o kəslərdir ki, batil işə durub baxmaz, boş işlərlə rastlaşdıqda böyüklüklə ötüb keçərlər.”**

**Nöqtələr**

●“Şəhidə” sözünün iki mənası var: iştirak etmək və şahid olmaq. Bu ayədə hər iki mənadan istifadə edilə bilər. Yəni onlar nə pis yığıncaqlarda iştirak edər, nə batilə şahid olarlar. “Zur” dedikdə haqq libası geymiş batil iş nəzərdə tutulur. Təfsirlərdə bu söz batil şəhadət, yalan və ğina (haram musiqi) mənalarında təqdim olunmuşdur.

●İmam Sadiqdən (ə) nəql olunmuş bir rəvayətdə bildirilir ki, “zur” ayədə ğina mənasında qəbul olunmuşdur.[1]

●“Məcməul-bəyan” təfsirində oxuyuruq: “Kəramət odur ki, insan çirkin bir şeyin adını çəkməyə məcbur olduqda işarə ilə ad çəksin. İmam Baqirdən (ə) nəql olunmuş rəvayətdə oxuyuruq: “Onlar (kəramətli insanlar) ayıb yerin adını çəkmək lazım gəldikdə işarə ilə danışarlar.” Əlbəttə ki, bu, böyüklüklə rəftarın bir nümunəsidir.

---

[1] “Kafi”, c. 6, s. 433.

●İmam Sadiq (ə) buyurdu: “Allah haram olanı dinləməməyi qulağa vacib etmişdir.” Sonra imam hazırkı ayəni tilavət etdi.[1]

**Bildirişlər**

1. Təkcə günaha yol verməк yox, həm də günah məclisində iştirak etmək və günaha şahid olmaq qadağandır.

2. İstənilən bir yığıncaqda istənilən bir məlumatı əldə etmək dəyər deyil. (Bəzən yığıncaqdan kənar olmaq zəruridir.)

3. Günah məclisində iştirak etməmək, günahkarlara etinasızlıq nəhy əz münkərin (pisliyə qadağanın) bir növüdür.

4. Fəsad məclisində iştirak hətta həqiqi bəndələrə də təsir göstərir.

5. Sözdə, işdə və istəkdə istənilən növ batil (“ləğv”) qadağandır. (Həqiqi Allah bəndələri ağıllı və faydalı məqsəd izləyir, öz ömürlərini boş işlərə sərf etmirlər.)

6. Pisliyə qadağa qoyarkən bəzən sərt rəftar lazım gəlir.

7. Pis düşüncələrin ruhumuzda möhkəmlənməsinə yol verməyək.

*AYƏ 73:*

﴿وَالَّذِينَ إِذَا ذُكِّرُوا بِآيَاتِ رَبِّهِمْ لَمْ يَخِرُّوا عَلَيْهَا صُمًّا وَعُمْيَانًا﴾

**“Onlara Rəblərinin ayələri xatırladıldıqda kor-koranə onu qəbul etməzlər, (agahlıqla əməl edərlər).”**

*AYƏ 74:*

﴿وَالَّذِينَ يَقُولُونَ رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا قُرَّةَ أَعْيُنٍ وَاجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَامًا﴾

**“Onlar deyərlər: “Pərvərdigara! Bizə zövcələrimiz və övladlarımız tərəfindən gözümüzü işıqlandıracaq səbəb əta et və bizi təqvalılara imam qərar ver.”**

**Nöqtələr**

●İman agahlıq və bəsirətə əsaslanmalıdır. ”Ali İmran” surəsinin 191-ci ayəsində bildirilir ki, düşüncəli möminlər öncə göylərin və yerin yaranışı haqqında düşünür, sonra təsdiqləyirlər ki, Allah bütün bunları boş yerə yaratmayıb. Bu ayədə də qeyd olunur ki, möminlər kor-koranə bir şeyi qəbul etməzlər.”

**Bildirişlər**

1. Bəndəlik və bəsirət rəhman Allahın bəndələrinin sifətlərindəndir. Rəhmanın bəndələri agah halda din sorağınca gedirlər.

---

[1] “Təfsire-Nurus-səqələyn”.

2. İnsan ailə-övladı, nəsli qarşısında vəzifəlidir. O öz nəslinin xoş aqibəti üçün çalışmalı və dua etməlidir.

3. Tərbiyə prosesində elm və səydən əlavə, Allahdan yardım da istənilməlidir.

4. Saleh övlad göz işığıdır.

5. Ailə təşkili, ailə-övlad sahibi olmaq, bütün bunlar üçün dua etmək İslamın diqqət mərkəzində dayanır.

6. Cəmiyyətə rəhbərliyi ələ almaq Rəhmanın bəndələrinin arzusudur. Çünki imamət və rəhbərliyin müttəqilər əlində olması bir dəyərdir.

7. Az dua ilə kifayətlənməyin, bu istiqamətdə çox səy göstərin. (Pərvərdigara, bizi kamilliyə çatmaqda təqvalılara rəhbər qərar ver!)

8. Allah bəndələri arasında məqsəd və söz birliyi var.

*AYƏ 75:*

﴿أُوْلَئِكَ يُجْزَوْنَ الْغُرْفَةَ بِمَا صَبَرُوا وَيُلَقَّوْنَ فِيهَا تَحِيَّةً وَسَلَامًا﴾

**“Onlara (Rəhmanın bəndələrinə) səbir etdikləri üçün Behişt mənzilləri verilər. Orada hörmət və salamla qarşılanarlar.”**

*AYƏ 76:*

﴿خَالِدِينَ فِيهَا حَسُنَتْ مُسْتَقَرًّا وَمُقَامًا﴾

**“Onlar orada əbədidirlər. Necə də gözəl yer və mənzildir!”**

**Nöqtələr**

●“Ğurfə” dedikdə yerdən yuxarı, gözəl otaq nəzərdə tutulur.

**Bildirişlər**

1. Behişti bəhanəyə yox, bahasına verirlər.

2. Allah bəndəsi olmaq üçün səbir və dözümə ehtiyac var.

*AYƏ 77:*

﴿قُلْ مَا يَعْبَؤُا بِكُمْ رَبِّي لَوْلَا دُعَاؤُكُمْ فَقَدْ كَذَّبْتُمْ فَسَوْفَ يَكُونُ لِزَامًا﴾

**“De ki, əgər dua etməsəniz Rəbbim sizi dəyərli bilməz. Siz haqqı təkzib etdiniz və tezliklə təkzibinizin cəzası sizi yaxalayacaq.”**

**Nöqtələr**

●«Əl-ib» (cəm: əba) dedikdə çəki, ağırlıq mənası anlaşılır. “Ma yəbəu bikum Rəbbi”, yəni Allah sizi dəyərli bilmir, yalnız dua və ibadət etməklə dəyərli sayılarsınız.

●“Duaukum” sözü iki cür mənalandırılır:

a) Sizin Allah dərgahına dua etməyiniz, nalələriniz, yalvarışlarınız Allahın sizə diqqətinə səbəb olar. Hədisdə oxuyuruq: “Dua əhli olan kəs həlak olmaz.”[1] Sonra Allah dua etməyənləri qınayaraq bildirir ki, siz haqqı təkzib etdiniz, yalvarış əvəzinə bütlərin, nəfs istəklərinizin və zalım hakimlərin sorağınca getdiniz. Bildirilir ki, təkzib edənlər öz cəzalarına çatacaqlar.

b) Allahın xalqı dəvəti: xalqı haqqın qəbuluna dəvət və xəbərdarlığın başa çatdırılması ilahi sünnədir. Bu dəvət olmasa, insan dəyərə çatmaz. İnsana dəyər verən onun Allah dəvətini qəbul etməsidir. Bildirilir ki, siz ilahi dəvəti qəbul etmədiniz, sizə heç bir ümid yoxdur və əməlinizin cəzasına çatarsınız.

●“Zariyat” surəsinin 56-cı ayəsində buyurulur: “İns və cini yalnız ibadət üçün yaratdım.” Bu ayədə isə buyurulur ki, insan dua etməsə, dəyərə çatmaz. Bəli, dua ibadətin ruhu və canıdır.[2]

**Bildirişlər**

1. Dinin təkzibi insanın dəyərdən düşməsinə səbəb olur.
2. Dua dəyərlər əldə etmək üçün vasitədir.
3. Hidayət və ibadətdən uzaq olan insan heç nədir.
4. Haqqa dəvət Allahın rübubiyyət şənlərindəndir.
5. Mənəviyyat varlığın mehvəridir. Çünki varlıq insan üçün yaradılmışdır, insan isə haqqın qəbulu və Allaha ibadət üçün!
6. Hidayət və ibadətdən uzaq olan insan əslində peyğəmbərləri və onların göstərişlərini təkzib edir.

---

[1] “Kafi”, c. 4, s. 228.

[2] “Ğurərul-hikəm”.

## “ŞUƏRA” SURƏSİ

***(26-CI SURƏ, 227 AYƏ)***

***On doqquzuncu cüz,***

***“ŞUƏRA” SURƏSİNİN SİMASI***

Məkkədə nazil olmuş bu surə 227 ayədən ibarətdir. “Şuəra” surəsi “Bəqərə” surəsindən sonra ən çox ayəsi olan surədir. Surədə mömin şairlər tərif, onun son dörd ayəsində boş-boş danışan şairlər məzəmmət olduğundan surə “Şuəra” adlandırılmışdır. Onun digər bir adı “Ta, sin, mim”–dir.

Surədə həzrət Musa (ə), İbrahim (ə), Nuh (ə), Lut (ə), Saleh (ə), Hud (ə) və Şüeyb (ə) kimi peyğəmbərlərin əhvalatlarından, eləcə də xalqın onlara inadkar münasibətindən danışılır. Hər əhvalatdan sonra eyni bir ayə təkrarlanır. Həmin ayə surədə 8 dəfə zikr olunmuşdur ki, İslam Peyğəmbərinə (s) təsəlli olsun, bildirilsin ki, Məkkə camaatının inadkar rəftarı onu üzməsin, çünki bütün peyğəmbərlər belə insanlarla üzləşmişlər. Bəli, möminlərin ruhiyyəsini gücləndirmək üçün ən üstün vasitə tarixdir. Tarixlə tanışlıq nəticəsində bəsirət artır, kök genişlənir, gələcəklə bağlı proqnozlar müəyyənləşdirilir. Bu səbəbdən də cəmiyyətə rəhbərlik edənlər tarixdən xəbərdar olmalıdırlar.

**Rəhman və Rəhim Allahın adı ilə**

﴾بسم الله الرحمن الرحيم﴿

***AYƏ1-2:***

﴾طسم تِلْكَ آيَاتُ الْكِتَابِ الْمُبِينِ﴿

**“Ta, sin, mim; budur açıq-aşkar kitabın ayələri.”**

***AYƏ 3:***

﴾لَعَلَّكَ بَاخِعٌ نَّفْسَكَ أَلَّا يَكُونُوا مُؤْمِنِينَ﴿

**“Deyəsən, müşriklərin iman gətirməsinə görə özünü həlak etmək istəyirsən?!”**

**Nöqtələr**

●Müqəttəə hərflərin mənası haqqında çox danışılıb. Belə bir məna daha üstün sayıla bilər: Allah bəzi Quran surələrinin (29 surənin) başlanğıcında bu hərfləri bəyan etməklə bildirir ki, Mənim əbədi möcüzəm həmin bu hərflərdəndir, bacarırsınızsa ərəb əlifbasının bu hərflərindən Qurana bərabər kitab düzəldin. “Şura” surəsinin müqəttəə hərflərdən sonra bəyan olunmuş ayəsi də deyiləni təsdiqləyir.

●“Baxiun” dedikdə “həlak edici” mənası anlaşılır.

**Bildirişlər**

1. Əhatəli bir məktəb güclü, qəti, yazılı və üslublu məntiqə malik olmalıdır. Belə ki, hamının ona əli çatmalıdır.

2. Quranın yetərincə böyük məqamı var. Nə vaxt çətinliyə düşsəniz Quran yolunuzu işıqlandırar.

4. Təkrar tərbiyə üsullarından biridir.

5. Səy və qayğı bəzən səmərəsiz olur.

6. Qəm-qüssəyə batanlara təsəlli vermək ilahi bir işdir.

7. Peyğəmbərlər öz vəzifələrinin icrası üçün gözlənildiyindən çox çalışırdılar.

8. Peyğəmbərlərin bariz sifətlərindən biri onların canıyananlığıdır. (Yanğı məzhəb və ümmətə eşq nişanəsidir.)

9. Təsir üçün zəmin olmasa, ən üstün kitab və mürəbbi də səmərə verməz.

*AYƏ 4:*

﴿إِن نَّشَأْ نُنَزِّلْ عَلَيْهِم مِّن السَّمَاء آيَةً فَظَلَّتْ أَعْنَاقُهُمْ لَهَا خَاضِعِينَ﴾

**“Qarşısında boyun əysinlər deyə onlara səmadan bir möcüzə endirmək istəsək (məcburən mömin olarlar, amma Allahın sünnəsi belə deyil)”.**

**Bildirişlər**

1. Allahın qanunu insanlara ixtiyar və möhlət verməkdir.

2. İlahi qüdrətə diqqət ruhun aramlığı üçün ən üstün vasitədir.

3. İman məcburi yox, azad və seçim əsasında qəbul olunmalıdır.

*AYƏ 5:*

﴿وَمَا يَأْتِيهِم مِّن ذِكْرٍ مِّنَ الرَّحْمَنِ مُحْدَثٍ إِلَّا كَانُوا عَنْهُ مُعْرِضِينَ﴾

**“Rəhman Allah tərəfindən onlar üçün hansı yeni xəbərdarlıq gəldisə, ondan üz döndərdilər.”**

*AYƏ 6:*

﴿فَقَدْ كَذَّبُوا فَسَيَأْتِيهِمْ أَنبَاء مَا كَانُوا بِهِ يَسْتَهْزِئُون﴾

**“Onlar təkzib etdilər və məsğərəyə qoyduqlarının xəbərləri tezliklə onlara çatacaq.”**

**Nöqtələr**

●Bu ayələrdə kafirlərin üç xisləti bəyan olunur: arxa çevirmək, təkzib və istehza. Bəli, insan tədricən, addım-addım süquta uğrayır. Öncə həqiqətə etinasızlıq göstərir, sonra onu təkzib edir, nəhayət haqqı məsxərəyə qoyur. Bunlardan ən pisi insanın haqqı məsxərəyə qoymasıdır. Ayədə buyurulur ki,

məsxərə etmələrinin xəbərləri gələcəkdə onlara çatacaq. Bəli, üz döndərmək və təkzibin yox, məhz məsxərənin cəzasından danışılır.

**Bildirişlər**

1. Quran tədricən nazil olmuşdur.
2. Quran xəbərdarlıqları Allahın daimi lütflərindəndir.
3. Daş qəlbli fərdlərə heç bir xəbərdarlıq təsir göstərmir.
4. Allah xəbərdarlıq, təkrar və yeni xəbərlər vasitəsilə kafirlərə höccəti tamamlayır, onlara xəbərdarlığı başa çatdırır.
5. İnsan köhnə adət-ənənələrə o qədər bağlanmamalıdır ki, yeni söz eşitdikdə götür-qoy etmədən ona inanmasın.
6. Din uydurucu yox, oyaqlıq amilidir.
7. Xalqın bir hissəsi haqqı qəbul etmək əvəzinə öncədən inadkarlıq yolunu seçir. (Haqdan üz döndərmək və uzaqlıq bir dəstənin daimi qaydasıdır.)
8. Təkəbbür və təkzibdən qaynaqlanan uzaqlaşma təhlükəlidir.
9. Gələcək təhlükə və cəzalara etinasızlıq ilahi qəhr-qəzəb rəmzidir.
10. Haqq və haqq ardıcıllarını məsxərəyə qoyanlar cavabsız buraxılmayacaq. (Ya dünyada, ya ölüm zamanı, ya bərzəxdə, ya rəcətdə, ya da Qiyamət günü onlar öz çirkin işlərinin cavabını alacaqlar.)

*AYƏ 7:*

﴿أَوَلَمْ يَرَوْا إِلَى الْأَرْضِ كَمْ أَنبَتْنَا فِيهَا مِن كُلِّ زَوْجٍ كَرِيمٍ﴾

**“Yerə baxmadılarmı ki, hər növdən nə qədər gözəl (bitki) cücərtdik?”**

*AYƏ 8, 9:*

﴿إِنَّ فِي ذَٰلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ وَإِنَّ رَبَّكَ لَهُوَ الْعَزِيزُ الرَّحِيمُ﴾

**“Şübhəsiz, bunda bir nişanə var, amma onların çoxu iman gətirən deyil; həqiqətən, sənin Rəbbin qalib və mehribandır.”**

**Nöqtələr**

●Miladi 18-ci əsrin ortalarında məşhur İsveç təbiətşünası Linney bitki aləmində cütlüyün (erkək-dişi) mövcudluğunu kəşf etdi. O deyirdi: «Bitkilər arasında da erkək və dişi var. Bitkinin bəhrə verməsi üçün mayalanma lazımdır.» Qurani-Kərim isə zövciyyət qanunu adlanan qanunu Linneydən 12 əsr öncə bəyan etmiş və həm bitkilər, həm də qeyri-bitkilər arasında bu qanunun işlədiyini bildirmişdir.[1]

**Bildirişlər**

1. Varlıq aləmindəki mövcudlar və onların gözəlliklərinin araşdırılması Allahı tanımaq üçün ən üstün yoldur.

---

[1] “Təfsiri-nümunə”.

2. Quran varlıq aləminə dərindən diqqət yetirməyənləri məzəmmət edir.

3. Allahın qüdrət nişanələrindən biri bitkilərin erkək-dişiyə malik olmasıdır.

4. Bütün bitkilərdə faydalar var. Ola bilsin ki, bəzi bitkilərin faydası var, lakin hələ ki bizə məlum deyil.[1]

5. Əgər bir şəxsdə həqiqətin qəbulu üçün qabiliyyət və zəmin olmasa, o bütün varlıq aləmindən belə ibrət götürə bilməz.

6. Əksəriyyət haqlılıq göstəricisi deyil.

7. Həzrət Peyğəmbər (s) Allahın nəzəri altındadır.

8. Allahın mehribançılığı Onun acizliyinə əsaslanmır. O, yenilməz olduğu halda mehribandır, müxaliflərə imkan verir ki, bəlkə tutduqları yoldan dönüb tövbə edələr.

***AYƏ 10:***

﴿وَإِذْ نَادَى رَبُّكَ مُوسَى أَنِ ائْتِ الْقَوْمَ الظَّالِمِينَ﴾

**“(Yada sal,) bir zaman Rəbbin Musaya nida etdi ki, sitəmkar qövmə doğru get”**

***AYƏ 11-12:***

﴿قَوْمَ فِرْعَوْنَ أَلَا يَتَّقُونَ قَالَ رَبِّ إِنِّي أَخَافُ أَن يُكَذِّبُونِ﴾

**“Firon qövmünə doğru. Yoxsa onlar qorxub-çəkinmir?!–(Musa) dedi: «Pərvərdigara! Məni təkzib edəcəklərindən qorxuram.»”**

**Nöqtələr**

●Bu surədə “yoxsa qorxub-çəkinmirlər” cümləsi yeddi dəfə təkrarlanmışdır. Bəli, təqva olmayan yerdə peyğəmbərlərin sözü təsirsizdir.

**Bildirişlər**

1. Peyğəmbərlərin tarixi unudulmamalıdır.

2. Həm peyğəmbərlərin məqsəd və yolu, həm də müsəlmanların rəftarları bir-biri ilə oxşardır. Bəli, onların tarixi ilə tanışlıq İslam Peyğəmbərinə (s) yardımçı ola bilər.

3. Xalqa peyğəmbərlər göndərmək Allahın rübubiyyət şənlərindəndir.

4. Zalım qüvvələrlə mübarizə peyğəmbər proqramlarının ilk maddəsidir.

5. Pisliyə qadağa vəzifəsini icra edərkən bəzi təhlükə ilə üzləşmək lazım gəlir.

6. Peyğəmbərlərin qiyamı kin-küdurət və intiqama yox, ilahi meyarlara əsaslanır.

7. Allahı unudub zalım qüvvələrə itaət göstərmək ən böyük zülmdür.

8. Pisliyə qadağa (nəhy əz münkər) üçün fəsad mərkəzlərinə üz tutun.

---

[1] “Təfsiri-Kəbiri-Fəxri-Razi”.

9. Xalq olmasa, zalım hakimlər gücsüzdür.

10. Xalqın təqvasızlığı, Allahdan çəkinməməsi zalım qüvvələrin təkamülü üçün zəmin yaradır.

11. Xalqın hidayəti ilahi yardımlara ehtiyaclı ağır yükdür.

*AYƏ 13-14:*

﴿وَيَضِيقُ صَدْرِي وَلَا يَنطَلِقُ لِسَانِي فَأَرْسِلْ إِلَى هَارُونَ وَلَهُمْ عَلَيَّ ذَنبٌ فَأَخَافُ أَن يَقْتُلُونِ﴾

**"Köksüm sıxılır, dilim açılmır. Haruna da (mənə yardım üçün) risalət ver. Onlar məni günahkar sayır, qorxuram məni öldürələr."**

*AYƏ 15:*

﴿قَالَ كَلَّا فَاذْهَبَا بِآيَاتِنَا إِنَّا مَعَكُم مُّسْتَمِعُونَ﴾

**"Allah buyurdu: "Belə deyil, birlikdə Bizim möcüzələrimizlə hərəkət edin, Biz sizinləyik və hər şeyi eşidirik."**

*AYƏ 16:*

﴿فَأْتِيَا فِرْعَوْنَ فَقُولَا إِنَّا رَسُولُ رَبِّ الْعَالَمِينَ﴾

**"Fironun sorağına gedib deyin: «Biz, aləmlərin Rəbbinin rəsuluyuq.»"**

*AYƏ 17:*

﴿أَنْ أَرْسِلْ مَعَنَا بَنِي إِسْرَائِيلَ﴾

**"(Deyin ki,) Bəni-İsraili (azad et və) bizimlə yola sal."**

**Nöqtələr**

● Həzrət Musanın (ə) günahı məsələsi ki, "Qəsəs" surəsinin 14-cü ayəsində də buna işarə olunmuşdur, bundan ibarətdir: Musa (ə) peyğəmbərlikdən öncə bir şəhərə daxil oldu və gördü ki, onun tərəfdarlarından biri fironçulardan biri ilə vuruşur. Musanın tərəfdarı ondan kömək istədi. Musa onu himayə edərək fironçuya bir yumruq vurdu. Musanın (ə) zərbəsindən sonra o, yerindəcə keçindi.

Bu məsələ ilə bağlı məntəqədə çaxnaşma yarandı və Musa qaçmağa məcbur oldu. Musa həmin şəxsi öldürmək məqsədi ilə vurmamışdı. O, sadəcə, məzlumu müdafiə etmək istəyirdi. Amma iş elə alındı ki, fironçular Musanı (ə) qatil kimi tanıdılar. Peyğəmbərlik məqamına çatdığı vaxt Musa (ə) Allaha ərz etdi ki, qorxuram fironçu kişinin ölümü mənim işimə mane olsun. "Kəlla" (belə deyil)

təbirindən aydın olur ki, Musa (ə) həmin şəxsi qəsdən öldürməmişdi. Əks təqdirdə, Allah bilərəkdən qətlə əl bulaşdıranı Öz himayəsinə götürməzdi.)

**Bildirişlər**

1. İnsanların, hətta peyğəmbərlərin tutumu məhduddur. (Allahdan savay hər kəs, hər şey məhduddur).
2. Məsuliyyəti qəbul edərkən insan öz zəif nöqtələrini bildirməlidir.
3. Səmimiyyət və sədaqət peyğəmbərlərin bariz sifətlərindəndir.
4. Rəhbərlik, hidayət, təbliğ və tərbiyədə geniş qəlbə ehtiyac var.
5. Təbliğ və mübarizədə bəzən bir neçə nəfər yanaşı hərəkət etməli olur.
6. Zəif nöqtələri aradan qaldırın, amma məsuliyyətdən qaçmayın. Aradan qaldırılası nöqsanları olan şəxsə iş tapşırmaq olar.
7. Sağlam və qərəzsiz fərdlər onlara böyük məsuliyyət təklif olunduqda daha layiqli insanları məsləhət görürlər.
8. Fərdlərin keçmişi onların işdəki müvəffəqiyyətinə təsirlidir.
9. Qisas qanununun uzun keçmişi var. (Şəhadət peyğəmbərlərin arzusudur. Amma müqəddəs hədəflərin həyata keçməməsi onları qorxudur və nigaran qoyur!)
10. Təbliğə rəhbərlik üçün bir neçə nöqtə nəzərə alınmalıdır. O cümlədən: İctimai durumun araşdırılması, gələcəyin nəzərə alınması, təbliğ üçün təsirli zəminlər hazırlamaq.
11. Haqqı bəyan edərkən nə tərəfdarların azlığından, nə də müxaliflərin çoxluğundan qorxun.
12. Faydalı və münasib təklifi Allah da qəbul edir.
13. Nigarançılıq çəkənlərə təsəlli və yardım ilahi işdir.
15. Mühüm tapşırıqların icrasında dəqiq və anbaan agahlıq zərurətdir.
16. Peyğəmbərlərin möcüzələri hidayət vasitəsi və onların ümmətlər üçün azuqəsidir.
17. Allah bizim işlərimizin xırdalıqlarından xəbərdardır. O hər yerdədir və hər şeyi görür.
18. Təşkilatlanmış və pozucu qruplarla mübarizə üçün öncə onların qaynağına üz tutun.
19. Başqalarını haqqa dəvət edərkən səmimi və qətiyyətli olun.
20. Xalq üçün peyğəmbər göndərmək Allahın rübubiyyət şənlərindəndir.
21. Bütün varlıq aləmi bir növ inkişafdadır.
22. Bütün varlıq aləmi Allahın tədbirinə tabedir.
23. Bütün peyğəmbərlərin bir məqsədləri var.
24. Özünü rəbb sayan kəsə aləmlərin Rəbbindən danışmaq lazımdır.
25. Eyni bir dövrdə iki peyğəmbər göndərilsə, onlardan biri rəhbər olur.
26. Xalqı zalımların əsarətindən azad etmək peyğəmbərlərin proqramlarında ilk maddədir.

*AYƏ 18-19:*

﴿قَالَ أَلَمْ نُرَبِّكَ فِينَا وَلِيدًا وَلَبِثْتَ فِينَا مِنْ عُمُرِكَ سِنِينَ وَفَعَلْتَ فَعْلَتَكَ الَّتِي فَعَلْتَ وَأَنتَ مِنَ الْكَافِرِينَ﴾

**“(Firon) dedi: “Səni uşaqlıqda biz saxlamadıqmı, ömrünün neçə ilini yanımızda qalmadınmı? Bununla belə öz bildiyini etdin. (Bizimkilərdən birini yumruqla öldürdün.) Sən nankorlardansan.”**

**Nöqtələr**

●Firon iki cümlə ilə Musanın peyğəmbərliyini şübhə altına aldı: “Sən bizim nəzərimizdə qatilsən və qatildən peyğəmbər olmaz”; “Səni biz böyütdük, bizim lütfümüzə nankor oldun. Axı nankordan peyğəmbər olmaz”. Sonrakı ayələrdə Musanın (ə) cavabı bəyan olunur.

**Bildirişlər**

1. Minnət qoymaq və yaxşılığı üzə vurmaq təkəbbür əhlinin xüsusiyyətlərindəndir.
2. İlahi iradə Musanı (ə) Fironun ağuşunda böyüdür.
3. Böyütdüyümüz, elm öyrətdiyimiz, evləndirdiyimiz, məskən verdiyimiz və bu kimi yardımlar göstərdiyimiz kəsin haqq sözünü yaxşılıqlar bəhanəsi ilə inkar etməyək.
4. Allahın övliyaları yediyi çörəyə görə haqqı inkar etmir. Mühit, cəmiyyət onları dəyişə bilmir. (Musa (ə) demədi ki, uzun müddət Fironun süfrəsində oturduğumuza və bütün cəmiyyət ona təslim olduğuna görə bir kənara çəkilib susaq.)
5. Duz-çörək o demək deyil ki, süfrə sahibinin yanlış hərəkətlərini qəbul edək. (Musa (ə) Fironun duz-çörəyini yemişdi, amma onu özbaşına buraxmadı.)
6. Zalım rəhbərlərin yersiz istəklərinə etina göstərməyək. Təkəbbürlü başçılara qarşı nankorluq pis deyil.

*AYƏ 20, 21:*

﴿قَالَ فَعَلْتُهَا إِذًا وَأَنَا مِنَ الضَّالِّينَ فَفَرَرْتُ مِنكُمْ لَمَّا خِفْتُكُمْ فَوَهَبَ لِي رَبِّي حُكْمًا وَجَعَلَنِي مِنَ الْمُرْسَلِينَ﴾

**“(Musa) dedi: Mən onu (qətli) törədəndə xəbərsizlərdən idim. Sizdən qorxduğum üçün yanınızdan qaçdım. Sonra Rəbbim mənə hikmət bəxş etdi, məni peyğəmbərlərdən qərar verdi.”**

**Nöqtələr**

●Ayədə “hukm” sözü ya Bəni-İsrailə hakimiyyət və himayədarlıq, ya da hikmət və bilik mənasını bildirir.

●Bu iki ayədə həzrət Musa (ə) Fironun iradlarına cavab verir.

İrəlidə deyildiyi kimi, həzrət Musa (ə) öz tərəfdarlarından birini himayə etmək üçün onun vuruşduğu müxalifə bir yumruq vurdu. Müxalif şəxs həmin zərbədən öldü. Bu qətl bilərəkdən və qətl aləti ilə yerinə yetirilməmişdi. Həmin hadisəni bilməyərəkdən baş vermiş yanlışlıq saymaq olardı. Hadisə Musanın (ə) peyğəmbərliyindən əvvəl və bir məzluma tərəfdarlıq məqsədi ilə baş vermişdi.

Ayədəki “zall”, yəni zəlalət, xəbərsizlik sözü məqsədsiz bir çaşqınlığı göstərir və Musanın (ə) ismətinə nöqsan gətirmir. Bu söz “Zuha” surəsinin 7-ci ayəsindəki kimi heyrət mənasında da başa düşülə bilər.

●Həzrət Əmirəl-möminin Əlidən (ə) soruşdular: “Nə üçün həzrət Peyğəmbərdən (s) sonra öz canişinlik haqqını qılıncla almadın? Nə üçün Təlhə, Zübeyr, Müaviyə ilə döyüşdüyün kimi xəlifələrlə döyüşdün? Həzrət buyurdu: “Bəzən sükut lazım gəlir. İbrahim buyurmadımı ki, mən sizdən kənara çəkilirəm?[1] Harun buyurmadımı ki, xalq az qala məni öldürəcəkdi?[2] Yusif buyurmadımı ki, mənim üçün zindan onların istəyini qəbul etməkdən üstündür? Peyğəmbər mağaraya getmədimi və mən də onun yerində yatdım? Musa buyurmadımı ki, qorxduğumdan qaçdım? Həzrət Lut günahkarların istəyinə belə cavab vermədimi ki, kaş qüdrətim olaydı, ya əmin-aman bir yerə sığınaydım?”[3] Bəli, Allahın digər övliyaları da bəzən sükut etməyə məcbur olmuşlar.

**Bildirişlər**

1. Bəzən etiraf dəyər sayılır.
2. Zalım qüvvələrdən uzaqlaşma ilahi lütfə çatmaq üçün müqəddimədir.
3. Peyğəmbərlər Allahın xüsusi lütflərindən faydalanır.
4. Nübüvvət (peyğəmbərlik) tarix boyu davam etmiş cərəyandır. Musadan (ə) öncə də bir çox peyğəmbərlər olmuşdur. Demək, Fironun təəccübü yersizdir.

***AYƏ 22:***

﴿وَتِلْكَ نِعْمَةٌ تَمُنُّهَا عَلَيَّ أَنْ عَبَّدتَّ بَنِي إِسْرَائِيلَ﴾

**“Bəni-İsraili özünə qul etməyin nemətdirmi ki, ona görə mənə minnət qoyursan? (Nə üçün mən atamın evində boya-başa çatmayım?)”**

***AYƏ 23:***

﴿قَالَ فِرْعَوْنُ وَمَا رَبُّ الْعَالَمِينَ﴾

**“(Firon) dedi: “Aləmlərin Rəbbi nədir?”**

---

[1] “Məryəm”, 48.
[2] Əraf”, 150.
[3] “Təfsire-Nurus-səqəleyn”.

**Nöqtələr**

●Musa (ə) Firona dedi ki, mən atamın evində yaşamalı ikən atamı qul etdin və mən məcbur qalıb sənin evində yaşadım. Məgər bu, müqabilində şükür olası nemətdir, yoxsa əsarət?! Sənin sarayında rifah olsa da, Bəni-İsrailin düşdüyü çətinlik məni narahat edir.

●Qurandan məlum olur ki, Firon öz daxilində Allahı tanıyırdı.[1] Zahirdə isə özünü xalqın Rəbbi sayırdı. Necə ki, bir rəis kimlərəsə hakim, eyni zamanda kiməsə tabedir.[2]

**Bildirişlər**

1. Təkəbbür insana çirkinliyi gözəl göstərir.
2. Təkəbbür və minnətə qəti cavab verin.
3. Təkəbbürlü şəxs bəzən taxt-tacını qorumaq üçün özünü nadanlığa vurur.
4. Təkəbbür əhli qürurla və qarşı tərəfi alçaldaraq sual verir. Firon "aləmlərin Rəbbi kimdir?" yox, "aləmlərin rəbbi nədir?" deyə soruşdu. (Ərəb dilində "ma" şəkilçisi cansız cisimdən danışıldıqda işlədilir.)

*AYƏ 24:*

﴿قَالَ رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَا بَيْنَهُمَا إِن كُنتُم مُّوقِنِينَ﴾

**"(Musa) dedi: Əgər inansanız, (O,) göylərin, yerin və onların arasında olanların Rəbbidir."**

*AYƏ 25:*

﴿قَالَ لِمَنْ حَوْلَهُ أَلَا تَسْتَمِعُونَ﴾

**"(Firon) öz ətrafındakılara dedi: «Eşidirsinizmi, (o nə danışır)?»"**

*AYƏ 26:*

﴿قَالَ رَبُّكُمْ وَرَبُّ آبَائِكُمُ الْأَوَّلِينَ﴾

**"(Musa növbəti dəfə) dedi: "O sizin və ata-babalarınızın Rəbbidir."**

**Nöqtələr**

●Quran buyurur ki, peyğəmbərlər öz müxalifləri ilə Allahın rübubiyyətini, yəni müdiriyyətini qəbul etdirmək üçün vuruşurdu. Müxaliflər Allahı varlıq aləminin yaradıcısı kimi qəbul edirdilər. Bu gün bəziləri "din siyasətdən ayrıdır" deyirlər. Bu sözlər "Allahın varlıq aləmini yaratması bir, idarə etməsi ayrı məsələdir" deyənlərin sözünə oxşayır. Onlar istəyirlər ki, Allahın xəlq

---

[1] "İsra", 102.

[2] "Təfsire-Əl-mizan".

etdiyi dünyanı özləri idarə etsinlər. Quran və ağıl əsasında isə yalnız Yaradana itaət olunmalıdır, yalnız O, qanun verə bilər. Əslində hansı qanunun gərəkli olduğunu Yaradan bilir.[1]

Bəziləri "əgər inanırsınızsa" ifadəsini belə mənalandırır: Musa dedi ki, sizin anlamaq üçün yox, bəhanə üçün sual verdiyinizi bilirəm və əgər həqiqət axtarışındasınızsa varlıq aləminin nizamı haqqında düşünün, Allahın rübubiyyət və birliyini anlayacaqsınız.

**Bildirişlər**

1. Etiqadla bağlı suallara qəti və aydın cavab verilməlidir.
2. Bütün varlıq aləminin bir Allahı var. (Müşriklər isə çox saylı tanrılara inanırlar.)
3. Bütün varlıq aləmi vahid müdiriyyət və nəzarət altındadır, təkamül hərəkətindədir.
4. Allahın zatını tanımaq mümkünsüzdür, Onu yaratdıqları vasitəsi ilə tanımaq və tanıtdırmaq lazımdır. (Firon Allahın nə olması və necəliyi haqqında soruşdu. Amma Musa (ə) Allahın zatını tanımaq mümkünsüz olduğundan Onun yaratdıqları haqqında danışdı.)
5. Varlıq aləminə müdiriyyətdəki vəhdəti hər kəs dərk edə bilməz. Yəqin əhli göylərin və yerin yaranışını dərindən nəzərdən keçirdikdə ilahi rübubiyyəti dərk edir.
6. Aranı qarışdırmaq, haqqı ört-basdır etmək və başqalarının məntiqli sözlərini kəsmək təkəbbürlü başçıların iş üsuludur.
7. Allah mövcud və gələcək insanları, göyləri və yeri eyni dərəcədə idarə edir.

### *AYƏ 27-28*

﴿قَالَ إِنَّ رَسُولَكُمُ الَّذِي أُرْسِلَ إِلَيْكُمْ لَمَجْنُونٌ قَالَ رَبُّ الْمَشْرِقِ وَالْمَغْرِبِ وَمَا بَيْنَهُمَا إِن كُنتُمْ تَعْقِلُونَ﴾

**"(Firon) dedi: "Şübhəsiz, sizə doğru göndərilmiş peyğəmbəriniz tamamilə divanədir." (Musa) dedi: "(O,) əgər düşünsəniz, şərqin, qərbin və onların ikisi arasında olan hər şeyin Rəbbidir."**

### *AYƏ 29-30:*

﴿قَالَ لَئِنِ اتَّخَذْتَ إِلَهًا غَيْرِي لَأَجْعَلَنَّكَ مِنَ الْمَسْجُونِينَ قَالَ أَوَلَوْ جِئْتُكَ بِشَيْءٍ مُّبِينٍ﴾

[1] "Mulk", 14.

**“(Firon) dedi: «(Ey Musa,) əgər məndən başqa məbud seçsən, şübhəsiz, səni zindandakılardan qərar verəcəyəm.» (Musa) dedi: «Əgər sənə aşkar bir nişanə gətirsəm də?»”**

*AYƏ 31:*

﴿قَالَ فَأْتِ بِهِ إِن كُنتَ مِنَ الصَّادِقِينَ﴾

**“(Firon) dedi: “Əgər doğru deyirsənsə, həmin nişanəni göstər.”**

**Nöqtələr**

●27-ci ayədə görürük ki, Firon öz əskikliyini ört-basdır etmək üçün Musa (ə) ilə ən sərt tərzdə danışır və onun haqqında ən çirkin sözləri işlədir. Ərəb qrammatikasında bir mövzunu təkidlə bəyan etmək üçün müəyyən şəkilçi və sözlərdən istifadə edilir. “İnnə” sözü və “lə məcnun” sözündəki “lam” şəkilçisi, eləcə də cümlənin ismi cümlə olması həqarətli sözlər üzərində təkid nişanəsidir.

**Bildirişlər**

1. Zalım başçılar haqla üzbəüz gəldikdə yayınırlar. (Musa (ə) hər dəfə dəlil göstərəndə, Firon ona cavab vermək əvəzinə xalqı əldən vermək qorxusu ilə onlara üz tuturdu.)

2. Təkəbbürlü şəxs heç vaxt haqqı qəbul etmir və özünü xalqdan ayırır.

3. Peyğəmbər müxaliflərinin güclü hücumlarından biri qarşı tərəfi divanə adlandırmaqdır. Bəli, dəlil gətirə bilməyən kəs böhtan və təhqirə əl atır.

4. Yerə və göyə, şərqə və qərbə, varlıq aləmindəki bütün mövcudlara hakim qanunların həmahəngliyi və sabit nizamdan məlum olur ki, bu aləm vahid bir müdiriyyətlə idarə olunur.

5. Təbliğatçı və tərbiyəçi söhbətdən yorulmamalı, öz dəlillərini təkrarlamalı və qəlbi geniş olmalıdır.

6. Allahın övliyalarını böhtanlar vasitəsi ilə tutduqları yoldan döndərmək olmaz.

7. Tövhidə çatmaq üçün düşüncəyə ehtiyac var. (Küfr və şirk ağılsızlıq məhsuludur.) (Xalqın düşüncəsinin işləkliyi zalımlar üçün böyük təhlükədir.)

8. Peyğəmbərlər ədəblə danışırlar. (Firon Musanı divanə adlandırdı. Amma Musa “əgər düşünsəniz, sözlərimi anlayarsınız” dedi.)

9. Zalımların bir gedişi də hədə-qorxu gəlməkdir. (Dini rəhbərlər çətinliyə hazır olmalıdırlar.)

10. Zalım rejimlərdə hərbə-zorba və işkəncə hakimdir. Zülmə qarşı səsini qaldıran əksər şəxs zindana düşməli olur.

11. Məntiq təsirsiz olan yerdə möcüzə zəruridir.

12. Öncədən hazırlıq müvəffəqiyyət və düşmənə qələbə şərtidir. Musa (ə) əsanın əjdahaya dönəcəyini, əlinin bəyazıyacağını bildiyindən “sənin üçün aşkar nişanə gətirsəm necə?” deyirdi.

13. Peyğəmbərlərin möcüzəsi həqiqətdir və xalq bunu yaxşı dərk edir.

*AYƏ 32:*

﴿فَأَلْقَى عَصَاهُ فَإِذَا هِيَ ثُعْبَانٌ مُّبِينٌ﴾

**“Əsanı yerə atdı və əsa qəfildən aşkar bir əjdaha oldu.”**

*AYƏ 33:*

﴿وَنَزَعَ يَدَهُ فَإِذَا هِيَ بَيْضَاء لِلنَّاظِرِينَ﴾

**“Əlini (qoynundan) çıxardı və qəfildən onun əli tamaşaçılara bəyaz göründü.”**

**Nöqtələr**

●Ayədəki “nəzəə” sözü əli cibdən və ya qoyundan çıxarmaq mənasını bildirir.

●Quranda əsanın əjdahaya dönməsi 10 dəfə, Musanın (ə) əlinin bəyazıması beş dəfə zikr olunmuşdur.

●Musa əsanı atdıqda, o əvvəlcə kiçik bir ilan şəklinə düşdü,[1] sonra itaətsiz zalımlar qarşısında əjdaha şəklini aldı. Bu, qarşı tərəfə uyğun söz və əməlin zəruriliyini göstərə bilər.

**Bildirişlər**

1. Peyğəmbərlərin möcüzəsi ilahi qüdrətə bağlı olduğundan bu istiqamətdə çalışmaya və tədriciliyə ehtiyac qalmır. (Yəni əsa qəfildən, dərhal ilan oldu.)
2. Azğın insanlar qarşısında lərzəyə gətirən iş görülməlidir.
3. Peyğəmbərlərin möcüzəsi təxəyyül yox, açıq-aşkar hadisədir.
4. Dəhşətli möcüzə ilə yanaşı əlin parlaması səfa və məhəbbət rəmzidir.
5. Haqq sözün təsiri üçün qorxu və ümidin bütün düzgün üsullarından istifadə edin.

*AYƏ 34-35:*

﴿قَالَ لِلْمَلَإِ حَوْلَهُ إِنَّ هَذَا لَسَاحِرٌ عَلِيمٌ يُرِيدُ أَن يُخْرِجَكُم مِّنْ أَرْضِكُم بِسِحْرِهِ فَمَاذَا تَأْمُرُونَ﴾

**“(Firon) ətrafındakı əyanlarına dedi: “Həqiqətən, bu, mahir bir sehrbazdır. O öz sehri ilə sizi yurdunuzdan çıxarmaq istəyir. Əmriniz nədir?”**

*AYƏ 36-37:*

﴿قَالُوا أَرْجِهِ وَأَخَاهُ وَابْعَثْ فِي الْمَدَائِنِ حَاشِرِينَ يَأْتُوكَ بِكُلِّ سَحَّارٍ عَلِيمٍ﴾

---

[1] “Nəml”, 10.

**“Dedilər: Onu və qardaşını saxla, bütün şəhərlərə (sehrbazlar) toplamaq üçün adamlar göndər. Qoy bütün şəhər sehrbazları sənin yanına gəlsinlər.”**

*AYƏ 38:*

﴾فَجُمِعَ السَّحَرَةُ لِمِيقَاتِ يَوْمٍ مَّعْلُومٍ﴿

**“Sehrbazlar müəyyən bir gün vəd olunmuş vaxtda bir yerə toplandılar.”**

*AYƏ 39:*

﴾وَقِيلَ لِلنَّاسِ هَلْ أَنتُم مُّجْتَمِعُونَ﴿

**“Xalqa deyildi: Siz də toplanırsınızmı?”**

**Nöqtələr**

●Firon Musanın (ə) üzərinə bir neçə istiqamətdə hücuma keçdi:

a) Təhqir: ”Səni biz boya-başa çatdırmadıqmı?”

b) İstehza: ”Sən divanəsən.”

v) Hədə: ”Səni zindana salaram.”

q) Sehr böhtanı: ”Sən sehrbazsan.”

d) Fitnəkarlıq böhtanı: ”Sən qiyam qaldırmaq istəyirsən.”

●Musanın (ə) Fironla söhbətində Harundan söz açılmır. Çünki rəsmi mövqe rəhbər tərəfindən müəyyənləşdirilməlidir.

●“Əmriniz nədir?” soruşularkən məsləhət nəzərdə tutulur. Çünki müşavirlər öz fikirlərini əmr və fərman şəklində bildirirdilər. Necə ki, buyurulur: ”Musa və qardaşına fürsət ver, onları zindana atma.”

●Həzrət Musa (ə) və Firon bir-biri ilə razılığa gəldilər ki, sehrbazların Musa (ə) ilə qarşılaşma mərasimi nə vaxt və harada keçirilsin.

●Müəyyən vaxt və müəyyən yerdə xalqa toplaşmaq göstərişi verildi. Çünki belə bir hüzur və toplanış nəticəsində Musa (ə) və Harun özünü tənha hiss etməli, sehrbazlar bundan güc almalı, hay-küylü təbliğat rəvac tapmalı idi.

●İradəsiz və yaltaq ətraf danışdığı sözdə də təqlid edir. Bu iki ayədə Firon bildirir ki, Musa (ə) mahir sehrbazdır və o, xalqı yurd-yuvasından çıxarmaq istəyir. Amma “Əraf” surəsinin 109, 110-cu ayələrində eyni sözlər artırılıb əskildilmədən onun ətrafı tərəfindən dilə gətirilir.

**Bildirişlər**

1. Zalım hakimlər öz şeytani təbliğatlarını təkid və qətiyyətlə bəyan edirlər.

2. Firon sehrbazları Musa (ə) ilə mübarizəyə təşviq və təhrik etmək üçün Musanı (ə) mahir sehrbaz kimi tanıtdırır.

3. Yalançının yaddaşı olmur. Musanı (ə) divanə adlandıran fironçular sonradan onu mahir və agah sehrbaz kimi təqdim edirdilər.

4. Vətən sevgisi və mülkiyyət hissi insanın daxili meyillərindəndir. Firon xalqı Musaya (ə) qarşı qaldırmaq üçün bu iki nöqtəni bəhanə gətirərək dedi: «O sizi yurd-yuvanızdan çıxaracaq, mülkiyyətinizdən məhrum edəcəkdir.»

5. Yalan, ikiüzlülük və avamları aldatmaq zalım hakimlərin qaydasıdır.

6. Zalım hakimlər qüdrət və hakimiyyətdə olduqları vaxt hər şeyi özlərininki bilirlər.[1] Amma təhlükə hiss etdikləri vaxt xalqı qabağa verirlər.

7. Zalım hakimlər öz əlaltılarına ehtiyaclıdırlar və çətinliyə düşdükdə onlardan çarə istəyirlər. Öncə Musanı (ə) özünə itaətə çağıran şəxs sonradan ətrafındakılara möhtac olur.

8. Fironun dövrü sehr-cadunun rəvac tapdığı bir dövr olmuşdur.

9. Əgər mütəxəssislər vicdanlı olmasalar, fironların xidmətində durarlar.

10. Mütəxəssislərin toplantı və seminarlarının uzun keçmişi var.

11. Zalım qüvvələr öz azğın məqsədlərinə çatmaq üçün mütəxəssislərdən sui-istifadə edirlər. Bəs nə üçün biz yetərincə faydalanmayaq?!

12. Firon bütün gücünü işə saldı.

13. Təbliğatda zaman və məkan seçiminin rolu var.

14. Zalım qüvvələr üçün ictimai rəy qazanmaq və xalqın səhnədə iştirakı mühümdür.

***AYƏ 40-41:***

﴿لَعَلَّنَا نَتَّبِعُ السَّحَرَةَ إِن كَانُوا هُمُ الْغَالِبِينَ فَلَمَّا جَاء السَّحَرَةُ قَالُوا لِفِرْعَوْنَ أَئِنَّ لَنَا لَأَجْرًا إِن كُنَّا نَحْنُ الْغَالِبِينَ﴾

**“Bu ümidlə ki, sehrbazlar qalib gəlsələr, onlara tabe olaq... Sehrbazlar gəldilər və ona dedilər: “Əgər qalib gəlsək, mükafatımız varmı?”**

***AYƏ 42:***

﴿قَالَ نَعَمْ وَإِنَّكُمْ إِذًا لَّمِنَ الْمُقَرَّبِينَ﴾

**“Firon dedi: “Bəli, bu halda siz hökmən sarayın yaxınlarından olacaqsınız.”**

**Nöqtələr**

●İmandan güc alan Musa (ə) və Harun bir tərəfdə dayandılar və arxayın idilər. Firon, əyan-əşrəf və sehrbazlar isə digər tərəfdə nigaran halda dayanmışdılar. Bəli, məhz belə bir məqamda imanın rolu və gücü aydın olur. Sehrbazların “əgər qalib gəlsək” sözündən onların tərəddüddə olduğu, Fironun böyük mükafat vəd etməsindən onun nigarançılıq keçirdiyi aydın olur.

[1] “Zuxruf”, 51.

Sehrbazların mükafatla bağlı şərt kəsməsi Fironun xəsisliyinə işarə ola bilər. Adətən, insanlar səxavətli, əliaçıq fərdlərlə muzd barədə şərt kəsmir, bilirlər ki, qarşı tərəf mərifət və səxavətinə uyğun olaraq hər şeyi nəzərə alacaq.

**Bildirişlər**

1. Firon tanrılıq iddiasında idi. Amma Musanın (ə) möcüzəsi ilə bağlı iş bir yerə çatdı ki, hamı sehrbazlara tabe olub, onların sözünü həlledici saydı.

2. Musanın (ə) möcüzəsini görən Firon sehrbazların qələbəsinə əmin deyildi.

3. Hətta söhbət əqidədən gedəndə belə maddiyyatçı fərdlər puldan dəm vururlar.

4. Sehrbazlar özlərini düşünürdülər və məqsədləri muzd almaq idi. Onları haqq və batil maraqlandırmırdı. Amma peyğəmbərlərin bütün işlərdə şüarı xalqdan təmənnasızlıq idi.[1] Sehrbazlar isə kiçik bir hərəkətə görə muzd alırdılar.

5. Həqiqi imandan məhrum insan Fironun qızıl-gümüşünə göz dikir. Allaha üz tutduqdan sonra isə bütün varlıq aləmi insanın nəzərində kiçilir, o, rahatlıqla canını fəda edir.[2]

6. Bəzən məqam və etibar var-dövlətdən üstün olur.

*AYƏ 43:*

﴿قَالَ لَهُم مُّوسَى أَلْقُوا مَا أَنتُم مُّلْقُونَ﴾

**“(Vəd olunmuş gün çatdı və bütün sehrbazlar bir yerə toplandılar.) Musa onlara dedi: “Atmaq istədiyinizi atın.”**

*AYƏ 44:*

﴿فَأَلْقَوْا حِبَالَهُمْ وَعِصِيَّهُمْ وَقَالُوا بِعِزَّةِ فِرْعَوْنَ إِنَّا لَنَحْنُ الْغَالِبُونَ﴾

**“(Sehrbazlar) öz kəndirlərini və əsalarını atdılar və dedilər: “And olsun Fironun izzətinə, şübhəsiz, biz qalibik.”**

**Bildirişlər**

1. İlahi insanlar haqqın qələbəsinə, sehr-cadunun puçluğuna inanır, qorxu yox, arxayınçılıqla danışırlar.

2. Müxaliflərə fürsət verin ki, öz əqidə və məqsədləri yolunda addım atsınlar. Yalnız bundan sonra onlara möhkəm və məntiqi cavab verin.

---

[1] “Şüəra”, 109, 127, 145, 164, 180

[2] “Şuəra”, 50.

3. Kafir daxilən təlatümdədir, zahirdə isə şüar deyir. Öz qələbəsinə inanmayan sehrbazlar ötən ayədə "əgər qalib gəlsək" deyirdilər. Amma Fironun hüzurunda yerlərini şirin salaraq onun izzətinə and içirlər. Özlərini qalib göstərir, psixoloji müharibə aparırdılar.

*AYƏ 45-46:*

﴿فَأَلْقَى مُوسَى عَصَاهُ فَإِذَا هِيَ تَلْقَفُ مَا يَأْفِكُونَ فَأُلْقِيَ السَّحَرَةُ سَاجِدِينَ﴾

**"Sonra Musa əsasını atdı. (Əsa əjdahaya dönüb) qəfildən onların quramalarını uddu. Sehrbazlar ixtiyarsız olaraq səcdəyə düşdülər."**

*AYƏ 47-48:*

﴿قَالُوا آمَنَّا بِرَبِّ الْعَالَمِينَ رَبِّ مُوسَى وَهَارُونَ﴾

**"Dedilər: «Aləmlərin Rəbbinə iman gətirdik - Musanın (ə) və Harunun Rəbbinə!»"**

**Nöqtələr**

●Sehrbazlar əsanın əjdahaya döndüyünü görən kimi iman gətirdilər. Rəvayətlərdə deyilir: Həzrət Mehdi (ə) zühur edən vaxtda şərq və qərbin mütəxəssisləri ona iman gətirəcək. Çünki mütəxəssislər işin əzəmətini başqalarından daha çox dərk edəcəklər.

**Bildirişlər**

1. Möcüzə tədricən və çalışmalarla yox, ildırım sürəti ilə, ani olaraq baş verir.
2. Batilin haqq qarşısında müqavimət gücü yoxdur.
3. Sehr-cadu həqiqətdən uzaq və əməli bir yalandır.
4. Hazırlıqlı fərdlər haqq qarşısında bəhanə gətirmədən təslim olurlar.
5. Zər qədrini zərgər bilər. (İşində mütəxəssis olan sehrbazlar möcüzəni sehrdən fərqləndirirlər. Möcüzə onlara o qədər təsir etdi ki, ixtiyarsız olaraq səcdəyə düşdülər. Halbuki hadisəyə şahid olan fironçular iman gətirmədilər.)
6. Bir anda mövqeni dəyişmək gücü insanın imtiyazlarındandır.
7. Səcdə haqqpərəstliyin və təslimçiliyin uzun keçmişi olan izharıdır.
8. Bütün varlıq aləmi Allahın tədbiri sayəsində təkamül hərəkətindədir.
9. Sui-istifadənin qarşısı alınmalıdır. Fironçular «Rəbbül-aləmin» təbirini yanlış təfsir etməsinlər deyə sehrbazlar bildirdilər: «Musanın və Harunun Rəbbinə!»
10. Sehrbazlar tövhid, nübüvvət və məad kimi dini əsaslara etiraf etdilər.

*AYƏ 49:*

﴿قَالَ آمَنتُمْ لَهُ قَبْلَ أَنْ آذَنَ لَكُمْ إِنَّهُ لَكَبِيرُكُمُ الَّذِي عَلَّمَكُمُ السِّحْرَ فَلَسَوْفَ تَعْلَمُونَ لَأُقَطِّعَنَّ أَيْدِيَكُمْ وَأَرْجُلَكُم مِّنْ خِلاَفٍ وَلأُصَلِّبَنَّكُمْ أَجْمَعِينَ﴾

**“(Firon qəzəblənib) dedi: “Mən sizə icazə verməmiş ona iman gətirdiniz? Şübhəsiz, o sizə sehr öyrətmiş böyüyünüzdür. Tezliklə cəzanızı görəcəksiniz, hökmən əllərinizi və ayaqlarınızı çarpaz kəsəcək, hamınızı dardan asacağam.”**

*AYƏ 50:*

﴿قَالُوا لَا ضَيْرَ إِنَّا إِلَى رَبِّنَا مُنقَلِبُونَ﴾

**“Sehrbazlar dedilər: “Eybi yox, biz öz Rəbbimizə doğru qayıdarıq.”**

*AYƏ 51:*

﴿إِنَّا نَطْمَعُ أَن يَغْفِرَ لَنَا رَبُّنَا خَطَايَانَا أَن كُنَّا أَوَّلَ الْمُؤْمِنِينَ﴾

**“Ümid edirik ki, Rəbbimiz bizim xətalarımızı bağışlasın. Çünki biz ilk iman gətirənlərik.”**

**Nöqtələr**

●Sehrbazlar Musanın (ə) möcüzəsini görən kimi səcdəyə düşdülər. Firon ətrafdakıları aldatmaq üçün belə izahat verdi: “Bu öncədən qurulmuş bir hiylədir. Siz Musanın (ə) şagirdləri olmusunuz və bu qurğunu məni süquta uğratmaq üçün işə salmısınız.” Halbuki sehrbazlar müxtəlif məntəqələrdən gəlmişdilər və Musanın (ə) yanında deyildilər ki, onun şagirdi olsunlar. Bundan əlavə, onlar Fironun izzətinə and içmişdilər ki, qalib gələcəklər.

●Bəzi təfsirlərdə bildirilir ki, Firon sehrbazların əl-ayağını kəsdi, onları hündür xurma ağaclarından asdı, bu işə görə həzrət Musanın (ə) ağladığı qeyd olunur.

**Bildirişlər**

1. Zalım rejimlərdə xalqın əqidə azadlığı yoxdur.
2. Zalım qüvvələr hətta insanların düşüncəsinə hakim olmaq istəyirlər.
3. Yalançının yaddaşı olmur.
4. İnsanın qüdrətini və iş qabiliyyətini onun əlindən alan ən pis işkəncə əl-ayağının çarpaz surətdə kəsilməsidir.
5. Zalımlara inanmayın - onlar hər şeyi özlərinə xatir istəyirlər. (Firon az öncə vəd etmişdi ki, sehrbazları özünə yaxınlardan qərar verəcək. Amma sonradan hamısını qətlə yetirməklə hədələdi.)
6. Məada, ölümdən sonrakı həyata iman göstəricilərindən biri zalımlar qarşısında şücaətdir.

7. Məada iman gələcək üçün aydın üfüqdür.
8. Allah yolunda şəhadət zərər və həlakət deyil.
9. İmanı agahlığa əsaslanan insan təlatüm keçirmir. (Möcüzənin nə olduğunu bilən sehrbazlar Fironun hədələri qarşısında möhkəm dayandılar.)
10. Həm sehr, həm də Firon tərəfində dayanmaq günahdır.
11. Maddiyyata tamah mənfi, mənəviyyata maraq müsbətdir.
12. Bağışlamaq ilahi rübubiyyət şənlərindəndir.
13. Bağışlanma arzusu gerçək tövbə ilə müşayiət olunmalıdır.
14. İmanda öncüllük fəzilətdir.
15. Xeyir aqibət ən böyük səadətdir. Ömür boyu azğınlıq içində olanlar bir qığılcımla dəyişib ilkin möminlərdən oldular.
16. Hiylə hiyləgəri rüsvay edir. (Firon Musanı (ə) rüsvay etmək üçün böyük sərmayə qoyub sehrbazları dəvət etdi. Amma sehrbazların iman gətirməsi Fironun özünü rüsvay etdi.)

***AYƏ 52:***

﴿وَأَوْحَيْنَا إِلَى مُوسَى أَنْ أَسْرِ بِعِبَادِي إِنَّكُم مُّتَّبَعُونَ﴾

**“Musaya vəhy etdik ki, Mənim bəndələrimi gecə (Misirdən) çıxar. Çünki siz təqib olunacaqsınız.”**

***AYƏ 53:***

﴿فَأَرْسَلَ فِرْعَوْنُ فِي الْمَدَائِنِ حَاشِرِينَ﴾

**“Firon (bu işdən xəbər tutub) xalqı bir yerə toplamaq üçün şəhərlərə məmurlar göndərdi.”**

**Nöqtələr**

●Həzrət Musanın (ə) işləri 3 qismə bölünür:
1. Fironun dəvəti və möcüzə;
2. Sehrbazların ona qoşulmaları və müxtəlif eniş-yoxuşlar;
3. Tərəfdarların və möminlərin hərəkətə gətirilməsi, Firon tərəfindən onların təqibi ki, bu iş möminlərin dəryadan keçməsi, kafirlərin qərq olması ilə nəticələndi.

●“Həşr” sözündə ayağa qaldırmaq, sövq etmək və toplamaq mənaları var.

●Bəni-İsrailin fironçulara faydası vardı və buna görə Firon onların mühacirətinin qarşısını almaq istəyirdi. Həzrət Musaya (ə) əmr olundu ki, onları gecə Misirdən çıxarsın.

**Bildirişlər**

1. Dəlillər qəbul olunmadıqdan sonra növbə Allahın qəhr-qəzəbinə çatır. Bu iş Musaya (ə) köç əmri və fironçuların təqibi ilə başlayır, onların qərq olması ilə başa çatır.

2. Peyğəmbərin bütün hərəkətləri, hətta hicrətin vaxtı belə, vəhy əsasındadır.

3. Fironla mübarizə üçün gecənin qaranlığından da istifadə edin.

4. Ya pozğun cəmiyyəti islah edək, ya da oradan uzaqlaşaq.

5. Peyğəmbərlərin işi təkcə öyüd-nəsihət deyil. Böyük inqilablar və bu inqilablara rəhbərlik peyğəmbərlərin növbəti işlərindəndir.

6. Nəhy əz münkər (pisliyə qadağa) mərhələlərindən biri günahkar cəmiyyətdən hicrətdir.

7. Allah Öz bəndələrini təhlükədən qurtarır.

8. Zalım hakimlər şəhərlərdə şayiələr yayır, təbliğat aparırlar.

*AYƏ 54, 55, 56:*

﴿إِنَّ هَؤُلَاءِ لَشِرْذِمَةٌ قَلِيلُونَ وَإِنَّهُمْ لَنَا لَغَائِظُونَ وَإِنَّا لَجَمِيعٌ حَاذِرُونَ﴾

**“(Fironçuların Musa və onun tərəfdarları haqqında təbliğatı bu idi ki,) həqiqətən, bunlar kiçik bir dəstədir, bizə qarşı qəzəblidirlər, amma biz hamımız müdafiəyə hazırıq.”**

*AYƏ 57-58:*

﴿فَأَخْرَجْنَاهُم مِّن جَنَّاتٍ وَعُيُونٍ وَكُنُوزٍ وَمَقَامٍ كَرِيمٍ﴾

**“Buna görə onları bağlardan və çeşmələrdən çıxardıq, xəzinələrdən və közəl məskənlərdən uzaqlaşdırdıq.”**

*AYƏ 59-60:*

﴿كَذَلِكَ وَأَوْرَثْنَاهَا بَنِي إِسْرَائِيلَ فَأَتْبَعُوهُم مُّشْرِقِينَ﴾

**“(Bizim tədbirimiz) belə oldu ki, Bəni-İsraili onlara varis qərar verdik. Günəş doğan vaxt Firon qoşunu onları təqibə başladı.”**

**Nöqtələr**

●“Şirzimə” sözü kökündən ayrılmış məhdud dəstə mənasını bildirir. Firon öz təbliğatında müxaliflərini kiçik dəstə kimi tanıtdırırdı. Amma İbn-Abbas tərəfindən rəvayət olunur ki, Həzrət Musa (ə) ilə birlikdə yola düşənlərin sayı 600000 nəfərə yaxın idi. Firon isə bu cəmiyyəti kiçik dəstə adlandırırdı.[1]

●“Hazirun” dedikdə müdafiə vasitələri nəzərdə tutulur. “İnna ləcəmiun hazirun”, yəni biz hamımız intiqama hazırıq və silahlıyıq.

---

[1] “Təfsiri-Məcməul-Bəyan”; ”Təfsiri-Kəbiri-Fəxr Razi”

●Fironçular təbliğatlarında özlərini yekdil, Bəni-İsraili kiçik dəstə kimi tanıtdırırdılar. Yəni onlar pərakəndə dəstələrdən ibarətdir və biz tezliklə onları darmadağın edərik. Onlar xəbərsiz idilər ki, nəzərdə tutduqları qrup həzrət Musanın (ə) bir işarə və göstərişi ilə hamılıqla hicrət etmişdir.

**Bildirişlər**

1. Zalım qüvvələr xalq hərəkatlarını əhəmiyyətsiz sayırlar.
2. İctimai fikri çaşdırmaq zalımların qaydasıdır.
3. Zalım hakimlər bilsinlər ki, nifrətə tuş gəlmişlər.
4. Zalımlara qarşı kin və qəzəb, eləcə də onlardan uzaqlıq Allaha iman şərtidir.
5. Saraylar əbədi deyil, zülm süqutun açarıdır.
6. Fironçular Misirdə mədəniyyət sahibi idilər.
7. Təkəbbürlülərin yerində haqqı tapdanmışları varis etmək ilahi sünnələrdəndir.
8. Fironçuların var-dövləti, sarayları və bağları Bəni-İsrailə çatdı.
9. Fironçuların Bəni-İsraili təqib etməsi onları qərq etmək üçün nəzərdə tutulmuş ilahi tədbir idi.

*AYƏ 61:*

﴿فَلَمَّا تَرَاءى الْجَمْعَانِ قَالَ أَصْحَابُ مُوسَى إِنَّا لَمُدْرَكُونَ﴾

**“İki dəstə bir-birini gördüyü vaxt Musanın (ə) yaxınları dedilər: “(Biz tələyə düşdük) Onlar bizi ələ keçirəcəklər.”**

*AYƏ 62:*

﴿قَالَ كَلَّا إِنَّ مَعِيَ رَبِّي سَيَهْدِينِ﴾

**“Musa onlara dedi: “Elə deyil, həqiqətən, Rəbbim mənimlədir və məni hidayət edəcək.”**

**Nöqtələr**

●“Təra” sözü bir-birini görmək, “cəman” sözü iki qrup, dəstə mənasını bildirir.

●“Bəni-İsrail” əvəzinə “Musanın (ə) əshabı” təbirinin işlədilməsi, hətta Musanın (ə) yaxınları arasında dəryanın yolu kəsməsi və Firon qoşununun təqibi ilə bağlı narahatçılığa işarə ola bilər.

●Hər bir hərəkat, qiyam və qərar üçün tanışlıq və bəsirətə ehtiyac olsa da, elə ilk addımda bütün mərhələlərdən xəbərdarlıq zəruri deyil. Musa (ə) qarşısında dəryanı, arxasında düşməni gördüyü vaxt nə baş verəcəyindən xəbərsiz idi. Amma o daim Allahın hidayətinə inanırdı.

**Bildirişlər**

1. Səmavi rəhbərlər böhranlı vaxtlarda həm özləri aram olur, həm də başqalarına aramlıq verirlər.

2. Allahın vədlərinə əmin olaq. (15-ci ayədə Allah Musaya (ə) vəd verirdisə, hazırkı ayədə Musa (ə) xalqa Allahın vədini xatırladır.)

3. Düşmənlə qarşılaşan zaman məyus olmayın, Allaha təvəkkül edin. (Hətta qarşıda dərya, arxada düşmən qoşunu dayanmışsa da!)

4. Peyğəmbərlər ilahi feyz və rəhmət vasitəsidirlər. (Nəzərdə saxlayaq ki, peyğəmbərin hidayəti xalqın hidayəti üçün vasitədir.)

5. Peyğəmbərlər Allahın xüsusi himayəsi altındadırlar.

6. Hidayət rübubiyyət şənlərindəndir.

*AYƏ 63-64:*

﴿فَأَوْحَيْنَا إِلَى مُوسَى أَنِ اضْرِب بِّعَصَاكَ الْبَحْرَ فَانفَلَقَ فَكَانَ كُلُّ فِرْقٍ كَالطَّوْدِ الْعَظِيمِ وَأَزْلَفْنَا ثَمَّ الْآخَرِينَ﴾

**“Musaya vəhy etdik ki, əsanı dənizə vur. Dəniz yarıldı və hər parası böyük bir dağ kimi dayandı. Sonra digər dəstəni (Fironun qoşununu) oraya yaxınlaşdırdıq.”**

*AYƏ 65-66:*

﴿وَأَنجَيْنَا مُوسَى وَمَن مَّعَهُ أَجْمَعِينَ ثُمَّ أَغْرَقْنَا الْآخَرِينَ﴾

**“Musa və onunla olan hər kəsi hamılıqla xilas etdik. Sonra o biri dəstəni suda batırdıq.”**

*AYƏ 67-68:*

﴿إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ وَإِنَّ رَبَّكَ لَهُوَ الْعَزِيزُ الرَّحِيمُ﴾

**“Əlbəttə, bu macərada aydın bir nişanə var. Onların çoxu isə iman gətirən deyildi. Həqiqətən, sənin Rəbbin yenilməz və mehribandır.”**

**Nöqtələr**

●“İnfilaq” dedikdə parçalanma, “firq” dedikdə para, “təvd” dedikdə dağ mənası anlaşılır. Dəniz kimi böyük Nil çayının parçalanması nəticəsində su onun iki sahilində toplanıb dağ kimi ucaldı.

**Bildirişlər**

1. Peyğəmbərlərin işi Allahın iradəsi və ilahi vəhyə əsaslanır.

2. Allah bəzi işləri övliyaların əli ilə görür ki, xalq onlara diqqət yetirib itaət göstərsin. (Bəli, təbiət və onun görüntüləri Allahın iradəsi ilə xüsusi bəndələrin ixtiyarına verilir.)

3. Allahın iradəsi ilə bir gün əsa əjdahaya dönür və düşmənləri qorxuya salır. Başqa bir gün həmin əsa möminlərə rəhmət və onlara yol açılması üçün vasitə olur.

4. Allahın iradəsi ilə eyni bir əsa bəzən daşdan su çıxmasına, bəzən dəryanın qurumasına səbəb olur.[1]

5. Bütün varlıq aləmi və ondakı hərəkətlər Allahın iradəsinə bağlıdır.

6. Qurtuluş peyğəmbərlərlə yoldaşlıq sayəsində əldə olunur.

7. Allah Öz dostlarını ən çətin şəraitdə belə çıxılmaz vəziyyətdən qurtarır.

8. Dənizin yarılması və fironçuların suda batması ilahi qüdrət və qəhr-qəzəb nişanəsi, öyüd-nəsihət səbəbidir.

9. Haqqa yardım və batilin məhvi tarix boyu cərəyanda olan ilahi sünnədir. Bəli, bir hadisə o zaman əlamət və ibrət olur ki, onun oxşarı tarix boyu təkrarlanmış olsun.

10. Allah keçmişdəkilərin tarixini bəyan etməklə İslam Peyğəmbərinə (s) təsəlli və səbir dərsi verir.

11. Az adamlar öyüd-nəsihəti qəbul edir.

12. İslam Peyğəmbəri (s) Allahın xüsusi himayəsi altındadır. (Peyğəmbərə (s) xitab olunur ki, Musanın (ə) müxaliflərini məhv etdiyimiz kimi sənin də müxaliflərini məhv etməyə qadirik.)

13. İnsanların küfrü Allahın yenilməzliyinə zərər vurmur.

14. Tərbiyəçi həm qüdrətli, həm də mehriban olmalıdır.

15. Allahın kafirlərə verdiyi möhlət Onun zəifliyindən yox, mehr-məhəbbətindən qaynaqlanır. Möhlət verməkdə məqsəd kafirlərin tövbə qılmasıdır.

### *AYƏ 69-70:*

﴿وَاتْلُ عَلَيْهِمْ نَبَأَ إِبْرَاهِيمَ إِذْ قَالَ لِأَبِيهِ وَقَوْمِهِ مَا تَعْبُدُونَ﴾

**“(Ey peyğəmbər!) Onlara İbrahimin əhvalatını danış. O zaman ki, atasına (əmisi Azərə) və qövmünə dedi: “Nəyə pərəstiş edirsiniz?”**

### *AYƏ 71, 72, 73:*

﴿قَالُوا نَعْبُدُ أَصْنَامًا فَنَظَلُّ لَهَا عَاكِفِينَ قَالَ هَل يَسمَعُونَكُم إِذ تَدعُونَ أَوْ
يَنفَعُونَكُمْ أَوْ يَضُرُّونَ﴾

---

[1] “Bəqərə”, 60.

**“Onlar dedilər: «Daim yanında olduğumuz bütlərə pərəstiş edirik.» İbrahim dedi: «Onları çağırdıqda sizi eşidirlərmi? Yaxud sizə xeyir verib, ziyan yetirirlərmi?»”**

*AYƏ 74, 75, 76:*

﴿قَالُوا بَلْ وَجَدْنَا آبَاءنَا كَذَلِكَ يَفْعَلُونَ قَالَ أَفَرَأَيْتُم مَّا كُنتُمْ تَعْبُدُونَ أَنتُمْ وَآبَاؤُكُمُ الْأَقْدَمُونَ﴾

**“Bütpərəstlər dedilər: «(Xeyr,) biz atalarımızın belə etdiyini gördük.» İbrahim dedi: «Pərəstiş etdiyinizə (dərindən) baxırsı-nızmı? Siz və sizin öncəki ata-babalarınız (diqqət ediblərmi)?»”**

**Nöqtələr**

●Quranda 130 dəfədən çox həzrət Musanın (ə) adı qeyd olunmuşdur. Digər peyğəmbərlərdən daha çox (Musadan (ə) sonra) həzrət İbrahimin (ə) adı ilə rastlaşırıq.

●Rəvayətlərə əsasən ayədəki “əb” sözü İbrahimin (ə) əmisi Azərə işarədir. Çünki İbrahim kimi peyğəmbərin atası kafir ola bilməzdi. “Əb” sözünün “tərbiyəçi”, “baba”, “qaynata” kimi lüğət mənaları və “Bəqərə” surəsinin 133-cü ayəsində həm baba, həm də əmi “əb” adlandırılmışdır.

●Elm əhlinə təqlid təkamül və tərəqqi vasitəsi ola bilər.[1] Amma nadana təqlid süquta səbəb olur. İnsanın heç bir araşdırma aparmadan adət-ənənələrə tabe olması cəmiyyətdəki sabitliyi pozur, düşüncə və həqiqətin tanınması yolunda maneəyə çevrilir.

●Həzrət İbrahim (ə) bütün yəhudi və məsihi qrupları tərəfindən qəbul olunduğu üçün Peyğəmbər (s) dövründəki kitab əhlinə və müsəlmanlara onun tarixini bəyan etmək ibrətamiz idi.

●“Rəəytum” sözü müxtəlif köklərə əsasən, həm gözlə, həm də ağılla görmək mənasını daşıya bilər.

**Bildirişlər**

1. İslam Peyğəmbərinə (s) özündən əvvəlki peyğəmbərlərin tarixini hifz etmək əmr olunub.
2. Həzrət İbrahimin əhvalatı mühüm və faydalıdır. (“Nəbə” sözü mühüm xəbər mənasını bildirir.)
3. Tarixə hakim sünnə və qanunlar sabitdir. Buna görə də dünənki tarix bu gün üçün dərs ola bilər.
4. Pisliyə qadağaya (nəhy əz münkərə) özümüzdən başlayaq.
5. Nəhy əz münkərdə yaş şərt deyil.

---

[1] “Nəhl”, 43; “Ənbiya”, 7; “Ənam”, 90.

6. Nəhy əz münkərdə qüdrət şərt deyil. (Nəzərə alaq ki, həzrət İbrahimin (ə) dövründə elə bir şərait vardı ki, əmisi onu rədd etdi.)

7. Nəhy əz münkərdə tənhalıqdan qorxmayın.

8. Haqqın müdafiəsində qohumları nəzərə almayın.

9. Allah İbrahimin (ə) yaxın qohumlarının bütpərəst olmasını bəyan etməklə İslam Peyğəmbərinə (s) təsəlli verir.

10. Təbliğatda suallar ünvanlamaqla vicdanları oyadın. (İbrahim (ə) nəyə pərəstiş etdiklərini gördüyü halda onları düşüncəyə vadar edib vicdanlarını oyatmaq üçün sual verdi.)

11. İnsan pərəstişkar mövcuddur. O, haqdan yayındıqda batilə üz tutasıdır.

12. Qurani-Kərim tarixi nəql edərkən həssas və tərbiyəvi nöqtələrə toxunur. (Quran tarixdən nəql etdiyi mövzularda saya, ada, zamana və məkana işarə etmir, sadəcə ibrətamiz bildirişləri bəyan edir.)

13. Nəhy əz münkər zamanı mühüm büdrəmələrdən başlayın. (Bəli, ən təhlükəli azğınlıq Allaha şərik qoşmaqdır.)

14. Hər ibadət dəyərli olmur. Məbudun kimliyi və şüur həddi mühümdür.

15. Pərəstiş bir anlıq istək yox, insanın ruhunda kök atmış həqiqətdir.

16. Azğınlıqdan da pisi azğınlıqla fəxr etməkdir.

17. Dəlil və məntiq təbliğin ilkin addımıdır.

18. Pərəstiş üçün əsas olan meyar məbudun xeyir verib şəri dəf etməsidir. Bütlər isə bu iki işdən heç birini bacarmır.

19. Adi insanlarla ünsiyyətdə aydın və dərk olunası dəlillər göstərin.

20. Əqidə məsələlərində təqlid etmək olmaz.

21. Bəzən ata-babaların adət-ənənələri ağıl və məntiq yoluna mane olur.

22. İnsanın yaşı onun haqlı olmasına dəlil deyil.

23. Bütpərəstlər bütlərin gücsüzlüyünü bilsələr də, ata-babalarının yolundan əl çəkə bilmirlər.

24. Təəssüb və millətçilik qadağandır.

25. Cəhalət və sadəlövhlük azğınlıq zəminidir. (Şirkin elmi və məntiqi əsası yoxdur.)

26. Düşüncə insan üçün zərurətdir.

27. Müxtəlif düşüncələr arasında mübahisə və araşdırma zəruridir.

*AYƏ 77:*

﴿فَإِنَّهُمْ عَدُوٌّ لِّي إِلَّا رَبَّ الْعَالَمِينَ﴾

**“Əlbəttə, aləmlərin Rəbbi istisna olmaqla (bütlər) mənim düşmənimdir.”**

*AYƏ 78-79:*

﴿الَّذِي خَلَقَنِي فَهُوَ يَهْدِينِ وَالَّذِي هُوَ يُطْعِمُنِي وَيَسْقِينِ﴾

**“O kəs ki, məni yaratdı və hidayət edir. O kəs ki, (aclıq vaxtı) mənə təam verir, (susuzluq vaxtı) məni sirab edir.”**

### *AYƏ 80-81:*

﴾وَإِذَا مَرِضْتُ فَهُوَ يَشْفِينِ وَالَّذِي يُمِيتُنِي ثُمَّ يُحْيِينِ﴿

**“Xəstələndiyim vaxt mənə şəfa verən də Odur. O kəs ki, məni öldürər, sonra dirildər.”**

### *AYƏ 82:*

﴾وَالَّذِي أَطْمَعُ أَن يَغْفِرَ لِي خَطِيئَتِي يَوْمَ الدِّينِ﴿

**“O kəs ki, din (Qiyamət) günü xətalarımı bağışlayacağına ümidvaram.”**

**Nöqtələr**

●Aləmlərin Rəbbi olan Allahdan savay bütün məbudlar bizə düşməndir. Qiyamət günü bütün bütlər dilə gəlib bütpərəstlərin əleyhinə şikayət edəcək.[1] Qiyamət günü bütlər bütpərəstlərdən üz çevirər, onlarla zidd düşər. Bu yolla onlar arasındakı ədavət üzə çıxar.[2]

●Allah-təala Həzrət İbrahimi (ə) ”seçilmiş” kimi sifətlərlə vəsf edir.[3] Peyğəmbərlərin xətası günah yox, “tərki övla”, yəni daha yaxşının tərk olunmasıdır.

**Bildirişlər**

1. Xülya və yalan məbudlar bəşərin düşüncə, səadət və təkamülünün düşmənləridirlər.
2. İnsan öncə dünya və onu yaradana, sonra özünə diqqət yetirməlidir.
3. Təbliğdə bəzən özümüzü başqalarının yerinə qoymağımız lazım gəlir.
4. İnsanın yaranışı ən böyük ilahi lütflərdəndir.
5. Hidayət haqqı yaranmışa məxsusdur. Çünki tədbir və hidayət yaranışdan ayrı deyil.
6. Allahın yaratması və hidayəti bütlərin yox, məhz Onun insana sevgisini göstərir.
7. Hidayət rübubiyyət şənlərindəndir.
8. Hidayət (doğru yola yönəltmə) neməti (xilqətdən sonra) ən böyük nemətdir.

---

[1] “Məryəm”, 82

[2] “Təfsiri-Kəbire-Fəxr-Razi”

[3] “Sad”, 46

9. Yaradılış bir dəfə olur, hidayət isə daimidir.
10. İnsanın doyurulması və susuzluğunun yatırılması Allahın işidir. Su və çörək sadəcə vasitədir.
11. Öncə mənəvi nemətlərə, sonra maddi nemətlərə diqqət yetirilməlidir.
12. Xəstəliyin yaranmasında özümüz müqəssirik.
13. Şəfa Allahdandır, dərman yalnız vasitədir və onun təsiri Allahın iradəsindən asılıdır.
14. Ruh və cismin birlikdə şəfa tapması zəruridir.
15. Danışıq və xütbədə sözlərin uyğunluğu dəyərdir.
16. İlahi dünya görüşündə ölümlə iş başa çatmır və ölüm insan həyatının mərhələlərindən biridir.
17. Varlıq aləmindəki bütün işlər Allahdandır.
18. Ölüm də nemətdir. Ölüm ayədə başqa nemətlərlə yanaşı zikr olunur.
19. Harada şirk üçün zəmin varsa orada mübarizə aparılmalıdır. (Hidayət, təam və şəfa nemətləri ilə bağlı üç dəfə "huvə", yəni "O" əvəzliyi işlədilmişdir. Amma yaranışdan, ölüm və həyatdan danışarkən həmin əvəzlik işlədilmir. Uyğun fərq belə izah oluna bilər ki, yaranış və ölümü hamı Allah tərəfindən bilir və bu istiqamətdə şirkə yer yoxdur. Amma çox vaxt tərbiyə və şəfa xalqa, qidaya, dərman və həkimə aid edilir. Beləcə, Quran tövhid ruhiyyəsinə təravət vermək üçün "huvə" əvəzliyini işlədir. Yəni bütün işlər Onun - Allahın əlindədir.)
20. İbadət fəlsəfələrindən biri Allaha təşəkkürdür. (İbrahim (ə) əmisinə və öz qövmünə buyurdu: "Nəyə pərəstiş edirsiniz?" Dedilər ki, bütə. Həzrət İbrahim (ə) bu ayələrdə Allaha ibadət fəlsəfəsini bəyan edir.)
21. Heç kim Allahın lütflərindən ehtiyacsız deyil. Əgər həzrət İbrahim Xəlilullah özünü Allahın bağışlamasına ehtiyaclı bilirsə, biz necə arxayın ola bilərik?!
22. Allahın əfvi bizim haqqımız yox, Onun mərhəmətidir. Bəli, öz əməllərimizə güvənməyək. Çünki həzrət İbrahim (ə) də öz işinin mükafatına yox, Allahın əfvinə göz dikmişdi.
23. Ümid və qorxu bir dəyərdir.
24. Allahın rübubiyyəti insanı Onun əvf və bağışlamasına yönəldən səbəbdir.
25. Bağışlanma istəyi peyğəmbərlərin qaydasıdır.
26. Əgər Allahın xüsusi lütfü olmasa, insan istənilən bir mərhələdə xətaya yol verə bilər.
27. Peyğəmbər kəlamlarında yaranış və məadın təzahürləri aşkardır.
28. İnsanların maddi və mənəvi ehtiyaclarının təmini başlanğıcdan sonadək Allahın əlindədir.

### *AYƏ 83:*

﴿رَبِّ هَبْ لِي حُكْمًا وَأَلْحِقْنِي بِالصَّالِحِينَ﴾

**“(İbrahim (ə) sözünün davamında dedi:) «Pərvərdigara! Mənə hikmət və elm mərhəmət buyur, məni salehlərə qovuşdur!»”**

**Nöqtələr**

●“Hukm” sözü hökumət, himayədarlıq və müdiriyyət mənalarını daşıya bilər. Bu sözün elm və mərifət mənasını da ifadə etməsi mümkündür. Şübhəsiz, “hukm” sözü hikmətdən üstün məna bildirir. Çünki hikmət dedikdə yalnız haqqı batildən seçmək gücü, “hukm” dedikdə isə agahlıqla yanaşı haqqın icrası üçün hazırlıq mənası başa düşülür.[1]

●İnsanın xoşbəxtliyi həzrət İbrahimin (ə) duasında bəyan olunmuş bir neçə cümlə ilə xülasələşir:

a) Allahı tanımaq və Ona münasibətdə daxili mərifət;

b) Salehlər cəmiyyətində iştirak;

v) Tarixdə yaxşı ad;

q) Əbədi Behiştə qovuşmaq.

**Bildirişlər**

1. İnsan kamilliklərə çatmaq üçün Allahdan yardım diləməlidir.
2. “Rəbb” adı ilə çağırış duanın qəbuluna təsir göstərir.
3. Əməllə müşayiət olunan hikmət və bəsirət ilahi hədiyyədir.
4. Allahdan yeni bir nemət istəməzdən öncə əvvəlki nemətlərin adını çəkin və təşəkkür edin.
5. Pis dostların əhatəsində hikmət səmərəsizdir.
6. Əgər baxış və təfəkkür düzgün olsa, niyyət, danışıq və rəftar da düzgün olar. (Hikmət dedikdə düzgün baxış, düzgün düşüncə və düzgün yanaşma nəzərdə tutulur.)
7. Nəzəri hikmət təklikdə faydasızdır. Hikmət əməllə müşayiət olunmalıdır.
8. Daxilən hikmət və mərifətdən faydalanmaq, salehlər cəmiyyətində yaşayıb saleh olmaq xoşbəxtliyin ən üstün dərəcəsidir.
9. Hikmət, mərifət və bəsirət əməldən öndə gəlir.
10. Ən yaxşı duaları ən üstün şəxslərdən öyrənək. (İnsanların ən üstünü peyğəmbərlərdir və həzrət İbrahim (ə) ülul-əzm (böyük) peyğəmbərdir. O öz duasında Allahdan bağışlanma, hikmət, yaxşı ad, xoş aqibət istəyir. Digər ayələrdə İbrahim (ə) yaxşı övlad və müsəlman ardıcılları üçün Allaha dua edir.)
11. İlahi hökmlərin icrası üçün hakimiyyət istəyi yaxşı istəkdir.[2]
12. Həm guşənişinlik, həm də pis insanlarla yoldaşlıq qadağandır.
13. Salehlər arasında öncülləri dəyərləndirək. (İbrahim ərz etmir ki, salehlərdən olum. Deyir ki, onlara qatılım. Çünki “sabiqin”, yəni öncüllər məqamı üstündür.)
14. Fərdləri saleh olan cəmiyyət dəyərlidir.

---

[1] “Təfsiri-nümunə”.

[2] “Təfsire-Safi”.

15. İnsan yaxşı yoldaşa möhtacdır.

*AYƏ 84:*

﴿وَاجْعَل لِّي لِسَانَ صِدْقٍ فِي الْآخِرِينَ﴾

**“Gələcəkdəkilər arasında mənim üçün yaxşı ad qərar ver.”**

*AYƏ 85:*

﴿وَاجْعَلْنِي مِن وَرَثَةِ جَنَّةِ النَّعِيمِ﴾

**“Məni nemət dolu («Nəim») Behişt varislərindən et.”**

**Nöqtələr**

●“Saffat” surəsinin 108-ci ayəsində İsmailin (ə) qurbanlıq macərası bəyan olunur. Bildirilir ki, həcc mərasimində qurbanlığı vacib bir sünnə, qanun qərar verdik, İbrahim (ə) təslim olduğundan onun üçün yaxşı ad müəyyənləşdirdik və dualarını qəbul etdik.

“Məryəm” surəsinin 50-ci ayəsində də həzrət İbrahim (ə), İshaq (ə) və Yaqubun (ə) adını çəkdikdən sonra buyurulur ki, Biz onlar üçün uca və yaxşı ad qərar verdik.

●Həzrət Əli (ə) buyurdu: “Yaxşı ad üstün mülk və sərmayədəndir.”[1]

●Rəvayətlərdə “lisanə sidqin” təbirinin həzrət Məhəmməd (s) və Həzrət Əlinin (ə) mübarək vücuduna işarə olduğu bildirilir.[2] Bəziləri həzrət Peyğəmbərin (s) “mən atam İbrahimin (ə) duasının səmərəsiyəm” buyruğunu uyğun nöqtəyə dəlil göstərirlər. Buna əsasən də “lisanə sidqin fil axirin” təbiri İbrahimin (ə) nəslindən olan peyğəmbərlər mənasında anlaşılmalıdır. Onlar tövhid məktəbini davam etdirmişlər. Belə bir istək İbrahim (ə) kimi peyğəmbərin məqamına daha çox uyğundur.

●Rəvayətlərdə oxuyuruq: “İnsan dünyadan getdiyi vaxt onun əməl naməsi bağlanır. Yalnız cari olan sədəqə qoyub getmiş olsa əməl naməsinə əlavə olunur. Məsələn, insanın vəqfi, yazdığı faydalı bir kitab, saleh övladının duası ölümündən sonra onun üçün təsirlidir.[3]

●Rəvayətdə bildirilir: hər bir insan üçün Behiştdə və Cəhənnəmdə mənzil ayırılmışdır. İnsan əməlləri səbəbindən Cəhənnəmə düşdükdə onun Behişt mənzili başqalarına verilir, həmin şəxslər bu evə varis olurlar.[4]

---

[1] “Təfsire-Nurus-səqələyn”.
[2] “Təfsire-kənzud-dəqaiq”.
[3] “Vəsail”, c. 6, s. 293.
[4] “Təfsire-Nurus-səqələyn”, c. 2, s. 31.

**Bildirişlər**

1. Yaxşı məktəb və bəxşişin davamını Allahdan diləyək.
2. Yaltaqlıq yox, sədaqət əsasında sitayiş dəyərlidir.
3. Gələcəkdəkiləri və onların mühakiməsini nəzərə alın.
4. Yəhudi, məsihi və müsəlmanların İbrahimin (ə) əzəməti ilə bağlı yekdilliyi onun duasının səmərəsidir.
5. Böyük insanlar həm dünyəvi sevgi, həm axirət xoşbəxtliyi istəyirlər.
6. İnsan ölümündən sonra da binasını qoyduğu yaxşı işlərdən və başqalarının xeyir-dualarından faydalanır.
7. Qısamüddətli planlarla kifayətlənməyək.
8. Behişt nemətləri bizim əməllərimizlə müqayisədə çox-çox böyükdür və əziyyətsiz əldə olunur. İrs dedikdə zəhmətsiz əldə olunan şey başa düşülür.

*AYƏ 86:*

﴿وَاغْفِرْ لِأَبِي إِنَّهُ كَانَ مِنَ الضَّالِّينَ﴾

**“(İbrahim duasının davamında dedi:) «Atamı (əmimi) bağışla, şübhəsiz, o, yolunu azanlardandır.»”**

*AYƏ 87, 88, 89:*

﴿وَلَا تُخْزِنِي يَوْمَ يُبْعَثُونَ يَوْمَ لَا يَنفَعُ مَالٌ وَلَا بَنُونَ إِلَّا مَنْ أَتَى اللَّهَ بِقَلْبٍ سَلِيمٍ﴾

**“Hamının məbus olacağı (dirildiləcəyi) gün məni xar etmə. Elə bir gün ki, nə var-dövlət, nə də övladlar insan üçün faydalıdır. Yalnız pak ruh və qəlblə Allaha doğru gələn istisnadır.”**

**Nöqtələr**

●Əksəriyyət bu fikirdədir ki, ayədə İbrahimin (ə) atası yox, əmisi nəzərdə tutulmuşdur. Quran buyruğuna əsasən, mömin insan kafir haqqında dua etməməlidir. Həzrət İbrahim (ə) əmisinə vəd etdiyi üçün ona dua etdi. Çünki hələ də onun iman gətirəcəyinə ümid bəsləyirdi.[1] Amma İbrahim (ə) Azərin iman gətirməyəcəyinə əmin olduqdan sonra ondan uzaqlaşdı.[2]

●Pak ruh dünya bağlılıqlarından, şirk, küfr, nifaq, təkəbbür və digər qəlb xəstəliklərinə aludəlikdən pak qalmış ruhdur. Allah münafiqlərin qəlbində xəstəlik olduğunu bildirir. Deməli, sağlam qəlb mömin insanın qəlbidir.

Hədisdə oxuyuruq: “Sağlam qəlb şirk olmayan qəlbdir.[3]

●Həzrət Peyğəmbər (s) öz namazında belə dua edirdi: “Pərvərdigara! Məni Qiyamətdə xar və rüsvay etmə.”[1]

---

[1] “Məryəm”, 47.
[2] “Tövbə”, 114.
[3] “Təfsire-Nurus-səqəleyn”.

●**Sual:** Rəvayətdə bildirilir ki, infaq və sədəqə, valideyn üçün dua edən saleh övlad Qiyamətdə onun üçün faydalıdır. Amma başqa bir ayədə mal və övladın fayda verməyəcəyi bildirilir. Burada ziddiyyət yoxdurmu?

**Cavab:** Bu ayədə ilahi xətdə qərar tutan var-dövlət və övlad nəzərdə tutulur.

Demək, dünya bir hərəkətlə qapını bağlayan, digər bir hərəkətlə qapını açan açar kimidir. Halal mal salehlərin əlində xeyir, qeyri-salehlərin əlində günah vasitəsidir.

*Gəmidən bayırda həyat olan su*
*Göyərtəyə dolsa ölüm olar bu*

**Bildirişlər**

1. Yaxınlara məhəbbət və dua onların nöqsanlarını tənqidlə müşayiət olunmalıdır.
2. Qiyamətdə dünya müqavilələri səmərəsizdir, pak qəlbdən savay heç nəyin faydası yoxdur.
3. Ümid və qorxu yanaşı olmalıdır.
4. İnsan istənilən bir mərhələdə Qiyamətdən qəflətdə qalmamalıdır.
5. Qiyamətdə başqaları da bizim eyblərimizdən xəbər tutur. Çünki rüsvayçılıq o yerdə bizi yaxalayır ki, başqaları bizim rəftar və düşüncələrimiz agah olsunlar.
6. Xarlıq və rüsvayçılıq Qiyamətin ən çətin hallarındandır. Həzrət İbrahim (ə) Qiyamət gününün çətinlikləri arasında rüsvayçılığı qeyd edib kömək diləyir.
7. Qiyamətdəki təhqir və xarlıq cəhənnəm əzabından pisdir.[2]
8. Dünyada dəyərli sayılan bir çox şey axirətdə öz dəyərini itirər. “Mal” maddi, “bənun” (övladlar) mənəvi yönümlərə işarədir. Yəni Qiyamətdə var-dövlət, övlad, məqam, ad-san və diplomun heç bir faydası yoxdur.

### *AYƏ 90, 91, 92:*

﴿وَأُزْلِفَتِ الْجَنَّةُ لِلْمُتَّقِينَ وَبُرِّزَتِ الْجَحِيمُ لِلْغَاوِينَ وَقِيلَ لَهُمْ أَيْنَ مَا كُنتُمْ تَعْبُدُونَ﴾

**“(Həmin gün) Behişt təqvalılar üçün hazır olar. Şöləlnmiş od azğınlara göstərilər. Onlara deyilər: Pərəstiş etdiyiniz haradadır?”**

### *AYƏ 93:*

﴿مِن دُونِ اللَّهِ هَلْ يَنصُرُونَكُمْ أَوْ يَنتَصِرُونَ﴾

**“Onlar Allahın əvəzində sizə kömək edər, yoxsa özlərini qoruya bilərlər!?”**

---

[1] “Təfsire-Fürqan”.
[2] “Ali-İmran”, 192

*AYƏ 94-95:*

﴿فَكُبْكِبُوا فِيهَا هُمْ وَالْغَاوُونَ وَجُنُودُ إِبْلِيسَ أَجْمَعُونَ﴾

**“Bütün azğın məbudlar və abidələr Cəhənnəmə atılar. İblisin bütün qoşunları da (cəhənnəmə salınar).”**

**Nöqtələr**

●“Uzlifət” dedikdə yaxınlaşma, “burrizət” dedikdə zahir olma mənaları anlaşılır. “Ğavin” sözü əqidə fəsadlarından olan şər və cəhalət mənasını bildirir. “Kubb” dedikdə yerə dəymək mənası nəzərdə tutulur. “Kubkib”u sözü ardıcıl şəkildə yerə dəymək mənasını bildirir. Cəhənnəm əhli pillədən aşağı yuvarlanan və hər pillədə yerə dəyən daş kimi ardıcıl süqut edir.

●İmam Baqir (ə) və imam Sadiq (ə) buyurur: “Bu ayədə ədalətdən danışıb əməldə ədalətli olmayanlar da nəzərdə tutulur.”[1]

●“Ətyəbul-bəyan” təfsirinin müəllifi belə hesab edir ki, Behiştin yaxınlaşması və Cəhənnəmin görünməsi dedikdə mömininin qəbrinə Behiştdən, kafirin qəbrinə Cəhənnəmdən qapı açılması nəzərdə tutulur.

**Bildirişlər**

1. Təqvalı (pəhrizkar) mömininin məqamı Behiştdən ucadır. Ona görə də Behişt mömininin gəlişi üçün hazırlanır. Bəli, Behişt bütün əzəmətinə baxmayaraq dünyada günahdan uzaq olmuş mömininin görüşünə gətirilir.
2. İlahi müjdə ilahi xəbərdarlıqdan öndə gəlir.
3. Cəhənnəm və əzab vasitələrinin müşahidəsi özü də Cəhənnəm əhli üçün bir növ əzabdır.
4. Danlaq da Qiyamətin ruhi əzablarındandır.
5. İnsanın taleyində onun etiqadlarının mühüm rolu var.
6. Qiyamətdə insandan onun əqidə və düşüncələri haqqında soruşular.
7. Bütün insanlarda pərəstiş ruhiyyəsi var. Amma onlardan bir hissəsi çaşqınlığa sürüklənir.
8. Həm uydurma məbudlar, həm də azğın abidlər Cəhənnəmə gedərlər.

*AYƏ 96-97:*

﴿قَالُوا وَهُمْ فِيهَا يَخْتَصِمُونَ تَاللَّهِ إِن كُنَّا لَفِي ضَلَالٍ مُّبِينٍ﴾

**“Onlar cəhənnəmdə bir-birləri ilə höcətləşən halda deyərlər: “And olsun Allaha ki, doğrudan da biz aşkar azğınlıq içində olmuşuq.”**

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

*AYƏ 98-99:*

﴿إِذْ نُسَوِّيكُم بِرَبِّ الْعَالَمِينَ وَمَا أَضَلَّنَا إِلَّا الْمُجْرِمُونَ﴾

**“Çünki sizi aləmlərin Rəbbinə bərabər bilirdik. Bizi günahkarlardan başqa kimsə azdırmadı.”**

**Nöqtələr**

●Bütünlüklə salamatlıqdan ibarət Behişt fəzasından fərqli olaraq cəhənnəm fəzası daim danlaq, sıxıntı və lənətlə doludur. Ardıcılların azğın rəhbərlərə nifrini, günahkarların şeytanı məzəmməti, məbudların müşriklərə lənəti, günahkarların bir-birini qınağı bu mühiti əhatə etmişdir. Quranda uyğun mövzu ilə bağlı bir çox ayələr mövcuddur.

**Bildirişlər**

1. Cəhənnəm əhli arasında höcətləşmə və düşmənçilik mövcuddur. (Müşriklər daim öz məbudları ilə didişmədədirlər.)
2. Qeyri-müqəddəs və qeyri-ilahi eşqlər Qiyamətdə kin-küdurətə çevriləsidir.[1]
3. Qiyamətdə vicdanlar oyanar.
4. Bir şəxsi və ya bir şeyi Allahla bərabər tutmaq şirk etmək sayılır.
5. Qiyamətdə hər fərd öz təqsirini başqasının boynuna atar.
6. Qiyamətdə müşriklər öz rəhbərlərindən şikayət edərlər.

*AYƏ 100-101:*

﴿فَمَا لَنَا مِن شَافِعِينَ وَلَا صَدِيقٍ حَمِيمٍ﴾

**“Nəticədə (bu gün) bizim üçün nə şəfaətçi var, nə də səmimi bir dost.”**

*AYƏ 102:*

﴿فَلَوْ أَنَّ لَنَا كَرَّةً فَنَكُونَ مِنَ الْمُؤْمِنِينَ﴾

**“Əgər (dünyaya) qayıda bilsəydik, möminlərdən olardıq.”**

*AYƏ 103-104:*

﴿إِنَّ فِي ذَٰلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ وَإِنَّ رَبَّكَ لَهُوَ الْعَزِيزُ الرَّحِيمُ﴾

**“Həqiqətən, bunda (bu sərgüzəştdə) ibrət dərsi, nişanə var. Amma onların çoxu iman gətirən deyildi. Əlbəttə, sənin Rəbbin yenilməz və mehribandır.”**

---

[1] “Zuxruf”, 67.

**Nöqtələr**

●"Məcməül-Bəyan" təfsirində nəql olunmuş rəvayətlərdə bildirilir ki, məsum imamlar şiələrə şəfaət edəcəkləri ilə bağlı and içmişlər.

●İmam Sadiq (ə) buyurmuşdur: "Mömin şəxs həmin gün öz əhli-beytinə şəfaət edər."[1]

●İmam Sadiq (ə) buyurmuşdur: And olsun Allaha, Qiyamət günü biz də öz şiələrimizə elə şəfaət edərik ki, azğınların səsi göyə ucalar."[2]

●Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Qiyamət günü Quran, mömin yaxınlar, Peyğəmbər (s) və onun Əhli-beyti (ə) şəfaət edər."[3]

**Bildirişlər**

1. Qiyamətdə şəfaət ediləcəyi şübhəsizdir. Amma müşriklər də daxil olmaqla bir zümrə bu şəfaətdən bəhrələnməz.
2. Dünyada günahkarlarla dostluq Qiyamətdə səmərəsiz olar.
3. İnsan Qiyamətdə də yaxşı dosta ehtiyaclıdır.
4. Qiyamətdə şəfaət əldə etmək üçün iman şərtdir.
5. Qiyamət günü həsrət, peşmançılıq günüdür.
6. Xalq qurtuluş istəmədikdə və inadkarlıq göstərdikdə hidayət üçün böyük ilahi nişanə də faydasız olar.
7. Qüdrət olan yerdə mehribanlıq ilahi bir sifətdir.
8. Ey Peyğəmbər əksəriyyətin yolunu azmasına görə nigaran qalma. Çünki sən Bizim xüsusi himayəmiz altındasan.
9. Allahın azğınlara möhlət verməsinin səbəbi acizlik yox, Onun rəhmət və lütfüdür.

***AYƏ 105:***

﴿كَذَّبَتْ قَوْمُ نُوحٍ الْمُرْسَلِينَ﴾

**"Nuh qövmü peyğəmbərləri təkzib etdi."**

***AYƏ 106-107:***

﴿إِذْ قَالَ لَهُمْ أَخُوهُمْ نُوحٌ أَلَا تَتَّقُونَ إِنِّي لَكُمْ رَسُولٌ أَمِينٌ﴾

**"O vaxt qardaşları Nuh onlara dedi: «Yoxsa (Allahdan) çəkinmirsiniz? Həqiqətən mən sizin üçün etibar olunan peyğəmbərəm.»"**

---

[1] "Təfsiri-Məcməül-Bəyan".

[2] "Təfsiri-Əl-Mizan".

[3] "Kənzül-ummal".

***AYƏ 108-109:***

﴿فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ وَمَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلَّا عَلَى رَبِّ الْعَالَمِينَ﴾

**“Allahdan çəkinin və mənə itaət edin. Mən bu risalət müqabilində sizdən heç bir muzd istəmirəm. Mənim mükafatım yalnız aləmlərin Rəbbi tərəfindəndir.”**

***AYƏ 110-111:***

﴿فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ قَالُوا أَنُؤْمِنُ لَكَ وَاتَّبَعَكَ الْأَرْذَلُونَ﴾

**“Allaha münasibətdə təqvalı olun və (göstərişlərimə) itaət edin. Onlar iman gətirmək əvəzinə dedilər: «Yalnız səfillər sənə tabe olduğu vaxtımı sənə iman gətirək?!»”**

**Nöqtələr**

●Quranda həzrət Nuhun (ə) adı 43 dəfə qeyd olunmuşdur. Həzrət İbrahim (ə) Nuhun (ə) şiəsi sayılır.[1] Quranda “Nuh” adlı surə də var. Allahın Nuha (ə) xüsusi bir salamı var.[2] Allah həzrət Musa (ə), Harun (ə) və İbrahimə (ə) salam verirsə də, həmin salamlarda “fil-aləmin” təbiri yoxdur.

●Peyğəmbərlərin tarixi ilə tanışlıq insanı peyğəmbərlərə məftun edir, insanda səbir və sabitlik ruhu yaranır.

**Bildirişlər**

1. Bütün peyğəmbərlər vahid məqsədə doğru hərəkət etmişlər. Buna görə də bir peyğəmbərin təkzibi bütün peyğəmbərlərin təkzibi kimidir. (Nuh qövmü təkcə Nuhu (ə) təkzib etsə də Quran bütün peyğəmbərlərin təkzib olduğunu bildirir.)
2. Qəbilələr və ümmətlər onların rəhbərləri və şəxsiyyətləri ilə tanınır.
3. Nuhdan (ə) öncə çoxsaylı peyğəmbərlər olmuşdur.
4. Dinin təbliğində duyğulardan istifadə edin.
5. Peyğəmbərlər öz dövrlərinin insanları ilə qardaşcasına rəftar etmişlər.
6. Xalqın mədəniyyətindən, dilindən, adət-ənənələrindən, zəif və güclü nöqtələrindən xəbərdarlıq təbliğatçı üçün zəruri səciyyədir. Xalqa qardaş olan kəs onun düşüncəsindən, adət-ənənələrindən, zəif və güclü nöqtələrindən agahdır.
7. Din qardaşlığı vəzifələrindən biri digər qardaşlara öyüd-nəsihət verilməsidir.

---

[1] “Saffat”, 13.
[2] “Saffat”, 79.

8. Sual verməklə vicdanları oyadın.

9. Peyğəmbər çağırışlarının qəbulu və onlara itaət üçün təqva ruhiyyəsi lazımdır.

10. Peyğəmbərlik bəşəriyyətin faydası, insanların qurtuluşu üçündür.

11. Etibarlılıq, müsbət keçmiş və canıyananlıq sözün təsiri üçün şərtdir.

12. İlahi vəhyin tapşırılması üçün əsas şərt etibarlılıqdır.

13. Müəyyən hallarda şəxsi kamillikləri bəyan etmək lazım gəlir.

14. Dindarlıq ilahi rəhbərə itaətdən ayrı deyil. Bəli, təqva peyğəmbərlərə itaətdə möhkəmlənir.

15. Allah əmrinin icrası üçün özünə doğru çağırışın eybi yoxdur.

16. Dini təbliğatçı xalqdan bir şey ummamalı, onlara ağız açmamalıdır. (İxlas sözün təsir şərtidir.)

17. Allaha təvəkkül edən şəxs xalqdan ehtiyacsız ola bilər.

18. Allah din təbliğatçılarının mükafatını Özü üçün zəruri etmişdir.

19. Dini rəhbər dünyapərəstlikdə ittiham üçün hədəf olmamalıdır.

20. Bəhanə yollarını bağlayın, mənəvi işləri əvəz almaq məqsədi ilə yerinə yetirməyin.[1]

21. Allaha iman və ilahi təqva peyğəmbərə iman və itaət üçün zəmindir.

22. Tərbiyə və təkamül yolunda təkrar zəruridir.

23. Kübarlıq və dəbdəbəli həyat insanın iman gətirməsinə mane ola bilər. Çünki təkəbbürlü əyan-əşrəf möminlərə yuxarıdan aşağıya baxır.

24. Peyğəmbərlərin əksər tərəfdarları yoxsullar və kimsəsizlər olmuşdur.

25. Yoxsul tərəfdarlara görə haqqı və haqq məktəbini təhqir etmək olmaz.

26. Peyğəmbər təlimləri ictimai yanlış ayrıseçkilikləri aradan götürür.

***AYƏ 112:***

﴿قَالَ وَمَا عِلْمِي بِمَا كَانُوا يَعْمَلُونَ﴾

**“(Nuh) dedi: «Mən onların keçmişdə etdikləri əməllərdən xəbərsizəm.” (Yaxud onların keçmişi ilə işim yoxdur.)”**

***AYƏ 113:***

﴿إِنْ حِسَابُهُمْ إِلَّا عَلَى رَبِّي لَوْ تَشْعُرُونَ﴾

**“Əgər anlasanız, onların hesabı yalnız Rəbbimə aiddir.”**

**Nöqtələr**

●İslamda bizə zahir əsasında hərəkət etmək tapşırılıb. Əgər bir şəxs İslamı qəbul etdiyini dilə gətirsə, ondan iç məqsədi haqqında soruşmağa haqqımız yoxdur.[1]

---

[1] “Qələm”, 46.

●Digər bir ayədə Peyğəmbərə (s) göstəriş verilir ki, gecə-gündüz Allaha yaxınlıq üçün Onu çağıranları özündən uzaqlaşdırma. Qeyd olunur ki, onların hesabı Allaha aiddir, nə sən onlara məsulsan, nə də onlar sənə məsuldurlar; onları rədd etsən zalımlardansan.[2]

**Bildirişlər**

1. Peyğəmbərlər yalnız Allahın istəyi ilə insanların keçmişindən xəbər tuturlar.
2. "Bilmirəm" demək eyb deyildir.
3. Bəndəni Allah tanıyır və Allah onunla hesab aparır. Kiminsə əməllərini qəbul edib-etməmək bizim işimiz deyil.
4. İnsanların şəxsi həyatını araşdırıb eyb axtarmaq qadağandır.
5. İnsanlar haqqında danışarkən onların bugünkü iman və saleh əməlinə əsaslanın və keçmişini təftiş edib üzə vurmayın.
6. Mənfi keçmiş insanın tövbəsinə mane olmur.
7. Peyğəmbərlərin vəzifəsi xalqın islahı və tövhidə dəvətidir. Peyğəmbərlər insanların hesab-kitabına məsul deyildirlər.

***AYƏ 114-115:***

﴿وَمَا أَنَا بِطَارِدِ الْمُؤْمِنِينَ إِنْ أَنَا إِلَّا نَذِيرٌ مُّبِينٌ﴾

**"(Onların bu gün iman gətirməsi kifayətdir) və mən möminləri rədd edən deyiləm. Mən yalnız aşkar bir xəbərdarlıq edənəm."**

***AYƏ 116-117:***

﴿قَالُوا لَئِن لَّمْ تَنتَهِ يَا نُوحُ لَتَكُونَنَّ مِنَ الْمَرْجُومِينَ قَالَ رَبِّ إِنَّ قَوْمِي كَذَّبُونِ﴾

**"Onlar Nuha dedilər: «Ey Nuh! Əgər (öz dəvətindən) əl çəkməsən, hökmən daşqalaq ediləcənlərdən olacaqsan.» Nuh dedi: «Pərvərdigara! Həqiqətən, qövmüm məni təkzib etdi.»"**

***AYƏ 118:***

﴿فَافْتَحْ بَيْنِي وَبَيْنَهُمْ فَتْحًا وَنَجِّنِي وَمَن مَّعِيَ مِنَ الْمُؤْمِنِينَ﴾

**"Mənimlə onlar arasında (hökm ver və) aydın bir yol aç. Mənə və mənimlə olan hər bir möminə (kafirlərin şərindən) nicat ver."**

---

[1] "Nisa", 94.
[2] "Ənam", 52.

**Nöqtələr**

●Təkəbbürlülər hətta peyğəmbərlərdən tələb edirdilər ki, iman gətirmiş adsansız yoxsulları rədd etsinlər. Bütün peyğəmbərlər uyğun təklifi rədd etmişlər. Allah "Kəhf" surəsinin 28-ci ayəsində həzrət Peyğəmbərə (s) göstəriş verir ki, sübh-axşam xalis halda Allahı çağıran möminlərlə ol, dünya zinətləri əldə etmək üçün onlardan üz döndərmə, həvəspərəstlərə və həddi aşanlara itaət etmə.

●"Daşqalaq edilərsən" yox, "daşqalaq edilənlərdən olacaqsan" şəklində deyilişdən aydın olur ki, həzrət Nuhdan (ə) öncə də kimlərsə daşqalaq edilmişdir.

**Bildirişlər**

1. Təkəbbürlü zalımların istək və tələblərinə qətiyyətlə cavab verin. (Bir dəstənin iman gətirməsi ilə şərtlənsə belə, imanlı yoxsulları rədd etmək olmaz.)
2. İslamda ictimai və iqtisadi məqam yox, iman dəyər ölçüsüdür.
3. Cazibə üstün həddə olmalı, dəf etmə isə zəruri hallarda həyata keçməlidir.
4. Peyğəmbərlər müjdə verməkdən çox qorxutmuş, xəbərdarlıq etmişlər.
5. Qafili təhlükələrdən xəbərdar etmək öyüd-nəsihətin ən üstün yoludur.
6. Peyğəmbər müxaliflərinin ən mühüm gedişlərindən biri hədə-qorxu gəlməkdir.
7. Daşqalaq etmək ən qədim işkəncə növlərindən biridir.
8. Düşmənin hədə-qorxuları qarşısında Allaha pənah aparaq.
9. Həzrət Nuh (ə) hədə-qorxu və daşqalağa görə yox, din təkzib olunduğu üçün nalə çəkirdi.
10. Cahillərin amansızlığı sizin ata və qardaşlıq duyğularınızı əskiltməsin.
11. Düyünləri açan Allahdır.
12. Öncə xalq və cəmiyyətin problemlərinin həlli, sonra öz qurtuluşunuz üçün dua edin.
13. Hədə-qorxulara baxmayaraq xalqın bir hissəsi peyğəmbərlərə iman gətirirdi.
14. Ən mühümü fiziki və zahiri yox, əməli və dini yaxınlıqdır.
15. Peyğəmbərlərin duası möminlərə şamil olur.
16. İman təklikdə bəs etmir, itaət və yoldaşlıq da lazımdır.[1]

***AYƏ 119-120:***

﴿فَأَنجَيْنَاهُ وَمَن مَّعَهُ فِي الْفُلْكِ الْمَشْحُونِ ثُمَّ أَغْرَقْنَا بَعْدُ الْبَاقِينَ﴾

**"Biz Nuhu və qiymətli yükü olan gəmidə möminlərdən onunla birlikdə olan hər kəsi xilas etdik. Sonra yerdə qalanlarını suda batırdıq."**

[1] "Hud", 58, 66, 94.

*AYƏ 121:*

﴿إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ﴾

**“Şübhəsiz, bunda (bu macərada) böyük bir nişanə var. Amma insanların çoxu iman gətirən deyil.”**

*AYƏ 122:*

﴿وَإِنَّ رَبَّكَ لَهُوَ الْعَزِيزُ الرَّحِيمُ﴾

**“Şübhəsiz, sənin Rəbbin yenilməz qüvvət və mərhəmət sahibidir.”**

**Nöqtələr**

●«Qiymətli yük» dedikdə ehtiyac duyulan bütün şeylərin gəmidə yerləşdirilməsi nəzərdə tutulur. İmam Baqir (ə) həmin gəmini “hərəkətə tam hazır” gəmi kimi vəsf edir. Həzrət Əli (ə) buyurur: “Həmin gəmidə dördayaqlılar üçün 90 yer düzəldilmişdi.”[1]

**Bildirişlər**

1. Peyğəmbərlərin və məzlumların duası qəbuldur.
2. Möminlər peyğəmbərlər sayəsində sığortalanmışlar.
3. Peyğəmbərdən uzaqlıq fəlakətə səbəb olur.
4. Nuh (ə) və onun yoldaşlarının xilası, kafir və müxaliflərin batırılması əhvalatı Allahın haqqa yardım və batilin məhvi sünnəsinin bir nümunəsidir.
5. Kafirlərə imkansızlıqdan yox, mərhəmət olaraq möhlət verilir.

*AYƏ 123-124:*

﴿كَذَّبَتْ عَادٌ الْمُرْسَلِينَ إِذْ قَالَ لَهُمْ أَخُوهُمْ هُودٌ أَلَا تَتَّقُونَ﴾

**“Ad qövmü (Nuh qövmü kimi) peyğəmbərləri təkzib etdi. Bir vaxt qardaşları Hud onlara dedi: “(Şirk və azğınlıqdan) qorxmursunuz?”**

*AYƏ 125-126:*

﴿إِنِّي لَكُمْ رَسُولٌ أَمِينٌ فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ﴾

**“Həqiqətən, mən sizin üçün etibarlı bir peyğəmbərəm. Beləsə, Allahdan qorxun və mənə itaət edin.”**

*AYƏ 127:*

﴿وَمَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلَّا عَلَى رَبِّ الْعَالَمِينَ﴾

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

**“Mən risalətim müqabilində sizdən heç bir muzd istəmirəm. (Çünki) mənim muzdum yalnız aləmlərin Rəbbinin öhdəsinədir.”**

**Nöqtələr**

●“Ad” həzrət Hud qövmünün ulu babasının adıdır. Bu qövm öz babasının adı ilə tanınırdı. Bu tayfa ərəb idi və xoş ab-havalı Yəmən diyarının Əhqaf məntəqəsində, dəniz yaxınlığında yaşayırdı. Onların ölkəsi abad idi, xalq şəhərdə yaşayırdı. Həzrət Nuh məntəqə əhlinin peyğəmbəri idi. Onun adı Quranda 24 dəfə qeyd olunur. Bundan əlavə Quranda “Əhqaf” və “Hud” adlı surələr var.

**Bildirişlər**

1. Bütün peyğəmbərlərin məqsədi bir olduğundan bir peyğəmbərin təkzibi bütün peyğəmbərlərin təkzibi kimidir.
2. Peyğəmbərlər qardaşcasına dəvət edirdi.
3. Peyğəmbər dəvətinin sərlövhəsi təqvadır.
4. Təqvaya dəvət üçün qardaşlığa ehtiyac var.
5. Peyğəmbərlərin risaləti xalq üzərində hakimiyyət yox, onların tərəqqisi üçündür.
6. Peyğəmbərlər yalnız ilahi bildirişi bəyan etmiş, özlərindən bir söz deməmişlər.
7. Bütün peyğəmbərlərin danışıq tərzi, təbliğ üsulu, bəyan mövzusu və düşüncə xətti müştərək olmuşdur.
8. İlahi təqva rəhbərə itaət üçün zəmin yaradır. İlahi rəhbərlərə itaət ilahi təqvanı möhkəmlədir.
9. İxlas və təmənnasızlıq müvəffəqiyyət rəmzidir.
10. İxlas və təvəkkül təbliğ şərtidir.
11. Varlıq aləmini idarə edən kəs bizim həyatımızı da idarə edəsidir.
12. Varlıq aləmi müxtəlif amillərdən təşkil olunmuşdur, onların hər biri eyni tədbirlə təkamül halındadır.

*AYƏ 128-129:*

﴿أَتَبْنُونَ بِكُلِّ رِيعٍ آيَةً تَعْبَثُونَ وَتَتَّخِذُونَ مَصَانِعَ لَعَلَّكُمْ تَخْلُدُونَ﴾

**“(Hud xalqa dedi:) «Hər təpədə nəfs istəkləri üzündən qəsr qurursunuzmu? Əbədi qalmaq ümidi ilə möhkəm saraylar qərar verirsinizmi?»”**

*AYƏ 130-131:*

﴿وَإِذَا بَطَشْتُم بَطَشْتُمْ جَبَّارِينَ فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ﴾

**“Birini cəzalandırdıqda zalımlar kimi cəzalandırırsınız? Allahdan qorxun və mənə tabe olun.”**

**Nöqtələr**

●"Riin" dedikdə dağ ətəyi və təpə nəzərdə tutulur. Möhkəm və uca qala, eləcə də qəsr "məsaniə" adlanır. Qəhr-qəzəb və güc hesabına almaq "bətş" sözü ilə ifadə olunur.

●Bu ayələrdə Quran dağ ətəklərində tikinti işi aparmaq, qala tikmək və qüdrətli olmağı yox, qeyri-müqəddəs məqsədləri, boş xülyaları və həddi aşmağı tənqid edir.

●Rəvayətlərdə oxuyuruq: "Həzrət Peyğəmbərin (s) yaxınlarından biri evinin damı üzərində qübbə tikmişdi. Həzrət bunu görüb narahat oldu. Ev sahibi həzrətin narahatçılığına görə qübbəni sökdü. Həzrət Peyğəmbər (s) növbəti dəfə qübbəni görməyib soruşdu ki, qübbə nə oldu? Həzrətə bildirildi ki, sizin narahatçılığınızı görən ev sahibi onu sökdü. Həzrət buyurdu: "Ehtiyac duyulmayan istənilən tikinti Qiyamətdə sahibi üçün dərd olacaq."[1]

**Bildirişlər**

1. Uca binaların tarixi Hud (ə) dövrünə gedib çıxır.
2. Hərislik insanı rahat buraxmır.
3. Dünyapərəstlərin gözündə böyük görünən şey övliyaların nəzərində əhəmiyyətsizdir və onlar uyğun işlərə görə xalqı məzəmmət edirlər.
4. Yalançı mədəniyyət və rifah qürur amilidir və haqqın qəbuluna mane olur.
5. Peyğəmbərlər mövcud nizamsızlığı tənqid etmək və yatmış vicdanları sual yolu ilə oyatmaqla işə başlayırlar.
6. Zalımların məqsədi ya özlərini göstərmək, ya əbədilik əldə etmək, ya da xalqın istismarıdır.
7. Hər bir işdə uca məqsəd olmalıdır.
8. Azğınların var-dövlət, sərmayə və uca qəsrlər əldə etməkdə məqsədləri nəfs istəklərini təmin etməkdir.
9. Quran sadəcə tikilini yox, saray və əyyaşlıq ruhiyyəsini tənqid edir. (İstehsal, ixtira, sənət, bütün imkanlar və qüvvələr gerçək ehtiyacların təmininə yönəlməlidir.)
10. Qəsrlər və saraylar insan həyatını əbədiləşdirmir.
11. Hər bir tikilinin dörd bəlası var: hərislik və israf; iftixar və özünü nümayiş; həvəsbazlıq; dünyapərəstlik və qəflət.
12. Cəza qanunları ədalətli olmalıdır. (Quran zalımcasına cəzaları tənqid edir.)
13. Dindarlıq üçün mehvər, rəhbər və nümunəyə ehtiyac var.
14. Dindarlıq həm qəlbən, həm də əməldə itaətdir.
15. Bütün fəsadların səbəbi təqvasızlıqdır. Həzrət Hud (ə) kafirlərin düşüncə və əməllərini məzəmmət etdikdən sonra onları təqvaya çağırdı.

---

[1] "Təfsire-Əl-mizan". "Təfsire-Məcməül-bəyan".

*AYƏ 132-133:*

﴿وَاتَّقُوا الَّذِي أَمَدَّكُم بِمَا تَعْلَمُونَ أَمَدَّكُم بِأَنْعَامٍ وَبَنِينَ﴾

**“Sizə nə qədər kömək etdiyini bildiyiniz kəsdən qorxun. O sizə mal-qara və övladlarla yardım etdi.”**

*AYƏ 134-135:*

﴿وَجَنَّاتٍ وَعُيُونٍ إِنِّي أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ عَظِيمٍ﴾

**“Bağlar və çeşmələr (əta etdi). Mən sizə görə böyük günün əzabından qorxuram.”**

*AY 136:*

﴿قَالُوا سَوَاء عَلَيْنَا أَوَعَظْتَ أَمْ لَمْ تَكُن مِّنَ الْوَاعِظِينَ﴾

**“(Ad qövmü Huda) dedilər: “Öyüd-nəsihət verib-verməməyinin bizim üçün fərqi yoxdur. (Biz səni qəbul etmirik.)”**

**Nöqtələr**

●Həzrət Hud (ə) xalqın diqqətini həm Allaha, həm peyğəmbərlik məsələsinə, həm də məada yönəltdi.

●Ayədə «böyük gün» dedikdə Qiyamət nəzərdə tutulmuşdur. Amma həzrət Şüeybin əhvalatında dünya da «böyük gün» adlandırılır: “Od dolu buludlu günün əzabı onları bürüdü və o böyük günün əzabı idi.”[1]

**Bildirişlər**

1. Təqva Allaha təşəkkürün ən üstün yoludur.
2. Hansı həddə ilahi lütfə çatdığını hərə özü bilir.
3. Ad qövmünün saraylar və tikililərlə yanaşı mal-qara, bağ-bağat və çeşmələri vardı.
4. Hazırlıq və qabiliyyət olmasa, peyğəmbərlərin də moizəsi səmərə verməz.

*AYƏ 137-138:*

﴿إِنْ هَذَا إِلَّا خُلُقُ الْأَوَّلِينَ وَمَا نَحْنُ بِمُعَذَّبِينَ﴾

**“Bu (sənin dəvətin və ya bizim bütpərəstliyimiz) yalnız əvvəlkilərin yoludur. Bizə əzab verilməyəcək.”**

---

[1] “Şuəra”, 189.

*AYƏ 139:*

﴿فَكَذَّبُوهُ فَأَهْلَكْنَاهُمْ إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ﴾

**“Hudu dandılar və Biz onları həlak etdik. Əlbəttə bunda (bu əhvalatda) böyük nişanə var, amma xalqın çoxu iman gətirən deyil.”**

*AYƏ 140:*

﴿وَإِنَّ رَبَّكَ لَهُوَ الْعَزِيزُ الرَّحِيمُ﴾

**“Həqiqətən sənin Rəbbin yenilməz və mehriban Allahdır.”**

**Nöqtələr**

●“Haza” (bu”) əvəzliyinin nəyə işarə olması ilə bağlı müxtəlif ehtimallar var:

a) Sənin bu peyğəmbərlik iddian əvvəlkilərin peyğəmbərlik iddiasına təqliddən savay bir şey deyil.

b) Təpələrin üstündəki bu uca evlər və bizim digər işlərimiz ata-babalarımızın yoludur.

v) Bizim bu təkzib və bütpərəstliyimiz ata-babalarımızın təkzib və bütpərəstliyidir.

●Quran xalqın əksəriyyətini dəfələrlə tənqid etmişdir. Bu surədə də peyğəmbərlərin tarixi bəyan olunduqdan sonra “xalqın əksəri iman gətirən deyil” ifadəsi bir neçə dəfə təkrarlanmışdır.

**Bildirişlər**

1. Ata-babaların getdiyi yol həqiqət göstəricisi deyil.
2. Yersiz təqlid və təəssüf öyüd-nəsihətin qəbuluna mane olur.
3. Ata-babaların azğınlığı sonrakı nəsillərin azğınlığı üçün zəmin olur.
4. Bəzən bütpərəstlik və bunun kimi başqa işlər insanın cövhərinə qatılır. (“Xuluq” sözü sabit ruhiyyə mənasını bildirir.)
5. Bütpərəstlər məsuliyyəti boyunlarından ataraq azğınlıqlarını ata-babalarının yolu kimi təqdim edirdilər.
6. İnsanın taleyi onun öz əlindədir.
7. Başqalarının haqqı təkzib edib məhv olmasından ibrət götürün.
8. Çoxluq sizi aldatmasın. Həqiqəti çoxluqda axtarmayın. Kəmiyyət haqqı batildən seçmə meyarı deyil.

*AYƏ 141-142:*

﴿كَذَّبَتْ ثَمُودُ الْمُرْسَلِينَ إِذْ قَالَ لَهُمْ أَخُوهُمْ صَالِحٌ أَلَا تَتَّقُونَ﴾

**“Səmud qövmü (də) peyğəmbərləri təkzib etdi. Bir vaxt qardaşları Saleh onlara dedi: «Yoxsa qorxmursunuz?»”**

*AYƏ 143-144:*

﴿إِنِّي لَكُمْ رَسُولٌ أَمِينٌ فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ﴾

**“Mən sizin üçün etibarlı bir peyğəmbərəm. Beləsə, Allahdan qorxun və mənə itaət edin.”**

*AYƏ 145:*

﴿وَمَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلَّا عَلَى رَبِّ الْعَالَمِينَ﴾

**“Mən bu risalətimə görə sizdən heç bir muzd istəmirəm. Mənim mükafatım yalnız aləmlərin Rəbbi tərəfindəndir.”**

**Nöqtələr**

●Bu surədə bir neçə peyğəmbərin əhvalatı nəql olunmuşdur. Amma onların əhvalatları “kəzzəbət” (“təkzib etdilər”) sözü ilə başlayır. (Ayə 105, 123, 141, 160, 176.) Səbəb budur ki, bu əhvalatlarda mühüm nöqtə peyğəmbərlərin keçmiş qövmlər tərəfindən təkzibi və onların məhvidir. Bəli, yazı və danışıqda mühüm mövzular sərlövhə seçilməlidir.

●Tarixin bəyanında faydasız yox, mühüm nöqtələrə diqqət yetirilməlidir. Bu əhvalat insanların sayı, hadisənin baş verdiyi yerin adı, hadisənin tarixi və xırdalıqları bəyan olunmamışdır. Çünki yalnız haqq və batilin tanıtdırılması, haqqın batil üzərində qələbəsinin bəyanı ibrətamizdir.

**Bildirişlər**

1. Bütün peyğəmbərlər eyni üslubda dəvət etmişlər. Həzrət Nuh, Hud, Saleh, Lut və Şüeybin əhvalatlarında eyni söz, eyni şüarlarla rastlaşırıq. Onların bəyanatlarını bir neçə məsələ üzərində xülasələşdirmək olar. Qardaşlıq, təqva, rəhbərə itaət, təmənnasızlıq, Allaha təvəkkül. Onlar xalqı inandırırdılar ki, peyğəmbərlər onların xeyri və əmin-amanlığı üçün göndərilmişlər.

*AYƏ 146:*

﴿أَتُتْرَكُونَ فِي مَا هَاهُنَا آمِنِينَ﴾

**“(Yoxsa düşünürsünüz ki,) dünyada olanlarınız arasında əmin-amanlıqda buraxılacaqsınız?”**

*AYƏ 147-148:*

﴿فِي جَنَّاتٍ وَعُيُونٍ وَزُرُوعٍ وَنَخْلٍ طَلْعُهَا هَضِيمٌ﴾

**“Bağlarda və çeşmələrdə, əkinlərdə və çiçəkləri lətif və üst-üstə oturmuş xurmalıqlarda qalacaqsınız (və heç bir məsuliyyətiniz olmayacaq)?”**

*AYƏ 149:*

﴿وَتَنْحِتُونَ مِنَ الْجِبَالِ بُيُوتًا فَارِهِينَ﴾

**"Siz xoş güzaran üçün daşlardan evlər yonub düzəldirsiniz."**

*AYƏ 150-151:*

﴿فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ وَلَا تُطِيعُوا أَمْرَ الْمُسْرِفِينَ﴾

**"Allahdan qorxun və mənə tabe olun. İsrafçılara tabe olmayın."**

*AYƏ 152:*

﴿الَّذِينَ يُفْسِدُونَ فِي الْأَرْضِ وَلَا يُصْلِحُونَ﴾

**"O kəslər ki, yer üzündə fəsad törədir və islah əhli deyildirlər."**

**Nöqtələr**

●Əgər bəşəriyyət yalnız "israfkarlara tabe olmayın" göstərişinə əməl etsə, bütün israfçı zalım rejimlər süquta uğrayar.

●Səmud qövmü həm məhsuldar əkinçiliyə, həm mədəniyyət və inşaata, həm də rifah və əmin-amanlığa malik idi.

●"Təll" dedikdə meyvədən öncəki xurma çiçəyi nəzərdə tutulur. Bəzən ağacın ilk xurmasına da "təl" deyilir.

●"Həzim" sözü lətif və üst-üstə oturmuş (salxım) çiçək mənasını bildirir. Yəni xurma çiçəkləri salxım şəklində üst-üstə minmişdir, bərəkətli və təravətlidir.

●"Cənnat" sözünün həm də xurma ağacı mənasını bildirməsinə baxmayaraq, bu ağacın adının ayrıca qeyd olunması Səmud qövmünün ona daha çox əhəmiyyət verməsinə işarə ola bilər.

●"Farihin" sözü "fərəh" kökündən olsa dadlı, "fərahət" kökündən olsa məharət mənasını bildirər. "Buyutən farihin" təbiri birinci halda "evlərdə şad-xürrəm idilər", ikinci halda "dağlardan məharətlə evlər yonurdular" mənasını bildirir.

**Bildirişlər**

1. Dünya rifahı sizi qürrələndirməsin. Rifahlı həyat Allahın razılığını göstərmir.
2. Dünyanın davamsızlığına diqqət təqva vasitəsidir.
3. Peyğəmbərlərə itaət, israfçılardan uzaqlıq təqva şərtidir.
4. Əmin-amanlıq, iqtisad və rifah məsum rəhbərə itaətlə müşayiət olunsa fəsad üçün zəmin yaradar.
5. İnsan başlı-başına buraxılmayıb və nemətlər qarşısında məsuliyyət daşıyır.
6. İsrafçının cəmiyyətə rəhbərlik səlahiyyəti yoxdur.

7. Peyğəmbərlər insanların israfçılığına həssas idilər.

8. İsrafçı sərmayədarların qarşısında boyun əyməyin.

9. Təvəlla və təbərra (Allah dostu ilə dostluq və Allah düşməni ilə düşmənçilik) yanaşı olmalıdır.

10. İsraf fəsaddır, israfa yol verən isə fəsadçı.

11. Əyyaş varlıların islah olacağına ümid bəsləməyin. İnsan yalnız peyğəmbər məktəbi sayəsində islah olur.

12. İsrafçılar öz işlərinə don geyindirir və özlərini saleh tanıtdırırlar.

*AYƏ 153:*

﴿قَالُوا إِنَّمَا أَنتَ مِنَ الْمُسَحَّرِينَ﴾

**“(Səmud qövmü Salehə iman gətirmək əvəzinə) dedilər: “Həqiqətən, sən sehr olunmuşlardansan.”**

*AYƏ 154:*

﴿مَا أَنتَ إِلَّا بَشَرٌ مِّثْلُنَا فَأْتِ بِآيَةٍ إِن كُنتَ مِنَ الصَّادِقِينَ﴾

**“Sən yalnız bizim kimi bir insansan. Əgər doğru danışanlardansansa, bir nişanə göstər.”**

**Bildirişlər**

1. Peyğəmbərlər iki cür ittiham olunurdular: Sehr etməkdə və sehr olunmaqda.

2.Üsyandan da pisi ona don geyindirməkdir. Onlar Allah əmri qarşısında üsyan edib deyirdilər ki, Sənə sehr olunub və rəhbərlik edə bilməzsən.

3. Nübüvvət olan yerdə möcüzə lazımdır. (Möcüzə peyğəmbərlərin sədaqətini göstərir.)

*AYƏ 155:*

﴿قَالَ هَذِهِ نَاقَةٌ لَّهَا شِرْبٌ وَلَكُمْ شِرْبُ يَوْمٍ مَّعْلُومٍ﴾

**“Saleh (xalqın möcüzə istəyinə cavab olaraq) dedi: «Bu, (Allahın iradəsi ilə dağdan xaric olmuş) dişi bir dəvədir. Sudan bir gün ona, bir gün sizə pay ayırılmışdır.»”**

*AYƏ 156:*

﴿وَلَا تَمَسُّوهَا بِسُوءٍ فَيَأْخُذَكُمْ عَذَابُ يَوْمٍ عَظِيمٍ﴾

**“Ona bir xətər toxundurmayın. Yoxsa böyük günün əzabı sizi bürüyər.”**

*AYƏ 157:*

﴿فَعَقَرُوهَا فَأَصْبَحُوا نَادِمِينَ﴾

**"Dəvəni öldürdülər, sonra gördükləri işdən peşman oldular."**

**Nöqtələr**

●Allahın möcüzə üçün qüdrət əli açıqdır, ayı parçalamağın, suyu yarmağın, dağın köksündən dəvə çıxarmağın Onun üçün fərqi yoxdur.

●Salehin dəvəsini öldürən şəxs bir nəfər olsa da, Quran bu işi bir dəstəyə aid edir. Çünki həmin dəstə dəvənin öldürülməsi ilə razılaşmışdı. Bu nöqtəyə Həzrət Əli (ə) "Nəhcül-bəlağə"də işarə etmişdir.[1]

**Bildirişlər**

1. Möcüzə o qədər aydın olmalıdır ki, istənilən səviyyəli şəxs onun qeyri-adiliyini dərk etsin.
2. Müqəddəsliklərin təhqiri böyük günahdır. Allah-təala "Əraf" surəsinin 73-cü ayəsində bu dəvəni Özünə aid edir.
3. Su ehtiyatları Allah göstərişi əsasında ədalətlə bölünməlidir.
4. İlahi rəngə malik dəvə adi insanlardan irəlidir.
5. Zalım insan hətta zərərsiz heyvana belə rəhm etmir.
6. Peyğəmbərlərin xəbərdarlıqlarına ciddi yanaşaq.
7. Başqa birinin işi ilə razılaşan şəxs həmin işin savab və ya günahına şərikdir.
8. Hər peşmançılıq və tövbə qəbul deyil. (Əzab yetişən anda tövbə və peşmançılıq səmərəsizdir.)

*AYƏ 158:*

﴿فَأَخَذَهُمُ الْعَذَابُ إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ﴾

**"Belə ki, əzab onları yaxaladı. Həqiqətən bunda nişanə və ibrət dərsi var. Amma onların əksəri iman gətirən deyil."**

*AYƏ 159:*

﴿وَإِنَّ رَبَّكَ لَهُوَ الْعَزِيزُ الرَّحِيمُ﴾

**"Əlbəttə, sənin Rəbbin yenilməz və mehribandır."**

**Bildirişlər**

1. İlahi müqəddəsliklərin təhqiri o qədər ciddi məsələdir ki, bir heyvanın ölümünə görə bir dəstə məhv olur.

[1] "Nəhcül-bəlağə", x. 201.

2. Allahın həm lütfü, həm də qəhr-qəzəbi ibrət nişanəsidir.

3. Bəzən insan Allahın ən böyük nişanələrini görsə də inad göstərib iman gətirmir.

4. İnadkar kafirlərə peyğəmbərlər və möcüzə göndərmək, onları qəhr-qəzəblə yaxalamaq Allahın rübubiyyət şənlərindəndir.

5. Xalqın iman və küfrü Allaha təsirsizdir.

6. Allah mehribandır, bizim öz əməllərimiz Onun qəzəbinə səbəb olur.

***AYƏ 160:***

﴿كَذَّبَتْ قَوْمُ لُوطٍ الْمُرْسَلِينَ﴾

**“Lut qövmü (də) peyğəmbərləri təkzib etdi.”**

***AYƏ 161-162:***

﴿إِذْ قَالَ لَهُمْ أَخُوهُمْ لُوطٌ أَلَا تَتَّقُونَ إِنِّي لَكُمْ رَسُولٌ أَمِينٌ﴾

**“Bir zaman qardaşları Lut onlara dedi: “(Şirk və azğınlıqdan çəkinib Allahdan) qorxmursunuzmu? Həqiqətən, mən sizin üçün etibarlı bir peyğəmbərəm.”**

***AYƏ 163-164:***

﴿فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ وَمَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلَّا عَلَى رَبِّ الْعَالَمِينَ﴾

**“Allahdan qorxun və mənə itaət edin. Mən öz peyğəmbərliyim müqabilində sizdən muzd istəmirəm. Mənim muzdum yalnız aləmlərin Rəbbi tərəfindəndir.”**

**Nöqtələr**

●Həzrət Lut Həzrət İbrahimlə eyni bir dövrdə yaşamışdır. Bu surədə İbrahimlə (ə) Lutun (ə) əhvalatı arasında yüzədək ayə var. Çünki Quran buyruqlarında əsas məsələ tarixi ardıcıllıq yox, öyüd-nəsihətdir.

**Bildirişlər**

1. Əsas mövzuları sözümüzə sərlövhə edək. (Bu surədə bütün peyğəmbərlərin tarixindən danışılarkən öncə “təkzib etdilər” sözü qeyd olunur. Demək, hazırkı surədə peyğəmbərlərin tarixini bəyan etməkdə məqsəd inadkar xalqın təkzibi və onların cəzalandırılması məsələlərinin açıqlanmasıdır.)

2. Bir peyğəmbəri təkzib etmək bütün peyğəmbərləri təkzib etmək kimidir. (Hər qövm öz peyğəmbərini təkzib etsə də, peyğəmbərlər ümumi məqsədə malik olduqlarından onlardan birinin təkzibi hamısının təkzibi kimidir.)

3. Səmavi rəhbərin xalqla rabitəsi qardaşlıq rabitəsidir.

4. Daxilən çəkinəcəyi olmayan şəxsi hər tərəfdən təhlükə gözləyir və o heç bir haqqı qəbul etmir.

5. Səmavi rəhbərlər xalqın sorağınca getməli və öz məqsədlərini ona açıqlamalıdırlar.

6. Təqva haqqın qəbulu və peyğəmbərlərə itaət üçün zəmindir.

7. Dini rəhbərə itaətdən uzaq dindarlıq yarımçıqdır.

8. Gözümüz xalqın əlində olmasa, sözümüz daha təsirli olar.

9. Allaha daha çox təvəkkül edən kəs xalqdan ehtiyacsız ola bilər.

*AYƏ 165:*

﴿أَتَأْتُونَ الذُّكْرَانَ مِنَ الْعَالَمِينَ﴾

**“Yoxsa dünyadakı insanlar arasında yalnız kişilərin sorağınca gedirsiniz?”**

*AYƏ 166:*

﴿وَتَذَرُونَ مَا خَلَقَ لَكُمْ رَبُّكُمْ مِنْ أَزْوَاجِكُم بَلْ أَنتُمْ قَوْمٌ عَادُونَ﴾

**“Rəbbinizin sizin üçün yaratdığı zövcələrinizi boşlayırsınız? Bəli, siz həddi aşmış bir qövmsünüz.”**

*AYƏ 167:*

﴿قَالُوا لَئِن لَّمْ تَنتَهِ يَا لُوطُ لَتَكُونَنَّ مِنَ الْمُخْرَجِينَ﴾

**“Onlar (öyüd götürmək əvəzinə) dedilər: “Ey Lut! Əgər sözlərindən əl çəkməsən, şübhəsiz sürgün edilənlərdən olacaqsan.”**

**Nöqtələr**

●Bu ayələrdə Lut qövmü azğın kimi tanıtdırılır. Amma başqa ayələrdə fərqli təbirlər də var. Onlar bəzən israfçı, bəzən fasiq, bəzən cahil kimi tanıtdırılırlar.[1]

●Livata (həmcinsbazlığa) yol verən insanın cəzası qətldir. Bu əməl o qədər çirkindir ki, hətta heyvanla belə bir yaxınlıq olduqda onun əti haram sayılır. Belə bir heyvan kəsilməli və cəmdəyi yandırılmalıdır.

●Həmcinsbazlıq yalnız insanlar arasında mövcuddur və varlıq aləmində digər mövcudlar arasında müşahidə olunmur.

**Bildirişlər**

1. Nəhy əz münkərdən öncə ayrı-ayrı zaman və şəraitlərə aid olan günahlardan xəbərdar olmalı və daha sonra onun qarşısını almağa çalışmaq lazımdır.

---

[1] Əraf”, 81. “Ənbiya”, 74; “Nəml”, 55.

2. Nəhy əz münkərdə (pisliyə qadağada) tanınmış yollar seçin.

3. Həyat yoldaşını boşlamaq və onun ehtiyaclarını nəzərə almamaq qadağandır.

4. Allah bəşərin daxili hislərinin təmini üçün fitri və təbii yollar müəyyənləşdirmişdir.

5. Səmavi dinlər insanı izdivaca rəğbətləndirir.

6. İzdivac ilahi rübubiyyət cilvəsidir və insanın xeyrinədir.

7. Cinsi azğınlıq təcavüz və tüğyandır. Həmcinsbazlıq, livat dəyərlərə qarşı təcavüzdür.

8. Pis işi aradan qaldırmaq üçün pisliyə qadağanı təkrarlamaq və davamlılıq lazımdır.

9. Pisliyə qadağa qoyarkən özümüzü ətrafdakıların hədələrinə hazırlayaq.

10. Sürgün etmək Lut qövmü zalımlarının qaydası idi.

*AYƏ 168-169:*

﴿قَالَ إِنِّي لِعَمَلِكُم مِّنَ الْقَالِينَ رَبِّ نَجِّنى وأَهلى مِمّا يعْمَلوُنَ﴾

**“Lut dedi: “Mən sizin əməllərinizə qatı müxalifəm. Pərvərdigara! Məni və mənim adamlarımı onların gördüyü işdən xilas et.”**

*AYƏ 170, 171, 172:*

﴿فَنَجَّيْنَاهُ وَأَهْلَهُ أَجْمَعِينَ إِلَّا عَجُوزًا فِي الْغَابِرِينَ ثُمَّ دَمَّرْنَا الْآخَرِينَ﴾

**“(Onun duasını qəbul etdik və) ona və bütün ailəsinə nicat verdik. Yalnız geridə qalmışların arasındakı qadından (Lutun arvadından) savay. Sonra o birilərinin kökünü kəsdik.”**

*AYƏ 173:*

﴿وَأَمْطَرْنَا عَلَيْهِم مَّطَرًا فَسَاء مَطَرُ الْمُنذَرِينَ﴾

**“Onların başına (daşdan) yağış yağdırdıq. Nə pisdir xəbərdarlıq olunanların yağışı!”**

*AYƏ 174-175:*

﴿إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ وَإِنَّ رَبَّكَ لَهُوَ الْعَزِيزُ الرَّحِيمُ﴾

**“Əlbəttə, bunda (ilahi qüdrətdən) bir nişanə var. Amma insanların çoxu iman gətirən deyil. Həqiqətən, sənin Rəbbin yenilməz və mehribandır.”**

**Nöqtələr**

●“Qalin” dedikdə nigarançılığın izharı və içdən gələn qatı müxalifət mənaları anlaşılır.

**Bildirişlər**

1. Günahkarla yox, onun pis işi ilə müxalif olun.

2. Peyğəmbərlər hədələrdən qorxmur, öz sözlərini deyirdilər. Lut (ə) sürgün hədəsi qarşısında buyurdu: “Mən sizin işinizə düşmənəm.”

3. Pis işə həm dildə, həm də əməldə nifrət etmək lazımdır. Bəli, nigarançılıq bəs etmir, fəsad mərkəzindən qurtuluş barədə düşünmək lazımdır.

4. Günahkar mühit ilahi insanlar üçün dözülməzdir. Onlar mühitin islahına olan ümidlərini itirdikdə, heç olmasa özlərini xilas edirlər.

5. Cəmiyyətin böyükləri öz ailələri və yaxınları haqqında düşünməlidirlər.

6. Peyğəmbərlərin duası qəbuldur.

7. Qadın yol seçimində ərindən asılı deyil. (Lutun (ə) arvadı azğın yol seçmişdi.)

8. Səmavi dinlərdə bütün qanunlar və dəyərlər rabitələrə yox, normalara əsaslanır. (Peyğəmbərin də zövcəsi yolunu azdıqda həlak edilir. Çünki meyar ailə rabitəsi yox, küfr və imandır.)

9. Şəxsiyyətlər və onların yaxınları ilə ayrı-ayrılıqda hesab çəkin. (Allah rəsulunun da yaxınları azğın yolda ola bilər. Lutun (ə) arvadı peyğəmbər evində olsa da, düşüncə tərzi yanlış idi.)

10. Bir günaha görə hamı üçün eyni cəza nəzərdə tutulub. Lutun arvadı xüsusi imtiyaza malik deyildi və o, fəlakətə düçar olanlar arasında idi.

11. İzdivacda həmcinsbazlığa rəvac verənlərin cəzası rəhmət yağışının əzab yağışına dönməsi və onları məhv etməsidir.

12. Allah əzab verməzdən öncə xəbərdarlıq edir, höccəti tamamlayır.

13. Saleh insanlar cəmiyyətdən uzaqlaşdıqda orada ilahi qəhr-qəzəb üçün zəmin yaranır.

14. Təbiət Allahın qüdrətinə tabedir. (Göydən yağış endirən qüdrət daş da yağdıra bilər.)

15. Tarix ibrət vasitəsidir.

16. Tərbiyə prosesində təkrara ehtiyac var. (Bu surədə hər bir peyğəmbərin macərası nəql olunduqdan sonra “əlbəttə, bunda bir nişanə var” cümləsi təkrarlanmışdır.)

17. İnsanların əksəriyyəti öyüd-nəsihəti qəbul etmir.

18. Mərhəmətlə yanaşı olan qüdrət dəyərlidir.

***AYƏ 176:***

﴿كَذَّبَ أَصْحَابُ الْأَيْكَةِ الْمُرْسَلِينَ﴾

**“Əykə əshabı (da) peyğəmbərləri təkzib etdi.”**

***AYƏ 177, 178, 179:***

﴿إِذْ قَالَ لَهُمْ شُعَيْبٌ أَلَا تَتَّقُونَ إِنِّي لَكُمْ رَسُولٌ أَمِينٌ فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ﴾

**“Bir zaman Şüeyb onlara dedi: “Yoxsa (şirk və azğınlıqdan) qorxmursunuz? Həqiqətən mən sizin üçün etibarlı bir peyğəmbərəm. Allahdan qorxun və mənə itaət edin.”**

*AYƏ 180:*

﴿وَمَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلَّا عَلَى رَبِّ الْعَالَمِينَ﴾

**“Mən risalətim müqabilində sizdən heç bir əvəz istəmirəm. Mənim mükafatım yalnız aləmlərin Rəbbi tərəfindəndir.”**

**Nöqtələr**

●“Əykə” sözü meşə mənasını bildirir. Bəziləri belə hesab edir ki, “Əykə əshabı” dedikdə adı Quranda dörd dəfə qeyd olunmuş Mədyən əshabı nəzərdə tutulur. Bəziləri də həmin qövmün Mədyən yaxınlığında yaşadığını bildirirlər. Həzrət Şüeyb hər iki qövmə xitab etmişdir.

●Şüeyb (ə) bu surədə haqqında danışılan yeddinci peyğəmbərdir. Bütün bu əhvalatlarda “qardaşları onlara dedi” cümləsi işlədilsə də, Şüeyb haqqında danışılarkən “qardaşları” sözü qeyd olunmur. Bunun səbəbi Şüeybin (ə) həmin yerdə qəribliyi ola bilər.[1]

**Bildirişlər**

1. Bütün peyğəmbərlər həmfikir olmuş, bir söz deyib, bir cəhətə üz tutmuşlar.

*AYƏ 181-182:*

﴿أَوْفُوا الْكَيْلَ وَلَا تَكُونُوا مِنَ الْمُخْسِرِينَ وَزِنُوا بِالْقِسْطَاسِ الْمُسْتَقِيمِ﴾

**“Ölçünü (peymanəni–ölçü qabının düzlüyünü) gözləyin, əskik satanlardan olmayın. Düz tərəzi ilə çəkin.”**

*AYƏ 183:*

﴿وَلَا تَبْخَسُوا النَّاسَ أَشْيَاءَهُمْ وَلَا تَعْثَوْا فِي الْأَرْضِ مُفْسِدِينَ﴾

**“Xalqın malını əskik verməyin, yer üzündə fəsad və günah üçün çalışmayın.”**

**Nöqtələr**

●“Kəyl” sözü mayelərə, “qistas” sözü çəkilərə, “əşyaəhum” sözü saylı şeylərə aiddir.

●Bu ayələrdə iki əmr və iki qadağa ilə rastlaşırıq. Onlar bir-birini tamamlayır.

---

[1] “Təfsire-Kəbire-Fəxr Razi”.

●Rəvayətdə bildirilir ki, satdığı malın eybini müştəriyə deməyən kəs mələklər tərəfindən lənətlənir. Hiyləgərliklə insanları aldadan fərd xalqın ən pisidir.[1]

●Əskik satmaq böyük iqtisadi günahlardan biridir. Bu işə görə haram tikənin bütün bəlaları qarşıya çıxır. Əskik satmaq təkcə alış-verişə aid deyil. Tədrisdə, təbabətdə, nəzarətdə, mühəndislikdə və həyatın digər sahələrində başqalarının haqqını ödəməməklə uyğun zümrəyə qatılmaq olar.

**Bildirişlər**

1. Peymanə (ölçü qabı) və tərəzinin uzun tarixi keçmişi var.
2. Əskik satmaq haramdır və xalqın haqqına riayət etmək vacibdir.
3. Peyğəmbərlər cəmiyyətin iqtisadi sağlamlığına nəzarət edirdilər.
4. Səmavi dinlərdə ictimai və iqtisadi ədalətə xüsusi diqqət ayrılır.
5. Ölçü meyarı istənilən sahədə ədalətli və düzgün olmalıdır.
6. Təkcə möminlərin yox, bütün insanların hüquqlarına riayət olunmalıdır.
7. Əskik satmamaq qadağası təkcə peymanə və tərəziyə aid deyil.
8. Əskik satmaq bir növ fəsaddır və cəmiyyətə iqtisadi baxımdan zərbə vuranlar yer üzündə fəsad törədən sayılırlar. Çünki iqtisadi nizamsızlıq ictimai quruluşun dağılmasına səbəb olur.
9. Cəmiyyətin islahında ilk addım mövcud büdrəmələri müəyyənləşdirməkdir.

***AYƏ 184-185:***

﴿وَاتَّقُوا الَّذِي خَلَقَكُمْ وَالْجِبِلَّةَ الْأَوَّلِينَ قَالُوا إِنَّمَا أَنتَ مِنَ الْمُسَحَّرِينَ﴾

**“Sizi və əvvəlki qövmləri yaratmış Allahdan qorxun. Xalq (Şüeybin dəvətini qəbul etmək əvəzinə) dedi: “Şübhəsiz, sən sehr olunmuşlardansan.”**

***AYƏ 186:***

﴿وَمَا أَنتَ إِلَّا بَشَرٌ مِّثْلُنَا وَإِن نَّظُنُّكَ لَمِنَ الْكَاذِبِينَ﴾

**“Sən bizim kimi bəşər deyilsən və biz səni yalançılardan sayırıq.”**

**Nöqtələr**

●“Cibill” dedikdə ümmət, camaat mənası anlaşılır. “Yasin” surəsinin 62-ci ayəsində oxuyuruq: “Şeytan sizdən olan bir çox dəstələri azdırdı. Dağ “cəbəl”, fitrilik “cibilli” adlandığından qədim, fitri xüsusiyyətli və dağ kimi möhkəm dayanmış qövm və nəsillərə “cibilli” deyilmişdir.

---

[1] “Ğurərul-hikəm”.

**Bildirişlər**

1. İnsanı yaradan kəs ehtirama layiqdir və ondan çəkinmək lazımdır.

2. Təqva və iman iqtisadi fəsada mane olur. Sizi yaradan ruzinizi də verər.

3. Ata-babaların puç adət-ənənələrinə istinad etməyək. Hamımız Allahın məxluquyuq və Ona müti olmalıyıq.

4. Böhtan məntiqsiz şəxslərin ilk silahıdır.

5. Xilaf iş görən şəxs öz işinə don geyindirir. (Öz səhvini etiraf etmək əvəzinə peyğəmbərləri sehr olunmuş sayır)

*AYƏ 187:*

﴿فَأَسْقِطْ عَلَيْنَا كِسَفًا مِّنَ السَّمَاءِ إِن كُنتَ مِنَ الصَّادِقِينَ﴾

**“Əgər sən doğru danışanlardansansa, göyün parçalarını başımıza endir.”**

*AYƏ 188:*

﴿قَالَ رَبِّي أَعْلَمُ بِمَا تَعْمَلُونَ﴾

**“(Şüeyb) dedi: “Mənim Rəbbim gördüyünüz işlərdən daha çox xəbərdardır.”**

*AYƏ 189:*

﴿فَكَذَّبُوهُ فَأَخَذَهُمْ عَذَابُ يَوْمِ الظُّلَّةِ إِنَّهُ كَانَ عَذَابَ يَوْمٍ عَظِيمٍ﴾

**“Şüeybi təkzib etdilər (odlu bulud gününün əzabı onları bürüdü. Əlbəttə, o əzab böyük və hövlnak bir günün əzabıdır.”**

*AYƏ 190-191:*

﴿إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ وَإِنَّ رَبَّكَ لَهُوَ الْعَزِيزُ الرَّحِيمُ﴾

**“Şübhəsiz bunda (ilahi qüdrətdən) bir nişanə var. Amma xalqın əksəri iman gətirən deyil. Əlbəttə, sənin Rəbbin yenilməz və mehribandır.”**

**Nöqtələr**

●Quranda dörd yerdə işlədilmiş “kisəf” sözü hissələr, parçalar mənasını bildirir. Burada bulud parçası nəzərdə tutulur. “Bulud gününün əzabı” dedikdə ya insanların istidən kölgəyə sığındığı günün əzabı, ya da buludun onların başına kölgə saldığı günün əzabı nəzərdə tutulur.

●Şüeyb qövmünün əzabı haqqında bir neçə təbir işlədilmişdir. Bir yerdə onların zəlzələ vasitəsi ilə məhv edildiyi bildirilir.[1] Digər bir yerdə bildirilir ki, onlara silkələyici səslə əzab verildi.[2] Burada isə buluddan danışılır. Və hər üç mövzu uyğun nöqtədə yekunlaşdırıla bilər. Qara buluddan şimşək və səs qopar və canlara titrətmə düşər. Eyni zamanda zəlzələ vasitəsi ilə günahkarlar məhv edilər. Ola bilsin ki, zəlzələ Mədyən, qara bulud Əykə əshabına aiddir. Çünki həzrət Şüeyb hər iki qövmə məbus edilmişdi. "Əraf" surəsində həzrət Şüeybin Mədyən qövmünə doğru göndərildiyi bildirilir. Onların zəlzələ vasitəsi ilə məhv edilməsi qeyd olunur. Bu surədə isə Şüeybin Əykə əshabına məbus edildiyi bəyan olunur.

**Bildirişlər**

1. Daşqəlblilərin istəkləri də şərtdir.

2. Haqq rəhbərlərin müqaviməti sayəsində müxaliflər öz sərt şüarlarından daşınırlar. Şüeyb qövmü əvvəlcə onu sehr olunmuş və yalançı saydı. Sonra "əgər doğru danışanlardansansa" şərtini irəli sürdülər.

3. Təbliğ və nəsihətdə müxaliflərin istəklərinə uyğun hərəkət etmək lazım deyil. (Onlar səma parçalarının başlarına enməsini istəyirdilər. Amma peyğəmbər "Allah daha agahdır" deyə cavab verir.)

4. Allahın zikri və Ona təvəkkül xurafat qarşısında ən üstün dayaqdır.

5. Bizim taleyimiz öz əlimizdədir.

6. Allah peyğəmbərləri himayə, müxalifləri məhv edir.

7. Dünya sevgisi və var-dövlətə çatmaq istəyi insanı peyğəmbərlər qarşısında azğınlığa sürükləyir.

8. Tarixi bəyan etməkdə Quranın məqsədi nağıl danışmaq yox, öyüd-nəsihət verməkdir.

9. İnsanların əksəri haqq yolda olmur.

10. Tərbiyəçi güclə yanaşı, mərhəmətli olmalıdır.

11. Şüeybi (ə) himayə, onun müxaliflərini həlak edən Allah sənin də Rəbbindir. (Həzrət Şüeyb kimilərin tarixini bəyan etməklə həm peyğəmbərə təsəlli verilir, həm də düşmənlər hədələnir.)

12. Peyğəmbər müxaliflərinin məhvi ilahi qüdrət nişanəsidir. Düşmənlərə verilən möhlət isə Allahın mərhəmətindən qaynaqlanır.

***AYƏ 192, 193, 194:***

﴿وَإِنَّهُ لَتَنزِيلُ رَبِّ الْعَالَمِينَ نَزَلَ بِهِ الرُّوحُ الْأَمِينُ عَلَى قَلْبِكَ لِتَكُونَ مِنَ الْمُنذِرِينَ﴾

**"Əlbəttə, bu (Quran) aləmlərin Rəbbi tərəfindən göndərilmişdir. Allahın əmin mələyi (Cəbrail) onu endirmişdir. Qorxudanlardan olasan deyə sənin qəlbinə (nazil etmişdir) "**

[1] Əraf", 89.

[2] "Hud", 96.

*AYƏ 195-196:*

﴿بِلِسَانٍ عَرَبِيٍّ مُّبِينٍ وَإِنَّهُ لَفِي زُبُرِ الْأَوَّلِينَ﴾

**“(Bu Quran) aydın ərəb dilində (nazil oldu). Həqiqətən, o, əvvəlki kitablarda gəlmişdir.”**

**Nöqtələr**

●“Zubur” sözü “zəbr” sözündən götürüldükdə “yazmaq”, “zəbur” sözündən götürüldükdə kitab mənasını bildirir.

●Qurana yüngül yanaşmayaq. Çünki bu Kitab aləmlərin Rəbbi tərəfindəndir, vasitəçi Ruhul-əmindir, onun müqabil tərəfi Peyğəmbərin (s) pak qəlbidir, məqsədi xalqı oyatmaqdır, dili fəsahətli və bəlağətlidir, ondakı müjdə əvvəlki kitablarda da bəyan olunmuşdur.

●Həzrət İsmail, Hud, Saleh və Şüeyb ərəb dilində danışmışlar.[1]

●Vəhy mələyinin bir neçə adı var: Ruhul əmin, Ruhul-qudus, Şədidul-qova, Rəsulun-kərim və Cəbrail. Cəbrailin Ruh adlandırılmasının səbəbi ruhların dirçəldilməsində onun vasitəçiliyi və ya özünün ruhani mövcudluğu ola bilər.

**Bildirişlər**

1. Quran peyğəmbərin eşitdikləri və toxumaları yox, ilahi vəhydir.

2. Quran qeyb dünyasından hazırkı dünyaya nazil olmuşdur... Vəhy göndərən kəs bütün varlığı idarə və tərbiyə edən kəsdir. (Səmavi qanunlar yaranış nizamı ilə həmahəngdir.)

4. Vəhyin nazil olması təkamül vasitəsidir və Allahın rübubiyyət şənlərindəndir.

5. İlahi sünnə vasitələrlə həyata keçir.

6. İlahi vəhy artırılıb-əskildilmədən nazil olunur.

7. İnsan qəlbi həqiqətlərin qəbul mərkəzidir.

8. Bir şeyə tam əmin olmamış bu barədə ciddi xəbərdarlıq edə bilmərik.

9. Xəbərdarlıq üçün peyğəmbərlər göndərmək ilahi sünnədir.

10. Qafil şəxs qorxutma və xəbərdarlıqla oyanır. Quranda müjdədən çox qorxutma vasitəsinə yer verilir.

11. Təbliğ aydın və xalqın dilində olmalıdır.

12. Qurandakı müjdələr əvvəlki səmavi kitablarda da qeyd olunmuşdur. Məsələn, peyğəmbərin gəlişi Tövrat və İncildə müjdə verilmişdir.[2]

13. Proqramlaşdırma və müdiriyyətdə gələcək nəsillərin inkişafı, hidayəti və fəaliyyəti üçün zəmin hazırlayın.

---

[1] “Təfsire-Mənhəcus-Sadiqin”.

[2] Əraf”, 175.

14. Quranın məzmun və mahiyyəti əvvəlki səmavi kitablarda da olmuşdur. Amma onun kəlmələri həzrət Peyğəmbərin (s) mübarək qəlbinə nazil edilmişdir.

*AYƏ 197:*

﴿أَوَلَمْ يَكُن لَّهُمْ آيَةً أَن يَعْلَمَهُ عُلَمَاء بَنِي إِسْرَائِيلَ﴾

**"Bəni-İsrail alimlərinin ondan (Qurandan) xəbərdarlığı müşriklər üçün dəlil deyilmi?!"**

*AYƏ 198:*

﴿وَلَوْ نَزَّلْنَاهُ عَلَى بَعْضِ الْأَعْجَمِينَ﴾

**"Əgər Biz Quranı qeyri-ərəblərdən bəzisinə nazil etsəydik..."**

*AYƏ 199:*

﴿فَقَرَأَهُ عَلَيْهِم مَّا كَانُوا بِهِ مُؤْمِنِينَ﴾

**"(Nazil ediləni) onlara oxusaydı, ərəblər ona iman gətirməzdilər."**

**Nöqtələr**

●İmam Sadiq (ə) buyurmuşdur: "Qeyri-ərəblərin dəyər və fəziləti budur ki, onlar ərəb dilində Qurana üz tutmuşlar. Amma əgər Quran qeyri-ərəb dilində nazil olsaydı, ərəblərdən bəzisi iman gətirməzdi."[1]

**Bildirişlər**

1. "Müqəssir", yəni imkanı çatdığı halda öyrənməyən cahilin üzrü qəbul deyil. Alimlərinizdən soruşmadığınız halda məzəmmətə layiqsiniz.
2. Bəni-İsrail alimləri Quranın ilahi kitab olmasını bilirdilər.
3. Təbliğ və tərbiyədə qarşı tərəfin milli hisslərinə və dilinə diqqətli olun.
4. Təəssüb və millətçilik haqqın qəbuluna mane olur.
5. Ərəb qövmündə təəssüb və millətçilik hissləri güclüdür.

*AYƏ 200, 201, 202:*

﴿كَذَلِكَ سَلَكْنَاهُ فِي قُلُوبِ الْمُجْرِمِينَ لَا يُؤْمِنُونَ بِهِ حَتَّى يَرَوُا الْعَذَابَ الْأَلِيمَ فَيَأْتِيَهُم بَغْتَةً وَهُمْ لَا يَشْعُرُونَ﴾

---

[1] "Təfsire-kənzud-dəqaiq".

**“Biz Quranı bu sayaq (səlis və aşkar bəyanla) günahkarların qəlbinə yatırdıq. (Amma onlar) dərdli əzabı görməyincə iman gətirməzlər. (Bu əzab) qəfildən və xəbərsiz olduqları halda onların sorağına gələr.”**

*AYƏ 203-204:*

﴿فَيَقُولُوا هَلْ نَحْنُ مُنظَرُونَ أَفَبِعَذَابِنَا يَسْتَعْجِلُونَ﴾

**“Deyərlər: «Görən bizə möhlət veriləcəkmi?» Yoxsa əzabımızın nazil olmasına tələsirlər (soruşurlar ki, Allahın qəzəbi nə vaxt nazil olar)?”**

*AYƏ 205-206:*

﴿أَفَرَأَيْتَ إِن مَّتَّعْنَاهُمْ سِنِينَ ثُمَّ جَاءَهُم مَّا كَانُوا يُوعَدُونَ﴾

**“Gördünmü, əgər onları illərcə (nemətlərimizdən) bəhrələndirsək də, vəd olunmuş əzab onlara yetişəcək.”**

**Nöqtələr**

●Rəvayətdə oxuyuruq: “İslam Peyğəmbəri (s) yuxuda gördü ki, Bəni-Üməyyə onun minbərinə çıxır və xalqı azdırır. Həzrət yuxudan pərişan oyandı. Bu vaxt Cəbrail hazırkı ayələri gətirdi.[1]

**Bildirişlər**

1. Allah hətta kafirlərə də xəbərdarlığı başa çatdırır, höccəti tamamlayır. Quran kafirlərə təqdim edilir, onların qəlbinə ötürülür.
2. Qabiliyyət olmayan yerdə Quran da təsirsizdir.
3. Günah insandakı hidayət zəminini məhv edir.
4. Quran qeyri-ərəb dilində nazil olsaydı, Məkkənin müşrik ərəbləri iman gətirməzdi. İlahi kitab aydın ərəb dilində nazil olmuş və onun buyruqları qəlblərə çatdırılmışsa da, bir çox ərəblər iman gətirmirlər.
5. Bəla yetişən məqamda iman gətirmək faydasızdır.
6. Allahın möhləti bizi arxayınlaşdırmasın. Çünki ölüm və ilahi əzab qəfildən gəlir.
7. Günahkar insan ölüm məqamı möhlət diləyir.
8. Bir gün yatmış vicdanlar oyanasıdır.
9. İlahi əzabı görməyə tələsənlər bir gün bu əzabdan qurtuluş üçün möhlət istəyəcəklər.
10. Möhlətin qara qəlbli insanlara faydası yoxdur.

[1] “Təfsire-Əl-mizan”.

***AYƏ 207:***

﴿مَا أَغْنَى عَنْهُم مَّا كَانُوا يُمَتَّعُونَ﴾

**“Bəhrələndikləri şey əzabı uzaqlaşdırmaq üçün karlarına gəlmədi.”**

***AYƏ 208-209:***

﴿وَمَا أَهْلَكْنَا مِن قَرْيَةٍ إِلَّا لَهَا مُنذِرُونَ ذِكْرَى وَمَا كُنَّا ظَالِمِينَ﴾

**“Qorxuducu bir peyğəmbər göndərməmiş Biz heç bir məntəqəni həlak etmədik. (Peyğəmbərlər göndərdik ki,) öyüd-nəsihətə səbəb olsun. Biz zalım deyildik (ki, xəbərdarlıqsız cəzalandıraq).”**

**Nöqtələr**

●Allah hər bir fərd və qövmü xəbərdarlıqdan sonra həlak edir. Xəbərdarlıqsız cəzalandırma zülmdür. Zülm isə Allahın şanında deyil. Quran bu həqiqəti müxtəlif ayələrdə bəyan etmişdir: “Biz onlara zülm etmədik.”[1]; “Allah zülm istəməz”[2]; “Zülm etmək Allahın şanında deyil.”[3]; “Onlara azca da zülm olunmayacaq.”[4]; “Allah xurma dənəsinin sapı qədər və ondan da az zülm etməz.”[5]; “Allah zərrə ağırlığında zülm etməz.”[6]

**Bildirişlər**

1. İlahi qəhr-qəzəb gələn zaman bütün bəhrələnmə vasitələri faydasız olur.
2. Din müxaliflərinin rifah içində yaşaması sizi qəmləndirməsin. Bir gün onlara verilənlər alınacaq.
3. Xəbərdarlıq başa çatdıqdan sonra qəzəb nazil olur. Xəbərdarlıqdan sonra tənbeh etmək lazımdır.
4. Hər bir ümmət arasında onlara xəbərdarlıq edən övliyalar var. Peyğəmbərlərin vəzifəsi xəbərdarlıqdır. Xalqın qəbul edib-etməməsinə görə onlar məsuliyyət daşımırlar.
5. Peyğəmbərlərin vəzifəsi xəbərdarlıqdır, xalqın qəbul edib-etməməsində onların heç bir məsuliyyəti yoxdur.
6. İnsan həqiqətləri fitrətən dərk edir. Lakin çox vaxt qəflət həqiqətin qəbuluna mane olur. Qəflətin çarəsi isə xəbərdarlıq və hədədir.
7. Xatırlatmadan öncə cəzalandırmaq zülümdür.
8. Zülm Allahın şənindən uzaqdır.

---

[1] “Nəhl”, 118.
[2] “Ğafir”, 31.
[3] “Ənkəbut”, 40.
[4] “Nisa", 124; “Məryəm”, 60.
[5] “Nisa", 49.
[6] “Nisa", 40.

*AYƏ 210, 211, 212:*

﴿وَمَا تَنَزَّلَتْ بِهِ الشَّيَاطِينُ وَمَا يَنبَغِي لَهُمْ وَمَا يَسْتَطِيعُونَ إِنَّهُمْ عَنِ السَّمْعِ لَمَعْزُولُونَ﴾

**“Quranı şeytanlar nazil etməyib. Bu onlara layiq deyil və bu iş üçün qüdrətləri yoxdur. Şübhəsiz, onlar (səmavi xəbərləri) eşitməkdən uzaqlaşdırılmışlar.”**

*AYƏ 213:*

﴿فَلَا تَدْعُ مَعَ اللَّهِ إِلَهًا آخَرَ فَتَكُونَ مِنَ الْمُعَذَّبِينَ﴾

**“(Ey peyğəmbər,) Allahla yanaşı başqa məbudu çağırma, yoxsa əzab verilənlərdən olarsan.”**

**Nöqtələr**

●Vəhy iki növdür:

a) Ruhul-əmin vasitəsi ilə peyğəmbərin qəlbinə nazil edilən vəhy; belə bir vəhy cin və şeytanlara layiq deyil. Onlar belə bir vəhyi qəbul edib aparmağa qadir deyildirlər.

b) Vəhyin digər bir növü şeytanın vəsvəsələri və ilhamlarıdır. Şeytanlar öz dostlarına təlqin edirlər.[1]

●Quran uca məqama və xüsusi müqəddəsliyə malikdir. Bu səbəbdən də onu Ruhul-əmin gətirmişdir. O hər bir təcavüzdən qorunur, onu qəbul edən məsumdur və ona zəmanət verilmişdir.[2]

●Müşriklər peyğəmbərə belə təklif etdilər: Əgər bizim bütləri çağırıb onları möhtərəm saysan, biz də səni özümüzə rəis seçərik. Ayə nazil oldu ki, kafirləri məyus et.

**Bildirişlər**

1. Böhtanlara qətiyyətlə cavab verin. Müşriklər ilahi ayələri şeytanın işi sayırdılar.
2. Quranın müqəddəsliyi şeytanların təcavüzündən amandadır.
3. Cin və şeytanların qüdrəti məhduddur.
4. Biganələrin müqəddəs mərkəzlərə girişləri qadağandır.
5. Qabiliyyət, paklıq və tutum olarsa mələk enişə vadar edilər. Hazırlıq olmayan yerdə səmaya yüksəliş süqut və məhrumiyyətlə nəticələnəcək.[3]
6. Quranın nazil olmasının son məqsədi tövhiddir.

---

[1] “Ənam”, 121.
[2] “Nəcm”, 3, “Hicr”, 9.
[3] “Hicr”, 18.

7. Allah peyğəmbərə şirki qadağan edir ki, bizə nəsihət olsun. Əslində peyğəmbər Allahdan qeyrisini soraqlayan deyil.

8. Peyğəmbərlərin isməti onların azadlıq və ixtiyarına zidd deyil. (Peyğəmbər məsum olsa da, Allahdan qeyrisini soraqlamasın deyə qadağa qoyulur.)

9. Tövhid rəhbərləri özləri ilkin müvəhhid (təkallahçı) olmalıdır.

10. Allahdan qeyrisi kim olur olsun, pərəstiş ediləsi deyil.

11. Şirk keçmiş ümmətlərin məhvinə səbəb olmuşdur.

12. Allahdan qeyrisinin sorağınca getmək biçarəlik və əzabla nəticələnir.

13. İlahi ayələr böyük şəxsiyyətlərə də xəbərdarlıq edir.

*AYƏ 214-215:*

﴿وَأَنذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ وَاخْفِضْ جَنَاحَكَ لِمَنِ اتَّبَعَكَ مِنَ الْمُؤْمِنِينَ﴾

**"Yaxın qohumlarını qorxut. Sənə itaət edən möminlərə qoynunu aç."**

*AYƏ 216-217:*

﴿فَإِنْ عَصَوْكَ فَقُلْ إِنِّي بَرِيءٌ مِّمَّا تَعْمَلُونَ وَتَوَكَّلْ عَلَى الْعَزِيزِ الرَّحِيمِ﴾

**"Əgər boyun qaçırsalar de ki, mən sizin işlərinizdən zara gəlmişəm. Yenilməz və mehriban Allaha təvəkkül et."**

**Nöqtələr**

●214-cü ayə nazil olduqdan sonra həzrət Peyğəmbər (s) yaxın qohumları qonaq çağırdı. Qonaqlıqdan sonra onları şirk və bütpərəstlikdən çəkinməyə dəvət etdi.[1]

●"Əşirət" sözü ola bilsin ki, yaxınların ünsiyyəti ilə bağlıdır və qohumlar mənasında işlədilmişdir.

●Başqalarına yaxşılıqda insanın yaxınları müqəddəmdir.

●Qanad, qoyun açmaq təbiri Quranda iki yerdə işlədilmişdir: Peyğəmbərin möminlərə qoynunu açması, övladın valideynə qoynunu açması.[2]

●Ayədə qadınlara da xitab olunur. "Əl-mizan" təfsirində Təbəranidən nəql olunur ki, peyğəmbər qadın qohumları da dəvət etmişdir.

**Bildirişlər**

1. Qohumluq əlaqələri daha böyük məsuliyyətə səbəb olur.

2. Vəhy məktəbində bütün insanlar qanun qarşısında eynidir və Peyğəmbərin (s) yaxınlarına da xəbərdarlıq olunur.

3. Təbliğ və nəhy əz münkərdə özünüzdən başlayıb sonra yaxınlara keçin.

4. Öyüd-nəsihət və təbliğ qətiyyətli olmalıdır.

---

[1] "Təfsire-Məcməül-bəyan".

[2] "İsra", 24.

5. Qohumluq əlaqələri pisliyə qadağa vəzifəsinə mane olmamalıdır.

6. Yaxınlara xəbərdarlıq başqalarının haqqı qəbul etməsi üçün zəmini gücləndirir.

7. Qohumlar arasında da daha yaxınları var.

8. İnsan qohumlarını daha yaxşı tanıdığından onların haqqı qəbul etmə zəmini daha çoxdur.

9. Xəbərdarlıq qayğı və məhəbbətlə müşayiət olunmalıdır.

10. Yoldaşlar, ardıcıllar və tabeçilikdə olanlar qarşısında təvazö rəhbər və təbliğatçı üçün zəruri olan sifətlərdəndir.

11. Möminlər qarşısında təvazö göstərək, müşriklərdən uzaq olaq.

12. Allahın peyğəmbərə təvazö göstərişi verməsi bu sifətin əhəmiyyətini göstərir.

13. Peyğəmbərə itaət Allaha iman şərtidir.

14. Möminlər o qədər uca məqama malikdirlər ki, Peyğəmbərə (s) möminlər qarşısında təvazökarlıq əmr olunur.

15. Ünsiyyətdə meyar qohumluq yox, iman və küfrdür. (Qohumları qorxut, möminlər qarşısında təvazö göstər!)

16. Təvazö təkcə danışığa aid deyil. Əməldə də təvazö göstərmək lazımdır.

17. Təvəlla və təbərranın (Allah dostu ilə dostluq, Allah düşməni ilə düşmənçiliyin) mizanı Allah rəsuluna itaətdir.

18. Küfrə qəlbdə nifrət bəs etmir, bunu dildə də elan etmək lazımdır.

19. Allaha təvəkkül edən kəs kafirlərin əməllərinə və qohumların etinasızlığına nifrət edə bilər.

20. Elə bir varlığa güvənək ki, qüdrətli və bizə dost olsun.

***AYƏ 218, 219, 220:***

﴿الَّذِي يَرَاكَ حِينَ تَقُومُ وَتَقَلُّبَكَ فِي السَّاجِدِينَ إِنَّهُ هُوَ السَّمِيعُ الْعَلِيمُ﴾

**“O kəs ki, (namaza) durduğunu da görür, səcdə edənlər arasında hərəkətini də. Çünki eşidən və bilən Odur.”**

***AYƏ 221:***

﴿هَلْ أُنَبِّئُكُمْ عَلَى مَن تَنَزَّلُ الشَّيَاطِينُ﴾

**“Sizə xəbər verimmi ki, şeytanlar kimə nazil olur?”**

***AYƏ 222, 223:***

﴿تَنَزَّلُ عَلَى كُلِّ أَفَّاكٍ أَثِيمٍ يُلْقُونَ السَّمْعَ وَأَكْثَرُهُمْ كَاذِبُونَ﴾

**“Onlar hər bir yalançı günahkara nazil olur. (Çünki belələri) şeytanların sözünə qulaq asırlar. Onların çoxu yalançıdır.”**

**Nöqtələr**

●"Əffak" dedikdə yalançı mənası anlaşılır.

●218-ci ayədə Peyğəmbərin (s) qiyamı (ayağa qalxması) dedikdə ya namaz üçün, ya da təbliğ üçün qiyam nəzərdə tutulmuşdur. İmam Baqir (ə) buyurur ki, qiyam dedikdə peyğəmbərlik məsələsində qiyam nəzərdə tutulur.

●223-cü ayədə nəzərdə tutula bilər ki, günahkarlara nazil olan şeytanlar şəhablarla (meteorlarla) qovulmalarına baxmayaraq, səmadakı xəbərləri dinləməyə çalışırlar.

●İmam Baqir (ə) buyurur: "Səcdə edənlər arasında hərəkətini görür" deyərkən allahpərəst babalarının sülbündə sənin hərəkətindən Allahın xəbərdar olduğu nəzərdə tutulur."[1]

●Müşriklər vəhyə münasibətdə şeytanların həzrətə nazil olduğunu düşündüyündən Allah qətiyyətlə buyurur ki, şeytanlar məsum peyğəmbərə yox, yalançı günahkarlara nazil olur. Demək, iki növ nazil olma var: Vəhyin etibarlı mələk yolu ilə nazil olması, günahkar insanlara şeytanların nazil olması.

**Bildirişlər**

1. Allah Öz nəzarətini yada salmaqla Peyğəmbərə (s) təsəlli verir.
2. İnsan namaz halında Allahın xüsusi diqqətini qazanır.
3. Səcdə namazın ən mühüm rüknüdür (əsasıdır).
4. Qüvvət və mərhəmətə malik olmaqla yanaşı eşidən və xəbərdar, hərəkət və ibadətlərimizi görən Allaha təvəkkül edək.
5. Təbliğdə suallar ünvanlamaqla qarşı tərəfin diqqəti və dinləməsi üçün zəmin yaradaq.
6. Fərqli ruhiyyələr, tutumlar və ləyaqətlər fərqli nazil olmalara, göndərişlərə səbəb olur.
7. Vəhyi yalnız peyğəmbərin pak qəlbi qəbul edir. Şeytanın vəsvəsələri isə bütün bulaşıq qəlblərə yol tapır.
8. Günahdan da pisi günahın təkrarlanması və onun xarakterə qatılmasıdır.
9. Hər sözə qulaq asmaq günahkarın nişanəsidir.
10. Yalan bir çox günahların qaynağıdır və onlardan daha təhlükəlidir. Çünki yalançının qəlbi şeytanın eniş zolağıdır.

***AYƏ 224, 225, 226:***

﴿وَالشُّعَرَاء يَتَّبِعُهُمُ الْغَاوُونَ أَلَمْ تَرَ أَنَّهُمْ فِي كُلِّ وَادٍ يَهِيمُونَ وَأَنَّهُمْ يَقُولُونَ مَا لَا يَفْعَلُونَ﴾

**"(İslam Peyğəmbəri şair deyil, çünki) şairlərə azğınlar tabe olur. Görmürsənmi, onlar hər vadidə avara dolanır, danışdıqları sözə əməl etmirlər?"**

---

[1] "Bihar", c. 15, s.3.

*AYƏ 227:*

﴿إِلَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَذَكَرُوا اللَّهَ كَثِيرًا وَانتَصَرُوا مِن بَعْدِ مَا ظُلِمُوا وَسَيَعْلَمُ الَّذِينَ ظَلَمُوا أَيَّ مُنقَلَبٍ يَنقَلِبُونَ﴾

**"Yalnız iman gətirib saleh işlər görən, Allahı çox yada salan, zülmə düçar olduqdan sonra (müdafiə üçün) yardım istəyənlər istisnadırlar. (Zülm edənlər tezliklə biləcəklər ki, qayıdış yerləri haradır."**

**Nöqtələr**

●"Ğəyy" sözündən olan "ğavun" sözü inkişaf sözünün antonimidir.[1]

●Kafirlər Quranı Peyğəmbər (s) düşüncəsinin məhsulu, Peyğəmbərin (s) özünü şair bildiklərindən hazırkı ayələrdə məhkum olunurlar. Buyrulur ki, şairlərin tərəfdarları azğınlardır, amma İslam Peyğəmbərinin (s) tərəfdarları doğru yoldadırlar. Şairlər məqsədsiz dolanır və öz dediklərinə əməl etmirlər. Amma Peyğəmbər (s) belə deyil. Onun sözü ilə əməli arasındakı uyğunluq şair olmadığını göstərir.

●İmam Baqir (ə) və İmam Sadiqdən (ə) nəql olunur ki, fiqhi qeyri-dini məqsədlərlə və ya dərindən öyrənməyənlər həm azğındırlar, həm də başqalarını azdırırlar. Bu məzəmmət dastançılara da aiddir.[2]

●Məqsədsiz şairin adı şeytanların nazil olduğu yalançılarla yanaşı çəkildiyindən belə nəticə çıxarmaq olar ki, yalançı şeytanla məqsədsiz şair arasında rabitə var.

●Rəvayətlərə əsasən, çox zikr dedikdə Həzrət Zəhranın (ə) təsbihatı, yəni 34 dəfə "Allahu əkbər", 33 dəfə "əlhəmdulillah" və 33 dəfə "sübhanəllah" demək nəzərdə tutulur.

●Hədisdə deyilir: Allah zikri təkcə dilə aid deyil. Zikr dedikdə günahların tərki və ibadətlə müşayiət olunan zikr nəzərdə tutulur.[3]

●Hədisdə oxuyuruq: "İmam Hüseynin (ə) mübarək başı nizəyə taxıldığı vaxt bu ayəni tilavət etmişdir. «İmam Sadiq (ə) buyurur: "Zülmün ən aşkar nümunəsi Peyğəmbər (s) Əhli-beytinə (ə) edilən zülümdür."[4]

## *ŞER VƏ ŞAİRLƏR*

●Surənin son ayələri münasibəti ilə şer və şairlər haqqında bəzi məsəlləri bəyan edirik:

---

[1] "Bəqərə", 256.
[2] "Təfsire-Nurus-səqəleyn".
[3] "Təfsire-kənzud-dəqaiq".
[4] "Təfsire-Nurus-səqəleyn".

–Beyzavinin təfsirindən belə nəql olunur: Bu ayələrin nazil olmasının səbəbi cahiliyyət dövründə şerlərdə daha çox təxəyyüllərə, gözəl qadınların vəsfinə, eşq macəralarına, yersiz iftixarlara, söyüşə, başqalarının namusuna təcavüzə yer verilməsi olmuşdur.

–Həkimlə (hikmət sahibi ilə) şair arasında fərq budur ki, həkim öncə mənanı nəzərdə tutub sonra yazır, şair isə öncə qəlib və sözləri seçib sonra mənanı bəyan edir.[1]

–Haqqın müdafiəsinə həsr olunmuş yaxşı şer rəvayətlərdə nizə ilə cihaddan üstün sayılmış və mədh olunmuşdur.[2]

–Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Şerlərdən bəzisi sehr kimidir, bəzisi hikmətdir."[3]

–Həzrət Peyğəmbər (s) mübariz şair Həfsana buyurmuşdur: "Ruhul-qudus səninlədir."[4]

–Həzrət Peyğəmbər (s) səfərlərdən birində Həssanı çağırıb ondan şer oxumasını istədi. Həssan oxudu və həzrət dinlədi. Sonra o həzrət göstəriş verdi ki, məsciddə Həssana xüsusi yer ayırılsın.[5]

–İmam Sadiq (ə) öz yaxınlarına buyurmuşdur: "Uşaqlarınıza Əbdinin şerlərini öyrədin, o yaxşı şair və bizim məzhəbimizdəndir."[6]

–İmam Sadiq (ə) buyurmuşdur: "Bizim həqiqətimiz haqqında bir beyt şer yazan hər kəsə Allah behiştdə ev əta edər."[7]

–İmam Sadiq (ə) buyurmuşdur: "Oruc tutanın, ehram halında və ya hərəmdə olanın şer oxuması məkruhdur. Eləcə də cümə axşamı və cümə günü şer oxumağın kərahəti var."[8]

–Rəvayətdə oxuyuruq: "Cahiliyyət dövrünün ən düzgün şeri bu idi:

*Haqdan savay hər nə batildir bil sən,*
*Gec-tez çıxasıdır hər nemət əldən.*

–Rəvayətdə deyilir: Ayə nazil olduğu vaxt şairlərdən bir dəstəsi nigaran olub Peyğəmbərin (s) yanına gəldi. Həzrət buyurdu: "Mömin qılıncı və dili ilə cihad edir."[9]

---

[1] "Lüğətnameyi-Dehxuda".
[2] "Təfsire-kənzud-dəqaiq".
[3] "Təfsire-əl-munir".
[4] "Təfsire-kənzud-dəqaiq".
[5] "Təfsire-Ruhul-Məani".
[6] "Təfsire-kənzud-dəqaiq".
[7] "Bihar", c. 79, s. 291.
[8] "Vəsail", c. 7, s. 121.
[9] "Təfsire-Mənhəcus-Sadiqin".

**Bildirişlər**

1. Əsas məsələ xalqı cəzb etmək yox, kimi və hansı hədəfə doğru cəzb etməkdir.

2. İslam yaradıcılıqla yox, məqsədsiz şerlə müxalifdir.

3. Şerdə iman və təqva olmasa, fərdi təxəyyüllər və hisslər şairi gündə bir vadiyə çəkər.

4. İstər şer və hekayə, istər film və teatr, istər söhbətlə xalqın başını qatıb onu doğru yoldan azdırmaq məzəmmət olunur. Amma şer gözəllik və özünəməxsusluğuna görə daha təsirlidir.

5. Şerin bir neçə bəlası var: cahillərin itaəti, məqsədsizlik, əməldən uzaqlıq.

6. Əgər şer və yaradıcılıq imanla müşayiət olunmasa azğınlar üçün münasib zəmin və rahat yol olasıdır.

7. Əmr be məruf və nəhy əz münkər yollarından biri haqq və batil nümunələrin təqdimidir.

8. Quran iş yox, söz əhli olan şairləri məzəmmət edir.

9. İnsafı gözləyin. Hər bir zümrənin yaxşılarının haqqını tapdamayın. Şer və yaradıcılıq salehlərin əlində olduqda dəyər tapır.

10. İman, saleh əməl və Allah zikri yaradıcı insanı, şairi azğınlıqdan xilas edir.

11. Quran mömin şairin xalqı haqqın müdafiəsinə təhrik edən şerini təsdiqləyir.

12. İman əməldən müqəddəmdir. Amma səmərə üçün əməllər də saleh olmalıdır.

13. Allah zikri zaman, məkan və miqdarla məhdudlaşmır.

14. Təhlükə böyük olan yerdə Allah zikri də çox olmalıdır.

15. Sənət və şer vasitəsilə zalımlarla mübarizəyə qalxaq.

16. Allah zalımları izləməkdədir.

# “NƏML” SURƏSİ

***(27-Cİ SURƏ, 93 AYƏ)***

***On doqquz, iyirminci cüzlər***

***“NƏML” SURƏSİNİN SİMASI***

93 ayədən ibarət olan bu surənin 18-ci ayəsində qarışqalar və həzrət Süleymanın (ə) əhvalatından danışıldığından surə “Nəml” (“qarışqa”) adlandırılmışdır. Amma bu surə “Süleyman” və “Ta-sin” adları ilə də tanınır.

Surə bütünlüklə Məkkədə, müxtəlif münasibətlərlə nazil olmuşdur. “Bismillahir-rəhmanir-rəhim” cümləsi bu surədə iki dəfə bəyan olunmuşdur: başlanğıcında və 30-cu ayədə; həzrət Süleymanın Səba mələkəsinə yazdığı məktubun əvvəlində.

Surədə həzrət Musa, Süleyman, Saleh və Lut kimi dörd böyük peyğəmbərin öz dövrünün azğınları ilə mübarizələri bəyan olunmuşdur. Bu əhvalatların ən genişində həzrət Süleymanın Səba mələkəsi ilə münasibətlərindən, mələkənin Allaha necə iman gətirməsindən danışılır.

Surənin qalan hissəsində hud-hud (şanapipik) kimi quşların, qarışqa kimi həşəratların danışığı, Süleyman qoşununda və sarayında cinlərin hüzuru, nəhayət Bilqeysin taxtının Yəməndən Şama bir göz qırpımında gətirilməsi bəyan olunur.

**Rəhman və rəhim Allahın adı ilə**

﴿بسم الله الرحمن الرحيم﴾

***AYƏ 1:***

﴿طس تِلْكَ آيَاتُ الْقُرْآنِ وَكِتَابٍ مُّبِينٍ﴾

**“Ta-sin; budur Quranın və aydın Kitabın ayələri.”**

***AYƏ 2, 3:***

﴿هُدًى وَبُشْرَى لِلْمُؤْمِنِينَ الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُم بِالْآخِرَةِ هُمْ يُوقِنُونَ﴾

**“(Bu ayələr) iman əhli üçün hidayət və müjdədir. O kəslər ki, namaz qılar, zəkat ödəyərlər. Axirətə əmin olanlar da yalnız onlardır.”**

**Nöqtələr**

●Zəkat dedikdə iki məna nəzərdə tutula bilər: biri şəriətdə nəzərdə tutulmuş zəkat, digəri istənilən şəkildə ehtiyaclılara göstərilən yardım. Bu ayədə zəkatın ikinci mənası nəzərdə tutulmuşdur. Çünki surə Məkkədə nazil olmuşdur və həmin vaxt rəsmi zəkat göstərişi verilməmişdi.

●"Mubin" sözü həm "aydın", həm də "aydınladan" mənasında işlənə bilər.

**Bildirişlər**

1. İlahi sünnələrdən, qanunlardan biri budur ki, vəhy və malik olduğu məqama və üstünlüyünə baxmayaraq əli çatan bir yerdə qərar verilir.
2. Danışıq və dinləmə yolu ilə dəvət yazı və oxu ilə dəvətdən daha geniş əhatəyə malikdir. (Quran sözü kitab sözündən öncə gəlmişdir.)
3. Peyğəmbərlərin hərəkəti maariflə, oxu və yazı ilə müşayiət olunur.
4. Quran yetərincə böyük kitabdır.
5. Quran xalqın dərk edə biləcəyi bir kitabdır.
6. Dəvət və təbliğ aydın məzmuna, iti və qəti üsluba malik olmalıdır.
7. Hidayətin dərəcələri, mərhələləri var: ibtidai hidayət (xalq üçün) və tamamlayıcı hidayət (möminlər üçün).
8. Yazılı olması, aydınlığı, hidayəti və müjdəsi Quranın imtiyazlarındandır.
9. Quranın əsas missiyası hidayət və müjdədir. Quranda digər elmlərə və məsələlərə diqqət verilməsi ikinci dərəcəlidir.
10. İman hidayət və qurtuluş açarıdır.
11. Hidayətdə əsas şərt qabiliyyətdir.
12. Yaxşılığı genişləndirmək üçün xeyir əməl sahiblərini mədh edək.
13. Tərif insanın ad və ünvanına yox, yaxşı işinə ünvanlanmalıdır.
14. Əməl iman nişanəsidir.
15. Davamlılıq üçün hətta namaz və zəkat əhli olan möminlərin belə ilahi hidayətə ehtiyacları var. Qiyamətdə də insan müəyyən hidayətə möhtac olur.[1]
16. Düzgün və kamil namaz dəyərlidir. (Namazın bərpası dedikdə onu zəruri şərtlər əsasında yerinə yetirmək nəzərdə tutulur.)
17. Allahla rabitə xalqla rabitədən müqəddəmdir. (Öncə namaz, sonra zəkat qeyd olunur.)
18. Namaz və Allahla rabitə digər xeyir işlər üçün zəmin yaratdığından öncə qeyd olunur.
19. Əməlin davamlılığı ona dəyər verir.
20. İslamın imtiyazlarından biri də budur ki, ilahi və ictimai, mənəvi və maddi, dünya və axirət məsələlərini yanaşı nəzərdə tutur.
21. Təbliğdə öncə xalq üçün xərcsiz başa gələn işləri bəyan edin. (Əvvəl namaz, sonra zəkat!)

---

[1] "Yunus", 9.

22. Mömin insan ictimai məsələlər və məhrumların ehtiyacı müqabilində məsuliyyət hiss edir.

23. Həssaslıq tələb olunan yerdə sözü təkrarlayın. (Namaz və zəkat bir, məad isə iki təbirlə qeyd edilir.)

24. Məada imanla müşayiət olunan namaz və zəkatın dəyəri var.

25. Yəqin əhli yalnız xüsusi bir dəstədir.

26. Möminlər qalibdir. Onlar namazla özlərini tərbiyələndirir, zəkatla cəmiyyətin problemlərini aradan qaldırır, məada əminliklə öz gələcəklərini təmin edirlər.

27. Elm unudula bilər, amma yəqinlik daimi diqqətlə yanaşıdır.

28. Güman və bilmək bəs etmir, qəlbən inam və yəqinlik lazımdır.

*AYƏ 4:*

﴿إِنَّ الَّذِينَ لَا يُؤْمِنُونَ بِالْآخِرَةِ زَيَّنَّا لَهُمْ أَعْمَالَهُمْ فَهُمْ يَعْمَهُونَ﴾

**“Həqiqətən, axirətə inanmayanların işlərini gözəl göstərərik ki, avara qalsınlar.”**

*AYƏ 5:*

﴿أُوْلَئِكَ الَّذِينَ لَهُمْ سُوءُ الْعَذَابِ وَهُمْ فِي الْآخِرَةِ هُمُ الْأَخْسَرُونَ﴾

**“Onlar dərdli əzaba qatlaşacaq kəslərdir. Qiyamətdə ən çox ziyana düşəcək kəslər də onlardır.”**

**Nöqtələr**

●Bu ayədə və “Ənam” surəsinin 108-ci ayəsində pis işlərin yaxşı sayılması Allaha aid edilir. Halbuki Qurani-Kərim digər ayələrdə bu işi şeytan işi saymışdır. Səbəb budur ki, Allah varlıq nizamını səbəblər üzərində qurmuşdur. Görülən bütün işlər hansısa səbəblərlə həyata keçir. Məsələn, həm “qapını əlimlə açdım”, həm də “qapını açarla açdım” demək olar. Yuxarıdakı halda da pis işi gözəl göstərən şeytandır, amma pis işin təkrarı həmin işi xarakterə hopdurur və işin xasiyyətə çevrilməsi ilahi sünnədir.

*ZİYANKARLARIN SİMASI*

●Ziyankarlar bir neçə növdür: “xasir”, “lə fi xusr”, “xusranun mubin”, “əxsərun”. Ömrünü puça çıxaran şəxs “xasir”[1], iman və saleh əməl sahibi olmayan şəxs “lə fi xusr”[2], Allaha tərəddüdlə bəndəlik edən kəs “xusranun

[1] “Zumər”, 15.
[2] “Əsr”, 2.

mubin”[1], azğınlıq içində ikən düz yolda olduğunu düşünən kəs “əxsərun” adlanır.[2]

–Rəvayətdə oxuyuruq: “Əxsərun” dedikdə zəkat verməyən, günahı təkrarlayan, bacardığı halda haqqı deməyən kəslər nəzərdə tutulur və onlar insanların ən zalımıdırlar. Onlar dini zaya çıxarmaqla öz dünyalarını bəzəyirlər.

**Bildirişlər**

1. Məada etiqadsızlıq çirkinliklərin üzə çıxması üçün zəmindir. (İmansız insan çılpaqlığı mədəniyyət, bər-bəzəyi şəxsiyyət, fırıldaqçılığı zirəklik, yalan və riyanı siyasət nişanəsi, istismarı qüdrət göstəricisi sayır.)
2. İmansız fərdlərin anlaqsızlığı və başlarını itirməsi Allahın ən böyük cəzası və silləsidir.
3. Əgər Qiyamətə inansaq, gözəl görünən bir çox işlərin mahiyyətini anlayarıq.
4. Qiyaməti özü üçün aydın gələcək bilməyən kəsi haldan-hala düşən dünya hər an çaşdırır.
5. Qiyamətin inkarı ən böyük xəsarətlərə səbəb olur.

### *AYƏ 6:*

﴿وَإِنَّكَ لَتُلَقَّى الْقُرْآنَ مِن لَّدُنْ حَكِيمٍ عَلِيمٍ﴾

**“Şübhəsiz, Quran sənə hikmət və elm sahibi tərəfindən verilir.”**

**Bildirişlər**

1. Vəhyi alan tərəf Allahın rəsuludur.
2. Quran ilahi elm və hikmət qaynağıdır.
3. Peyğəmbərin elmi ilahi elmdir.
4. Quranın göndərilməsində və qəbulunda heç bir etibarsız vasitə yoxdur.
5. Dinin hökmləri ilahi elm qaynağındandır və hər bir göstərişdə hikmət mövcuddur.

### *AYƏ 7:*

﴿إِذْ قَالَ مُوسَى لِأَهْلِهِ إِنِّي آنَسْتُ نَارًا سَآتِيكُم مِّنْهَا بِخَبَرٍ أَوْ آتِيكُم بِشِهَابٍ قَبَسٍ لَّعَلَّكُمْ تَصْطَلُونَ﴾

**“(Yada sal) o zaman ki, Musa öz ailəsinə dedi: “Həqiqətən, mən od hiss etdim. (Siz burada qalın,) tezliklə sizin üçün ya bir xəbər, ya da od parçası gətirərəm. Bəlkə qızınasınız.”**

---

[1] “Həcc”, 11.
[2] “Kəhf”, 104.

*AYƏ 8:*

﴿فَلَمَّا جَاءهَا نُودِيَ أَن بُورِكَ مَن فِي النَّارِ وَمَنْ حَوْلَهَا وَسُبْحَانَ اللَّهِ رَبِّ الْعَالَمِينَ﴾

**“Elə ki (Musa) onun yanına gəldi, nida olundu ki, odda və onun ətrafında olan hər kəsə bərəkət verilmişdir. Aləmlərin Rəbbi olan Allah pak-pakizədir.”**

*AYƏ 9:*

﴿يَا مُوسَى إِنَّهُ أَنَا اللَّهُ الْعَزِيزُ الْحَكِيمُ﴾

**“Ey Musa! Həqiqətən, bu Mənəm, yenilməz və hikmət sahibi olan Allah!”**

**Nöqtələr**

●Quranda 136 dəfə həzrət Musanın adı çəkilir, 34 surədə onun əhvalatı zikr olunur, 900-dək ayədə Bəni-İsrail haqqında danışılır.

●Həzrət Musa hamilə zövcəsi ilə Mədyəndən Misirə gedirdi. Bir tərəfdən gecə, soyuq və külək, digər tərəfdən zövcəsinin hamiləliyi Musanı səy göstərməyə vadar edirdi. Hazırkı ayələrdə həmin əhvalat yada salınır.

●Ehtimallar nəzərdən keçirildikdə məlum olur ki, “odda” dedikdə həzrət Musa, “od ətrafında” dedikdə isə onun ailəsi və ya müqəddəs torpaqdakı peyğəmbərlər nəzərdə tutulur.

### *QURANDA ATƏŞ*

–İblis atəşlə fəxr etdi.[1]

–Kafir odla cəzalandırılar.[2]

–İbrahim od içində salamat qaldı.[3]

–Musa oda doğru hərəkət etdi və peyğəmbər oldu.[4]

–Zülqərneyn od vasitəsi ilə dəmiri əridib sədd çəkdi.[5]

**Bildirişlər**

1. Musanın əhvalatı yada salınası bir əhvalatdır və ibrət səbəbidir. Bu əhvalatı unutmaq olmaz.

---

[1] Əraf”, 12.
[2] “Ğaşiyə”, 4.
[3] “Ənbiya”, 69.
[4] “Nəml”, 7, 8.
[5] “Kəhf”, 96.

2. Bəzən ailə-övlada yardım zamanı xüsusi lütflər peyda olur.
3. Kişi zövcəsinin işlərini idarə etməyə məsuldur.
4. Peyğəmbərlərin həyat tərzi adi olmuşdur.
5. Biz zahirə əsasən hərəkət edirik. Gizli lütflər Allahın işidir.
6. Musanın Allahla söhbəti, peyğəmbərlik göstərişi, möcüzələrin nümayişi, həmin məntəqəyə digər peyğəmbərlərin göndərilməsi bərəkət rəmzidir.
7. Allahın peyğəmbərlərə nidalarını təxəyyül saymayaq.
8. Peyğəmbərlərin göndərilməsi Allahın rübubiyyət şənlərindən-dir.
9. Rübubiyyət yenilməzlik və hikmətlə şərtlənir.

*AYƏ 10:*

﴿وَأَلْقِ عَصَاكَ فَلَمَّا رَآهَا تَهْتَزُّ كَأَنَّهَا جَانٌّ وَلَّى مُدْبِرًا وَلَمْ يُعَقِّبْ يَا مُوسَى لَا تَخَفْ إِنِّي لَا يَخَافُ لَدَيَّ الْمُرْسَلُونَ﴾

**“Əsanı at! Musa əsanı atdı, əsanın kiçik ilan kimi atılıb düşdüyünü görəndə arxa çevirib qaçdı, geri dönmədi. (Biz ona dedik:) «Ey Musa! Qorxma, peyğəmbərlər Mənim hüzurumda qorxmazlar.»”**

*AYƏ 11:*

﴿إِلَّا مَن ظَلَمَ ثُمَّ بَدَّلَ حُسْنًا بَعْدَ سُوءٍ فَإِنِّي غَفُورٌ رَّحِيمٌ﴾

**“(Qorxmalıdır) yalnız sitəm edən kəs. (Amma) sonra pisliyin əvəzinə yaxşı bir iş görmüş olarsa, həqiqətən, Mən bağışlayan və mehribanam.”**

**Nöqtələr**

●“Cannun” dedikdə ya kiçik ilan (əsa öncə həmin şəklə düşdü), ya da kiçik ilan tək sürətli böyük ilan nəzərdə tutulur.

●“İlla mən zələmə” (“yalnız zülm edən kəs”) təbirinin ünvanı ilə bağlı müxtəlif ehtimallar var. Daha üstün bir ehtimala əsasən, peyğəmbər olmayanlar qorxur və sitəmdən sonra yaxşı iş görənlər istisnadır. Allah bağışlayan və mehriban olduğu üçün onların da qorxusu aradan götürülür.

●Qorxu iki növdür: heyvani və mənəvi. Ayədə heyvani qorxu nəzərdə tutulmuşdur. Amma ilahi məqam qarşısında qorxudan ibarət olan mənəvi qorxu digər ayələrdə qeyd olunur.

**Bildirişlər**

1. Səmavi nida əlamətlərə malik olmalıdır ki, təsir göstərsin.
2. Möcüzə adi vasitələrlə həyata keçir.

3. Başqalarını doğru yola çağırışdan öncə yetərincə elm, təcrübə və kamala malik olmaq lazımdır. (Musa öncədən möcüzə ilə tanış edilir ki, Fironun sarayında arxayın danışsın.)

4. Peyğəmbərlər Allah tərəfindən tərbiyə olunur, onlara əmr və qadağalar ünvanlanır.

5. Allahı öz yanında, özünü Allah qarşısında görən insan qorxmur.

6. "Xain xoflu olar" deyiblər. Zülm edən kəs günahını yaxşılıqla əvəz edənədək qorxmalıdır. Çünki Allah bağışlayandır.

7. Günahın yaxşılığa çevrilməsi onun yuyulmasından və ya bağışlanmasından fərqli bir işdir. Məsələn, günahkar günah vasitələrini xeyirxahların ixtiyarına verməklə günahı yaxşılığa çevirir.

8. İnsan xeyir iş görüb günahı aradan qaldırdıqdan sonra bağışlanır.

### *AYƏ 12:*

﴿وَأَدْخِلْ يَدَكَ فِي جَيْبِكَ تَخْرُجْ بَيْضَاء مِنْ غَيْرِ سُوءٍ فِي تِسْعِ آيَاتٍ إِلَى فِرْعَوْنَ
وَقَوْمِهِ إِنَّهُمْ كَانُوا قَوْمًا فَاسِقِينَ﴾

**"Əlini qoynuna sal, eybsiz, ağ və parlaq şəkildə xaric edərsən. (Bu möcüzə) Firon və onun günahkar qövmünə göndərilmiş doqquz möcüzə sırasındadır."**

### *AYƏ 13:*

﴿فَلَمَّا جَاءتْهُمْ آيَاتُنَا مُبْصِرَةً قَالُوا هَذَا سِحْرٌ مُّبِينٌ﴾

**"Elə ki, açıq-aydın ayə və möcüzələrimiz onların sorağına gəldi, dedilər: «Bu, aşkar bir sehrdir.»"**

**Nöqtələr**

●Doqquz möcüzə dedikdə Fironun hüzurunda həzrət Musanın aşkar etdiyi möcüzələr nəzərdə tutulur. Əslində həzrət Musanın daha çox möcüzəsi olmuşdur. Belə ki, hər möcüzəni iki möcüzə saymaq olar. Çünki əsanın əjdahaya dönməsi bir möcüzədir, əsa halına qayıtması ikinci möcüzə. Musanın doqquz möcüzəsini nəzərdən keçirək: parlaq, bəyaz əl; əsanın əjdahaya dönməsi; düşmənləri sarsıdan tufan; çəyirtkələrin əkin sahələrini məhv etməsi;

əkin sahələrinin yanması; qurbağaların hücumu; damağ xəstəliyi və ya Nil suyunun qan rəngində olması; qıtlıq və quraqlıq; dəryanın parçalanması.[1]

–Musanın digər möcüzələrini yada salaq: Daşdan 12 bulaq çıxması[2]; “Mənn” və “səlva” adlı nemətlər[3].

●İmam Sadiq (ə) buyurmuşdur: “Ayədə “eyibsiz” dedikdə Musanın əlindəki bəyazlığın xəstəliklə bağlı olmadığı bildirilir.”[4]

**Bildirişlər**

1. Qəzəb və mərhəmət, qorxu və ümid birlikdə səmərə verir. (Bəyaz əlin kənarında əjdaha!)
2. Bəziləri üçün bir dəlil, bir xəbərdarlıq, bir möcüzə bəs etmir.
3. Kafirlər bir tərəfdən möcüzə istəyir, digər tərəfdən möcüzələri sehr-cadu adlandırırdılar.

### *AYƏ 14:*

﴿وَجَحَدُوا بِهَا وَاسْتَيْقَنَتْهَا أَنفُسُهُمْ ظُلْمًا وَعُلُوًّا فَانظُرْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُفْسِدِينَ﴾

**“Qəlblərində əmin olsalar da, zülm və lovğalıqdan onu inkar etdilər. Bax gör günahkarın sonu necədir.”**

**Nöqtələr**

●Əbu Ömər Zübeyri küfrün Quranda bəyan olunmuş növləri haqqında İmam Sadiqə (ə) sual verdi. İmam buyurdu: “Küfrün beş növü var; biri budur ki, insan qəlbən inanıb tanıdığı halda yenə inkar edir.” Sonra imam hazırkı ayəni oxudu.”[5]

**Bildirişlər**

1. İnkar fəsada zəmin yaradır.
2. Elm və əminlik təqva ilə müşayiət olunmadıqda səmərə vermir.
3. Bir çox kafirlər qəlbən inandığı halda zülm və təkəbbür səbəbindən boyun əymirdi.
4. Tarix və onun mütaliəsini ibrət vasitəsi qərar verin.
5. Günahkarların sonu süqut və fənadır.

---

[1] Əraf”, 133; Əraf”, 130; “Bəqərə”, 50.
[2] “Bəqərə”, 60.
[3] “Bəqərə”, 57.
[4] “Təfsire-Nurus-səqəleyn”.
[5] “Kafi”, c. 2, s. 389.

*AYƏ 15:*

﴿وَلَقَدْ آتَيْنَا دَاوُودَ وَسُلَيْمَانَ عِلْمًا وَقَالَا الْحَمْدُ لِلَّهِ الَّذِي فَضَّلَنَا عَلَى كَثِيرٍ مِّنْ عِبَادِهِ الْمُؤْمِنِينَ﴾

**“Həqiqətən, Davud və Süleymana (xüsusi bir) bilik əta etdik. Onlar dedilər: «Həmd-səna bizə bir çox mömin bəndələrindən üstünlük vermiş Allaha məxsusdur.»”**

**Nöqtələr**

●Həzrət Davud və Süleymana verilmiş elm dedikdə ya mühakimə elmi[1]; ya quşlarla danışıq elmi[2], ya zireh hazırlamaq elmi[3] nəzərdə tutula bilər. Amma bu söz ümumi şəkildə, yəni “ölkəni idarəçilik elmi” kimi mənalandırılsa daha düzgün olar.

●**Sual:** Nə üçün Allah bəzi bəndələrinə xüsusi nemətlər əta edir? Məgər bu iş ədalətlə bir araya sığırmı?

**Cavab:** Əvvəla, ədalət bu deyil ki, hamıya eyni dərəcədə əta olunsun. Məgər müəllimin hər şagirdə müəyyən qiymət verməsi və ya həkimin hər xəstəyə müəyyən bir nüsxə yazması zülümdür? İkincisi, xüsusi nemətlər müqabilində xüsusi məsuliyyətlər nəzərdə tutulur. Üçüncüsü, Allahın bizə borcu yoxdur ki, nə istəyiriksə onu da əta etsin. Dördüncüsü, Allahın lütfləri insan və ya cəmiyyətin ərsəyə gətirdiyi şəraitə münasib olur. Bir qrup insan ixlas, səy, elm, tədbir, qənaət, ədalət, doğru danışıqla xüsusi lütf və nemətlər üçün zəmin hazırlayır.

Bəzən də valideynin müəyyən əməllərinin mükafatı xüsusi lütf şəklində onun nəslinə əta olunur. Məsələn, Musa və Xızrın əhvalatında Allah bu iki peyğəmbərə əmr edir ki, altında iki yetim uşağa məxsus xəzinə olan divarı təmir etsinlər. Həmin uşaqların atası saleh olduğundan körpələrin gələcəkdə bu xəzinədən istifadə etməsi nəzərdə tutulur.[4]

## *ALLAHIN XÜSUSİ TƏLİMLƏRİ*

●Allah-təala xüsusi fərdlərə xüsusi elmlər əta edir. Bu qəbildən olan elmlər Quranda xatırlanır. Məsələn:

1. Adəmə bütün əşyaların elmi əta olunur.[5]
2. Xızra batini elmlər və təfsir elmi verilir.[6]

---

[1] “Sad”, 20.
[2] “Nəml”, 16.
[3] “Ənbiya”, 80.
[4] “Kəhf”, 82.
[5] “Bəqərə”, 31.
[6] “Kəhf”, 66.

3. Yusifə təbir elmi əta olundu.[1]

4. Davuda dəmirçilik və zireh düzəltmək elmi öyrədildi.[2]

5. Süleymana quşların dili təlim olundu.[3]

6. Süleymanın köməkçisi ona verilmiş elmlə sultan taxtını bir ölkədən o birinə gətirdi.[4]

7. Taluta hərb elmi öyrədildi.[5]

8. Həzrət Peyğəmbər (s) və digər peyğəmbərlərə qeyb elmləri əta olundu.[6]

**Bildirişlər**

1. Peyğəmbərlərin elmi ilahi elmdir və Allah tərəfindən əta olunur.
2. Fərdlərin hörmətini və şənini hifz edək. (Ayədə öncə atanın, sonra övladın adı çəkilir.)
3. İlahi nemətlər arasında elm neməti fərqləndirilir.
4. Elm saleh insanların əlində dəyərlidir.
5. Şükür üçün ən yaxşı söz "əlhəmdulillah" zikridir.
6. Elm üstünlük meyarlarından biridir.
7. Allahın bəzi bəndələri Davud və Süleymandan da üstündür.
8. Heç bir məqamda özümüzü başqalarından üstün bilməyək.

***AYƏ 16:***

﴿وَوَرِثَ سُلَيْمَانُ دَاوُودَ وَقَالَ يَا أَيُّهَا النَّاسُ عُلِّمْنَا مَنطِقَ الطَّيْرِ وَأُوتِينَا مِن كُلِّ شَيْءٍ إِنَّ هَذَا لَهُوَ الْفَضْلُ الْمُبِينُ﴾

**"Süleyman Davuda varis oldu və dedi: "Ey xalq! Bizə quşların dili öyrədildi və hər şeydən əta olundu. Şübhəsiz, bu, aşkar bir imtiyazdır."**

**Nöqtələr**

●Bu ayədə irs dedikdə elm və peyğəmbərliyə yox, var-dövlət və hakimiyyətə varislik nəzərdə tutulur. Çünki peyğəmbərlik ötürülmür və peyğəmbər elmi çalışmaqla əldə olunmur. Bir hədisdə buyurulur ki, peyğəmbərlər irs qoymur. Bir vaxt Əhli-beytin (ə) haqqını pozanlar bu hədisə istinad edib Peyğəmbərdən (s) qalmış Fədək bağını həzrət Fatimədən (ə) aldılar. Amma uyğun hədis hazırkı ayə ilə bir araya sığmadığından məqbul deyil. Həzrət Fatimə (ə) öz haqqının müdafiəsinə qalxdığı vaxt birinci xəlifəyə hazırkı ayəni oxudu.[7] "Təfsiri-

---

[1] "Yusuf", 37.
[2] "Ənbiya", 80.
[3] "Nəml", 16.
[4] "Nəml", 40.
[5] "Bəqərə", 247.
[6] "Cinn", 26, 27.
[7] "Təfsire-Nurus-səqəleyn".

nümunə”də “Sireyi-Hələbidən” nəql olunur ki, Fatimənin (s) sözləri Əbu-Bəkrə təsir etdi və o, Fədək bağının sənədini Fatiməyə (s) qaytarıb ağladı. Amma Ömər həmin sənədi ikinci dəfə geri alıb cırdı!

●Həzrət Əli (ə) buyurur: “Mən Allahın ətası ilə quşların, quruda və suda yaşayan bütün canlıların dilini bilirəm.”[1]

**Bildirişlər**

1. İrs hökmünün uzun keçmişi var.
2. Peyğəmbərlərin elmi ilahi elmdir.
3. İlahi nemətləri dilə gətirin.[2]
4. Quşların şüuru və nitq gücü var.
5. Elm və imkanlarımızı özümüzdən yox, Allahdan bilək.
7. İman və təvəkkül insanın imkanlı olmasına zidd deyil.
8. İlahi nemətləri öz ləyaqətimiz yox, Allahın fəzli sayaq.

### *AYƏ 17:*

﴿وَحُشِرَ لِسُلَيْمَانَ جُنُودُهُ مِنَ الْجِنِّ وَالْإِنسِ وَالطَّيْرِ فَهُمْ يُوزَعُونَ﴾

**“Süleyman üçün cin, insan və quşlardan qoşun toplandı. Onlar nizam pozulduqdan sonra saxlanırdılar.”**

**Nöqtələr**

●“Vəz” kökündən olan “yuzəun” sözü “tutub saxlamaq” mənasını bildirir. Bu söz qoşuna aid olduqda belə mənalandırılır ki, pərakəndəliyin qarşısını almaq üçün qoşunun qabağı saxlanılır, arxadakılar dəstəyə qatılır.[3] “İyza dedikdə qüvvələrin ağıllı bölgüsü və hər döyüşçünün bir xəttə dayanıb öz yerini tutması başa düşülür.[4]

●Bu ayədə yalnız misal olaraq cin və quşların adı çəkilir. Əslində külək, bulud və başqa vasitələr də Süleymanın ixtiyarında idi.

●Qurani-Kərimdə dəfələrlə cin mövzusuna toxunulur. Hətta surələrdən biri “Cinn” adlanır. Burada cinlərin bəzi xüsusiyyətlərinə işarə edək:

–Cin şüurlu, Allah tərəfindən müraciət olunan bir mövcuddur.[5]

–Cinlərin bəzisi mömin, bəzisi kafirdir.[6]

–Onların kişisi və qadını var, doğub törəyirlər, təbiətən şəhvətləri var.[7]

–Cinlər Süleyman üçün üzgüçülük və bənnalıq edirdilər.[1]

---

[1] “Təfsire-kənzud-dəqaiq”.
[2] “Zuha”, 11.
[3] “Təfsiri-nümunə”.
[4] “Əl-təhqiq fi kəlimatil-Quran”.
[5] “Ənam”, 130.
[6] “Cinn”, 11,14.
[7] “Ər-Rəhman”, 56.

**Bildirişlər**

1. Qoşun Süleymana nümayiş olunurdu.
2. İnsanda cin və quşları özünə tabe etmək qüdrəti var.
3. Bəzi peyğəmbərlərin hökuməti olmuşdur.
4. Cin insana kömək edə bilər.
5. Peyğəmbərlər təkcə insanlara hökm etmirlər.
6. Nizam-intizam istənilən bir sahədə dəyər sayılır. Amma qoşunda nizam-intizam xüsusi ilə zəruri və dəyərlidir.
7. İlahi qoşun üçün təlim və hazırlıq bir zərurətdir.
8. Süleymanın elm və biliyi böyük imkanlar əldə etmək və qüvvələrin səfərbərliyi üçün vasitə və müqəddimə idi.

***AYƏ 18:***

﴿حَتَّى إِذَا أَتَوْا عَلَى وَادِي النَّمْلِ قَالَتْ نَمْلَةٌ يَا أَيُّهَا النَّمْلُ ادْخُلُوا مَسَاكِنَكُمْ لَا يَحْطِمَنَّكُمْ سُلَيْمَانُ وَجُنُودُهُ وَهُمْ لَا يَشْعُرُونَ﴾

**“(Süleyman öz qoşunu ilə hərəkət edirdi) nəhayət, qarışqalar vadisinə çatdılar. Bir qarışqa dedi: “Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və onun qoşunu bilmədən sizi tapdamasın.”**

**Nöqtələr**

“Nəml” sözü lüğətdə kiçik ayaqlarla çox hərəkət mənasını bildirir.[2]

“Nəmlətun” sözü yazıdakı tənvinə (ərəb yazısında işarə) görə böyük və başçı qarışqa kimi mənalandırıla bilər. Belə görünür ki, qarışqaların həyatında müdiriyyət mövcuddur. Amma uyğun tənvin qarışqanın qeyri-müəyyənliyini də anlada bilər. Bu halda ayə belə mənalandırılar ki, hətta tanınmayan bir şəxs canıyananlıqla xəbərdarlıq etsə, bu xəbərdarlıqa diqqətli olaq.

**Bildirişlər**

1. Heyvanlar öz şüurları ilə yaşayış məntəqəsi seçir.
2. Heyvanlar arasında da danışıq, əmr və qadağalar mövcuddur.
3. Qarışqalar arasında həm komandanlıq, həm xəbərçilik, həm də itaət mövcuddur.
4. Heyvanlar şüurludurlar, xeyir-zərəri anlayıb bir-birlərinə xəbər verirlər.
5. Ehtimal olunan zərərin dəf edilməsi hissi heyvanlarda da var.
6. Təhlükə hiss etdikdə öz həmnövünə xəbərdarlıq etməyən kəs qarışqadan da əskikdir.
7. Yol gedərkən diqqətli olaq ki, qarışqalar ayaq altda qalmasın.

---

[1] “Sad”, 37.

[2] “Ət təhqiq fi kəlimatil-Quran”.

8. Peyğəmbərlərin məişət həyatı başqalarından fərqlənmirdi.
9. Rəhbərin fəsadı xalqın fəsadı üçün bir müqəddimədir.
10. Qarışqalar insanlarla, hətta onların gördüyü işlərlə tanışdır.
11. Allahın övliyaları bilərəkdən hətta qarışqalara zərər vurmur. Qarışqalar həzrət Süleymanın ədalət və təqvasından xəbərdar idilər və bilirdilər ki, o bilərəkdən qarışqalara da zülm etməz.

### *AYƏ 19:*

﴿فَتَبَسَّمَ ضَاحِكًا مِّن قَوْلِهَا وَقَالَ رَبِّ أَوْزِعْنِي أَنْ أَشْكُرَ نِعْمَتَكَ الَّتِي أَنْعَمْتَ عَلَيَّ
وَعَلَى وَالِدَيَّ وَأَنْ أَعْمَلَ صَالِحًا تَرْضَاهُ وَأَدْخِلْنِي بِرَحْمَتِكَ فِي عِبَادِكَ الصَّالِحِينَ﴾

**“O (Süleyman) qarışqanın bu sözünə gülümsəyib dedi: “Pərvərdigara! Mənə ilham (tövfiq) ver ki, mənə və valideynimə bəxş etdiyin nemətə görə şükür edim, sənin bəyəndiyin saleh işi görüm. Öz rəhmətinlə məni saleh bəndələrin zümrəsinə qat.”**

**Nöqtələr**

●16-cı ayədə həzrət Süleymanın quşların dilini bildiyi bəyan olundu. Bu ayədən məlum olur ki, quşların dili yalnız nümunə üçün göstərilmişdir. Çünki həzrət qarışqaların da danışığını başa düşürdü.

“İyza” tövfiqdən (ilahi yardımdan) üstün, ilhama bənzər bir lütfdür. Oxşar təbirlə “ənbiya” surəsinin 73-cü ayəsində də rastlaşırıq.

●Saleh iş görmək bəs etmir, salehlər cərgəsinə qatılmaq mühümdür. Çünki:

–Bəzən saleh bir iş görən insan nəfs baxımından saleh olmur, riya, qürur, eqoistlik kimi xəstəliklərə düçar olur.

–Bəzən əməl saleh olsa da, çaşqınlıq səbəbindən aqibət xeyir olmur.

–Bəzən əməl saleh olsa da, insan tənhalığa çəkilib Allah bəndələrinə qatılmaq istəmir.

**Bildirişlər**

1. Rəhbərlik və müdiriyyət üsullarından, şərtlərindən biri qəlbigenişlikdir. Həzrət Süleyman qarışqanın “bilmədən” sözünü eşitsə də, əhəmiyyət verməyib gülümsəyir.
2. Tənqid və doğru sözü istənilən bir şəxsdən qəbul edin. (Süleyman qarışqanın sözünü bəyəndi.) Tənqidin qəbulu bir dəyərdir.
3. Allah Öz övliyalarına xüsusi tərbiyə verir. Süleymana misilsiz məqam və səltənət vermiş Allah qarışqanın sözü ilə onun vücudunda tarazlıq yaradır.
4. O zaman gülüb danışa bilərik ki, hətta qarışqalar belə bizim ədalətimizə ümid etsin.
5. Peyğəmbərlərin gülüşü qəhqəhə yox, təbəssümdür. Gülmək tutduğu halda Süleymanın çöhrəsində təbəssüm görünür.

6. Süleyman qarışqanın sözlərini anladı və ətrafındakılara xəbərdarlıq etdi.

7. Dua təkcə çətin məqamlar üçün nəzərdə tutulmayıb. Peyğəmbərlər əzəmət və qüdrət zirvəsində olduqları vaxt da dua edirdilər.

8. Şükür üçün Allahdan tövfiq istəyək.

9. İnsan aldığı nemətlərə görə şükür etməli, gələcək məsuliyyətlər qarşısında saleh əməl, Allahın razılığı, salehlərə qatılmaq barədə düşünməlidir.

10. Övladlar həm özlərinə, həm də valideynlərinə əta olunmuş nemətlər üçün şükür etməlidirlər.

11. Şükür təkcə dildə olmur. Saleh əməl, nemətlərdən düzgün istifadə də şükürdür.

12. Süleymanın böyük qoşunu, güclü hakimiyyəti olsa və heyvanların dilini bilsə də, o daha çox ləzzət və daha çox qüdrət ardınca qaçmır, saleh əməl haqqında düşünür.

13. Hakimlər saleh əməl üçün dua etməli və çalışmalıdırlar.

14. Yalnız Allah bəyənən iş salehdir.

15. Dəyərli iş təkcə xalqın yox, Allahın da razılığına səbəb olur.

16. Salehlər hökumətinin ən ali məqsədi Allahın razılığıdır.

17. Peyğəmbərlər də ilahi yardımlara ehtiyaclıdırlar.

18. Rifah və ləzzətə görə günahkarlar arasında yaşamaq yox, paklıq üçün salehlər cəmiyyətində ömür sürmək dəyərlidir.

19. Bu günkü imkanlarınızı və gücünüzü ilahi rəhmətə çatmaq nişanəsi saymayın və təkamül üçün dua edin.

20. İnsanın imkanları onun gördüyü işlərin yox, ilahi mərhəmətin nəticəsidir.

21. Hər bir insan, hətta peyğəmbərlər istənilən bir şəraitdə ilahi mərhəmətə üz tutmalıdırlar.

22. Tənhalığa çəkilmək qadağandır.

### *AYƏ 20:*

﴿وَتَفَقَّدَ الطَّيْرَ فَقَالَ مَا لِيَ لَا أَرَى الْهُدْهُدَ أَمْ كَانَ مِنَ الْغَائِبِينَ﴾

**"(Süleyman) quşların vəziyyəti ilə maraqlandı. (Hud-hudu görməyib) dedi: "Nə üçün hud-hudu (şanapipiyi) görmürəm? (Buradadır görmürəm,) yoxsa burada deyil?"**

### *AYƏ 21:*

﴿لَأُعَذِّبَنَّهُ عَذَابًا شَدِيدًا أَوْ لَأَذْبَحَنَّهُ أَوْ لَيَأْتِيَنِّي بِسُلْطَانٍ مُّبِينٍ﴾

**"Mənə aydın bir dəlil gətirməsə, hökmən onu möhkəm cəzalandıracaq, ya da başını kəsəcəyəm."**

## *AYƏ 22:*

﴿فَمَكَثَ غَيْرَ بَعِيدٍ فَقَالَ أَحَطتُ بِمَا لَمْ تُحِطْ بِهِ وَجِئْتُكَ مِن سَبَإٍ بِنَبَإٍ يَقِينٍ﴾

**“Çox çəkmədi ki (hud-dud gəldi və) dedi: “Bir şey öyrənmişəm ki, (bir belə qüdrətinə baxmayaraq) sən ondan xəbərsizsən. Sənin üçün Səbadan mühüm və doğru bir xəbər gətirmişəm.”**

**Nöqtələr**

●Bəziləri bildirirlər ki, ayədə haqqında danışılan hud-hud quşu xüsusi bir quşdur. Onun xüsusiliyi insanları və insanların əqidələrini tanımasıdır. Bu barədə növbəti ayələrdə danışacağıq.[1]

●Əbu Hənifə İmam Sadiqdən (ə) soruşdu: “Nə üçün həzrət Süleyman yalnız hud-hud haqqında soruşdu?” İmam buyurdu: “Çünki biz şəffaf qabda yağı gördüyümüz kimi hud-hud yerin dərinliyində suyu görürdü.”[2]

●Bəziləri hud-huda vəd olunan cəzaları sadalamışlar: cütündən ayrılıq, qanadlarının yolunması, gün altında saxlamaq, saraydan rədd olunma, düşmənlə bir qəfəsdə yerləşdirilmə.[3]

**Bildirişlər**

1. Tabeçilikdə olanları yoxlamaq, onların işini nəzərdən keçirmək, vəziyyətləri ilə maraqlanmaq İslam, əxlaq, toplum, tərbiyə və idarəçilik üsullarındandır.
2. Böyük işlər diqqətinizi kiçik işlərdən yayındırmasın.
3. Tələsik mühakimə yürüdüb tabeçiliyinizdə olanları ittiham etməyin. Onların siz bilmədiyiniz üzrləri ola bilər.
4. Rəhbərlik üçün iti baxış, diqqət və hökm lazımdır.
5. Hakim və qazinin xüsusi səciyyələri olmalıdır: məhəbbət və diqqət, təvazö, günahkara qarşı qətiyyət, müttəhimə fürsət vermək.
6. Qüvvələrə yaxından və uzaqdan dəqiq nəzarət təşkilati işlərdə zəruri şərtdir. Necə ki, səbəbsiz yerə göstərişdən çıxmaq və tapşırılmış mövqeyi tərk etmək bağışlanmaz günahdır.
7. Azğın heyvanı tənbeh etmək olar.
8. Heyvan tənbehi dərk edir.
9. Bir quşun yerində tapılmaması bu qədər ciddi qarşılanırsa, daim öz yerində olmayan bizlərin işi necə olacaq?!
10. Peyğəmbərlər həm qanun gətirir, həm də onu icraya qoyur.
11. Günahkarları cəzalandırarkən çıxılmaz vəziyyətə düşməmək üçün müxtəlif cəzalar nəzərdə tutulmalıdır.

---

[1] “Təfsire-Fürqan”; “Təfsire-fi-Zilal”.
[2] “Təfsire-Məcməül-bəyan”.
[3] “Təfsire-Ruhul-Məani”, “Təfsire-kənzud-dəqaiq”.

12. Həm qətiyyət göstərmək, həm də üzrü qəbul etmək lazımdır.

13. Müdiriyyət və təşkilatçılıqda səhlənkarlıq qadağandır. (Üç cümlədə "lam" hərfinin mövcudluğu qətiyyət göstəricisidir.)

14. Nizamı qorumaq və azğınlara dərs vermək üçün kiçik günaha ağır cərimə qoya bilərik.

15. Müttəhimi özünü müdafiə etmək imkanından məhrum etməyin.

16. Heyvanların elə bir şüuru var ki, öz işləri üçün dəlil gətirə bilirlər.

17. Məntiq və dəlil qarşısında hətta Süleyman hud-huda təslim olur.

18. Təşkilatda hər bir iş və məsuliyyət üçün hökm və icazə lazımdır.

19. Hesabı təmiz olan kəs təftişdən qorxmur.

20. Heyvan insanın yetişmədiyinə yetişə bilər.

21. Gəzinti və səyahət yeni məlumatlar əldə etmək üçün vasitədir.

22. Söz azadlığı salehlər hökumətinin səciyyələrindəndir.

23. Elm və bilik yaşdan, cinsdən və formadan asılı deyil.

24. Peyğəmbərlər də Allahın müdiriyyətinə tabedir. Süleyman "mənə hər şey verilib" dedikdə quş ona "mən sənin bilmədiyin bir şeyi bilirəm" deyə cavab verir.

25. Peyğəmbər hökumətində yaltaqlıq, qorxu mövcud deyil.

26. Hökumət başçıları və məsullar bir qrupun verdiyi məlumatla kifayətlənməməlidirlər. (Hud-hud sultana məlumat gətirirdi.)

27. Məlumat verərkən qəti və təsdiqlənmiş xəbərləri bəyan edin.

28. Hökumətin xaricdən məlumat toplamaq üçün fərdlər və ya təşkilata ehtiyacı var. (Əlbəttə, bu işdə məqsəd casusluq yox, müdafiə hazırlığı və ya doğru yola dəvətdir.)

29. Xəbər gətirən böyük və ya kiçik insan, həm də heyvan ola bilər. Əsas məsələ xəbərin qəti olmasıdır.

30. Hökumət məsulları yalnız qəti xəbərlərə istinad etsinlər.

*AYƏ 23:*

﴿إِنِّي وَجَدتُّ امْرَأَةً تَمْلِكُهُمْ وَأُوتِيَتْ مِن كُلِّ شَيْءٍ وَلَهَا عَرْشٌ عَظِيمٌ﴾

**"(Hud-hud izah etdi:) «Həqiqətən, mən xalqa hakimlik edən (Bilqeys adlı) bir qadın gördüm. O hər şeyə malikdir və böyük bir taxtı var.»"**

*AYƏ 24:*

﴿وَجَدتُّهَا وَقَوْمَهَا يَسْجُدُونَ لِلشَّمْسِ مِن دُونِ اللَّهِ وَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ أَعْمَالَهُمْ فَصَدَّهُمْ عَنِ السَّبِيلِ فَهُمْ لَا يَهْتَدُونَ﴾

**"Mən qadın və onun qövmünün Allah əvəzinə günəşə səcdə qıldığını gördüm. Şeytan onların nəzərində əməllərini bəzəyib və onları yoldan azdırıb, beləliklə hidayət olmurlar."**

**Bildirişlər**

1. Bəzi heyvanların yüksək anlağı var. Hud-hud qadın və kişi, taxt-tac, hökumət və mülkiyyət, tövhid və şirk, günəş və səcdə, şeytan və şeytanın bərbəzəyi, haqq və batil, hidayət və zəlalət kimi məvhumları anlayırdı.

2. Başqalarının sözünü dinləmək ədəb göstəricisidir və müdiriyət şərtlərindəndir. Sözü deyən heyvandırsa da dinləmək lazımdır.

3. Qadın hakim ola bilər. Amma qadının cəmiyyətə hakimliyi hətta quşa da təəccüblü görünür.

4. Həzrət Süleyman öncə bütün yer üzünə hakim idi.

5. Hökumət təşkilinin tarixi keçmişi var.

6. Azğınlıq amilləri müxtəlifdir: azğın rəhbər, bər-bəzək, imkan və rifah, şeytan və onun bər-bəzəyi.

7. İnsana verilən ilahi nemətlər onun Allaha yaxın olduğunu göstərmir. (Allah həm Süleymana, həm kafir qadına əta edir. Əvvəlki ayələrdə Süleymana, bu ayədə isə Bilqeysə hər şey verildiyi bəyan olunur.)

8. Allahın nemətləri salehlərin əlində aşkar fəzl, başqalarının əlində taxt-tacdır.

9. İnsan fitrət baxımından pərəstişkardır. Haqqa pərəstiş etməyən insan batil sorağınca gedir.

10. Xalq adətən öz hakimlərinin dinini qəbul edir.

11. Hər müşkülü onun əhlinə deyin. (Azğınlıq və şirk xəbərləri Süleymana çatdırılmalıdır.)

12. Həm həzrət İbrahimin, həm də həzrət Süleymanın dövründə günəşə pərəstiş edilmişdir.

13. Xalqı azdırmaq üçün ən təsirli vasitə onların çirkin işini bəzəməkdir.

14. İnsanların mənfi keçmişi onların gələcəkdə büdrəyəcəyinə dəlil ola bilməz. (Bilqeys və onun qövmü öncə yolunu azmışdısa da, sonradan hidayət oldu.)

15. Məlumat verərkən əsas xəbəri söyləyin. Onu araşdırmaq mütəxəssislərin işidir. (Hud-hudun dedikləri həqiqət idi. Amma o, bu xəbəri təhlil etdikdə xilafa yol verdi.)

***AYƏ 25:***

﴿أَلَّا يَسْجُدُوا لِلَّهِ الَّذِي يُخْرِجُ الْخَبْءَ فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَيَعْلَمُ مَا تُخْفُونَ وَمَا تُعْلِنُونَ﴾

**“(Şeytan insanların əməllərini ona görə bəzəmişdir ki,) onlar göylərin və yerin görünməyənlərini üzə çıxaran, sizin gizli və aşkar əməllərinizi bilən Allaha səcdə etməsinlər.”**

*AYƏ 26:*

﴿اللَّهُ لَا إِلَهَ إِلَّا هُوَ رَبُّ الْعَرْشِ الْعَظِيمِ﴾

**"Bir Allah ki, Ondan savay məbud yoxdur, böyük ərşin Rəbbidir."**

**Nöqtələr**

●«Xəb» sözü "örtülü", "gizli" mənasını bildirir. Həzrət Əli (ə) buyurur: "İnsanın dəyər və şəxsiyyəti dilinin altında gizlənib."[1]

*Nə qədər ağzını açmayıb insan,*
*Bilinməz yaxşıdır, yoxsa ki yaman.*

●Bitki örtüyünün cücərməsi və yağış yağması göylərdə və yerdə məxfi qalanların üzə çıxarılması nümunəsidir. Üzüm salxımı əslində bir üzüm toxumunda məxfidir. İlahi qüdrət bu salxımı toxumun köksündən üzə çıxarır. İstənilən bir qüvvənin fəallaşması bu ayəyə nümunə ola bilər.

**Bildirişlər**

1. Əməlləri bəzəməkdə şeytanın məqsədi budur ki, insanlar Allaha səcdə etməsinlər.
2. Allah qarşısında səcdə etməyəni heyvan da qınayır.
3. Səcdə allahpərəstliyin təzahürüdür.
4. Təbii amillər ilahi qüdrətin nümayişi üçün vasitədir. Suyun, torpağın, işığın rolu olsa da, əsil üzə çıxaran Allahdır.
5. Aləm Allahın hüzurundadır.

Məxfi qalmamışdır bir zərrə Ondan,
Hazırdır önündə aşkar və pünhan.

6. Allaha səcdəmizin dəlili Onun qüdrəti, elmi, təkliyi, müdiriyyət və əzəmətidir.

*AYƏ 27:*

﴿قَالَ سَنَنظُرُ أَصَدَقْتَ أَمْ كُنتَ مِنَ الْكَاذِبِينَ﴾

**"(Süleyman hud-hudun məlumatını eşitdikdən sonra) dedi: "Tezliklə görəcəyik ki, düz deyirsən, yoxsa yalançılardansan!"**

*AYƏ 28:*

﴿اذْهَب بِّكِتَابِي هَذَا فَأَلْقِهْ إِلَيْهِمْ ثُمَّ تَوَلَّ عَنْهُمْ فَانظُرْ مَاذَا يَرْجِعُونَ﴾

**"Mənim bu məktubumu apar və onlara tərəf at. Sonra bir tərəfə çəkil, gör nə cavab verirlər."**

---

[1] "Nəhcül-bəlağə", h. 140.

**Nöqtələr**

●Peyğəmbərlərin kafirlər və müşriklərlə yazışmalarının tarixi keçmişi var. İslam Peyğəmbəri (s) də kafir və müşriklərə məktubla müraciət etmişdir. O həzrət İran və Rum məmləkətlərinin başçılarına namələr göndərmişdir. Məktub və səfir göndərmək, bu işdə ilk addım atmaq peyğəmbərlərin qaydası olmuşdur və tərbiyəvi məqsəd daşımışdır.

**Bildirişlər**

1. Dərhal inanmaq olmaz. Səbəb olmadan başqalarının sözünü inkar etmək də qadağandır. (Mühüm məsələlərdə bir məlumatla kifayətlənməyin.)
2. Başqalarının iddia və təbliğatına görə araşdırmanı dayandırmayaq. (Hud-hud iddia etdi ki, onun gətirdiyi xəbər həqiqətdir. Amma Süleyman araşdırma lazım gəldiyini bilirdi.)
3. Təkcə günahkarların gətirdiyi xəbər araşdırılmır. İstənilən halda şəkk varsa, araşdırma aparmaq zəruridir.
4. Təsdiq və ya təkzibdən öncə mütləq araşdırma aparılmalıdır.
5. Mənfi nöqtələrdən öncə müsbət nöqtələr qeyd edilməlidir.
6. Bir doğru sözlə sadiqlərə (doğru danışanlara) qatıla bilmərik. Amma bir yalanla yalançılardan oluruq.
7. Quşlar da Allah və Onun övliyalarının əmrini icra edir.
8. Qələm ən mühüm hidayət və maarif vasitələrindəndir.
9. Başqalarının hidayətində və onlarla düzgün rabitə qurmaqda qabağa düşək.
10. Hər hansı məsuliyyət üçün seçim apararkən daha böyük mərifəti və güclü hissi olana üstünlük verilməlidir.
11. İlahi məqsədlərə çatmaq üçün kişi qadına məktub yaza bilər.
12. Əqidə məsələləri ilə bağlı acı xəbər eşitdikdə dərhal cavab vermək və dini qeyrət nümayiş etdirmək lazımdır.
13. Hər hansı məlumat və ya mənanı olduğu kimi çatdırıb əmin olaq.
14. Kənardan və məxfi şəkildə müşahidə ən dərin tanışlıq növüdür.
15. Siyasi və dolaşıq rejimlərə sadəlövh yanaşmaq olmaz.
16. Planlaşdırma gücü müdiriyyət şərtlərindəndir.
17. Başqalarına düşünmək üçün fürsət verək.
18. Ətrafdakıların doğru yola dəvətində tövfiq (ilahi yardım) əldə etmək üçün onların ruhiyyəsini öyrənmək şərtdir.
19. Fərdi tanışlıq bəs etmir, mövcud rejim də nəzərə alınmalıdır.
20. Düşmənin də hal və ruhiyyəsini nəzarətdə saxlamaq lazımdır.

***AYƏ 29:***

﴿قَالَتْ يَا أَيُّهَا المَلَأُ إِنِّي أُلْقِيَ إِلَيَّ كِتَابٌ كَرِيمٌ﴾

**“(Elə ki, hud-hud məktubu Bilqeysə tərəf atdı, Bilqeys təəccübləndi və) dedi: «Ey əyanlar, mənə tərəf çox dəyərli bir məktub atıldı.»”**

*AYƏ 30:*

﴿إِنَّهُ مِن سُلَيْمَانَ وَإِنَّهُ بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ﴾

**“Məktub Süleymandandır və (onun məzmunu) budur: “Bağışlayan və mehriban Allahın adı ilə...”**

*AYƏ 31:*

﴿أَلَّا تَعْلُوا عَلَيَّ وَأْتُونِي مُسْلِمِينَ﴾

**“Özünüzü məndən üstün tutmayın, yanıma gəlib təslim olun.”**

**Nöqtələr**

●Süleymanın məktubunu Bilqeysin hansı səbəbdən dəyərli sayması ilə bağlı müəyyən nöqtələr qeyd olunub: mübarək “Bismillahir-Rəhmanir-Rəhim” cümləsi; məktubun Süleyman tərəfindən möhürlənməsi; məktubun doğru yola çağıran məzmunu; Süleymanın yüksək məqamı (ola bilsin ki, Bilqeys bütün bu nöqtələri nəzərdə tutmuşdur.)

**Bildirişlər**

1. Bilqeysin müxtəlif məlumatları və hadisələri müzakirə etdiyi müşavirləri vardı.
2. Qadın üçün savad bir dəyərdir.
3. Bilqeys iti zehnə və yüksək müşahidəçilik qüdrətinə malik idi.
4. Nəsihət və təbliğə mehribanlıq və mərhəmətlə başlayaq.
5. Hətta bir neçə kəlməlik məktubda “Bismillahir-Rəhmanir-Rəhim” cümləsini qısa yox, tam şəkildə yazaq.
6. Peyğəmbərlər qarşısında təkəbbür Allah qarşısında təkəbbürdür.
7. Təkəbbürdən uzaqlıq haqq qarşısında təslimçilik üçün zəmindir.
8. Məktubları sadə və xülasə şəkildə yazaq. Əlavələri ixtisara salıb məqsədləri aydınlaşdıraq. Məktubda lənət və təhqirdən çəkinək. Həm mərhəmət, həm də ciddiliyə yer verək.

*AYƏ 32:*

﴿قَالَتْ يَا أَيُّهَا الْمَلَأُ أَفْتُونِي فِي أَمْرِي مَا كُنتُ قَاطِعَةً أَمْرًا حَتَّى تَشْهَدُونِ﴾

**“(Bilqeys) dedi: «Ey əyanlar! İşimlə bağlı fikrinizi deyin. (Bu vaxtadək) sizsiz bir iş görməmişəm.»”**

*AYƏ 33:*

﴿قَالُوا نَحْنُ أُوْلُوا قُوَّةٍ وَأُولُوا بَأْسٍ شَدِيدٍ وَالْأَمْرُ إِلَيْكِ فَانظُرِي مَاذَا تَأْمُرِينَ﴾

**“(Əyanlar) dedilər: “Biz çox güclü və cəsuruq. (Bir məktub qarşısında mövqeyimizdən çəkinməməliyik.) amma ixtiyar sənin əlindədir. Fikrini bildir, görək nə əmr edirsən? (Biz də var qüvvəmizlə çalışaq.)”**

**Nöqtələr**

●“Fətva” və “fəta” sözləri eyni kökdəndir. “Şab” dedikdə istənilən bir gənc nəzərdə tutula bilər. Tədbirli, şücaətli, ağıllı və qətiyyətli gənc isə “fəvta” adlandırılmışdır. “Fəvta” sözü isə ağıllı, bişmiş və kamil söz mənasını bildirir.

**Bildirişlər**

1. Bilqeys öz ətrafındakıları dəyərləndirir və onlarla məsləhətləşirdi.
2. Bəzən güc və imkan haqqın qəbuluna mane olur. (Güc və məqam Bilqeysin müşavirlərini qürrələndirirdi.)
3. Hökumətdə son sözü bir nəfər deməlidir. (Ətrafdakılar fikrini bildirir, son qərar isə bir nəfər tərəfindən bəyan olunur.)
4. Bilqeys öz dövründə silahlı qüvvələrin komandanı idi.

*AYƏ 34:*

﴿قَالَتْ إِنَّ الْمُلُوكَ إِذَا دَخَلُوا قَرْيَةً أَفْسَدُوهَا وَجَعَلُوا أَعِزَّةَ أَهْلِهَا أَذِلَّةً وَكَذَلِكَ يَفْعَلُونَ﴾

**“(Bilqeys) dedi: “Şübhəsiz, padşahlar abad bir məntəqəyə daxil olduqda oranı xarabaya çevirir, o yerin izzətlilərini zəlalətə salır. Bu, onların həmişəki qaydasıdır.”**

**Bildirişlər**

1. Padşahların ruhiyyə və xislətlərinin etirafı Bilqeysin alicənablığını göstərir.
2. Bilqeysi həm Süleyman qarşısında məğlubiyyət, həm də ölkəsinin xarabazara çevrilməsi narahat edirdi.
3. Təkcə öz gücümüzə güvənməyək. Başqalarını da nəzərə alaq. (Bəlqisin ətrafındakılar qüdrətdən danışırdı. Amma o, xəbərdarlıq etdi ki, Süleymanı gücsüz bilməyin.)
4. Qeyri-ilahi hökumətlərin qaydası məntəqələrdə və xalq arasında fəsad və zəlalət yaratmaqdır.
5. Fatehlik arzusu, döyüşə səy, virançılıq hakimiyyət və gücün bəlalarındandır.

*AYƏ 35:*

﴿وَإِنِّي مُرْسِلَةٌ إِلَيْهِم بِهَدِيَّةٍ فَنَاظِرَةٌ بِمَ يَرْجِعُ الْمُرْسَلُونَ﴾

**“Həqiqətən, mən (döyüşü məsləhət bilmirəm,) onlara dəyərli bir hədiyyə göndərəcəyəm, gözləyəcəyəm görüm, elçilərim nə xəbərlə qayıdacaq. (Ola bilsin ki, Süleyman hədiyyəni qəbul edə və biz amanda qalaq.)”**

**Bildirişlər**

1. Qadın zatən davakar deyil.
2. Maddi istəklərlə bağlı hərəkətlər maddiyyata çatdıqda aramlaşır. (Hədiyyəyə aldanmaq padşahların xislətidir.)
3. Bəzən qarşı tərəfi susdurmaq üçün hədiyyə adı ilə rüşvət verilir.
4. Düşmənlər də bizi hədiyyələr göndərməklə sınağa çəkirlər.
5. Zalım güclər və padşahlar yaxşı bilirdilər ki, peyğəmbərlərin maddiyyat əldə etmək məqsədləri yoxdur. Amma yenə də onları susdurmaq üçün səy göstərirdilər.

*AYƏ 36:*

﴿فَلَمَّا جَاء سُلَيْمَانَ قَالَ أَتُمِدُّونَنِ بِمَالٍ فَمَا آتَانِيَ اللَّهُ خَيْرٌ مِّمَّا آتَاكُم بَلْ أَنتُم بِهَدِيَّتِكُمْ تَفْرَحُونَ﴾

**“Elə ki, (hədiyyə gətirən elçi) Süleymanın yanına gəldi, (Süleyman) ona dedi: «Mənə əhəmiyyətsiz bir şeylə yardım edirsinizmi? (Bilin ki,) Allahın mənə verdiyi siz verdiyinizdən daha üstündür. (Sizin hədiyyəniz məni sevindirməz.) Bu sizsiniz ki, öz hədiyyənizə sevinirsiniz.»”**

*AYƏ 37:*

﴿ارْجِعْ إِلَيْهِمْ فَلَنَأْتِيَنَّهُم بِجُنُودٍ لَّا قِبَلَ لَهُم بِهَا وَلَنُخْرِجَنَّهُم مِّنْهَا أَذِلَّةً وَهُمْ صَاغِرُونَ﴾

**“(Süleyman Bilqeysin elçisinə) dedi: «Onların yanına qayıt. Biz hökmən onların üstünə gücləri çatmayacaq bir qoşun göndərərik. Onları zəlalət duyacaq bir halda (məntəqədən) çıxarıb avara qoyarıq.»”**

**Bildirişlər**

1. Allah övliyalarının məqsədi maddiyyat deyil. (İlahi insanlar özlərini pula satmırlar. Çünki onlar dünyanın əsiri yox, ağasıdırlar.)

2. İlahi insanlar itigözlü, ayıq və qətiyyətlidirlər. Onlar hədiyyələrin arxasında dayanan çirkin məqsədləri görür, məqsəd sahiblərini məzəmmət edirlər.

3. Həqiqi hədiyyəni ədəblə qəbul edin və təşəkkürünüzü bildirin.[1] Amma hədiyyə adı ilə verilən rüşvətdən uzaq olun.

4. Kafir hamını özü kimi bilir.

5. Dünya malı mühüm bir şey deyil.

6. İlahi insanlar əldə etdikləri nemətləri Allahdan bilirlər.

7. Bəzən insan öz qüdrətini bəyan etməli olur.

8. Haram malı rədd etmək üçün ən üstün vasitə Allahın lütflərinə diqqətdir.

9. Allahın övliyaları ilahi lütflə, maddiyyat əhli maddiyyatla aramlıq tapır.

10. Elm və hikmət maldan üstündür.

11. Məntiqdən sonra növbə gücə çatır.

12. Yalnız gücə güvənənlərlə qətiyyətli danışın.

13. Əvvəlki dinlərdə də cihad mövzusu olmuşdur.

14. Təbliğ və nəsihət hicrət və gücsüz səmərə vermir.

15. Yalnız maddiyyata göz yuman insan qətiyyətlə danışıb haqqı müdafiə edə bilir.

16. Rəhbər öz silahlı qüvvələrindən yetərincə arxayın olmalıdır.

17. Haqq əhlinin hərbi gücü batil əhlinin hərbi gücündən üstün olmalıdır.

18. Küfr və şirk hakimiyyətlərini alçaltmaq caizdir.

### *AYƏ 38:*

﴿قَالَ يَا أَيُّهَا المَلَأُ أَيُّكُمْ يَأْتِينِي بِعَرْشِهَا قَبْلَ أَن يَأْتُونِي مُسْلِمِينَ﴾

**“(Süleyman) dedi: «Ey əyanlar! Sizlərdən hansınız onun (Səba mələkəsi Bilqeysin) taxtını onlar təslim olmuş halda gələnədək mənim üçün gətirə bilər?»”**

### *AYƏ 39:*

﴿قَالَ عِفْرِيتٌ مِّنَ الْجِنِّ أَنَا آتِيكَ بِهِ قَبْلَ أَن تَقُومَ مِن مَّقَامِكَ وَإِنِّي عَلَيْهِ لَقَوِيٌّ أَمِينٌ﴾

**“Cinlərdən olan (qüdrətli və fərasətli) bir ifrit dedi: “Yerlərindən qalxmamış mən onu sənin yanına gətirərəm. Şübhəsiz, mən bu iş üçün qüdrətli və etibarlıyam.”**

---

[1] “Nisa", 86.

**Nöqtələr**

●"İfrit" sözündə şiddət və qüdrət mənası var.

●Bilqeysin elçiləri apardıqları hədiyyələri geri qaytardıqda və Səba mələkəsi (padşahı) Süleymanın sadəcə bir padşah olmadığını anladıqda qərara gəldi ki, özü şəxsən Süleymanın yanına getsin. Bilqeysin yola düşdüyündən xəbər tutan Süleyman qüdrətini nümayiş etdirmək üçün hazırlaşdı.

**Bildirişlər**

1. Süleymanın ətrafındakıların qeyri-adi qüdrətləri vardı.
2. Sağlam rəqabətə yer verin.
3. Münasib şəraitdə başqalarının qüvvəsindən faydalanın.
4. Meyar növ yox, ləyaqət və gücdür. Süleymanın ətrafında cinlər, quşlar, insanlar olsa da, üstünlük ölçüsü onların növü yox, taxtı gətirə bilmələri idi.
5. İnsanın taxt-tacı əlindən alındıqda, o asanlıqla təslim olur.
6. Quran "teyyül-ərz" (uzun məsafəni bir anda adlamaq kəraməti) məsələsini qəbul edir.
7. Güc nümayişində qarşı tərəfin səviyyəsi nəzərə alınmalıdır.
8. Başqalarını doğru yola çağırarkən onların öz imkanlarından da istifadə edin.
9. Düşməndən öncə addım atan kəs qalibdir.
10. Qeyri-adi işlər ali məqsədlərlə həyata keçməlidir.
11. Həzrət Süleymanın qeyb elmi vardı.
12. Müvəffəq bir quruluşda hər qüvvədən öz yerində istifadə edilməlidir.
13. Cin insana kömək edə bilər.
14. Ləyaqətlərinizi başqalarına elan edin.
15. Böyük işlərin icrası üçün sürət, qüdrət və əmanətdarlıq kimi səciyyələrə malik olmaq lazımdır.

*AYƏ 40:*

﴿قَالَ الَّذِي عِندَهُ عِلْمٌ مِّنَ الْكِتَابِ أَنَا آتِيكَ بِهِ قَبْلَ أَن يَرْتَدَّ إِلَيْكَ طَرْفُكَ فَلَمَّا رَآهُ مُسْتَقِرًّا عِندَهُ قَالَ هَذَا مِن فَضْلِ رَبِّي لِيَبْلُوَنِي أَأَشْكُرُ أَمْ أَكْفُرُ وَمَن شَكَرَ فَإِنَّمَا يَشْكُرُ لِنَفْسِهِ وَمَن كَفَرَ فَإِنَّ رَبِّي غَنِيٌّ كَرِيمٌ﴾

**"(İlahi) kitabdan qismən xəbəri olan (Asəf ibn Bərxiya adlı) bir şəxs dedi: "Mən onu (taxtı) gözünü qırpmamış sənin yanına gətirərəm. (Süleyman təklifi qəbul etdi və o, taxtı gətirdi.) Elə ki, onu (taxtı) yanında gördü (qürrələnmək əvəzinə belə) dedi: "Bu, (kitabdan və ismi-əzəmdən bir qədər bilən vəzirimin qüdrəti) Rəbbimin lütfündəndir. Bununla mənim şükür edib-etməyəcəyimi sınayır. Şübhəsiz, şükür edən kəs öz xeyrinə şükür etmiş, nankorluq göstərən (öz zərərinə addım atmışdır və həqiqətən mənim Rəbbim (xalqın şükründən) ehtiyacsızdır və kərəm sahibidir."**

### *AYƏ 41:*

﴿قَالَ نَكِّرُوا لَهَا عَرْشَهَا نَنظُرْ أَتَهْتَدِي أَمْ تَكُونُ مِنَ الَّذِينَ لَا يَهْتَدُونَ﴾

**“(Süleyman) dedi: “Taxtı onun tanımayacağı hala salın, görüm anlayacaq, yoxsa anlamayanlardandır?”**

**Nöqtələr**

●Kitab elmindən qismən xəbərdar olan şəxs imam Hadinin (ə) də qeyd etdiyi kimi, həzrət Süleymanın vəziri və bacısı oğlu Asəf ibn Bərxiya idi.[1] İmam Baqir (ə) buyurur: “İsmi-əzəm 73 sözdür. Asəf ibn Bərxiya bu sözlərdən təkcə birini bildiyi halda belə bir qüdrət nümayiş etdirdi.”[2]

●“Kitab elmi” dedikdə nəzərdə nə tutulur? Bildirirlər ki, «kitab elmi» dedikdə ya səmavi kitab, ya lövhi-məhfuz, ya da ismi-əzəm nəzərdə tutulmuşdur.

**Sual:** Necə oldu ki, Asəf ibn Bərxiya sahibindən icazə almamış taxtı Süleymanın yanına gətirdi?

**Cavab:** Bu iş peyğəmbərlərin xalqın malı üzərində hökm sahibi olması, Bilqeys və onun tabeçiliyində olan xalqın doğru yola gəlişinin əhəmiyyəti ilə izah olunur.

●Küfr iki növdür: Allahın inkarı və nemətlərə qarşı nankorluq.

●Şükrün növləri var: dildə şükür, qəlbdə şükür və əməldə şükür.

### *ƏMİRƏL-MÖMİNİN (Ə) VƏ ƏHLİ-BEYTİN FƏZİLƏTLƏRİ*

–Ayədə bildirildi ki, kitab elmindən bir qismini bilən şəxs Səba mələkəsinin taxtını bir göz qırpımında gətirməsini Süleymana təklif etdi. Amma “Rəd” surəsinin son ayəsində Allah Öz Peyğəmbərinə (s) buyurur: “Kafirlər sənin risalətini qəbul etmirlər. Onlara de ki, mənimlə sizin aranızda Allahın və kitab elmini bütünlüklə bilən kəsin şahid olması yetər.” Rəvayətdə oxuyuruq: “ Ayədə kitab elmini bütünlüklə bilən kəs dedikdə Əli ibn Əbi Talib (ə) nəzərdə tutulmuşdur. Kitab elmindən bir qismini bilən kəs Bilqeysin taxtını bir göz qırpımında gətirə bilirsə, bu elmə tamamilə sahib olan kəsin ömür boyu hansı qüdrəti olmuşdur?!

–İmam Sadiq (ə) buyurur: “Elmdən bir qisim bilən şəxsin agahlığı Əlinin (ə) elmi ilə müqayisədə dərya yanında milçək qanadındakı su kimidir.”[3]

–Bir çox rəvayətlərdə bildirilir ki, məsum imamlar heç bir zaman və məkan məhdudiyyəti olmadan istədikləri yerə çatırdılar. Məsələn: İmam Cavad (ə) atasının şəhadəti zamanı bir anda Mədinədən Tusa gəldi;

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Kafi”, c. 1, s. 230.
[3] “Təfsire-Nurus-səqəleyn”.

İmam Kazim (ə) Bağdadda zindandan çıxan kimi Mədinədə hazır oldu;

İmam Səccad (ə) əsirlik dövründə Kərbəlaya gedib atası Hüseynin (ə) pak bədənini dəfn etdi;

İmam Hüseyn (ə) şəhadətindən öncə Kərbəla torpağından götürüb Mədinədə Ümmü-Sələməyə verdi.[1] Bəli, "teyyül-ərz" sifəti (ildırım sürəti ilə hərəkət) məsum imamlarda (ə) müşahidə olunmuşdur.

**Bildirişlər**

1. Süleymanın ətrafında dərin elmli şəxsiyyətlər vardı.
2. İnsan təbiət və onun qanunlarına hakim ola bilər.
3. İnsanın cindən qüdrətli olması mümkündür.
4. Bəzi məqamlarda qüdrəti izhar etmək lazım gəlir.
5. Elm qüdrət mənbəyidir. Elmi qüdrətlə əşya və mövcudların yerini dəyişmək olar. (İnsanda hələ ki kəşf olunmamış istedadlar, imkanlar və sirlər var.)

*Elm əldə edən qazandı qüdrət,*
*Elmlə qoca qəlb tapdı təravət.*

6. Tapşırıq verilərkən əməldə sürət imtiyaz sayılır. Necə ki, alış-verişdə yerinə çatdırma xidməti rəqabət amili və dəyərdir.
7. Elm və qüdrət iddiası əməldə sübuta yetirilməlidir.
8. Allahın övliyaları bütün nemətləri Allah tərəfindən bilirlər.
9. İlahi nemətləri öz haqqımız bilməyək.
10. Öz elm və qüdrətimizlə qürrələnməyək.
11. İlahi nemətləri dilə gətirək.
12. Nemətlərin verilməsi və ya kəsilməsi bizim təkamülümüz üçündür.
13. İlahi nemətlər ləzzət yox, bəndəlik və sınaq vasitəsidir.
14. Peyğəmbərlər də sınağa çəkilirlər.
15. İnsan məcbur yox, azaddır.
16. İnsanın səadəti onun öz əməllərindən asılıdır.
17. Allahın bizim şükrümüzə ehtiyacı yoxdur. İlahi nemətlər Allahın sonsuz fəzl və lütfündən qaynaqlanır. Biz nankorluq etsək də belə, O Öz rübubiyyəti əsasında bizə lütf göstərir.

*Əlbət ki, şükürlə artası nemət,*
*Nankorluq nemətə çəkəsidir sədd.*

18. Dəvət zamanı yaltaqlıq qadağandır.
19. İmkan və səxavət yanaşı olduqda dəyər sayılır.
20. Allah övliyalarının xalqın mülkü üzərində hökmü var.
21. Bəzən zehni sınamaq üçün dəyişiklik aparmaq olar.

---

[1] "Təfsire-Ətyəbul-bəyan",

*AYƏ 42:*

﴿فَلَمَّا جَاءتْ قِيلَ أَهَكَذَا عَرْشُكِ قَالَتْ كَأَنَّهُ هُوَ وَأُوتِينَا الْعِلْمَ مِن قَبْلِهَا وَكُنَّا مُسْلِمِينَ﴾

**“(Bilqeys) gələn zaman ona deyildi: «Sənin taxtın belədirmi?» O dedi: «Elə bil o özüdür. Bundan öncə bizə (Süleymanın haqlılığı ilə bağlı) elm verilmişdir və biz təslim olmuşuq.»”**

*AYƏ 43:*

﴿وَصَدَّهَا مَا كَانَت تَّعْبُدُ مِن دُونِ اللَّهِ إِنَّهَا كَانَتْ مِن قَوْمٍ كَافِرِينَ﴾

**“(Qadının) Allah əvəzinə pərəstiş etdiyi şey onu (haqqa təslimçilikdən) uzaqlaşdırmışdı və o kafirlərin qövmündən idi. (Amma küfrdən sonra iman gətirdi.)”**

**Nöqtələr**

●Ayədəki “bizə elm verilmişdir” cümləsi zahirən Bilqeysin sözünün davamıdır. Amma bu cümlə Süleyman və onun ətrafındakılara da aid ola bilər. Yəni “bizə Bilqeysdən öncə elm verilmişdir və ondan öncə müsəlman olmuşuq.[1]

●**Sual:** Bilqeys Süleymanın haqlı olduğunu bildiyi halda nə üçün dərhal təslim olmadı?

**Cavab:** Şirkə aludə cəmiyyət və mühit onu təslim olmağa qoymadı.

**Bildirişlər**

1. İlkin danışıqlarda son söz deməyin.
2. Elmə əsaslanan məktəb dəyərlidir.
3. Mühit, cəmiyyət və xurafi əqidələr gerçək imana mane olur.
4. İnsanın mənfi keçmişi onun gələcəyi haqqında bədgümanlığa əsas vermir.

[1] “Təfsire-Kəbire-Fəxr Razi”.

## *AYƏ 44:*

﴿قِيلَ لَهَا ادْخُلِي الصَّرْحَ فَلَمَّا رَأَتْهُ حَسِبَتْهُ لُجَّةً وَكَشَفَتْ عَن سَاقَيْهَا قَالَ إِنَّهُ صَرْحٌ مُّمَرَّدٌ مِّن قَوَارِيرَ قَالَتْ رَبِّ إِنِّي ظَلَمْتُ نَفْسِي وَأَسْلَمْتُ مَعَ سُلَيْمَانَ لِلَّهِ رَبِّ الْعَالَمِينَ﴾

**"Ona (Bilqeysə) deyildi: «Qəsrə daxil ol! Onu görüb su gölməçəsi zənn etdi. (Ötüb keçmək üçün) ətəyini yığdı.» (Süleyman ona) dedi: «(Burada su yoxdur) şüşə və büllurdan tikilmiş saraydır.» (Səba məlƏkəsi) dedi: «Pərvərdigara! Mən özümə zülm etdim və (indi) Süleymanla birlikdə aləmlərin Rəbbi qarşısında təslim oluram.»"**

**Nöqtələr**

●"Sərhuh" sözü "fəza" və ya "böyük qəsr" mənasını bildirir. "Luccətən" dedikdə təlatümə gəlmiş, "mumərrədun" dedikdə "saf" mənaları anlaşılır.

**Bildirişlər**

1. Risalət məqamı cah-cəlal, şan-şöhrət və hakimiyyətlə zidd deyil.
2. Təlim-tərbiyə və təbliğdə hər insanı bir üsulla dəvət etmək lazımdır. Varlılarla elə danışmayaq ki, möminliyi yoxsulluq kimi başa düşsünlər.
3. Maddi imkanlar dini təbliğata xidmət etməlidir. Süleymansayaq məqsədlərlə sənət və maddi imkanlardan xalqın hidayəti üçün faydalanmaq olar.
4. Kafir qonaqları ədəblə qəbul edin.
5. Qonaqlıqda insanların şəxsiyyətinə hörmətlə yanaşın.
6. Bəzən insan gözlə görsə də, yanlış qiymətləndirir. (Göz xətası.)
7. Kafir varlıları öz quruluşunuzun sənətkarlığı, ixtiraları, gözəllikləri ilə təslim edin.
8. Güzgüləmə işi və memarlıqda şüşədən istifadə həzrət Süleymanın dövründən mövcuddur.
9. Haqqın qəbulu zəiflik yox, azadlıq nişanəsidir.
10. Allahdan qeyrisinə bağlılıq və Ondan qeyri istənilən bir kəsə pərəstiş zülümdür.
11. Həqiqi tövbə odur ki, keçmiş etirafla islah edib, qarşıdakı yolu ilahi hidayət çırağı ilə adlayaq.
12. Ad-san, məqam və ətraf haqqın etirafına mane olmamalı, yanlış əqidəyə əsir etməməlidir.
13. Təkamülün mərhələləri var: Zülmətdən xaric olma mərhələsi, nura daxil olma mərhələsi.
14. İman ruhu həmin təslimçilikdir. (Həm Süleyman öz dəvətində bu məsələyə toxunur, həm Səba məlkəsi işin sonunda təslim olduğunu bildirir.)

15. İman xalqa yox, varlığın Xaliqinə təslim olmaqdır.
16. Qadın əqidə seçimində və onun izharında azaddır.
17. İman təklikdə bəs etmir, peyğəmbər və övliyalarla yoldaşlıq insanı sığortalayır.
18. Siyasi, iqtisadi, hərbi və qohumluq rabitələri müqabilində ilahi və müqəddəs rabitələr də var.
19. Bər-bəzək insanı sirab etmir. İnsanın itkisi varlıq aləminin qaynağı ilə rabitədir.
20. Peyğəmbər hökumətinin məqsədi fatehlik yox, Allaha doğru dəvətdir. Səba mələkəsi bu həqiqəti anladı və ona görə təslim olduğunu bəyan etdi.

*AYƏ 45:*

﴿وَلَقَدْ أَرْسَلْنَا إِلَى ثَمُودَ أَخَاهُمْ صَالِحًا أَنِ اعْبُدُوا اللَّهَ فَإِذَا هُمْ فَرِيقَانِ يَخْتَصِمُونَ﴾

**"Həqiqətən, Səmud qövmünə qardaşları Salehi peyğəmbər göndərdik. (O, xalqa dedi:) «Allaha pərəstiş edin.» Həmin vaxt xalq bir-biri ilə vuruşan iki dəstəyə bölündü."**

*AYƏ 46:*

﴿قَالَ يَا قَوْمِ لِمَ تَسْتَعْجِلُونَ بِالسَّيِّئَةِ قَبْلَ الْحَسَنَةِ لَوْلَا تَسْتَغْفِرُونَ اللَّهَ لَعَلَّكُمْ تُرْحَمُونَ﴾

**"Saleh dedi: «Ey mənim qövmüm! Nə üçün yaxşılıqdan öncə tələsik pislik istəyirsiniz? Nə üçün Allahdan bağışlanma diləmirsiniz ki, sizə rəhm olunsun.»"**

**Nöqtələr**

●Həzrət Saleh xalqı ilahi əzabla qorxudur, onlara xəbərdarlıq edirdi. Amma onlar deyirdilər ki, vəd etdiyin əzabı gətir.[1] Bu ayədə isə Saleh belə deyir: "Nə üçün siz xeyir əvəzinə şər soraqlayırsınız?" Bəli, kafirlər həzrət Huddan, İslam Peyğəmbərindən (s) də əzabın tezləşməsini istəyirdilər.

●İmam Baqir (ə) buyurur: "Həzrət Salehin dəvətini bir qrup təsdiq, digər bir qrup təkzib etdi."[2]

---

[1] Əraf", 77.
[2] "Təfsire-Nurus-səqələyn".

●Bütün peyğəmbərlər xalqla mehriban davransalar da, onlardan bəziləri haqqında "qardaşları" sözü işlədilir. Ola bilsin ki, bəzi peyğəmbərlər mehriban davranışdan əlavə, peyğəmbər göndərildikləri qövmə qohum olmuşlar.

**Bildirişlər**

1. Peyğəmbərlər xalqla qardaşcasına rəftar etmişlər.
2. Tövhidə dəvət peyğəmbər çağırışlarının sərlövhəsi olmuşdur.
3. Sözünüzün bütün xalq tərəfindən qəbul ediləcəyini gözləməyin.
4. Haqla batil arasındakı müharibə daimidir.
5. Günahkarlar üçün tövbə yolu saxlayın.
6. Peyğəmbərlər xalqa canıyanan olmuşlar.
7. İstiğfar və tövbə ilahi rəhmət üçün zəmindir.

*AYƏ 47:*

﴿قَالُوا اطَّيَّرْنَا بِكَ وَبِمَن مَّعَكَ قَالَ طَائِرُكُمْ عِندَ اللَّهِ بَلْ أَنتُمْ قَوْمٌ تُفْتَنُونَ﴾

**«(İnsanlar Salehə) dedilər: "Sənin və yoldaşlarının varlığı bizə düşmədi. (Mövcud qəhətlik sizə görədir. Saleh) dedi: "Sizin uğurunuz (yaxşı və ya pis taleyiniz) Allahdandır. Əslində siz sınağa çəkilmiş bir qövmsünüz."»**

*AYƏ 48:*

﴿وَكَانَ فِي الْمَدِينَةِ تِسْعَةُ رَهْطٍ يُفْسِدُونَ فِي الْأَرْضِ وَلَا يُصْلِحُونَ﴾

**"Həmin şəhərdə fəsad törədən və islahdan uzaq doqquz dəstə vardı."**

**Nöqtələr**

●"Rəht dedikdə fərdləri arasında möhkəm rabitə olan dəstə nəzərdə tutulur.[1]

●"Təyr" sözündən olan "tətəyyur" sözü "quş" mənasını bildirir. Ərəblər səfərə çıxmazdan öncə fal açıb quş uçurardılar. Əgər quş sağ tərəfə uçsaydı, səfərə çıxardılar, sol tərəfə uçsaydı səfəri təxirə salardılar.[2]

●Quş vasitəsi ilə fala baxmaq İslamda şirk sayılır. Belə bir fal həqiqətdən uzaqlaşıb xurafat ardınca getməkdir.

●Quranda peyğəmbərlərin uğursuzluq gətirməsi ilə bağlı ittihamlar dəfələrlə qeyd olunmuşdur. Fironçular Musanın onlara bədbəxtlik gətirdiyini düşünürdülər.[3] Həzrət İsa da bu sayaq ittiham olunurdu.[4] Hazırkı ayədə isə eyni ittiham həzrət Salehə ünvanlanır.

---

[1] "Ət təhqiq fi kəlimatil-Quran".
[2] "Təfsiri-Kəşşaf".
[3] Əraf", 131.
[4] "Yasin", 18.

●“Bəlkə də siz sınağa çəkilmiş bir qövmsünüz” cümləsi bir neçə cür mənalandırılır.

a) Siz hiyləgərlər tərəfindən aldadıldığınız üçün bu sayaq müqavimət göstərirsiniz. (“Fitnə” sözü yalan kimi mənalandırılsa.)

b) Siz acı hadisələrlə sınağa çəkilirsiniz (“Fitnə” sözü imtahan kimi mənalandırılsa.)

v) Siz inadkarlığınıza görə cəzalandırılırsınız. (“Fitnə” sözü əzab kimi mənalandırılsa.)

**Bildirişlər**

1. Ayədə İslam Peyğəmbəri (s) və müsəlmanlara keçmiş peyğəmbərlər və onların ətrafındakıların necə təhqir olunduğu xatırladılır, bununla da onlara təsəlli verilir.
2. Düşər-düşməz məsələsinin tarixi keçmişi var. (Allah və ilahi hikmətə inanmayan insan xurafata üz tutur.)
3. Elm, ədəb, məntiq və vəhyin hakim olmadığı quruluşda xilaskarlar bədbəxtlik gətirən insanlar kimi tanıtdırılırlar.
4. Peyğəmbərlərin varlığı təbii və gündəlik problemlərin aradan qaldırılması kimi başa düşülməməlidir.
5. Çətinliklər və acılıqlar Allah tərəfindən nəzərdə tutulmuş dəlillərə əsaslanır.
6. Peyğəmbərlərlə rəftar ilahi bir sınaqdır.

### *AYƏ 49:*

﴿قَالُوا تَقَاسَمُوا بِاللَّهِ لَنُبَيِّتَنَّهُ وَأَهْلَهُ ثُمَّ لَنَقُولَنَّ لِوَلِيِّهِ مَا شَهِدْنَا مَهْلِكَ أَهْلِهِ وَإِنَّا لَصَادِقُونَ﴾

**“(Həmin azğın qövm) dedi: “Allaha and için ki, gecə yarı ona və ailəsinə hücum edib öldürəcək, sonra sahibinə deyəcəyik ki, biz onun adamlarının qətl yerində olmamışıq və şübhəsiz doğru danışdıq.”**

**Nöqtələr**

●“Nubəyyitənnəhu” dedikdə gecə hücumu nəzərdə tutulur.

●İslamda yaxşı iş üçün içilən andın dəyəri var. Dəyərli bir iş görmək və ya pis bir işi tərk etməklə bağlı içilən anda əməl edilməlidir. Amma bir şəxs and içsə ki, bir məzlumu vuracaq və ya bir zalımı müdafiə edəcək, belə bir andın şəri və qanuni dəyəri yoxdur.

●Bu ayə bizə Məkkə kafirlərinin Peyğəmbərə (s) qarşı andını xatırladır. Onlar and içmişdilər ki, gecə yarı İslam Peyğəmbərinə (s) hücum edib onu yatağındaca qətlə yetirsinlər. Amma həzrət Peyğəmbər (s) Həzrət Əlini (ə) öz yerində saxladı və düşmənin planları puça çıxdı.

**Bildirişlər**

1. Məxfi söhbətlər əsrlərcə sonra üzə çıxır.
2. Düşmən dini müqəddəsliklərdən sui-istifadə edir.
3. Peyğəmbərləri qətlə yetirməklə ən böyük günaha düçar olanlar qəlblərində Allahı qəbul edir və Onun adı ilə öz pis işlərini sahmana salırlar.
4. Azğın fərdlər və dəstələr müştərək məqsədlər üçün əl-ələ verir, and içirlər.
5. Tarixdə saysız ibrətlər var. Kimi Allah peyğəmbərini öldürmək üçün Allaha and içir, kimi Allah evində və Allah ayında, Qədr gecəsində, Allaha yaxınlaşmaq üçün Allahın vəlisini ibadət halında qətlə yetirir!!
6. Terror üçün gecənin qaranlığından istifadənin uzun tarixi var.
7. Peyğəmbərlər və onların yardımçıları ən amansız qurğularla üzləşmişlər.
8. Bəşərin imansızlığının hədd-hüdudu yoxdur. (Peyğəmbərlərin qətli, peyğəmbər yardımçılarının qətli, gecə yarı hücumlar.)
9. Qisas ağıla əsaslanan bir qanundur və bütün səmavi dinlərdə təsbit olunmuşdur.
10. Azğın insan don geyindirməklə günahını ört-basdır edir.
11. Sədaqət iddiasında olan və sədaqətdən danışan hər adama inanmayın.
12. Sədaqəti hətta peyğəmbər qatilləri də şərəf və dəyər sayırlar.

***AYƏ 50:***

﴿وَمَكَرُوا مَكْرًا وَمَكَرْنَا مَكْرًا وَهُمْ لَا يَشْعُرُونَ﴾

**“(Həmin doqquz azğın dəstə) böyük tədbirə əl atdı, Biz də böyük tədbirə əl atdıq. Amma onlar anlamazlar.”**

***AYƏ 51:***

﴿فَانظُرْ كَيْفَ كَانَ عَاقِبَةُ مَكْرِهِمْ أَنَّا دَمَّرْنَاهُمْ وَقَوْمَهُمْ أَجْمَعِينَ﴾

**“Bax gör onların tədbiri necə sonuclanır? Biz onları və bütün qövmlərini həlak etdik.”**

**Nöqtələr**

●Quranda Səmud qövmünün bir neçə vasitə ilə məhv edildiyi bildirilir: zəlzələ[1]; ildırım[1]; dağıdıcı səs[2]. Əlbəttə ki, hər üç əzabın eyni vaxta nazil olması mümkündür.

---

[1] Əraf”, 78.

●Allahın zalımlara qarşı tədbirlərindən biri onlara möhlət və nemət verməsidir. Bu nemətlər onların başını qatır. Günah yükləri ağırlaşdıqdan sonra onlar qəfil əzaba düçar olurlar.

**Bildirişlər**

1. Allah insanın günahına münasib cəza verir.
2. Allah övliyalarına qarşı qurğu quranlar Allaha cavab verməli olurlar.
3. Kafirlərin tədbirlərinə siz də öz tədbirlərinizlə cavab verməlisiniz.
4. Allah insanların tədbirini bilir, amma insanlar Allahın tədbirlərindən xəbərsizdirlər.
5. Allahın qamçısı səssizdir.
6. Tarix müəyyən qanun və sünnələr üzərində qurulmuşdur. Bu qanunlara diqqət digər dövrlərdə də faydalıdır.
7. İlahi sünnə haqqın qələbəsi üzərində qurulmuşdur.
8. Tələsik qərar verməyin. Bəzilərinin hiyləgərliklə əldə etdiyi sizi çaşdırmasın. İşin sonuna baxın.
9. Düşmənlər çirkin məqsədlərinə çatmasalar da öz hazırlıqlarına görə Allahın qəzəbinə gəlirlər. (Düşmənlər and içmişdilər ki, peyğəmbəri öldürsünlər. Amma məqsədlərinə çatmayıb özləri həlak oldular.)
10. Azğınlara tabeçiliyin cəzası var.

*AYƏ 52:*

﴿فَتِلْكَ بُيُوتُهُمْ خَاوِيَةً بِمَا ظَلَمُوا إِنَّ فِي ذَلِكَ لَآيَةً لِّقَوْمٍ يَعْلَمُونَ﴾

**“Bu onların evləridir. Zülm etdiklərindən viran və boş qaldı. Şübhəsiz, bunda (bu cəzada) elm və agahlıq sahibləri üçün aşkar nişanə var.”**

*AYƏ 53:*

﴿وَأَنجَيْنَا الَّذِينَ آمَنُوا وَكَانُوا يَتَّقُونَ﴾

**“Mömінləri və təqva əhlini (təhlükədən) qurtardıq.”**

**Nöqtələr**

●“Xaviyə” dedikdə həm süqut və viranlıq, həm də boş və sakinsiz qalma mənaları anlaşılır.

**Bildirişlər**

1. İbrətamiz tarixi abidələr gələcək nəsillər üçün qorunmalıdır.
2. Cəza təkcə axirətə aid deyil. Bəzən zalımlar elə bu dünyadaca cəzalandırılırlar.

---

[1] “Zariyat”, 44.
[2] “Hud”, 67.

3. İbrət və nişanələr təklikdə bəs etmir, insanın taleyi onun öz əməllərindən asılıdır.

4. İnsanların ibrət götürməsi üçün stimul da lazımdır.

5. Allahın qəzəbi yaşla qurunu bir yerdə yandırmır. Ona görə də təqvalı insanlar istisna olunur, onlara nicat verilir.

6. İman və təqvanın əsərləri təkcə axirətə aid deyil. Təqva əhli dünyada da öz işinin nəticəsini görür.

7. Daimi təqva ilə müşayiət olunan iman səmərəlidir.

*AYƏ 54:*

﴾وَلُوطًا إِذْ قَالَ لِقَوْمِهِ أَتَأْتُونَ الْفَاحِشَةَ وَأَنتُمْ تُبْصِرُونَ﴿

**“Lutu da (göndərdik). O öz qövmünə dedi: “Agah olduğunuz halda nə üçün bu sayaq çox çirkin işə yol verirsiniz?”**

*AYƏ 55:*

﴾أَئِنَّكُمْ لَتَأْتُونَ الرِّجَالَ شَهْوَةً مِّن دُونِ النِّسَاء بَلْ أَنتُمْ قَوْمٌ تَجْهَلُونَ﴿

**“Qadınlar var ikən şəhvətinizi söndürmək üçün kişilərinmi ardınca gedirsiniz? Siz cahil bir qövmsünüz.”**

**Nöqtələr**

●Lut qövmü aşkar məclislərdə, bir-birlərinin qarşısında həmcinsbazlıq edirdi. “Ənkəbut” surəsinin 29-cu ayəsində buyurulur ki, siz aşkar məclislərdə pis işə yol verirsiniz. Bu ayədə isə onların bilərəkdən günaha yol verdiyi qeyd olunur.

●Livat (həmcinsbazlıq) kəbirə günahlardandır. Növbəti ayələrdə bu günah müqabilində ilahi əzab vəd olunur.

●Qurani-Kərimin digər bir ayəsində bildirilir ki, həyat yoldaşı aramlıq, nəsil tərbiyəsi, qarşılıqlı yardım üçündür. Amma burada yalnız şəhvət məsələsi bəyan olunur. Çünki Lut qövmünün məqsədi yalnız şəhvət idi.

**Bildirişlər**

1. Peyğəmbərlər və islahatçı rəhbərlər öz dövrlərində rəvac tapmış günahlarla ciddi mübarizə aparmışlar.

2. Tənqidi sualarla vicdanları oyadın.

3. Peyğəmbərlərin vəzifələrindən biri pis işlərlə mübarizədir.

4. Livat təkcə İslamda qadağan olunmayıb.

5. Aşkar və bilərəkdən baş verən günahın çirkinliyi və cəzası daha böyükdür.

6. Livatın çirkinliyi hamıya məlumdur.

7. Pisliyə qadağa qoyarkən aşkar günahları hədəfə alaq.

8. Şəhvət qanuni yolla təmin olunmalıdır.

9. Cinsi məsələlərdə təbii və şəri yoldan çıxmaq cəhalət və axmaqlıqdır.

10. Həmcinsbazlıq mədəniyyətsizlikdən qaynaqlanır. İnsanı günaha aparan elm və bilik cəhalətdir.

## *İYİRMİNCİ CÜZ*

### *AYƏ 56:*

﴿فَمَا كَانَ جَوَابَ قَوْمِهِ إِلَّا أَن قَالُوا أَخْرِجُوا آلَ لُوطٍ مِّن قَرْيَتِكُمْ إِنَّهُمْ أُنَاسٌ يَتَطَهَّرُونَ﴾

**“Amma qövmü yalnız belə cavab verdi: “Lutun ailəsini şəhərinizdən çıxarın, çünki onlar paklıq axtaran insanlardır.”**

**Bildirişlər**

1. Günahkarların məntiqi olmadığından peyğəmbərlər qarşısında zora əl atırlar.
2. Bulaşıq mühitdə paklıq günah sayılır.
3. Pisliyə qadağa bəzən sürgünlə sonuclanır.
4. Günah qarşısında susmaq qadağandır. Ən azı günahkara sıxıntı yaradaq.
5. Günah üçün azadlıq Lut qövmünün təfəkkür tərzidir.
6. İlahi insanların sürgünü İbrahim və Lut dövrünə gedib çıxır.
7. Günahkarın fitrəti pak olduğundan onlar özlərini çirkin, başqalarını pak görürlər.
8. Mühit insanı günaha məcbur etmir. Ən azğın dövrlərdə də pak insanlar olmuşdur.

### *AYƏ 57:*

﴿فَأَنجَيْنَاهُ وَأَهْلَهُ إِلَّا امْرَأَتَهُ قَدَّرْنَاهَا مِنَ الْغَابِرِينَ﴾

**“Biz Lutu və onun ailəsini xilas etdik. Yalnız zövcəsinin (əzabda) qalanlardan olmasını qərar verdik.”**

### *AYƏ 58:*

﴿وَأَمْطَرْنَا عَلَيْهِم مَّطَرًا فَسَاء مَطَرُ الْمُنذَرِينَ﴾

**“Sonra başlarına (daşdan) yağış yağdırdıq (hamılıqla daş altında dəfn olundular). Necə də pisdir qorxudulanların yağışı!”**

**Nöqtələr**

●“Ğabirin” dedikdə “həlak olanlar” mənası nəzərdə tutulur. Bu söz Quranda 7 dəfə və hər dəfə Lutun zövcəsi haqqında işlədilmişdir.

Ayədə yağış dedikdə bərk gil nəzərdə tutulmuşdur.[1]

Allah dəfələrlə möminlərin nicat tapacağını və təqvalıların xoş aqibətə yetişəcəyini vəd etmişdir. Bu vədin gerçəkliyi ilə bağlı peyğəmbərlərin və ümmətlərin tarixindən nümunələr göstərilir. O cümlədən:

a) "Biz peyğəmbərlərə və iman gətirən kəslərə hökmən yardım edəcəyik."[2]

b) "İman əhlinə nicat vermək Bizə vacibdir."[3]

**Bildirişlər**

1. Təqva və paklıq dünyada Allah qəzəbindən qurtuluşla nəticələnir.
2. Allah təbii vasitələrlə nicat verir. (Lut nicat tapmaq üçün Allahın əmri ilə məntəqədən xaric oldu.)
3. İlahi rəhbərlər Allahın himayəsindədirlər.
4. Qadın əqidə seçimində azaddır. Ailə nizamı, ərdən iqtisadi asılılıq qadından əqidə və əməl seçimi haqqını almır.
5. Ailə bağlılığı qurtuluş amili deyil. Qurtuluş üçün ləyaqət lazımdır.
6. Günahkarları cəzalandırarkən hansısa bağlılıqların təsiri altına düşməyin.
7. Rəftarlarımızda hər kəslə ayrıca hesab aparaq. Zövcənin azğınlığı ərin paklığına nöqsan gətirmir. (Peyğəmbər zövcəsi cəhənnəm əhli ola bilər.)
8. Bəzən zövcə düşmənlərin təsiri altına düşür. (Livat üçün şərait yarandıqda, məsələn həzrət Lutun gözəl qonaqları olduqda zövcəsi bunu camaata xəbər verirdi.)
9. İnsanın taleyi onun öz əməllərindən asılıdır.
10. Livat hadisəsi ilə bəşər nəslinin davamına mane olanların öz nəsli daşqalaqla kəsilir.
11. Qanuni izdivac yolundan uzaqlıq həmcinsbazlığa, yaranış qanununun dəyişməsi rəhmət yağışının əzab yağışına çevrilməsinə səbəb olur.
12. Höccət tamamlandıqdan, xəbərdarlıq başa çatdırıldıqdan sonra ilahi əzab nazil olur.

### *AYƏ 59:*

﴿قُلِ الْحَمْدُ لِلَّهِ وَسَلَامٌ عَلَى عِبَادِهِ الَّذِينَ اصْطَفَى آللَّهُ خَيْرٌ أَمَّا يُشْرِكُونَ﴾

**"De ki, həmd-səna Allah üçündür. Salam olsun seçilmiş bəndələrə. Allah üstündür, yoxsa Ona şərik qoşduqları?"**

[1] "Hicr", 74.
[2] "Ğafir", 51.
[3] "Yunus", 103.

**Bildirişlər**

1. Günahkarların cəzalandırılması və möminlərin qurtuluşu ilahi lütflərdəndir. Onun şükrünü yerinə yetirmək lazımdır.

2. Şükür qaydasını Allahdan öyrənək.

3. Allah bəndələrinin mədhi və onlara salam Allaha sitayişlə yanaşı zikr olunur.

4. Allahı yadda saxlayaq ki, Allah da bizi yadda saxlasın.

5. Allahın övliyalarını yaddan çıxarmayaq.

6. Allahın övliyaları sağdır və bizim salamımızı alırlar.

7. Qəlbimizi Allaha tapşıraq və Ona bəndə olaq ki, Allahın və Onun rəsulunun salamını ala bilək.

8. İnsanın bəndəliyi ilahi seçim meyarıdır.

9. Suallarla vicdanları oyadaq.

***AYƏ 60:***

﴿أَمَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَأَنزَلَ لَكُم مِّنَ السَّمَاءِ مَاءً فَأَنبَتْنَا بِهِ حَدَائِقَ ذَاتَ بَهْجَةٍ مَّا كَانَ لَكُمْ أَن تُنبِتُوا شَجَرَهَا أَإِلَهٌ مَّعَ اللَّهِ بَلْ هُمْ قَوْمٌ يَعْدِلُونَ﴾

**“Kimdir səmaları və yeri yaradan? Səmadan sizin üçün su endirdi, onun vasitəsi ilə gözəl bağlar cücərtdi. Onun ağaclarını cücərtmək sizin işiniz deyildi. Allahla yanaşı başqa bir məbudmu var? Yox, onlar həddi aşmış bir qövmdür.”**

**Nöqtələr**

●“Hədaiq” dedikdə «göz hədəqəsi kimi divarlarla əhatəyə alınmış bağ» mənası başa düşülür.

**Bildirişlər**

1. Allaha yaxınlaşmaq üçün ən üstün yol yaranış haqqında düşünməkdir.

2. Hər bir ağac və bitki Allahın nəzəri altda, Onun iradəsi ilə cücərir.

3. Allahın iradəsi adi vasitələrlə həyata keçir.

4. Könül oxşayan gözəllik bir dəyərdir.

5. Hamının anlayacağı tərzdə danışaq. (Bitki aləminin xüsusiyyətlərini və sirlərini hamı dərk etmir. Yaşıllıq və gül-çiçəyin təravət və gözəlliyini isə hamı dərk edə bilir.

6. İnsan hətta bir ağac cücərtməyə belə qadir olmadığını anladıqda Allahın qüdrətini dərk edir.

7. Düşündürücü suallarla vicdanları oyadaq.

8. Şübhələrin qarşısını alaq. Göyləri və yeri yaratdığını kimsə iddia etmir. Amma təbiət aləmi ilə bağlı iddialar var. Bəziləri deyir ki, filan məntəqəni biz

yaşıllaşdırıb abadlaşdırdıq. Ona görə də Allah bu işin insan işi olmadığını buyurur. Digər bir yerdə buyurulur: “Əkib-becərən sizsiniz, yoxsa Biz?”[1]

9. Tövhid doğru, şirk isə yanlış yoldur.

*AYƏ 61:*

﴿أَمَّن جَعَلَ الْأَرْضَ قَرَارًا وَجَعَلَ خِلَالَهَا أَنْهَارًا وَجَعَلَ لَهَا رَوَاسِيَ وَجَعَلَ بَيْنَ الْبَحْرَيْنِ حَاجِزًا أَإِلَهٌ مَّعَ اللَّهِ بَلْ أَكْثَرُهُمْ لَا يَعْلَمُونَ﴾

**“Yeri qərargah edib, onda çaylar yaradan, onun üçün dağları sabit və möhkəm qərar verən, iki (şor və şirin) dərya arasında sədd qoyan kimdir? Allahla yanaşı başqa bir məbudmu var?! Yox, onların əksəri bilmir.”**

*AYƏ 62:*

﴿أَمَّن يُجِيبُ الْمُضْطَرَّ إِذَا دَعَاهُ وَيَكْشِفُ السُّوءَ وَيَجْعَلُكُمْ خُلَفَاء الْأَرْضِ أَإِلَهٌ مَّعَ اللَّهِ قَلِيلًا مَّا تَذَكَّرُونَ﴾

**“Kimdir bir çarəsiz çağıran zaman onu eşidən, pisliyi uzaqlaşdıran, sizi yer üzünün canişinləri qərar verən? Allahla yanaşı başqa bir məbudmu var?! Nə az öyüd götürürsünüz!”**

**Nöqtələr**

●Rəvayət və təfsirlərdə 62-ci ayənin tilavətinin duanın qəbuluna təsirli olması barədə məlumatla rastlaşmamışam. Amma insanlar ayənin mənasına görə, bərəkət üçün onu oxuyurlar və bunun eybi yoxdur.

●Allahla münacat, Onunla raz-niyaz bəyənilmiş və zəruri bir işdir. Onun dərgahına üz tutub dua etmək, xüsusi ilə çətin məqamlarda qurtuluş istəmək hamı üçün zəruridir.

***Məryəmin dərdinə dəvadır deyən***
***Körpə dilə gəldi, götürüldü qəm.***
***Dərdin yanındadır onun dəvası,***
***Xəstənin uzaqda deyil şəfası.***
***Haraya cavab var, həqiqətdi bu,***
***Əlbət ki, çökəkdən axıb gedir su.***
***Göylərdə qəbuldu nalə, yalvarış,***
***Üz tutub Allaha, dərdini danış.***
***Əl götür tələbdən, ahu zar elə,***
***Mərhəmət naləylə yetişir ələ.*** [1]

---

[1] “Vaqiə”, 64.

●Rəvayətdə oxuyuruq: "Ayədəki "muztərr" ("iztirabda olan") sözünün əsil ünvanı, rəvayətlərə əsasən, imam Mehdidir (ə). "Pisliyi uzaqlaşdırar" dedikdə isə həzrət Mehdinin (ə) dövründə aradan qaldırılacaq küfr hakimiyyəti nəzərdə tutulur. Yer üzünün canişinləri isə həmin dövrdə hakimiyyətə çatacaq salehlərdir.[2]

●Duanın qəbul olunmamasının səbəbləri var. Məsələn:

a) Dua xeyir istəməkdir. Bəzən biz xeyir istədiyimizi düşünsək də, istəyimiz xeyir olmur.

b) İstək ciddi və ah-naləli olmur.

v) Duada ixlas, səmimiyyət olmur. Dua edən insan üzünü Allah dərgahına tutsa da, ətrafdan kömək gözləyir.

Bəzən Allah istədiyimizin əvəzinə Öz hikməti əsasında başqa bir şey verir. Məsələn, Allah məsləhət bilir ki, hansısa bəlanı bizdən uzaqlaşdırsın. Bəzən isə istək dünyada yox, Qiyamətdə verilir. Bəzən insanın özünə yox, onun nəslinə lütf olunur. Bütün deyilənlər rəvayətlərdə qeyd olunmuşdur.

Müztərrin (iztirabda olanın) eşidilməsi ilahi işdir. Amma Allah Öz sünnəsini dəyişmir. Məsələn, ilahi sünnəyə əsasən, insanlar hansısa bir şəkildə dünyadan getməlidirlər. Can verən məqamda bütün insanlar müztərr sayılırlar. Amma həmin halda bütün insanların istəyi qəbul olunsa, ölüm qanunu ləğv olunar.

### *ALLAHA İMANIN KÖKÜ*

●Allaha imanın kökü ağıl və fitrətdir. Amma materialistlər elə hesab edirlər ki, Allaha imanın kökü insandakı qorxudur. Guya özünü hadisələr qarşısında aciz görən insan təsəvvüründə bir qüvvə canlandırıb ona sığınır.

Materialistlər bu düşüncə ilə imanın qorxudan qaynaqlandığını bildirirlər. Amma onlar Allaha doğru hərəkətlə Allaha köklü imanın fərqini anlamırlar. Məsələn, biz bir it gördükdə təhlükə hiss edib daş axtarırıq. Amma demək olmaz ki, daşın tapılmasının səbəbi itdən qorxudur. Bəli, biz qorxu hiss etdiyimiz vaxt Allaha üz tuturuq. Amma Allaha iman qorxudan qaynaqlanmır.

Bundan əlavə, əgər iman qorxudan qaynaqlansaydı, daha çox qorxanlar daha imanlı olardılar. Amma əslində həqiqi möminlər yer üzünün ən şücaətli insanlarıdırlar. Materialistlərin dediklərindən belə anlaşılır ki, qorxusu olmayanın imanı yoxdur. Halbuki biz qorxmadığımız vaxtlarda ağıl və fitrət əsasında Allahı qəbul edirik. Əslində qorxu və çıxılmaz vəziyyət qəflət pərdəsini kənara çəkir, diqqətimizi Allaha yönəldir. Allahı inkar edənlər təyyarə və ya gəmidə təhlükəli vəziyyətə düşdükdə, ətrafdan heç bir köməyə ümid

---

[1] Mövləvi.

[2] "Təfsire-Nurus-səqəleyn".

etmədikdə daxilən bir xilaskar gözləyirlər. Bu insanlar həmin məqamda məchul bir nöqtəyə ümid bağlayırlar. Bəli, məhz bu ümid nöqtəsi Allah-təaladır.

**Bildirişlər**

1. Təhlükəli anlarda xilaskar bir gücə diqqət, digər vasitələrdən ümidi üzmək Allah və Onun birliyini tanımaq yollarındandır.
2. Başqalarından ümidi üzüb ixlaslı olmaq duanın qəbul şərtidir.
3. Allah istəyini dilə gətirməyən insanın halından da xəbərdardır. Amma bəndələrinin hacətini onların öz dilindən eşitmək istəyir.
4. İnsanın təbiət üzərində hökmü var.
5. Çıxılmaz vəziyyətə düşdükdə maddi güclərə ümid bağlayırsınızmı?!

### *AYƏ 63:*

﴿أَمَّن يَهْدِيكُمْ فِي ظُلُمَاتِ الْبَرِّ وَالْبَحْرِ وَمَن يُرْسِلُ الرِّيَاحَ بُشْرًا بَيْنَ يَدَيْ رَحْمَتِهِ
أَإِلَهٌ مَّعَ اللَّهِ تَعَالَى اللَّهُ عَمَّا يُشْرِكُونَ﴾

**“Sizi quru və dənizin qaranlıqlarında (ulduzlar vasitəsi ilə) hidayət edən kimdir? Rəhmətindən öncə müjdə olaraq küləkləri göndərən kimdir? Allahdan başqa məbudmu var?! Allah ona şərik qoşduqlarınızdan ucadır.”**

**Nöqtələr**

●“Quru və dənizin zülmətlərində hidayət” dedikdə ulduzlar vasitəsi ilə yol göstərilməsi nəzərdə tutula bilər.[1]

**Bildirişlər**

1. Ən üstün allahşünaslıq yolu həyatdakı çıxılmaz vəziyyətlərə diqqət, Allahın lütfünə ümid yolu tapılmasıdır.
2. Küləklər Allahın tədbiri ilə hərəkət edir.
3. Əgər vicdanları hakim seçsək, anlayarıq ki, bir Allahdan savay məbud yoxdur.
4. İstənilən bir şirk məhkumdur.
5. Allaha şərik qoşmaq Onun məqamını alçaltmaqdır.

### *AYƏ 64:*

﴿أَمَّن يَبْدَأُ الْخَلْقَ ثُمَّ يُعِيدُهُ وَمَن يَرْزُقُكُم مِّنَ السَّمَاءِ وَالْأَرْضِ أَإِلَهٌ مَّعَ اللَّهِ قُلْ
هَاتُوا بُرْهَانَكُمْ إِن كُنتُمْ صَادِقِينَ﴾

---

[1] “Nəhl”, 16.

**“Yaranışa başlayıb, sonra onu (Qiyamətdə) geri qaytaran kimdir? Kimdir sizə göydən və yerdən ruzi verən? Allahla yanaşı başqa bir məbudmu var?! De ki, doğru deyirsinizsə, dəlillərinizi göstərin.”**

**Nöqtələr**

●60-64-cü ayələrdə beş dəfə ardıcıl şəkildə “Allahla yanaşı başqa bir məbud varmı” deyə soruşulur. Məqsəd şirki puça çıxarmaq, yalançı tanrıları inkar etməkdir.

●İnsana bəzən göydən nur, hava, yağış kimi ruzilər; bəzən də yerdən bitki və meyvə kimi ruzilər verilir. Heyvanlar da yerdən istifadə etməklə inkişaf edir, mədənlər də yerdən çıxır.[1]

Quran baxımından heç bir məxluq məhv olmur. Yalnız bizə elə gəlir ki, nələrsə məhv olub gedir.[2] Məad bəzilərinin düşündüyü kimi məhv olub gedənin yenidən qaytarılması deyil. Mövcudlar sadəcə müəyyən dəyişikliklərdən sonra əvvəlki formalarına qaytarılırlar.

Quranın təkrarlanan ayələri yeni bəyanlarla yanaşı təkrarlanır. “Allahla yanaşı başqa bir məbudmu var” cümləsi hər dəfə yeni bir cümlə ilə yanaşı işlədilir:

–60-cı ayədə: “Müşriklər həddi aşmışlar.”

–61-ci ayədə: “Onların azğınlığı cəhalət səbəbindəndir.”

–62-ci ayədə: “Cahil olduqlarından az öyüd götürürlər.”

–63-cü ayədə: “Allah onların şirkindən ucadır.”

–64-cü ayədə: “Onlar dəlil-sübutsuz şirk sorağınca getmişlər.”

**Bildirişlər**

1. İlkin yaradan qüdrət yenə də həmin vəziyyətə qaytara bilər.
2. Məad cismanidir.
3. Suallarla vicdanları oyadın.
4. Müxaliflərinizin dəlilləri varsa qəbul edin.
5. İslam dəlil və məntiq dinidir. Bu din öz müxaliflərindən də dəlil tələb edir.

***AYƏ 65:***

﴿قُل لَّا يَعْلَمُ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ الْغَيْبَ إِلَّا اللَّهُ وَمَا يَشْعُرُونَ أَيَّانَ يُبْعَثُونَ﴾

**“Allahdan savay, göylərdə və yerdə heç kəs qeybi bilmir. Kimsə bilmir ki, nə vaxt ayağa qaldırılacaq.”**

---

[1] “Təfsiri-nümunə”.

[2] “Təfsire-Əl-mizan”.

*AYƏ 66:*

﴿بَلِ ادَّارَكَ عِلْمُهُمْ فِي الْآخِرَةِ بَلْ هُمْ فِي شَكٍّ مِّنْهَا بَلْ هُم مِّنْهَا عَمِونَ﴾

**“Müşriklərin elmi, ola bilsin ki, Qiyamətdə kamala çatacaq. Ola bilsin ki, müşriklər (bu gün) onun (axirətin) haqqında şübhədədirlər. Onlar axirətə münasibətdə, bəlkə də, kordurlar.”**

*AYƏ 67:*

﴿وَقَالَ الَّذِينَ كَفَرُوا أَئِذَا كُنَّا تُرَابًا وَآبَاؤُنَا أَئِنَّا لَمُخْرَجُونَ﴾

**“Küfr edənlər dedilər: “Biz və ata-babalarımız torpaq olduqdan sonra hökmən (torpaqdan) çıxarılacağıqmı?”**

*AYƏ 68:*

﴿لَقَدْ وُعِدْنَا هَذَا نَحْنُ وَآبَاؤُنَا مِن قَبْلُ إِنْ هَذَا إِلَّا أَسَاطِيرُ الْأَوَّلِينَ﴾

**“Həqiqətən, bizə və ata-babalarımıza belə vəd verilmişdi. Bu vəd keçmişlərin əfsanəsindən başqa bir şey deyil.”**

**Nöqtələr**

●Qeyblə bağlı məlumatlar bir neçə növdür. Onlardan bir növünü Allah Öz peyğəmbərlərinə öyrədir.[1] Qeyb elminin digər bir növü Qiyamət dövrünə təsadüf edir və Allahın müqəddəs zatına məxsusdur.

●Ayədəki “مَن” (mən) sözü şüurlu mövcudlara aiddir. Belə ki, səmalarda mələklərdən əlavə şüurlu mövcudlar ola bilər və bu mövcudlar Qiyamətdə insanlar kimi səhnəyə gətirilər.

●“Bəlkə onların elmi Qiyamətdə kamala çatacaq” cümləsi “Nəbə” surəsinin 4-5-ci ayələrinin oxşarıdır: “Xeyr, onlar hökmən biləcəklər; yenə də xeyr, onlar hökmən biləcəklər.”

“İddarəkə” sözü ayrı-ayrı hissələrin bir-birinə birləşməsi mənasını bildirir. Yəni müşriklər dünyada düşüncə baxımından parçalanmışdılar. Amma axirətdə onların məlumatları üst-üstə yığılacaq və elm həddinə çatacaq. Amma bunun heç bir faydası olmayacaq!

“Əsatir” dedikdə “əfsanələr” mənası anlaşılır. Kafirlər peyğəmbəri ittihamlandırırdılar. Qiyamət haqqında deyilənlər əsassızdır və baş qatmaq üçün bəyan olunur.

**Bildirişlər**

1. Məadın inkarı küfrdür.

---

[1] “Hud”, 49.

2. Məlumatın bir qrup tərəfindən qəbul edilməməsi həmin məlumatın həqiqət olmadığını göstərmir.
3. Sualın şübhə ilə təkrarı inkar nişanəsidir.
4. Düşmənlərin mühüm işlərindən biri etiqadi məsələlərdə şəkk yaratmaqdır.
5. Sözün keçmişdə deyilməsi onu etibardan salmır.
6. Bütün peyğəmbərlər məadı vəd etmişlər.
7. Günahkarlar öz günahlarına şərik axtarırlar.
8. Peyğəmbərlərin sözünü əfsanə saymaq kafirlərin gedişlərindəndir.

***AYƏ 69:***

﴿قُلْ سِيرُوا فِي الْأَرْضِ فَانظُرُوا كَيْفَ كَانَ عَاقِبَةُ الْمُجْرِمِينَ﴾

**“De ki, yer üzündə gəzin. Baxın (görün) günahkarların aqibəti necə oldu.”**

***AYƏ 70:***

﴿وَلَا تَحْزَنْ عَلَيْهِمْ وَلَا تَكُن فِي ضَيْقٍ مِّمَّا يَمْكُرُونَ﴾

**“Onlara görə qəm yemə, qurğu qurmaları səni sıxmasın.”**

**Nöqtələr**

●Quran dəfələrlə insanları yer üzünü gəzib dolaşmağa təşviq etmişdir. Məqsəd insanların günahkarların aqibətini görüb nəticə çıxarması, ibrət götürməsidir.

**Bildirişlər**

1. Tarixə düşmüş zülmkarların bu günə gəlib çatmış nişanələri ilə tanışlıq hidayət və tərbiyə vasitələrindəndir.
2. Bəşər tarixi ənənələrə, qanunlara və sünnələrə malikdir. Belə bir qayda ilə tarixin ibrətamiz səhnələri bu günümüz üçün dərs ola bilər.
3. Səfər məqsədli olmalıdır.
4. Gələcəkdəkilərin ibrət götürməsi üçün keçmişdəkilərin nişanələri qorunmalıdır.
5. Allahın qəhr-qəzəbi ilə viran olmuş yer ictimai yerdir və insanlar heç bir maneəsiz həmin yeri seyr edə bilməlidirlər.
6. Günahkarların aqibəti pisdir. (Ardıcıl günah şükür və təkzibə gətirir.)
7. Günahın dünya və axirət cəzası var.
8. Bir halda ki, günahkarların sonu bədbəxtlikdir, nə üçün onların inadkarlığı bizi qəmləndirsin?!
9. Peyğəmbər hətta hiyləgər düşmənlərin də hidayətini arzulayırdı.
10. Peyğəmbərlər Allah himayəsindədirlər. Allah Öz peyğəmbərinə təsəlli verir.

*Qəm yemə, qəmini götürən Mənəm,*
*Bütün pislikləri ötürən Mənəm.*
*Hamı səndən əgər üz də çevirsə,*
*Dünya və axirət sənə yar Mənəm.*

11. İnsanların, (hətta peyğəmbərlərin) güc və tutumu məhduddur. Peyğəmbəri qəmləndirən kafirlərin qurğusunun həyata keçməsi və təbliğin səmərə verməməsi idi. Belə bir məqamda Allah ona təsəlli verir.

12. İslam düşmənləri daim plan cızmaqla məşğuldurlar.

*AYƏ 71:*

﴿وَيَقُولُونَ مَتَى هَذَا الْوَعْدُ إِن كُنتُمْ صَادِقِينَ﴾

**“Deyirlər ki, sözünüz doğrusa, bu vəd (dünya və axirət əzabı) nə vaxt olacaq?”**

*AYƏ 72:*

﴿قُلْ عَسَى أَن يَكُونَ رَدِفَ لَكُم بَعْضُ الَّذِي تَسْتَعْجِلُونَ﴾

**“De: Çox güman ki, tələsik istədiyiniz əzabın bir hissəsi sizə çatmaqdadır.”**

*AYƏ 73:*

﴿وَإِنَّ رَبَّكَ لَذُو فَضْلٍ عَلَى النَّاسِ وَلَكِنَّ أَكْثَرَهُمْ لَا يَشْكُرُونَ﴾

**“Əlbəttə, sənin Rəbbin insanlara münasibətdə fəzl sahibidir. Amma onların çoxu şükür etmir.”**

*AYƏ 74:*

﴿وَإِنَّ رَبَّكَ لَيَعْلَمُ مَا تُكِنُّ صُدُورُهُمْ وَمَا يُعْلِنُونَ﴾

**“Əlbəttə, sənin Rəbbin onların qəlblərində gizlətdiyi və aşkarladığı nə varsa (yaxşı) bilir.”**

**Nöqtələr**

●Peyğəmbərlər insanları Qiyamət və Allahın qəhr-qəzəbi ilə qorxutduqda onlar bu hadisənin nə vaxt baş verəcəyini soruşurdular. Amma həmin vaxt yalnız Allaha məlum olduğundan peyğəmbərlər cavab vermirdilər. Onlar xalqa

yalnız xəbərdarlıq edir, Qiyamət hadisəsinin nə vaxt baş verəcəyi barədə bir söz demirdilər.

●"Qəlblərində olan" təbirinin "aşkar etdikləri" təbirindən öncə gəlməsi bir neçə cür izah edilə bilər:

a) Aşkar baş verən işlərin səbəbi iç düşüncələr və niyyətlərdir;

b) İnsanların içini bilmək onların zahirini bilməkdən mühümdür;

v) Allahın iç məqsədlərdən və düşüncələrdən xəbərdarlığı məadı inkar edənlər üçün daha qorxuludur.

**Bildirişlər**

1. Kafirlər əzabın müşahidəsi üçün həm tələsir, həm də uyğun vədi məsxərəyə qoyurdular.
2. Bir mövzunun xırdalıqlarını bilməmək onu inkar etmək üçün dəlil ola bilməz. (Əgər Qiyamətin nə vaxt baş verəcəyini bilmiriksə, onun əslini inkar etməyək.)
3. Qiyamətin nə vaxt baş verəcəyi ilə bağlı inadkar sualların kökü peyğəmbərliyə şübhədir.
4. Hər sualı cavablandırmaq zəruri deyil. (Kafirlər Peyğəmbərdən (s) əzab vaxtını soruşsalar da, Peyğəmbər (s) onlara cavab vermirdi.)
5. İnsanların kafirlərə tələsik əzab istəməsi Allahın hikmətini dəyişmir.
6. Dünya kamil cəza yeri deyil.
7. İlahi cəzaların nizamı, vaxt bölgüsü var və bu cəzalar mərhələ-mərhələ həyata keçir.
8. Qorxu və ümid yanaşı olduqda səmərəlidir.
9. Kafirlər tövbə ilə vəziyyəti dəyişib Allahın qəzəbindən qurtula bilərlər.
10. Dünya əzabından bir qədər dadmaq oyanış və tövbə vasitəsi, ilahi fəzl ola bilər.
11. Cəzanın təxirə salınması tərbiyə və lütf nişanələrindəndir. Bu təsir tövbə üçün fürsət yaradır.
12. Əksəriyyətin nankorluğu Allahın lütfünü dayandırmır.
13. Allahın elminə şəkk etməyin.
14. Bir halda ki, Allah hər şeydən xəbərdardır, günah və nifaqa necə yol verilsin?! Bir işin gizlində və ya aşkarda baş verməsi Allahın elminə təsirsizdir.
15. Allahın rübubiyyəti Onun kamil xəbərdarlığı ilə müşayiət olunur.
16. Allahın gizlindən və aşkardan xəbərdarlığı Onun vədlərinin gerçəkləşəcəyinə zamindir. Beləsə, tələsməyin!

***AYƏ 75:***

﴿وَمَا مِنْ غَائِبَةٍ فِي السَّمَاء وَالْأَرْضِ إِلَّا فِي كِتَابٍ مُّبِينٍ﴾

**"Göydə və yerdə heç bir gizli (mövcud) yoxdur ki, açıq-aydın kitabda (Allahın yanında qeyd) olmasın."**

**Nöqtələr**

●"Ğaibətin" sözündəki "ta" hərfi mübaliğə nişanəsi olarsa, "çox sirli" mənasını bildirər. Bu hərf qadın cinsi ("tənis") əlaməti də ola bilər.[1]

●Göylərin və yerin qeybi dedikdə bəşəriyyətin bütün məxfi işləri, niyyətləri, Qiyamətin qopması, rəhmət və ya əzabın nazil olma vaxtı nəzərdə tutulur.

●"Kitabun mubin" dedikdə lövhi-məhfuz və Allahın sonsuz elmi nəzərdə tutula bilər.

**Bildirişlər**

1. Bəşəriyyət bir çox həqiqətləri dərk etməkdə acizdir.
2. Bütün varlıq aləmi Allahın nəzarətindədir və hesab-kitabı var.

*AYƏ 76:*

﴿إِنَّ هَذَا الْقُرْآنَ يَقُصُّ عَلَى بَنِي إِسْرَائِيلَ أَكْثَرَ الَّذِي هُمْ فِيهِ يَخْتَلِفُونَ﴾

**"Həqiqətən, bu Quran Bəni-İsrailin ixtilafda olduğu məsələlərin çoxunu (düzgün şəkildə) onlara nəql edir."**

**Nöqtələr**

●Ayədən məlum olur ki, İslam Peyğəmbərinin (s) dövründə Tövrat və İncil kitab əhlinin ixtilaflarını həll etməyə qadir deyildi. İxtilafları əvvəlki səmavi kitablara hakim olan Quran yalnız ixtilafları həll etmək gücündədir.

**Bildirişlər**

1. Əqli və köklü ixtilafların məktəb görməmiş peyğəmbər əli ilə həlli Quranın ecazkarlıq və ilahilik nişanəsidir.

Mövlam qələm alıb getmədi dərsə,
Amma dərs deyərdi yüz müdərrisə.

2. Quranın bərəkətlərindən biri onun ixtilafları həll etməsidir.
3. İlahi məktəblərdə heç bir ixtilaf yoxdur. İxtilafı yaradan xalqdır.

*AYƏ 77:*

﴿وَإِنَّهُ لَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ﴾

**"Əlbəttə ki, o, (Quran) iman əhli üçün hidayət və rəhmətdir."**

*AYƏ 78:*

﴿إِنَّ رَبَّكَ يَقْضِي بَيْنَهُم بِحُكْمِهِ وَهُوَ الْعَزِيزُ الْعَلِيمُ﴾

**"Şübhəsiz, sənin Rəbbin Öz hökmü ilə onların arasında mühakimə aparacaq. O, qüvvət və agahlıq sahibidir."**

---

[1] "Təfsiri-nümunə".

*AYƏ 79:*

﴿فَتَوَكَّلْ عَلَى اللَّهِ إِنَّكَ عَلَى الْحَقِّ الْمُبِينِ﴾

**“Allaha təvəkkül et, (bil ki) sən aşkar haqq yoldasan.”**

**Bildirişlər**

1. İxtilafların həlli aşkar hidayət və rəhmət nümunəsidir.
2. İman ilahi rəhmət səbəbidir.
3. Allah Öz peyğəmbərinə təsəlli verir.
4. Mühakimə Allahın rübubiyyət şənlərindəndir.
5. İlahi hökmlər Allahın müqəddəs zatına məxsusdur. Çünki cəhalət, qorxu, meyllər və hadisələr Onun hökmünə təsir etmir, Onun hökmü tam ədalətlidir.
6. Mühakimədə ədalətdən əlavə elm və qüdrətə ehtiyac var.
7. Allaha təvəkkül rəhbərin müvəffəqiyyəti üçün bir şərtdir.
8. Yolun doğruluğuna diqqət və onun təlqini insanı ötəri hadisələr qarşısında sığortalayır.
9. Peyğəmbər yolunda heç bir şübhəli nöqtə yox idi. Müxaliflər sadəcə bəhanə axtarırdılar.
10. Allaha təvəkkül yalnız haqq yolda mənalı və səmərəlidir.
11. Rəhbər getdiyi yolun doğruluğuna inanmalıdır.

*AYƏ 80:*

﴿إِنَّكَ لَا تُسْمِعُ الْمَوْتَى وَلَا تُسْمِعُ الصُّمَّ الدُّعَاء إِذَا وَلَّوْا مُدْبِرِينَ﴾

**“Şübhəsiz, öz dəvətini nə ölülərin qulağına çatdırar, nə də dönüb gedən karlara eşitdirə bilərsən.”**

*AYƏ 81:*

﴿وَمَا أَنتَ بِهَادِي الْعُمْيِ عَن ضَلَالَتِهِمْ إِن تُسْمِعُ إِلَّا مَن يُؤْمِنُ بِآيَاتِنَا فَهُم مُّسْلِمُونَ﴾

**“Sən korları azğınlıqlarından çəkindirən deyilsən. Sən yalnız öz sözünü ayələrimizə iman gətirənlərin, haqq qarşısında təslim olanların qulağına yetirə bilərsən.”**

**Nöqtələr**

●Quran leksikonunda ölüm və həyat dedikdə həm təbii, həm də mənəvi ölüm və həyat nəzərdə tutulur.

Quran haqq sözün təsir etmədiyi kəsləri ölü sayır. Təkrar-təkrar bəyan olunur ki, şəhidləri ölü saymayın, onlar diridir, şaddır, bir-birinə müjdə verir,

ilahi ruzidən bəhrələnirlər. Bəli, daş qəlbli və inadkar insan ölü, dünyadan getmiş şəhid diridir. Məsələni bir qədər də açıqlayaq:

## *HƏYAT MƏRHƏLƏLƏRİ*

●Həyatın müəyyən mərhələləri var:

1. Nəbatat həyatı–Quranda buyurulur ki, torpaq öləndən sonra Allah onu yağış vasitəsi ilə dirildir.[1]

2. Heyvani həyat–Quranda buyurulur ki, Biz sizə həyat verdik.[2]

3. Ruhi həyat–Ayələrdə oxuyuruq ki, diri insanlar oyadılsın, yəni sağlam ağıl və fitrəti olanlara xəbərdarlıq edilsin. Qeyd olunur ki, peyğəmbərlərin dəvəti sizin həyatınız üçündür.[3]

4. İctimai-siyasi həyat–Əgər qisas hökmünün icrası ilə ədaləti bərqərar etsəniz, cəmiyyət diridir.[4]

5. Axirət həyatı–dünya həyatını puça çıxarmış insanın dilindən nəql olunur ki, kaş axirətdə həqiqi həyat üçün bir şey göndərmiş, azuqə toplamış olaydım.[5]

## *BİR İRADA CAVAB*

●“Təfsiri-nümunə”də oxuyuruq: “Vəhhabilər “şübhəsiz, dəvətini ölülərin qulağına çatdıra bilməzsən” buyruğunu öz yanlış əqidələri üçün dəlil göstərirlər. Onlar iddia edirlər ki, dünyasını dəyişmiş Peyğəmbər (s) heç bir söz eşitmir və onu ziyarət etməyin, ona müraciətin heç bir mənası yoxdur.

Bu puç iddiaya cavab olaraq deməliyik ki, ayədə ümumi bir təşbeh nəzərdə tutulmuşdur. Məsələn, “Bəqərə” surəsinin 74-cü ayəsində bəzilərinin qəlbi daşa bənzədilir. Bu o demək deyil ki, onların qəlbi istənilən bir halda daşdır. Quran şəhidlərin bərzəx həyatında yaşadığını bildirir. Bu mövzuda yetərincə şiə və sünni rəvayətləri var:

1. Məhəmməd ibn Əbdül-Vəhhab “əl hədiyyətus-sünniyyə” kitabında yazır: “Peyğəmbərin (s) ölümdən sonrakı Bərzəx həyatı şəhidlərin həyatından üstündür. O, salam verənlərin salamını eşidir.”

2. Bir çox şiə və sünni kitablarında bildirilir ki, Peyğəmbər (s) və imamlar onlara uzaqdan və yaxından salam verənlərin salamını eşidir və cavab verir. Hətta insanların əməlləri onlara xəbər verilir.[6]

3. Biz özümüz şahid olmuşuq ki, peyğəmbər və onun Əhli-beytinə (ə) üz tutan (təvəssül edən) minlərlə insanın istəyi həyata keçib.

---

[1] “Ənkəbut”, 50.
[2] “Casiyə”, 26.
[3] “Yasin”, 70; “Ənfal”, 24.
[4] “Bəqərə”, 179.
[5] “Fəcr”, 24.
[6] “Kəşful-irtiyab”, s. 109.

4. “Səhih-Buxari”də oxuyuruq: “Həzrət Peyğəmbər (s) Bədr döyüşündə həlak olanlarla danışırdı. Şəhidlərin eşidib-eşitməməsi ilə bağlı Ömərin verdiyi sualı həzrət belə cavablandırdı: “And olsun canım əlində olan Allaha, siz onlardan yaxşı eşitmirsiniz.”[1]

5. Həzrət Əli (ə) Cəməl döyüşünün sonunda buyurdu: “Səd ibn Surun meyitini oturdun.” Sonra həzrət ona üz tutub buyurdu: “Vay olsun sənə, elm və bilik sənə fayda vermədi, şeytan səni azdırdı və Cəhənnəmə yola saldı.”[2]

**Bildirişlər**

1. Bəsirəti kor olanları Allaha tapşır.

2. Dinləyicinin qəlbi daş olsa, pak bir insanın dediyi haqq sözlər də ona təsir etməyəcək. Bəli, yanmış elektrik lampasını heç bir mənbə işıqlandıra bilməz.

Qəlbi daş insana öyüd vermə sən,
Dəmir mıx qayaya yeriməz əslən.

3. Peyğəmbər təbliğlərinin səmərə verməməsi onların işindəki nöqsanla yox, insanların qəlbinin korluğu ilə əlaqəlidir.

4. İman cisimdə ruh kimidir. Möcüzə görüb məntiqi söz eşitməklə iman gətirməyənlər ruhsuz cəsəd kimidirlər. Haqqın eşidilməsi və qəbulu ruhun sağlamlığını göstərir.

5. İnsan yəqinə çatsa, xalqın inkarı ona təsir göstərməz.

6. Karlara işarə ilə nəyisə anlatmaq olur. Amma həqiqətə arxa çevirib haqq əhlindən uzaqlaşanlar işarə də qanmırlar.

7. İnkardan da pisi inkarı davam etdirməkdir.

### *AYƏ 82:*

﴿وَإِذَا وَقَعَ الْقَوْلُ عَلَيْهِمْ أَخْرَجْنَا لَهُمْ دَابَّةً مِّنَ الْأَرْضِ تُكَلِّمُهُمْ أَنَّ النَّاسَ كَانُوا
بِآيَاتِنَا لَا يُوقِنُونَ﴾

---

[1] “Səhih Buxari”, c. 5, s. 97.

[2] İbn Əbul-Hədid, “Şərhi Nəhcül-bəlağə”, c. 1, s. 248.

**“Əgər (ilahi əzabla bağlı vəd və) söz insanlar üçün qətiləşsə, onlarla danışmaq üçün yerdən bir canlı çıxararıq və o deyər: “Həqiqətən, insanlar bizim ayələrimizə inanmırdılar.”**

**Nöqtələr**

●Zahirən belə görünür ki, ayə Qiyamətdən öncəki cərəyandan danışır. Belə ki, Allahın qəzəbi labüdləşdikdə O Öz qüdrəti ilə yerdən canlı bir varlıq çıxarar, həmin varlıq insanlarla danışar və sözü də bu olar ki, insanlar iman gətirmir.

●“Dabbətən” dedikdə insandan qeyrisi nəzərdə tutulsa da, Quranda bu söz dəfələrlə insan mənasında işlənmişdir. Digər bir tərəfdən, ayədə nəzərdə tutulan varlığın sözü bütün kafirlər üçün dəlil olmalıdır. Qeyd etməliyik ki, bu söz mühüm bir şəxsiyyətə işarədir və rəvayətlərə əsasən həmin şəxs Əli ibn Əbi-Talibdir (ə).

●Bu ayə dünyanın sonunda qiyam qaldırıb, fövqəladə hərəkətlər edən, haqqı batildən, mömini kafirdən ayıran övliyalara da şamil olunur.

**“Dabbətən” dedikdə kim və nə nəzərdə tutulur?**

●Ayədə “dabbətən” adlandırılan mövcudun çox mühüm olduğunu göstərən nişanələr var:

1. O, ilahi qəhr-qəzəb astanasında zahir olar. Sözün mühüm qaynaqdan olması onun əhəmiyyətini göstərir.
2. İstisna bir formada peyda olar.
3. Danışar, mühakimə edər, xalqın gələcəyindən xəbər verər.
4. Onun sözü İsrafilin suru kimi sonuncudur.
5. “Dabbətən” sözünün tənvinlə (“ən” ilə) işlənməsi əzəmət və böyüklük göstəricisidir.
6. Növbəti ayə Allah övliyalarının Qiyamətdən öncə diriləcəyi rəcət məsələsini bəyan edir.
7. Ayədə “Allahın ayələri” yox, “bizim ayələrimiz” təbirinin işlənməsi həmin mövcudun ilahi nişanələrini göstərir.

Ayənin zahirindən görünən bu nişanələri və təfsirlərdə nəql olunmuş çoxsaylı rəvayətləri ümumiləşdirdikdə belə bir nəticəyə gəlirik ki, uyğun təbir Həzrət Əliyə (ə) işarədir. Bəli, son sözü deməyə o layiqdir. Bəzilərinin alnına imansızlıq möhürü vurub, azğınların pis aqibətini xəbər vermək onun şənindədir.

### *İKİ SUAL*

**Sual:** Məgər “dabbətən” sözü qeyri-insani bir varlığa aid deyilmi?

**Cavab:** Xeyr, Quranda bu söz dəfələrlə insana şamil edilmişdir.[1]

---

[1] “Hud”, 6.

**Sual:** Məgər Həzrət Əlini (ə) "canlı" adlandırmaq onun alçaldılması deyilmi?

**Cavab:** Xeyr! Allahın "alim", "nur", "vücud", peyğəmbərin "bəşər" adlandırılması təhqir olmadığı kimi, Əlinin də "dabbətən" adlandırılması təhqir deyil. Amma Allaha verilən adlar başqalarına verilən adlardan fərqlənir.

***AYƏ 83:***

﴿وَيَوْمَ نَحْشُرُ مِن كُلِّ أُمَّةٍ فَوْجًا مِّمَّن يُكَذِّبُ بِآيَاتِنَا فَهُمْ يُوزَعُونَ﴾

**"(Yada sal) o gün ki, hər ümmətdən ayələrimizi inkar edən dəstələri səhnəyə gətirərik. Onlara dağılışmaq qadağan olunar."**

***AYƏ 84:***

﴿حَتَّى إِذَا جَاؤُوا قَالَ أَكَذَّبْتُم بِآيَاتِي وَلَمْ تُحِيطُوا بِهَا عِلْمًا أَمَّاذَا كُنتُمْ تَعْمَلُونَ﴾

**"Elə ki, toplandılar, (Allah) buyurar: «Elminiz çatmadığı halda Bizim ayələrimizi yalan saydınızmı? Siz (həyatınız boyu təkzibdən başqa) nə etdiniz?»"**

**Nöqtələr**

●Qiyamətdə bütün bəşəriyyətin səhnəyə gətiriləcəyini[1] və hazırkı ayədə hər ümmətdən yalnız bir dəstənin məhşur ediləcəyini nəzərə alsaq, məlum olar ki, bu ayə Qiyamətə yox, Qiyamətdən öncə bir dəstənin dirildilməsi ilə müşayiət olunacaq rəcətə aiddir.

●Quranda elə bu dünyada dirilmə hadisəsini təsdiqləyən nümunələr var. "Bəqərə" surəsinin 243-cü ayəsində bildirilir ki, Allah bir dəstəyə ölmək əmri verib, sonra onları diriltdi. "Bəqərə" surəsinin 56-cı ayəsində buyurulur ki, Biz sizi ölümdən sonra bu dünyadaca diriltdik. "Maidə" surəsinin 110-cu ayəsində buyurulmuşdur: "Sən Mənim iznimlə ölüləri qəbirlərdən diri çıxarırsan." Allah övliyalarından biri haqqında belə buyurulur: "Onu 100 il müddətində öldürdük, sonra diriltdik."[2] Bir çox rəvayətlərdə də qeyd olunur ki, Qiyamətdən öncə iman və ya küfr baxımından seçilmiş fərdlər Allahın iradəsi ilə dirildilər. Onlar haqq əhlinin hakimiyyətində bir müddət yaşayar, küfr qabaqcılları cəzalandırılar.

**Bildirişlər**

1. Xalqın ümumi həşri (dirildilməsi) Qiyamətə aiddir. Amma bir qrup kafirin dirildilməsi bu dünyada baş verəcək hadisədir.

2. Bütün ümmətlərdə imanla küfr arasında təzad olmuşdur.

---

[1] "Kəhf", 47.

[2] "Bəqərə", 259.

3. Qiyamətdən öncə dirçəliş mütləq kafirlərə aiddir. (Rəvayətdə deyilir ki, rəcət birinci dərəcəli möminlərə və kafirlərə aiddir.)

4. Bilmədiyiniz şeyi təkzib etməyin. (Əqidə möhkəm dəlilə əsaslanmalıdır.)

5. İnsanların əməlləri onların əqidə və düşüncələrindən qaynaqlanır. (Öncə təkzib, sonra xilaf işlər!)

6. Xüsusi kafirlər dünyada dirildikdən sonra mühakimə başlananadək nəzarət altında saxlanılar.

7. Kafirlər rəcət dövründə həm əqidələrinə, həm də əməllərinə görə tənbeh olunar.

8. Allah qarşısında hamı cavab verməlidir.

***AYƏ 85:***

﴾وَوَقَعَ الْقَوْلُ عَلَيْهِم بِمَا ظَلَمُوا فَهُمْ لَا يَنطِقُونَ﴿

**“Etdikləri zülmə görə onlara hökm verilər. Onlar bir söz deyə bilməzlər.”**

***AYƏ 86:***

﴾أَلَمْ يَرَوْا أَنَّا جَعَلْنَا اللَّيْلَ لِيَسْكُنُوا فِيهِ وَالنَّهَارَ مُبْصِرًا إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يُؤْمِنُونَ﴿

**“Görmədilərmi ki, gecəni onların istirahəti üçün qərar verdik, gündüzü işıqlı etdik? (Gündüzlər maaş üçün çalışsınlar deyə.) Həqiqətən, bu işdə imanlılar üçün ibrətlər var.”**

**Nöqtələr**

●Gecə qaranlığının əsəblərin sakitləşməsi, gündüz işığının fəaliyyət üçün əhəmiyyətli olması bu günkü elm tərəfindən sübuta yetirilmiş həqiqətlərdir.[1]

●Rəcət və məad mövzularının ardınca yuxu və oyaqlıqdan danışılması rəcət və məad mövzularına münasibətdə yaranası təəccübü aradan qaldırmaq məqsədi daşıya bilər. Bəli, rəcət və məad yuxu və oyaqlıq kimidir.

●Gecə Allahın insanlara rəhmət nümunəsi, ilahi hikmət və qüdrət nişanəsidir. Gecənin rolunu görməməzliyə vurmaq ayədəki cahilanə təkzib nümunələrindəndir.

---

[1] “Təfsiri-nümunə”.

## *İSTİRAHƏT, ARAMLIQ VASİTƏLƏRİ*

●Quranda bəzi işlər istirahət və aramlıq vasitəsi kimi tanıtdırılır. O cümlədən: Allah zikri[1]; qeybi yardımlar[2]; müqəddəs əsər və əşyalar[3]; ilahi övliyaların təşviqi[4]; sığınacaq və ev[5]; həyat yoldaşı[6]; gecə[7].

Qeyd etməliyik ki, Quranın nazil edilməsi, Peyğəmbərin (s) meracı gecəyə təsadüf edir. Gecə dua və münacat vaxtıdır. Amma bəzi azğınlar gecə nemətindən sui-istifadə edib günaha batırlar.

Hazırkı əsrdə aramlıq üçün başqa ünvanlara müraciət olunur. Buna görə də nəticə əldə edilmir. Bu gün dünya texnoloji tərəqqiyə, silahlanmaya, var-dövlətə, gücə, diplomatik rabitələrə üz gətirmişdir. Mənəviyyat itirildiyindən aramlıqdan soraq yoxdur. Bir çoxları narkotik maddələrə, şəraba, eyş-işrətə aludə olmuşlar. Həqiqəti anlamaq üçün dünyada baş verən cinayətlərin statistikası ilə tanış olmaq yetər.

**Bildirişlər**

1. Zülmkarlara hökmən əzab veriləcək.
2. Zülmkarlara öncədən ilahi əzab vəd olunmuşdur.
3. Bədbəxtliklərin səbəbkarı insan özüdür.
4. Peyğəmbərlərin həyati əhəmiyyət daşıyan xəbərdarlıqlarının təkzibi insanın özünə qarşı zülmüdür.
5. Qiyamət günü zülmmkarın danışmağa sözü yoxdur.
6. Gecə və gündüzün dəyişməsindən ibrət götürməyənlər məzəmmətə layiqdirlər. Quranın tənqidləri daha çox qəflətdə yaşayanlara ünvanlanıb.
7. Varlıq aləmindəki nizam bəşəriyyətin ehtiyaclarına uyğundur. Bu uyğunluq hikmət sahibi və yeganə Rəbbin varlığını göstərir.
8. Həyat proqramlarınızda gecəni istirahət üçün ayırın.
9. İman və dini təfəkkürün rolu budur ki, yaranışı mənalı və məqsədli bilir, qüdrət və hikmət nişanəsi sayır.
10. İstirahət iş və səy üçün müqəddimə olmalıdır. Gündüzün işığı iş üçündür.[8] İnsan bu işıq vasitəsi ilə Rəbbinin fəzlini soraqlamalıdır.
11. Yalnız iman əhli ilahi ayələrdən ibrət götürür.

---

[1] “Rəd”, 28.
[2] “Fəth”, 4.
[3] “Bəqərə”, 248.
[4] “Tövbə”, 103.
[5] “Nəhl”, 80.
[6] “Rum”, 21.
[7] “Nəml”, 86.
[8] “İsra”, 12.

### *AYƏ 87:*

﴿وَيَوْمَ يُنفَخُ فِي الصُّورِ فَفَزِعَ مَن فِي السَّمَاوَاتِ وَمَن فِي الْأَرْضِ إِلَّا مَن شَاءَ اللَّهُ وَكُلٌّ أَتَوْهُ دَاخِرِينَ﴾

**"(Yada sal) o gün ki, sur üfürülər, göylərdə və yerdə Allahın istədiyindən savay hər kəs qorxuya düşər. Hamı müti halda Onun yanına gələr."**

**Nöqtələr**

●"Daxirin" sözü zillət və kiçiklik mənasını bildirir.

●Quranda iki "sur üfürülməsindən" danışılır: hamının ölümünə səbəb olan üfürülmə və hamının dirilməsinə səbəb olan üfürülmə. Bu mövzuya "Zumər" surəsinin 68-ci ayəsində toxunulur: «Sur üfürülər, səmada və yerdə olan bütün mövcudlar ölər. Yalnız Allahın istədiyi kəslər istisnadır. Sonra yenidən sur üfürülər, dərhal bütün məxluq ayağa qalxıb hesab saatını gözləyər.»

Ayədə həm birinci, həm ikinci, həm də hər iki sur üfürülməsi nəzərdə tutula bilər.

●Rəvayətdə oxuyuruq: "Suru üfürmək İsrafil adlı mələyə tapşırılıb. "Ümmü-Davud" duasında İsrafilin adı qeyd olunur.[1]

●Qiyamətin başlanğıcından dəhşətə gələnlər növbəti iki ayədə tanıtdırılırlar. "Ənbiya" surəsinin 103-cü ayəsində bildirilir ki, həmin günün böyük fəryadı onları məhzun edər.

**Bildirişlər**

1. Varlıq nizamının dağılması, insanların ölümü və Qiyamətin başlanması dəhşətli bir səsin yaranması ilə baş verər.

2. Göylərdə diri və məsul mövcudlar var. Həşr və Qiyamət bu mövcudlara da aiddir.

3. Qiyamətdə hamı daxilən bir kiçiklik hiss edər.

### *AYƏ 88:*

﴿وَتَرَى الْجِبَالَ تَحْسَبُهَا جَامِدَةً وَهِيَ تَمُرُّ مَرَّ السَّحَابِ صُنْعَ اللَّهِ الَّذِي أَتْقَنَ كُلَّ شَيْءٍ إِنَّهُ خَبِيرٌ بِمَا تَفْعَلُونَ﴾

---

[1] "Təfsire-Nurus-səqəleyn".

**“Dağları görər və zənn edərsən ki, hərəkətsizdirlər. Halbuki onlar buludlar tək hərəkətdədir. Hər şeyi diqqətlə nizamlamaq Allahın sənətidir. O, gördüyünüz bütün işlərdən xəbərdardır.”**

**Nöqtələr**

●“Sənət” sözündən olan “sünə” sözü elm, diqqət və məharət əsasında görülmüş iş mənasını bildirir.

●Yer kürəsinin hərəkəti haqqında ilk dəfə italyan alimi Qaliley və polyak alimi Kopernik məlumat vermişdir. Bu hadisələr miladın 16-17-ci əsrlərinə təsadüf edir. Qaliley kilsənin təzyiqləri altında tövbə edib öz iddialarından əl çəkdi. Quran isə Qalileydən 1000 il əvvəl bir çox ayələrində yerin hərəkəti haqqında xəbər vermişdi.[1]

Bəzi təfsirçilər dağların hərəkəti dedikdə, sur üfürülməsindən sonra onların dağılmasının nəzərdə tutulduğunu bildirirlər. Onlar belə bir mənaya əsasən ayədən digər nəticələr də çıxarırlar.[2]

**Bildirişlər**

1. Kainat hərəkətdədir. Hətta tərpənməz görünən dağlar da hərəkət edir.
2. Dağların hərəkəti haqqında verilən məlumatlar Quranın elmi möcüzələrindəndir.
3. Dağların hərəkəti yerin hərəkətindən ayrı deyil. Deməki, yer də hərəkət edir.
4. Dağlar da buludlar kimi sürətlə hərəkət edir. Belə bir hərəkətlə yerin aram dayanması ilahi nişanələrdəndir.
5. Dağların hərəkəti Allahın hikmətli qüdrət nişanələrindəndir.
6. İlahi dünyagörüşündə hər şey öz yerində möhkəmdir.

### *AYƏ 89:*

﴿مَن جَاء بِالْحَسَنَةِ فَلَهُ خَيْرٌ مِّنْهَا وَهُم مِّن فَزَعٍ يَوْمَئِذٍ آمِنُونَ﴾

**“Yaxşı iş gətirən üçün əməlindən üstün mükafat olacaq. Onlar həmin günün qorxusundan amandadırlar.”**

### *AYƏ 90:*

﴿وَمَن جَاء بِالسَّيِّئَةِ فَكُبَّتْ وُجُوهُهُمْ فِي النَّارِ هَلْ تُجْزَوْنَ إِلَّا مَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“Pis iş gətirən kəs üzü oda başıaşağı buraxılar. (Onlara deyilər:) «Yoxsa sizə gördüyünüz işlərdən artıq cəza verilir?»”**

---

[1] “Təfsiri-nümunə”.

[2] “Təfsire-rahnoma”.

**Nöqtələr**

●“Kubbət” dedikdə başıaşağı buraxılma mənası başa düşülür.

●Günah yolla duyulan ləzzətlər, tüğyanlar və sərtliklər Qiyamətdə odda yanmaqla zillət və xarlığa çevriləcək.

●Quranın bərəkətlərindən biri budur ki, hamı üçün səadət yolu açmış və buyurmuşdur: “Yaxşı iş görənə gördüyü işdən üstün mükafat əta olunar.” Mükafatlanmada yaş, millət, cinsiyyət nəzərə alınmaz. Yaxşılıq mütləq mənada verilmiş və ayədə bütün yaxşılıqlar nəzərdə tutulmuşdur. Haqq rəhbərin qəbulu, haqq yolun qəbulu, haqq sözün qəbulu. Xeyirli peşə, doğru seçim də bu qəbildəndir. Sadalananlardan bəzilərinə rəvayətlərdə işarə olunmuşdur. Amma riya, qürur, eqoistlik və günah yolla gerçəkləşməyən, son məqsədədək qorunan hər bir xeyir iş üçün ikiqat mükafat nəzərdə tutulmuşdur.

●Ötən iki ayədə oxuduq ki, sur üfürüldükdən sonra Allahın istədikləri istisna olmaqla hamı qorxuya düşər. Hazırkı ayələrdə isə istisna olunanlar açıqlanır: Etdiyi yaxşı əməli Qiyamət səhnəsinə gətirənləri Allah bu qorxudan xilas edər!

**Bildirişlər**

1. Allahın xeyir işlərimizdən xəbərdarlığı xeyir işə təşviq amilidir.
2. Dünyada xeyir iş görməkdən də mühümü onu Qiyamət səhnəsinə aparıb çıxarmaqdır.
3. Gələcək bizim öz əməllərimizdən asılıdır. (Hər bir əməlin əks-sədası var.)
4. Yaxşılığı pislikdən öncə bəyan edək.
5. Yaxşılığın genişlənməsi üçün yaxşıları təşviq etmək zəruridir.
6. Təşviq və xəbərdarlıq yanaşı olduqda səmərə verir.
7. İlahi mükafatlar gördüyümüz işlərdən üstün olur.[1]
8. Xeyirxahlıq Qiyamətdə qurtuluşa səbəb olur.
9. İlahi mükafatların üstünlüyü mütləqdir. Bu mükafatlar zaman baxımından əbədi, miqdar baxımından əməldən qat-qat artıqdır.
10. Əzabdan da pisi alçalma, xarlıqdır.
11. İlahi cəzalar bizim öz əməllərimizin əks-sədası və təcəssümüdür. Bəli, haqqı eşitdikdən sonra arxa çevirənlər həmin gün üzü üstə cəhənnəmə atılar.
12. İlahi mükafatlar bir neçə qat artıq olur. Cəzalar isə bərabər və ədalətlidir.
13. Məad cismanidir.
14. İnsanın əməlləri Qiyamətdə təcəssüm edib yaxadan yapışır.

---

[1] “Səba”, 37; “Bəqərə”, 245; “Ənam”, 16.

*AYƏ 91:*

﴿إِنَّمَا أُمِرْتُ أَنْ أَعْبُدَ رَبَّ هَذِهِ الْبَلْدَةِ الَّذِي حَرَّمَهَا وَلَهُ كُلُّ شَيْءٍ وَأُمِرْتُ أَنْ أَكُونَ مِنَ الْمُسْلِمِينَ﴾

**“(Ey peyğəmbər! De ki,) Allahın möhtərəm saydığı bu şəhərin Rəbbinə pərəstiş etmək mənə əmr olunub. Hər şey yalnız Onun üçündür. Mənə təslim əhlindən olmaq əmr edilib.”**

**Nöqtələr**

●Məkkə müsəlmanlar tərəfindən fəth olunan gün Allahın rəsulu (s) Kəbəyə daxil oldu və bütləri sındırdı. Həzrət həmin vaxt Kəbə astanasında buyurdu: “Allah ilk gündən Qiyamətədək Məkkəni möhtərəm buyurmuşdur.”[1]

**Bildirişlər**

1. Peyğəmbər Allah əmrinə tabedir.
2. Təbliğatçı xalqa öz qətiyyətini elan etməli və deməlidir ki, xalq iman gətirsə də, gətirməsə də o öz yolunu davam etdirəcək.
3. Heç kəs, hətta Allahın rəsulu hansısa şəraitdə ibadətdən ehtiyacsız olmur.
4. İbadət insan zövqünə yox, Allah əmrinə əsaslanmalıdır.
5. Yalnız ibadətdə öncül olanların xalqı ibadətə çağırmaq haqqı var.
6. Bəndəlik qəlbən təslimliklə müşayiət olunmalıdır.
7. Allaha bəndəlik fəlsəfəsi onun rübubiyyət və malikiyyətidir.
8. Həm özünüzü kamala çatdırın, həm də kamillər zümrəsinə qatılın.
9. Hər şey Allahın tərbiyəsi altındadır.
10. Məkkənin xüsusi ehtiramı və məqamı var.

*AYƏ 92:*

﴿وَأَنْ أَتْلُوَ الْقُرْآنَ فَمَنِ اهْتَدَى فَإِنَّمَا يَهْتَدِي لِنَفْسِهِ وَمَن ضَلَّ فَقُلْ إِنَّمَا أَنَا مِنَ الْمُنذِرِينَ﴾

**“(Mənə əmr olunub ki,) Quran tilavət edim. Hidayəti qəbul edən öz xeyrinə qəbul etmişdir. Hər kəs yolunu azsa, de ki, mən yalnız qorxudan peyğəmbərəm.”**

---

[1] “Təfsire-kənzud-dəqaiq”.

**Nöqtələr**

●Surənin başlanğıcında Quranın əhəmiyyətindən danışıldı. Onun sonu da Qurani-Kərimdən söz açır. Quran öz tilavəti haqqında buyurur: “Ey peyğəmbər! Biz üç şeyə şahidik: Sənin bütün işlərinə, Quran tilavətinə, xalqla görülən bütün işlərə.”[1] Quran tilavətinin Peyğəmbərin (s) və xalqın işi ilə bir cərgədə dayanması onun böyük əhəmiyyətini göstərir.

**Bildirişlər**

1. Quranı gətirən özü də tilavət əhli olmalıdır.
2. Tövhidin bəyanından sonra həzrət Peyğəmbərin (s) ən mühüm işi xalqa ilahi ayələrin tilavəti idi.
3. Təbliğ mehvəri Quran olmalıdır.
4. Təbliğatçının vəzifəsi həqiqəti çatdırmaqdır. Xalqın qəbul edib-etməməsi onların öz işidir.
5. Quran tilavəti hidayət üçün müqəddimədir.
6. Xalqın iman gətirib-gətirməməsi onların özü üçün xeyirli və ya ziyanlıdır.
7. Yolunu azanlara görə Peyğəmbər məsuliyyət daşımır.

***AYƏ 93:***

﴿وَقُلِ الْحَمْدُ لِلَّهِ سَيُرِيكُمْ آيَاتِهِ فَتَعْرِفُونَهَا وَمَا رَبُّكَ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ﴾

**“De ki, həmd-səna Allah üçündür. O tezliklə Öz ayələrini sizə göstərəcək və siz Onu tanıyacaqsınız. Rəbbiniz sizin gördüyünüz işlərdən xəbərsiz deyil.”**

**Nöqtələr**

●Allaha sitayiş üçün ən üstün təbir “əlhəmdulillah” təbiridir. Allaha bu sayaq sitayiş etmək həzrət Peyğəmbərə (s) dəfələrlə tapşırılmışdır. Bütün müsəlmanlar da öz növbəsində hər gün “Həmd” surəsini təkrarlamalıdırlar.

***Ey qafil, silkələn, durmaq vaxtıdır,***
***Ölüm astanada, yuxu aldadır.***
***Var-dövlət haqqında düşündükcə sən,***
***Ömür adlı dövlət çıxır əlindən.***
***Su kəmərə çatdı, çalış yubanma,***
***Sel başdan ötəndə ömrünə yanma.***
***İsgəndər aləmə versə də fərman,***
***Aləm yaddan çıxdı ölüm gələn an.***
***Bil vaxtı çatanda bu yer, bu aləm,***

---

[1] “Yunus”, 61.

***Saxlayası deyil səni bircə dəm.*** [1]

**Bildirişlər**

1. İlahi risalət bir lütfdür və ona görə şükür etmək lazımdır.
2. İlahi nişanələrdən burayadək gördükləriniz onların yalnız bir hissəsidir. Gələcəkdə başqa nişanələr də göstəriləcək.
3. Allahın verdiyi möhləti Onun üçün qəflət nişanəsi saymayın.
4. Allahın daimi nəzarəti Onun rübubiyyət şənindəndir.
5. İnsan əməlləri qarşısında məsuliyyət daşıyır.
6. Müxaliflərin küfr və şirkinə görə nigaran olma.

Əlhəmdulillahi Rəbbil-aləmin.

[1] Sədi.

**Mündəricat**


ÖN SÖZ ... 4
HƏMKARLAR ... 4
İMTİYAZLAR ... 5
AYƏTULLAH HACI SEYYİD MEHDİ RUHANİDƏN BİR NEÇƏ XOŞ SÖZ ... 6
MÜƏLLİFDƏN ... 8
“HƏCC” SURƏSİ ... 9
(22-Cİ SURƏ, 78 AYƏ) ... 9
ON YEDDİNCİ CÜZ ... 9
“HƏCC” SURƏSİNİN SİMASI ... 9
“MUMİNUN” SURƏSİ ... 53
(23-CÜ SURƏ, 118 AYƏ) ... 53
ON SƏKKİZİNCİ CÜZ ... 53
“MUMİNUN” SURƏSİNİN SİMASI ... 53
ƏMANƏTİN ƏHƏMİYYƏTİNİ GÖSTƏRƏN RƏVAYƏTLƏR. ... 57
KAFİRLƏRİN ŞÜARLARI ... 67
“NUR” SURƏSİ ... 95
(24-CÜ SURƏ, 64 AYƏ) ... 95
ON DOQQUZUNCU CÜZ ... 95
“NUR” SURƏSİNİN SİMASI ... 95
BAXIŞ HAQQINDA RƏVAYƏTLƏR ... 116
“FURQAN” SURƏSİ ... 147
(25-Cİ SURƏ, 77 AYƏ) ... 147
ON SƏKKİZ, ON DOQQUZUNCU CÜZLƏR, ... 147
“FURQAN” SURƏSİNİN SİMASI ... 147
ON DOQQUZUNCU CÜZ ... 160
“TƏRTİL” NƏDİR? ... 168
“RƏSS” SƏHABƏLƏRİ KİM İDİ? ... 171
“ŞUƏRA” SURƏSİ ... 196
(26-CI SURƏ, 227 AYƏ) ... 196
ON DOQQUZUNCU CÜZ, ... 196
“ŞUƏRA” SURƏSİNİN SİMASI ... 196
ŞER VƏ ŞAİRLƏR ... 258
“NƏML” SURƏSİ ... 261
(27-Cİ SURƏ, 93 AYƏ) ... 261
ON DOQQUZ, İYİRMİNCİ CÜZLƏR ... 261
“NƏML” SURƏSİNİN SİMASI ... 261
ZİYANKARLARIN SİMASI ... 263
QURANDA ATƏŞ ... 265
ALLAHIN XÜSUSİ TƏLİMLƏRİ ... 269

ƏMİRƏLMÖMİNİN (Ə) VƏ ƏHLİ-BEYTİN FƏZİLƏTLƏRİ ................................ 285
İYİRMİNCİ CÜZ.......................................................................................................... 296
ALLAHA İMANIN KÖKÜ ........................................................................ 300
HƏYAT MƏRHƏLƏLƏRİ.......................................................................... 309
BİR İRADA CAVAB ................................................................................ 309
İKİ SUAL ................................................................................................ 311
İSTİRAHƏT, ARAMLIQ VASİTƏLƏRİ ................................................... 314